*Redaкtoru:* **Məsiağa Məhəmmədi**

**Ə.Hacızadə. Əsərləri, X cilddə, IX cild**, Bakı, «Nafta-Press», 2005, 483 səh.

Yazıçı Əlibala Hacızadənin bütün əsərlərini əhatə edən X cildliyinin IX cildinə müəllifin publisistik düşüncələri, müsahibələri, müəllif haqqında məqalələr və ona həsr edilmiş şerlər daxil edilmişdir.

$$\text{H}\frac{4702060000-9}{071(2005)}$$ **Qrifli nəşr**

**© «Nafta-Press» nəşriyyatı, 2005**

# Ə.HACIZADƏ VƏ MƏTBUAT

# GÖRKƏMLİ XEYRİYYƏÇİ, ƏZİZ ELOĞLUM GÜLAĞA QƏNBƏROVA

## A Ç I Q   M Ə K T U B

### Əzizim Gülağa bəy!

Salam!

Yəqin mənim bu məktubumu oxuyanda çox təəccüblənəcəksən. Ən azı ona görə ki, indiyə qədər nə sən məni görübsən, nə mən səni və təbii ki, bir yerdə oturub bir stəkan çay da içməmişik. Bir də "eloğlum" sözünə təəccüblənəcəksən. Mən sənin Masallıdan, Ərkivandan pərvazlandığını lap bu günlərdə bilmişəm. Məlumat üçün deyirəm ki, mən Biləsuvardanam. Ancaq bu məktubu sənə Biləsuvardan olduğumu demək üçün yazmıram. Bunun səbəbi tamam başqadır. Bunun səbəbi ürəyimi dolduran qürur hissidir; elə bir qürur hissi ki, mən hələ indiyənəcən belə bir duyğu yaşamamışdım, belə sevinib kövrəlməmişdim. Bu dolaşıq-çalpaşıq dünyamızın gərdişindən, onun mənim qarşıma çıxartdığı bəzi namərd, yalançı, riyakar və qeyri-səmimi insanlardan küsüb məyus olduğum günlərin birində yeganə həmdəmim olan televizorla dərdləşərkən birdən sənin haqqında hazırlanan süjetə rast gəldim və sənin həyat, iş və əməllərinin müəyyən fraqmentləri ilə tanış oldum. Həm sevindim: elə bil ürəyimə gün doğdu. Üzüm, gözlərim nurlandı ki, sənin kimi bir eloğlum var. Həm də təəcübləndim; niyə sənin kimi gözəl, xeyirxah, ürəyi bu torpağa məhəbbət dolu, zirəng, qabliyyətli, istedadlı bir alimi, insanı, ana yurdunun övladlarını dərin bir duyğu ilə sevən, onların dar günündə, çətin anlarında əlindən tutan və özü də bunları təmənnasız edən, əvəzində heç nə ummayan Hatəm Xan kimi səxavətli bir eloğlumuzu, xalqımızın böyük oğlu Hacı Zeynalabdin Tağıyevin ləyaqətli davamçısı olan bir mesenatı tanımamışam? Və bir az da heyrətləndim; özümdəki biganəliyə, laqeydliyə heyrətləndim; niyə biz yaxşılarımızı, bu millət üçün canıyananlarımızı görmürük, qiymətləndirmirik, xalqa tanıtmırıq? Axı başqa millətlər belə eləmir!

Bunlar mənim mavi ekranda-sənin haqqında gedən verilişə baxa-baxa düşündüklərimdi.

Kadrlar isə bir-birini əvəz edirdi.

Sən Şüvəlanda - lal və kar uşaqların sığınıb təlim-tərbiyə aldığı 3 saylı internat məktəbindəsən. O məktəbi mən də görmüşəm. Uzun

illər bundan qabaq. Ona heç məktəb də deməyə adamın dili gəlmir. Sən bir inşaat mühəndisi kimi məktəbin kollektivinə beynində yaratdığın, təsəvvür etdiyin yeni məktəb layihəsini, yeməkxanası, yataqxanası ilə birikdə təsvir edirsən və onun yerində təzə bir məktəb tikdirəcəyini - özü də nə az, nə çox - smeta dəyəri 700 min dollar olan bir kompleks ucaldacağını deyirsən və bir də onlar üçün açdığın zəngin süfrə. Hər bir şagirdə verdiyin geyim-kecim töhvələri…

Bu kadrlara baxanda mənim gözlərim qeyri-iradi yaşardı. Taleləri bəd gətirmiş, ürəyinin sözünü deyə bilməyən, dünyanın gözəl səslərini dilinə gətirmək, eşidib ləzzət, həzz almaq zövqündən məhrum olan bu zavallı balalarımızı bunca sevindirmək heç bilirsənmi nə boyda savab işdir, qardaşım?! Onların üzü gülürdü, ürəkləri nəğmə oxuyurdu. Onlar sənə dərin, son dərəcə dərin bir minnətdarlıq hissi ilə baxırdılar. Onların ürəyinin minnətdarlıq sözləri gözlərinə yazılmışdı, əllərinin hərəkəti ilə dil açıb danışırdı onlar! O sözləri tərcümə etmək çətindi, o sözləri gərək ancaq duyasan.

Bax, həmin anlarda- mənim üçün çox sarsıntılı, həm sevinc, həm də kədər dolu o anlarda, üz-gözlərində gizli, deyərdim ki, əbədi bir məyusluq həkk olunmuş o körpə, taleyi kəm uşaqları seyr etdiyim o anlarda mən səni bir böyük insan kimi sevdim, vuruldum sənə, Gülağa bəy! Görməzə, tanımaza, bilməzə vuruldum, inan, qardaşım! Dünyadan incikliyim, insanlardan küskünlüyüm yox olub getdi o saniyələrdə, qəlbimə, gözlərimə bir işıq seli axıb doldu, dünyaya, insanlara bir sevgi doğuldu. Və mən buna görə sənə minnətdaram, Gülağa bəy! Çünki bir gündə, bir neçə saat və dəqiqə ərzində bu qədər küskün qəlbi sevindirmək, xoşbəxt eləmək hər oğulun işi deyil və bu, necə deyərlər, cənnətin sakini olmağa bərabərdir.

Sonra… sonra mətbuatda sənin haqqında çıxan bəzi yazılar əlimə keçdi və çox sevindim. Alim dostum Rasim Nəbioğlunun "İnsan var ki…", Seymur Şirvanlı və Nemət Həsənlinin "Dünya xeyirxahların çiynindədir" və s. məqalələri oxuyub sənin haqqında daha çox bilgi əldə elədim.

Sən demə, sən Moskva hökumətinin də üzvü imişsən. Sən demə, sən doğulub boya-başa çatdığın Ərkivan kəndində "Qoç türbəsi" qəbristanlığını abadlaşdırmaqla camaatın dünyasını dəyişənlərinin ruhunu şad etmisən, kəndə yaxşı, rahat yol çəkdirməklə camaatı sevindirmisən və "Şəhidlər bulağı" xatirə kompleksini tikdirmisən… Və bununla Vətən yolunda canlarından keçən oğullarımızın xatirəsini əbədiləşdirmisən.

Bunlar necə gözəl işlərdir, qardaşım. Bu işləri görməklə sən özünə bir ölməzlik abidəsi ucaltmısan-bu abidə hələlik ürəklərdə, xatirələrdə ucalır və nəsildən-nəsilə keçərək əbədiləşəcəkdir.

Sən demə, bizim hər birimizdən yaxşı Allah adamı imişsən, Gülağa bəy! Bizim tərəflərdə müqəddəs islam dini, başqa tərəflərə nisbətən, daha güclüdür və buna görə də bizim yerlərin adamları daha insaflı, daha ədalətli və Allah dərgahına daha yaxındır, oğurluq, fitnə-fəsad daha azdır. Sən belə bir mühitdə dünyaya göz açmısan və tərbiyə almısan. Ürəyimdən gizli bir nisgil də keçdi ki, onu deməkdən özümü saxlaya bilmirəm. Kaş sənin qibləgahın- doğma atan Məmi kişi sağ olaydı və sənin bu məqamını öz gözləri ilə görəydi. Bilirsən, necə sevinərdi, necə xoşbəxt olardı? Görsəydi, bəlkə də ölməzdi.

Sonra…Sonra doğma Ərkivan kəndində səninlə görüş. Doğma məktəb, əziz müəllimlər -mən baxırdım: sənin əziz müəllimlərin necə sevinirdilər, necə xoşbəxt idilər, ilahi!

Sən onları o uzaq illərə qaytarmışdın öz gəlişinlə, sən dönüb təzədən uşaq olmuşdun, onlar dönüb cavanlaşmışdılar.

O səhnəni seyr edəndə mənim müəllimlərimə həsr etdiyim "Dünyanı tanı" romanım yadıma düşdü. Anladım ki, sən də elə mənim kimi düşünürsən: "Mənə ömrüm boyu istər orta məktəbdə, istər ali məktəbdə, istərsə də həyat və sənət məktəbində həyat və sənət dərsi vermiş o əziz adamların, unudulmaz və mehriban müəllimlərimin canlı, düşünən, yaşayan və yaşadan, hər dəqiqə xatırlayan və xatırladan bir əsəri, bir kitabı sanmışam özümü. Hər kitabımın üstündə mənim adımdan da qabaq, məndən yuxarı başda onların adı yazılıb-oxunmaz, gözəgörünməz hərflərlə yazılıb. Bunu kimsə görə bilməsə də, oxuya bilməsə də, mən özüm çox yaxşı görmüşəm, çox aydın oxumuşam"

Çox sağ ol ki, müəllimlərini unutmursan. Unutsan, səni də unudarlar.

Mən Ərkivanda bir neçə dəfə olmuşam. Düzü, elə gözəl görünməmişdi mənə o zaman. Ancaq indi…İndi o kənd gözəl idi. Sənin gəlişin gözəlləşdirmişdi Ərkivanı. Novruz bayramı hər yerdə gözəldi. Ancaq Ərkivanın bu dəfəki Novruzu daha da gözəl olmuşdu. Onu-- o bayramı sənin gəlişin, sənin hədiyyələrin, sənin diqqətin gözəlləşdirmişdi. Sənin çıxışın isə sadə idi, məhəbbətlə dolu idi. Ancaq bir sözün ürəyimi ağrıtdı; sən dedin: "1990-cı ildə də gəlmişdim Azərbaycana. Neçə milyon dollar pul gətirmişdim xeyriyyə işləri üçün,

xalqımıza kömək etmək üçün. Ancaq o pulu … yedilər. Və mən inciyib getdim".

Sənin bu sözlərin yadıma bir əhvalat saldı. Elə təxminən həmin dövrdə, respublikada hərc-mərclik hökm sürdüyü zaman Amerikadan, əslən Təbrizli olan Cəlal adlı bir soydaşımız gəlmişdi. Milyarder idi, mədəniyyətimizin, xüsusən kinomuzun inkişafına yardım etmək üçün sərmayə buraxmaq istəyirdi. Kinostudiya açmaq arzusunda idi. Mənə dedi ki, bir yaxşı ofis tap, alaq. Ancaq özü məndən tez tapdı 6 milyon manata. Onun alqı-satqısına qol çəkməli olan bir məmur Cəlaldan 12 milyon manat "şirinlik" istəmişdi. O isə elə kabinetdə sənədləri cırıb atmış və tüpürüb çıxmışdı. Allah, bəzən tamahımız Həzrət Əlinin qılıncından iti olur. Cəlal elə o gedən getdi, daha Azərbaycana qayıtmadı. Amma sən qayıtdın. Çünki bura sənin öz vətənindir. Vətəndən isə küsmək olmur. Sən o çıxışında bir söz də dedin: "Möhtərəm prezidentimiz iş adamlarına "Azərbaycana, xalqımıza kömək etmək lazımdır" deyə müraciət edəndə mənim gözlərim yaşardı. Və mən Azərbaycanımıza gəldim."

Bu sənin ürəyindir danışır, Gülağa.

Sən ey üzünü görmədən sevdiyim Allah adamı, Allah səni qorusun!

*Əlibala Hacızadə*

## OĞULLUQ BORCU

### Görkəmli yazıçı, kövrək insan, müdrik eloğlum Əlibala Hacızadənin açıq məktubuna

### CAVAB

Hörmətli Əlibala müəllim! Mən Sizi istedadlı bir yazıçı, şərqşünas alim kimi tanıyıram. Təbii ki, bu tanışlıq yazıçı Əlibala Hacızadədən başlayıb; 80-ci illərdə Sizin bir-birinin ardınca nəşr olunan «İtkin gəlin», «Əfsanəsiz illər», «Ayrılığın sonu yoxmuş» romanlarınızın sorağı Moskvaya da gəlib çatmışdı. Burada yaşayan soydaşlarımızın trilogiyanız haqqında danışdıqları məndə Sizin əsərlərinizə maraq oyatdı. Bu marağı birləşdirən başqa bir amil də vardı; axı mən də Sizin kimi başıbəlalı Əfqanıstan torpağında olmuşam. Siz bir şərqşünas alim və tərcüməçi kimi orada illərcə yaşayıb həyat materialları toplamış, o qədim yurdun qaynar təbiətli insanları, müxtəlif taleli adamları ilə ünsiyyətdə olmuş, ədəbiyyat tariximizdə özünəməxsus yeri olan, lazımi qiymətini almamış üç roman yaratmışsınız. Siz Əfqanıstanı, onun müxtəlif tərkibli vətəndaşlarının əxlaq, amal, əqidə və həyat istəklərini çox gözəl duyub qələmə almışsınız.

Bu romanlar silsiləsindəki bir motiv mənim varlığımı titrədib: Sizin qəhrəmanlarınızdan birinin soykökü Qarabağla bağlıdır və bunu qan yaddaşında qoruyan o epizodik qəhrəmanınız əslində əfqan torpağında Azərbaycanı təmsil edir, — deyə fəxrlə düşünmüşəm.

İş elə gətirib ki, mən də o torpaqda olmuşam, fəqət əldə silah… Bu da tale payıdır. Əsərlərinizi oxuduqca hadisələrin tarixi reallığa, milli-əxlaqi dəyərlərə bağlılığı məni heyrətdə qoyub. Elə oxucu maraq və məhəbbəti qazanmanın bir səbəbi müəllif təsvirinin reallığında, üslubunun şirinliyinin əfqan həyatı və məişətinin zənginliyini özündə əks etdirməsində, yazıçı dilinin əlvanlığındadır.

Təbii ki, bunlar adi bir iş adamının, inşaaçı-mühəndisin bir oxucu kimi təəssüratının ifadəsidir. Və mən Sizin yaradıcılığınız haqqında söz demək niyyətində deyiləm. O biri romanlarınızı («Təyyarə kölgəsi», «Dünyanı tanı» və s.) gözdən salmadan bir qeydimi bildirmək istərdim: trilogiya el marağı qazanmasaydı, onun motivləri əsasında serial çəkilməzdi…

İllərcə ürəyimdə gəzdirdiyim bu təəssürat-düşüncəmi Sizinlə bölüşə bildiyim üçün rahatlıq tapdım.

Və onu da qeyd edim ki, Sizin açıq məktubunuza cavab kimi qələmə aldığım bu sətirləri Moskva vaxtı ilə 03.05-də yazmağa başladım.

Bəli, mən Sizin romanlarınızı oxumuşam və Sizi cansız hərflərlə canlı həyat yaratmağa malik olan müdrik bir yazıçı kimi sevirəm, Sizə böyük hörmətim var. Və bu gün Sizin mənə ünvanlamış məktubunuzu oxuduqdan sonra yazıçı Əlibala Hacızadəyə olan hörmətimə insan əməllərinə qiymət verməyi bacaran, yaxşıya yaxşı, pisə-pis deməyə cəsarəti çatan, həqiqəti söyləyən bir müdrik insana olan ehtiramım əlavə olundu. Açıq məktubunuzu gecə saat 3 radələrində oxudum. Düzü, elə təsir bağışladı ki, telefona əl atdım. Məktubun sonunda qeyd olunmuş mobil telefon nömrəsini axıra qədər yığmadım; «axı indi Bakı vaxtı ilə 5-dir» — deyə düşündüm. — Şirin yuxudan bir təşəkkür üçün Sizi oyatmağa dəyərmi?» Dəstəyi yerinə qoydum. Cavab məktubu yazmağa qərar verdim. Yerimi rahatlayıb qələmi əlimə aldım və… yazı kağızı tapmadım. İş stolumun üstündə qalaqlanmış çertyoj vərəqlərindən birini götürdüm. İlk sətirləri yazandan sonra başa düşdüm ki, bu çertyojda tikintisinə başlayacağımız lal və zəif eşidənlər üçün internatın ayrı-ayrı mərtəbələrinin cizgiləri naxışlanıb (bu da bir tarixi məqammış). Sizinlə yazı vasitəsilə həmsöhbət olmağımla təsəlli tapıram.

Hörmətli Əlibala müəllim, Sizin təqdir etdiyiniz, televerilişdə informasiya çatdırılmış işlər mənim indiyə qədər gördüyüm və doğma Azərbaycan üçün görmək istədiyim işlərin kiçik bir hissəsidir. Bunu qeyri-təvazökarlıq kimi qəbul etməyəcəyinizə inanıram. Hələ 90-cı illərdən əvvəl və 90-cı illərin əvvəllərində Bakıya gəlmişəm… Lakin o vaxtlar məni və təbii ki, mənim kimiləri incidib narazı saldılar. Gətirdiyimiz maddi kömək və vəsait kimlərinsə ciblərinə axdı. Mən bundan sonra fəaliyyət mərkəzimi Moskvaya keçirdim. Azərbaycandan çıxıb çörək dalınca Rusiyaya gələn sənətkarları, mühəndisləri prezidenti olduğum firmada işə götürdüm. Bu gün onlar halal əməklə məşğul olur, ailələrinə yüksək səviyyədə maddi vəsait göndərirlər.

Azərbaycanlı balalarının (eləcə də Qafqazdan olan başqa xalqların) təhsil aldıqları məktəbdə də təmir işlərini bizim firma aparıb, təbii ki, sponsorların köməyi ilə.

Bunlar təbii vətəndaşlıq hissinin, vətənpərvərlik duyğusunun ifadəsidir.

Dünyanın tanınmış siyasi liderlərindən olan ölkə prezidenti cənab Heydər Əliyevin dünyanın müxtəlif yerlərində yaşayıb-çalışan soydaşlara müraciətindən sonra yenidən Bakıya gəldim. Ondan əvvəl doğma kəndin yolunu abadlaşdırmaq, canını Vətən uğrunda qurban vermiş şəhidlər üçün xatirə kompleksi ucaltmaq və s. işlərin görülməsində təşəbbüs göstərmişəm. Bunun üçün kimsədən minnətdarlıq eşitmək niyyətində deyiləm. Bu, adi kəndli balasının suyunu içib, havasını udduğu, torpağında boy atdığı Ərkivan adlı dünya içində «dünyaya» məhəbbətinin ifadəsidir.

İki ildir ki, hər axşam işdən sonra gecə saat 3-ə, 4-ə qədər Azərbaycan üçün görəcəyim işlər üzərində düşünür, plan cızır, yollar axtarıram.

İlk məqsədim Şüvəlandakı lal və zəif eşidən uşaqlar üçün müasir tipli, 3 mərtəbəli tədris və yataqxana korpusları inşa etdirməkdir. Böyük məbləğ tələb edən bu tikintinin layihəsi artıq hazırdır. Niyyətim budur ki, internat xalqımızın müdrik prezidenti cənab Heydər Əliyevin adını daşısın. Bu internatda sinif otaqları, kitabxana, idman zalları və s. olacaq, otaqlar müasir təlim texnikası və avadanlıqları ilə təchiz ediləcək.

Bakının Səbail rayonunda yerləşən, Peyğəmbərimiz Həzrət Məhəmmədin nəslindən olan Həlimə xanımın uyuduğu Bibiheybət qəsəbəsində Heydər Əliyev adına «Şəfa» təlim-tərbiyə və sağlamlıq kompleksi inşa etdirmək istəyirəm (Əslində bu kompleksə özgə ad da seçib qoymaq olar. Bu işdə Siz və yaradıcı soydaşımın məsləhətini qəbul etməyə hazıram). Bu tikinti işlərinin başlanması üçün dövlət səviyyəsində razılaşdırma olmalı, icazə verilməlidir. Bu işdə də mənə yardımçı olacaq hər bir nüfuzlu soydaşa, dövlət məmuruna əvvəlcədən təşəkkürümü bildirirəm. Bilirsiniz, belə işlərin həlli ilə bağlı mən tez-tez doğma respublikaya gələ bilmirəm. Onsuz da ürəyi şər iş üçün döyünənlər var və istəmirəm ki, yaşayıb çalışdığım, inkişafımda böyük rolu olan Rusiyada mənim haqqımda mənfi rəy yaransın. Yəni adi razılaşdırma sənədlərinin hazırlanması ilə bağlı problemlər sadəcə vaxt aparır. Halbuki bu xeyriyyə işləri Vətən üçündür, xalqın balaları üçündür.

İnşasını planlaşdırdığım «Şəfa» təlim-tərbiyə və sağlamlıq kompleksi 3 korpusdan ibarət olacaq. Birinci korpus kimsəsiz qocalar üçün hər şəraiti olan ev kimi nəzərdə tutulur. Onlara burada hər cür qayğı göstərirlər, tibbi yardım edirlər.

İkinci korpusda kimsəsiz uşaqların orta təhsil almaları, peşə öyrənmələri, idmanla məşğul olmaları üçün hər cür şərait yaradılması nəzərdə tutulub.

Həyatını, sağlamlığını xalqı üçün qoymuş müharibə əlilləri üçün ayrıca korpus inşa ediləcək.

Əlbəttə, bunlar ancaq bir arzudur, hələlik layihə üzərinə köçürülmüş bir istəkdir.

Hörmətli Əlibala Hacızadə!

Bildiyiniz kimi, mən Ərkivanda əlləri torpağa, ürəyi Allaha bağlı ailədə dünyaya göz açmışam. Hələ birinci sinifdə oxuyandan ailə qayğılarına çiyin vermişəm; qoyun-quzu otarmışam, bostanda çalışmışam… Moskvada çörəyim daşdan çıxıb. İşləyə-işləyə oxumuşam. Oxuya-oxuya özümün həyatımı qurmağa çalışmışam. Amma bir Allah şahiddir ki, həmişə qəlbim Vətənlə bağlı olub. Şair demiş, «gözüm gözünüzdən uzaq olsa da», könlüm bu yerlərdən bir gün belə ayrı döyünməyib. Və bu gün imkanım var ki, xalq üçün, Vətən üçün kiçik köməyimi edim.

Əlifba 32 hərfdən ibarətdi, müəyyən çərçivə daxilində mövcuddur. Görünür, buna görədir ki, ürək duyğularını, tam və mükəmməl şəkildə qələmə almaq, xalqa çatdırmaq mümkün deyil. Əsl insanın xalqına, dövlətinə, dünyaya göz açdığı elə-obaya olan dərin məhəbbətinin incəliklərini sözlə çatdırmaq mümkün deyil. Bundan ötrü o dərin məhəbbətin nəvazişi altında yaşamalısan! Vətən qeyrəti, elin qız-gəlinin namusu yolunda canlarını əsirgəməmiş, əbədiyyətə qovuşmuş mərd oğul-qızlarımız şan-şöhrət üçün silaha sarılmayıblar,

Əlibala müəllim! Onlar Vətən uğrunda döyüşüb həlak olublar, əlilə çevriliblər. Onlar hörmətə, qayğıya, ehtirama layiqdirlər. Amma bir çoxları yüksək kürsüdən odlu-alovlu danışmaqla xalqın gözündə ucalmaq istəyirlər. Bu boş sözlər Vətən üçün nə maddi köməkdir, nə də mənəvi stimul… Vətəndaşlığı, vətənpərvərliyi sözlə yox, əməllərinlə ifadə edəsən, təsdiq edəsən gərək!..

Bu sətirlərimi oxuyan bəzi dırnaqiçi vətənpərvərlər bilsinlər: mənim şan-şöhrətə ehtiyacım yoxdur. Həyatımı qurmuşam, bunu halal əməyimlə, zəhmətimlə etmişəm. Mənim üçün ən böyük xoşbəxtlik ölkə prezidenti cənab Heydər Əliyevin çağırışına qoşulub iş görmək, onun adını daşıyacaq internatda dilsiz-ağızsız, dünyanın min bir çalarlı səslərinin gözəlliyini duymayan uşaqların baxışlarında sevinci, məhəbbəti görməkdir. Bu məhəbbət və sevinci heç bir yazıçı, heç bir sözlə ifadə edib oxucuya, xalqa çatdıra bilməz.

Hörmətli Əlibala müəllim!

Məktubu burada bitirmək istərdim. Amma bir fikrinizə münasibətimi və bir faktı bir yaradıcı insan kimi Sizə çatdırmağı qərara aldım.

Yazırsınız ki, qibləgahın — atan Məmi kişi sağ olsaydı!.. Bu sözlər qəlbimin qaysaq tutmuş yarasını qopartdı. Atam vəfat edəndə mən kənddə olmamışam. Məni yandıran budur ki, ona oğulluq edə bilmədim.

Atama olan hörmət və məhəbbətimi də anama bəxş etmişəm. Onun könlü şad olsun, ürəyi sevinsin deyə hər cür şərait yaratmışam. Bunlar mənim övladlıq borcumdur. Gördüyüm bu işlərlə az-çox təsəlli tapıram.

Ana bətni bizim ilk yurdumuz, onun nəfəsi ilə isinən ev ilk müqəddəs yuva, ana ilə birgə uyuduğumuz torpaq əbədi məkanımızdır. Ana doqquz ay yükümüzü, dünyasını dəyişənə qədər qayğımızı çəkir, özü də laylalarla, oxşama və düzgülərlə bizim boyumuzu sevə-sevə.

Onların yaşadıqları yuxusuz gecələrin, narahat günlərin ağrı-acısını, övlad üçün zəhmətinin ağırlığını biz yaşaya bilmərik.

Ananın sevə-sevə bizi yuyundurub bir arpa boyu uzandığımızdan fərəhləndiyini heç duya bilməmişik. Onlara axirət gününə kimi borclu qalırıq, deyilmi, Əlibala müəllim?

Bu ilin Novruz bayramı ərəfəsində Bakıdakı evimdə idim. Anamla olub keçənlərdən, atamdan, doğmalardan doyunca danışıb yüngülləşdik. — Ana, gəlsənə səni yuyundurum, — deyəndə o, etiraz etdi: — O günü qulluqçu qadın çimizdirib, — dedi.

Mən təkid etdim. 71 yaşlı Xavər anamı vannada yuyundurdum. Ağ saçlarını qurulayıb daradım, hördüm. İllər boyu mənim, qardaş-bacılarımın yükünü daşımış, elin xeyir-şər işinə getmiş ayaqlarını ovub öpdüm. Anam boynumu qucaqladı, göz yaşları boyun-boğazına töküldü.

— Ana, sənin üçün nə edim ki, könlün şad olsun? — deyə soruşdum.

— Oğul, südümü sənə halal edirəm. Sən ki, bu bayram axşamı, əziz gündə mənə belə oğul qayğısı göstərib, övlad məhəbbəti ilə xidmət etdin, mənə dünyanı bağışladın…

Ey Vətən oğulları, ey övladlar, ana xoşbəxtliyi belə adi və təbii qayğıdan ibarətdirsə, onu niyə əsirgəyək?

Qaldı müəllimlərimə qayğı və kömək məsələsinə. Biz həyatdakı uğurlarımız üçün onlara borcluyuq. Mənə bir hərf öyrədənin ölüncə qulluğunda duraram, — kəlamını xatırlayaq. Qocalar və uşaqlar həyatda daha çox qayğı və köməyə möhtac olan varlıqlardır.

Hörmətli Əlibala müəllim, bilirsinizmi bu faktı niyə qələmə aldım? Ana ilə Vətən həmişə qoşa götürülüb, bilirik. Vətən də anam kimi bizdən qayğı, kömək, nəvaziş istəyir. Mən Azərbaycan üçün gördüklərimi adi övlad qayğısı, nəvazişi bilirəm, bunu özümə borc sayıram.

Ümidvaram ki, məktubumu səmimi qarşılayacaq, arzularımı reallaşdırmaqda bir ziyalı, bir yaradıcı, bir ağsaqqal kimi yardımçı olacaqsınız.

*Dərin hörmət və sayqılarla*
***Gülağa Qənbərov,***
*Moskva Şəhər Dumasının üzvü*

## APARICI: KİTABLARIN DA ÖZ TALEYİ VAR

Yazıçı Əlibala Hacızadə

Musiqi. Yazıçının «Gənclik» nəşriyyatında çıxmış «Dünyanı tanı» romanının üz qabığı. Kitab vərəqlənir, müəllifin portreti. Daha bir səhifə çevrilir. Diktor müəllifin kitaba yazdığı ön sözü oxuyur.

Diktor: Bu şirin və gözəl dünyaya gəlib yaşayan bütün insanlar kimi, mənim də çox müəllimim olub — biri əlifba öyrədib, biri hesab, biri dil öyrədib; birindən düzlük, təmizlik, birindən qorxmazlıq, mərdlik; birindən hikmət və sənət, birindən ədalət və insaf öyrənmişəm. Biri qəlbini şam kimi əridib qəlbimdə ədəbiyyat, əbədiyyət çırağı yandırıb və o çırağı vaxtsız-vədəsiz əsən yellərdən qoruyub, sönməyə qoymayıb.

Bir sözlə — mənə ömrüm boyu — istər orta məktəbdə, istər ali məktəbdə, istərsə də həyat və sənət məktəbində həyat və sənət dərsi vermiş o əziz adamların — unudulmaz və mehriban müəllimlərimin canlı, düşünən, yaşayan və yaşadan, hər dəqiqə xatırlayan və xatırladan bir əsəri, bir kitabı sanmışam özümü. Hər kitabımın üstündə mənim adımdan da qabaq, lap yuxarı başda onların adı yazılıb — oxunmaz, gözəgörünməz hərflərlə yazılıb. Bunu kimsə görə bilməsə də, oxuya bilməsə də, mən özüm çox yaxşı görmüşəm, çox aydın oxumuşam. Və ürəyim dünyanın isti-soyuğunu duyandan və ağlım sirlərini və hikmətlərini dərk edəndən bəri qəribə bir sıxıntı və eyni zamanda fərəh içində həmişə onlara — öz doğma müəllimlərimə borclu olduğumu düşünmüşəm və gizli bir nisgillə fikirləşmişəm ki, ata-ana borcu kimi, müəllim borcundan da çıxmaq çox müşkül bir işdi və bəlkə də heç mümkün deyil. Ancaq ürəyim bu hökmlə barışmaq istəməyib, heç cür barışmaq istəməyib. Ona görə uzun illərdən bəri məni rahat buraxmayan bu işıqlı və həm də əzablı duyğuların qoynunda isinə-isinə o müqəddəs insanların mənim ömür dünyamda öz əlləri, qayğı və məhəbbətləri isə yaratdıqları bu balaca söz gülüstanımdan onlara layiq kiçik bir gül dəstəsi hazırlamışam; indi bu gül dəstəsini ürəyim və əllərim əsə-əsə, dərin minnətdarlıq hissilə müəllimlərimə bağışlayıram: dünyadan köçmüşlərin məzarı üstünə, sağ qalanların isə yazı masası üstünə qoyuram bu kiçik gül dəstəsini.

«Ön söz» sona yetir. Kitabdan daha bir səhifə çevrilir. Ekranda yazı: «Proloq». Aktyor romanın proloqunu söyləyir.

Aktyor: «— Canım, belə də iş olar? Tanrının qorxusundan yalan danışmaq olmur, bəndənin qorxusundan doğru! — söylədi qoca.

Nəzər müəllimin ağ, pırpız qaşları az qala alnının ortasına qalxdı; sinə dolusu köks ötürüb saçları qar kimi ağarmış başını kədərli-kədərli tərpədib:

— Yaxşı söz dedin, qoca! — dedi — Ancaq sözünün yarısı ilə razıyam, yarısı ilə yox.

— Niyə ki?

— Deyirsən, tanrının qorxusundan yalan danışmaq olmur. Bax, bununla razı deyiləm. Bilirsən niyə? Ona görə ki, indi adamların ürəyində tanrı qorxusu qalmayıb, bir zərrə də qalmayıb, kişi. Onun üçün də adamlar o tanrı dediyindən əsla qorxmadan, çəkinmədən hər cür yalan danışırlar. Təkcə yalan danışmaqla kifayətlənmirlər, qoca, hətta utanmadan, qızarmadan, vicdan əzabı çəkmədən yalan da yazırlar, kişi! Amma bəndənin qorxusu! Bax, bunu çox düz deyirsən! Həqiqətən bəndənin qorxusundan doğru danışmaq olmur. Əgər kişisənsə, hünərin varsa, bir vicdansızın, bir bürokratın, bir oğrunun — əyrinin birinin gözünün içinə: «Sən vicdansızsan, sən bürokratsan, sən oğrusan — əyrisən!» de, onda gör iki barmağıyla bax belə — o, sağ əlinin iki barmağını açıb irəli uzatdı — sənin gözlərini necə deşərlər. Mənim gözlərimi deşən kimi! Qoca, Nəzər müəllimin gözlərinə altdan yuxarı diqqətlə baxdı; yox, gözləri yerindəydi. Ancaq bir az da fəhmlə nəzər yetirəndə gördü ki, o qonur, o nurlu gözlərin dərinliyində qəribə, sonsuz bir kədər yatır!»

Aparıcı stolun üstündəki kitabı götürüb baxır və yazıçıya müraciət edir.

Aparıcı: — Əlibala müəllim. Yazıçı üçün kitab sevinci əvəzsiz bir sevincdir. Yeni romanınız — «Dünyanı tanı» romanınızdan hələ mətbəə qoxusu gəlir. Yəqin ki, nəşriyyat və mətbəə işçilərindən sonra onu beləcə ələ götürən ilk adam sizsiniz. Təbrik edirik. Arzu edirik ki, əvvəlki kitablarınız kimi, bu romanınız da oxucuların qəlbinə yol tapsın, sevilsin və sizə çoxlu məktublar gətirsin.

Ə.Hacızadə: — Çox sağ olun. Arzunuz çin olsun!

Aparıcı: Deyirəm söhbətimizə elə bu romandan, onun yazılmasından, adından, tarixçəsindən başlayaq.

Ə.Hacızadə:

Bu romanı mən, demək olar ki, bütün ömrüm boyu — lap cavanlıq çağlarımdan üzü bəri həyat yollarında rast gəldiyim, müşahidə elədiyim, tanıdığım adamların taleləri və bildiyim hadisələr əsasında yazmışam və bu mənada deyə bilərəm ki, bu kitabın əsil yaradıcısı həyat özüdür. Burada qondarma, quraşdırma heç nə yoxdur. Çalışmışam ki, son dərəcə mürəkkəb, ziddiyyətli, bəzən lap anlaşılmazlıq məqamına gəlib çatan həyatı, dünyanı və ən başlıcası isə insan münasibətlərini olduğu kimi qələmə alım. Ətrafımızda cərəyan edən gizli-aşkar prosesləri görmək, onların hara getdiyini, nə ilə nəticələnəcəyini irəlicədən duymaq, səhv etməmək üçün sən gərək ixtisasından, peşəndən asılı olmayaraq öz səviyyəndə hardasa bir az filosof olmalısan ki, sənə bircə dəfə verilmiş ömrü axırda peşimançılıq hissi keçirmədən başa vura biləsən.

Dünya həmişə olduğu kimi, indi də mərdlər və namərdlər dünyasıdı, dünya — yaxşılıqlar və pisliklər dünyasıdı, vicdanlılar və vicdansızlar dünyasıdı.

Mən bu romanda təsvir elədiyim adamların talelərindən onların düşdüyü yaxşı-pis vəziyyətlərdən çıxış edərək öz gənc oxucularıma yaşadıqları bu dünyanın ictimai-siyasi mahiyyətini imkanım daxilində izah eləməyə çalışmışam və romanın adı da buradan meydana gəlmişdir. Sən içində, qoynunda yaşadığın, vuruşduğun, sevib xoşbəxt olduğun, sevilməyib bədbəxt olduğun, aldandığın və aldatdığın, əzdiyin və əzildiyin bu qəribə və maraqlı dünyanı yaxşı tanı.

Mən bu romanı həyatımızın sosial həqiqətlərini tədqiq və təhlil edə-edə, oxucularımı mərd, mübariz olmağa, haqsızlıq — ədalətsizlik qarşısında əyilməməyə, əliaçıq, üzüağ yaşamağa çağırış hissi ilə, xalqımızın maddi və mənəvi sərvətlərini talan edənlərə, insanların həyata, xeyirxahlığa, düzlüyə olan inamını öldürənlərə qarşı dərin nifrət hissi ilə yazmışam.

Aparıcı: Bu sizin neçənci romanınızdır? Əvvəlki romanlarınızla bu roman arasında bir yaxınlıq varmı? Birinci növbədə mövzu yaxınlığı.

Ə.Hacızadə: Bu, mənim çap olunmuş altıncı romanımdır. Ancaq mövzu cəhətdən bu, əvvəlki romanlarımdan, xüsusən «İtkin gəlin» trilogiyamdan tamam fərqlənir. Bildiyiniz kimi, o trilogiya əfqan mövzusundadır. «Dünyanı tanı» hardasa mənim ziyalılar aləmindən bəhs edən «Təyyarə kölgəsi» romanımla səsləşir. Burada şəhər ziyalılarının həyatından bəhs edilirdisə, «Dünyanı tanı» əsasən kənd problemlərinə və ziyalılarına həsr olunmuşdur.

Aparıcı: Deyirlər yazıçılar ömür boyu öz talelərini yazır. Buna necə baxırsınız?

Ə.Hacızadə: Bu fikirdə müəyyən həqiqət varsa da, ancaq onunla tam şərik deyiləm. Bu müddəanı mən ancaq bu şərtlə qəbul edə bilirəm ki, yazıçı yalnız o hadisələri, o taleləri yazır və yazmalıdır ki, onların ağrılarını, sevinc və faciələrini öz kədəri, sevinci və faciəsi səviyyəsinə qaldırıb öz varlığında, ürəyində, qanında yaşada bilsin.

Aparıcı: Hərdən radioda, televiziyada, konsert salonlarında belə sözlər eşidirik: «Sözləri Əlibala Hacızadənindir». Puşkinin belə bir fikri var ki, şair yaşlandıqda nəsrə meyl edir. Sizdə deyəsən tərsinədir?

Ə.Hacızadə: Yox. Mən lap gənclik illərimdən şer yazmışam. Ancaq heç vaxt özümü şair hesab etməmişəm. Şeri çox sevirəm və ancaq ürəyim dolanda, bir hiss məni rahat buraxmayanda şer yazıram. Ancaq özümçün. Di gəl ki, həmin şerləri itib-batmasın deyə (əlbəttə, yaxşılarını) romanlarıma salıram.

Aparıcı: Bu görüşümüzdə şer oxumaq istərdinizmi?

Ə.Hacızadə: İstərdim. Tamaşaçılarımızın da şeri çox sevdiyini nəzərə alaraq, mən «İtkin gəlin» romanımdan bir, bu son romandan da bir şer oxuyardım.

Aparıcı: Buyurun.

Ə.Hacızadə:

Qürbətin

Ömrümün günləri bükdü boynunu,
Əsdi, yaman əsdi yeli qürbətin.
Başıma dağlar tək qar ələndi, qar,
Gəzdi saçlarımda əli qürbətin.

Həsrətdən quzu tək mələyir ürək,
Çarə yox, hər dərdə dözəsən gərək.
Yağ-bal yedirsə də, ögəy ana tək,
Zəhər tuluğudur dili qürbətin.

Vətənsiz, dünyada Allah neylərdim?
Vətənə çatsaydım, olmazdı dərdim.
İsti qucağında rahat ölərdim —
Axmazdı gözümdən seli qürbətin.

Elin öz qəmidir mənim öz qəmim,
Eldən ayrı düşsəm, el olar qənim.
Qəbrimi qürbətdə qazmayın mənim,
Üstümdə bitməsin gülü qürbətin.

İkinci şer:

Həsrətdən ürəyim olubdu dağ-dağ,
Gözümün yaşı da quruyub, inan.
Mən səni həmişə görürəm, ancaq,
Sənə əlim yetmir, necə uzaqsan!

Səsini eşitsəm, qəlbim titrəyir,
Addım səslərindir qulaqlarımda.
Səni görməyəndə göy yerə dəyir,
Gül adın çırpınır dodaqlarımda.

Ömür həsrət ilə ötdü yarıdan,
Gözümə ağ düşdü, saçlarıma dən.
Qəlbimə eşqini yazan yaradan,
Elə hey dedi ki, sən gələcəksən.

Gəlişin bayramdı, gedişin yasdı,
Gəlirsən — diriyəm, gedirsən — ölü.
Sənsiz bu dünya da dünya olmazdı,
Sənsiz mən də yoxdum, ay ömrüm gülü.

Aparıcı: Oxucu məktubunun sevinci?

Ə.Hacızadə: Bu təzə romanımda belə bir cümlə var: «Oxucusuz yazıçı, şair — sudan çıxarılıb qumlar üstünə atılmış balığa bənzər — nə qədər böyük, qüdrətli olsa da, axırda çırpınıb-çırpınıb öləcək, çox yaşamayacaq».

Bir yazıçı kimi, mənim oxucu sarıdan bəxtim gətirib. Mənə çoxlu oxucu məktubu gəlir. Suallar, məsləhətlər verirlər. Mən onları əzizləyib saxlayıram. Amma hamısına cavab yaza bilmirəm — vaxt çatmır. Yeri gəlmişkən, fürsətdən istifadə edib mənə öz ilıq məhəbbətlərini ifadə edib məktub yazmış bütün əziz oxucularıma öz minnətdarlığımı bildirirəm.

Aparıcı: Yol gələn, yazmaqda olan əsəriniz?

Ə.Hacızadə: «Dünyanı tanı» romanımın ikinci kitabını qurtarmaq üzrəyəm.

Aparıcı: Arzumuz budur ki, «Dünyanı tanı» romanınızın ikinci kitabını da bax beləcə bir görüşdə əlimizə götürüb Sizi təbrik eləyək.

Ə.Hacızadə: Çox sağ olun.

## NECƏSİNİZ, BÖYÜK İNSAN?

Mən şərəfsiz yaşamaq istəmirəm,
Mən şərəfsiz ölmək istəmirəm,
namərdlərin ucundan.
Vallah, sabah gedəcəyəm Qarabağa,
Öz əllərimlə asacağam özümü
Şuşada dar ağacından.

***Ə.Hacızadə***

… Onun «Təyyarə kölgəsi»ni oxuyanda 17 yaşım vardı, «İtkin gəlin»i isə 30 yaşımda oxumuşam. Aradan illər keçdi; tale məni onu digər bənzərsiz əsərlərilə rastlaşdırdı. Rəhmətlik Famil Mehdi bizi tanış eləyəndə qəribə hisslər keçirirdim. O vaxtadək mənə elə gəlirdi ki, o nəhəng romanların müəllifi pəhləvan cüssəli, boylu-buxunlu bir insan ola bilər; təsəvvürümdə yanıldığımı görəndə dolaşıq duyğuların məngənəsində qaldım.

İkinci görüşümüz təsadüfi oldu. İş yoldaşım Nizami Sadıqov — Əlibala müəllimlə qohum olmuşuq — dedi. Bu yaxınlarda 60 yaşı tamam olur. Nə dövlətdən qayğı görüb, nə də mükafatlar alıb.. Həddən ziyadə təvazökar insandır.

Təbrik məktubunun mətnini hazırladım. Milli Məclisin sədrinə imzalatdım və təbrik həmin gün «Azərbaycan» qəzetində dərc olundu. Elə sevinirdi, elə bil, dünya bağışlamışdım Əlibala müəllimə — o, bunu dövlət qayğısı kimi qəbul etmişdi, yada düşdüyünə sevinirdi.

Sadə, təmtəraqdan uzaq bir yubiley keçirdi və həmin məclisdə təbrik məktubunu da oxuyası oldum, bir mənsur şer də… Bu, mənim oxucular qarşısında ilk çıxışım, böyük yazıçı qarşısında ilk imtahanım idi. Necə alındığını deyə bilmərəm, mənəvi dostluğumuz, mənəvi yaxınlığımız həmin epizodla bağlıdır. O məclisdə birinci dəfə tamada seçildiyimdən vəzifəmin öhdəsindən gələ bilmədiyimə görə (söz ustadları çoxluq təşkil edirdi) «vəzifəmi» yazıçı Nahid Hacızadəyə ötürəsi oldum.

… Sonra oğlunun toyunda fəal iştirak elədim.

… Həbsxanadan çıxandan sonra «Avtoritet» qəzetiylə əməkdaşlıq edirdim. Səmimi kollektivimiz vardı. 50 illik yubileyim həmin vaxta düşürdü. Yazıçı və baş redaktorumuz İlqar Əlfinin rəhbərliyi ilə xudmani məclis düzəltdik. İlqar, Seymur, Müşfiq mağazaya gedəndə təsadüfən Əlibala Hacızadəylə rastlaşırlar. İlqar hal-əhvaldan

sonra onu məclisə dəvət edir. Əvvəlcə boyun qaçırsa da, təkidləri görüb məclisin səbəbini soruşur.

— Qəzetimizin məsləhətçisi Balaş Abbaszadənin yubileyidir: — İlqar Əlfi səbəbi deyir.

— Ay onun qadasın alım (qada görməyəsiniz, Əlibala müəllim), bunu bayaqdan deyin də! O, mənim dostumdur.

Əlibala müəllim içəri daxil olanda gözlərimə inanmadım: təsadüfə baxın, 60 illik yubileyində iştirak etmişəm, indi də o, mənim yubileyimin iştirakçısıdır.

Əlində bir kiloqram qənd vardı, alıb evinə aparmaq istəyirmiş. Onu mənə uzatdı:

— Varını verən utanmaz, al evə apar, qoy evdəkilər çay içsinlər.

Götürmək istəmirdim. Ciddi görkəmlə:

— İnciyərəm, — dedi.

Kövrəldim. Mənim üçün ən böyük yubiley hədiyyəsi məhz Əlibala müəllimin bir kiloqramlıq qəndi oldu…

Yazıçı Əlibala Hacızadə haqqında bildiyim bioqrafik məlumatları yığcam belə ifadə etmək olar: 1935-ci ildə Biləsuvar rayonunun Ağalıkənd kəndində, Qaban ilində, Qız bürcü altında doğulub. Ata-anasını erkən itirib, özü demiş, «yetimliyin hər üzünü» görüb. İxtisasca şərqşünasdır, ərəb və fars dillərini bilir. Elmlər namizədidir. «Heykəl gülür» adlı ilk kitabı 1961-ci ildə çapdan çıxıb. «Təyyarə kölgəsi», «İtkin gəlin», «Əfsanəsiz illər», «Ayrılığın sonu yoxmuş», «Vəfalım mənim», «Yandırılmış adam», «Dünyanı tanı»… romanlarının müəllifidir. «Unutmaq olmur», «Əgər sevirsənsə» televiziya tamaşaları, Lütfi Məmmədbəylinin rejissorluğu ilə 12 seriyalı «İtkin gəlin» teleserialının müəllifi kimi tanınır.

Bütün bunlar ümumi xarakterli məlumatlardır. Amma hər faktın arxasında yazıçı ömrünün zəhmət dolu, narahat anları durur. Bu sadalamaları oxuyanlar bilmirlər ki, bestsellerlər müəllifi, xalq yazıçısı olmasa da, xalqın yazıçısı olan Əlibala Hacızadənin dünya malında gözü olmayıb, heç zaman özünü təbliğ etdirmək üçün kimlərəsə ağız açmayıb, bütün əsərlərini sadə, ikiotaqlı mənzilinin mətbəxində (təbii ki, yazıçı «mətbəxi» nəzərdə tutulur) yazıb, aldığı saysız-hesabsız oxucu məktublarını ən böyük var-dövləti hesab edir. «Özümü böyük yazıçı hiss etmirəm. İddiasız, təmənnasız adamam. Başımı aşağı salıb öz işimi görməyə üstünlük verirəm. Fikrimcə, sevilməyimin səbəbi çox sadədir: mən hamını sevdiyimə görə hamı da məni sevir. Dünya-

nın ən alçaq adamında belə, nəsə işıqlı bir şey axtarmışam. Ürəyimin demədiyini yazmamışam. Elə illər olub ki, bir sətir də qələmə almamışam. Papağımı yan qoyub gəzmişəm. Və mən təkcə öz dərdimi kağıza köçürməmişəm. Ölənlə ölmüşəm, sevənlə sevmişəm». Yazıçının bu səmimi etirafı Əlibala Hacızadə fenomeninin mahiyyətini müəyyən qədər açıqlayır.

Əlibala Hacızadəyə zəng edəndə, yaxud görüşəndə həmişə soruşuram: «Böyük insan, necəsiniz?» Əlbəttə, bu sözlərdə səmimiyyət də var, yaxın adama ərk də, amma məncə, buradakı həqiqət bütün başqa çalarlardan daha çoxdur. Çünki Əlibala müəllim böyük şairimiz Bəxtiyar Vahabzadənin təbirincə desək, «sadəlikdə böyüklük axtaran və bu iki cizginin vəhdətindən məmnunluq duyan bir insandır. Kimsə o şöhrətin sahibinin özünü çəkdiyini, başqalarına yuxarıdan aşağı baxdığını, adamların dərd-sərinə biganə qaldığını söyləyə bilməz, çünki belə şeylər Əlibala Hacızadənin təbiətində ümumiyyətlə, yoxdur». Əksinə, indi ziyalılarımız arasında onun kimiləri — «millət üçün tüstüsü təpəsindən çıxanlar»ı barmaqla saymaq olar. «Allahın qorxusundan yalan, bəndənin qorxusundan doğru danışmağın mümkün olmadığı» bir şəraitdə öz simasını, şəxsiyyətini, ləyaqətini qoruyub-saxlamaq əlbəttə, çoxlarına nəsib olmur. Amma Əlibala Hacızadə mübaliğəsiz həmin o azsaylı ziyalılarımızdandır ki, fəxri ad, mükafat, fərdi təqaüd üçün dəri qapılar döyməyib, üçrəqəmli telefonlardan asılı olmayıb, hər şeyi Zamanın, Haqqın, Ədalətin öhdəsinə buraxıb.

Əlibala Hacızadənin əsərlərinin 70-80-ci illər ədəbi mühitində necə əks-səda doğurduğu çoxlarının yadındadır. Romanlarının yüz mini aşan təkrar çapı, müzakirələr, mübahisələr bu mühitə mübaliğəsiz canlanma gətirmişdi. Əlbəttə, onun romanları haqqında fikirlər birmənalı olmadığına görə daha maraqlı idi. İndi Əlibala Hacızadəni kədərləndirən faktlardan biri də oxucularını itirməsidir: «1992-ci ildə «Dünyanı tanı» romanı 80 min tirajla çap olundu, sonra aləm birbirinə qarışdı. Hələ də həmin romanın ikinci hissəsini çap etdirə bilmirəm. Hazırda üç romanım çapını gözləyir. Səkkiz il əsəri çap olunmayan yazıçı oxucularla ünsiyyətini itirir. Oxucusunu itirən yazıçı isə ölü kimi bir şeydir». Əlibala müəllimin bu kədərli etirafı günümüzün ən ağrılı etiraflarından biridir. Nə vaxtsa əsərlərinin ümumi tirajı milyon nüsxələrlə hesablanan yazıçının oxucularının intizarını çəkməsi təbii ki, xoşagələn deyil.

Xatırladığım o təbrik məktubunda bir-iki cümləni yada salmaq istəyirəm: «Sizin əsərləriniz — xüsusilə gənc nəslin stolüstü kitabına

çevrilmiş povestləriniz, romanlarınız respublikamızın hüdudlarından kənarda da çox məşhurdur. Şərq xalqlarının adət və ənənələrini, məişətini, düşüncə tərzini dərindən bilməyiniz əsərlərinizin kamilliyini, yaratdığınız obrazların həyatiliyini təmin edən başlıca keyfiyyətlərdir. «Təyyarə kölgəsi», «İtkin gəlin», «Əfsanəsiz illər», «Ayrılığın sonu yoxmuş» adlı romanlarınız yazıçı təxəyyülünün hüdudsuz imkanları ilə canlı müşahidələrdən alınmış reallığın üzvü sintezinə sübutdur». Bu sözlərdə az da olsa, şişirtmə yoxdur və lazım gəlsə, həmin əsərlərdən tutarlı dəlillər gətirməklə bu fikri sübut eləyə bilərəm. Amma ədəbi tənqidçilərin funksiyasını öz üzərimə götürmək istəmirəm və fikrim Əlibala Hacızadənin hansısa əsərinə resenziya yazmaq deyil, sadəcə, bənzərsiz bir İnsan, Yazıçı və Ziyalı haqqında fikirlərimi oxucularla bölüşməkdir.

Əlibala Hacızadə ömrünün gözəl, barlı-bəhərli günlərini başıbəlalı Əfqanıstan torpağında keçirib, trilogiyası üçün materiallar toplayıb. Təbiidir ki, həyatın özündən alınan materiallar oxucunu daha dərindən inandırır. Bununla bağlı Əfqanıstan dəhşətlərini gözləriylə görmüş inşaatçı mühəndis, iş adamı və xeyriyyəçi Gülağa Qənbərovun fikirləriylə şərikəm: «Əsərlərinizi oxuduqda hadisələrin tarixi reallığa, milli-əxlaqi dəyərlərə bağlılığı məni heyrətdə qoyub. Elə oxucunun maraq və məhəbbətini qazanmağın bir səbəbi müəllif təsvirinin reallığında, üslubunun şirinliyinin əfqan həyatı və məişətinin zənginliyini özündə əks etdirməsində, yazıçı dilinin əlvanlığındadır». Şübhəsiz, trilogiyanın bu qədər populyar olmasında həmin amillərin rolu az deyil.

Əlibala Hacızadənin bir insan kimi təvazökarlığı başqa cəhətdən də bilinir: onun əsərlərində qəhrəmanların dilindən səslənən şer parçaları o qədər poetik və cəlbedicidir ki, hətta oxucular belə həmin şerləri özününkü sayırlar. «İtkin gəlin» teleserialındakı mahnılara istedadlı bəstəkar Cavanşir Quliyevin musiqisi Əlibala Hacızadənin poetik dünyasının daha bir tərəfini qabartdı. Amma o, heç vaxt özünü şair saymayıb, «yazıçı» sözünün ağırlığını, sanbalını çiyinlərində səssiz-səmirsiz, şikayətlənmədən, başqalarına minnət qoymadan daşıyıb. Əslində uşaqlıq günahını az qala 60 il öz içində gəzdirən, təqsiri olmaya-olmaya ətrafında baş verənlərə görə xəcalət çəkən, millətin mənəvi aşınmalarını özündə dərd eləyən Əlibala Hacızadədən başqa bir şey gözləmək də olmaz. Zəngləşəndə, görüşəndə soruşuram: Böyük insan, necəsiniz? Bu sözlərdə zərrə qədər şişirtmə yoxdur…

*Balaş Abbaszadə*

## TƏMƏNNASIZ XİDMƏT NÜMUNƏSİ

Deyirlər ki, yazıçı bədii əsərlərində görüb-eşitdikləri, təxəyyülündə yaşatdıqları ilə yanaşı, həm də ömrü boyu öz bioqrafiyasını yazır. Keçib gəlmiş olduğu həyat yolunun müxtəlif mərhələlərini ayrı-ayrı qələm məhsullarında zaman-zaman əks etdirən istedadlı yazıçımız Əlibala Hacızadənin fəaliyyəti bu hökmün doğruluğuna bizi bir daha inandırır. Onun kiçik yaşlılar üçün nəzərdə tutulmuş «Pəhləvan», ilk gənclik illərinin təkrarolunmaz təsvirini verən «Unutmaq olmur» adlı kitabları mütaliəsevərlərin bəlkə də yaxşı yadındadır. Həmçinin oxucular onu da gözəl bilirlər ki, Ə.Hacızadə daha çox yetkinlik yaşına çatmış müxtəlif sənət, peşə adamlarının həyatını, istək və arzusunu, duyğu və düşüncələrini qələmə alır. Və əvvəlcədən deyək ki, həmin əsərlər işıq üzü gördüyü gündən ümumxalq məhəbbəti qazanıb, oxucular və ədəbi tənqid tərəfindən rəğbətlə qarşılanıb.

Bunu faktlar da sübut edir.

Əgər «teatr asılqandan başlanır» fikrini şərti də olsa qəbul etsək, o zaman nəşriyyatların çap məhsulları üçün meyarı da müəyyənləşdirməliyik. Bu sahədə kitabların doğurduğu əks-səda, onun tiraj göstəricisi, mağazalarda uzun müddət yatıb qalması, yaxud əlüstü öz «təyinat yerini» tapması və s. az rol oynamır. Doğrudur, Əlibala yaradıcılığının sənətkarlıq xüsusiyyətləri, əsərlərinin bədii ləyaqəti barədə az yazılıb. Nəticədə oxucu bir sıra mətləblərin həllində ona kömək edə biləcək müvafiq material sarıdan korluq çəkib. Lakin buna ehtiyac böyükdür. Özünüz təsəvvür edin: son roman-trilogiyası — «İtkin gəlin», «Əfsanəsiz illər», «Ayrılığın sonu yoxmuş» kimi əsərlərinin hər biri üst-üstə 200, 250 min tirajla nəşr olunub və tezliklə satılıb qurtarıb. Həmçinin tamaşaçılar həmin əsərin müəllifin ssenarisi əsasında hazırlanmış çoxseriyalı televiziya tamaşasını da maraqla qarşılamışlar.

Yeri gəlmişkən xatırladaq ki, bir çoxu məhz «İtkin gəlin» roman-trilogiyasını Ə.Hacızadənin şah əsəri hesab edirlər. Salyan rayon təhsil şöbəsinin müdiri Qulam Sadıqovun söhbəti bu cəhətdən maraqlıdır. O, deyir ki, rayonumuzda yazıçı ilə görüş keçirilirdi. Qonağı əvvəlcə ümumi şəkildə təqdim elədim. Ancaq bu təqdimat istənilən nəticəni vermədi. Səbəbini özlüyümdə çox tez aydınlaşdırıb dedim:

— Dostlar, heç bilirsiniz görüşünüzə gələn kimdir? «İtkin gəlin»in müəllifi!

O zaman hələ televiziya tamaşası haqqında təsəvvür belə yox idi. Ancaq çox böyük tirajla çap olunan kitab əldən ələ gəzirdi. Buna görə də sözlərim elə bir canlanma yaratdı ki, sanki burada əyləşənlər heç bayaqkı adamlar deyildilər. Ön sırada oturanlar bir az da irəli boylandı, arxa cərgədə əyləşənlər yazıçını yaxşı görmək üçün vasitə aradılar. Sorğu-sualların da əksəriyyəti həmin əsər barədə, onun necə, hansı şəraitdə yazılması, həyat həqiqəti ilə bədii həqiqət arasındakı yaxınlıq və s. haqqında oldu.

Halbuki bizcə, Ə.Hacızadənin süjet xəttinə müəyyən qədər macəraçılıq ruhu hopdurulmuş «İtkin gəlin»dən sənətkarlıq səviyyəsinə görə yüksəkdə dayanan «Təyyarə kölgəsi» (onun davamı kimi «Vəfalım mənim»), «Dünyanı tanı» kimi məşhur romanları var. Sonuncu roman barədə əsaslı bir şey, demək olar ki, yazılmayıb. «Təyyarə kölgəsi» isə az-çox təhlil olunub. Məsələn, tənqidçi-ədəbiyyatşünas vaxtilə «Ulduz» jurnalında çap etdirdiyi «Ziyalı aləminə səyahət» adlı məqaləsində göstərirdi ki, yazıçı bu əsərində çox zaman diqqətdən kənarda qalan alimlərin həyatına dərindən nüfuz etmiş, onların qəlb aləmini, yaradıcılıq dünyasını realist bir qələm və təsirli dillə oxuculara çatdırmağa müvəffəq olmuşdur.

Mövzusu dost Əfqanıstan həyatından alınmış romanında da, bizə tanış olan adamlardan, hadisələrdən yazanda da müəllif insanın özünü, onun keşməkeşli həyatını, taleyini ön plana çəkib, hər birinin xarakterik xüsusiyyətlərini, mənəvi aləmini psixoloji dərinliklə əks etdirə bilib. Bu cəhətdən «Təyyarə kölgəsi» xüsusilə səciyyəvidir və onu səhv etmədən xarakterlər qalereyası da adlandırmaq olar. Əgər «Unutmaq olmur» povestində hisslərin təbiiliyi, təravəti, bakirəliyi, sübh şəfəqi kimi duruluğu, «Dünyanı tanı»da sərt həyat həqiqətinin cəsarətli, barışmaz mövqedən təsviri ön plandadırsa, «Təyyarə kölgəsi»ndə mükəmməl bədii obrazların şəxsi və ictimai ideallar uğrunda çarpışması, mübarizə əzmi oxucunu valeh edir, bir-birinə daban-dabana zidd olan qəhrəmanlar ona gecəylə gündüzün, xeyirlə şərin savaşını xatırladır.

Və buradan da maraqlı bir sual ortaya çıxır.

Əlibala Hacızadəni biz hələ bir yerdə təhsil aldığımız orta məktəb illərindən yaxşı tanıyırıq. Xeyirxahlığının, bədxahlarını belə yaxşılıqla utandırmasının çox şahidi olmuşuq. Odur ki, əksər müsbət obrazlarının qüvvətli alınmasına, hər birinin məharətlə «ətə-qana doldurulmasına» təəccüb etmirik. Bilirik ki, bunların mayası «öz bioqrafiyasını yazan» yazıçının qəlbinin dərinliklərindən gəlir. Bu sahə-

də, necə deyərlər, qələmi qəlbinə borcludur. Bəs professor Salman Qurbanzadə («Təyyarə kölgəsi»), prokuror İsrafil Qurbanov («Dünyanı tanı») kimi son dərəcə rəzil, məkrli obrazlar necə olub ki, bu sayaq dolğun, inandırıcı, mükəmməl alınıb? Görünür, bu işdə yazıçının incə və dəqiq müşahidələri, ümumiləşdirmə qabiliyyəti köməyə gəlib. Orası da var ki, belə bir həyatilik, realizm, güclü ümumiləşdirmə yazıçıya heç də həmişə asan başa gəlmir. Belə ki, özünü konkret obrazın prototipi sayanlardan təşəkkür edənləri də olur, mərəkə qaldıranları da…

Romanlarda mənfi obrazların bu qədər qüvvətli alınmasında, bizcə, «hazırlıq mərhələsi» də müəyyən rol oynayıb. Axı Əlibala Hacızadə bir zaman satira sahəsində də özünü sınayıb, «Azərbaycan» jurnalında «Sadıq əl çalır», «Yoxa çıxmış adam» kimi müvəffəqiyyətli hekayələrini çap etdirib. Sonra nədənsə bu sahəyə üz çevirməyib.

Mövzu baxımından yazıçının maraq dairəsi olduqca genişdir. Onu fəhlədən, kolxozçudan tutmuş sürücüyə qədər bütün ictimai təbəqələrin taleyi düşündürür. Ancaq özünün də bilavasitə nümayəndəsi olduğu elm, maarif və mədəniyyət işçilərinin həyatı, mübarizəsi, qayğı və problemləri ilə, təbii ki, daha çox məşğuldur. Təsadüfi deyil ki, mədəniyyət məsələlərinə dair «Mənim ilk müəllimim», «Qiymət», «Məhəbbət olmayan evdə» adlı hekayə və povestlərlə yanaşı, «Təyyarə kölgəsi», «Dünyanı tanı» kimi romanlarını da yazıb. Elə «Şəhriyar» qəzetində hissə-hissə çap olunan «Möcüzə» romanı da bu mövzudan tamamilə xali deyil.

Əlibala Hacızadə haqqında yalnız yazıçı kimi danışmaq işinin ancaq bir qismini yada salmaq deməkdir. O, görkəmli fars şairi «Fərruxi Yəzdinin poeziyası» mövzusunda dissertasiya müdafiə edib. Həmin dildən bir sıra gözəl nümunələri yüksək sənətkarlıqla tərcümə edib azərbaycanlı oxuculara çatdırır, M.Ə.Rəsulzadə adına BDU-nun şərqşünaslıq fakültəsində pedaqoji fəaliyyətini davam etdirir.

Yazıçı var ki, qəhrəmanın əhval-ruhiyyəsinə, psixologiyasına uüğun bir bənd şer yazmasından ötrü şairə təmənnaçı düşür. İstedadı Əlibala Hacızadəni bu qayğıdan da azad edib. Onun şairlik həvəsi və bu sahədəki yaradıcılıq axtarışlarının uğurlu bəhrələri oxuculara çoxdan məlumdur. Mətninə musiqi bəstələnmiş mahnıları geniş yayılıb. Həmçinin dramaturgiya sahəsindəki nailiyyətləri də göz qabağındadır. Təsadüfi deyil ki, «İtkin gəlin» və «Yandırılmış adam» adlı pyesləri uzun illərdir C.Cabbarlı adına Gəncə Dövlət Teatrının repertuarında özünə möhkəm yer eləyib.

Ancaq son illərdə fəaliyyət sahəsinin miqyası daha da genişlənib. Xeyli vaxtdır İran-Azərbaycan İslam Vəhdət Ocağının təsisçiliyi ilə nəşr olunan «Nizami Gəncəvi» elmi, ədəbi-bədii jurnalına redaktorluq edir. Onun təşkilatçılıq qabiliyyəti, əsərlərə və müəlliflərə böyük qayğı və tələbkarlıqla yanaşması kiçik kollektivdə hamını ürəkdən razı salıb. Həmçinin əsas iş yeri olan Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda da tədqiqatçı alimin nailiyyətləri sevindiricidir.

Bütün bunlar sənət, elm fədaisinin, naşirin zəhmətə sevgisindən, fədakarlığından xəbər verir.

Onu da deyək ki, Əlibalanın mətbu əsərləri müəllifin qələm məhsullarının cüzi bir hissəsini təşkil edir. Əgər kağızın bol, nəşriyyatların, mətbəələrin imkanının geniş olduğu vaxtlarda əlyazmalarının, heç olmazsa, yarısı çap olunsaydı, sevimli oxucuları həsrətində olduqları kitablarla kitabxanalarını xeyli zənginləşdirər və Ə.Hacızadə öz 60 illik yubileyinə daha əli dolu gələrdi. Ancaq təəssüf ki, kiçik tirajla işıq üzü görən əsərləri ambarlarda yatıb qalan, buna baxmayaraq, qonorarın ən yüksəyini mənimsəyən, kimsəyə lazım olmayan əsərlərini hər il və hətta, bəzən ildə bir neçə dəfə nəşr etdirən ayrı-ayrı imkanlı yazıçıların mənəm-mənəmlik ehtirası buna imkan vermədi. Buna baxmayaraq o illərdə də Əlibala özünün «İnam» povestinin qəhrəmanı kimi gələcəyə inamını itirmədi, indi də itirməyib. Kiçik həcmli kitabların belə nəşrinin müşkül məsələyə çevrildiyi bir vaxtda yenə romanı romana calayır, təzə povestləri üzərində işləyir, ssenarilər yazır, yeni şer və hekayələri ilə oxucularla görüşə tələsir.

Bəli, yazıçı taleyi, iki kəlmədə öz klassik ifadəsini tapmış olan bu «dəhşətli əmək» onun gəncliyini hiss olunmadan arxada qoyub, şəvə kimi qapqara saçlarını «darayıb», ona qar ələyib. Həm də uşaqlı, böyüklü, hamının, demək olar ki, bütün mütaliə həvəskarlarının sevimlisinə çevirib. Onun cəfakeşliyi, fədakarlığı yüksək, çox yüksək qiymətə layiqdir. Halbuki fəxri adların, orden və medalların səxavətlə paylanıldığı vaxtlarda da bir kimsənin yadına düşməyib.

Yeri gəlmişkən onu da xatırladaq ki, müxtəlif əsərlərində, o cümlədən «İtkin gəlin» trilogiyasında, «Dünyanı tanı» romanında firavanlıq içərisində yaşayan adamların həyatının geniş təsvirinə rast gələn oxucular yaşayış səviyyəsi baxımından bəlkə müəllifin özünü də həmin zümrəyə aid edirlər. Halbuki sıxıntı, maddi ehtiyac Əlibala Hacızadəni daim həmişə kölgə kimi izləyib, indi də onun daimi yol yoldaşıdır. Ürəyimizi riqqətə gətirib, bizə güclü ideya, estetik təsir

göstərən kitablarının əksəriyyətini iki otaqlı dar mənzilinin mətbəxində qələmə alıb. Qarşısında sabahkı günün məişət ehtiyaclarını ödəmək tələbi, xəyalında şahanə sarayların, dəbdəbəli həyatın təsvirinin ehtiyacı onun qəlbində, bax bu sayaq qoşa yaranıb, yaşayıb. Paradoksdur, deyilmi?

Lakin Əlibala Hacızadə belə şeyləri eyninə almayıb. Çünki yaxşı bilir ki, yazıçının əsl mükafatı oxucu marağı, xalq məhəbbətidir. Belə bir hüsni-rəğbət olmayanda yüksək adlar sənətkarın mövqeyinə zərrə qədər təsir göstərə bilmir.

Bütün bunlar Əlibala Hacızadənin həyatı və yaradıcılığı mədəniyyətimizə, bədii söz sənətimizin inkişafına «təmənnasız xidmət nümunəsidir» fikrini inamla deməyə bizə əsas verir…

*Zamin Mahmudov*
*Azərbaycan Yazıçılar Birliyinin üzvü,*

*Mahmud Mahmudov*
*M.Ə.Rəsulzadə adına BDU-nin*
*jurnalistika fakültəsinin dosenti*

## АЗЕРБАЙДЖАНСКИЙ ПИСАТЕЛЬ ОБ АФГАНИСТАНЕ

Сейчас, когда внимание всего мира приковано к этой стране, когда и друзья, и враги афганского народа пристально следят за всеми происходящими событиями на этой многострадальной земле, особое значение приобретает каждое слово художественной литературы, обращенное к истории и современной действительности нашего южного соседа. С этой точки зрения заметным событием является издание трилогии азербайджанского прозаика Алибалы Гаджизаде о борьбе афганцев за свою независимость.

Трилогия Алибалы Гаджизаде, увидевшая свет в издательстве «Гянджлик», включает в себя три романа: «Пропавшая невеста», «Годы без Афсаны» и «Разлуке нет конца».

Писатель Алибала Гаджизаде не случайно обратился к изображению афганской действительности: он жил и работал в этой стране задолго до Апрельской революции, в тяжелые времена царствования Мухамед Захер шаха в 60-е годы, Алибала Гаджизаде настойчиво изучал социальные отношения, нравы, быт, традиции и культуру афганского народа. Ему доводилось общаться с самыми разными людьми.

В первом романе — «Пропавшая невеста» — действие начинается в небольшой афганской деревне, на севере страны.

Эльмеддин, служащий писарем у сельского старосты, любит девушку по имени Афсана, оставшуюся сиротой после трагической гибели родителей. Она отвечает ему взаимностью, но юноша и девушка вынуждены скрывать свои чувства от посторонних. Мать Эльмеддина рещила женить старшего сына Юсифа и выбрала ему в невесты именно Афсану. Ни Эльмеддин, ни Афсана не смогли противостоять этому решению. Брат Эльмеддина — Юсиф женился на Афсане. Но счастье его продолжалось недолго. Смертельно ранив в ссоре сельского пастуха, Юсиф попадает в тюрьму. Вскоре он умирает от разрыва сердца. Мать старается теперь уговорить Афсану выйти за Эльмеддина. Но хотя Эльмеддин и Афсана попрежнему любят друг друга, память о брате не позволяет Эльмеддину жениться на Афсане. Афсана бежит из дому, ее ищут, но не находят. Мать Эльмеддина сходит с ума.

Потрясенный всеми несчастьями, Эльмеддин покидает деревню, переезжает в город. Благодаря своему поэтическому дарованию он сумел произвести впечатление на редактора газеты «Парчам». Так Эльмеддин сумел обрести работу и квартиру. Своими стихами, сатирическими рассказами и карикатурами Эльмеддин помогает газете бороться против реации и продажных журналистов, поддерживающих интересы правящего шахского режима.

Алибала Гаджизаде ставит острые социальные проблемы с широким показом различных слоев сельского и городского населения. Характеры — крупные, яркие. Действие в романе полно драматизма. Найденные им детали — убедительны. Запоминаются даже эпизодические герои. Таким в первой книге является образ подпольного руководителя партии, писавшего свои революционные статьи в газете «Парчам» под конспиративным именем «Сеид Мустафа». Это нынешний Генеральный секретарь ЦК НДПА, председатель Революционного совета ДРА товарищ Бабрак Кармаль, ставивший задачу направлять усилия газеты «Парчам» по мобилизации народных масс для участия в революционном движении, распространении марксистской революционной теории. Образ этот в трилогии не получает дальнейшего развития, но остается в памяти читателя.

Вторая и третья книги: «Годы без Афсаны» и «Разлуке нет конца» — органически связаны друг с другом и являются логическим продолжением трилогии. Эльмеддин преуспевает на службе у миллионера Неджамеддина. Впрочем работа эта с хорошнй зарплатой, персональным автомобилем и шикарным особняком — всего лишь прикрытие его революционной деятельности. У него все складывается на редкость удачно. Его окружают любящая жена и дочь — Афсана. Но по-настоящему Эльмеддин может почувствовать себя счастливым только тогда, когда его народ обретет свободу.

В третьей книге трилогии Алибалы Гаджизаде мы уже видим плоды неустанной работы партии по подготовке к революционному восстанию. Накануне революции 27 апреля 1978 года реакционеры врываются в дом Эльмеддина, зверски убивают его и его жену. Случайно уцелела маленькая Афсана. Ее спасают то-

варищи отца по борьбе. А потом… опять появляется Афсана — старшая. Она несколько раз решалась покончить с собой, но тщетно. Как будто судьба оставила ее в живых для того, чтобы она воспитывала маленькую Афсану — свою тезку, чтобы работать после революции в библиотеке имени Эльмеддина на улице Эльмеддина, а девочку водит в школу, носящую имя ее отца — Эльмеддина.

«Афганская трилогия» писателя Алибалы Гаджизаде тепло встречена читателями, стала ярким выражением симпатий советского народа к дружественному афганскому народу.

*М.Ибрагимов*
*кандидат филологических наук*

## SADƏCƏ OLARAQ HƏYATI YAZIRAM

— Əlibala müəllim, söhbətə başlamazdan əvvəl bir neçə sual vermək istəyirəm. Yazıçı Əlibala Hacızadə çox ülvi və müqəddəs yazıçılıq sənəti və yazıçı haqqında nə deyə bilər?

— Maraqlı sualdır. Bir var adi oxucunun ülvi və sehirli bir sənət olan yazıçılıq barədə fikrini soruşursan, bir də var bu sənətin sirlərinə, əzablarına az-çox bələd olan adamın düşüncələri ilə tanış olasan. Fərqi çoxdur. Bəri başdan bunu deməyi özümə borc bilirəm ki, burada söhbət əsl yazıçıdan gedə bilər. Çünki bizdə bir çox dəyərlərin ölçüsü — meyarı itdiyi kimi, filosof, şair, yazıçı və alim sözləri də ucuzlaşıb, qiymətdən düşüb; belə ki, fəlsəfə elmi ilə məşğul olan, hətta namizədlik dissertasiyası və bir neçə məqalə yazan, bir də görürsən, mexaniki surətdə özünü filosof, bir neçə şeri çıxan özünü şair, bir hekayəsi, yaxud bir kitabı çıxan adamlar özlərini yazıçı adlandırırlar. Mən bunu təvazökarlıqdan uzaq hesab edirəm. Ona görə ki, yer üzündə çoxlu sənət, peşələr var ki, beş ilə, on ilə öyrənib «mən dərzi oldum», «mən bənnayam», «mexanikəm», — deyə bilərsən; ancaq məsələn, «mən yazıçı oldum», «mən şair oldum» — demək mümkün deyil. Əsl şairlər, əsl yazıçılar ömürləri boyu, az qala ölənəcən şair olmaq, yazıçı olmaq istəyirlər və dünyadan köçəndə də öz ülvi məqsədlərinə nail olub-olmadıqlarından nigaran gedirlər. Çünki bu elə sənətdir ki, beş-on ilə öyrənib qurtara bilməzsən. Sənətin nə demək olduğunu çox yaxşı bilən bu ağıllı adamlar hər əsərini qələmə almağa başlayanda qəribə və anlaşılmaz bir hiss, qorxu keçirirlər və onlara elə gəlir ki, ilk dəfədir əllərinə qələm alırlar.

Mən az qala 40 il yazı-pozu ilə məşğul olmağıma, nə qədər kitabımın çap olunmağına baxmayaraq heç vaxt özümü yazıçı saymamışam və indinin özündə də — bu yaşımda da yazıçı olmaq arzusu ilə yaşayıram.

Əsl yazıçı, şair, filosof aydıngörən, müdrik insan olmalıdır. Mənim aləmimdə sənətkar yaradandan da — günaha yazılmasın — böyük qüdrətə malikdir. Hər şeyin xaliqi olan ulu tanrının yaratdığı «Əşrəfi-məxluqat» sayılan insan dünyaya gəlir, yaşayır, qocalır və günlərin birində ölüb gedir, lakin tanrının çox sevdiyi, məqamını peyğəmbərlərdən sonra müəyyən etdiyi və özünün qadir nurunun bir zərrəsini ürəyinə, zəkasına bəxş etdiyi yaradıcı insanın, şairin, yazıçının

yaratdığı isə o ölüb gedəndən sonra da əbədi yaşamaq qüdrətinə malik olur. Bu mənada sənətkar yer üzünün hər şeyi aydın görən, dərk edən, insanların qulağına onların dərk etmədiyi və ya edə bilmədiyi bir çox həqiqətləri, müəmmaların açmasını pıçıldayan kiçik bir tanrısıdır. Kim bu sənətə nail olursa, özünü xoşbəxt sənətkar saya bilər.

— Əlibala müəllim, siz bir çox oxunaqlı kitabların müəllifisiniz. Televiziya ilə trilogiyanızın motivləri əsasında çəkilmiş ilk çoxseriyalı Azərbaycan televiziya filmi — «İtkin gəlin» göstəriləndən sonra oxucular arasında sizin yaradıcılığınıza maraq daha da artmışdır. Bu, sizin ədəbi qəhrəmanlarınızın taleyinin, istək və arzularının, həyat yollarında qarşılaşdığı problemlərin oxucularımıza yaxın olmasındanmı irəli gəlir və ya bunu özünüz necə izah edərdiniz?

— Mən bir qələm sahibi kimi həmişə insan haqqında (millətindən, məmləkətindən asılı olmayaraq) düşünmüşəm və insanın həyatını bütövlükdə göstərməyi — onun ucalığı, əzəməti ilə yanaşı nöqsanlarını, zəif cəhətlərini də deməyi öz borcum hesab etmişəm. Əsl ədəbiyyatın qəhrəmanı insandır və ədəbiyyat çox mürəkkəb, ziddiyyətli və bəzən lap anlaşılmaz bir varlıq kimi insanın dünyasını incəliklərinə qədər açmağa, onu bütün ucalıqları və alçaqlıqları ilə bərabər göstərməyə xidmət etməlidir. Bu mənada necə deyərlər, mənim bəxtim gətirmişdir: «İtkin gəlin»in qəhrəmanları milli mənsubiyyətindən asılı olmayaraq bizim oxucularımızın ürəyinə yol tapmış və sevilmişlər, çünki mən onları sevə-sevə yaratmışam. «İtkin gəlin» mənə bir müəllif kimi, böyük sevinclər bəxş etmişdir. Bildiyiniz kimi, bu əsəri mən 1966-70-ciillərdə Əfqanıstanda mütərcim işlərkən müşahidələrim əsasında yazmağa başlamış və bu işə ömrümün on altı ilini sərf etmişəm. O illər ərzində həmin adamlar — Əfsanə, Elməddin, Məleykə, Nəcməddin və s. mənim doğma adamlarıma çevrilmişdilər və mən romanın sonuncu nöqtəsini qoymaqdan bir növ qorxurdum; çünki nöqtə qoyandan sonra onlardan istər-istəməz ayrılmalı idim. Romanın oxucularımız arasında sevilməsinin əsas səbəbi sizin qeyd etdiyiniz kimi, cəmiyyətin müxtəlif təbəqələrini təmsil edən bu qəhrəmanların həyatının, düşüncəsinin, mübarizəsinin, qayğı və sevinclərinin bizim oxucularımızın taleyinə, əxlaqına doğmalığı, onların həyat adamı və öz məhəbbətləri, arzuları uğrunda mübarizə aparmağa qadir olmalarıdır.

— «İtkin gəlin»in qəhrəmanlarından «ayrılmağınıza» peşman deyilsiniz ki?

— Sən demə, o qorxum əbəs imiş. Tale elə gətirdi ki, mən sonrakı illər də, bu günə qədər o adamlardan ayrılmadım. Romanın motivləri əsasında pyes yazdım və o əsər on ildən çoxdur ki, Gəncə Dövlət Dram Teatrının səhnəsindən düşmür. Sonra mərhum rejissorumuz, görkəmli sənətkarımız Əjdər İbrahimov bu əsər üzrə üç seriyalı televiziya filmi çəkmək fikrinə düşdü, mənə ssenari sifariş elədi; lakin o zaman bu iş maddi çətinliklərlə bağlı olaraq həyata keçməmiş qaldı. Daha sonra isə görkəmli sənətkarımız Lütfi Məmmədbəyov böyük fədakarlıq göstərərək bayaq qeyd elədiyimiz çox seriyalı televiziya filmini çəkmək üçün məndən ssenari yazmağı xahiş etdi. Gördüyünüz kimi, bütün bu illər ərzində mən öz sevimli qəhrəmanlarımdan ayrıla bilməmişəm.

— Siz şərqşünaslıq fakültəsinin fars şöbəsini bitirmisiniz. Bəs necə oldu yazıçı oldunuz?

— Bayaq dediyim kimi, mən hələ yazıçı olmamışam — yazıçı olmağa çalışıram. Madam ki, soruşursunuz, deyim. Hələ orta məktəbdə oxuyarkən bədii ədəbiyyata böyük maraq göstərirdim və sonralar bu marağı sönməyə qoymayan, məni yazıb-yaratmağa həvəsləndirən — orta məktəbdə ədəbiyyat müəllimim mərhum Konsul Qasımov, Universitetdə oxuduğum illərdə isə mərhum müəllimlərim Mübariz Əlizadə, Mir Cəlal Paşayev, Yusif Şirvan, Tofiq Mütəllibov və hörmətli şairimiz Bəxtiyar Vahabzadə olmuşdur. İlk hekayələrim Əfqanıstana getməmişdən çox-çox qabaq Universitet qəzetində, gənclik almanaxlarında çap olunmuşdu. İlk kitabım olan «Heykəl gülür» 1961-ci ildə çıxmışdı. 1962-ci ildə isə SSRİ Yazıçılar İttifaqına üzv olmuşdum. Əfqanıstana gedəndə artıq üç kitab müəllifi idim. Onu da deyim ki, bir çox qələm yoldaşlarım kimi, çap olunmaq çətinliklərindən mən də keçmişəm. Nəşriyyata verdiyim kitabı çap etmir, bəhanə gətirirdilər ki, Yazıçılar İttifaqının üzvü deyiləm. Yazıçılar İttifaqına da üzv götürmürdülər, deyirdilər hələ kitabın çıxmayıb.

Burda, getməmişdən əvvəl çap etdirə bilmədiyim bir sıra hekayələrimi Əfqanıstandan — xarici mövzuda yazılmış hekayələr kimi göndərəndə dərc ediblər, bir çox yazılarımı isə «Bağlı sandıqlar» açılandan sonra çap etdirə bilmişəm. Yəni mən Əfqanıstana getməmişdən qabaq artıq, el məsəlində deyilən kimi, dəyirmançı idim, dən çağırırdım.

— «Təyyarə kölgəsi»nin ikinci hissəsi olan «Vəfalım mənim» kitabınız yarımçıq qalıb. Qəhrəmanların sonrakı taleyi oxuculara aydın deyil. Ümumiyyətlə, əsərin üçüncü hissəsi yazılıbmı?

— Doğru deyirsiniz, mənim bir neçə əsərim var ki, yarımçıq qalıb. «Dünyanı tanı» yarımçıqdır, «Yandırılmış adamlar» romanım yarımçıqdır. «Vəfalım mənim» də elə. Bu trilogiyanın adını «Ölüm yoxdur» qoyduğum üçüncü kitabını hələ yazıb qurtarmamışam. Fürsətdən istifadə edərək bu roman haqqında yaranmış, yayılmış bəzi söz-söhbətlərə öz münasibətimi bildirmək istəyirəm. Roman çıxandan az sonra məni «çox» istəyən, bəzi paxıl və cılız, şeytansifət «dostlarım» bir çox tanış və tanınmış şəxslərin qulağını doldurub mənimlə onların arasında düşmənçilik yaratmağa çalışdılar ki, guya mən onlardan yazmışam. Lakin deməliyəm ki, bu əsəri yazarkən konkret olaraq heç kəsi nəzərdə tutmamışam. Mən sadəcə olaraq həyatı yazıram. Həyat isə rəngarəng olduğu qədər də, yeknəsəqdir: idarələr, müdirlər, evlər və hətta insan taleləri bir-birindən fərqləndiyi qədər də, bir-birinə oxşardır. Trilogiyanın üçüncü kitabında qəhrəmanların sonrakı taleləri açılır və hər şey aydınlaşır.

— Şəxsiyyətsiz «şəxsiyyətlər», yaltaqlar, stol, vəzifə düşgünləri, yalnız özü üçün yaşayanlar sizin həmişə tənqid hədəfiniz olub. Son beş il ərzində dünyamız elə çalxalanıb ki, insanların bu naqis keyfiyyətləri daha qabarıq üzə çıxıb. Bu barədə.

— Mən ümumiyyətlə, yaltaqlığa, ikiüzlülüyə, namərdliyə, satqınlığa sonsuz nifrət bəsləyən bir adamam və həyatda belə adamları görərkən onların nəyin naminə cilddən-cildə, sifətdən-sifətə düşdüyünü dərk edəndə qəzəblənirəm. Vəzifə, sərvət, şöhrət üstündə vuruşan adamlar mənim aləmimdə naqis, yarımçıq insanlardır və onları yəqin ki, özlərindən başqa heç kəs sevə bilməz. Bu son beş-altı il ərzində respublikamızda baş verən hadisələr bir rentgen aparatı kimi, əgər belə demək mümkündürsə, bizim hamımızı «soyundurdu» və istər ziyalı olsun, istər siyasətçi olsun, fərqi yoxdur, adamlarımızın hamısının ürəyinin, vicdanının və vücudunun saf və çürük yerlərini açıq-aşkar nümayiş elətdirdi. İndi xalqın adından danışan adamların sayı çoxalıb və mən onların bir çoxunu yaxşı tanıyıram. Dünən qışqıran, hayqıran, ağzı köpüklənə-köpüklənə xalqdan, vicdandan, ədalətdən, azadlıqdan dəm vuran adam, vəzifəyə çatan, isti və yumşaq kresloda yerini rahatlayan kimi hər şeyi unudur və kreslodan düşürdüyü adamdan da vicdansız bir bürokrata çevrilir. Belə adamlara mən

lap əvvəldən inanmamışam, inanmıram, inanmayacağam da. Bir kəsin ki, şəxsiyyəti yoxdur, onun ardınca ağıllı adamlar getməməlidirlər. Mən belələrini şəxsiyyətsiz «şəxsiyyətlər» adlandırıram.

Xalqımızın bu dar və ağır məqamında, cavanlarımız şəhidlik libası geyən, torpaqlarımız düşmən tapdağı altında qaldığı vaxt gündə bir partiya yaradıb adamların diqqətini əsas məsələdən — vətəni, xalqı xilas etməkdən yayındıran bəzi soydaşlarımızı mən heç cür anlaya bilmirəm. İndi partiya yaratmaq vaxtı deyil, indi cihad vaxtıdır. İndi müxalifət vaxtı deyil, indi müvafiqət vaxtıdır. Mən ömrüm boyu heç bir partiyanın üzvü olmamışam və indi də deyiləm. Mənim öz partiyam var — lideri də özüməm, əsgəri də, sürücüsü də; qərargahım isə xalqın ürəyidir.

— Torpaqlarımızda gedən müharibə xalqımızın taleyində gözlənilməz faciələr, ağlagəlməz əhvalatlar törədir. Bu mövzuda əsər üzərində düşünürsünüzmü?

— Müharibə aydındır ki, fəlakətdir. Tarix boyu heç bir xalq müharibədən xeyir görməyib. Namərd qonşularımızın bizdən torpaq iddiası etməsi son dərəcə qonaqpərvər, mehriban və dözümlü xalqımızı artıq qəzəbləndirmişdir. Onu deyim ki, ermənilər bu hadisələrdə «çox irəli» getdilər. Qonşu ilə dava edəndə gərək barışıq üçün də yer qoyasan. Amma onlar belə etmədilər. Mən təsəvvür edə bilmirəm ki, sabah sülh, əmin-amanlıq yaranandan sonra (buna mənim şübhəm yoxdur) onlar bizim gözümüzün içinə necə baxa biləcəklər.

Çox itgilər vermişik bu altı ildə. Torpaqlar, şəhidlər… Torpaqlar qayıdacaq — inanıram. Amma şəhidlərimiz qayıtmayacaqlar. Bir də böyük bir itkimiz var ki, hələ hiss etmirik — sonra göynədəcək bizi — o da yazılmamış, yaza bilmədiyimiz əsərlərimizdi. Bu, mənəvi itkilərdi. Ancaq bütün bunlara baxmayaraq müharibə mövzusu hər bir qələm sahibi kimi, məni də düşündürməyə bilməzdi. «Müharibə hekayələri» adlı bir silsilə hekayə yazmışam, onların bir neçəsi bu yaxınlarda şair dostum Şəkər Aslanın redaktorluğu ilə çıxan «Söz» jurnalında çap olunmuşdur. Bundan əlavə mən mövzusu müasir günlərimizdən alınmış «Möcüzə» adlı bir roman da yazmışam. Baş qəhrəmanlarımdan biri 88-ci ilin axırlarında Ermənistandan zorla köçürülmüş soydaşlarımızdan — qaçqınlardan olan Leyla adlı aydıngörən bir qızdır ki, orada sevgilisi və qardaşı ermənilər tərəfindən qətlə yetirilib. Qəribə taleli, qəribə istedadlı, möcüzəkar bir obraz olan Leyla son illərdə respublikamızda cərəyan edən gizli-aşkar proseslərin açıl-

masına, meydana çıxıb xalqı dəfələrlə aldadanlara, gizli iqtisadiyyat nümayəndələrinə, satqınlara, xəyanətkarlara və s. münasibətimi bildirməkdə mənim üçün əsas vasitəyə çevrilmişdir. 1992-ci ildə həmin romandan bir parça radio ilə səsləndirilib.

— Deməli, yenə baş qəhrəmanınız qadındır. Ümumiyyətlə, sizin yaradıcılığınızda qadınlar həmişə aparıcı obrazlardan olur. Elə isə qadın haqqında nə deyərdiniz?

— İstər qadın, istər kişi olsun, insan ürəyini oxumağı, başa düşməyi, onun zərifliyini görməyi və göstərməyi yazıçının ən böyük vəzifəsi hesab edirəm. Hər insanın həyatı yazılmamış bir kitabdır, onu oxumaq və kağız üzərinə köçürməyi bacarmaq lazımdır.

Qadına gəlincə, onu tanrının və təbiətin insanlığa bəxş elədiyi ən zərif, ətirli bir çiçək hesab edirəm. Qadın Tanrının yaratdığı ən böyük möcüzədir və bəzən tanrı özü də öz möcüzəsinə baxıb heyrətlənir. Ondan öyrənmək, zövq almaq, onu əzizləmək və uca tutmağı bacarmaq lazımdır. Əgər bir yaradıcı adam kimi, qadının ürəyini, psixologiyasını duyub göstərə bilirsənsə, deməli, bəşəriyyətin yarısından çoxunu təşkil eləyən bu cinsi-lətifin — bu tanrı möcüzəsinin müəyyən qədər sirdaşına çevrilə bilərsən. Bu isə kiçik səadət deyil.

— Əlibala müəllim, sizə yaradıcılıq uğurları arzulayır və müsahibəyə görə təşəkkür edirəm.

*Mehriban Xalıq*

## LİRİK DİL QOCALMIR

Universitetin birinci kursunda hamımız şer yazırdıq. Əlibala Hacızadə də. Şer-nəsr dərnəyimizdə bir gün Əlibala qabağa çıxdı, gözlədik ki, şer oxuyacaq. Birdən B.Vahabzadəyə üzünü tutdu: «Müəllim, bir hekayə oxumaq istəyirəm». Müəllim: «Buyur». Əlibala yığcam bir hekayə oxudu: «Mənim ilk məhəbbətim». Bir yaşda oğlanlar idik. Hekayəyə qulaq asıb bəzi şeylər fikirləşdim. Bir onu ki, ay zalım, sən hələ 17 yaşındasan, məhəbbətini dəfn elədin, bəs sonra necə yaşayacaqsan?

Fikirləşdim ki, «ilk məhəbbət» anlayışı varsa, deməli, yenə məhəbbət olmalıdır. Hekayə hekayədir, ancaq mən elə bildim ki, doğrudan da Əlibalanın taleyi batdı. Çünki çox səmimi, inandırıcı yazmışdı. Bu, indiyə qədər oxuduğum kitablardakı kimi kitab hadisəsinə bənzəmirdi. Yenə fikirləşdim ki, yox, bu elə bədii obrazdır, elə ustalıqla verib ki, həqiqətə bənzəyir. Əlibala yazıq deyilmi, sevgisi birinci kursdan ölə? Ancaq məni daha çox fikirləşdirən ayrı şey idi: Əlibalanın hekayəsinin dili bizim şerlərimizinkindən daha şairanə idi. Deməli, şeriyyət janrda deyil, bədii düşüncənin formasını tapmaqda imiş. Bunu tapmaq üçünsə istedad olmalıdır. Əlibalanın fitrətində bu istedad vergisi var imiş. Onun ilk hekayəsinin dilinə qulaq asandan sonra məni daha başqa bir hiss götürdü: Ə.Məmmədxanlının hekayələri, bu hekayələrin şerdən artıq emosiya gücü olan dili yadıma düşdü. Gördüm ki, bu dillər bir-birinə oxşayır. Demək, Ənvər Məmmədxanlı kimi yazmaq olarmış. Ə.Məmmədxanlı adiləşmədi, Əlibala ona tənzərliyi ilə gözümdə böyüdü.Əlibala, bu birinci kurs tələbəsi yazıçı olacaqdı, onun hekayələrini izlədim. «Soyuq» hekayəsi yazıldı. Hekayənin dilində ifadə kəşfləri var — bu, obrazın psixoloji yaşanışına diqqətdən gəlir. Məsələn, soyuqda donan adam papirosun tüstüsünü udmasına belə məna verir. «Tüstünü udurdum ki, bəlkə bir az qızınım». Lirik qəhrəmanın daxili «mən»i həzin emosiya ilə köklənir. Bir tərəfdən, həzinlik, kədər dilin lirizmini tələb edir, o biri tərəfdən həyatın ədalətsizliyi bu dilə ictimai motiv yükləyir. Bu ikinci çapar gələcəkdə sərtləşəcək, satirik məzmun kəsb edəcək, yazıçının dilində komik istiqamət üzə çıxacaqdır. İlk heka-yələrində lirizm və komizm ümumi tonun çalarlarıdır. Bir az sonra bu aspektlər müstəqilləşir. Sırf lirik-mənsur şer dili və sırf komik dil formalaşır. Bu, artıq yazıçı dilinin bədiiliyinə dəlalət edir. Bəli, Əlibalanın bədii

dil üslubu çox erkən yetkinləşdi. «Yoxa çıxmış adam» hekayəsində yumor, şirin gülüş var, ancaq dilin modelində lirizm qəlibi əsasdır. «Sadıq əl çalır» da mükəmməl komik obrazdan xəbər verir. Sadığı cavan yazıçı yamanca kəşf etmişdi. Bizim bu gün Sadıqlarla əhatə olunmağımızın günahı Əlibalada deyil, sadəcə Əlibala bu xisləti kəşf etmişdi. Ancaq bu gün Sadığın son müdiri yoxdur. Bu günün yazıçısı onu axtarmalıdır. «Ağ saçlı qızın hekayəsi»ndə dilin lirizmi zilə qalxır. Belə hekayələr dərsliklərə düşməlidir. Belə hekayələr insanları saflaşdırır, əlbəttə, insanları! (Ancaq Əlibala, qardaşım, bənövşənin boynu düzəlməyib, sadəcə o, vəziyyətinə alışıb).

Əlibalanın bu hekayələri həyatın bulaqları, kiçik arxları kimi meydana gəlirdi. Elə bil bu kiçik hekayələr ya bir bulağın zümzüməsini (lirik əsərləri), ya da bulanıq arxın çiləkənli axarını (komik əsərləri) əks etdirirdi. Hələ Əlibalanı qabaqda gur nəhrlər, coşğun dəryalar gözləyirdi. Ancaq Əlibala suyun saflığını və bulanıqlığını tanıyırdı, axarının nəliyini bilirdi.

Əlibala həyatın dərinliklərinə nüfuz etdikcə, problemləri ağırlaşdıqca janrları böyüyür, povestlər, roman yazır… Təbii ki, bədii dili də öz əsli-kökü üzərində boy atır. Komik ünsürlərlə ürəkdən yoldaşlıq edən lirik dili epiklik səviyyəsinə qalxır. Bu gün radio-televiziyanın insan zövqünü hakimiyyətlə idarə etdiyi dövrdə Əlibalanın iri-iri cildləri həvəslə oxunur. Kitab mağazalarında tapılmayanda onun əsərlərini tanış-bilişlərin bir-birindən axtardığının şahidiyəm. Əlbəttə, mən yazıçımızın süjetlərinin həyatiliyini, hadisələrinin dramatikliyini, sevgi səhnələrinin bolluğunu və duyğulandırıcılığını nəzərə almaqla, bu oxunaqlığın baş təlimatçısı kimi həmin əsərlərin dilini bilirəm. O süjetlər, o sevgi səhnələri şirin dillə yazılıb, hadisələr öz dramatik ucalığına ürək döyüntülü bələdçi ilə, şaqraq dillə qalxır. Bu epik dil lirik pərdələrlə toxunur, epiklik lirizmlə naxışlanır. Bu dil romana lirik hekayələrindən süzülüb gəlir. «Günəş, zirvəsində yay-qış qar ağaran Ağ dağın arxasında yenicə gizlənir, şər yavaş-yavaş qarışırdı. Uzaqda, göylərə dirənmiş kimi görünən dağın nəhəng, tutqun kölgəsi hələ də aydın seçilirdi» («İtkin gəlin»). Mən istərdim ki, «şər qarışmaq» ifadəsinin içindən zərfliyi çıxarım — qrammatika tələb edir ki, «yavaş-yavaş şər qarışır» işlənsin. Gördüm ki, yenə yazıçının variantı daha effektlidir: ifadədə «şər» subyekt kimi daha müstəqildir. Və buradakı «göylərə dirənmiş kimi görünən kölgə» mənzərəsi «Dədə Qorqud»dakı «qurulu yaya bənzər çatma qaşlı» portretini yadıma saldı.

Daha heç bir misal gətirmirəm və təfərrüata varmıram — təbii ki, Əlibalanın dilindən kitab da yaza bilərəm. Ancaq bununla kifayətlənirəm, bu sözləri Əlibalanın 60 illik yubileyinə teleqramsayağı bir yazı kimi qələmə aldım. Və teleqramı bu sözlərlə bitirirəm: əzizim, tələbə vaxtımızda sənin hekayələrinin dili ustadlarımızı yada salırdı. Sən o ustadların bədii dil normamıza gətirdiklərini xeyli zənginləşdirmisən. İndi sən özün də ustadsan.

*Tofiq Hacıyev*
*professor*

## ƏLİBALA HACIZADƏNİN 65 İLLİYİ QEYD OLUNDU

Əllərində gül dəstəsi Aktyorlar Evinə axışan cavanları görəndə hiss elədim ki, getdiyimiz tədbir möhtəşəm keçəcək. Yazıçı Əlibala Hacızadənin 65 illik yubileyinə həsr olunmuş gecəni deyirəm… Gecəni Ali Diplomatiya Kolleci, İran Mədəniyyət Mərkəzi və Hikmətsevərlər Cəmiyyəti birgə təşkil etmişdilər. Zənnim aldatmamışdı məni… Bir göz qırpımında zal adamla doldu. Amma yenə axın dayanmadı. Əlbəttə, siz özünüz də təsdiq edirsiniz ki, bu Əlibalasevərlərin yalnız və yalnız kiçik bir damlası idi. Özü də paytaxtdakı Əlibalasevərlərin…

Onun rayonlarda da, ucqar kəndlərdə də, hətta respublika hüdudlarından kənarda da çoxsaylı oxucuları var və bu oxucular da Aktyorlar Evinin zalında maraqla gözləyən tamaşaçılar kimi, Əlibala müəllimin yubileyində məmnuniyyətlə iştirak etmək istəyirdilər. Yəqin ürəkləri ordaymış…

Tamaşaçılar bu şənbə günü maraqlı bir gecə yaşayacaqları qənaətində idilər. Odur ki, səhnədə görünən yubilyarı, şair Zəlimxan Yaqubu və Şahin Fazili hərarətlə alqışladılar.

Tədbiri Zəlimxan Yaqub açdı. Əvvəlcə yazıçının qazandığı uğurlardan, oxucu qəlbinə yol tapmaq bacarığından danışdı və dedi ki, «İtkin gəlin» çap olunan vaxtı mən kitab evində işləyirdim. Yadımdadır, satılmayan kitabları onun üstünə qoyub satırdıq» — söylədi.

Sonra Ə.Hacızadənin bir insan kimi müsbət keyfiyyətlərindən danışdı, yoldaşlıqda səmimi, dostluqda sədaqətli olduğunu söylədi. Eyni zamanda «ömrünün 50 ildən çoxunu yazıçı əzabları altında keçirən» həmkarının «ömründə bir dəfə» hərarətli alqışa layiq olduğunu söylədi. Tamaşaçılar şairin sözünü yerə salmadı.

Şair-qəzəlxan, «Məcməüş-şüara» ədəbi məclisinin rəhbəri Şahin Fazil Əlibala müəllimlə Əfqanıstanda birgə keçirdikləri günlərdən söz açdı və ona həsr etdiyi şerini oxudu.

Gecədə yazıçının lentə alınan əsərlərində iştirak etmiş aktyorlar da iştirak edirdilər — Hicran Nəsirova, Məleykə Əsədova, Firəngiz Mütəllimova və başqaları.

«İtkin gəlin», «Əfsanəsiz illər» və «Ayrılığın sonu yoxmuş» trilogiyasının baş qəhrəmanı, Əfsanə obrazının ifaçısı, Xalq artisti

Məleykə Əsədova həmin film üçün bəstələnən mahnını ifa etdi, sonra yazıçının gözəl bir şerini söylədi.

Dünya xanım — Hicran Nəsirova isə yazıçının ünvanına dediyi xoş sözlərlə və təbriklərlə çıxışını yekunlaşdırdı.

Təbrizdən yaxın günlərdə Bakıya təşrif gətirmiş Aşıqlar ansamblının çıxışı tamaşaçıların lap ürəyincə oldu. Sazın-sözün istisində Təbriz havası duydu dinləyicilər. Bəlkə də yazıçı üçün ən qiymətli sürpriz idi bu…

Oxucuları qarşısında alnıaçıq idi Əlibala müəllim. Əvvəla ona görə ki, zəhmət çəkib onun qalın-qalın kitablarını oxuyanlar vaxtına təəssüf etməmişdilər heç vaxt. İkinci də ki, verdiyi vədlərin hamısına sadiq qalmışdı yazıçı. Yubileyinə növbəti kitabıyla gəlmişdi.

«Sevəcəyəm» adlanan bu kitabın maraqlı cəhətlərindən biri odur ki, kitaba yazıçının yeni povest və hekayələriylə yanaşı, sevilib-seçilən, əzbərlənən lirik şerləri də daxil olunub. Bu şerlərin bəziləri Əlibala müəllimin qələmə aldığı maraqlı romanlardan, bəziləri isə mətbuat səhifələrindən tanışdır bizə. Ancaq çoxusu heç kimin görmədiyi arxiv materiallarıdır. Belə… Biz də təbrik edirik Əlibala müəllimi. Arzu edirik ki, yeni-yeni maraqlı əsərlərlə oxucularını sevindirsin.

*Ağayar Şərif*

## ƏLİBALA HACIZADƏ: MƏN BÖYÜK ARZULARLA YAŞAYAN ADAMAM

Filologiya elmləri namizədi, neçə-neçə roman və povestlər müəllifi, tanınmış yazıçı Əlibala Hacızadə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsini bitirmişdir. 1958-ci ildən Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda çalışır. 1966-1970-ci illərdə, Əfqanıstanda tərcüməçi işləyib və Əfqanıstvn mövzusu onun əsərlərində geniş əksini tapıb.

Yazıçının «Heykəl gülür» (1962), «Məhəbbət olmayan evdə» (1963), «Unutmaq olmur» (1965), «Cehiz» (1969), «Təyyarə kölgəsi» (1974), «İtkin gəlin» (1979), «Əfsanəsiz illər» (1981), «Ayrılığın sonu yoxmuş» (1983), «Vəfalım mənim» (1985), «Dünyanı tanı» (1990) və s. kitabları onu geniş oxucu kütləsinə sevdirmişdir.

— Əlibala müəllim, Siz bir sıra romanların və televiziya tamaşalarının ssenari müəllifi kimi tanınmısınız. Hansı əsərləriniz ekranlaşdırılıb?

— Mənim bir neçə əsərim üzrə televiziya tamaşaları və filmləri çəkilib, o cümlədən «Əgər inanmırsansa», «Unutmaq olmur» bir hissəli televiziya tamaşaları və «İtkin gəlin» 12 seriyalı televiziya filmi… «İtkin gəlin» faktiki olaraq ilk Azərbaycan serialıdır. Onun quruluşçu rejissoru, xalq artisti L.Məmmədbəylidir. «İtkin gəlin» və «Yandırılmış adam» pyeslərim Gəncə Dövlət Dram teatrında tamaşaya qoyulmuş və müvəffəqiyyətlə oynanılır.

— Teleserial janrına münasibətiniz necədir?

— Mən teleserial formasını yüksək qiymətləndirirəm. Bu elə bir formadır ki, həm yazıçı, həm rejissor, həm də aktyor heyəti istedadının müxtəlif çalarlarının açılmasına imkan verir. Ümumiyyətlə, məhz «İtkin gəlin» Azərbaycanda teleseriala baxmaq vərdişi üçün zəmin yaratmışdır. Xarici teleseriallara mən xoş bir qibtə hissilə baxıram. Bizim də belə filmləri çəkmək üçün hər cür imkanımız var. Lakin gözəl rejissorumuz L.Məmmədbəyli «Vəfalım mənim» romanım əsasında 20 seriyalı teleserial çəkmək istəyir. Hələlik, bu arzu maddi imkansızlıq üzündən həyata keçirilə bilmir.

— Əlibala müəllim, bildiyimizə görə, Sizin 65 yaşınız tamam olur. Bu illər ərzində əldə etdiklərinizdən razısınızmı?

— Mən çox böyük arzularla yaşayan adamam, ancaq, təəssüf ki, düşündüklərimin çox az hissəsini həyata keçirə bilmişəm. Mənim oxucularıma müəyyən mənəvi borclarım var. «Vəfalım mənim», «Təyyarə kölgəsi» trilogiyasının 3-cü hissəsi yazılsa da, çap olunmayıb. «Dünyanı tanı» əsərimin birinci cildi çıxıb, ikincisi isə yox. Keçmişdə bizim kitablarımızı nəşriyyatlar böyük məmnuniyyətlə qəbul edib, çap edir, qonorar verirdi. İndi isə dövlət nəşriyyatlarının gücü sıfra bərabərdir, özəl nəşriyyatlar isə müəyyən məbləğə çox kiçik tiraj — 500-1000 nüsxə çap edir. O məbləği vermək üçün imkan yoxdur. Məsələn, 40 il ərzində yazdığım şerlərimi 65 illiyimlə əlaqədar kitab halında çap etdirmək istəsəm də, imkanım olmayıb.

— Hal-hazırda hansı əsər üzərində işləyirsiniz?

— Son bir neçə il ərzində «Möcüzə» adlı roman yazıram. Bu əsər xalqımızın son 10 il ərzində başına gələn hadisələrə həsr olunaraq cəmiyyətdəki sarsıntılar, adamların psixologiyasının dəyişilməsindən bəhs edir. Romanın birinci hissəsini qurtarmışam, ikinci hissəsinin üzərində işləyirəm.

— Öz-özünüzə nə arzu edərdiniz?

— Mən özümə, oxucularıma və «Günay» qəzeti əməkdaşlarına cansağlığı, yaradıcılıq uğurları arzulayıram. Ümidvaram ki, XXI əsrə bizi sındırıb, xəcil eləyən Qarabağ dərdi ilə keçməyəcəyik. Problem həll olunacaq, əks halda bizim gülməyə, sevinməyə, başımızı şax tutmağa haqqımız yoxdur.

— Müsahibəyə görə sağ olun!

*«Günay» qəzeti*

# O HƏM DƏ TƏDBİRƏ GƏLƏNLƏRİN VAXTINI ALDIĞI ÜÇÜN ÜZRXAHLIQ EDİB HALALLIQ İSTƏDİ

Oxucu məhəbbəti qazanan, kitabları əldən-ələ gəzən yazıçı Əlibala Hacızadənin 65 illik yubileyi Suraxanı rayonu 279 saylı orta məktəbdə təntənəli şəkildə qeyd edildi. Tədbirdə Respublika «Ziyalı Qadınlar Cəmiyyəti»nin vitse-prezidenti, əməkdar müəllim Şəfiqə Əliyeva, BDU-nun dosenti, filologiya elmləri namizədi, «Ziyalı Qadınlar Cəmiyyəti»nin Səbail rayon şöbəsinin sədri Leyla Gərayzadə, «Naxçıvan» qəzetinin baş redaktoru Nazilə xanım, «Ziyalı» qəzetinin baş redaktoru, fəlsəfə elmləri namizədi Həqiqət xanım, Suraxanı RTŞ-nin müdiri Fərhad Həsənov, RİH başçısının müavini Mehman Əliyev, rejissor Lütfi Məmmədbəyov, bəstəkar Cavanşir Quliyev, məktəb direktorları, yubilyarın qələm dostları Nəriman Həsənzadə, Oqtay Rza, İlyas Tapdıq, KİVİHİ-nin sədri Oqtay Salamzadə, aktyor Məcnun Hacıbəyov, aktrisalar Məleykə Əsədova, Səidə Quliyeva, müğənnilərdən Nüşabə Ələsgərli, Yaqut Babayeva, Ruhəngiz Allahverdiyeva, Kəmalə Rəhimli, Baloğlan Əşrəfov, Elxan Şirinov, Səyyad Əlizadə və başqaları iştirak edirdilər.

Qonaqları məktəb şagirdləri gül-çiçəklə, şerlə qarşıladılar. Heydər Əliyev muzeyinə baxış oldu. Məktəbin direktoru Məmməd Əliyev ətraflı məlumat verərək muzeyin necə yaranmasından söz açdı.

Yubiley tədbiri məktəbin akt zalında davam etdi. Çıxış edən məktəb direktoru bildirdi ki, bu gün tanınmış yazıçı Əlibala müəllimlə birlikdə respublika səviyyəsində tanınmış sənət adamları, o cümlədən hörmətli prezidentimizin bacısı Şəfiqə xanım, Suraxanı RTŞ rəhbərliyi, RİH nümayəndələri yubilyarı təbrikə gəliblər.

Məmməd Əliyev öz çıxışında məktəb haqqında və məktəbdə keçirilən tədbirlər barəsində də məlumat verdi.

Tədbirin ssenari müəllifi və aparıcısı Aygün Salmanqızı gələn qonaqların təqdimatıyla bərabər, yazıçının həyat və yaradıcılığından söz açdı və sözü şerə, sənətə, mahnıya verdi.

Əlibala Hacızadənin «İtkin gəlin» romanı əsasında çəkilən filmdə baş rollardan birinin ifaçısı Məleykə Əsədovaya söz verildi. O, filmin yaranması haqqında maraqlı xatirələr söyləyib məhz bu filmdən sonra özünün də məşhurlaşdığına görə, həmçinin gözəl qələm sahibi olan Əlibala müəllimin əsərlərinə görə ona minnətdarlığını bildirib, yubilyarın 65 illiyini təbrik etdi.

Məktəbin şagirdi Vüqar ansamblın müşayiəti ilə xalq mahnısını ifa etdi.

Müğənni Baloğlan Əşrəfovun «Şəhriyar» instrumental ansamblı tədbiri müşayiət edirdi. Baloğlan Əşrəfov yubilyar haqqında danışıb onun şerlərinə 80-ci ildə bəstələnmiş mahnıları ifa etdi.

KİVİHİ-nin sədri yazıçı Oqtay Salamzadə Əlibala Hacızadəyə «Qızıl qələm» mükafatını təqdim etdi və xalqın yazıçısı olan Əlibala müəllimə yeni yaradıcılıq uğurları arzuladı.

Müğənni Nüşabə Ələsgərli ürək sözlərini deyəndən sonra Şəfiqə Axundovanın «Gözlərimin işığı sənsən», «Ürəyimlə bacarmıram, neyləyim» mahnısını ifa etdi.

Aktrisa Firəngiz Mütəllimova yubilyara ürək sözlərini söylədi.

Şair Nəriman Həsənzadə ürək sözlərini söylədikdən sonra şer oxudu.

«Ziyalı» qəzetinin baş redaktoru Həqiqət xanım çıxış etdi.

Kəmalə Rəhimli muğamatla qonaqları salamlayıb, sonra «Bu sevgidə kim uduzdu, kim uddu» mahnısını ifa etdi, yubilyara xoş sözlər söylədi.

Şairlərdən İlyas Tapdıq, Oqtay Rza, müğənnilərdən — Səyyad Əlizadə, Yaqut Babayeva, Ruhəngiz Allahverdiyeva, rejissor Lütfi Məmmədbəyov, bəstəkar Cavanşir Quliyev, aktrisa Səidə Quliyeva, müğənni Elxan Şirinov, aktyor Məcnun Hacıbəyov, Suraxanı RTŞ-nin müdiri Fərhad Həsənov yubilyarı təbrik etdilər.

«Ziyalı Qadınlar Cəmiyyəti»nin vitse-prezidenti, əməkdar müəllim Şəfiqə Əliyeva öz çıxışında bu görüşün əlamətdarlığından danışdı və ziyalıların, sənət adamlarının burada görüşərək keçmiş xatirələri yada salmalarından söz açdı. Natiq çıxışında 279 saylı məktəbin direktoru Məmməd Əliyev başda olmaqla məktəb kollektivinə bu cür tədbir hazırladıqlarına görə təşəkkür etdi. Şəfiqə xanım bildirdi ki, yaradıcı adamlar böyük hörmətə layiqdirlər, onların qədri daima bilinməli və uca tutulmalıdır. Özünün də müəllim olduğunu vurğulayan Şəfiqə xanım müəllim və şagirdlərə səadət arzulayıb, yubilyara yaradıcılıq uğurları, mənalı ömür dilədi.

Tədbirin sonunda yazıçı Əlibala Hacızadə «İmtahan» hekayəsindən sonra Qarabağın işğalı ilə əlaqədar olaraq bir hekayəsini danışdı, vətən torpaqlarının azad olunması uğrunda hamının birliyinin vacibliyini göstərdi və şer də dedi. Əli Kərimi yada salıb onun «Sən mənim qədrimi biləsən deyə, bu cavan yaşımda ölümmü indi» misralarını dilə gətirən yubilyar tədbirin necə hazırlanması haqqında da-

nışdı və çıxışının sonunda tədbirə gələnlərə, məktəb kollektivinə dərin təşəkkürünü bildirdi, tədbirə gələnlərin vaxtını aldığı üçün onlardan halallıq istədi.

Tədbirin aparıcısı Aygün xanımın qızı Vüsalənin ad gününü təbrik edən tədbir iştirakçılarına qoşularaq biz də onu təbrik edir, dərslərində uğurlar arzulayırıq!

*«İcmal» qəzeti*

## «SƏNƏTKAR SƏHV ELƏYƏ BİLMƏZ»

— Əlibala müəllim, zamanın indiki yaşantılarını necə qarşılayırsınız, bu axara münasibətiniz necədir?

— Zamanın indiki yaşantıları bizim xalqımız üçün, xüsusilə yazıçı, şair, sənət adamları üçün daha çox gözlənilməzdir. Yəni bu təbii bir proses idi, olmalı idi. Və bu proseslərin içində tənzimlənmə yaranmalı idi. Hələ rəhmətlik Sabir yazmışdı ki:

Çalxalandıqca, bulandıqca zaman nehrə kimi,
Yağı üstə çıxır, ayranı ayranlıq olur.

Bu sözdə böyük hikmət var. Bir də Sabirin sözlərinin qiyməti ondadır ki, bütün zamanlara şamil edilir. İndiki zamana da aid eləmək olar. Bu proses cəmiyyəti ələməlidir. Mən deyərdim ki, bizim cəmiyyətdə də bir dəyişiklik olmalı idi. Amma indi bu proseslər gözlənilməz də olsa, təbii hesab oluna bilər. Belə ki, bu proseslər cəmiyyəti silkələdi. İstedad, qabiliyyət, bacarıq, insanın daxili imkanları, potensialı üçün münasib şəraitdir. Yəni, kim bacarırsa, kim istedadlıdırsa, kim zirəkdirsə yaşamağa qadirdir. Bilirsiniz, zaman və həyat çox qəddar bir mexanizmdir, zəifləri sevmir. Güclüləri yaşadır və güclülərin çiynində gələcəyə gedir.

— İndiki dövrdə yazıçı olmaq çətin deyil ki?

— Mən sualı bir az başqa cür qoyardım. Ümumiyyətlə, yazıçı olmaq çətin deyil ki, soruşsaydınız daha yaxşı olardı. Mən deyərdim ki, ümumiyyətlə, sənət adamı olmaq çətindir. Yəni hər kəsə nəsib olan nemət deyil. Hər kəs yazıçı, şair, rəssam ola bilməz. Bu ilahi vergidir, verilir, intəhası, o şəxsiyyətin özündən də çox şey asılıdır. Sənə verilən, bəxş olunan o nemətin qədrini biləsən, yaşada biləsən, qoruya biləsən. Və əgər sən onu bacarırsansa, özün də yaşamağa qadir olursan. Bu mənada mən sənət adamı olmağın çətinliyini qorxulu bir şey hesab eləmirəm. Onu da təbii bir şey hesab edirəm. Zaman sənətkarın ürəyinə hökm eləyir. Söz dedirdir və onun dedirtdiyi sözü deyən sənətkar öz dövrünü, zamanını qiymətləndirməyi bacarır.

— Sənətkarın ictimai mühitə münasibəti necə olmalıdır?

— Sənətkarın ictimai mühitə münasibəti çox fəal, çox ayıq olmalıdır. Mən deyərdim ki, ictimai mühitə sənətkar hər bir siyasətçidən daha ayıq, uzaqgörən münasibət göstərməlidir. O, məhz buna görə sənətkardır. Siyasətçi səhv eliyə bilər. Bu gün belə deyə bilər,

sabah deyər bağışlayın, səhv eləmişəm. Amma əsl sənətkarın səhv eləməyə ixtiyarı yoxdur. Ona görə sənətkarın nüfuzu burada, xüsusilə, diqqəti cəlb edir.

— Taleyinizdən narazı deyilsiniz ki?

— Xeyr, mən öz taleyimdən qətiyyən narazı deyiləm. Həyatda hər insanın öz çətinlikləri, problemləri olur. Mən onlara adi həyat, məişət problemləri kimi baxıram. Mənim ən böyük çətinliyim əsər yazmaqdır. Ondan böyük çətinlik yoxdur. Bu gün çap olunmaz, sabah olar. Olunmaz, mən dünyada olmayanda çap olunar. Sənətkarın qarşısında duran bir nömrəli vəzifə oturub əsər yazmağı, söz deməyi bacarmaqdır. Cəmiyyətə, insanlara, xalqa həmin bu dövrü izah eləyən, şərh eləyən, onun psixologiyasını açan əsərlər yazıb verməkdir. Əgər yazıçı bunu eləyə bilirsə, xoşbəxt yazıçıdır, eləyə bilmirsə bədbəxtdir. Mən şəxsən bu cəhətdən özümü heç bir çətinlik qarşısında hiss eləmirəm. Ürəyim istəyən zaman, ürəyim dolu olan zaman yazıram. Olmayanda kağıza, qələmə əl vurmuram. Başqa işlərlə məşğul oluram. Yəni əsəri söz demək üçün yazmaq lazımdır. Elə-belə əsər yazmaq xatirinə yazmaq lazım deyil.

— Hər bir sənətkarın taleyində ailənin xüsusi rolu var. Sizin ailənizin yaradıcılığınıza təsiri olub?

— Mənim ailəmdən sənətimə təsir baxımından heç bir narazılığım yoxdur. Yəni mən tam azad bir şəraitdə ailə qayğıları, məişət problemləri ilə məşğul olmağımla yanaşı, yazıçı kimi də fəaliyyətimi davam etdirmişəm. Ancaq məsələ burasındadır ki, sənət adamlarının ailələrini mən xoşbəxt hesab eləyə bilmirəm. Bilirsiz, sənət adamının xanımı olmaq çox çətindir. Bunu hər xanım, hər qadın bacara bilməz. Onu başa düşən, onun yaradıcılıq düşüncələrini yaşayan, onun əsərlərini dərk eləyən xanımı olan sənətkar mənə elə gəlir ki, hər şeydən əvvəl xoşbəxt bir kişidir, sonra yazıçıdır. Əgər hər hansı bir sənətkarın belə bir şəraiti varsa, o yaxşı əsərlər də yarada bilər, çox da yaşaya bilər və cəmiyyətə daha çox xeyir verə bilər.

— Ümumiyyətlə, gec yaxud tez ailə qurmağın sənətkarın taleyində rolu var?

— Mən şəxsən öz fikrimi deyirəm. Əlbəttə, sənətkar da cəmiyyətin bir üzvüdür. Ailəsi, övladı olmalıdır, nəsli davam etməlidir. Bunlar təbii şeylərdir. Şəxsən mənim fikrimcə, elə sənətkarlar var ki, onlar evlənməsə, ailə qurmasalar daha yaxşıdır.

— Sizin qəhrəmanlarınız daha çox həssasdır. Bu, nədən irəli gəlir?

— Bu sual çox həssas sualdır. Özüm şəxsən bu barədə düşünürəm. Bu ondan irəli gəlir ki, mən özüm həssas adam olmuşam. Və istər-istəməz mənim içimdəki həssaslıq yazılarımdakı qəhrəmanların xarakterinin xüsusiyyətinə çevrilir. Və onlar da həssasdır. Bir dəfə mənə sual verdilər ki, Əlibala müəllim, sizi hamı niyə çox istəyir? Maraqlı sual idi. Mən bu maraqlı sualın qarşısında xeyli fikirləşdim və tapdım. Çünki mən özüm hamını çox istəyirəm. Ona görə də hamı məni çox istəyir. Və mən hamıya insan kimi baxıram. Ətrafımızda olan naqis insanları görəndə çox sarsılıram.

— Çağdaş ədəbiyyatımız haqqında nə deyərdiniz?

— Çağdaş ədəbiyyatımız tamam yeni bir proses üzərində gedir. Şerimiz canlanır, publisistikamız sürətlə inkişaf edir. Mən bunlara baxıb sevinirəm. Nəsr nümunələri yaranır, xüsusilə cavanlar arasında canlanma var. Bunlar bizim ədəbiyyatımızın sabahının yaradıcısıdırlar. Bununla belə mən keçmiş ədəbiyyatımızın üstündən də xətt çəkmək fikrindən uzağam. Keçmiş ədəbiyyatımız (Sovet ədəbiyyatı nəzərdə tutulur — N.N.) bütün nöqsanlarına, yalanlarına, riyakarlıqlarına, məddahlıqlarına baxmayaraq, yaxşı ədəbiyyatdır. Dövrünə görə yaxşı ədəbiyyat olub və bizim haqqımız yoxdur onun üstündən xətt çəkək. Bundan bizə ancaq zərər gələr.

— Son yaradıcılıq işləriniz haqqında bir neçə kəlmə…

— Son dövrlərdəki hadisələrdən çox sarsılmışam. Qarabağ hadisələri hamı kimi məni də çox sarsıdıb. Amma bu proses hardan gəldi, necə oldu, necə olacaq, bütün bu məsələlərə aid «Möcüzə» romanımı yazmağa başlamışam. Romanın birinci hissəsi bir il ərzində «Şəhriyar» qəzetində çap olunub. İkinci hissəsi hələ çap olunmayıb. Mən özüm də son nöqtəni qoymamışam. Roman sırf başımıza gətirilən hadisələrlə bağlıdır. Əsərin qəhərəmanı uzaqgörən mərd bir qadındır. Həyatda belə qadınları Allah vergisi hesab eləyirəm və belələrinə inanıram. Leyla adlanan qız keçmiş rəhbər vəzifədə olanların əməllərini üzünə vurur. Onun bilmədiklərini, hamıdan gizlədiklərini, millətin başına gətirdiyi müsibətləri kişi obrazın üzünə vurur. Mən ağlıma gətirə bilməzdim ki, adam doğulduğu torpağı da sata bilər. Bundan o yanası yoxdur. Bu dərdləri o yazımda verməyə çalışmışam.

— Əlibala müəllim, 1998-ci il təzə başlayıb. Oxucularımıza, bütövlükdə xalqımıza nə arzulardınız?

— 98-ci ildən mən çox şey gözləyirəm. Ən çox gözlədiyim, həsrətlə, intizarla gözlədiyim odur ki, 98-ci ildə bu Qarabağ məsələsi tam da olmasa, əsasən həll olunsun, qaçqınlarımız öz torpaqlarına qayıtsın. Bu, ən böyük arzumdur. Bu arzularımın şahıdır. Bu arzu yerinə yetiriləndən sonra mən bu xalqın xoşbəxtliyini, sağlamlığını, gələcəyini Allah-təaladan diləyirəm. Bu xalq qədirbilən xalqdır. Və bu sarsıntılardan sonra hər birimizin mən azərbaycanlıyam, mən Azərbaycanam deməyə haqqı, cəsarəti çatacaq...

*Niyaz Nəsir,*
*«Millət» qəzeti*

## «ALLAHIN QORXUSUNDAN YALAN DANIŞMAQ OLMUR, BƏNDƏNİN QORXUSUNDAN — DOĞRU…»

Müdrik yazıçımız: «Oxuculara üç borcum var» — dedi.

Görkəmli söz ustalarıyla həmsöhbət olmaq nə qədər xoşdursa, bir o qədər çətin işdir. Bu görüş anlarının ixtiyar sahibi ola-ola, istər-istəməz «yüyən»i əldən verir, adi dinləyiciyə çevrilirsən…

Əlibala Hacızadə milli ədəbiyyatımızın sayılıb-seçilən qələm sahiblərindəndir. Yaxın keçmişi — 70-80-ci illəri xatırlamaq kifayətdir: «İtkin gəlin», «Təyyarə kölgəsi» kitabları milyonlarla könül sirdaşı, tale yoldaşıydı. Görünməyən tirajlarla (100 min nüsxə) buraxılsa da, azlıq edir, əl-əl gəzir, vərəqləri məhz oxunmaqdan cırılırdı bu kitabların.

Əlibala müəllimin zəngin, keşməkeşli ömür yolunun dörd ili (1966-70) başıbəlalı Əfqanıstanla bağlıdır. «Köhnə dostları»nın taleyinə biganə olmadığını nəzərə alıb öncə bu barədə söz saldım. Müdrik yazıçının qeyri-adi — gömgöy gözlərinə duman çökdü.

— Əfqanlar zəhmətkeş, mərd, qonaqpərvər xalqdır. Başlarına gələn müsibətlər sadəliklərinin, savadsızlıqlarının nəticəsidir. «İslamın əsl varisləri bizik» deyən əfqanlar müsəlman adət-ənənələrinə çox sadiqdirlər. Bəzi həyat normaları təəccüb doğursa da, ağlabatandır, yaşarıdır. Ən qatı düşmənə qarşı belə insafsız deyillər; aman istəyənlərə öz evlərində sığınacaq verir, onlarla duz-çörək kəsirlər. Məlum terror aktı əfqanların yox, onların vaxtilə sığınacaq verdikləri Suriya ərəbi Bin Ladenin əməlidir. Onlar öz prinsiplərindən dönməyəcəklər. Bin Ladeni ələ verməyəcəklər.İndiki qovğaları izləyə-izləyə o illərimi yada salıram. Hər bir əfqan öz elinin-obasının təəssübkeşidir. Tarix boyu bu hünərlə tanınıblar. 1919-da toplu-tüfəngli ingilisləri əliyalın qovub çıxarıblar torpaqlarından. Sovetlərin başına gətirdiklərini də yaxşı bilir hamı…

— Siz SSRİ Müdafiə Nazirliyinin xəttilə, tərcüməçi kimi göndərilmişdiniz Əfqanıstana. Amma «əfqanların yazıçısı» kimi qayıtdınız…

— Əfqanıstanda keçirdiyim illər mənə bitib-tükənməyən mövzular verdi. Onların həyat tərzi, məişəti ilə maraqlanır, öz təəssüratlarımı qələmə alırdım. «Qürbət hekayələri»m belə yarandı. Sonra ürəyimin yanğısını «İtkin gəlin» trilogiyasıyla söndürməyə çalışdım.

— Əfsanə, Elməddin kimi ədəbi qəhrəmanlarınız hamının sevimlisidir. Əfqanıstanda cərəyan edən hadisələrin diqqət mərkəzində olduğunu nəzərə alaraq romanınızın motivləri əsasında çəkilmiş film nümayiş etdirilsə pis olmazdı. Bu barədə düşünürsünüzmü?

— Əvvəla, o filmə görə Lütfi Məmmədbəyova çox minnətdaram. O ki, qaldı filmin göstərilməsinə, mənlik deyil. Oxucular, tamaşaçılar özləri bu məsələni gündəmə gətirsinlər gərək…

— Əlibala müəllim, kitablarınızı oxuyanda bir həqiqət qabarıq şəkildə özünü göstərir: yazıçı yaratdığı obrazların daxili aləmini bacarıqla açır, ailə-məişət məsələlərini çox inandırıcı şəkildə təsvir edir.

— Mənim nəzərimdə ədəbiyyat ümumbəşəri kateqoriyadır. Yazıçının baş qəhrəmanı insan olmalıdır. Mənim əsərlərimdə «kolxoz», «sovxoz», «sosializm yarışı», «kapitalizm quruluşu» kimi ifadələrə rast gəlməzsiniz; çünki məni ictimai sistemlər yox, canlı insanlar, onların mənəvi dünyası maraqlandırır.

Müraciət etdiyim daimi mövzulardan biri də məhəbbətdir. O məhəbbət ki, həmişə insanladır, onu yaşatmağa, Vətənini, torpağını, ailəsini sevməyə ruhlandırır. Əlbəttə, ideal insan, ideal cəmiyyət ola bilməz. Bu mənada, fərdə xas mənfi keyfiyyətlərdən (paxıllıq, oğurluq, xəyanət və s.) də yan keçməmişəm. Yazdıqlarımla bağlı başıma açılan oyunların özü bir «romandır».

1985-ci ildə «Vəfalım mənim» («Təyyarə kölgəsi» romanımın II hissəsi) çapdan çıxdı. Çox keçmədi ki, adım «qara siyahılar»a düşdü. Təsvir etdiyim obrazları özlərinə oxşadanlar məni öldürməyə hazır idilər. Evimə zəng vurur, uşaqlarıma «Gəlib hamınızın başını kəsəcəyik» kimi hədyanlar deyirdilər. Bir hadisə heç yadımdan çıxmır. Onda oğlum Qüdrət tələbə (o da mənim kimi Universitetin şərqşünaslığını qurtarıb) idi, hamımızdan (həyat yoldaşım Xanım kitabxanada çalışırdı, qızlarım Təranə və Asya dərsdə olurdular) tez gəlirdi evə. Bir gün həmişəkindən tez çıxmışdım işdən. Telefon zəng çalanda dəstəyi özüm götürdüm. Görünür, məni Qüdrət bilib başladılar: «Əlibala müəllimin evidir, eləmi? Hə, bala, elə indicə atan küçəni keçəndə maşın vurdu, öldü…» Bu yerdə necə dözəsən?! Beləcə «Vəfalım mənim»dən qazancım ürək ağrısı tapmaq oldu.

Bir hadisəni də danışım. Rəhmətlik şair dostum Novruz Gəncəli qatarla Gəncədən Bakıya gəlirmiş. Yol yoldaşı hərbçi-polkovnik soruşur ki, Əlibala Hacızadəni tanıyırsan? O biçarə də böyük fəxrlə deyir ki, əlbəttə, tanıyıram, yaxın dostuq. Polkovnik nə desə yaxşıdır: «Mən

Bakıya onunla haqq-hesab çürütməyə gedirəm. Onun kitabındakı Gülmirə var ha, o mənim arvadımdır. Məni biabır edib el içində».

Novruz deyir ki, gecə səhərə kimi polkovnikə dərs keçmişəm, başa salmışam ki, Əlibala müəllim nə səni, nə də sənin arvadını tanımır. Onun yazdıqları bədii təfəkkürünün məhsuludur, heç yerdən özünü bədnam etmə, get işinlə məşğul ol.

Görürsənmi, bu adamlar hamısı ali təhsilli ziyalılardır. Amma nə qədər dar düşüncəli, dayaz fikirlidirlər. Ümumiyyətlə, həyatda çox qəribəliklər var. Çoban tanıyıram ki, sözünə-söhbətinə, ağlına-kamalına heyran qalmışam. Alimlərlə, professorla işləmişəm — bir qətrə olsun vicdanı, qabiliyyəti yox!

— Ziyalı əqlinə, ziyalı işığına həmişə ehtiyac olub.

— Çox məsuliyyətli addır ziyalı adı. Hər ali savad alana «ziyalıdır» demək olmaz. Ziyalı böyük mədəniyyət sahibi olmalı, yalnız özünü, ailəsini yox, elini-obasını, torpağını, milləti, vətəni düşünməlidir. Tarixən gözəl ziyalılarımız olub, bu gün də var. Şəxsən mənim ədəbiyyata, sənətə gəlməyimdə Həmid Araslı, Mir Cəlal, Mübariz Əlizadə, Bəxtiyar Vahabzadə kimi ziyalıların xüsusi zəhməti, rolu olub. «Dünyanı tanı» (1990) romanımı həyatım boyu minnətdarlıqla xatırladığım müəllimlərimə ithaf etmişəm. Titul səhifəsində beləcə də yazmışam: «Bu kitabımı dünyadan köçmüş müəllimlərimin məzarlarının, hal-hazırda yaşayıb-yaradan müəllimlərimin yazı masalarının üzərinə qoyuram».

— Bir sözlə, Əlibala Hacızadənin əsərlərinin mövzusu gözləriylə gördüyü insanların taleyi, həyatın özüdür.

— Başqa cür ola da bilməz! Elə bu səbəbdən mənim qəhrəmanlarımın prototipləri meydana çıxır.

Çox şadam ki, oxucularım tərəfindən sevilirəm, onların diqqət mərkəzindəyəm. Amma bu da həqiqətdir ki, Əlibala Hacızadə öz oxucularını, bütün insanları sevir, onların bütün dərdlərinə şərik çıxır… Hazırda bədii yaradıcılıqla yanaşı, elmi-pedaqoji fəaliyyətdəyəm: Milli Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun baş elmi işçisiyəm, BDU-da İran ədəbiyyatından dərslər verirəm. Tələbə oğlan və qızlar məni özlərinə daim ata bilir, tez-tez məsləhət üçün müraciət edirlər. Mən təbii ki, öz mənəviköməyimi əsirgəmirəm.

— İndi başqa dövrdür. Neçə illər öncə gənclər öz asudə vaxtlarını kitab, qəzet, jurnal oxumaqla keçirirdilər. İndi isə televiziya kanalları liderlik edir; barlar, diskotekalar, əyləncə mərkəzləri…

— Hə, bax, bu çox ciddi məsələdir. Şəxsən məni qiraətçilərin sayının kəskin surətdə aşağı düşməsi bərk narahat edir. Halbuki bizim xalq kitabsevər xalq kimi tanınıb. Yeri gəlmişkən, ötən illərin bir söhbətini danışım. Nizami muzeyi mənimlə oxucuların görüşünü təşkil etmişdi. Hər şey yaxşı keçdi; görüşdən sonra bir neçə yoldaşla söhbət edirdik. Bir qadın yaxınlaşdı. «Əlibala müəllim, — dedi, — bayaq utandığımdan susdum. Siz mənə iki qazan borclusunuz ha». Çox diqqət etsəm də tanıya bilmədim qadını. Sən demə… «Hə, Əlibala müəllim, — dedi qadın, — sizin «İtkin gəlin» kitabınızı alanda sevincimin hüdudu yoxuydu. Mətbəxdə xörək qazanını asıb, başladım oxumağa. Bir də ayıldım ki, qazan əməlli-başlı yanıb sıradan çıxıb. İkinci qazanı götürdüm… Vallah, yalandan demirəm: bu qazanım da yandı — Əfsanənin, Elməddinin, sizin canınız sağ olsun…»

Görürsənmi, bu, evdar bir qadının kitaba olan sevgisidir. Öz başıma gələni də danışım: Kitablarımın nüsxələrini güc-bəlayla evdə saxlamışam. Dost-tanış aparıb, gətirməyib. Bir dəfə «Azərnəşr»in yanından keçirdim. Bir kişi şəxsi kitablarını sərgiləyib satırdı. «Dünyanı tanı» kitabımı görəndə sevindim. Qiymətini soruşdum. «Şirvan yarımdır» — dedi. Əlimi cibimə saldım; vur-tut beş dənə minliyim vardı. Kirimişcə uzaqlaşdım. Qanım qaralsa da, utanmadım. Niyə utanım ki?! Qoy zəmanə özü utansın!

— Bu ifadəniz çox şairanə alındı…

— Necə bəyəm, şairliyimdən xəbərsizsən, yoxsa? Romanlarımdakı şer parçalarının hamısı özümündür. Mahnı kimi oxunan şerlərim də var.

Nurdan yaranmısan, nurdu baxışın,
Ulduzlar göylərə gözündən düşüb.
Sevən ürəyimə bu atəş, bu od,
Sevən ürəyinin közündən düşüb.

Bir bənd də misal gətirim:

Ürəyimə od salıbdı bir gözəl,
Odu deyir, közü deyir sev məni.
Dilində get deyir, ürəyində gəl,
Qaşı deyir, gözü deyir sev məni!

— Gözəl misralardır! Sevimli oxucularımıza sözünüz, yazıçı sürpriziniz?..

— Qoy heç vaxt unutmasınlar, mən onlarla nəfəs alıram! Üç borcum var oxucularıma — «Təyarrə kölgəsi» romanımın III hissəsini («Ölüm yoxdur») nəşr etdirmək; «Dünyanı tanı» romanımın II cildini «işığa» çıxarmaq; mətbuat səhifələrində hissə-hissə təqdim etdiyim «Möcüzə» romanını (müasir həyatımızdan) kitab şəklində çap etdirmək.

— Sizin kimi görkəmli bir yazıçının sponsor tapmağına nə var ki?

— Bax, burda böyük səhvin var. Mən heç zaman bir kimsəyə maddi kömək üçün ağız açmamışam, açmaram da! İki il öncə 65 yaşım tamam oldu. Ali Diplomatiya Kollecinin rektoru, professor Nazim Hüseynlini sağ olsun; təmənnasız olaraq şer və hekayələrimdən ibarət kitabımı («Sevəcəyəm») buraxdırdı, hədiyyə etdi mənə…

— Hədiyyə demişkən. Bu müdrik çağınızda hansı hədiyyəyə daha çox sevinərdiniz.

— Lap yaralı yerimə toxundun, Mirzə. Kaş… Qarabağsız Vətən yoxdu mənə. Başımızdan papağımızı oğurlayıblar namərdlər.

Gecələr bağrıma basıb Qarabağımı,
Körpə uşaq kimi mışıl-mışıl yaratdım.
Gözlərimdə şır-şır axan bulaqlar,
Xəyallarımda silsilə dağlar,
Yuxularımda gah çiçəkdim,
gah qardım…

Daha dözmür ürəyim,
Mən şərəfsiz yaşamaq istəmirəm,
Mən şərəfsiz ölmək istəmirəm
namərdlərin ucundan.
Vallah, sabah gedəcəyəm Qarabağa,
Öz əllərimlə asacağam özümü
Şuşada dar ağacından!..

*M.Yusif*

## OQTAY RZA: «HƏR İL YAŞI DƏYİŞSƏ DƏ, DUYĞULARI YAŞIL QALAN ƏLİBALA HACIZADƏ...»

Əlibala Qüdrət oğlu Hacızadə 1935-ci ildə Biləsuvar rayonunun Ağalıkənd kəndində ziyalı ailəsində anadan olub. 1958-ci ildə ADU-nun şərqşünaslıq fakültəsini bitirib. 1961-ci ildə «Heykəl gülür» adlı ilk kitabı çap olunub. Daha sonra «Məhəbbət olmayan evdə» (1963) və «Unutmaq olmur» adlı ilgi kitabı çap olunub. 1966-1970-ci illərdə Əfqanıstanda tərcüməçi işləyib. Həmin dövrdə yazdığı «İtkin gəlin» (1979), «Əfsanəsiz illər» (1981), «Ayrılığın sonu yoxmuş» (1983) adlı romanları ona böyük şöhrət gətirib. 1974-cü ildə yazdığı «Təyyarə kölgəsi» və onun davamı olan «Vəfalım mənim» romanı isə böyük qalmaqala səbəb olub, yazıçıya qadağalar qoyulub. Beşillik qadağadan sonra yazıçı «Dünyanı tanı» romanını çap etdirib. «İtkin gəlin» trilogiyası» əsasında 12 seriyalı teleserial çəkilərək televiziya vasitəsilə nümayiş etdirilib.

Suraxanı rayonunda yerləşən 279 saylı orta məktəbdə canlanma hiss olunurdu. Azərbaycan oxucuları arasında sevilən və tanınan yazıçı Əlibala Hacızadənin anadan olmasının 65 illiyinin və yaradıcılıq gecəsinin keçirilməsi üçün məktəbə tanınmış ziyalılar və sənətkarlar dəvət olunmuşdular. Fəxri qonaqlar arasında respublikanın əməkdar müəllimi, «Vətən» mükafatı laureatı Şəfiqə Əliyeva da var idi. O, məktəbin şagird və müəllim kollektivi tərəfindən böyük sevinc və iftixar hissi ilə qarşılandı. Əvvəlcə qonaqlar məktəbin ikinci mərtəbəsində yerləşən respublika prezidenti Heydər Əliyevin siyasi fəaliyyətinə həsr olunmuş muzeylə tanış oldular. Tədbiri giriş sözü ilə açan məktəbin direktoru Məmməd Əliyev qeyd etdi: «Biz hamımız sevimli yazıçımız Əlibala Hacızadənin işığına yığışmışıq. Fəxr edirik ki, bir çox dahi şəxsiyyətlərin yubileyləri məhz bu məktəbdə keçirilir. Sevimli şairimiz Bəxtiyar Vahabzadənin də 70 illiyini burada qeyd etmişik. Bu gün də Azərbaycan ədəbi sənətin söz ustası Əlibala Hacızadənin 65 illik yubileyi və yaradıcılıq gecəsinin məktəbimizdə keçirilməsi bizim və şagirdlərimizin xatirindən heç vaxt silinməyəcək».

Tədbiri aparmaq üçün söz məktəbin təşkilatçı rəhbəri Aygün Salmanqızına verildi. Aygün xanım böyük alim, şərqşünas, tərcüməçi, gözəl şair, cəsarətli yazıçı Əlibala Hacızadəni təbrik etdikdən son-

ra qonaqları təqdim etdi. Ədəbi-bədii kompozisiya şəklində hazırlanmış tədbirdə respublikamızın tanınmış müğənniləri Səyyad Əlizadə, Elxan Şirinov, Ruhəngiz Allahverdiyeva, Yaqut Babayeva, Baloğlan Əşrəfov, Nüşabə Ələsgərli, Məleykə Əsədova, Kəmalə Rəhimli və başqaları öz mahnıları ilə yubilyara təbriklərini çatdırdılar. Şagirdlər Əlibala Hacızadənin şerlərini məharətlə ifa etdilər. Sonra söz AzərKİVİHİ-nin sədri, tanınmış yazıçı Oqtay Salamzadəyə verildi. Oqtay müəllim görüşə əliboş gəlmədiyini bildirdi. O, Əlibala müəllimin məhsuldar yaradıcılığını nəzərə alaraq, AzərKİVİHİ-nin «Qızıl qələm» mükafatını və yazıçı-filosof Həqiqət Kərimovanın Oqtay Salamzadənin anadan olmasının 70 illiyinə həsr etdiyi «Əsrlərin sirrini açan sənətkar» kitabını yubilyara təqdim edərək ona yaradıcılıq uğurları arzuladı.

Tədbirdə iştirak edən sevimli şairlərimiz Nəriman Həsənzadə, İlyas Tapdıq, Oqtay Rza, bəstəkar Cavanşir Quliyev, xalq artisti Lütfi Məmmədbəyov və başqaları Əlibala Hacızadə haqqında xoş xatirələrini danışdılar.

Azərbaycan Respublikasının əməkdar müəllimi, «Vətən» mükafatı laureatı, Azərbaycan Ziyalılar Cəmiyyətinin vitse-prezidenti Şəfiqə Əliyeva Əlibala Hacızadənin əsərlərini sevə-sevə oxumasından və bu əsərlərin gəncləri mənəvi-estetik zövqünün formalaşmasında mühüm rol oynamasından geniş söhbət açdı. «Ziyalı» qəzetinin baş redaktoru, yazıçı-filosof Həqiqət Kərimova, «Naxçıvan» qəzetinin baş redaktoru Nazilə Əsgərova, BDU-nun dosenti, filologiya elmləri namizədi Leyla Gərayzadə yubilyarı təbrik edərək, onun millətinin məişətinə, psixologiyasına, adət-ənənələrinə bələd olan yazıçı olduğunu bildirdilər. Suraxanı Rayon Təhsil Şöbəsinin müdiri Fərhad Həsənov Əlibala müəllimdən oxucuların yeni-yeni əsərlər gözlədiyini qeyd edərək bildirdi ki, «sadə, təvazökar və şərəfli sənətkar ömrü yaşayan Əlibala müəllimin 65 yaşı tamam olur. Bu, nə azdır, nə də çoxdur, amma mənalı və dərindir».

Görkəmli yazıçı, şərqşünas, publisist-tərcüməçi, şair Əlibala Hacızadə tədbir iştirakçılarına, məktəb rəhbərlərinə təşəkkürünü bildirərək əsərlərinin yaranmasının maraqlı məqamları, uşaqlıq xatirələri barədə geniş söhbət açdı. Mürəkkəb insan talelərini, keşməkeşli ömür yollarını, odlu-alovlu məhəbbət səhnələrini böyük ustalıqla qələmə alan yubilyar bundan sonra da oxucularını yeni əsərləri ilə sevindirəcəyinə söz verdi.

*Kamil Məhərrəmoğlu*

## «İTKİN GƏLİN»LƏ GƏLƏNLƏR

Dilimizdə iftixarla səslənən, məna və mahiyyəti, dəqiq ünvanı — «açması» hamıya yaxşı bəlli olan «altmışıncılar» ifadəsi var. Həmin illərdən əsərləri işıq üzü görmüş istedadlı şair və yazıçılar yadda qalan bir çox qələm məhsulları ilə oxucuları sevindirmiş, bədii söz yaradıcılığının inkişafına səmərəli təsir göstərmişlər.

Konkret dövrün ən istedadlı yazıçılarından biri, əsərləri ilə geniş oxucu auditoriyasının sevimlisinə çevrilmiş, bu günlərdə ömrün 65-ci pilləsinə yetişən Əlibala Hacızadədir. İlk baxışdan onun əməyini konkret bir sənət, sahə ilə müəyyənləşdirmək çətindir. Çünki fəaliyyəti çoxsahəli və rəngarəngdir. Filologiya elmləri namizədidir — görkəmli fars şairi Fərruxi Yəzdinin poeziyasının tədqiqinə aid maraqlı dissertasiya işi müdafiə edib. Əməkdaşı olduğu Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda bir sıra qiymətli tədqiqatları ilə tanınır. Naşir və jurnalistdir — bu yaxınlara qədər fəaliyyət göstərmiş «Nizami Gəncəvi» elmi, ədəbi-bədii jurnalının baş redaktoru, həftəlik «Şəhriyar» qəzetinin baş redaktor müavini olub. «Azərbaycan» jurnalının redaksiya heyətinin üzvüdür. Pedaqoqdur — çoxdandır ki, Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsində dərs deyir. Tərcüməçidir — M.Ravəndinin «Səlcuq xanədanı tarixi haqqında könülləri açan və sevinclər saçan kitab»ını, Ə.Vilayətinin «Şah İsmayıl dövründə İranın xarici siyasəti»ni və s. əsərləri dilimizə çevirib.

Həmçinin öz əsərləri də rus, tacik, fars, ərəb və türk dillərinə tərcümə olunub.

Ssenaristdir — «Unutmaq olmur», «Əgər inanmırsansa…» televiziya tamaşaları, «İtkin gəlin», «Taleyin qisməti» televiziya filmləri onun ssenarisi əsasında ekranlaşdırılıb. Dramaturqdur — «İtkin gəlin», «Yandırılmış adam» adlı pyesləri C.Cabbarlı adına Gəncə Dövlət Teatrında uzun illər boyu müvəffəqiyyətlə oynanılıb. Şairdir — ayrı-ayrı məqamlarda psixoloji prosesi, qəhrəmanların əhval-ruhiyyəsini, ovqatını ifadə etmək üçün qələmini «dəyişir», nəsrdən şerə keçir. Və orası da maraqlıdır ki, konkret qəhrəmanla, zaman və məkanla bağlı bu parçalar sonralar bəstəkarların diqqətini cəlb edir, mətninə musiqi bəstələnir, görkəmli müğənnilərin ifasında ekranda, efirdə müstəqil həyatını yaşayır…

Lakin ədəbi fəaliyyətindəki bu çoxcəhətliliyə baxmayaraq Əlibala Hacızadə hər şeydən əvvəl yazıçıdır və qələmini ilk dəfə məhz bu sahədə sınayıb. Buna görə də ona uğur gətirmiş yazıçılığa həmişə sədaqətli olub. «Mənim müəllimim» adlı hekayəsi 1954-cü ildə «Gəncliyin səsi» almanaxında çıxdıqdan sonra oxucuların qəlbində özünə yer eləyib. «Siftənin» sanbalı, səmərəliliyi müəllifdə inamı, həvəsi artırıb. Təsadüfi deyil ki, əvvəlinci kitabları («Heykəl gülür» — 1962, «Məhəbbət olmayan evdə» — 1963, «Unutmaq olmur» — 1965) az qala «birnəfəsə» işıq üzü görüb, əldən-ələ gəzib. Əlibala Hacızadənin həyat həqiqətinin parlaq, obrazlı şəkildə inikası, xarakterlərin mükəmməlliyi, təhkiyə tərzinin, dilin cazibədarlığı və s. keyfiyyətlər müxtəlif vaxtlarda akademik M.Arif, Əli Vəliyev, Q.Xəlilov, B.Vahabzadə, Anar… kimi görkəmli sənətkarların diqqətini cəlb etmiş və onlar həmkarı barəsində səxavətlə, ürək genişliyi ilə söhbət açmışlar.

Yazıçının maraq dairəsi mövzu baxımından da geniş və əhatəlidir. Onu alimlərin, elmi əməkdaşların həyatı da («Təyyarə kölgəsi», «Vəfalım mənim»), gənclərin, kolxozçu kəndlilərin istək və arzusu da («Unutmaq olmur»), sürücülərin həyat və məişətinin realist boyalarla təsviri də («İnam»), maarif işçilərinin, orta məktəb müəllimlərinin günü-güzəranını da («Dünyanı tanı»), tərcüməçi kimi 4 il çalışdığı ölkədə əfqan xalqının həyat və mübarizəsi, məişəti də («İtkin gəlin», «Əfsanəsiz illər», «Ayrılığın sonu yoxmuş» trilogiyası) maraqlandırır, yeni-yeni əsərlər üzərində işləməyə sövq edir.

Həm də mövzu, digər görkəmli sənətkarlar kimi Əlibala Hacızadə üçün də, haradasa, şərti səciyyə daşıyır. Çünki o da bütün qələm məhsullarında əsas diqqəti qəhrəmanların qəlb aləminin təsvirinə, mənəvi dünyasının realist boyalarla əks olunmasına yönəldir. Trilogiyanı təşkil edən kitablar müəllifə daha çox şöhrət gətirən, yüksək tirajla, həm də dəfələrlə nəşr olunan əsərlərdəndir. Bu, ilk növbədə, şübhəsiz ki, onların bədii ləyaqəti, mənəvi dəyəri ilə əlaqədardır. Lakin zənnimizcə, burada başqa səbəblər də var. Hər şeydən əvvəl, cahangirlik iddiasında olan, azadlığı, müstəqilliyi uğrunda ölüm-dirim mübarizəsi aparan xalqı qanına qəltan edən imperiyanın hökmən süquta uğrayacağı ideyası həmin əsərlərlə bizim şüurumuza təlqin olunub. Müəllif həmçinin sərt senzura şəraitində cəmiyyətdəki mənəvi puçluğu, eybəcərlikləri böyük sələfləri kimi xarici həyat tərzinin, ölkələrin timsalında təsvir edib. Həssas oxucu isə bunu əhatəsində yaşadığı, yaşamağa məcbur olduğu mövcud quruluşun təsviri kimi

qəbul edib, bu isə narazı, üsyankar ruhlu təbiətinə xoş ovqat, zülmün, şərin məğlubiyyətinə inam hissi aşılayıb.

Əlibala Hacızadə yazıçı fəhmi ilə bizi başqa bəlalar barəsində də düşünməyə, dərdlərimizə çarə etməyə çağırıb. Onun trilogiyasında, «Dünyanı tanı» romanında bəzi nüfuzlu ailələrdə tərbiyənin naqisliyi, yeni nəslin mənəvi dəyərlərə sədaqət deyil, meşşan ruhda böyüməsi barəsində ciddi mülahizələr, bədii əsaslandırmalar var. Fikrin nə qədər həyati olması faktı ilə bu gün həyatımızda, təəssüf ki, tez-tez rastlaşırıq.

Bir sözlə, «İtkin gəlin»lə fikrən bizə gələnlər real həyatda da öz əksini tapıb: imperiya süquta uğrayıb, əsarətdəki xalqlar həsrətində olduqları azadlığa qovuşublar. Bununla belə, təbəqələşmə, korrupsiya qüvvətlənib, qətl-qarət çoxalıb, insani ləyaqət, mənəvi dəyərlər az qala unudulub.

Əslində ayrı-ayrı yazıçıların özləri kimi, heç onların qələm məhsullarını da qarşı-qarşıya qoymaq doğru sayılmaz. Lakin yerli müqayisə naminə xatırlamalıyıq ki, obrazların, həyatın bədii-psixoloji təhlili, dərinliyi baxımından «Unutmaq olmur» povesti, «Təyyarə kölgəsi», «Vəfalım mənim», «Dünyanı tanı» romanları bizə süjet xəttinə bir qədər macəraçılıq hopdurulmuş trilogiyadan daha xoş təsir bağışlayır. «Unutmaq olmur»da həyatın, hisslərin bakirəliyi, gənclərin saf, ülvi məhəbbəti elə ustalıqla təsvir olunub ki, təsirindən uzun müddət ayrıla bilmirsən.

«Təyyarə kölgəsi» və onun davamı kimi yazılmış «Vəfalım mənim»i səhv etmədən bədii xarakterlər qalereyası da adlandırmaq olar. Əgər «Unutmaq olmur»da məhəbbətin ülviliyi, sübh şəfəqi kimi duruluğu, sərt həyat həqiqətinin hələ altmışıncı illərdə cəsarətli, barışmaz mövqedən təsviri ön plandadırsa, «Təyyarə kölgəsi»ndə… mükəmməl bədii obrazların şəxsi və ictimai ideallar uğrunda çarpışması, mübarizə əzmi oxucunu valeh edir, bir-birinə daban-dabana zidd olan qəhrəmanlar ona Hürmüzlə Əhrimənin, gecəylə gündüzün, xeyirlə şərin savaşını xatırladır.

Həmin romanlarda, həmçinin «Dünyanı tanı»da mənfi obrazların qüvvətli alınması təsadüfi deyil. Bu, müəllifin vaxtilə «Azərbaycan» jurnalında dərc etdirdiyi «Sadıq əl çalır», «Yoxa çıxmış adam» adlı hekayələrlə satira sahəsində lazımi təcrübəyə malik olmasından xəbər verir.

«Təyyarə kölgəsi», «Vəfalım mənim» kimi, «Dünyanı tanı» da konfliktlər romanıdır. Burada da qarşı-qarşıya dayanan barışmaz tə-

rəflərin sərt mübarizəsi əks olunub. Burada da müxtəlif xarakterli obrazlar istək və arzuları, məqsəd və məramları uğrunda müxtəlif vasitələrlə mübarizə aparırlar. Fərq əsasən mövzuda, süjet, kompozisiya quruluşunun yeniliyində, obrazların daxili aləminin bənzərsizliyində, müxtəlifliyindədir.

Əsərin adında ehtiva olunmuş «dünya» ifadəsi çoxmənalı, əhatəli, geniş miqyaslı olsa da, yazıçı bu sözlə heç də əlçatmaz, ünyetməz, uzaq qalaktikanı, təbiətin digər nadir möcüzələrini, müasir, mürəkkəb avadanlığı, zəngin elm aləmini deyil, əhatəsində yaşadığımız, bu və ya digər dərəcədə təmasda, ünsiyyətdə olduğumuz adamları, təzadlı, keşməkeşli həyatımızı, növraqlı, niskilli günlərimizi nəzərdə tutub. Obrazlarını, xüsusən romanın baş qəhrəmanı Nəzər müəllimi (yeri gəlmişkən xatırladaq ki, onun prototipi orta məktəbdə Əhmədağa Muğanlıya, Əlibala Hacızadəyə, Zamin Mahmudova və bu sətirlərin müəllifinə ədəbiyyat fənnini yüksək məharətlə, sənətkarlıqla tədris etmiş mərhum Əli Nuriyevdir) həyatın sərt sınaqlarından çıxara-çıxara bizə təqdim edir, sevdirir, hər birimizə örnək olası bir səviyyəyə qaldırır.

Lakin təəssüf ki, oxucu onun (həm də təkcə onunmu?) taleyini axıra qədər izləyə bilmir. Niyə izləyə bilmir? Səbəbi var?

Əlibala Hacızadənin əsərlərinin birinin adı ilə demiş olsaq, sanki heç «ayrılığın sonu yoxmuş». Belə ki, illər keçir, ancaq oxucular onun bir hissəsi «Şəhriyar» qəzetində dərc olunmuş «Möcüzə» adlı romanının, həmçinin «Təyyarə kölgəsi»nin üçüncü — «Dünyanı tanı» romanının ikinci hissəsinin hələ də həsrətindədirlər.

Ancaq gümansız da deyilik. Yəqin ki, bir gün hansısa xeyriyyəçinin köməkliyi ilə geniş oxucu kütləsi sevimli qəhrəmanlarının həyat və fəaliyyətinin davamı ilə tanış olmaq imkanı əldə edə biləcək. Bu təkcə yazıçının şəxsi istək və arzusu ilə deyil, həm də (və ilk növbədə!) oxucuların, xüsusən yetişməkdə olan gənc nəslin mənəvi, estetik tərbiyəsi, onlara ictimai idealların, vətənpərvərlik sevgisinin yüksək səviyyədə aşılanması ilə bağlı məsələdir.

*Mahmud Mahmudov*
*Filologiya elmləri namizədi, dosent*

## ƏLİBALA HACIZADƏ ƏFSANƏNİ NECƏ TAPDI

Tanışlıq

Təvəllüdü: 1935.
Təhsili: BDU-nun Şərqşünaslıq fakültəsinin fars dili şöbəsi
Oxuduğu illər: 1953-1958.
İş yeri: Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda baş elmi işçi və «Şəhriyar» qəzetində redaktor müavini.
Ailə tərkibi: bir oğlu, iki qızı var.
Romanlar: «İtkin gəlin», «Əfsanəsiz illər», «Ayrılığın sonu yoxmuş», «Təyyarə kölgəsi», «Vəfalım mənim».
Povestlər: «Məhəbbət olmayan evdə», «Unutmaq olmur», «Cehiz» və «Heykəl gülür», Hekayələr toplusu.
Elmi əsəri: «Fərruxi Yəzdinin poeziyası».
Çapa hazırlananlar: şerlər kitabı. «Möcüzə» romanı. «Dünyanı tanı» romanının ikinci hissəsi, «Təyyarə kölgəsi» romanının üçüncü hissəsi və Məhəmməd Ravəndinin «Səlcuq xanədanı tarixi haqda könüllər açan və sevinclər saçan kitab»ının tərcüməsi.
Sevdiyi şair: Nizami, B.Vahabzadə.
Yazıçı: Markes.
Aktyor: Cavanşir və Babək rollarının ifaçısı Ələsgər Ələkbərov, Nəcməddin rolunun ifaçısı Kamal Xudaverdiyev.
Əsər, şer: Hötenin «Gənc Verterin iztirabları» povesti və N.Kəsəmənlinin «Yazığım gəlir» şeri.
Film: «Ovod».
Tamaşa: Eyni adlı povesti əsasında səhnələşdirilən «Unutmaq olmur» tamaşası (baş rollarda Kamal Xudaverdiyev və Firəngiz Mütəllibova çəkilmişlər. Rejissoru Lütfi Məmmədbəyovdur. Lakin tamaşa bir dəfə göstərilmiş və lenti yanıb məhv olmuşdur).
Musiqi aləti: Skripka (Natiq Nuriyevin ifasında).
Müğənni: Zeynəb Xanlarova.
Xörək: Dolma.
Şəhər: Bakı.
Rayon. Doğma Biləsuvar.
Xarici ölkə: İran.
Ən böyük arzusu: torpaqlarımızın azad edilməsi.

Eh… dünya, dünya!

Sıyrılıb bələkdən çıxan kimi, ayaq tutub yeridik, yıxıla-yıxıla addım atmağı, ağlaya-ağlaya sevinməyi, kəkələyə-kəkələyə dil açmağı öyrəndik.

Amma göz açmağımız yaman uzun çəkdi.

Ağlımız təzə-təzə kəsməyə başlayanda bizi beyni qan adlandırıb nəzər nöqtəsinə çevirdilər.

Qəribə hisslər vücudumuza hakim kəsildi. Bilmədən bənd etdik, bilə-bilə bəndə düşdük. Bu zaman qarşımıza «bir ilancan da olmayan» Elməddinlər, ülvi hisslərdən iyrənc məqsədlər üçün istifadə edən Siracəddinlər, dünyadan xəbərsiz ola-ola dünyanı qana çalxayan Əbdüllər çıxdı.

Ağlı məhəbbətə çıraq olmayanlarımız aldandı, hisslərini iradəsinə tabe edə bilənlərimiz isə hər cür sınaqdan uğurla çıxdı. Kimi dünya boyda sevincini iki damla göz yaşıyla, kimi isə sinəsində sağalmaz hesab etdiyi hicran dağını, ayrılığın uzunluğu ilə daha da şirinləşmiş vüsalla dəyişdi. Kiminin xərclədiyi qazandığına dəymədi, talesiz dedilər.

Qəlbimizə hakim kəsilərək, bizi biçarə Məcnunun keçdiyi oylaqlara aparıb çıxaran ülvi hisslərin adını məhəbbət qoydu. Lakin gərək etiraf edək ki, çoxumuz bu məfhumu bütün mahiyyəti ilə dərk edə bilmədik. Bir də ki, bizdə nə günah var. Bəşər övladı yaranandan indiyədək yazıla-yazıla yozulan, yaşada-yaşada yaşanan məhəbbəti heç böyük mütəfəkkirlər də tam varlığı ilə açıb göstərə bilməmişlər. Bəlkə də bu sözün müqəddəsliyi burdadır. Sevək, sevilək, bunsuz həyat yoxdur. Lakin sevgi-məhəbbət haqqında çox oxuyaq, çox düşünək və özümüz üçün nəticələr çıxaraq.

Bunun üçün qələmini məhəbbət mövzusunda dəfələrlə sınayan, görüb-götürən ulularımıza üz tutaq, məsləhətlərinə qulaq asaq.

Bir sözlə aldanmayaq!

Müsahibim məhəbbət mövzusundakı məşhur romanları ilə tanınan yazıçı Əlibala Hacızadədir.

— Əlibala müəllim, gənclər arasında nüfuz qazanmağa necə nail olmusunuz?

— Gənclik məhəbbətlə əkizdir. Mən gənclərin məhəbbətini, sevinclərini, problemlərini, hicranlarını, hiss və həyəcanlarını — bir sözlə, onların psixologiyasını qələmə aldığıma görə oxucularımın məni hədsiz məhəbbətlə sevməsinə nail olmuşam. Bir dəfə məndən

soruşdular ki, nə üçün səni çox sevirlər. Cavab verdim: ona görə ki, mən hamını çox sevirəm. İnanıram ki, pis adam heç vaxt yaxşı sənətkar ola bilməz. Hər cür nailiyyət yüksək insani keyfiyyətlərdən doğur. Əsl ədib odur ki, əsərləri ilə təbiəti bir-birini tamamlasın.

— Məhəbbət mövzusuna tez-tez müraciət etməyinizin səbəbi nədir?

— Əbədi mövzulara, heç vaxt insandan ayrılmayan, bəşəri mövzulara müraciət etməyi çox xoşlayıram. Məhəbbət bəşəri hissdir, ölməzdir. Cəmiyyətin dəyişməsi ilə dəyişmir. Nə qədər insan var, məhəbbət də var. Bunlar ayrılmazdır.

— Eşitdiyimizə görə, siz Əfqanıstanda olarkən, «İtkin gəlin» romanında qələmə aldığınız hadisələrin şahidi olmusunuz…

— Xeyir. Sadəcə olaraq, mən Şərq aləmində mövcud olan eybəcər bir qanunu — ölmüş qardaşın xanımının o biri qardaşa alınmasının törətdiyi faciələri açıb göstərmişəm. Bu tarixən müxtəlif cür qiymətləndirilmişdir. Məsələn, İslamdan əvvəl nişanlısı vəfat etmiş qızı diri-diri torpağa basdırırmışlar. Sonralar isə qardaşa alma dəbə düşüb. Elməddinin də alnına belə bir qismət yazılır. Lakin onun başqalarından fərqi odur ki, qardaşının arvadı Elməddinin ilk məhəbbətidir. Səhfən o, əhvalatı qardaşına açmır. Elə faciələr də buradan başlayır. Yəqin ki, ilan səhnəsi yadınızdadır. Əfsanə əbəs yerə demir ki, «Elməddin, sən ilancan da olmadın!» Şərq adətlərinə uyğun olaraq Elməddin ifrata varmaqla özünü məhv edir, fəlakətlərə sürükləyir.

Ölən qardaşının arvadını almaq, Azərbaycanın bəzi yerlərində indi də adət kimi qalmaqdadır. Mən bunun tamamilə əleyhinəyəm.

— Deyirlər ki, əsl məhəbbət bir-birinə qovuşmayanların məhəbbətidir. Arzuya çatanda məhəbbət adiləşir. Buna necə baxırsınız?

— İlk baxışdan bu fikrə etiraz etmək istəyirəm. Lakin mahiyyətinə varanda görürəm ki, həqiqətən də belədir. Ümumiyyətlə, insan həsrətində olduğu varlığa daha ülvi və müqəddəs baxır. Elə ki, ələ gəldi, adiləşir. Ancaq bunu heç cür qəbul edə bilmirəm. Məhəbbət elə bir hissdir ki, onun zəifliyini görmək istəmirəm. Əsl məhəbbət heç vaxt tükənməməlidir. Hansısa filosof deyib ki, məhəbbət üçün ayrılıq, ocaq üçün küləyə bənzəyir. Zəifini söndürür, güclüsünü daha da alovlandırır.

— Elə olubmu ki, öz başınıza gələn hansısa hadisəni əsərlərinizdə qələmə alasınız?

— Yox. Başıma gələn macəraları xatirə kitabı üçün saxlayıram.

— Qəlbim səndən dönən deyil,
Gəlmir xoşuna, gəlməsin.
Mən sevirəm, qədrimi bil,
Nadan tuşuna gəlməsin.

Əlibala müəllim, əsərlərinizdəki bu gözəl şerləri özünüzmü yazırsınız?

— Bəli. Mənim şerlərim çoxdur. Şerlər kitabımı da çapa hazırlayıram. Sağlıq olsun, oxucularımı yaxın vaxtlarda gözəl şerlərimlə də sevindirəcəyəm.

— «İtkin gəlin» romanı səhnəyə qoyularkən bir müəllif kimi sizdən məsləhətlər aldılarmı?

— Bu roman ilk dəfə Gəncə Dram Teatrında tamaşaya qoyuldu. Bu zaman əsəri dəyişib dram formasına salmışdılar. Rejissoru rəhmətlik Yusif Bağırov idi.

Lakin teleseriala çəkilərkən ssenarini özüm yazdım. Rejissoru isə Lütfi Məmmədbəyli idi. Çəkilişdə yaxından iştirak etdim.

— Çoxu etiraf edir ki, əsər səhnədə romandakı qədər effektli alınmayıb.

— Doğrudur. Əsərdəki bütün materialların səhnəyə gətirilməsinə maddi imkan olmadı. Ən yaxşı ifaçı Kamal Xudaverdiyev idi. Nəcməddini oynayan aktyor Dünya xanımı və özünü öldürərkən o qədər ustalıq nümayiş etdirdi ki, mən özümü saxlaya bilməyib hönkür-hönkür ağladım.

— «Bu alver əsərinə sevgi yaraşmır» — deyənlər var…

— Mən bu fikrin əleyhinəyəm. Bu gün də sevgi təmiz olmalıdır. Lakin bunu biz görə bilmirik. Məhəbbətsiz heç bir dövr ola bilməz.

— Valideyn məsləhəti ilə ailə quranlara necə baxırsınız?

— Yaxşı baxmıram. Ailə gənclərin qarşılıqlı anlaşması və məhəbbəti əsasında qurulmalıdır. Əlavə müdaxiləyə heç bir lüzum yoxdur. Düzdür, ən çox dağılan ailələr elə könüllülük prinsipiylə yaranan ailələr olur. Çünki gənclərin bilmədiyi çox şeylər var. Buna görə də yeni qurulan ailədə münasibətləri tənzimləmək üçün valideynlər müəyyən təsir göstərməlidirlər. Lakin bu gənclərin arzu-istəkləri əleyhinə olmamalıdır.

— Məhəbbətini valideynlərin mövqeyinə qurban edənlər necə?

— Bunun da əleyhinəyəm. Əgər məhəbbət doğrudan da təmiz və safdırsa, valideynlər bunu başa düşməli, aralarında olan düşmənçiliyi, ədavəti belə övladlarının xətrinə aradan götürməli, gəncləri xoşbəxt etməlidirlər. Təmiz məhəbbət qarşısında hər şey acizdir. Bunun üçün insanlar əsl insan olmalıdırlar.

— Əfqanıstanla bağlı xatirələrinizdən yadda qalanı varmı?

— Xatirələr olduqca çoxdur. Mən Əfqanıstanda 4 il — 1966-70-ci illərdə tərcüməçi kimi çalışmışam. Çox hadisələrin şahidi olub, çox insanlarla rastlaşmışam. Elə Əfsanəni də orada görmüşəm.

Mən Əfqanıstanda «Qürbət hekayələri» başlığa altında bir neçə hekayə yazdım. Ancaq gördüm ki,düşündüklərim hekayəyə sığışmır. Roman yazmağı qərara aldım. Əsəri beynimdə qurub yaratmış və xəyalən Əfsanə obrazını canlandırmışdım. Lakin yazıya başlaya bilmirdim. Çünki Əfsanəni düşündüyüm kimi tərənnüm etməkdə çətinlik çəkirdim. Bir gün Kabulda «Cahar Rahiye Tur Abbas Xan» küçəsindən keçərkən bütün hərəkətin dayandığını gördüm. Elə bildim haradasa qəza baş verib. Maşınlar, piyadalar, atlılar, arabaçılar — hamısı dayanmışdı. Birdən sürücüm dilləndi ki, ağa, ora bax.

Gördüm ağappaq libas geyinmiş, üst-başından zənginliyi hiss olunan son dərəcə gözəl bir qız gəlir. Sən demə, dayananlar ona tamaşa edirmiş. Qız həqiqətən çox gözəl idi. İri qara gözləri, saçları, ağappaq sifəti, uca boyu, şux yerişi var idi. Gəlib lap yaxınlığımızdan keçdi. Mən ona diqqətlə baxdım və qeyri-ixtiyari olaraq dedim: «Tapdım». Bəli, mən Əfsanəni tapdım, gözəlliyini gördüm və gördüklərimi asanlıqla təsvir edərək Əfsanəni yaratdım. Onu həyatda gördüyüm o gözəlin gözəlliyi ilə təsvir etdim. Onu da düşündüm ki, bu dərəcədə gözəl olmaq bəzən qadına xoşbəxtlik yox, bədbəxtlik gətirir. Onu pulla ala, ailəsini dağıda, ərini öldürə və ya pis yollara sürükləyə bilərlər.

— Səhnədəki Əfsanə necə, xəyallarınızı doğrultdumu?

— Bəli. Məleykə xanım gözəlliyi, cazibədarlığı, boy-buxunu ilə Əfsanəyə oxşayır. Axı o gözəl və incədir.

— Bu günkü Azərbaycan gənclərinə sözünüz, arzunuz.

— İlk növbədə indiki çətin şəraitdə «necə gəldi yaşamaq olar» prinsipindən uzaq olsunlar. Düşünə-düşünə yaşasınlar. Aldanmasınlar, aldatmasınlar. Aldadan özü də xəbəri olmadan aldanır.

Mən hansısa obrazımın dili ilə demişəm ki, Allah məni birinci dəfə aldadana lənət eləsin, ikinci dəfə aldansam özümə lənət olsun.

Mürəkkəb zəmanədə böyük-kiçik yerini bilsinlər, el adətini unutmasınlar, xəyanət yolu tutmasınlar. Halallığa, təmizliyə, ucalığa can atsınlar. Ən ümdəsi üstündə gəzdiyi, nemətini yediyi, havasını udduğu torpağı öz varlıqları kimi sevsinlər. Vətənsiz, torpaqsız heç bir xoşbəxtlik ola bilməz.

Mənim qəriblikdə yazdığım qoşmanın bu misralarını yadda saxlasınlar:

Elin öz qəmidir mənim o qəmim,
Eldən ayrı düşsəm, el olar qənim.
Qəbrimi qürbətdə qazmayın mənim,
Üstümdə bitməsin gülü qürbətin.

*Ağa*

## YAZIÇI ƏLİBALA HACIZADƏ

Adı oxucularımıza yaxşı tanış olan, bir zaman geniş yayılmış «İtkin gəlin», «Əfsanəsiz illər» kimi romanlar müəllifi Əlibala Hacızadənin 65 yaşı tamam olub. Bu münasibətlə «Versiya» qəzeti «Yazıçı» seriyasından xüsusi buraxılış nəşr etmişdir. Buraxılış «Mən dərk olunmamış bir kitabam» söyləyən yazıçının ömür yoluna yığcam, seçimli informasiyalarla, həyat və sənət dostlarının dili ilə, əsərlərindən və əsərlərinə yazılmış resenziyalardan parçalara yer ayırmaqla bütövlükdə nəzər salır, çağdaş ədəbiyyatda və oxucuların qəlbində yeri olan nasirin ədəbi portretini yaratmağa çalışır.

«Yazıçı ömrü» adlı ilk səhifələr bioqrafik məlumat, yazıçı-şəxsiyyət Ə.Hacızadə ilə yığcam müsahibə, habelə foto-kino xronika materiallarını təqdim edir. Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anarın ədibə ünvanladığı təbrik də burda verilmişdir. Daha sonra «Dost sözü», «Sənət və şəxsiyyət», «Ədəbi dostluq», «Yazıçı və həyat» və digər vurğular altında yazıçının qələm dostları Bəxtiyar Vahabzadə, Qabil, Fikrət Qoca, Fikrət Sadıq, Ayaz Vəfalı, Davud Nəsib, Şahin Səfərov, Atababa İsmayıloğlu ürək sözü söyləyir. Xalq yazıçısı Əli Vəliyevin, akademik Məmməd Arifin, tənqidçi un dərc olunmuş yazılarından parçalar Əlibala Hacızadənin yaradıcılığına tarixi qiymət verir.

Yazıçı Nahid Hacızadənin «Nəsrimizin nəğməkarı», fəlsəfə elmləri doktoru Beytulla Şahsoyinin «Qəhrəmanlarının fövqündə dayanan sənətkar», şərqşünas-şair İbrahim Quliyevin «Yazıçılıq taledir», tarix elmləri doktoru, şair Şahin Fazilin «Mənim «əfqan» dostum Əlibala Hacızadə», f.e.n. Rasim Nəbioğlunun «Mənalı və dəyərli 65 il», habelə Abdulla Məmmədov, Zamin Mahmudov, Mahmud Mahmudov, Əzizağa Elsevərin yazıları ədibin şəxsiyyəti və yaradıcılığına ən müxtəlif rakurslardan işıq salır. Şairlər Əhəd Muxtar, Oqtay Rza, Zamin Ağəlioğlu dost sözünü nəzmin dili ilə söyləməyə üstünlük verir.

«Nasirin lirika dəftərindən», «Yazılmamış hekayələr» nasir-şairin qəlb çırpıntılarından söz açır. Ə.Hacızadənin layiqli ata, ailə başçısı, dəyərli insan, müəllim kimi təkrarsız xarakterini isə yazıçının qızı jurnalist Asya Hacızadə, tələbələri Fazilə Qafarqızı və Dilarə Şahin qızının dilindən eşidib-görmək olar.

Sevgi və səliqə ilə hazırlanmış xüsusi buraxılışın məsulları İbrahim Quliyev və Abdulla Məmmədovdur.

Xüsusi buraxılışda müxbirin «Ən çox oxuduğunuz qəzet?» — sualına yubilyar: «Ədəbiyyat qəzeti» — deyə cavab verir.

«Ədəbiyyat qəzeti»nin kollektivi də öz növbəsində qələm dostumuzu səmimi-qəlbdən təbrik edir, ona möhkəm cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayır.

*«Versiya» qəzeti*

## ÖZÜMÜ ƏDƏBİYYATIN FƏHLƏSİ HESAB ETMİŞƏM

Avqustun 28-i Əlibala Hacızadənin 65 yaşı tamam oldu. Amma bundan çoxlarının xəbəri olmadı. Bir vaxtlar əl-əl gəzən «Ayrılığın sonu yoxmuş», «Təyyarə kölgəsi», «Dünyanı tanı», «Vəfalım mənim» kimi populyar kitabların müəllifi indi o cür əsərlər yazmır. Bunun səbəbləri barədə müxtəlif ehtimallar üzərində düşünə-düşünə yazıçının mənzilinə yollandıq. Təsadüfən qapını üzümüzə yazıçı özü açdı. Əvvəlcə duruxub qaldı. Yəqin tanımadığı adamların onu yada salacağını ehtimal etmirmiş. Xanımı ilə birgə bizi içəri dəvət etdi. Özümüzü təqdim etdikdən sonra hal-əhval tutduq.

DÜNYANIN AXIRI

— Səs-sorağınız gəlmir. Yubileyiniz necə qeyd edildi?..

— … Əgər qələm əhli hansısa bir kiçik ədalətsizliyə yol verirsə, deməli, dünyanın axırı çatıb. Həmişə dərdlilər qələm əhlinin yanına qaçıb ki, «dərdimizi yaz». Yaz padişahıma, yaz mənim ağama, sahibimə. Bəs qələm əhli laqeyd münasibətlə üzləşəndə kimin yanına pənah aparmalıdır? Özümü ədəbiyyatın fəhləsi hesab etmişəm və təmənna barədə heç vaxt fikirləşməmişəm. Briqadir 100-ə qədər işçiyə rəhbərlik edir. Kimi qiymətləndirib-qiymətləndirməmək onun səlahiyyətindədir. Bir də görürsən eləsinə mükafat verir ki… O birisi də baxıb düşünür, İlahi, bu niyə belə edir? Axı, ədalət naminə belə olmamalıydı. 65 yaşın təmənnasında deyiləm. Ailəmlə, dostlarla oturub yüngülvari qeyd etdik. İnşallah, qismət olsa, 70-i yaxşı keçirərik. Bu arzu ilə də 66-ya keçdim.

OXUCULARIMA BORCUM VAR

— Yəqin, iqtisadi böhran sizdən də yan keçməyib?

— Keçid dövrü adlandırdığımız bu zaman sanki hər şeyi alt-üst edib. Həyatın axarı, istiqaməti sanki dəyişib. Qələm əhli də cəmiyyətin içində yaşadığı üçün sözsüz ki, bu dalğa onlardan da yan keçməyib. Və onların da həm yaradıcılığına, həm də şəxsi həyatlarına öz möhürünü vurub. Başqa qələm yoldaşlarım kimi, mən də son illər oxucularımın gözünə az-az görünməyə başlamışam. Onları yeni yazı-

larımla sevindirə bilmirəm. Bunun da səbəbi o deyil ki, mən yazmamışam, işləməmişəm. Səbəb odur ki, yazdıqlarımız işıq üzü görə bilmir. İndi zahirən belə təsəvvür yaranır ki, mətbuat çoxdu, çap olunmaq asandı. Ancaq dərindən bu hadisələri təhlil edəndə görürsən ki, ədəbiyyatımız, şerimiz, publisistikamız öz əvvəlki istiqamətini dəyişib insanlar kimi yeni zamanın ruhuna köklənmək istəyir. Bu, 1-5 günün işi deyil, bu, bir tarixi prosesdir.

1992-ci ildən, «Dünyanı tanı» romanımın birinci cildi çıxandan ta üzü bəri sanballı əsər çap etdirə bilməmişəm. «Təyyarə kölgəsi», «Vəfalım mənim»in 3-cü cildi oxuculara çatmayıb. Bunlar mənim mənəvi borclarımdır. Onu da oxuculara qaytarmalıyam. Amma qaytara bilmirəm. İndi mənim əlimdə iki kitabım var. Uzun illər yazdığım «Möcüzə» romanının 1-ci hissəsi hazırdı, çap etdirə bilmirəm. Digərində uzun illər romanlarda, povestlərdə çap etdirdiyim, arxivimdə olan şerləri bir yerə toplamışam. İstəyirəm onları kitab şəklində çıxaram. Amma…

## ÜZDƏ GÖRÜNMƏSƏM DƏ, MƏN VARAM

— Yəqin hamı kimi, sizə də maliyyə çətinliyiniz imkan vermir…

— Keçmişdə dövlət nəşriyyatları kitablarımızı, əl yazılarımızı çap etdirib, biz yazarları dolandırırdı. İndi əlimdə kitab gərək hansısa nəşriyyata müəyyən məbləğdə pul ödəyəm ki, onu çap etdirəm. Özü də fərqə baxın. Bir vaxtlar 100-300 min tirajla kitablarım çıxdığı halda, indi ən yuxarısı 1000 nüsxə buraxdırmaq mümkündür. Yadıma gəlir, «Əfsanəsiz illər», «Ayrılığın sonu yoxmuş» romanının 1754 nüsxəsini eləcə dost-tanışa hədiyyə etmişdim. Üzdə görünməsəm də, mən varam, mən yaşayıram… Amma zamanın burulğanında boy verib, əl qaldırıb görünmək çox çətindir.

— Deyirlər yazıçılar öz həyatlarını yazır, hansısa əsərinizdə həyatınız əks olunubmu?

— Mən bu fikirlə şərikəm. Ancaq hələ indiyəcən öz tərcümeyi-halımı yazmamışam. Kitablarda həyatımın hansısa bir anı, çırpıntısı yazılıb. Amma bütövlükdə olmayıb. İnşallah, fikrim var ki, ömür möhlət versə, öz həyatımı bütövlükdə, olduğu kimi, heç nəyi təhrif etmədən qələmə alam.

— Yəqin razılaşarsınız ki, sizi ən çox tanıdan məşhur trilogiyanızdır. «İtkin gəlin»lə başlayan bu əsərlər necə yaranıb? Deyilənə görə, əsərin süjetləri həyatdan götürülüb…

— Bu romanı Əfqanıstanda olarkən yazmağa başlamışam. Ancaq konkret bir hadisə, əhvalat olmayıb. Mənim sadəcə, uzun illər boyu müşahidələrim, eşitdiklərim, bildiklərim hamısı birlikdə bu əhvalat ətrafında cəm olub. Real hadisələrin mayasında Şərq ölkələrindəki mövcud hadisələr yer alıb. Böyük qardaş öləndə onun xanımını kiçik qardaşa verirdilər. Bu, çox mənəviyyatsız bir şeydi. Mən buna qarşı çıxmaq üçün bu əsəri yazmışam. İstəmişəm bu yolla etirazımı ifadə edim. İkincisi, mən ədəbiyyatşünas olduğum üçün bilirəm ki, şəriətdə, islamda belə bir müddəa var: — gözünü çıxarıbsa, gözünü çıxar; — dişini sındırıbsa, dişini sındır. Şərqdə də belə bir qanun hökm sürüb ki, əgər kimisə öldürübsənsə, sənin öldürdüyün adamın yaxını sənin cəzanı özü verə bilər. Bundan mən əsas psixoloji sarsıntıları əks etdirmək üçün istifadə etmişəm.

— Əsərlərinizdə istifadə etdiyiniz şerlər də öz qələminizin məhsuludur, yoxsa…

— Bəli, mənim bütün kitablarımda bir-iki nümunəni çıxmaq şərtilə qalanı haçansa təklənəndə, qəmlənəndə yazdığım şerlərdi. İtib-batmasın deyə, yeri gəldikcə istifadə etmişəm. Bir az əvvəl sizə çap etdirmək istədiyim şerlər kitabı barədə demişdim, bu, həmin kitablara səpələnmiş şerlərdi…

— Niyə daha çox məhəbbət mövzusuna üstünlük verirsiniz?

— Bu, təbiidir… Məhəbbətdən yazmayan yazıçı yoxdu. Və mənim fikrimə görə, ümumiyyətlə, məhəbbət ədəbiyyatın ŞAH mövzusudu. Elə şeylərdən yazmağa çalışmışam ki, ötəri proses olmasın, həmişəyaşar olsun. Mənim yazılarımda kolxoz, sovxoz, zavod-filan, belə sözlər tapmaq olmaz. Artıq onların hamısı məhv olub, gedib. Elə kolxoz-sovxozdan yazılan əsərlər də məhv olub. Nə qədər yer üzündə bəşər yaşayır, nifrət və sevgi də var. İstərsə də xəyanət, mərdlik, iblislik, şeytanlıq… Bunlar insanların yol yoldaşlarıdır. Ədəbiyyatın borcu odur ki, bunları saf-çürük edib insanlara başa salsın ki, sən getdiyin yolun sonunun nə olduğunu bilirsənmi?

## KOMMUNİST PARTİYASINI ÖZÜMƏ LAYİQ BİLMƏDİM

— «Dünyanı tanı» romanını oxuyanda adama elə gəlir ki, müəllif kommunist ideyalarına sona qədər bağlı olan bir insandır. Necə oldu ki, Sovet hökumətinin dağılmasına az qaldığı bir dövrdə belə bir əsər yaratdınız?

— Mən heç bir vaxt kommunist olmamışam. Çox dedilər ki, gəl keç Kommunist Partiyasına, sənin gələcəyin var. Keçmədim. Səbəb də bunu gətirdim ki, mən özümü buna layiq hesab etmirəm. Amma bu, özlüyündə o demək idi ki, Kommunist partiyasını özümə layiq görmürəm. O zaman düzünü demək mümkün deyildi. Partiyanın tarixini dərindən bilsəm də, kommunist ideyalarına inanmırdım. Çünki onların necə hakimiyyətə gəldiklərini, nə qədər insanın qanını içdiyini bilirdim. Lenin, Stalin elə qan tökə-tökə gediblər bu dünyadan.

İndinin özündə nə qədər partiya var. Heç birinin üzvü deyiləm. Mən o adamları sevirəm ki, onlar düşünə-düşünə yaşayır. Axı insanlar «qoyun» deyil ki, biri «hoy» deyən kimi düşələr onun dalınca. Əvvəlcə öyrənmək lazımdır ki, bu «çoban» səni qabağına qatıb hara aparır. Bəlkə, qəssab bıçağının altına sürüyür ki, ətin-qanın hesabına cibini sərvətlə doldursun? Mənim əslində yazıçı kimi bir partiyam var: bu partiyanın adı Azərbaycandı. Onun lideri də özüməm, əsgəri də özüməm, çobanı da… Bir çoxları kimi, mən də deyirəm ki, əlimə silah alıb döyüşə getməyə hazıram. Torpaq uğrunda… Amma bilirəm ki, qabağa düşüb gedəndə, bəlkə də məni özümünkü vuracaq ki, ey qoca, hara gedirsən, bəs bizim burda «gül kimi plan»larımız məhv olur…

## ETİRAF ETMƏYİ HAMI BACARMIR

— Elə həmin romanınızda da eyni ideyanı təbliğ edirsiniz. Bəs Nəzər kişinin aqibəti necə olur? Əsərin 2-ci hissəsini tamamlamaq fikrində deyilsinizmi?

— Demək olar ki, 2-ci hissə hazırdır. Bir balaca əl gəzdirmək lazımdır. Nəzərə gəlincə, onun kimi adamlar çoxdur. 2-ci kitabda Nəzərin aqibəti həll olunub, həbsdən çıxır. Həyat ona başa salır ki, sənin getdiyin yol yaxşı yoldu, amma mümkünsüzdü, çətindi. Çünki natəmiz adamlar o qədərdi ki, onu sındırıb-əyib öz istədikləri yola sala bilirlər. Adicə bir misal çəkim. Yaxşı, pullu adamlarımız var. Kimdir bunlar? Onlar dünənəcən Kommunist Partiyasının biletini cibində gəzdirən, müəyyən postlarda çalışan, dövlətin, xalqın, sənin,

mənim sərvətimizi mənimsəyən və o zaman qorxusundan üzə çıxara bilməyən, indiki şəraitdən istifadə edib sənə və mənə meydan oxuyan, səni və məni qabağında qul kimi işlədən adamlardır. Mən bir yazıçı kimi onun pulunun haradan gəldiyini bilirəm. Bu, xalqın puludur, yığıb cibinə. Və bizi insan yerinə belə qoymur. Yeri də gələndə təhqirlərini yağdırır.

— Siz də, mən də, yuxarıda haqqında danışdığınız şəxslər də bu ölkənin vətəndaşıyıq. Azərbaycan bu şəraitdə inkişaf yolunu tapa bilibmi?

— Deyilənə görə, statistikamız irəli gedir. Amma maddi durum göz qarşısındadır. Sadəcə, bunu etiraf etmək lazımdır. Onu da ki, heç də hamı bacarmır. Düşünmək üçün də xeyli əsas var. Axı, sərvəti, neməti bol olan torpağın sakinləri bu cür yaşamamalıdır. Nə vaxta kimi ehtiyac mənəviyyatımızı canavar kimi söküb, parçalayacaq…

*Zəminə Rəhimqızı*

## DOĞMALAR ÜÇÜN HƏMİŞƏ DARIXIRAM

Əlibala Hacızadə rayonumuzun Ağalikənd kəndində anadan olub, uşaqlığı, gəncliyi burda keçib. Aşağı Cürəli kənd yeddiillik məktəbini, 1953-cü ildə isə K.Marks adına Xırmandalı kənd orta məktəbini bitirib. S.M.Kirov adına ADU-nun şərqşünaslıq fakültəsində təhsil alıb. Şərqşünas alim kimi yetişsə də, o, respublikamızda istedadlı yazıçı kimi daha çox tanınır. Onlarca kitabın müəllifidir. Özünəməxsus yaradıcılıq yolu, təhkiyə üsulu olan Ə.Hacızadənin bütün əsərləri, demək olar ki, oxucuların qəlbinə yol tapmışdır. Çünki yazıçının qəhrəmanları həyatla səsləşən, sabah üçün yaşayan, qurub-yaradan, yüksək keyfiyyətli adamlardır.

Ə.Hacızadənin ilk kitabının işıq üzü gördüyündən çox keçib. «Heykəl gülür» adlanan hekayələr məcmuəsindən sonra yazıçı daha böyük və müasir oxucunu narahat edən mövzulara əl atmış, həm lirik səpkili, həm də dərin psixoloji təhlilli, oxucu qəlbini ovsunlayan əsərlər yaratmışdır. «Müharibə qurtardı», «Məhəbbət olmayan evdə», «İnam» və digər povestlərindən sonra həmyerlimiz «Təyyarə kölgəsi» romanını yazmışdır. Bir neçə illik fasilədən sonra oxucular Ə.Hacızadənin trilogiyası ilə — «İtkin gəlin», «Əfsanəsiz illər», «Ayrılığın sonu yoxmuş» romanları ilə böyük məhəbbətlə tanış oldular. Əsər dost əfqan xalqının Aprel inqilabına qədərki ictimai və siyasi həyatından, sadə və xeyirxah insanların azadlığa, xoş gələcəyə inamından, səadət, haqq işi uğrunda mübarizəsindən bəhs edir. Hər üç romanın surətləri əqidə və məslək cəhətcə bir-birindən tamamilə fərqli, ziddiyyətli, çətin həyatın sınaqları ilə üzləşən adamlardır.

«Ayrılığın sonu yoxmuş» romanı lap yaxın vaxtlarda çap olunmuş və geniş əks-sədaya səbəb olmuşdur. Əsərlə tanış olan oxucular müxtəlif suallarla redaksiyamıza müraciət edir, romanda cərəyan edən hadisələrə öz münasibətlərini bildirirlər. Oxucuların rəyini, arzu və istəyini nəzərə alaraq Əlibala Hacızadə ilə telefon müsahibəsi aparılmışdır. Müsahibəni sizə təqdim edirik:

— «Ayrılığın sonu yoxmuş» romanınız 100 min tirajla çap olunub. Şübhəsiz, tirajın belə yüksəkliyi oxucu marağı ilə əlaqədardır. Bu, sizi sevindirirmi?

— Oxucu sarıdan taleyimdən gileylənə bilmərəm. Təzə romanım böyük tirajla çap edilsə də, mağazalarda tapılmır. Nəşriyyat yaxın gələcəkdə onu yenidən çap etməyi nəzərdə tutmuşdur.

— Özünüz və trilogiyanın yaranması haqqında oxucularımızın suallarına ətraflı cavab verməyinizi xahiş edirik.

— Sizə məlumdur ki, mən K.Marks adına Xırmandalı kənd orta məktəbini qurtardıqdan sonra Universitetin şərqşünaslıq fakültəsində oxumuşam. Fars dili ixtisasına yiyələnmişəm. «Fərrüxi Yəzdinin poeziyası» mövzusunda dissertasiya müdafiə edib filologiya elmləri namizədi adı almışam. 1966-1970-ci illərdə Əfqanıstan Demokratik Respublikasında işləmişəm. Həyat tərzi, milli adət və ənənələri bizimkindən heç də seçilməyən sadə əfqan xalqının həyatının, azadlıq uğrunda mübarizəsinin şahidi olmuşam. Orada «Tale», «Od və pul» və digər hekayələrimi yazdım. Lakin hiss edirdim ki, böyük əsər üçün də mövzu vardır. İctimai həyatın inkişafında müstəsna rol oynayan dövlət xadimləri ilə, görkəmli inqilabçılarla, şairlərlə görüşüb romanım üçün zəngin material topladım. Müxtəlif vaxtlarda çap edilsə də, mən hər üç romanda yaxından tanıdığım, Əfqanıstanda olarkən hər gün görüşdüyüm adamların obrazını yaratmışam. O adamların obrazını yaratmışam ki, onlar Əfqanıstanda Aprel inqilabının qalib gəlməsi üçün əsl fədailər olmuşlar, ölümdən qorxmamışlar.

— Müxtəlif peşə sahibi olan oxucular hər üç romanın ayrı-ayrı surətlərinə dərin rəğbət bəsləyirlər. Bəziləri Nəcməddin, Şəfi, Məleykə, Əfsanə obrazlarının, bəziləri isə Elməddin, Siminbər, Əbdül, Cabbar surətlərini sevdiklərini bildirirlər. Doğrudur, bir müəllif kimi, qələmə aldığınız obrazların hamısı Sizin üçün doğmadır. Lakin deyin görək, oxucu Ə.Hacızadə hansı surətlərə üstünlük verərdi?

— Hər bir oxucunun öz dünyası, bədii əsərə öz münasibəti var. Mən üzlərini görməsəm və özləri ilə şəxsən tanış olmasam da, romanlarımdakı ayrı-ayrı surətləri ürəkdən sevən bütün oxucularıma minnətdarlıq etmək istəyirəm. Özümün fikrimi soruşursunuzsa, Əfsanəyə və Nəcməddinə üstünlük verərdim…

— Bir vaxtlar M.Arif «Ədəbiyyat və incəsənət» qəzetində «İnam» povestinizin məziyyətlərindən söz açmış və bu əsərin ideya-bədii səviyyəsini çox yüksək qiymətləndirmişdir. Nədənsə son əsərlərinizi, xüsusilə, təzə romanlarınızı ədəbi tənqid sükutla qarşılayır.

— Tənqidçilər üçün yox, oxucular üçün yazıram.

— Elməddinin şəhərdə evini aldığı qoca qəndəharlı deyir: «İnsan üçün ən əziz yer, ən müqəddəs yer onun dünyaya göz açdığı, iməklədiyi, gəncliyini keçirdiyi torpaqdı, bala. Ondan şirin şey mən təsəvvür eləyə bilmərəm dünyada, oğul». Bu cümlələri qələmə alarkən hansı hissləri keçirmisiniz?

— Məqsədiniz mənə aydındır. 30 il bundan əvvəl uşaqlığımı, gəncliyimin ilk illərini qoyub şəhərə gəldiyim kənd, doğma yerlər və adamlar unudulmur. Onlar üçün həmişə darıxıram. Kənddəki taytuşlarım — onlar şübhəsiz, həyatın istisini-soyuğunu dadmış mənim kimi orta yaşlı adamlardır — həm də yeddiillik və orta məktəb yoldaşlarım heç vaxt yadımdan çıxmır. Son dəfə Puşkində 1978-ci ildə olmuşam. Özümlə, valideynlərimlə bağlı xatirələrin — onlar çoxdan ötüb keçib — burulğanına düşmüşdüm.

— «Müharibə qurtardı» povestinizdə bir vaxtlar Sizin, sonralar mənim təhsil aldığım yeddiillik məktəb, bu məktəbin sinif otaqlarının yöndəmi, həyət-bacası olduğu kimi verilib. Digər əsərlərinizdə də Əsgərabad kəndi ilə, Əzizbəyov adına kanalla, kənddəki müxtəlif binalarla, adamlarla bağlı maraqlı süjetlər vardır. Hətta uşaq hekayələrinizdə əsgərabadlı adamların adları, xasiyyətləri olduğu kimi verilmişdir…

— Doğru deyirsiniz. Mən əksər əsərlərimdə doğma kəndimizin yaxın keçmişini bu və ya başqa tərzdə əks etdirən epizodlar, mənzərələr təsvir etmişəm. Gələcəkdə də həcmindən asılı olmayaraq, şübhəsiz, bütün əsərlərimdə uşaqlıq və gənclik illərim, şahidi olduğum müəyyən hadisələr, yadda qalan həyat səhnələri canlanacaq. Hansı obrazınsa yaşayış yerinə, həyat tərzinə çevriləcək.

— Övladlarınızdan Sizin ixtisasınızı seçən varmı?

— Bir oğlum, iki qızım var. Oğlum əsgərlikdədir. Ona atam Qüdrətin adını vermişəm. Böyük qızım Təranə Universitetin filologiya fakültəsində oxuyur. Kiçik qızım orta məktəbin X sinfində oxuyur. Ona də anamın adını vermişik — Asya. Uşaqlarımın gələcəkdə hansı peşə sahibi olmaqları valideyn kimi məni nə qədər narahat edirsə, onların əsl insan, cəmiyyətə, xalqa xeyir verən adamlar olmaları məni daha çox düşündürür.

— Yeni yaradıcılıq planlarınız?

— «Təyyarə kölgəsi» romanının ikinci hissəsi üzərində işləyirəm. «Qızıl» hekayəm «Ulduz» jurnalında çap olunacaqdır.

— Müsahibə üçün sağ olun. Arzu edək ki, həmyerlilərinizi unutmayacaq, onlarla təzə görüşlərə tələsəcəksiniz.

— Böyük məmnuniyyətlə rayonumuza gələcək, həmyerlilərimlə görüşəcəyəm.

Mən onsuz da doğma rayonumuzu, həmyerlilərimi unutmuram. Demək olar Puşkindən aldığım hər xoş xəbər, ürək açan nailiyyət sevincimi artırır. Fəxr edirəm ki, mənim doğmalarım — həmyerlilərim təsərrüfat və mədəni quruculuq işlərində qabaqcıllığı, təşəbbüskarlığı ilə tanınır.

*Əlibala Rəhimov*
*«Məhsul» qəzeti*

## «İNSAN DÜNYAYA XOŞBƏXTLİK ÜÇÜN GƏLİR»

### O, ALIN YAZISINDAN QAÇMAĞI BACARIB

O, qeyri-adi insandır. Qeyri-adiliyi də bəlkə elə adiliyindədir. Zahirən bütün insanlardan fərqlənəcək elə bir əlaməti yoxdur. Amma insanı donduran dəhşətli baxışları var. Qınamayın məni, onun gözlərindəki ifadəni ayrı cür demək olmur. Söhbət Əlibala Hacızadədən gedir…

Qəribə tale yaşayıb o. Və bəxtinə düşənləri əsərlərinə köçürməyə çalışıb. Əsərlərində heyrətamiz dərəcədə şirinlik və axıcılıq var. İnsan mənəviyyatının ən irişilməz nöqtələrinə varan yazıçının çox qəribə və cazibədar dünyasında bir neçə saatlıq qonaq oldum.

— Yaşadığınız 65 illik ömrünüzü necə xarakterizə edərdiniz?

— Çox yaxşı yerdən başlamısan… Hər bir insan dünyaya gəlir, yaşayır, son olaraq dünyasını tərk edir. Mən də Allahın yaratdığı bəndələrdən biriyəm və 65 il ömür yaşamışam. Bunun 5 ilini kənara qoyuram, amma 60 ili mənim beynimdə, ürəyimdə, xəyalımda, xatirələrimdə cümləbəcümlə, günbəgün, saatbasaat yazılıb. Hərdən təklənəndə, kədərli anlarımda ömrümü qabağıma qoyub düşünəndə həm kədərlənirəm, həm də sevinirəm. Sevinirəm ki, ömrüm boyu düşünə-düşünə yaşamışam. Necə gəldi yaşayan adamları heç vaxt sevməmişəm. Adamlar var ki, bu hərəkətinin sabah nə ilə nəticələnəcəyini düşünmədən yaşayır; yeyir-içir, yatır, işləyir. Hər gün təkrar və yeknəsəq bir həyat. Bu cür adamlara ikrah hissi ilə baxmışam.

Dünyamız mürəkkəb dünya hesab olunur. XX əsr keşməkeşli əsr olub. Uşaqlıq çağlarım 1941-1945-ci illərin müharibəsi dövrünə düşüb, bir yandan yetimlik, sonra qıtlıq illəri, tələbəlik illəri… Bunların hamısı taleyimdə izlər buraxıb. Kədərlənirəm ki, 60 illik ömrümün — 5 ilini yenə kənara qoyuram — sevinci kədərindən az olub. Halbuki insan dünyaya xoşbəxt olmaq üçün gəlir. Zaman elə olub ki, qüssələrim, qayğılarım çox olub.

— Bunu nəyə yozaq: günahkar alın yazısı olub, yoxsa vaxt, zaman?

— Bunun iki tərəfi var. Birinci taleyimlə bağlıdır. Taleyə, alın yazısına inanıram, bu var… bundan qaçmaq mümkün deyil. Amma ağılla, düşüncəylə yaşayanda bundan qaçmaq olar. İndi sənə maraqlı bir fakt deyəcəm, gör qaçmaq olur, ya yox? Tələbəlik illərimdə başladım nəsil tariximizlə maraqlanmağa. Belə bir şey kəşf etdim ki, bizim nəsildə hələ ulu babam 4-cü uşaq dünyaya gələndən 1il 3 ay neçə gün sonra, 35 yaşında rəhmətə gedib, atamın atası da 4-cü uşaqdan sonra 35 yaşında rəhmətə gedib. Müharibə başlayanda atamın 3 övladı varmış; mən və iki bacım. Müharibə başlayan gün atam könüllü cəbhəyə gedir. Müharibənin 3-cü ili atamdan qara kağız gəldi və anam buna dözməyib vəfat etdi. Nənəm saxlayası oldu bizi. Müharibə qurtarandan 6 ay sonra birdən atam gəldi!.. Gəldi… (Çəkib qurtardığı siqareti söndürüb yenisini yandırdı. «Bu da maraqlı hekayətdi, imkanınız olacaqsa verərsiz», — deyərək yarımçıq qalmış hekayətinə başladı).

Nənəm, yəni atamın anası bir payız səhəri tezdən durub mənə dedi ki, Əlibala, samovarı hazırla. Dedim ki, neynirsən samovarı? Dedi ki, qonağımız gələcək. Kim gələcək? Qayıtdı ki, Qüdrət gələcək (Əlibala müəllimin atasının adıdır — V.Ə.). Mən onda 10-11 yaşlarında idim. Fikirləşdim ki, yazıq nənəm oğul dağına dözmədi, başına hava gəldi. Mən samovarı hazırlayana qədər başladı özü həyəti süpürməyə. Həyətlə kifayətlənmədi, yolun ağzını, küçəni də süpürdü. Qonşu Əli kişi ordan keçəndə dedi: «Ay Səriyyə, neyləyirsən?». Dedi ki, Qüdrət gələcək, həyəti süpürürəm. Kişi də başını bulayıb çıxıb getdi. Və iki-üç saat keçmiş həmin Əli kişinin oğlu İbiş qaça-qaça gəldi ki, muştuluğumu verin, Qüdrət gəldi. Qüdrət gəlib çıxdı… Üç uşaq, nənəm də qocalıb… nənəm atamın üstünə düşdü ki, evlənməlisən, həyət-bacaya, uşaqlara baxa bilmirəm. 1947-ci ildə nənəmlə atamın bacısı atama bir dul qadın aldılar. 1948-ci il may ayının 15-də 4-cü uşaq dünyaya gəldi. Adını da mən qoymuşam: Nizami. İndi rayonda yaşayır. Nizami dünyaya gələndən bir il üç ay sonra atam 35 yaşında öldü. Və mən bunu özlüyümdə müəyyənləşdirdim. Vaxt dolandı, mən evləndim, 3 uşaq dünyaya gəldi, 4-cü uşaq 35 yaşıma düşürdü. Əgər 4-cü uşaq olsaydı, ölməli olmasam da, elə bu hikməti bildiyim üçün bağrım çatlayacaqdı. Buna görə də elə 3 uşaqla kifayətləndik. Və mən nəsilbənəsil gələn alın yazısını dəyişdim. 30 ildir bu hesaba yaşayıram. Bəlkə də Allah dünyadan cavan getmiş

atamın, babamın ömründən kəsdiklərini mənim ömrümə calayacaq… Bax, belə bir ömür yaşamışam.

— Adətən deyilir ki, insanın özünə qayıdışı yaşa dolandan sonra olur. Bunu yazıçılara da şamil etmək olar?

— Bəli, daha çox yazıçılara, sənət adamlarına aiddir bu. İnsan yaşa dolandan, müdrikləşəndən sonra ömür-gününü saf-çürük eləyir; bu məqamlar çox yaddaqalan olur.

— Keşməkeşli taleyinizdən bəhs etdiniz. Yazıçı olmağınızda bu faktorun təsiri olubmu?

— Sözsüz… Mənim belə qənaətim var ki, xoşbəxt adam böyük sənətkar ola bilməz. Dünyanın bütün dahilərini gözünüzün qabağına gətirin. Onların hamısı həyatda bədbəxt adamlardı; biri kasıb olub, biri atılmış olub sevdiyi tərəfindən, biri şikəst olub… Onları yaşadan və sözünü deməyə vadar eləyən dərd olub. Eləsi var ki, millətinin, eləsi var ki, ailəsinin, eləsi də var ki, özünün şikəstliyi, zəlilliyi şair edib onu. Təsəvvür eləmirəm ki, xoşbəxt və harın insan səni, məni sarsıdacaq, düşündürə biləcək əsər yazsın. Yaza bilməz! Niyə? Çünki o, həyatın bir üzünü görüb. Xoşbəxtlik ona qızıl sinidə gətirilib. Amma həyatın o biri üzünü — kədərini, göz yaşını, ayrılığını, ölümitimini hiss eləməyib.

— Sənət adamları, yazıçılar Allaha daha yaxın olurlar. Onda belə çıxır ki, Allah «yaxınları»na dərdi bilə-bilə verir…

— Bəli, sınamaq üçün. Sınayır…

— Nə vaxta qədər?

— Allahın səbri böyükdür. Allah «yaxınları»nı əzaba düçar eləyir. Əvəzində nə verir? Ölməzlik!..

İnsan Allahın ən böyük əsəridir. Allahın yaratdığı əsər — insan ölür, amma sən insanın qüdrətinə bax ki, insanın yaratdığı əsər ölmür…

— Müsahibələrinizin birində «Mən özümçün hələ tam dərk olunmamış və oxunmamış bir kitabam», — demisiniz…

— Bəzi adamlara elə gələ bilər ki, Əlibalanın ürəyi indiyə qədər yazdıqlarında əks olunub Bu, həqiqətin bir faizidir. İçimdəkiləri hələ tam köçürə, ifadə edə bilməmişəm. Bunun üçün şərait, imkan olmayıb.

— Yeri gəlmişkən, səcdə qıldığınız insanın olduğunu da demisiniz, amma adını açıqlamamısınız. Bu insan kişidir, yoxsa qadın?

— Etiraf edim ki, bu insan qadındır. Kişilərin içində səcdə edilәsi adam görməmişəm.

— Şəxsi münasibətlərdən yaranıb bu səcdə?

— Yox, şəxsi hisslər burda çox azdır. Mən bilirsiniz ki, əsərlərimin çoxunda qadın obrazlarına, onların hissiyyatına, iç dünyalarına geniş yer vermişəm. Və hərəsində bir gözəl cəhəti əks etdirmişəm. Siz təsəvvür edin ki, bu qadınların dediyim cəhətlərinin bir qadında cəmləşdiyini görəndə bu səcdəyə layiq olur.

— Çoxsaylı əsərləriniz içərisində sizi daha çox sevdirən və populyarlaşdıran bir əsəriniz var: «İtkin gəlin». Özünüz hesab edirsinizmi, bu əsər doğrudan da o birilərindən güclüdür?

— Bu məsələdə ədəbi ictimaiyyət arasında iki fikir var. Bir qismi belə fikirdədir ki, «Təyyarə kölgəsi» mənim ən güclü əsərimdi, «İtkin gəlin» bunun yanında zəifdi. Bu əsərlərin, necə deyərlər, anası da mənəm, atası da. Hər kəs öz övladını başqalarından yaxşı tanıyır. Mənim tanıdığım güclü əsərim «İtkin gəlin»dir. «İtkin gəlin» tamam başqa üslubda və bəlkə də mənim daha heç vaxt bu cür yaza bilməyəcəyim bir əsərdir. Bunun nəyi o birisindən artıqdı? Burda insan psixologiyasına elə nüfuz eləmişəm ki, bunlar bütün cəmiyyətlərdə olan məsələlərdi. Yəni bu problemlər dünən də olub, bu gün də var, sabah da olacaq.

— Bu dərin nüfuzetmə nədən irəli gəlirdi: müşahidə, fitri istedad, yoxsa özünüzün yaşamınızdan…

— Bəli, burda bu üç əsas əlamətin üçü də var. Mən özümünkü eləmədiyim şeyi yazmamışam. Yəni mən ölənlə ölürəm — obrazları nəzərdə tuturam — sevənlə sevirəm, xəyanət eləyən obrazımla xəyanət eləyirəm.

— Niyə həmişə ən çox qorxduğunuz şeyin xəyanət olduğunu deyirsiniz? Taleyinizdə «böyük xəyanət» olubmu?

— Yox, şəxsən özümün həyatımda heç bir xəyanət olmayıb. Ancaq cəmiyyətdə, gözümün qabağında aldadılanlar var. Yalanları, ikiüzlülükləri görürəm və məni ağrıdır… Ağrıdır ki, sevən iki insan bir-birinə necə xəyanət eləyə bilər, necə bir-birinin gözünün içinə yalan danışa bilər?..

Yazıçı adi insanlardan heç olmasa bir qarış yuxarıda durmalıdı. O, «yeraltı çaylar»ın hara axdığını, əxlaq axıntılarının hara getdiyini və sabah nə kimi nəticələr verəcəyini görməli və deməlidi. Əgər yazıçı bunu eləmirsə, o, yazıçı deyil.

— Nədənsə əsərlərinizdə ayrılığa, göz yaşlarına daha çox yer verirsiniz…

— O qayğı və kədərləri ki, mən yaşamışam, özümə 65 il yox, 165 il yaşamış insan kimi baxıram.

— Xoşbəxtlik sizin üçün nədir? Ümumiyyətlə, xoşbəxtlik məfhumu bütövlükdə varmı yer üzündə?

— Mən xoşbəxt insanlar görmüşəm. Düzdür, onlar azdı, amma cəmiyyətdə, insanlar içində belələri var. Xoşbəxtliyi mən nə sərvətdə, nə də gözəllikdə görməmişəm, axtarmamışam. Xoşbəxtlik qarşılıqlı anlaşmadı. İnsan tək öz-özünə xoşbəxt ola bilməz. İnsan sevilərkən, sevərkən xoşbəxt olur… O zaman xoşbəxt olur ki, onun sevdiyi — tərəf-müqabili onun kimi ürəyini oxuya bilsin, başa düşə bilsin…

— Düşünürəm ki, bütövlükdə xoşbəxt yoxdur.

— Əlbəttə, tam xoşbəxt adam yoxdu.

— Ancaq xoşbəxt anlar var…

— Tam bədbəxt adamlar da yoxdu. Təsadüfi deyil, hansısa ölkədə qəbiristanlıqda başdaşıların üstünə mərhumun adıyla birgə yazılır ki, 5 ay, 5 il, 5 saat, 10 saat. Soruşurlar ki, bu nə hikmətdi. Axı filankəs 80 il yaşayıb. Deyirlər ki, bizim elin adətidi, ömrün xoş keçən anları başdaşına yazılır.

— Təzədən dünyaya gəlsəydiniz, elə bu ömrü seçərdiniz?

— Bəli… Amma müəyyən düzəlişlərlə. Məsələn, çalışardım ki, maddi təminatım heç olmasa hamınınkı kimi olsun. Və mən bu problemlərdən uzaq olum ki, oturub yaza bilmədiklərimi yazım. Bu, bizim itkilərimizdi. Bu on ildə ən böyük itkilərimiz isə şəhidlərimizdi, torpaqlarımızdı. Torpaqlarımızı geri alacağıq, amma şəhidlərimizi dirildə bilməyəcəyik. Mənim və mənim kimi sənət adamlarının bu 10 ildə yazmaq istədikləri, lakin yaza bilmədiklərini də heç kim yaza bilməyəcək.

— Uzaq dağ kəndlərindən tutmuş paytaxt yataqxanalarına qədər Əfsanənin, Gülmirənin taleyini oxuyub məhəbbətin qüdrəti qarşısında sarsılanlar çox olub. Bəs Əlibala Hacızadə məhəbbəti necə qəbul edir?

— Məhəbbət çox geniş anlamdır; anaya, ataya, torpağa, Vətənə, sevdiyin insana məhəbbətin olur. Məhəbbətin ecazkar qüdrəti var. Bu qüdrət insanı məğlubedilməz edir.

Sən Allah, yuxuma girmə gecələr,

Qorxuram sevincdən öləm yuxuda.
Yaman istəyirəm hamıdan gizlin,
Mən özüm yuxuna gələm yuxuda…

Gələm tufan kimi, gələm sel kimi,
Öpəm gözlərindən, dodaqlarından.
Uyuyam qoynunda qızılgül kimi,
Nə səhər açıla, nə sökülə dan.

Sənə nəğmə deyəm incədən-incə,
Ürəyin qəşş edə xoşbəxtliyindən.
Sərxoş dodaqların hey pıçıldaya:
«Sənsiz neyləyirəm xoşbəxtliyi mən…»

Yaşayım beləcə yuxunda sənin,
Görmək istəmirəm kimi, kimsəni.
Dünyanın xoşbəxti say özünü sən,
Mənim tək kim sevər, axı kim səni?..

Bu, Əlibala müəllimin son şeridir. Özü demişkən, hələ mürəkkəbi qurumayıb. Deyəsən, elə ilk oxucusu da mən oldum… Taleyində böyük sevgisi olub Əlibala Hacızadənin. Özü deyir ki, həmişə də olacaq… Amma qovuşmayıb o böyük sevgisinə.

O, ağlaya-ağlaya ağladıb. Təkcə ağlatmayıb… Dolayı yolla olsa da, bizim fikirləşməkdən belə qorxduqlarımızı öz əsərlərində deyib. Dəfələrlə işdən çıxarılıb, vəzifəsi kiçildilib, hətta əsərlərinin çapına qadağa qoyulub. Amma qorxmayıb, çəkilməyib bu yoldan. Çəkdiyi əzabların, qayğıların müqabilində milyonların sevgisini qazanıb. Vaxtilə xalq yazıçısı Əli Vəliyev onun haqqında deyirdi ki, onun yazdıqları heç kimin əsərinə oxşamır. Onu oxuduqca, öyrəndikcə oxşarsızlığının, əvəzsizliyinin şahidi olursan… Təqdim etdiyim bu yazı Əlibala müəllimlə söhbətimin bir qismi idi. Və mən sözümü başladığım cümlə ilə də bitirirəm: O, qeyri-adi insandı.

*Vəsilə Əfqanqızı*

## «MƏN DAHA ÇOX VƏ DAHA YAXŞI YAZA BİLƏRDİM…»

Yazıçı Əlibala Hacızadə yazmadıqlarını itirilmiş əsərləri hesab edir

Qərb ədəbiyyatında geniş işlədilən «bestseller» ifadəsini məmnuniyyətlə Əlibala Hacızadənin romanlarına şamil etmək olar. Bir vaxtlar onun «Təyyarə kölgəsi», «Vəfalım mənim», «İtkin gəlin», «Əfsanəsiz illər», «Ayrılığın sonu yoxmuş» romanları əl-əl gəzərdi, oxucuları, sözün həqiqi mənasında, ağladardı… Həmkarları onu sentimentalizmə uymaqda qınayırdılar. Amma elə həmin vaxtlarda kitabları yüz min tirajla satılan Əlibala müəllim indinin özündə də oxucu marağının hər hansı məntiqsiz iddianın fövqündə dayandığını deyir. Bu yaxınlarda 65 yaşı tamam olacaq yazıçı ilə söhbətimizdə də onun həyata və yaradıcılığa baxışları əsas yer tutdu.

— Əlibala müəllim, maraqlıdır, ilk dəfə qələminizi dramaturgiyada sınasanız da, sonra nəsrə üz tutdunuz…

— Hə, qəribədir ki, ilk yazım dram əsəri olub. Sonralar hələ şer də, hekayə də yazmışam. İlk əsərimin heç əlyazması da qalmayıb. Amma onunla bağlı bir hadisə yadımdan çıxmır.

Dramda belə bir məqam təsvir eləmişdim ki, qəhrəmanlardan biri qaça-qaça səhnəyə girəndə ayağı ilişir vedrəyə və yıxılır. Biz də bu əsəri altıncı sinifdə oxuyanda öz sinif otağımızda oynadıq. Otağın da döşəməsi qırmızı kərpicdən idi. Həmin rolu özüm oynamalı oldum. Müharibədən sonrakı illər idi. Aclıq, qıtlıq vaxtı idi. Mən qaça-qaça səhnəyə girdim, ayağım ilişdi vedrəyə, doğrudan yıxıldım və yeganə şalvarımın dizi partladı. Evə gələndə nənəm məni çox danladı ki, bəs indi nə geyinəcəksən. Sonradan nəsri seçməyimin isə bir məqamla bağlılığı var. Yuxarı siniflərdə oxuyanda bizə bir ədəbiyyat müəllimi gəldi. Qazaxdan idi — Konsul Qasımov. O, eşitmişdi ki, mən yazıram. Şer dəftərimi alıb oxuyandan sonra mənə nəsr əsərləri yazmağı məsləhət gördü. Görünür, şerlərim xoşuna gəlməmişdi. Elə onun sözü ilə də nəsri seçdim. Amma ürəyim istəyəndə indi də şer yazıram. Əlbəttə ki, mən heç vaxt şairlik iddiasında olmamışam. Heç yazıçılıq iddiasında da olmamışam. Elə-belə yazmışam. Sonra mənə deyiblər ki, sən yazıçısan.

— Bəs özünüz hansı əsərinizdən sonra yazıçılığınızı qəbul etmisiniz?

— Yaradıcılıq elədir ki, tükənmək bilmir. Hər dəfə təzə yazıya başlayanda elə bilirəm birinci yazımdır. Qorxa-qorxa başlayıram. Artıq neçə illərdir yazıram. Amma qətiyyətlə deyim ki, mən yazıçıyam, yox, bu hissə gəlib çatmamışam. Məncə, bu yeganə sənətdir ki, «öyrəndim qurtardım» deyə bilməzsən. Yazdıqca hər dəfə yeni şeylər kəşf edirsən. Və hər dəfə də sənə elə gəlir ki, bununla qurtardı. Amma sonra görürsən ki, yazdığından daha təravətlisi gəldi.

— Əlibala müəllim, məşhur trilogiyanızın əl-əl gəzdiyi vaxtlarda, deyəsən, belə bir şey olub — səhv eləmirəmsə, «İtkin gəlin» kitabını Sizə ikiqat baha qiymətə satıblar…

— «İtkin gəlin»i yox, «Əfsanəsiz illər»i. Kitab 100 min tirajla çıxmışdı. Satılandan sonra ikinci dəfə də 100 min tirajla çıxdı. Bir gün mənə dedilər ki, üçüncü dəfə də nəşr ediblər. Mən bildiyimə görə buraxmamalı idilər. Kitab köşkünə yaxınlaşdım, gördüm, doğrudan da, satışda var. Kitaba baxan kimi, kağızın rəngindən, üz qabığından bildim ki, oğurluq buraxıblar. Satıcıya 5 manat verdim, mənə bir kitab, 2 manat da pul qaytardı. Səsimi çıxarmadım. Halbuki kitabın qiyməti 1 manat 10 qəpik idi. Onda nəşriyyatın direktoru bizim gözəl yazıçımız, naşirimiz Əzizə xanım Əhmədova idi. O dedi ki, bizim buraxılışdan xəbərimiz yoxdur. Sonra mənə dedilər ki, get şikayət elə.

— Elədiniz?

— Yox. Yəqin kimsə çörəkpulu qazanmaq istəyib. Mən də heç vaxt kiminsə çörəyinə bais olmaq istəməmişəm.

— Əsərin belə uğur qazanacağına inanırdız?

— Yox, inanmırdım. Mən heç vaxt fikirləşməmişəm ki, bunu yazacağam və nəsə olacaq. Sadəcə, o trilogiyanı yazanda əlimə imkan düşmüşdü. O vaxt açıq deyə bilmədiklərimi, sovet sistemində baş verənləri həmin əsərimdə əritmək istəmişəm. Məsələn, orda yazıram ki, qəzet də yalan danışar? Mən görürdüm, bizim qəzetlər yalan danışır. Amma bizim cəmiyyətdə yazıçının ixtiyarı yox idi belə bir irad bildirsin. Ona görə də mən əfqan şəraitində dedim ki, qəzet də yalan danışar? Heç olmasa, heyrətimi bildirdim. Mən əsərdə milli azadlıq hərəkatı təsvir eləmişəm. O vaxt əfqan cəmiyyətində elə bir hərəkat yox idi. Bu, mənim arzum idi. Hər bir xalq öz müstəqilliyini, azadlığını əldə eləmək üçün mübarizəyə qalxmalıdır. Çox qəribədir ki, sonralar Əfqanıstanda oldu bu hərəkatlar. Həyatın, prosesin inkişaf istiqaməti doğurdu bunu. İllər keçdikdən sonra bizim xalq da mü-

barizəyə qalxdı. Mən bunları burada yaza bilməzdim. Məsələn, burada rüşvət haqqında balaca bir hekayə yazmışdım. Hara aparmışdımsa, çap eləməmişdilər. Əfqanıstana gedəndən sonra bu hekayəni Kabildə qoydum konvertə, Bakıya göndərdim. Konvertin üstündə də yazdım ki, guya bu hekayəni burada yazmışam. Çap elədilər, sonra kitabıma da saldılar.

— Amma trilogiyanız Sizə nə qədər oxucu məhəbbəti qazandırdısa, bir o qədər də həmkarlarınızın qınağı ilə üzləşdiz. Özü də çox ciddi şəkildə…

— Buna təbii baxıram. Hamının zövqünü oxşamaq mümkün deyil. Məni qınayanların bir qismini mən qınamıram. Burda bir qibtə, paxıllıq hissi var idi. Mənim qələm yoldaşlarımın əksəriyyətində qısqanclıq yarandı ki, niyə mənim kitablarım satılır, onlarınkı isə qalır. Maraqlıdır ki, həmin məni qınayan adamlar belə bir «fəlsəfi fikir» ortaya atdılar ki, bazarda çox satılan və çox alınan hər şey yaxşı deyil, bazara çıxarılan, amma alınmayan hər şey də pis deyil. Onlar deyirdilər ki, oxucu hələ gəlib o səviyyəyə çatmayıb ki, onların kitablarını oxusun. Əlibala Hacızadənin kitablarını səviyyəsiz oxucular oxuyur. Mən o vaxtkı çıxışlarımda onlara sual verirdim ki, Nizamini, Füzulini, Nəsimini, Seyid Əzimi başa düşən xalq necə səviyyəsiz ola bilər?! Bu, çox məntiqsiz iddia idi.

— Bundan əlavə, Sizi macəraçılıqda, sentimentalizmdə ittiham edənlər də oldu.

— Mən o adamların hamısına cavab verməyə hazır idim, indi də hazıram. Sentimentalizmi biz ədəbiyyatşünaslığımızda düzgün təhlil eləyə bilməmişik. Sentimentalizm ədəbiyyatın ən çətin sahəsidir. Çünki orada insan qəlbinin min bir duyğusu təsvir olunur. Məsələn, deyirlər ki, filan kitabı oxuyub ağladım. Oxucunu ağlatmaq hər yazıçının işi deyil. Deməli, sən bir yazıçı kimi oxucunun hisslərini elə ələ ala bilirsən ki, o özünü hadisələrin içərisində təsəvvür edir. Bunun nəyi pisdir? Əksinə, mənim aləmimdə bu, yazıçının uğurudur. Bunu edə bilməyənlər edə bilənləri həmişə qınayıb. Onlar bacarmadıqlarına görə sentimentalizmə aşağı səviyyə kimi yanaşırlar.

— Bu trilogiyadan sonra Əfsanə ən dəbdə olan ad idi. Əsərdəki Əfsanənin nakam taleyinə baxmayaraq, çoxları qızına bu adı qoyurdu.

— Təkcə qızlara deyil… Sizə maraqlı bir hadisə danışım. Bir dəfə Biləsuvara getmişdim. Həmin vaxt da orada kənd təsərrüfatı

sərgisi açılmışdı. Katibin – Ramiz Zeynalovun otağından çıxanda təklif etdi ki, gedək ora baxaq. Gördüm ki, bir mıxa qəşəng bir inək bağlayıblar. Divardakı taxtaya da onun adını,təvəllüdünü, çəkisini yazıblar. Baxdım ki, adı nə olsa yaxşıdır — Əfsanə. Sonra bu adı kafelərə də verdilər. Həmişə deyirəm ki, o Əfsanələr mənim balalarımdır. Onların mənəvi atası mənəm.

— Yəqin bu kitablara görə yaxşı qonorar almış olardınız…

— Hə, yaxşı qonorar aldım. Hesablayıb qurtara bilmirdim. Həm qonorar, həm də tiraj pulu verirdilər. Başqalarının hesablamalarına görə, mən milyoner yazıçı olmalı idim. Mənim müəllimim, böyük alimlərimizdən biri — Abbas Zamanov çox şux, zarafatcıl kişi idi. Bir gün xanımımla toya getmişdik. Toyda xanımımı Abbas müəllimə təqdim etdim. Abbas müəllim üzünü yoldaşıma tutub mənə işarə edərək, dedi ki, milyonları neyləyir e bu? Gördüm yoldaşım üzümə təəccüblə baxdı. O pulları qırıq-qırıq alırdım. Ona görə də pullar bir-birinin üzünü demək olar ki, görmürdü. Tez də xərclənib qurtarırdı. Ayrılanda Abbas müəllim qəsdən bir də təkrar elədi ki, bu kişi milyonları hara yığır e? Düz 3 ay bizim evdə bunun üstündə söz-söhbət oldu. Onu təzəcə inandırmışdım ki, bəs bunlar hamısı zarafatdır, bir də gördüm bir bağlama gəldi. Abbas müəllim çox səliqəli adam idi. Təzə kitabı çıxmışdı — «Sabir gülür». Birini də büküb mənə göndərmişdi. Üstünü də belə yazmışdı: «Azərbaycanın milyonçu yazıçısı Əlibala Hacızadəyə müəllimindən yadigar». Evdə təzədən söz-söhbət qalxdı.

— Oxuculara borcunuzu nə vaxt qaytarmaq fikrindəsiz? «Təyyarə kölgəsi», «Vəfalım mənim»in söz verdiyiniz üçüncü hissəsini nəzərdə tuturam…

— Yazmışam, amma çap olunmayıb. «Dünyanı tanı» kitabım da yarımçıq qalıb. «Yandırılmış adamlar» romanımın bir hissəsini rəhmətlik Nəsir İmanquliyev «Bakı» qəzetində çap etdirirdi. O da indi yarımçıq qalıb. Sonra bütün bu illər ərzində yazdığım şerlərim və hekayələrimdən ibarət bir kitabım da durur. İndi nəşr məsələsi çox çətindir. Əvvəllər kitabımızı çap edib pul verirdilər. İndi deyirlər ki, pul verin kitabınızı çap edək. Yazıçıların maddi vəziyyəti yaxşı deyil. Yeri gəlmişkən, bir faktı da demək istəyirəm. Mən kitab saxlaya bilmirəm. Özümə saxladığım son nüsxəni də dostlarımdan kimsə istəyib, vermişəm və qaytarmayıb. «Dünyanı tanı» kitabımdan özümdə qalmamışdı. Fikirləşdim ki, onu harda satsalar, alacam. Bir dəfə

«Azərnəşr»dən çıxanda gördüm kimsə Nizaminin heykəlinin yanında kitablarını qoyub satır. Gördüm ki, «Dünyanı tanı» da var onların arasında. Qiymətini soruşdum, dedi on beş minə. Mənim də cibimdə 5 mindən artıq pul yox idi. Kitabı yerinə qoyub çıxıb getdim. Bir müddətdən sonra məni televiziyaya çağırdılar. Bu faktı orada da dedim. Onu da dedim ki, məni qınaya bilərlər ki, Əlibala utanmır, özü üçün təhqiramiz olan bu hadisəni niyə deyir. Dedim mən o kitabı yerinə qoyub gedərkən yol boyu özümü söydüm ki, necə olur, cibimdə on min pulum olmur. Amma ona da sevindim ki, yaxşı ki, o kitabsatan məni tanımadı. Dedim, mən yox, qoy zəmanə utansın ki, onun yazıçısının öz kitabını almağa pulu yoxdur. Bizim ziyalıların böyük əksəriyyətinin vəziyyəti indi belədir.

— 40 ildən çoxdur Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda işləyirsiniz. Yorulmamısınız?

— Əksinə. Bu suala əlavə olaraq bir məqama toxunmaq da istərdim. Sənətkar üçün yaş artımının yalnız müsbət tərəfi var. Çünki ildən-ilə o püxtələşir, həyat fəlsəfəsi haqqında daha ciddi düşünür və onu daha ciddi şəkildə açmağa çalışır. Dediyiniz kimi, 43 ildir Akademiyada işləyirəm. Bizdə sistem belədir ki, yaşın altmışa çatdısa, səni göndərirlər təqaüdə. Fikirləşirəm ki, axı bu, indi gəlib kamil alim olub, belə bir vaxtda bunu hara göndərirsiniz — ölməyə? Onun indi toya getməyə, gəzməyə, əylənməyə vaxtı yoxdur. Onun bircə dənə məşğuliyyəti var — oturub işləmək. İndi işləməyə başlayanda da sən onu göndərirsən təqaüdə. Əksinə, həmin adamlara şərait yaratmaq lazımdır.

— 65 yaşın hesabatında ən çox təəssüfləndiyiniz nədir?

— Mən daha çox və daha yaxşı yaza bilərdim. Həmişə təəssüf eləyirəm ki, beynimdəkilərin hamısını kağıza köçürə bilməmişəm. Bu da zamanla, şəraitlə bağlıdır. Yaza bilmədiklərimi mən itirilmiş əsərlərim hesab edirəm. Son 10 ildə bizə çoxlu maddi və mənəvi zərbələr dəyib. Şəhidlər xiyabanı göz qabağındadır. Torpaqlarımızda indi ermənilər meydan sulayır. Amma hamımızın görə bilmədiyimiz bir itkimiz də var. O da ziyalılarımızdır. Onların yaza bilmədikləri, çəkə, bəstələyə bilmədikləri əsərlərdir. Bu 10 ildə mən 7-8 kitab yaza bilərdim. Amma birini axıra çıxa bilmirəm. Çünki ictimai dərd hamıdan çox ziyalıları sıxır. Mən inanmıram ki, bu boşluğun əvəzini nə iləsə doldurmaq olsun.

— Çoxları inanmır ki, Sizin heç bir fəxri adınız yoxdur. Amma bu, belədir. Heç vaxt ürəyinizdən keçməyib?

— Heç vaxt arzusunda olmamışam. Onları mən mənasız şey hesab edirəm. Məncə, əsas odur xalqın məhəbbətini qazanasan. Bu mənada, taleyimdən çox razıyam. Harda oluramsa, hörmət görürəm. Biri var xalq şairi olasan, biri də var xalqın şairi olasan. Onların arasında çox böyük fərq var. Əsl sənətkar üçün fəxri adın, titulun heç bir əhəmiyyəti yoxdur.

*Nüşabə Hüseynli*

## «BU MƏHƏBBƏT ÖLSƏ, ÖLƏRƏM…»

Əlibala Hacızadə 65 yaşını onu sevdiklərindən ayıran ayrılığın acığına qeyd etdi

Qədrimi bilmədin, ay qədirbilməz,
Sən ömrün boyunca tək qalacaqsan.
Küsdürdün qəlbimi, qapına gəlməz,
Sən ömrüm boyunca tək qalacaqsan.

Səadət qonmuşdu başına sənin,
Çünki mən çıxmışdım qarşına sənin.
Dilin zəhər qatdı aşına sənin,
Sən ömrün boyunca tək qalacaqsan.

Həmin hiss, həmin həyəcan, həmin məhəbbət və həmin yanıqlı qarğış… Zaman keçsə də, illər bu sevginin nə istisini əskildə bildi, nə ağrısını ovuda… Əlibala Hacızadəni bugünkü gənclik də 60-70-ci illər gəncliyinin tanıdığı kimi tanıdı və sevdi…

Amma bir faktdır ki, bu gün Əlibala Hacızadə ömrünün insan və xüsusən də yazıçı üçün hesabat dövrü sayılacaq 65-ci ilini yaşayır. Əslində, avqustda qeyd edilməli olan 65 illiyini o, ötən həftənin son günü Aktyorlar evində keçirdi.

«Bizim mühitimizdə insan həyatı daha çox təsadüflərdən asılıdır» fikrində olsa da, yubiley barəsində bunu demək olmazdı. Gecikmiş və ya gecikdirilmiş yubileyə yubilyarın açıqlaması bu oldu ki, qorxuram 70-ə çatmayam. Ömrün vəfasızlığından, dünyanın etibarsızlığından narahatlanan Əlibala Hacızadə insanların dönüklüyündən bəlkə hamıdan çox özü zərbə alsa da, heç vaxt şikayətlənmədi. Əvəzində insanları sevməyi və sevilməyi bacaran, səadəti uğrunda ölümə getməyi özünə şərəf bilən əsl məhəbbət aşiqləri yaratdı.

Ötəngünkü yubileyində oxucularına məlum oldu ki, hamıya bu qədər uca, güclü, qüdrətli görünən bu obrazlar, sən demə, darısqal bir mətbəxdə doğulurmuş. Bir sözlə, dünyadan, ədalətsizlikdən, biganəlikdən qisas almağın, acıq çıxmağın orijinal yolunu sevilən qəhrəmanlar yaratmaqda görüb Əlibala Hacızadə. Elə bu orijinallığına görə də həmişə səssiz-səmirsiz sevilib və sevilir. Oxucularını da bu əhval-ruhiyyə üzərində kökləməyi bacarıb. Ona görə də «Sizi niyə sevir-

lər?» sualının cavabı üzərində heç vaxt baş sındırıb, ünvanı əsərlərinin uğurunda axtarmır. Özünə əminliklə: «Çünki mən də onları sevirəm» — deyir.

Yubiley gecəsində dediyi kimi, elə bu sevgi olub onu yaşadan. «Heykəl gülür», «Məhəbbət olmayan evdə», «Unutmaq olmur», «İtkin gəlin», «Əfsanəsiz illər», «Ayrılığın sonu yoxmuş», «Təyyarə kölgəsi», «Vəfalım mənim», «Dünyanı tanı» və çapını gözləyən daha bir neçə kitabı ona layiq olan həm maddi, həm də mənəvi dəstəyi əvəz edib.

Qələm dostlarından biri – Bəxtiyar Vahabzadə tərəfindən «Xalqının Məcnunu» adlandırılan yubilyar heç vaxt təmənna ummayıb. «Onun qiymətini xalq verib» — yazıçını təbrikə gələnlərin hər birinin onun barəsində səsləndikləri fikirdir bu.

Salon ağzınacan dolu idi. Elə dəhliz də. Kasıb, pərdəsiz, səliqəsiz, çılpaq səhnədə Əlibala müəllimi tək qoymayanlar Zəlimxan Yaqub və Şahin Fazil idi. Görünür, yubiley əhvalına köklənməyən səhnənin çirkinliyini ört-basdır etmək istəyindən idi ki, salondakılar Əlibala müəllimi tezcə də gül-çiçək yağışına tutdular. Təbrikə kimlər gəlməmişdi — dostları, tanışları, oxucuları, o cümlədən, onun doğulub boya-başa çatdığı Biləsuvar rayon İcra Hakimiyyətinin nümayəndəsi, tədbirin təşkilatçıları olan Ali Diplomatiya Kollecinin, İran İslam Respublikasının Bakıdakı Mədəniyyət Mərkəzinin və Hikmətsevərlər Cəmiyyətinin təmsilçiləri, Təbrizdən gələn aşıqların çıxışı isə əməlli-başlı kövrəltdi onu. Neçə dəfə İranda olmasına baxmayaraq, qismətdənmi, taledənmi, özü də bilmir, yuxularında gördüyü Təbrizə qovuşa bilməyən Əlibala Hacızadə təbrizli aşıqların çıxışını həmin gün ən qiymətli hədiyyə bildi özünə. Və xahiş etdi: Zəlimxan Yaqubla Təbriz aşığı yarışsın. Yubilyarın sözünü yerə salmaqmı olardı?

Sonda Əlibala Hacızadə Aktyorlar evinin nəfəs donduran soyuğunda sevgiləri ilə onu isitdiklərinə və sonadək dinlədiklərinə görə oxucularına təşəkkürünü bildirdi.

Tədbiri yaddaqalan edən cəhətlərdən biri və əlbəttə ki, başlıcası xalqın Əlibala Hacızadə adına və yaradıcılığına olan sonsuz məhəbbəti və ehtiramı idi.

Daha bir cəhəti isə səlahiyyəti və nədənsə hörməti də guya salondakılardan böyük olan rəsmilərin gözə dəyməməsi oldu. Nə Mədəniyyət Nazirliyindən, nə onun uzun illər üzv olduğu Yazıçılar Bir-

liyindən, nə də ədəbi-mədəni yönümlü hər hansı bir qurumdan ins-cins də görünmədi.

Amma Allaha şükür ki, bu, yubilyarın kefini qətiyyən pozmadı. Və nümayişkaranə təmkini ilə göstərdi ki, o, 65 yaşında da həmin Əlibala Hacızadədir — heç vaxt özünü sındırmayan və hamını təmənnasız sevən insan…

*Nüşabə Hüseynli*

## «YETİMÇİLİKLƏ BÖYÜMÜŞƏM»

Deyirlər ki, hər kəsin öz taleyi, öz alın yazısı var. Bir də deyirlər ki, hər kəs öz alnındakıları yaşayır. Yazıçı Əlibala Hacızadə isə hələ də taleyin hökmünə inana bilmir. Min bir əziyyətlə yola verdiyi uşaqlıq, yeniyetməlik illərini xatırlayanda ilk növbədə fələyi günahkar sayır.

1935-ci ildə Biləsuvar rayonunun Ağalıkənd kəndində dünyaya gəlib. Müəllim ailəsində doğulduğu üçün gözünü kitablar arasında açıb. Ona ilk dəfə qələm tutmağı da elə ibtidai sinif müəlliməsi olan anası öyrədib. Yuxarı siniflərdə oxuyanda isə tarix və riyaziyyat elmlərini atasından öyrənib. İki bacının tək qardaşı olsa da, ərköyünlük etməyə imkanı olmayıb. Müharibə dövrünün bütün uşaqları kimi, həyatının ən gözəl çağlarını min-bir əziyyətlə yola verib. Atası müharibənin başlandığı gün cəbhəyə gedib. Dediyinə görə, həmin tarixdən bir neçə gün əvvəl Cəlilabaddakı qohumlarına qonaq gediblərmiş. Kəndə qayıdanda evlərinin qapısında böyük bir qıfıl görüblər. Onları məsələdən qonşu Sona arvad hali edib. Ailə faciəsinin özülü də elə həmin gün qoyulub.

### «BATMANLA GƏLƏN DƏRD»

«Mən müharibənin bütün ağrı-acılarını yaşamışam. Atamın yaman gün üçün qoyub getdiyi pul bizə ancaq iki ay bəs elədi. Sonra aclıq, səfalət başladı. Evimizdə nə vardısa, hamısını bazara çıxartdıq. Anam qızıllarını, digər zinət əşyalarını su qiymətinə satdı. 1943-cü ildə atamın «qara kağız»ı gəldi. Dədə-baba qaydası ilə düz qırx gün yas saxladıq. Yazıq anamın ağlamaqdan az qalmışdı gözləri tutulsun. Dərdimizin üstünə bir dərd də atamın müəllim yoldaşlarından biri gətirdi. Krım cəbhəsində atamla çiyin-çiyinə vuruşan həmin şəxs dedi ki, yanına düşən bombadan sonra kişinin göyə sovrulduğunu öz gözləri ilə görüb. Aradan bir müddət keçəndən sonra isə anam dünyasını dəyişdi. Bu faciənin də maraqlı tarixçəsi var. Bir gün gördük ki, pəncərəmizin qabağına bir şanapipik qonub. Qonşumuzda yaşlı bir malakan arvad yaşayırdı, yaxşı görücü idi. Axşam onun yanına getdik. Açıb kartları qarışdırandan sonra bizə çox ağır bir xəbər verdi. Dedi ki, yaxın günlərdə sizin evdən bir meyit çıxacaq. Bu söhbətdən heç

üç ay ötməmiş anam vəfat etdi. Beləcə, həm atadan, həm də anadan yetim qaldıq».

«GETSİN O GÜNLƏR»

«Anamın ölümündən sonra bizi nənəm saxladı. Üç uşaq yaşlı bir arvadın ümidinə qalmışdı. Bəzən günlərlə qazan asa bilmirdik. Aclıq bizi əldən salmışdı. Bir gün nənəm atamın kostyumunu satmaq üçün bazara apardı. Bacılarım acından ağlaşırdılar. Onların göz yaşlarına tab gətirməyib evdən çıxdım. Bir başa kolxozun həyətinə gəldim. Ambardar məni görəndə əməlli-başlı kövrəldi. Dedi ki, ay oğul, bir az tez gəlsəydin, sənə ət verərdim. Sən demə, həmin gün kolxozun heyvanlarından beşini kəsib ətini camaata paylayıblar. Əlim hər yerdən üzüldüyü üçün kor-peşiman geri qayıtdım. Yolda gördüm ki, itlər ölmüş bir dananın cəmdəyini didib parçalayırlar. Tez köpəklərin hərəsini bir tərəfə qovub cibimdən çıxardığım bıçaqla ətin itlərin nəfəsi dəyməyən hissəsindən bir ovuc kəsdim. Fikirləşdim ki, heç olmasa ağzımızın dadı dəyişər. Qış olduğu üçün yol-riz buz bağlamışdı. Əzizbəyov kanalı bağımızın yanından keçirdi. Ora çatanda ağlıma bir fikir gəldi. Buzun üstünə çıxıb açdığımız vedrə boyda yerdə əti yumaq istədim. Amma aşağı əyilən kimi su əlimdəki tikələri yuyub apardı. Hirsimdən hönkür-hönkür ağladım. Həyətə girəndə gördüm ki, nənəm ocaq qalayır. O, atamın kostyumuna dəyişdiyi undan çörək bişirirdi…»

«GÖZLƏNİLMƏZ XƏBƏR»

«Müharibə başa çatmışdı. Ölənlər ölmüşdü, qalanlar isə ailə üzvlərinə, əzizlərinə qovuşmuşdu. Mənim də, bacılarımın da gözləri çoxdan yoldan yığılmışdı. Bir səhər qalxanda gördük ki, nənəm həyətdə təmizlik işləri aparır. O, həyəti süpürəndən sonra küçəyə çıxdı. Məni görəndə dedi ki, a bala, samovara od sal. Heç nə başa düşmədiyimi görəndə qayıtdı ki, bir az tələs, qonağımız olacaq. Ondan qonağımızın kimliyini soruşdum. Dedi ki, atan gələcək. Dedim axı, 1943-cü ildə atamın «qara kağız»ı gəlmişdi. Buna görə də elə bildim ki, yazıq arvad dəli olub. Bu vaxt yoldan ötən qonşumuz Əli kişi də ondan niyə əl-ayağa düşdüyünü soruşdu. Cavab verdi ki, nəvələrimin canı yetimçilikdən qurtaracaq, bu gün ataları gələcək. Aradan heç bircə saat keçməmiş həmin Əli kişinin oğlu İbiş qaça-qaça gəldi ki,

gözünüz aydın, Qüdrət müəllim qayıtdı. Atamın gəlişi ilə növrağımız xeyli dəyişdi».

«ƏDƏBİYYATA ERKƏN GƏLMİŞƏM»

«Orta məktəbi 1953-cü ildə bitirmişəm. Nənəm həkim olmağımı istəyirdi. Ali təhsil almaq üçün Bakıya gələndə də bərk-bərk tapşırmışdı ki, sənədlərimi Tibb Universitetinə verim. Amma mən şərqşünas olmaq istəyirdim. Bu da səbəbsiz deyildi. Uşaq vaxtı valideynlərimin sənədlərinin arasında ərəb əlifbası ilə yazılmış çoxlu şer görmüşdüm. Özümə söz vermişdim ki, nəyin bahasına olursa-olsun ərəb dilini öyrənməliyəm. Buna görə də sənədlərimi indiki BDU-nun şərqşünaslıq fakültəsinə təqdim etdim. Ali məktəbə qəbul olunandan sonra ədəbiyyatla məşğul olmağım üçün gözəl imkan yarandı. Onu da deyim ki, yazı-pozu adamı olmağım irsən gəlmə bir şeydir. Rəhmətlik anam da vaxtı ilə çox gözəl şerlər yazıb. İlk şerimi qələmə alanda hələ beşinci sinifdə oxuyurdum. Cəmi bir il sonra isə pyes yazmağa başladım. İndiki kimi yadımdadır, həmin əsəri məktəbimizdə səhnələşdirmişdilər. Əsas rollardan birinin ifaçısı isə mən özüm idim. Orada belə bir səhnə vardı: mən qaça-qaça içəri girməliydim. Qapının ağzına isə vedrə qoymuşdular. Elə eləməliydim ki, ayağım vedrəyə toxunsun və üzü üstə yerə yıxılım. Həqiqətən, səhnədə yerə yıxıldım və şalvarımın dizi parçalandı. Axşam evə gələndə nənəm bərk əsəbləşdi. Çünki cəmi bircə şalvarım vardı…»

«SEVİB EVLƏNMİŞƏM…»

«İlk dəfə beşinci sinifdə oxuyanda sevmişəm. Qonşuluqda Güləsər adlı bir qız vardı, ona aşiq olmuşdum. Amma bir müddət sonra Güləsər ailəsi ilə harasa köçüb getdi. Uşaq olduğum üçün çox keçmədi onu unutdum. Sonra məktəbimizə bir rus dilli müəllimə gəldi. Gözəl-göyçək bir qız idi. Sinifimizdəki bütün oğlanlar kimi mənim də ondan xoşum gəlirdi. Atamın iş yoldaşı olduğu üçün bir-iki dəfə bizdə də olmuşdu. Amma sonra onunla görüşə bilmədim. Aradan təxminən 35 il keçmişdi. Bir gün məni öz rayonumuza görüşə çağırmışdılar. Çıxışımı tamamlayıb kürsüdən enəndə qabağımı yaşlı bir qadın kəsdi. Saçlarına çoxdan qar ələnmişdi. Nə qədər baxdımsa,

tanıya bilmədim. Özünü təqdim eləyəndə qulaqlarıma inanmadım. Qucaqlaşıb hönkür-hönkür ağladıq…

Məhəbbətin nə demək olduğunu isə tələbə olanda anlamışam. Həyat yoldaşımla bir məclisdə tanış olmuşam. Öz sevdiyimlə evlənmişəm. Bu izdivacdan üç uşağımız dünyaya gəlib. Onların hər üçü ali təhsillidirlər. Üç nəvəm var».

«İTKİN GƏLİN»

«İxtisasca şərqşünas olduğum üçün 1966-cı ildə Əfqanıstana apardılar. O vaxt artıq filologiya elmləri namizədi idim. Üç kitabım çıxmışdı, SSRİ Yazıçılar İttifaqınım üzvüydüm. Amma məni ən çox tanıdan əfqanların həyatından bəhs edən məşhur trilogiyam oldu. Bu əsərlərin üzərində düz 16 il işləmişəm. Əsərin mövzusu həyatdan götürülüb. Oxuculara da məlum olduğu kimi, böyük bir ailənin bədbəxtçiliyinə səbəb köhnəlmiş adətlər olur. Əslində, bu bütün müsəlman xalqlarının faciəsidir. Ölən qardaşın arvadını ondan kiçik qardaşa verməklə minlərlə gəncin necə bədbəxt edildiyini Əfqanıstanda işlədiyim dörd il ərzində öz gözlərimlə görmüşəm. Bu, daha çox iqtisadi səbəblərlə bağlıdır. Min bir əziyyətlə evin böyük oğlunu evləndirən ailə başçıları onun bir qəzaya qurban getməsindən sonra xərclənən pulların havaya sovrulmaması üçün belə bir addım atmaq məcburiyyətində qalırlar.

«İtkin gəlin»in çapı təxminən üç il ləngidi. Kitab halında ilk dəfə 50 min tirajla çıxdı. Amma cəmi bir neçə günə satılıb qurtardığı üçün həmin əsəri ikinci dəfə 100 min tirajla çap elədilər. Əsər üçüncü dəfə yenə eyni tirajla nəşr olundu. «Əfsanəsiz illər» və «Ayrılığın sonu yoxmuş» kitabları da iki dəfə ard-arda 100 min tirajla çap olunub».

«EL QƏDRİMİ BİLSƏ…»

«Bir neçə ay əvvəl 65 yaşım tamam oldu. Həmin gün dövlət və hökumət rəhbərlərindən bir nəfər belə telefon açıb quru sözlə də olsa, məni təbrik eləmədi. Heç bir adım, mükafatım yoxdur. Amma açığını deyim ki, mənə bunların heç biri lazım deyil. Mənim üçün ən böyük mükafat oxucu məhəbbətidir. Oxucularımdan çox razıyam.

Yeni-yeni əsərlərimin ortaya çıxması məhz onların qayğıkeşliyi sayəsində mümkün olub. Özümü oxucularıma borclu sayıram. «Təyyarə kölgəsi» və «Vəfalım mənim» əsərlərimin üçüncü hissəsini, eləcə də «Dünyanı tanı» romanımı yazıb tamamlamaq niyyətindəyəm. «Möcüzə» əsəri isə çoxdan çapa hazırdır. Maddi imkansızlıq ucbatından neçə ildir ki, işıq üzü görmür…»

*Seymur Verdizadə*

## «İTKİN GƏLİN»İN TƏBRİKİ

… O, sağ əlini alnına dayayaraq stolun üstünə əyilmiş vəziyyətdə qarşısındakı farsca yazılmış kitabı aram-aram oxuyur, bəzən oxuduğu cümlədəki fikrin sözaltı mənasını bütün çaları ilə dərk etmək üçün baxışlarını həmin sətirdə saxlayıb bir xeyli düşünür, müqayisələr edir, fikrin sözlə ifadə tərzini ölçüb-biçir və təsvir olunan mənzərəni xəyalında canlandırmağa çalışırdı. Stolun qırağına dayadığı üçün qabırğalarının ağrıdığını hiss edib belini dikəltdi. Otaqda heç kəs yox idi. Kreslonun arxasına söykəndi. Fikirləşdi ki, redaktoru olduğu «Nizami Gəncəvi»silə xalqın əlindən tuta bilsə, sözün, sənətin və ən əsas da sənətkarın qiymətdən düşdüyü indiki vaxtda söz ustalarının himayədarı olsa, özünü nə qədər xoşbəxt sanardı.

Ayağa qalxdı, eynəyini çıxarıb stolun üstünə qoydu. Hiss etdi ki, yanıb qurtarmış siqaretin odu barmaqlarını isidir. Siqareti külqabıya basıb söndürdü. Külqabını götürüb zibil yeşiyinə çırparaq yerinə qoydu. Keçib yerində əyləşdi. Stolun sol tərəfindəki dolabın yuxarı gözündəki siyirməni çəkdi. Oradakı qəzetləri götürüb stolun üstünə qoydu, qələmdanından qələmini götürdü. Telefon zəng çaldı. Qələmi qəzetlərin üstünə atıb tələsmədən dəstəyi qaldırdı:

— Alo!

— Alo! Salam. Bağışlayın, «Nizami Gəncəvi» jurnalının redaksiyasıdır? — Qadın səsi idi.

— Bəli, bəli.

— Bilirsiz, mənə Əlibala müəllim lazımdır. Əlibala Hacızadə. Mümkünsə…

— Buyurun, mən sizi eşidirəm.

— Əlibala müəllim?! Elə isə bir də salam.

— Salam, xanım, eşidirəm sizi. Nə lazımdır?

— Əlibala müəllim, qəzetdə oxudum ki, Sizin 60 yaşınız tamam olur. Zəng etdim ki, təbrik edim.

— Çox sağ olun, xanım, minnətdaram. Zəhmət çəkmisiniz, təşəkkür edirəm.

— Nə təşəkkür, canım?! Borcumuzdur. Bəs bilmək istəməzdinizmi ki, kimdir danışan? Ya Sizin üçün fərqi yoxdur?

— Vallah, siz özünüzü təqdim etmədiniz, mən də düşündüm ki, yəqin belə məsləhətdir. Həm də qadının adını soruşmaq ədəb normasından kənar deyilmi? Əlbəttə, söhbət tanış olmayan şəxslərdən gedir.

— Əlibala müəllim, birincisi, biz bir-birimizi tanıyırıq, özü də çoxdan. İkincisi, əgər məni unutmusunuzsa, mən Sizə icazə verirəm, adımı soruşa bilərsiniz.

— Yaxşı… İndi ki, elədir, mən soruşuram, adınız nədir? Biz haradan tanış…

— Mən Əfsanəyəm, Əlibala müəllim, Əfsanə, — dəstəkdən gələn səs sanki birdən daşlara çırpılıb çiliklendi və əks-səda əmələ gətirdi. Əfsanə… Əfsanə… Əfsanə…

Elə bil ildırım vurdu onu. Dəstəyi ani olaraq qulağından ayırıb heyrətlə nəzərdən keçirdi. Nədən şübhələndiyini özü də kəsdirə bilmədi. Az qala qışqıra-qışqıra soruşdu:

— Necə?.. Əfsanə?.. Hansı Əfsanə, siz nə danışırsınız? — Tez dəstəyi qulağına yaxınlaşdırdı.

— Bəli, Əfsanəyəm, Əlibala müəllim. Vaxtilə heç zaman unutmayacağınızı söylədiyiniz vəfalı Əfsanə, — onun səsində dağların da belini əyə biləcək bir kədər duyulurdu. Elə bil sözlər də ağlayırdı.

— Əfsanə! «İtkin gəlin»im, vəfasız «vəfalım mənim». Sən hardan zəng edirsən? Uzaqdasanmı, görüşə bilərikmi? Əfsanə, sən necə tapdın məni? Vallah, heç inanmağım gəlmir. Bu ki, əsl «möcüzə»dir. — Udquna-udquna tələsik bir də: — De, haradasan, bu dəqiqə gəlirəm, — söylədi. Aradakı rəsmiyyət artıq unudulmuşdu.

— Mən uzaqdayam, Əlibala, çox uzaqda. Daha əlin çatmaz mənə. Yollar da qorxuludur, çətindir. Əgər indiyə qədər axtarmamısansa, bundan sonra daha gecdir, çox gecdir. Sən sübut etdin ki, Əfsanəsiz də yaşaya bilərsən.

— Yox, Əfsanə, yox! Sən bilmirsən, axı yana-yana keçirdiyim bu «Əfsanəsiz illər» başımın üstündə şütüyüb keçən və üfüqlərdə qeybə çıxan bir «Təyyarə kölgəsi» kimi olub. Sən bilmirsən axı ilk məhəbbəti, ilk bəxt ulduzunu ölənə qədər yaddan çıxarmaq, «Unutmaq olmur»! Mən öz ürəyimi, öz səadətimi sənə «Cehiz» vermişəm, Əfsanə.

— Bu söylədiklərinin təsdiqə ehtiyacı var, Əlibala müəllim… — Hiss olundu ki, son sözləri kinayə ilə dedi.

— Mən sənin adını əbədiləşdirdim, Əfsanə. Bunu hamı təsdiq edə bilər.

— Xeyr, o Əfsanə mən deyiləm. O Əfsanə yazıçı təxəyyülünün məhsulu idi, mən isə Allah bəndəsiyəm.

— Mən öz dərdimi yazırdım, Əfsanə. Mən öz nakam məhəbbətimin uğursuz yollarını göz yaşımla sulayır, öz bədbəxt taleyimə ağı deyirdim. Mən viranə ürəyimdə sənə əzəmətli bir məhəbbət heykəli ucaltmışam, Əfsanə.

Bax, sənin bu zəngindən sonra ürəyimdəki o «Heykəl gülür». Bəxtim də, həsrətinin qara geyindirdiyi sevgi dünyam da sevinc içindədir.

— Əlibala. Ürəyimdən qara qanlar axır, yaşamağa da həvəsim azalıb elə bil.

— Nə isə bir hadisəmi baş verib? Elə danışma, Əfsanə. Mən sənin məhəbbətindən, sənin bu dünyada varlığından ruhlanmışam, ilham almışam. Bütün yazıb-yaratdıqlarım da əbədi eşqimizin ədəbi övladları, sənət töhfələridir.

— Yox, Əlibala, heç bir şey olmayıb, sadəcə olaraq sənin qocalmağın sarsıdıb. 60 yaş zarafat deyil. Mən də artıq yaşlaşmışam. Ancaq sənətkar hara, əsərin qəhrəmanı hara?

— Elə demə, Əfsanə, inciyərəm səndən. Sən əsər qəhrəmanı yox, döyüşlərdə köməyimə çatan, məni qələbədən-qələbəyə aparan yenilməz, cəsarətli və fədakar bir «Pəhləvan»san. İkincisi də mənim 60 deyil, 40 yaşım tamam olur. Və hələ qılıncımı qınına qoymaq fikrim yoxdur.

— Başa düşmədim, necə yəni 40? Axı qəzetdə yazılıb 60?

— «Mən sevən gün doğulmuşam, ey mələk!» yadına düşürmü? Səni sevəndə mənim 20 yaşım var idi. Həmin hesabla da mənim 60 yaşım deyil, 40 yaşım tamam olur.

— Görünür, bu da mənim sadəlövhlüyümdəndir. Təəssüf ki, hamını tanımaq olmur. Gənclikdə buraxılan səhv insanın bütün ömrünü şikəst edir. Bu mənim həqiqətimdir.

— Əfsanə, ancaq o vaxt sənə demişdim axı, qarşılıqlı «Məhəbbət olmayan yerdə» əbədi səadət və xoşbəxtlik ola bilməz. Mənmi

günahkaram, sənmi günahkar? İndi bunun heç bir əhəmiyyəti yoxdur. «Keçənə güzəşt» deyib atalar.

— Sən elə düşünmə ki, mən kimisə günahlandırmaq fikrindəyəm, Əlibala, xeyr! Sadəcə olaraq zəng etməkdə məqsədim səni təbrik eləmək idi. Arzu edirəm ki, 100 illiyini təbrik edim. Yaz-yarat, Allah sənə cansağlığı versin, ilhamını daha da coşdursun, ürəyini təpərli, qələmini iti eləsin. İndi isə icazə ver, dəstəyi asım.

— Dayan, Əfsanə, dayan! Nə tez xudahafizləşirsən?! Ömrümün qüruba doğru yol tutduğu bir vaxtda səni qəfildən tapmışam, ancaq yenidən itirmək istəmirəm. Heç olmasa yerini-yurdunu de, ünvanını söylə. Gəlim barı bir də sənin gözlərinə baxım, əllərindən tutub ətrini alım, nəfəsini duyum.

— Yox, Əlibala, yox. Əvvəla, özün deyirsən ki, «Ayrılığın sonu yoxmuş». Bizim bu ayrılıq da eləcə. İkincisi, göz qabağında olanın qiyməti ucuzlaşır və getdikcə adiləşir. Üçüncüsü də, sən artıq nə özünün, nə də mənimsən, sən xalqınsan, Əlibala, xalqın…

— Yaxşı, indi bəs mən neyləyim, Əfsanə? Səni harada axtarım, harada tapım? Barı heç olmasa ildə bir dəfə görüşünə gəlim. Səsini eşidim, ürəyimin oduna su çiləyim.

— Məni öz ürəyində, yanar ürəyində axtar, əzizim. Qoy bütün xalq o atəşin nurundan bəhrələnsin, istedadının barını doyunca görsün. Mən isə hər yubileyində sənə zəng vurub təbrik edəcəyəm. Mənim son sözümü və sürprizimi isə sənə hər ikimizin tanıdığı bir nəfər çatdıracaq. Sağ ol, mənim yazıçı, şair sevgilim.

— Əfsanə, mən bütün qalan ömrümü də sənə olan intəhasız məhəbbətimlə xalqımızın, Vətənimizin gələcəyi, xoşbəxtliyi və mədəniyyəti yolunda əsirgəməyəcəyəm. Sənin zəngini isə həmişə gözləyəcəyəm. Bu günü gözlədiyim kimi. Sağ ol. Bəs söylədiyin o adam kimdir? Adını demədin axı.

— Neynək, deyim də…

*Füzuli Qobustanlı*
*27 avqust, 1995-ci il*

## DƏRİN ÇAYLAR LAL AXAR

*(Ə.Hacızadənin 60 illik yubileyi münasibətilə)*

Bu günlərdə Əlibala Hacızadənin 60 yaşı tamam olur. 60 il tarix üçün elə bir rəqəm deyil, necə deyərlər, dəryanın damlası kimi bir şeydir. Lakin tarix üçün damla hesab edilən bu qısa müddətin özündə belə, Hacızadə qələmi az iş görməmiş, öz sözünü demiş, ədəbiyyatda, elm sahəsində və mətbuatda öz yerini, öz mövqeyini müəyyənləşdirmişdir.

Tanınmış şərqşünas, öz elmi, ədəbi-bədii fəaliyyətilə Azərbaycan ziyalılarının ön cərgəsində uğurlu addamlar atan, çətin, əzablı, eyni zamanda şərəfli bir yaradıcılıq yolu keçən Əlibala Hacızadə müxtəlif sahələrdə dəyərli, yadda qalan işlər görsə də, bir yazıçı kimi daha çox şöhrət qazanmışdır. Bu mənada ilk növbədə onun ədəbi-bədii yaradıcılığı haqqında danışmaq, bəzi mülahizələrimizi söyləmək zərurəti duyduq.

Əlibala Hacızadə ədəbiyyata 50-ci illərdə — Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsində təhsil aldığı illərdə gəlmişdir. O illər ədəbiyyatımız coşğun dağ çayları təki kükrəyib axır. Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, Osman Sarıvəlli, Süleyman Rəhimov, Mehdi Hüseyn, Mirzə İbrahimov, Əli Vəliyev kimi görkəmli söz sənətkarlarının dumduru yaradıcılıq çeşmələrindən su içir, ölməz sənət nümunələrindən bəhrələnirdi. Ədəbiyyatımızın onlardan sonrakı nəslinə mənsub olan Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Əli Kərim, Nəriman Həsənzadə, İsa Hüseynov, Sabir Əhmədov və bir çox başqaları da söz-sənət meydanına öz gözəl töhfələri ilə gəlirdilər.

Belə bir dövrdə kimliyini sübut etmək, öz «mətahını» söz-sənət bazarına çıxarmaq olduqca çətin və məsuliyyətli bir iş idi. Sanki «olum, ölüm» məsələsi dururdu ortada. Bu meydandan geri çəkilməkmi, cəsarətini toplayıb irəliyə doğru bir-iki addım atmaqmı? O vaxtlar fikrində, xəyalında ancaq bu suallar dolanırdı. Təbiətən son dərəcə utancaq və təvazökar olan, hələ kövrək qələmi bərkiməmiş, püxtələşməmiş gənc Əlibala Hacızadənin!

Axır ki, ilk imzası göründü Universitetin çoxtirajlı qəzetində. «Mənim müəllimim», «Yada düşdü», «Heykəl gülür», «Sadıq əl çalır» hekayələri belə yarandı. Az sonra bu utancaq gəncin əlləri müxtəlif qəzet-jurnal redaksiyalarının qapılarını döydü, sevincli anları

da oldu, kədərli anları da... Ümidlə döydüyü qapıların heç də hamısı ümid işığı yandırmırdı onun ürəyində.

Yaxşı ki, xeyirxahlıq həmişə qələbə çalır. Xeyirxahlarının ona yol açması, tədricən hekayələri ilə yanaşı, iri həcmli əsərlərinin də çap olunması ona qol-qanad verdi, «İnam», «Vəfalım mənim», «Təyyarə kölgəsi» kimi povest və romanları ədəbi ictimaiyyət və oxucular tərəfindən böyük maraq və məhəbbətlə qarşılandı.

«Təyyarə kölgəsi» romanını həyəcansız, daxili ürək çırpıntıları və dərin narahatlıq hissləri ilə oxumayan adam təsəvvür etmək çətindir. Bunun səbəbi nədədir? Bu sualın cavabı aydındır. Yazıçı hadisələrin təfərrüatına, təsvir etdiyi lövhələrin incəliklərinə o qədər dərindən nüfuz etmişdir ki, oxucu özünü həmin hadisələrdən kənarda təsəvvür edə bilmir. Təyyarə qəzası nəticəsində öz sevimli ərini, istəkli ömür-gün yoldaşını itirən gənc qadın Gülmirə hər dəfə uçan təyyarəyə həsrətlə baxır, təyyarə kölgəsi daim kölgə kimi onu izləyir. Sanki yeganə təsəllisini təyyarə səsində, təyyarə kölgəsində tapır Gülmirə. Əsərin qəhrəmanının keçirdiyi bu dərin psixoloji sarsıntı hər bir oxucu qəlbinə hakim kəsilir, sanki hər kəs həmin faciəni yaşamaq məcburiyyəti qarşısında qalır.

«İtkin gəlin» roman-trilogiyası («Əfsanəsiz illər», «Ayrılığın sonu yoxmuş») Hacızadə yaradıcılığında xüsusi yer tutan əsərlərdəndir. Birinci kitabı tərcüməçi sifəti ilə Əfqanıstanda işlədiyi illərdə qələmə alınan, hər yerdə sevilə-sevilə oxunan bu əsərlər indi azqala hər bir ailənin stolüstü kitabına çevrilmişdir. Son vaxtlar həmin roman trilogiya əsasında çəkilən 12 seriyalı televiziya filmi tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılanmışdır.

Əlibala Hacızadə məhsuldar yazıçıdır. Lakin son vaxtlar kitab nəşrinin çətinlikləri onun yeni-yeni əsərlərlə oxucularının görüşünə gəlməsinə imkan vermir. Elə bu səbəbdən də hazırda «Şəhriyar» qəzetində hissə-hissə çap olunan, müasir həyatımızdan, cəmiyyətimizdəki ümumi problemlərdən və dərdlərdən bəhs edən «Möcüzə» romanı ayrıca kitab şəklində nəşr olunmamışdır.

Ə.Hacızadənin dramaturgiya sahəsindəki xidmətləri də az deyildir. Respublika televiziyası ilə dəfələrlə göstərilən «Unutmaq olmur», «Əgər inanmırsansa…» televiziya filmlərini yəqin ki, tamaşaçılarımız unutmayıblar.

«İtkin gəlin» və «Yandırılmış adam» adlı pyesləri xeyli vaxtdan bəridir ki, C.Cabbarlı adına Gəncə Dövlət Dram Teatrında müvəffəqiyyətlə nümayiş etdirilir. Son vaxtlar yazıçı-dramaturq məşhur

türk yazıçısı Rəşad Nuri Güntəkinin «Dodaqdan qəlbə» romanı əsasında çəkilən altı seriyalı televiziya filminin ssenarisini yazıb başa çatdırmışdır.

Əlibala Hacızadənin bədii yaradıcılığından danışarkən onun poetik aləmindən, poeziya nümunələrindən söz açmamaq mümkün deyildir. Hələ indiyədək bir dənə də olsun toplu halında şerlər kitabı çıxmasa da, çoxları onu həm də şair kimi tanıyırlar.

Yazıçının bir sıra əsərləri Rusiyada, Ukraynada, Türkiyədə, İranda, İraqda, Əfqanıstanda və digər ölkələrdə də çap edilmişdir.

Əlibala Hacızadə bədii yaradıcılığını elmi və tərcüməçilik fəaliyyəti ilə birləşdirən ziyalılardandır. O, 1964-cü ildə «İyirminci əsr İran şairi Fərruxi Yəzdinin həyat və yaradıcılığı» mövzusunda namizədlik dissertasiyasını müdafiə etmiş və sonrakı illərdə İran ədəbiyyatı haqqında 40-a qədər elmi məqalələr çap etdirmişdir.

O, bir çox dəyərli tarixi, elmi-ədəbi qaynaqları və əsərləri fars dilindən Azərbaycan dilinə çevirməklə onları oxucuların ixtiyarına vermişdir. Məhəmməd Ravəndinin (XII əsr) «Rahətus-sudur və ayətüs-sürur…» («Səlcuq xanədanı tarixi haqqında könüllər açan və sevinclər saçan kitab»), ustad Məhəmməd Rza Həkiminin «Müsəlmanların elmi», Rəsuli Məhəllatinin «İslamın təhlilli tarixi», İmam Xomeyninin «Siyasi-ilahi vəsiyyətnamə»si, Seyyid Əli Xamneinin Şeyx Müfid haqqında kitabı belə əsərlərdəndir.

Hazırda Ə.Hacızadə Şah İsmayıl Xətainin oğlu Sam Mirzənin hələlik məlum olan yeganə yadigarı «Sam Mirzənin töhfəsi» («Töhfeyi-Sami») təzkirəsini tərcümə etməklə məşğuldur. O, habelə görkəmli İran yazıçıları Sadiq Hidayət, Əbdül Hüseyn Nuşin, Şin Pərtöv, Qulamhüseyn Saidi və Sadiq Çubəkin bir çox hekayə və romanlarını dilimizə çevirmişdir.

Ə.Hacızadə fəaliyyətinin bir hissəsini müəllimliyə həsr etmişdir. O, Bakı Dövlət Universitetində İran ədəbiyyatından mühazirələr oxuyur və gənc iranşünaslar yetişdirməkdə öz zəhmətini əsirgəmir.

Ə.Hacızadə bir jurnalist kimi də səmərəli fəaliyyət göstərir. Hazırda Azərbaycan-İran İslam «Vəhdət ocağı»nın mətbu orqanı olan «Nizami Gəncəvi»nin jurnalist kollektivinə başçılıq edən Əlibala qısa müddətdə jurnalın fəaliyyətini canlandırmış, tanınmış alim, yazıçı və şairləri birgə əməkdaşlığa dəvət etməklə onun maraqlı və məzmunlu buraxılmasını, ideya-bədii səviyyəsinin yüksəldilməsini, texniki tərtibatının yaxşılaşdırılmasını təmin etmişdir.

60 yaş ömrün püxtələşmiş çağıdır. Ömrün bu çağında xalq və oxucu qarşısında məsuliyyətini dərindən dərk edən yazıçı dostumuz indi də öz sədaqətli qələminə daha möhkəm sığınmışdır. O, yaxşı bilir ki, sənət sükutu sevmir, oxucularını yeni-yeni sanballı əsərlərlə sevindirmək üçün bundan sonra da qaynar gənclik həvəsi və ehtirası ilə yazıb-yaratmaq gərəkdir.

Bu yolda ona uzun ömür, möhkəm cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

*İmamverdi Həmidov*
*Qədir Allahverdiyev*

## «MƏN SÖZLƏRİMİN İÇİNDƏ YAŞAYIRAM»

*«Allah-təalanın ən şah əsəri-əşrəfi — məxluqat hesab olunan insan ölüb gedir, amma sən hikmətə və insanda olan qüdrətə bax ki, onun yaratdığı ölmür, əbədi yaşayır.»*

***Əlibala Hacızadə***

Azərbaycan nəsrinin görkəmli nümayəndələrindən biri, oxucuların sevimli yazıçısı Əlibala Hacızadənin əsərlərinin 10 cildliyinin birinci cildi çapdan çıxmışdır. Bu münasibətlə onu təbrik edirik. Bu kitaba yazıçının 50 illik yaradıcılığının kövrək nümunələri — şerləri, hekayələri və dörd povesti daxil edilmişdir. Nəfis şəkildə nəşr edilmiş bu gözəl kitabın işıq üzü görməsində xeyriyyəçi Gülhüseyn Əhmədovun böyük xidməti olmuşdur. Bu xeyirxah insan Əlibala Hacızadəyə ünvanladığı məktubunda yazmışdır: «Yüksək bədii üslub, dərin fəlsəfi məzmun, ümumbəşəri və milli-mənəvi dəyərlərlə zəngin yaradıcılığınızın pərəstişkarı olan bir ziyalı kimi, «Əsərləri»nizin birinci cildini nəşr etdirir, bunu qarşıdan gələn 70 illik yubileyiniz münasibətilə Sizə və qəlblərini fəthetdiyiniz oxuculara hədiyyə edirəm».

Gözəl hədiyyədir. Həm də ona görə gözəldir ki, bu kitabın içində insan ruhunu oxşayan,ona zövq verən incilər toplanmışdır. Yazıçının özü demiş, ölməyən, əbədi yaşayan sənət inciləri.

Onun qələm dostu Nahid Hacızadə kitaba ön söz əvəzi — «Nəsrimizin nəğməkarı» məqaləsində yazır: «O, müasir Azərbaycan poetik nəsrinin ustaları sayılan Seyid Hüseyn, Ənvər Məmmədxanlı və İlyas Əfəndiyev ənənələri üstündə köklənmiş nəğməkar bir yazıçıdır».

O, insan qəlbinin sarı simində çalınan ülvi hisslər, duyğular, gah yanıb, gah da sönən qövsü-qüzey misallı emosiyalar tərcümanıdır. Əlibala Hacızadə bənzərsiz bir söz ustadıdır. Nə o kimsəyə bənzəyir, nə də kimsə ona.

O, şöhrətdən, dəbdən-dəbdəbədən çox-çox uzaq duran, sözü ucadan-uca tutan, balalarına sözdən qazandığı halal çörəyi dünyanın ən gözəl, ən müqəddəs neməti sayan sənətkardır.

Onun qəhrəmanları efirdən, ekrandan, teatr səhnəsindən gur səslə danışır. Azərbaycanda ilk çoxseriyalı «İtkin gəlin» televiziya

filmi onun məşhur romanı əsasında çəkilib. Bir neçə teatr onun romanlarına müraciət edib, uğurlu tamaşalar hazırlayıb…

Əlibala Hacızadə bədii yaradıcılığa şerlə başlayıb. Ona görə onun əsərlərində poetik dil, ruh güclüdür. Onun əsərlərində səmimiyyət, incə, həssas ürək duyğuları, paklıq vardır.

Şair təbiətli, alim zəkalı bu söz ustası kitaba yazdığı «Mən sözlərimin itində yaşayıram» giriş məqaləsində şerə, sənətə, yaradıcılığa yüksək qiymət verərək öz duyğularını belə ifadə edir: «Ədəbiyyat aləmi müqəddəs bir aləmdi və əbədiyyət adlı bir dünyaya uzanan bir çox yolların ən gözəli, şirini və əzablısıdı. Mən ömrümün böyük bir hissəsini burada — müqəddəs saydığım bu dünyanın içində yaşamışam. Onun paklığını, müqəddəsliyini bildiyim üçün, o aləmin qapısı ağzında ayaqqabılarımı təmizləyib içəri girmişəm, bilmişəm ki, o, saf, şəffaf dəniz kimi, natəmiz, napak şeyləri qəbul etmir, silkinib, çırpınıb gec-tez sahilə atır…»

Hörmətli yazıçımızın yaradıcılıq ümmanının çox cüzi bir hissəsi birinci cildə daxil edilmişdir.

Əlibala Hacızadə yarım əsrlik yaradıcılığı dövründə yazdığı böyük romanları olmasaydı belə, bu kiçik həcmli, lirik əsərləri ilə də, ədəbiyyat tariximizdə yaşaya bilən bir sənətkar kimi qalardı. Amma qarşıda nəhəng on cildliyin doqquzu öz nəşrini gözləyir.

*«Vəfa» jurnalı, №8, 2004*

## ƏN BÖYÜK MÜKAFATIM OXUCU MƏHƏBBƏTİDİR

Həmsöhbətimiz lirik-psixoloji romanlar müəllifi, kitabları ən çox oxunan yazıçı Əlibala Hacızadədir.

— Əlibala müəllim, bəlkə lap əvvəldən başlayaq.

— Necə istəyirsiz…

— 1935-ci ilin 28 avqustunda Puşkin — indiki Biləsuvar rayonunda dünyaya göz açdınız.

— Yox, mən elə Biləsuvarda dünyaya göz açmışam.

— Axı, o illərdə rayon Puşkinin adını daşıyırdı.

— Mən dünyaya gələndə rayon öz qədim adını daşıyırdı. 1937-ci ildə Puşkinin vəfatının 100 illiyi münasibətilə rayona şairin adı verildi.

— 1937. Bu rəqəmin soyuqluğu, tarixin qanlı yaddaşı kimi həmişə üşüdüb məni. Sovet dövlətinin qılıncının sağının da, solunun da kəsdiyi, şair ömürlərinin, şair talelərinin amansızlıqla üzləşdiyi bir dövrdə yaxşı ki, Puşkin ehtiramla anılıb. Görəsən, Puşkin bir əsr sonra doğulsaydı, 37-nin repressiyasından çıxacaqdımı?

— Nə bilmək olar?!

— Yaradıcılıqda ilk qələm təcrübələriniz orta məktəb illəri ilə bağlıdır. Səhv etmirəmsə, yaradıcılığa şerlə başlamısınız. Sonra nəsrə keçmisiniz. Poetik ruh, poetik ovqat bütün nəsrinizdə hakimdir. Yenə də şer yazırsınızmı?

— Qəribə də olsa, yaradıcılığa dram əsəri ilə başlamışam. Sonra şerə, daha sonra nəsrə keçdim. Nəsr yaradıcılığımın aparıcı xətti oldu. Şerdən ayrılmamışam. Ara-sıra yazıram. Dram janrına isə demək olar ki, qayıtmadım. Yalnız televiziya üçün bir-iki romanımı səhnələşdirmişəm.

— Universitetin şərqşünaslıq fakültəsini bitirdikdən sonra bütün iş fəaliyyətiniz yalnız bir yerlə — Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutuyla bağlıdır.

— Doğrudur. 1958-ci ildən, universiteti bitirdikdən sonra burda çalışıram. Yalnız 1964-70-ci illərdə Əfqanıstanda olmuşam. Bir neçə il də BDU-nun şərqşünaslıq fakültəsində fars ədəbiyyatından dərs demişəm. Və onda da institutdan ayrılmamışam.

— Amma institutdan ayrılıb Əfqanıstanda yaşadığınız illər yaradıcılığınızda mühüm rol oynayıb.

— Bəli, həyatımın Əfqanıstan dövrünün yaradıcılığımda mühüm rolu var. Məlumunuz olduğu kimi, «İtkin gəlin», «Əfsanəsiz illər», «Ayrılığın sonu yoxmuş» trilogiyasının mövzusunu Əfqanıstan həyatından götürmüşəm. O hadisələri yalnız Əfqanıstan mühitində verə bilərdim.

— Artıq yarım əsrə yaxındır, Şərqşünaslıq İnstitutunda çalışırsınız. Fəqət cəmiyyətdə alimdən çox, yazıçı kimi daha çox tanınıb sevilirsiniz.

— Fikirlərinizlə tam razıyam. Alim kimi məni institutumuzun kollektivindən başqa çox az adam tanıyır. Yazıçılıq isə taleyimdir.

— Hər halda alimsiniz. Bir alim kimi şərqşünaslıq elminə nə vermisiniz?

— İranda Fərruxi Yəzdi adlı bir şair olub. Amalı haqq olduğundan ağzı tikilib. Dəhşətli və oxşar şair taleləri. Haqq aşiqi Nəsiminin diri-diri dərisi soyulub, haqq söyləyən Fərruxi Yəzdinin gözləri baxa-baxa ağzı tikilib. Onun faciəli taleyi məni heyrətləndirirdi. Odur ki, haqq fədaisinin həyat və fəaliyyəti mövzusunda dissertasiya yazdım.

— Doktorluq fikrində deyilsiniz ki?

— Xeyr. Yalnız bədii yaradıcılıqla məşğulam. Bir hekayəni bir dissertasiyadan üstün sayıram.

— Sizi yaxından tanıyanlar çox səxavətli, əliaçıq adam olduğunuzu söyləyirlər. Hətta elə vaxtlarınız olub, öz kitabınızı almağa pulunuz çatmayıb.

— (gülür) Dəfələrlə olub belə hallar. Özümdə olan kitabları payladığımdan evdə biri də qalmamışdı. Dostlarımdan kiməsə kitab verməliydim. Mağazaya getdim. «İtkin gəlin»i istədim. Satıcı qız bildirdi ki, əlavə olaraq üç kitab da götürməlisiniz. Əlbəttə, dörd kitaba pulum çatmadı. Bir dəfə də dostumla kitab mağazasında idim. Kitab almaq istəyəndə satıcı qız qiymətindən iki dəfə baha söylədi. Dostum etiraz edib məni — kitabın müəllifini göstərəndə satıcı qız dönə-dönə üzr istədi və müdiriyyət tərəfindən belə qiymət qoyulduğunu bildirdi.

— Əslində bunlar pis hal deyil. O illəri mən də xatırlayıram. Yaxın keçmişdir. Çətin satılan kitabları «xodovoy» kitablara yükləyərdilər. Baha satılmanın da şahidiyəm. Şəxsən sizin kitabların hamı-

sını tanışlıqla almışam. Kitaba münasibət, kitaba məhəbbət kaş yenə belə olaydı.

Bir də ki, yüz min tirajlarla buraxılan kitablarınızın büdcəyə gətirdiyi gəlir məlumdur. Kitablarınızın hesabına nəşriyyatların, kitab mağazalarının planları dolub. Bunun müqabilində dövlət təltifi, fəxri ad, mükafat almısınızmı?

— Nə almışam, nə də gözüm olub. Ən böyük mükafatım oxucu məhəbbətidir. Ötən əsrin 80-ci illərinin əvvəllərində mərhum prezidentimiz Heydər Əliyev məhsul yığımının qızğın çağında Saatlı pambıqyığanlarının görüşünə gedibmiş. Planı artıqlamasıyla dolduran qızlara təşəkkürünü bildirəndən sonra soruşub ki, bəlkə sizin bir şeyə — mebelə, xalı-xalçaya… ehtiyacınız var? Qızlardan biri irəli çıxıb deyib ki, çox sağ olun, heç nəyə ehtiyacımız yoxdur. Bircə xahişimiz var — Əlibala Hacızadənin «İtkin gəlin» romanı çıxıb. O kitabdan kəndimizə yalnız bircəciyini göndəriblər. Oxumaq üçün siyahı tutmuşuq, mən də həmin siyahıda 23-cü adamam.

Heydər Əliyev kitabı yenidən nəşr etdirəcəyinə və qızlara istədikləri qədər göndərəcəyinə söz verib. Kitab ədəbiyyatımızın dostu Heydər Əliyevin göstərişiylə dəfələrlə yüz min, üç yüz min və artıq tirajla nəşr olunub satıldı. Bunu niyə xatırladım? Mərhum Heydər Əliyevlə müxtəlif tədbirlərdə, qurultaylarda dəfələrlə rastlaşmışıq. Bir dəfə də bildirməmişəm ki, sizin təkrar-təkrar nəşr etdirdiyiniz romanın müəllifi mənəm. Düşünmüşəm, ətrafdakılar deyər, nəsə umuram. Mən Allahdan başqa heç kəsə əyilməmişəm. Heydər Əliyevin sağlığında bir dəfə də dilimə gətirmədiyim bu epizodu indi danışıram.

— Səxavət və əliaçıqlığınızı yada saldıq. Elə bəlkə də, bu səxavət və əliaçıqlığın əvəzində Tanrı sizə Gülağa Qənbərov (Tənha) kimi xeyriyyəçini rast gətirdi.

— Yəqin ki, belədir. Tanrının nəzərindən heç nə yayınmır. Nəzəri üstümüzdədirsə, nəsə olacaq. Ötən il Az.TV-in «Səhər» proqramında şənbə qonağı idim. Aparıcı Esmira Çərkəzqızı kitablarımın nəşri barədə sual verdi. Dedim ki, əvvəllər deyərdilər: «Kitabını gətir, pulunu apar», indisə əksinə: «Pulunu gətir, kitabını apar» deyirlər. Başqa müəlliflər kimi, mən də kitab çap etdirməyin çətinliklərindən söz açdım. Verilişdən sonra evə təzə çatmışdım ki, Esmira xanım məni telefona çağırdı. Dedi ki, Əlibala müəllim, verilişə Saatlı rayonunda da baxıblar. Və ordan Gülhüseyn müəllim adlı bir ziyalı sizin

kitabınızı buraxdırmağı boynuna götürür. Çox keçmədi, Gülhüseyn Əhmədov Bakıya gəldi, görüşdük. Çox sağ olsun ki, vədinə əməl etdi, kitab qısa müddətdə işıq üzü gördü.

— Həmin kitaba hansı əsərlərinizi daxil etdiniz?

— Şer və hekayələrimin bir hissəsini.

— Bəs Gülağa Qəmbərovla tanışlığınız necə oldu?

— Hansısa tədbir idi, biz yaxından tanış olduq. 2004-cü il iyunun 29-da kitabımın təqdimatı olacaqdı. Amma həmin gün ayın 20-si idi. «Bakıda olsaydınız, sizi də dəvət edərdim» - bildirdim. Vaxtı soruşdu. Mütləq gəlib iştirak edəcəyini söylədi. Təşəkkür etsəm də, bunu xətrim xoş olsun deyə, gəlişi gözəl söz kimi qarşıladım. Lakin Gülağa müəllim vədinə xilaf çıxmadı. Dediyi kimi, Moskvadan Bakıya uçub özünü kitabın təqdimatına çatdırdı. Və o məclisdə çıxış edərkən əsərlərimin 10 cilddə nəşrinə himayədarlıq edəcəyinə söz verdi. Artıq beş cildi hazırdır. Üç cildi nəşriyyatdadır. Rusiyada qazandığını Azərbaycan ədəbiyyatına, mədəniyyətinə sərf etməkdən zövq alan eloğlumuza yalnız minnətdar olmalıyıq. Fikrət Qocanın dediyi kimi: «Gülağa Qənbərov Əlibala Hacızadəni Moskvadan gördü, biz burdan-bura görə bilmədik».

— Çap olunan həmin beş cildlik satışda yoxdur axı.

— Gülağa müəllim kitabları təmənnasız, öz vəsaiti hesabına çap etdirir — bu öz yerində. Sonra kitabları pulsuz-parasız kitabxanalara, uşaq evlərinə, təhsil müəssisələrinə və s. paylatdırır. İndi əksər kitablar 500-1000 sayda olur. Mənim kitablarımı isə Gülağa müəllim 1500 sayda buraxdırır.

— Yaxşı adamlarla yanaşı, qərəzli adamlarla üzləşdiyiniz, hərdən incidilib haqsızlığa düçar olduğunuz zamanlar da olub axı…

— (Gözləri uzaqlara dikilərək gülür) «Təyyarə kölgəsi»nin ardı olan «Vəfalım mənim» romanı kitab halında çıxmışdı. Yüksək tirajla çapdan çıxan kitab tez bir zamanda satılıb qurtardı. Roman haqqında qəzetlər yazdı, tənqidçilər xoş sözlər söylədilər. Lakin sevincim uzun sürmədi. Yersiz hücumlara, böhtanlara məruz qaldım. Ən birinci baş elmi işçi olduğum Şərqşünaslıq İnstitutundan başlandı bu hücumlar.

— Hücumlara əsas verən səbəb nəydi?

— Səbəb oydu ki, guya romanda həmin adamların obrazlarını yaratmışam. Hətta o zaman respublikanın baş prokuroru işləyən İlyas İsmayılova da şikayət ərizəsi ilə müraciət etdilər. Yaxşı ki, İlyas

müəllim romanı oxuyubmuş. Və şikayətçilərə bildirib ki, sizin heç birinizin adı yoxdur romanda. Özünüz-özünüzü orda görürsünüzsə, bu, müəllifin günahı deyil. Odur ki, müəllifə şər, böhtan atan şəxs kimi siz özünüz məsuliyyətə cəlb olunmalısınız.

— Bu cavabdan sonra sizdən əl çəkdilərmi?

— Deyərdim ki, yox. Ən başlıcası, institutda baş elmi işçi vəzifəsindən çıxarıb kiçik elmi işçi elədilər. Bununla ürəkləri soyumadı. Başqa metodlara əl atdılar. Telefon hədələrinə keçdilər. Öyrədilmiş adamları üstümə göndərdilər. Ailə üzvlərimi izləməyə, qorxuzmağa başladılar. Günlərin birində günorta evə gəlib dincəlirdim. Tək idim. Telefon səsləndi. Dəstəyi qaldırdım. «Alo, Əlibala Hacızadənin evidir?» sualına «Bəli» cavabını verdim. Zəng vuran dedi ki, Politexnik İnstitutunun qabağında Əlibala Hacızadəni maşın vurdu, gəlin aparın. Dedim ki, Əlibala Hacızadədir sizinlə danışan, özüm də bu gün heç ordan keçməmişəm. Demə, zəng vuran adam mənim də, oğlumun da, elə bütün ailə üzvlərimin də iş, dərs saatlarını bilirmiş. Oğlum hər gün dərsdən günorta gəlirdi evə. Həmin gün hərbi dərsi olduğundan saat dörddə gələcəkdi. Bizi izləyib zəng vuran isə bunu bilməyib. O zaman belə zənglərin, hədələrin sayı onlarla yox, yüzlərləydi. Odur ki, başıbəlalı «Vəfalım mənim»ə indi də «Cəfalım mənim» deyirəm.

— Əlibala müəllim, söhbətimizdən aydın olduğu kimi, romanın cəfalarını ailə üzvlərinizlə birgə yaşamısınız. Oxucularımız yaradıcılığınızla kifayət qədər tanışdırlar. Bəlkə ailəniz barədə danışasınız.

— Həyat yoldaşım Xanım bakılı qızıdır. Sevib evlənmişəm. Valideynləri qızı mənə bir şərtlə verdilər ki, mütləq oxutmalıyam. Razılaşdım, vədimə də əməl etdim. Xanım kitabxanaçılıq fakültəsində təhsil aldı. Elmlər Akademiyasının, Kənd Təsərrüfatı Nazirliyinin və s. kitabxanalarında uzun illər kitabxanaçı işləyib. Hazırda mənim «şəxsi» kitabxanaçımdır. Böyük qızım Təranə BDU-nun filologiya, oğlum Qüdrət şərqşünaslıq, kiçik qızım Asiya jurnalistika fakültələrini bitirmişlər. Təranədən Nərgiz və Lalə, Qüdrətdən Əlibəy adlı nəvələrim var.

— Xanımınız Xanım xanıma məhəbbət trilogiyaları müəllifi Əlibala Hacızadənin həyat yoldaşı olmaq çətin deyilmi?

— (gülür) Özündən soruşsanız, qan ağlayar. Əlbəttə, zarafat edirəm. Normal insan ömrü, ailə həyatı yaşayırıq. Ailədə onun xidməti məndən qat-qat çoxdur. İstər uşaqların tərbiyəsində, istər qayğılarında. Elə mənim də qayğıma uşaq kimi qalır. Mən Xanımdan çox

razıyam. Şərait yaratmasaydı, yəqin ki, yaradıcılığa vaxt və ovqat olmayacaqdı.

— Bu qayğını sizi axtardığım vaxtlarda mən də hiss etdim. Hər dəfə sizin həkimə getdiyinizi narahatlıqla deyirdi. Belə qayğı və diqqətin sayəsində niyə tez-tez xəstələnirsiniz?

— Yazılarımın birində demişəm: «Cavanlıq gedəndə xudahafiz demədən gedir, heç xəbərin də olmur. Qocalıq gələndə salamsız-kalamsız gəlir. Bilmirsən haçan gəlir və ömrünün axırınadək səninlə qalır». Tez-tez xəstələnməyim, yəqin ki, qocalıqdan, yetmişdəndir.

— Məhəbbət romanlarının müəllifi qocalmır, yaşı üstə yaş gəlir. Təki yüzü haqlayanda da sizinlə görüşüb yazı hazırlayaq. Onda sualları birbaşa xanımınıza ünvanlayacağam. Yenə yaradıcılığınızla bağlı suallarım var. Əlibala müəllim, kitabınızı yalnız bir cilddə buraxdırmaq məcburiyyətində qalsaydınız, ora hansı əsərlərinizi daxil edərdiniz?

— İlk növbədə «İtkin gəlin», «Əfsanəsiz illər», «Ayrılığın sonu yoxmuş» trilogiyamı. Çünki insanlıq, məhəbbət, vəfa, etibar, sədaqət, əxlaq, dünya haqqında bütün düşündüklərimi deyə bilmişəm orda.

— Bu trilogiyadan, eləcə də «Təyyarə kölgəsi» və «Vəfalım mənim» kitablarından sonra 1990-cı ildə «Dünyanı tanı» romanını çap etdirdiniz. Kitabda Nəzər müəllimin simasında saf bir kişi, müəllim obrazı yaratmışsınız! Məhəbbət romanlarından sonra niyə məhz «Dünyanı tanı»?

— Əsərin təkcə proloquna diqqət yetirsəniz, hər şey aydın olar sizə: «— Canım, belə də iş olar? Tanrının qorxusundan yalan danışmaq olmur, bəndənin qorxusundan doğru» — söylədi qoca.

Nəzər müəllim sinə dolusu köks ötürüb saçları qar kimi ağarmış başını kədərli-kədərli bulayıb:

— Yox, qoca, sözünün yarısı ilə razıyam, yarısı ilə yox, — dedi.

— Niyə ki?

— Deyirsən, tanrının qorxusundan yalan danışmaq olmur. Bax, bununla razı deyiləm. Bilirsən niyə? Ona görə ki, indi adamların ürəyində tanrı qorxusu qalmayıb. Onun üçün də adamlar o Tanrı dediyindən əsla qorxmadan, çəkinmədən hər cür yalan danışırlar. Təkcə danışmaqla kifayətlənmirlər, hətta utanmadan, qızarmadan, vicdan əzabı çəkmədən yalan da yazırlar. Amma bəndənin qorxusu! Bax, bunu düz deyirsən. Həqiqətən, bəndənin qorxusundan doğru

danışmaq olmur. Əgər kişisənsə, hünərin varsa, bir vicdansızın, bir bürokratın, bir oğrunun-əyrinin gözünün içinə de: «Sən vicdansızsan, bürokratsan, oğrusan, əyrisən». Onda gör iki barmağıyla sənin gözlərini necə deşərlər. Mənim gözlərimi deşən kimi…»

Bir də ki, ürəyim dünyanın isti-soyuğunu duyandan və ağlım sirlərini və hikmətlərini dərk edəndən bəri qəribə bir sıxıntı və eyni zamanda fərəh içində həmişə müəllimlərimə borclu olduğumu düşünmüşəm. Ona görə də uzun illərdən bəri məni rahat buraxmayan bu işıqlı və həm də əzablı duyğuların qoynunda isinə-isinə o müqəddəs insanların mənim ömür dünyamda öz əlləri, qayğı və məhəbbətləri ilə yaratdıqları bu balaca söz gülüstanımdan onlara layiq kiçik bir gül dəstəsi hazırladım.

— Əlibala müəllim, 1986-cı ilin yayında indi haqq dünyasında olan yazıçı Firudin Ağayevlə Lənkəranda olmağınız mənim kimi çoxlarının yadındadır bu gün də…

— Mənim də ömrümün ən unudulmaz anlarındandır o yay. Hər yerdə böyük məhəbbətlə qarşılanırdıq. Bundan başqa, şair dostumuz Şəkər Aslan vardı Lənkəranda. Yaxşı yadımdadır, məni öz evinə qonaq da apardı. Və onu da dedi ki, Lənkərana gələn hər kəs mənim qonağım olur. Amma bəlkə də nadir qonaqsınız ki, sizi öz evimə gətirmişəm. Əlbəttə, bu onun mənə inamı, hörmətiydi. Onu da deyim ki, Şəkər Aslan gözəl şair olmaqdan başqa, qeyrətli, xeyirxah bir insanıydı. Təəssüf ki, dünyasını vaxtsız dəyişdi. Nə yaxşı ki, bünövrəsini qoyduğu «Söz» jurnalı öz yetirməsinin – Sevda xanımın əlindədir və jurnalda dostumuzun dəsti-xətti yaşayır, xatirəsi hər sayda ehtiramla yad edilir. Jurnalın hansı çətinliklərlə işıq üzü görməsindən də xəbərdaram. «Söz»ə uğurlar diləyirəm.

— Nəhayət, sonuncu və ənənəvi sual: Nə üzərində işləyirsiniz? Öz ömür kitabınızı yaza bilmisinizmi?

— Ara-sıra kiçik hekayələr, şerlər yazsam da, əsasən «Möcüzə» romanı üzərində işləyirəm. Bitirmək üzrəyəm. Sonra öz ömür romanımı başlamaq arzusundayam. Sağlıq olsun.

— Maraqlı söhbətə görə sağ olun.

— Siz də sağ olun.

*Sevda Əlibəyli*
*«Söz» jurnalı, №5, 2005*

# «MƏNİM FƏXRİ ADIM XALQIMIN MƏHƏBBƏTİDİR»

Ötən əsrin 70-ci illərində Azərbaycan ədəbi mühitində özünün əl-əl gəzən «İtkin gəlin», «Əfsanəsiz illər» və «Ayrılığın sonu yoxmuş» trilogiyası ilə bir canlanma yaradan yazıçı Əlibala Hacızadə ilə şəxsən yaxından tanış olmaq məni həmişə düşündürürdü. Jurnalımızın baş redaktoru Hacı Xədicə xanımın ümummilli lider Heydər Əliyevə həsr olunmuş «Xüsusi buraxılış»da ünlü yazarlarımızdan biri, xalqın yazıçısı kimi tanınmış yazıçı Əlibala Hacızadənin ulu öndər haqqında fikirlərinə xüsusi önəm verməsi məni hədsiz sevindirdi. Fürsəti əldən verməyib hörmətli yazıçımızla görüşdüm. İlk sualım da belə oldu:

— Əlibala müəllim, neçə-neçə insan taleyini obrazlı surətdə əks etdirən bir ünlü yazarın ömür kitabını, qısa da olsa, birgə vərəqləyəkmi?

— Məmnuniyyətlə. Mən, 1935-ci il 28 avqustda Biləsuvar rayonunda anadan olmuşam. Mənim 2 yaşım olanda A.S.Puşkinin 100 illiyi şərəfinə rayonumuz Puşkin adlandırıldı. Şükür Allaha ki, müstəqillik əldə etdikdən sonra rayonun əvvəlki adı qaytarıldı. Axı Bil və Suvar adlı türk tayfalarının məskəni olmuş Biləsuvar bizim üçün müqəddəs ocaqdır. Bizim nəslimiz bu tayfaların davamçısıdır.

Atam Qüdrət Məşədi Əlibala oğlu Hacızadə və anam Əliyeva Asya Zeynal qızı APİ-ni bitirib Biləsuvarda müəllimlik ediblər. Əvvəl Ağalı kəndində, sonra isə mənim 18 yaşımadək Əsgərabad kəndində yaşamışıq. 1941-1945-ci illər müharibəsi zamanı 1943-cü ildə atamın müharibədən ölüm xəbərini alan anam dözməyib vəfat etdi. Atam isə müharibədən qayıdıb 1949-cu ildə Biləsuvarda rəhmətə getdi. Əziyyətlə oxuyub orta məktəbi bitirdim. 1953-1958-ci illərdə Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsində fars dili və ədəbiyyatı üzrə ali təhsil aldım. Hal-hazırda Milli Elmlər Akademiyasının Akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun İran filologiyası şöbəsinin böyük elmi işçisiyəm.

— Yəqin ki, ilk ədəbi yaradıcılığınız şerlə başlayıb?

— Yox. Qəribədir ki, orta məktəbdə oxuyan zaman ilk yaradıcılığıma dramaturgiya ilə başlamışam. Təəssüf ki, ilk dram əsərimin heç əlyazması da qalmayıb. Amma bu əsərdən bir acı xatirə yadımda qalıb. Yazdığım pyesi 6-cı sinifdə Aşağı Cürəli məktəbində

sinif yoldaşlarımla səhnələşdirmişdik. Özüm də bilmirəm ki, niyə belə yazmışdım, mənim rolumun qəhrəmanı qaça-qaça səhnəyə daxil olarkən vedrəyə toxunub yıxılmalıydı, amma vedrəyə necə ilişdimsə, həqiqətən yıxıldım və müharibədən sonrakı aclıq illərində yeganə olan şalvarımın dizi partlayıb cırıldı. Və nənəm məni bərk danladığından o hadisə yadımdan çıxmır. Yeri gəlmişkən, mən sonralar ədəbi mühitə alışanda gördüm ki, sənət qurban tələb edir. Deyirdim mən sənət aləmində ilk qurbanımı hələ 6-cı sinifdə oxuyanda vermişəm.

— Əlibala müəllim, ali məktəb illərini necə xatırlayırsınız?

— Universitetdə çox yaxşı ab-hava, ustad müəllimlərimiz vardı. Professor Mübariz Əlizadə, Həmid Araslı, Cəfər Xəndan, Feyzulla Qasımzadə, Əli Sultanlı, Mircəlal Paşayev və ən cavan müəllimimiz Bəxtiyar Vahabzadə bizə elmin sirlərini həvəslə öyrədirdilər. Əvvəl Mircəlal Paşayev və sonra Bəxtiyar Vahabzadənin rəhbərlik etdiyi ədəbiyyat dərnəklərimizdə biz ədəbiyyatın qarşısında duran məsələləri dərindən öyrənirdik. Bu dərnəkdə Azərbaycan şerində, nəsrində, ədəbiyyatında, elmində indi öz mövqeyi olan cavanlar toplaşmışdı. Məsələn, rəhmətliklər Famil Mehdi, Məmməd Araz, Ağacavad Əlizadə, Firudin Ağayev, hazırda fəaliyyət göstərənlərdən tanınmış dilçi alim Tofiq Hacıyev, Abbasəli Sarovlu, Şamil Salmanov, Arif Səfiyev və digər ədəbiyyat aləmində nüfuz sahibi olanlar dərnəyimizin üzvləri idi.

— Əlibala müəllim, dərnək rəhbəriniz Mircəlal Paşayevi necə xatırlayırsınız?

— O, gözəl ziyalı, məşhur yazıçı idi. Ümumiyyətlə, mənim ilk oxuyub sarsıldığım və məndə ədəbiyyata böyük maraq doğuran ədəbi nümunə Mircəlal müəllimin «Bir gəncin manifesti» əsəri olub. Və çox qəribə bir təsadüf oldu ki, Universitetdə mənə dərs dedi. Düzdür, mən ona bu barədə heç nə demədim, amma böyük rəğbət bəsləyirdim hörmətli müəllimimə. Çox təmkinli və olduqca alicənab insan idi Mircəlal müəllim. Onu böyük xeyirxahlıq hissilə yad edirəm. O vaxt SSRİ Yazıçılar İttifaqına qəbul olunan zaman mənə birinci zəmanət verən insan Mircəlal Paşayev olub. Sonradan dostluğumuz davam etdi, onun bacanağı Cümşüd Muradov dostum olduğu üçün biz onlarda tez-tez görüşərdik. Mənim həyatımda böyük iz buraxmış müəllimlərdən idi professor Mircəlal Paşayev.

— İlk əsəriniz haçan işıq üzü gördü?

— Universitetdə oxuyarkən 1954-cü ildə «Mənim ilk müəllimim» adlı ilk hekayəm çap olundu. 1955-ci ildə «Uşaqgəncnəşr»in buraxdığı almanaxa mənim həmin hekayəmi də salmışdılar. Beləliklə, mən ədəbi mühitdə öz yazılarımla çıxış etməyə başladım. Yazıçılar İttifaqı üzvlüyünə qəbul edilməyin təzadlı bir məqamında — 1962-ci ildə yazıçı Seyfulla Şamilov «Uşaq və gənclər» nəşriyyatının direktoru olarkən nəşriyyatın baş redaktoru Kamil Mehdiyevin cəsarəti və canıyananlığı ilə mənim «Heykəl gülür» adlı ilk hekayələr kitabım işıq üzü gördü və həmin ildə Yazıçılar İttifaqına üzv oldum. 1964-cü ildə mən məşhur İran şairi Fərruxi Yəzdinin yaradıcılığı haqqında dissertasiyamı müdafiə elədim. 1965-ci ildə həmin monoqrafiyanı «Elm» nəşriyyatının direktoru rəhmətlik Əjdər Xanbabayev çap elədi.

— Bəs ailə həyatınızda nə baş verdi?

— 1961-ci ildə Xanım Qarayeva ilə ailə qurdum. Həyat yoldaşım Mədəni-maarif texnikumunda kitabxanaçı ixtisasına yiyələndi. 1962-ci ildə qızım Təranə, 1963-cü ildə oğlum Qüdrət və 1965-ci ildə anamın adını daşıyan Asya qızım dünyaya gəldi. 1966-cı ildə SSRİ Müdafiə Nazirliyinin xətti ilə tərcüməçi sifətilə Əfqanıstana göndərildim və 1970-ci ilədək burada fəaliyyət göstərdim.

— Sizin yazıçı kimi formalaşmağınızda Əfqanıstan mühiti necə rol oynadı?

— Böyük rolu oldu. Düzdür, əvvəl 1962-ci ildə «Heykəl gülür» kitabım, 1964-cü ildə «İnam» povestim, 1967-ci ildə Əfqanıstanda olarkən vətəndə «Təyyarə kölgəsi» romanım işıq üzü gördü. «Heykəl gülür» kitabım haqqında xalq yazıçımız Əli Vəliyev qəzetdə məqalə çap etdirmişdi. «İnam» povesti çıxanda isə 1964-cü ildə bizim ədəbi tənqidimizin böyük nümayəndələrindən olan akademik Məmməd Arif Dadaşzadə «Ədəbiyyat» qəzetində mənə «Açıq məktub» yazmışdı. Əfqanıstana gedəndə artıq 4 kitabın müəllifi idim. Əfqanıstanda olarkən «İtkin gəlin» trilogiyasını qələmə aldım. 1979-cu ildə həmin trilogiyanın 1-ci kitabı - «İtkin gəlin» 50.000, 1980-ci ildə 200000 tirajla çap olundu. Həmin kitab yaxşı satıldı.

— Görünür, dahi şəxsiyyət, Heydər Əliyevin yaradıcı insanlara münasibəti də az əhəmiyyət kəsb etməyib?

— Əlbəttə. Allah onun ruhunu daim şad etsin. Heç yadımdan çıxmaz, ulu öndər respublikanın 1-ci katibi olarkən tez-tez pambıq yığımı vaxtı mədəniyyət-incəsənət işçilərindən ibarət qruplarla ray-

onlarda olub işçiləri ruhlandırardı. Məni də iki dəfə o qruplara salmışdılar. Lakin xəstə olduğum üçün özüm iştirak edə bilməsəm də, mənə danışdılar ki, Saatlıda pambıq yığan qızların ehtiyacı ilə yaxından maraqlanıb onlara kömək etmək istərkən bir qızın — «Çox sağ olun, cənab Heydər Əliyev, heç nə istəmirik, amma bizim kəndə Əlibala Hacızadənin «İtkin gəlin» kitabı cəmi 1 nüsxə gəlib, kitabxanada növbədə 23-cü adamam. Bu kitab çox az tirajla nəşr olunub, mümkünsə, onun tirajını artırın, — deyə müraciət etdikdə ulu öndərimiz göstəriş verir ki, kitab 100.000 tirajla nəşr olunsun. Bunu «Gənclik» nəşriyyatının direktoru rəhmətlik yazıçı Əzizə Əhmədova mənə deyəndə çox sevindim. Sonra möhtərəm Heydər Əliyevin göstərişi ilə bu kitab 2 dəfə 100.000 nüsxə ilə çap olundu. Əlbəttə, bu, müdrik insanın mənim yaradıcılığıma verdiyi böyük qiymət idi.

Fərəhli haldır ki,ikinci kitabım «Əfsanəsiz illər» də 1981-ci ildə 3 dəfə 100.000 tirajla buraxıldı. 1983-cü ildə «Ayrılığın sonu yoxmuş» da 3 dəfə 100.000 nüsxə ilə çap olundu. Məni şəxsən tanımadan əməkçi qızların xahişilə zəhmətimə belə yüksək qiymət verməsi böyük sevincimə səbəb oldu. Amma onu da deyim ki, düz, ya səhv etdiyimi bilmirəm, kim olsaydı bu qiymətə qarşı təşəkkür məktubu ilə cavab verərdi. Amma mən, necə deyərlər, özümü gözə soxmaq istəmədim. Düşündüm ki, fikirləşərlər, yəqin nəsə ummaq istəyirəm. Bu həqiqəti ulu öndər əbədiyyətə qovuşanadək açıb-ağartmadım. Ancaq o, dünyasını dəyişən günlərdə çıxan 10 cildliyimin 1-ci cildində kitabımın müqəddiməsində yazmışam, radio və televiziyada bu haqda demişəm.

— İndiki dövrdə 10 cild əsər çap etdirmək çətin deyil ki?

— Sağ olsun yaxşı insanlar. Ötən il 7 martda AzTV-nin şənbə qonağı idim. Esmira Çərkəzqızı əsərlərimin çap olunma vəziyyətilə maraqlananda dedim ki, çox pis, 1990-cı ildən əsərlərim çap olunmur. Sovet rejimində əsərin çıxırdı, sənə pul verirdilər, indi isə əksinədir. Kitabın kitabı bağlanıb, ay qızım. Verilişdən sonra Akademiyanın binasına çatar-çatmaz, Esmira Çərkəzqızı zəng edib bildirdi ki, sizə çoxlu təşəkkür zəngləri gəlir, amma Gülhüseyn adlı bir nəfər sizi təcili axtarır. Görüşdük. Saatlıdan olan gözəl ziyalı Gülhüseyn Əhmədov bir kitabımın çap xərcini öz üzərinə götürdü. Qardaş-qardaşa kömək eləmədiyi indiki zamanda o, mənim 1-ci cildimi çap elətdirdi. Çox sevindim, qanadım olsaydı uçardım.

Yazıçı dostlarım sevincimi bölüşərək, qərara aldılar ki, kitabın təqdimatı restoranda keçirilsin. Cavan bir oğlan restorana girəndə dedilər ki, tanış ol, bu Əlibala Hacızadədir! Bu şəxs məni qucaqlayıb dedi, mən səni neçə ildir axtarıram. Məlum oldu ki, bu oğlan mənim Aşağı Cürəlidəki sinif yoldaşım olan rəhmətlik dostum Şairəlinin oğlu Alim Şirinovdur. Və o, böyük təkidlə kitabın təqdimat mərasimini özü keçirtdi. Təbii ki, xeyli xərci çıxdı.

Tədbirdən öncə əslən Masallıdan olan, Rusiya vətəndaşı, Memarlıq elmləri doktoru, «Mən Allah adamıyam», «Dərdin nazını çəkmə» kitablarının müəllifi, gözəl xeyriyyəçi insan Gülağa Qənbərovla tanış olmuşdum. O, Şüvəlanda vaxtilə hansısa bəyin tövləsi olan binada təlim-tərbiyə alan əqli cəhətdən zəif uşaqların dadına çataraq, 700,000 ABŞ dolları vəsait xərcləməklə binanın yerində üçmərtəbəli yaraşıqlı məktəb binası tikdirib. O, çox unikal bir şəxsiyyət, alicənab insandır. Təsəvvür edin ki, mənim kitabımın təqdimatında iştirak etmək üçün, bir həftə öncə burada olmasına baxmayaraq, Moskvadan Bakıya qayıtdı, təqdimat mərasimində həm də gözəl çıxış etdi. Mənim 1 kitabımı çap elətdirən Gülhüseyn müəllimə təşəkkür edərək 10 cildliyimin nəşr xərcini öz üzərinə götürdü. Sevincimdən gözlərim yaşardı. Artıq 5 cildliyim çıxıb, o biri 5 cildlik də çapdadır. İnşallah, 70 illik yubileyimə kimi kitabların 10-u da hazır olacaq.

— Əlibala müəllim, bir Allah adamı olan ziyalı kimi, sizcə, müstəqillik illərindən qabaqkı dövrə nisbətən kitaba, bədii əsərlərə maraq niyə azalıb?

— Bunun bir çox səbəbləri var. Əvvəla, keçid dövrünün, Qarabağ müharibəsinin insanların psixologiyasına böyük təsiri var. İkincisi, kitab oxumaq istəyənin imkanı yoxdur, pullu-varlı isə kitab oxumaqdan tam uzaqdır. Buna mənəviyyatı çatmır. Üçüncüsü, nə yazıçılarımız əvvəlki həvəslə yazır, nə də oxucular bədii qiraətə, əsər oxumağa meyl göstərirlər. Mən tam ümidsiz deyiləm, amma əvvəlki həvəs, təbii ki, yoxdur.

— Yazıçı Əlibala Hacızadəyə elə gəlmirmi ki, nizam-intizamın mövcud olduğu 70-ci illərdə yazdığı əsərlərdəki personajları müstəqillik dövründə həyatımızda, ekranlarda hər gün seyr edən insanlar artıq hər şeyə təbii baxır, heç nə ilə heyrətlənmədikləri üçün belə əsərlərə də biganədirlər?

— Düz buyurursunuz, pul gücünə varlı qocanın cavan qızla nigahı, pulun qadınları yoldan çıxarması və digər əxlaq qanunsuzluq-

ları indi açıq-aşkardır. O vaxtkı əsərlər tərbiyəvi əhəmiyyət mahiyyəti daşıyırdısa, açıq-saçıqlıq dövründə artıq öz əhəmiyyətini itirib. Bir sözlə, əsərdə, ekranda qarşılaşdığı naqisliklə oxucu həyatda üzləşəndən sonra artıq doyur. Mən onda Azərbaycan ictimai mühitindəki çatışmazlıqları Əfqan həyatı rəmzində canlandırmağa müvəffəq oldum. Hekayələrimiz Qlavlit və senzorların xoşuna gəlsə də belə, nəşr etməyə qoymurdular ki, ideologiyamız buna yol vermir. Mən ƏfqanıstandanVətəndə yazdığım, ancaq çap etdirə bilmədiyim əsərlərimin altından Bakı sözünü pozub yerinə Kabil yazmaqla Bakıya göndərib çap etdirməyə müvəffəq olurdum. Yəni bildirirdim ki, bizdə Nəcməddinlər, Dünya xanımlar, Elməddin kimi jurnalistləri öldürən nadanlar və s. yoxdur. Təbii ki, mən Azərbaycanda bu yazılarımı çap etdirə bilməzdim.

— Ötən əsrin yarısını yaradıcılıqla məşğul olan bir yaradıcı ziyalı kimi, Heydər Əliyevin hakimiyyətə gəldiyi ilk andan mənəvi-əxlaqi dəyərlərimizdəki, iqtisadiyyatdakı dəyişiklikləri necə qiymətləndirərdiniz?

— 1969-cu il iyul ayının 14-də ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərliyə başlayan andan mənəvi-əxlaqi dəyərlərimizə xüsusi önəm verdi. Respublikamız hərtərəfli inkişaf yoluna qədəm qoydu. Yaradıcı ziyalılara, mədəniyyət-incəsənət işçilərinə hörmət artdı, iqtisadiyyat dirçəlməyə başladı, 1000,000 ton pambıq, «ağ qızıl» istehsalı özü çox şey deyirdi. Üzüm plantasiyaları genişləndi. Gün-güzəran haqqında heç kəs narahatçılıqla fikirləşmirdi. Nə qədər yaradıcı ziyalıya xalq şairi, xalq yazıçısı adı verildi. O vaxt Süleyman Rəhimova, Əli Vəliyevə, Niyaziyə, Arif Məlikova, onlarla belə ziyalıya fəxri adlar verildi, əsərləri çap olundu, respublikadan kənarlara, dünyaya yayıldı. Maddi-mənəvi köməyi hiss edən ziyalılar da xüsusi məhəbbətlə qələmə sarılıb böyük, maraqlı əsərlər yaratdılar, vətənimizi dünyaya tanıtdılar. Xüsusilə qeyd etmək istəyirəm ki, o, hakimiyyət başına gələndən sonra məscidlərdə fəaliyyət gücləndi, dini kadrlar yetişdirildi. Azərbaycan övladları Orta Asiyaya gedib ruhani təhsil alaraq savadlı din xadimi kimi xalqımıza xidmət etməyə başladılar. Özü Allah adamı idi.

Yeri gəlmişkən, SSRİ-nin rəhbər şəxslərindən biri kimi Şərq ölkələrində, müsəlman ölkələrində böyük nüfuza malik olan Heydər Əliyev sovet hökuməti üçün çox böyük işlər görürdü. Öz həyatımdan misal çəkirəm, xristian tərcüməçilərin görə bilmədiyi çox işləri mən Əfqanıstanda uğurla həyata keçirirdim. Müsəlman olduğum üçün hər

şeyə artıqlaması ilə nail olurdum. Müxtəlif şer və lətifələrlə onları ələ alırdım. Rus generalları heyrətdən donub qalırdılar. Eləcə də Sovet hakimiyyətində 2-ci, 3-cü şəxs sayılan Heydər Əliyevin müsəlmançılığı, dinə qailliyi isə onun genindən — atası Əlirza kişidən, anası – türk sənəmi İzzət xanımdan aldığı əxlaqi tərbiyədən irəli gəlirdi. Heydər Əliyev haqqında filmlərə baxanda onun necə nəhəng insan, dahi siyasətçi olması ilə böyük qürur duyuruq. Bu ailənin bir üzvü, nəcib insan, gözəl xeyriyyəçi, Əməkdar müəllim Şəfiqə xanım Əliyevanı yaxından tanıyıram. Bu gözəl alimin, əsl ziyalı xanımın gözlərinə baxanda elə bil ulu öndərimiz Heydər Əliyevin mənalı gözləri ilə qarşılaşıram. Onun sadəliyi isə nəyə desən dəyər. Onun böyük qardaşı professor Həsən Əliyevi böyük ehtiramla xatırlayıram. Bir gün yazdığım əsərə görə təqiblə üzləşəndə o, böyük qayğıkeşliklə məni müdafiə etdi, Ramiz Mehdiyevə zəng vurub dedi ki, bir nəfər düz yazan yazıçımız çıxıb, onunla işiniz olmasın. Bu ailəyə qohum olan insanlardan Telman Quliyevi, Mehriban xanımın anası Aida İmanquliyevanı xatırlamaq istərdim. Yeri gəlmişkən, Aidə xanım Şərqşünaslıq İnstitutunda 2 il mənim direktorum olub. Böyük şəxsiyyət, təcrübəli alim idi. Atası Nəsir İmanquliyev «Bakı» qəzetinin yaradıcısı və ömrünün sonunadək baş redaktoru oldu. Dostluq edirdik. Yazılarımı məmnuniyyətlə qəzetində çap etdirərdi. 1960-cı illərin əvvəlində əsərlər müsabiqəyə qoyulurdu, özü də zərfin içində olurdu. Müəllifi müsabiqədən sonra bilinirdi. Bəzilərinin arxası, dayısı olsa da, Nəsir müəllim mənim əsərlərimi dəfələrlə müsabiqənin qalibi elan etmiş, mükafata layiq görmüşdü.

— Mükafat demişkən, hansı fəxri titulunuz vardır?

— Heç biri, adi yazıçıyam.

— Əlibala müəllim, xalq yazıçısı fəxri adını almasanız da, qədirbilən xalqın yazıçısısınız. Həddən artıq təvazökarlıq, özünüzə qarşı qadağalar Sizi fəxri adlardan uzaq edib, necə deyərlər, özünüzü qınaya bilərsiniz.

Maraqlı söhbət üçün çox sağ olun, xalqın yazıçısı Əlibala müəllim!

*İlyas Naxçıvanlı*

## ƏFSANƏLƏŞƏN SƏNƏTKAR

28 avqust 2005-ci il tarixdə Azərbaycan ədəbiyyatının görkəmli sənətkarı, sözünün qüdrətinə və şəxsiyyətinin sanbalına görə sayılıb-

seçilən, bu gün də qibtəediləcək coşqun bir ilhamla yazıb-yara-dan, qəlbi cavan, sevgisi təzə-tər, gənc yazarların mehriban dostu, öz sadəliyi və təmənnasızlığı ilə çoxumuza örnək ola biləcək ustad yazıçı-şair Əlibala Qüdrət oğlu Hacızadənin 70 yaşı tamam olur. Sevimli oxucularına «Heykəl gülür», «Məhəbbət olmayan evdə», «Unutmaq olmur», «Təyyarə kölgəsi», «Vəfalım mənim», «Pəhləvan», «Dünyanı tanı», «Möcüzə» və s. kitablarını ərməğan etmiş Ə.Hacızadə yaradıcılığının zirvəsi onun şah əsəri sayılan «İtkin gəlin» tarixi-romantik trilogiyasıdır. Yazıçının yubileyi ərəfəsində iş adamı, şair Gülağa Tənhanın köməkliyi ilə nəşrə hazırlanmış əsərlərinin on cildliyinin beş cildi artıq geniş oxucu auditoriyasının ixtiyarına verilmişdir.

Bəxtəvərəm, məskənimdir o ürək,
Mən sevən gün doğulmuşam, ey mələk!
Bu dünyada aşiq varmı mənim tək,
Doğula məst, yaşaya məst, ölə məst?! — deyən Ə.Hacızadənin bir çox ecazkar şer nümunələrinə gözəl mahnılar bəstələnmiş və müğənnilərimiz tərəfindən sevilə-sevilə ifa olunur.

Təbiətən ciddi, lakin qəlbən həlim və kövrək, sənət fədaisi, cəfakeş və zəhmətsevər olmağı müqabilində də həddindən artıq təvazökar olan Əlibala müəllimin yaradıcılığı çoxşaxəlidir.

Onun elm və publisistika, ədəbi tənqid və təbliğ, redaktə və nəşretmə sahələrində də göstərdiyi fəaliyyəti sənətkar ömrünün diqqətəlayiq paralel xətlərindən biridir. Kino sənətinə verdiyi töhfəni də buraya əlavə etsək belə, Ə.Hacızadə yaradıcılığını tam əhatələyə bilmərik və onun tərcüməçilik fəaliyyətini də qeyd etməliyik.

Ulu Tanrının ona bəxş etdiyi sənət pərvanəsi ömrünü şərəf və ləyaqətlə yaşayan hörmətli ədibimizi, həmişəcavan ağsaqqalımızı, sözün həqiqi aşiqi olan əziz Əlibala Hacızadəmizi anadan olmasının 70 illiyi (sevə-sevə yaşadığı hər gündə yenidən doğulan insanın doğum tarixini və ilinin tamamını müəyyən etmək mümkün olmasa da) münasibəti ilə təbrik edir, ona uzun ömür, möhkəm can sağlığı, yeni-yeni yaradıcılıq uğurları, nəvə-nəticə toylarında ürək dolusu sevinməyi arzulayırıq.

*Füzuli Qobustanlı*
*«Azərbaycan ordusu» qəzeti*

## 70-i HAQLADIN, 100-ə NƏ QALDI

Avqust ayının 28-də sevimli yazıçımız Əlibala Hacızadənin 70 yaşı tamam oldu. Təpədən dırnağadək sehr, heyrət olan, insan qəlbinin sarı simini dilləndirməyi bacaran bir insanla söhbətləşmək çox çətin idi. Çünki Əlibala Hacızadə insanın gözlərindən ona veriləcək sualları duya bilir. Doğrusu, 70 yaşın gəlib onun qapısını döyməsinə inanmıram. Axı bu yaş piranəliyin gəncliyidir. Sonra isə zamanın yel qanadlı olduğunu xatırlayıb bu həqiqətlə barışıram. Doğrudan da zaman uçub gedir, ömrümüzün bir də heç zaman təkrar olunmayacaq izlərini bir-bir həyat ağacının cavan, yaşıl budaqlarından qopararaq aparır və bir də onların geri qayıtmayacağını anlayıb təəssüflənirəm.

Hələ məktəbdə oxuyarkən fizika kitabımın arasında hamıdan xəlvəti əsərlərini acgözlüklə oxuduğum Əlibala müəllimin evinə gedən pillələri qalxdıqca xəyallar məni öz ağuşuna alır. Bir vaxtlar xəlvəti dərslərini dinlədiyim, mühazirə söyləməyin ən incəliklərini ondan öyrəndiyim, hər kəlməsini az qala əzbərlədiyim, həm şəxsiyyətinə, həm yaradıcılığına böyük pərəstiş etdiyim sevimli yazıçımıza verəcəyim sualları düşünürəm. Qapını evin xanımı Xanım xala açır…

Əlibala müəllimlə söhbətləşirəm. Üzündə dərin bir cığıra dönmüş əzablı həyat yolunun sızıltısı inlədir məni. O, Dəniz tək mavi baxışları dolub-boşalır. İlahi, sən demə, insanın 70 yaşında da ana sığalına, ata əlinin əzəmətinə ehtiyacı olur:

— Hər bir ünvanda, qəlblərdə özünə əbədi yer tapmış tanınmış yazıçı-alimimiz Əlibala Hacızadə balaca Əlibalanı 70 yaşında necə xatırlayır?

— Biləsuvar rayonunun Ağalıkənd kəndində anadan olmuşam. Altı yaşım olanda Cəlilabaddakı ailəvi dostumuzgilə qonaq getmişdik. Atam bizimlə getməmişdi. Evə qayıdan zaman gördük ki, qapımız bağlıdır, atam evdə yoxdur. Nənəm təlaşla: «Qüdrət hardadır?» — soruşdu. O zaman qonşular müharibənin başlama xəbərini, atamın könüllü vətəni müdafiəyə getməsini deyəndə nənəm diz üstə çökdü. Aldığı xəbərdən sanki bir yumağa döndü O. Aradan 5-6 ay keçəndən sonra atamdan məktub gəldi ki, Şorsuludayam, ora gəlin. Ailəvi yığılıb ora getdik. Onunla görüşüb, bir gün sonra evimizə qayıtdıq. Atam o gedən getdi. Bir gün atamın müəllim yoldaşı onun ölüm xəbərini

gətirdi, sonra isə qara kağızını aldıq. Anam, nənəm el adəti ilə ehsan verdilər. Müharibə qurtardı, biz artıq gözümüzü yollardan yığdıq.

Haşiyə: O zaman balaca Əlibalanın 10 yaşı vardı. Müharibənin qurtarma xəbərini eşidəndə sevindi, hamı atasını, qardaşını, ərini qarşılamaq üçün yola çıxmışdı. Əlibala da bu xəbəri ailələrinə çatdırmaq üçün qaçaraq evlərinə gəldi. Darvazaya çatanda 10 yaşlı uşağın qəlbindəki kədər ağırlığı ayaqlarına çökdü, fikirləşdi: «Axı atam ölüb, mən kimi gözləyirəm ki…» Ağladı Əlibala, qəlbinin bütün kədərini boşaltmaq üçün için-için, yana-yana ağladı. Qüdrətin ölüm xəbərini eşidəndə Asya xala da təlaşlandı, qəhərdən boğuldu, udqundu. Göz yaşları muncuqlandı, elə bil ki, sapdan qırılıb qoynuna tökülən mirvari idi. Hamının gözünə baxa-baxa qalmışdı. İstəyirdi ki, hamı bu xəbərin yalan olduğunu ona söyləsin. Amma qarşısındakı insanların da əllərini qoynunda, qəlblərini qubarda, könüllərini darda gördü.

Qüdrəti müharibəyə gedəndən sonra gecələr üç övladını başına yığar, lampa işığında oturaraq onlara nağıl danışardı. Onda balaca Əlibala tilsimə düşmüş kimi gözlərini anasından çəkməzdi. Bəzən isə anasının dizi üstə uyuyardı. Dözə bilmədi Asya xanım Qüdrətsiz günlərinə, dünyadan Qüdrətinin nisgili ilə getdi. Lakin sən demə, Qüdrət sağ imiş. Müharibədən sonra o evinə qayıtdı…

— 35 rəqəmi deyilənə görə, sizin şəcərə üçün düşərsiz sayılıb. Bu nə ilə bağlıdır?

— İnsan özünü tanıdıqca keçmişə — şəcərəsinə boylanır. Atam müharibədən qayıdandan sonra nənəmlə bibim onu evləndirdilər. Atamın 35 yaşı olandan düz 1 il üç ay neçə gün sonra, dördüncü uşaq dünyaya gələndə dünyasını dəyişdi. Ulu babamın da dördüncü övladı olandan düz 1 il üç ay neçə gün sonra 35 yaşında ömrü sona çatıb, babamın da. Nəsl tariximizdə üç belə hadisə olub. Odur ki, üç uşaqdan sonra dördüncü uşaq istəmədim. Yəqin bu da tale yazısıdır. Tanrı bu yarımçıq ömürləri ömrümə caladı.

Haşiyə: 26 yaşında Xanım adlı bir qızla ailə qurdu Əlibala müəllim. Təranəsi, Qüdrəti, Asyası dünyaya göz açdı. Balalarının adlarında yaşatdı ata-anasını, onlara baxdıqca qəlbində əritdi ata-ana nisgilini O.

— Bəs tələbəlik illərini necə xatırlayırsınız?

— Nənəm məni həkim görmək istəsə də, sənədlərimi Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin fars şöbəsinə verdim. Şəhərdə bir qoca kişinin evində həmkəndlim ilə kirayə qalır-

dım. Üç imtahandan yaxşı qiymətlər almışdım, dördüncü imtahan coğrafiyadan idi. İmtahana əla hazırlaşsam da, imtahan vərəqəm müəmmalı şəkildə yoxa çıxdı.

İmtahan komissiyasının sədri Mirzə Mədətovun, sonra prorektor Mehdi Əliyevin yanına getsəm də onlar mənə «yox» cavabı verib geri qaytardılar. Daha sonra yeni imtahan vərəqi almaq üçün Universitetin rektoru Cəfər Xəndanın yanına getdim. O da mənə kömək etmədi. O zaman çarəsiz halda pilləkənlərin başında dayanıb talesizliyim ilə baş-başa qaldım, Allahdan kömək istəyirdim. Bu zaman ədəbiyyatdan məndən imtahan götürən və biliyimi «5»-lə qiymətləndirən Həmid Araslının gəldiyini gördüm. Baxdı ki, solğun və həyəcanlıyam. Səbəbini soruşanda başıma gələnləri ona danışdım. Söz demədən məni Mirzə Mədətovun yanına gətirib yeni imtahan vərəqəsi aldı. İçəri girib gördüm ki, sonuncu uşaq cavab verir. Bilet çəkib «4» aldım. Beləcə, arzuma çatdım.

Haşiyə: Əlibala fikirləşdi ki, sentyabr ayında dərsə gələn kimi ilk işi Həmid Araslını tapıb ona təşəkkür etmək olacaq. Lakin Həmid müəllim ona dərs dediyi üçün: «Elə bilər ki, qiymət yazdırmaq üçün ona yanaşıram» — fikirləşib təşəkkürünü qəlbində gizlətdi Əlibala. Lakin bu gizlətmə çox çəkdi. Çünki təyinatını da Həmid Araslının şöbəsinə verdilər. Yenə də təşəkkür borcunu saxladı Əlibala müəllim. Namizədlik dissertasiyasını bitirdikdən sonra illərdən bəri qəlbində gizlətdiyi təşəkkürünü Həmid müəllimə bildirəndə, o, bu gənc oğlanın dözümlülüyü qarşısında kövrəldi.

— Siz hiss və fikirlər şairisiniz, əsərlərinizdə də bu aydın hiss olunur. Nədən belə hər bir insanın qəlbinin ən dərinliklərinə nüfuz edə bilirsiniz?

— Ədəbiyyatın özü hiss və düşüncədir. Əgər bunlar yoxdursa, heç bir əsər yarana bilməz. Əgər mən bir şeri və əsəri oxuyub kədərlənmirəmsə, sevinmirəmsə, deməli, o, əsər deyil. Mən xüsusi olaraq şer yazmıram, mən qəlbimin yanğısını misralarda söndürürəm. Mən sevincli anlarımda nə şer, nə də əsər yazmışam. Mən insanları güldürə bilmirəm, ağladıram. Çünki mən dərdli adamam, mənim bütün hüceyrələrim dərd ilə yoğrulub.

— İnsan daima axtarışda olur. 20, 30, 40, 50, 60 və 70 yaşınızla nəyin axtarışında olubsunuz?

— 20 yaşımda mən sevgi axtarışında olmuşam, amma onu tapdım da, itirdim də.

30 yaşımda — artıq ailəli idim, axtardığımı tapmışdım.

40 yaşımda — tapdığımı qorumaq, ailəmə xoşbəxtlik bəxş etmək hissi ilə yaşayırdım.

50 yaşımda — elə zənn etdim ki, artıq sondur, gördüm ki, yox. Bu yaşda ən gözəl sözləri söyləmək üçün fürsət axtardım, Allah da bu fürsəti mənə verdi. Axı mən hər dəqiqə «İtkin gəlin»i yaza bilməzdim.

60 yaşımda — rahatlıq axtardım, amma tapa bilmədim. İtirilmiş torpaqlar, illərin keçməkeşli hadisələri ilə bağlı çox böyük narahatlıqlar keçirtdim və sındım. Atasızlıq, əzab, çətin tələbəlik illəri sındırmadı məni, erməni tüpürcəyini yalamağa məcbur edilən oğullarımız, soyuqdan donan körpələrimiz sındırdı məni. Dərd — böyük bir məktəbdir. Bəzən şerlərimdə «Oğlun olmaq istəmirəm, ey Vətən» — deyə qışqırdım da. Haqsız dərd insanı sındırır, məni də sındıran haqsız dərd idi.

70 yaşımda — mənim oxucularıma bir borcum var. «Təyyarə kölgəsi», «Vəfalım mənim» və «Ölüm yoxdur» trilogiyasının sonunu yazım. Sonra isə həyatımı qələmə alım.

— Əlibala Hacızadənin qələmə aldığı obrazlardan ona daha çox yaxın olanı hansıdır?

— Mən sevənlə sevirəm, ölənlə ölürəm. Amma Nəcməddin surəti mənə daha doğmadır. O, Dünyanı böyük məhəbbətlə sevir, lakin onlar arasında böyük yaş fərqi olur. Nəcməddini mən öldürmüşəm, axı niyə o, özündən o qədər kiçik qızı sevirdi? Dünyanı ona görə öldürdüm ki, o Nəcməddinin böyük sevgisinə xəyanət etdi. Əbdülü ona görə öldürdüm ki, Nəcməddin kimi bir kişinin çörəyinə xəyanət etdi. Əbdülü oğlunun əliylə ona görə öldürdüm ki, adam ona çörək verən insana xəyanət etməz. Bütün bunlar psixoloji məqamlardır.

Haşiyə: Əlibala müəllim «İtkin gəlin» əsərinin üzərində düz 16 il işləyib. Əsərdəki obrazlara o qədər doğmalaşmışdı ki, onlardan ayrıla bilmirdi.

— «İtkin gəlin»lə bağlı başınıza maraqlı əhvalatlar gəlibmi?

— O qədər maraqlı hadisələr olub ki… Bir gün əsəri işləyirdim, Şəfinin şahla söhbətini yazırdım. Birdən həyat yoldaşım gəlib dedi ki, evdə kartof, soğan qurtarıb, almaq lazımdır. Yazıya elə aludə olmuşdum ki, qışqırdım: «Nə kartof, nə soğan, görmürsən mən şahlarla oturub söhbət edirəm?» Həyat yoldaşım təəccüblə üzümə baxır-

dı. Durub bazara getdim. Gələndə həmin səhnəni 10 variantda yazsam da, əvvəl fikirləşdiyim kimi alınmadı.

— Həqiqəti demək, yoxsa eşitmək çətindir?

— Həqiqəti sevirəm. «Allahdan qorx, həqiqəti de!» — kəlamı var. Yalana qarşı üsyankaram. İlanla qol-boyun yaşayaram, yalanla yox. Hətta belə bir şerim də var:

«Yalan danışma» dedim — danışdın.
«Qəlbini gizlətmə məndən» dedim — gizlətdin.
Nə dedim, tərsinə elədin,
Elə bununla da, ay bədbəxt,
Məhəbbətinizin başına kül élədin».

«Dünyanı tanı» romanında da yazıram: «Allahın qorxusundan yalan danışmaq olmur, bəndənin qorxusundan doğru».

Həqiqət gözəldir. Amma xəyanətlə barışa bilmirəm.

— Ömür pillələrini bir-bir qalxırsınız. «Nəyim vardı, nəyim yox?» — söyləyəndə nələr yada düşür?

— Əvvəllər heç nəyim yox idi, adi bir insan idim. «Təyyarə kölgəsi» romanımda Orxan üçün bir cümlə işlətmişəm: «Öləndən sonra da yaşayanlar var».

Mən elə bir ömür yaşamışam ki, iki dəfə öləcəyəm. Birinci dəfə fiziki öləcəyəm, bir də məni görən ən balaca, sonuncu adam öləndə onunla öləcəyəm. Sonra isə ayrı bir ölməzlik olacaq — öləndən sonra yaşamaq. Mən oxucuların dərdlərini yazmışam. Mən öləndən sonra əsərlərimlə qəlblərdə yaşayacağam…

***

Danışır Əlibala müəllim… İllərin mürgülü xatirələrini oyatdıqca siqareti siqaretə calayır. Bəzən isə kədər dolu ümman baxışları dolub-boşalır. Beləcə, 70 yaşın piranəliyini yaşayır O.

Əlibala Hacızadə haqq adamıdır — yalnız haqqın qarşısında baş əyib. Əlibala müəllim eşq adamıdır — eşqin ayağına düşmür, onu başında gəzdirir.

Əlibala müəllim yol adamıdır — yolların içində yolunu seçib. Əlibala müəllim söz adamıdır — sözü əzizləməyi, inləyib inlətməyi bacarır. Əlibala Hacızadə könül adamıdır — kişiyanə görkəmiylə sinəsində kəpənək qanadı kimi zərif, titrək bir ürək gəzdirir. Zamanın

qarşısında diz çöküb alçalmayıb, Tanrı sınaqlarına o kəpənək qanadlı zərif qəlbi ilə dözüb.

Əlibala Hacızadə hər birimizə bir yazıçı, tərcüməçi, müəllim kimi örnəkdir. Hələ uşaq ikən onun əsərləri əllərimizdən tutaraq bizlərlə birlikdə enişli-yoxuşlu yolları addımlayıb. Çoxlarımızın taleyi özümüz də bilmədən onun əsərlərindən bizlərə boylanır.

70 yaşlı sevimli yazıçımızla söhbət edirəm, illərin kədəri sanki qonur onun baxışlarına, kövrəlirəm. Ona hələ 70 il də ömür diləyirəm Tanrıdan. Sağollaşıb ayrılıram.

Lakin yol boyu Əlibala Hacızadənin mavi baxışlarından süzülüb gələn misralar qulaqlarımda səslənir:

Dünyanı dünya tək görmək istəsən,
Mənim gözlərimə bax.
Saçını dənizdə hörmək istəsən,
Mənim gözlərimə bax.

İstəsən, göy sənin, yer sənin olsun,
İnci sənin olsun, dürr sənin olsun.
Dünyada hər nə var, bir sənin olsun,
Mənim gözlərimə bax!

İstəsən qəlbində hər tel oxunsun,
Baxçanda hər qönçə, hər gül oxunsun,
Sənə aşiq olan bülbül oxunsun –
Mənim gözlərimə bax.

Gözümdə əbədi qalmaq istəsən,
Bir sevgi nəğməsi çalmaq istəsən,
Dünyanın xoşbəxti olmaq istəsən –
Mənim gözlərimə bax.

*Çinarə Vüqar*
*«Təzadlar» qəzeti*

## ÖZÜ VƏ SÖZÜ BİR OLAN YAZIÇI

Mən onu tələbəlik illərindən, B.Vahabzadə və Y.Şirvanın ədəbiyyat dərnəyindən tanıyıram. O dərnəyə bu gün artıq şair, yazıçı və ədəbiyyatşünas kimi tanınmış gənclər gəlirdilər. Onun ilk hekayəsini Azərbaycan Dövlət Universiteti Filologiya fakültəsinin divar qəzetində, sonra dərnək üzvlərinin əsərləri toplanmış «Gənclik nəğmələri» almanaxında oxumuşdum. Pərəstişkarlarından biri onunla ünsiyyətdə olan hər kəsi xoşbəxt adlandırmışdı. Bu mənada mən, yəqin ki, ən xoşbəxtlərdən biriyəm. Çünki universiteti bitirəndən bu günəcən onunla bir institutda, bir şöbədə işləyirəm. Aramızda elə bir yaş fərqi olmasa da ona həmişə müəllim demişəm. Bu sözü ehtiram olaraq məcazi mənada söyləsəm də sonralar İran mədəniyyət mərkəzinin təşkil etdiyi fars dili kursunda o, mənim həqiqi müəllimim olmuşdu.

Uzun illərin həmkarı kimi onun həyat və yaradıcılığında baş verən hər bir hadisəni maraqla izləmiş, gözlərində ilk övladın, ilk kitabın sevincini görmüşəm. Onun bir yazıçı kimi çox uğurlu və maraqlı taleyi vardır. Oxucu məhəbbəti və rəğbətini qazanmaq hər yazana qismət olmur. O, ilk hekayə və romanından bu şərəfə nail olub. Onu sevənlər, alqışlayanlar, əzizləyənlər də olub, istəməyənlər də. Nə birincinin havasından, fərəhindən başı göyə, nə də ikincinin zərbəsindən yerə dəyib: Necə vardısa elə də qalıb. Bir sənətkar və şəxsiyyət kimi onun ən yüksək keyfiyyəti də elə budur.

Yaddaşı çox iti və dəqiqdi. Sinəsi şer, aforizm, xatirə və lətifələr yatağıdı. Hər məqamda deməyə sözü var. Danışığına bir yumor qatmağı sevir. Bəzən tanınmış şəxslərin həyatından şahidi olduğu, ya eşitdiyi maraqlı əhvalatlarla müsahiblərinə xoş ovqat bəxş edir.

Bir insan kimi çox səbrli, dözümlü, nikbin və möhkəmdir. Neçə il bundan qabaq gözlənilmədən onu vəzifəsindən salmışdılar. O vaxt bu vəzifəni tutmaq o qədər də asan deyildi. Namizədlik müdafiəsindən sonra kitab və neçə məqalə çap etdirmək lazım idi. O bu mərhələləri keçərək tutduğu vəzifəni itirmişdi. Bu hadisənin mənəvi tərəfindən başqa, bir ailə başçısı kimi onun üçün maddi tərəfi də vardı. Elanlar lövhəsində əmri oxuyub içəri girdim. Həmişəki yerində, pəncərənin önündəki stolunun arxasında bu hadisədən xəbərsiz kimi sakit oturmuşdu. Görkəmində heç bir etiraz, üsyan, həyəcan əlaməti görünmürdü. Amma üzündə bir tutqunluq vardı. Daxilindəki gərginliyi büruzə verən də elə bu idi. İstədim ona toxtaqlıq verəm, ancaq

özünü elə təmkinli və tox tutmuşdu ki, heç nə deyə bilmədim. Onun səbrinə, dözümünə heyrətlə susdum. Sonralar da o həyatın və taleyin bir sıra gözlənilməz çətinliklərinə öz iradəsi, dözümü və nikbinliyi ilə qalib gəlmişdi.

O, eyni zamanda xeyirxah, humanist və ədalətli bir insandır. Bu yüksək mənəvi keyfiyyətlər bütün dövrlərdə qıt olub, az tapılıb və bu keyfiyyətlərə malik olan insanlara cəmiyyət həmişə böyük ehtiyac duyub. Şərqin görkəmli şair və mütəfəkkiri, yeddi ilə Xorasandan Məkkəyə piyada gedib qayıtmış Nasir Xosrov «Səfərnamə» əsərində ərəb və fars ölkələrində yalnız dörd yerdə ədalət gördüyünü yazmışdı.

Əlibala müəllimin insanlara məhəbbəti adi bir etiket olan «salam»dan başlanır. Salam, yəni sənə salamatlıq, asayiş diləyirəm deməkdir. Yekəxana, təkəbbürlü və başını qaldırıb salam verməyə ərinən laqeyd adamlar olan yerdə onun özündən böyük və kiçiklərə ehtiramla salam verib, hal-əhval tutmaq mədəniyyəti özünün dediyi kimi, insanlara ülvi, təmənnasız məhəbbətinin kiçik bir nişanəsidir.

O, insanlara məhəbbətini təkcə əsərlərində deyil, həyatda söz, məsləhət və əməli işlə göstərir. Neçə il özü də bir ziyalı olaraq, bu təbəqənin çətinliklərinə bələd bir şəxs kimi, həmkarlarından bir qrupu ilə Tələbə Qəbulu Dövlət Komissiyası arasında əlaqə yaratmış, onlarla birlikdə həmin müəssisəyə gedib hər biri haqqında komissiya nümayəndəsinə öz rəyini bildirmiş və qəbul vaxtı onların imtahan rəhbəri işləməklə problemlərinə az da olsa köməklik göstərmişdi. Azərbaycanın ensiklopediyaçı alimi (XIII) Nəsirəddin Tusi «Əxlaqi-Nasiri» əsərində insanları təbiətlərinə görə beş sinfə bölmüşdür:

Birincisi, təbiətən xeyirxah olanlar və başqalarına xeyir verənlər; ikincisi, təbiətən xeyirxah olanlar, ancaq xeyir verməyənlər… Mən bu sətirləri oxuyanda xəyalımda tanıdığım adamların surəti canlandı. Birinci sinfə daxil etdiyim şəxslərdən birincisi Əlibala müəllim oldu. O həqiqətən xeyirxahdır və başqalarına xeyir verməyi, yaxşılıq etməyi sevəndir.

Bəlkə elə onun bu yumşaq, mülayim xasiyyətinə görə son illər kitab çap etdirmək, Yazıçılar Birliyinə üzv olmaq həvəsinə düşənlər onun yanına gəlirlər. Onun imzasına, avtoritetinə sığınıb kitab çap etdirmək istəyənlərin kitabında o, bəzən ürəyinə yatan bir misra, bir kəlmə tapmasa da, onları ümidsiz və əliboş qaytarmır. Çünki «kiminsə qəlbini qırmaqdan çox qorxur və onun öz qəlbini qıranları da bağışlaya bilmir. Kitab çap etdirmək istəyənlərə uğur diləyir. Yazıçılar Birliyinə üzv olmaq istəyənlərə zəmanət verir və gülümsünüb za-

rafatla: «Axırda mənim özümü Yazıçılar Birliyindən çıxaracaqlar» — deyir. Ədəbiyyata, Yazıçılar Birliyi üzvlüyünə axına o, təbii baxır və bunu ədəbiyyat tarixi üçün faciə hesab etmir. Bu, bütün dövrlərdə belə olub və belə də olacaqdır. Dilimizdə «şer yazan» və «qafiyəpərdaz», fars dilində «qəzəlsəra» (qəzəlyazan) və «qəzəlbaf» (qəzəl toxuyan) ifadələri məhz bu ədəbi axının, ədəbi yarışın nəticəsində yaranmışdır. Qədim Ərəbistanda, şerin yüksək inkişaf məqamına çatdığı cahilliyə dövründə yarmarkalarda, bazarlarda şer müsahibələri keçirilərmiş və bəyənilib seçilmiş şerlər qızıl suyu ilə yazılıb, Məkkənin divarından asılarmış. Yeddi qəsidədən ibarət olan və «müəlləqat» adlanan o seçilmiş şerlər bu gün də yaşayır. Amma bu yeddi qəsidənin neçə yüz, ya neçə min şerin içindən seçildiyi keçmişdə qalıb.

Ədəbiyyata axından söz düşəndə o, Süleyman Rəhimovun gənc yazıçıların respublika müşavirəsində söylədiyi bir fikri təkrar etməyi xoşlayır. «Gənclərin ədəbiyyata axın şəklində gəlməyindən nigaran olmayın. Bu axını mən zirvəyə qalxmaq istəyən bir karvana bənzədirəm. Bu yol çətin və şərəfli bir yoldur. Kimin istedadı varsa, kim yaradıcılıq əzablarına dözə bilərsə və ən başlıcası, zəhmət çəkməyə qadir olarsa, sənət adlanan o dağın zirvəsinə qalxacaqdır. Əgər bu dediyim keyfiyyətlərə malik deyilsə, o gedən karvan qafiləsindən səssiz-səmirsiz ayrılacaq, yolun qırağına çıxacaq, yol kənarındakı bir daşın üstə oturub zirvəyə doğru gedən o karvanın ardınca həsrətlə baxacaqdır».

Ə.Hacızadə oxucu məhəbbətini bütün varlığı ilə hiss etmiş, oxucu sevgisindən kam almış bir yazıçıdı. Xüsusilə, onun əsərlərini öz ruhuna, mənəvi dünyasına mərhrəm sanan, orada duyğu və düşüncələrinin əksini görən qadın oxucuların məqalə və məktubları o qədər səmimi, kövrək, həzin və həyəcanlı yazılmışdır ki, onları sakit oxumaq olmur. «Özünü görməsəm də hər an qəlbimdə yaşayan», «Kitablarını bircə gecəyə su kimi içdiyim, gəncliyimizin, dərdli günlərimizin həmdəmi, içimizi gözəlliklərlə dolduran, paklaşdıran» (Aləmzər), «Kitablarınız sizi mənə sevdirib» (Leyla, 85 yaş) «hər dəfə dərddən boğulub ağlayanda, hər dəfə mən kiməm?» sualı cavabsız qalanda, dünya, təbiət, insan haqqında fikirlər axınına düşəndə hər birimiz Ə.Hacızadə kitablarını oxuyuruq» (Çinarə). «Mən Sizin yaradıcılığınızın vurğunuyam, təşnəsiyəm, acıyam, doymazıyam… Sizin obrazlarınız mənimçün həmişə tükənməz güc mənbəyi olmuşdur. Kitablarınızı hər dəfə oxuyanda düşünmüşəm ki, Allah, bu qə-

dər dərin, pak, güclü hisslərin, yüksək insani keyfiyyətlərin təsvir və tərənnümçüsü görəsən necə insandı?

… Siz mənim qəlbimdə yaşayan, amma əlim çatmayan, ünüm yetməyən, nə qədər yaxşı varsa, onların nəhənginin etalonusunuz…»

Ayrı-ayrı məqalə və məktublardan verilmiş bu sətrlər etirafdır, zərif qəlbli həssas oxucu etirafı.

Məqalə, məktub və görüşlərdə ədəbiyyatsevərlər Əlibala müəllimə çox təriflər, alqışlar, afərinlər söyləyiblər. Bu sözlərdən onun ürəyinə bəlkə də ən çox yatan B.Vahabzadənin «Öz xalqının əsl Məcnunu» ifadəsidir. Sənətkar üçün yüksək qiymətdir bu. Amma o eyni zamanda öz vətəninin də vurğunu və Məcnunudur. Bunu bilmək üçün təkcə «Qürbətin» şerini oxumaq bəsdir.

Vətənsiz dünyada, Allah neylərdim,
Vətənə çatsaydım olmazdı dərdim.
İsti qucağında rahat ölərdim,
Axmazdı gözümdən seli qürbətin.

60-70-ci illərdə xaricə, xüsusilə Əfqanıstana getmək dəb idi. Əlibala müəllim də həvəsə düşdü. Ancaq başqalarından fərqli olaraq bircə dəfə getdi. Səbəbini soruşanda dedi: «Hamı başını aşağı salıb işləyir, yaşayırdı. Mənim də işim yaxşı, pulum çox, ailəm yanımda idi. Adama daha nə lazımdı ki? Amma çox narahat idim. Yaşaya bilmirdim, canımı qoymağa yer tapmırdım. Həftədə bir dəfə «Ədəbiyyat və incəsənət» qəzetini alırdım. Elə bilirdim ki, Azərbaycandayam, şair və yazıçıların, dost və tanışların arasındayam». Kimsə təəccüblə soruşdu: «Əgər işin yaxşı, pulun çox, ailən yanında idisə, daha niyə darıxırdın?»

O, bir an susdu və düşündü: «Təbiətin bütün nemətləri kimi, Vətən eşqi də hamıya verilmir. Qürbətdə onun kimi Vətən üçün ürəyi əsən, Vətən torpağına qədəm basanda diz çöküb torpağı öpən insanlar da var, bu hisslərdən məhrum olanlar da. Suala cavab olaraq dedi: «Günlərin bir günü darıxmağımın səbəbini tapdım. Demə, mən Vətən üçün darıxırmışam. Fərəh şəhərinə məzuniyyətə getmişdim. Mehmanxanada gördüm heç dayana bilmirəm, kağız axtardım, kağız tapa bilmədim, qələm axtardım, qələm tapa bilmədim. Otaqda var-gəl edə-edə «Qürbətin» şerini pıçıldadım və sakitləşdim. Bu da çox qəribədir ki, həmin şeri neçə il sonra yazıya köçürdüm».

Vətənə qayıtdıqdan sonra o, bir də qürbətə getməyəcəyini bilirdi. Amma Xarici şöbənin rəsmi dəvət və təkidləri müsbət xasiyyətnamə ilə gəlmiş Əlibala Hacızadəni geri çağırsa da, onu inadından döndərə bilmədi. Qəribə də olsa bəzilərinin getmək üçün istifadə etdiyi vasitələrdən o, getməmək üçün istifadə etməli oldu.

O, müsahibələrinin birində özündə yazıçılıq qabiliyyətini uşaq vaxtı elektrik cərəyanı vurandan sonra hiss etdiyini demiş və bunu bir öncəgörənin «Əlli il əvvəl sənə işıq və torpaq vasitəsilə vergi verilib» sözü ilə təsdiq etmişdi. Əgər belədirsə, yaşasın elektrik cərəyanı ki, Azərbaycan ədəbiyyatına Əlibala Hacızadə kimi bir yazıçı bəxş edib. Mənə qalsa, bunu təkcə cərəyanın hikmətilə bağlamazdım. Çünki Ə.Hacızadənin vücudunda yazıçılıq deyilən o ilahi keyfiyyətin müəyyən komponentləri də var. O, yazıçı olduğu qədər də fəsahət sahibidi, gözəl və aydın danışmaq qabiliyyətinə malikdi. Onun yazıçılıq tərzi ilə nitq üslubu arasında qəribə bir oxşarlıq da var. O, yazdığı kimi, sadə, aydın, tələsmədən, təmkinlə, yerli-yataqlı və olduqca cazibəli danışır.

Sənət və sənətkar can və cism timsalındadır. Hər bir əsər sənətkarın ağlının nuru, qəlbinin hərarət və döyüntüsündən yaranır. Sənətkarın şəxsiyyəti damla-damla yazdığı əsərlərə hopur. Bəzən oxucu sənətkarın sözü ilə əməlinin, sənəti ilə şəxsiyyətinin haçalandığını hiss edir. Bu zaman onun qəlbində faciə baş verir, inamı və idealı sarsılır.

İkiləşmə, riyakarlıq, yalan Əlibala müəllimin təbiətinə yaddı. Onun aforizm kimi səslənən bir ifadəsi var: «İlanla qolboyun yaşaram, yalanla yox». O, duyub düşündüyü kimi yazan, yaşayan, sözü və özü bir olan yazıçıdı. «… Mən öz sözlərimin içində yaşamışam və yaşayıram», — deyir. Elə buna görə də o, bu qədər oxunur və sevilir. Çünki səmimiyyət və həqiqət olan yerdə məhəbbətin olması labüddü.

*Zümrüd Rəhimova*
*«Kredo» qəzeti, 2005*

# «İLANLA YAŞAYA BİLƏRƏM, YALANLA YOX»

Əlibala Hacızadənin «Möcüzə»sində dünya yavaş-yavaş düzəlir

Ay gidi dünya demirəm, çünki dünyanın işi, gücü, vəzifəsi insanla çəkişmək, onu yormaq, əldən salmaqdır. Heç insan da yazıq deyil — dünyanın qucağını boş qoymağa ürəyi gəlmir, amma taleyinə də yiyə durmur, beşgünlük ömrünü necə gəldi sovurur, sevir-sevilir, deyir-gülür, yetdiyinə yetir, yetmədiyinə bir daş atır, ürəyi istəsə hələ qocalır da…

Kitabları əldən-ələ gəzən yazıçı Əlibala Hacızadədən xətt xatirəsi ala bilmədim. «Əlim titrəyir» — dedi. Ürəyi istəyəndə qələmi əlinə alan, ürəyi istəyəndə oxucusu ilə görüşən yazıçının indi əli istəməsə də, ürəyi ilə bir döyünür…

Bəxtəvər yazıçıdır, oxucuları bir sözünü iki eləməyib: Hamı könüllü ona qoşulub «İtkin gəlin»i axtarıb, Əfqanıstan çöllərində ötüb-gedən «Əfsanəsiz illər»dən sonra axırda sakitcə «Ayrılığın sonu yoxmuş»a inanıb, arada «Təyyarə kölgəsi»nə sığınıb, «Vəfalım mənim» sözünə kövrələ-kövrələ «Dünyanı tanı»yıb, indi də oturub yeni «Möcüzə» gözləyir…

Xətt xatirələrin ənənəvi yerinə, səhifəyə Əlibala Hacızadənin ömrün-günün bu vaxtında, beş-altı gün bundan əvvəl dünyaya gətirdiyi misralarını qoyan kimi «Cümhuriyyət»in oxucuları üçün «Avtoqraf» düzəlir. Ayrı vaxt deyirik ki, həyatda möcüzə olmur…

Sən Allah, yuxuma girmə gecələr,
Qorxuram sevincdən öləm yuxuda.
Yaman istəyirəm hamıdan gizli,
Mən özüm yuxuna gələm yuxuda.

Gələm tufan kimi, gələm sel kimi,
Öpəm gözlərindən, yanaqlarından.
Uyuyam qoynunda qızılgül kimi,
Nə səhər açıla, nə sökülə dan.

— Mənim aləmimdə avtoqraf bir ədəbi janrdır. Ona görə roman yazmaq, bu ədəbi janrda bir-iki kəlmə yazmaqdan asandır.

— Yəni avtoqraf yazmaq belə çətindir?

— Gərək kitab hədiyyə verdiyin adamı bir az tanıyasan ki, onun xasiyyətinə, gözəlliyinə, ya da savadına uyğun bir söz tapıb yazasan. Ona görə avtoqrafı bir az çətin yazıram, çünki elə-belə, quru avtoqraf yazmağı heç xoşlamıram. Amma yazdığım avtoqrafların sayı-hesabı yoxdur. Yadıma gəlir, «Ayrılığın sonu yoxmuş» kitabımı 1754 oxucuya bağışlamışdım.

— Niyə bəs 1754 oxucuya?

— Kitabları götürəndə elə nəşriyyatın qablaşdırdığı kimi də maşının arxasına, yük yerinə yığmışdıq. Elə bir-bir götürüb avtoqraf yazıb oxucuya, dosta, tanışa verirdim. Yerdə biri də qalmayanda hesabladım ki, götürdüyüm 1754 kitabın hamısını bağışlamışam.

— Avtoqrafa ədəbi janr deyən yazıçının yadında bu saysız-hesabsız yazılarından heç biri qalmayıb?

— Ən maraqlı avtoqraf xatirəsi şair dostum Fikrət Qoca ilə Ağdaşda, oxucularla görüşdə olub. Görüşdən sonra kitabı olana avtoqraf yazırdıq. Qəşəng bir qız əlində «Təyyarə kölgəsi» ilə yaxınlaşdı ki, müəllim, avtoqraf yazın. Qız elə təmiz, səliqəli saxlamışdı ki, görən kimi kitaba gözüm düşdü. Özü də qəribədir ki, özümdə bir dənə də olsun «Təyyarə kölgəsi» qalmamışdı. Dedim, ay qızım, yazıçının oxucusuna kitab bağışlaması dünyada çox adi haldır. Bəlkə biz bu ənənəni pozaq? Qızın adı Arzu idi, qayıtdı ki, deyirsiniz yəni mən bu kitabın üstünü yazıb sizə bağışlayım? Sonra gülüb yazdı: «Oxucusundan müəllifə kiçik bir xatirə».

— Oxucunun bu kiçik, qeyri-adi xatirəsini hələ qoruyursunuz?

— Yox, saxlaya bilmədim. «Vəfalım mənim» çıxandan sonra yüksək vəzifəlilər məni ittiham elədilər. Götürüb Mərkəzi Komitəyə kitabımda onları biabır elədiyimi yazdılar. Onda göstəriş gəlmişdi ki, Əlibala Hacızadənin bütün kitablarını bizə göndərin. O vaxt məni çox get-gələ saldılar, maaşımı azaltdılar, nəşriyyat vastəsilə evdəki kitablarımı da götürüb apardılar. Nəşriyyatda olan kitablarımla birlikdə evdəkiləri də yığıb göndərdim. Arzu qızımın yazdığı avtoqraflı «Təyyarə kölgəsi» də bax belə Dövlət Təhlükəsizlik Komitəsinə gedib çıxdı. Üstündən bir xeyli keçəndən sonra xəbər göndərdilər ki, gəl kitablarını apar. Mən də getmədim. Adam da öz ayağıyla Dövlət Təhlükəsizlik Komitəsinə gedər?

— Səksəninci illərin sonunda kitablarınız milyon tirajla işıq üzü görürdü. Yeni yüzildə milyardlarla kitabınızın işıq üzü görəcəyini gözləyirdiniz, amma…

— İndi tirajı mindən yuxarı olan heç bir kitaba rast gəlmirəm. Yüz minlərlə kitabına öyrəşən müəllif kimi, başa düşmürəm ki, beş yüz kitabı kimə bağışlamaq olar. Bu təzadlı vəziyyətə mən belə deyirəm ki, kitabın kitabı bağlanıb.

— Uzun müddət xaricdə yaşamısınız. Yad ölkələrdə yazıçıya münasibət necə idi?

— İstər Əfqanıstan, istərsə də İranda çox hörmətlə qarşılanırdım. Özü də biləndə ki, mənim kitablarımın tirajı yüz minlərlə olur, bu hörmət bir az da artırdı. Çünki xaricdə kitab çapı həmişə başqa cür olub. Əvvəl nəşriyyatlar kitabı cəmi 500-1000 nüsxə çar edirlər. Əgər satılsa, onda yenə çap olunur. Bizdə isə kitabı hələ də oxucuya görə yox, müəllifin hörmətinə, vəzifəsinə görə çıxarırlar. Ona görə də kitablar tökülüb qalır. Özü də qəribədir, kitabı oxunmayanlar həmişə hay salırlar ki, bizim kitabların oxucusu hələ yetişməyib. Ta demirlər ki, Nizamini, Füzulini başa düşən oxucu öz müasirini qavraya bilmədiyinə görə yox, qəbul eləmədiyinə görə almır.

— Kitablarınızın belə sürətlə oxunmasını, oxucuların sizi bir belə sevməsini özünüz necə izah edirsiniz?

— Bu suala da çox cavab axtarmışam. Görünür, ürəksiz heç nə yazmamışam. Oxucuyla görüşmək, söz demək istədiyim vaxt əlimə qələm almışam. Yazmağı qarşıma bir məqsəd kimi qoymamışam, ürəyim dolu olanda yazmaq istəmişəm. Bəlkə oxucular elə bu səmimiyyəti bəyənirlər, deyə bilmirəm. Görüşlərin birində bir oxucum da soruşmuşdu ki, sizi niyə böyükdən balacaya kimi hamı bəyənir? Yəqin məni hamı ona görə çox istəyir ki, mən də hamını necə var eləcə, olduğu, göründüyü kimi çox istəyə bilirəm. Oxucularla həmişə bir yerdə oluram, onlar güləndə sevinirəm, kədərlərinə şərik çıxıram, sevənlə bir yerdə sevirəm, atılanla atılıram, güllələnənlə güllələnirəm…

— Həmişə bir yerdə olduğunuz oxucularla indi niyə ünsiyyətiniz əvvəlki kimi alınmır? Axı elə indi də onlarla bir dövrdə yaşayırsınız, bir tikə çörəyi onlar kimi çətinliklə qazanırsınız…

— İqtisadiyyat, maddiyyat oxucuları kitabdan ayırır. Axı, uşaqlar ailə başçısından hər gün yemək gözləyirlər. Atasından yemək istəyən uşağı kitabla kiritmək olmur. Kitabla oxucu arasında uçurum belə yaranır. Amma oxucu kitab oxumayanda mənim də sözüm ürəyimdə qalır. Məcbur olub arada sözlərimi, ürəyimdə olanları jurnalistlərlə bölüşürəm.

— Qəhrəmanların taleyi sizin əlinizdə olur, yoxsa yazı, qələm külli-ixtiyar sahibidir?

— Finalı, sonluğu görməsəm, bircə cümlə də yaza bilmərəm. Ona görə romanlarımı bəzən illərlə düşünürəm, hər obrazın saçından tutmuş gözünün rənginə qədər bütün xüsusiyyətlərini içimdə yaşadıram, öyrənirəm. Kitabı bütün bunlardan sonra başlayıram.

— «Ayrılıq var sonu şirin vüsaldı, ayrılıq var sonu yoxmuş, ay aman» — Əfqanıstan ayrılığının da sonu olmayacaq?

— Qayıdandan sonra dəfələrlə dəvətlər olub, amma həmişə etiraz eləyirəm. Düzü, ikinci dəfə qürbətə düşməkdən yaman qorxuram. Əfqanıstanda bir dəfə elə həsrət çəkmişəm ki, o yerlərə təkrar qayıda bilmirəm. Həm də qəribədir ki, heç vaxt insan cavan olanda sağlamlığın, gözəl olanda yaraşığın, doğma torpağın üstündə olanda Vətənin qədrini bilmir. Amma onların əsl dəyərini itirəndən sonra anlayır. Mən də torpağın istisini qürbətdə duyurdum. Ailə-uşaq yanımda olsa da, qəribliyə dözə bilmirdim. Bir dəfə kövrələndə bu misraları az qala birnəfəsə yazdım:

Ömrümün gülləri bükdü boynunu,
Əsdi, yaman əsdi, yeli qürbətin.
Başıma dağlar tək qar ələndi, qar,
Gəzdi saçlarımda əli qürbətin.

Həsrətdən quzutək mələyir ürək,
Çarə yox, hər dərdə dözəsən gərək.
Yağ-bal yedirtsə də, ögəy ana tək,
Zəhər tuluğudu dili qürbətin.

— Amma qürbətdən Azərbaycana Əfsanəni, Elməddini gətirdiniz. Bu əfqanların taleyinə vaxtilə bütün Azərbaycan ağladı. Bəlkə oxucuları təkrar kitaba, o illərə qaytarmaq üçün arada Əfqanıstana baş çəkəsiniz?

— Hərdən ürəyim bugünkü Əfqanıstana getmək istəyir. Ola bilər ki, arada gedim, amma uzun müddətə yox. Məndən, bir ayrı yazıçıdan asılı olmayaraq, oxucular gec-tez kitaba qayıdacaqlar. Çünki kitabsız yaşamaq mümkün deyil. Kitab oxucunun təkcə vaxtını almır, həm də onu təkmilləşdirir, dəyişdirir. Ona görə ən zəif kitab da böyük məktəbdir. Ən azı, yazı qaydalarını oxucuya öyrədir.

— Hərdən adama elə gəlir ki, heç kinosuz da yaşamaq olmaz. Kino, çağdaş texnika gözünüzə ədəbiyyatın başdaşı kimi görünmür ki?

— Bu gün kino da getdikcə zənginləşir, təkmilləşir. Amma kino da kitabdan, ədəbiyyatdan qidalanır. Ona görə, kinonun ədəbiyyatı öldürməsinə inanmıram.

— Deyirlər, şair yaşı ötüb keçəndən sonra bir də şer yazmaq olmur. Bu iri romanlardan sonra təzədən yaradıcılığın əvvəlinə, şerə qayıda bilərsinizmi?

— Hamıya elə gəlir ki, mən ədəbiyyata şerlə gəlmişəm. Amma mən birinci dram yazmışam, sonra şerə keçmişəm. Şerdən də nəsrə adladım. Bir şair yaşının olduğunu mən də eşitmişəm, tez-tez belə deyirlər. Amma mənim yaradıcılığımda şerlə nəsr həmişə paralel olub. Roman yaza-yaza, qəfil kövrəlmişəm. Görmüşəm, bu yazdığım şerdir. Ona görə çox vaxt romanlarıma o şerləri daxil eləmişəm. Hər yaşın öz yazısı var, şairlik cavanlıqda olur, deyirlər. Bircə onu deyə bilərəm ki, 50 il bundan əvvəl yazdığım şerlərin bir misrası da yadımdan çıxmayıb.

— Lap təzə şeriniz də yadınızda qalıb?

— Bax bu misraları 5-6 gün əvvəl yazmışam:

Sən Allah, yuxuma girmə gecələr,
Qorxuram sevincdən öləm yuxuda.
Yaman istəyirəm hamıdan gizli,
Mən özüm yuxuna gələm yuxuda.

Gələm tufan kimi, gələm sel kimi,
Öpəm gözlərindən, yanaqlarından.
Uyuyam qoynunda qızılgül kimi,
Nə səhər açıla, nə sökülə dan…

— Musiqiyə bu qədər asan gələn şerləriniz niyə bəstəkarların diqqətini çəkmir?

— Zeynəb Xanlarova, Brilliant Dadaşova, Ağadadaş Ağayev, Baloğlan Əşrəfov, Elxan Ştrtnov oxuyur. Oxuyanların çoxu da heç adımı çəkmirlər. Mən də heç hara getmirəm, müəllif hüquqlarımı tələb eləmirəm. Şerdir, xoşuna gəlir, qoy oxusun. Sənətlə bağlı olan bir işə məhkəmə ilə əncam çəkilməsinə ehtiyac görmürəm.

— Səhv eləmirəmsə, «Möcüzə» adlı bir romana başlamışdınız. Tamamlaya bildinizmi?

— Hə, birinci hissəsini qurtarmışam. Son dövrün hadisələrinin, başımıza gələnlərin təsvir olunduğu bir romandır. Bütün bu hadisələrin fonunda aydıngörən bir qadın obrazı yaratmışam. Bu qadın deyir ki, mən ilanla yaşaya bilərəm, amma yalanla yox. Yalanlar insanları ikiləşdirir, tamam dəyişdirir. Romanın birinci hissəsində yalana söykənən dünyanın axırı olmadığı fikrinə gəlirəm. Amma hələ çap elətdirə bilmirəm. İndi ikinci hissəyə başlamışam.

— Romanların axırını bəri başdan gördüyünüzu dediniz. «Möcüzə» necə qurtarır?

— Axırda aydıngörən qadın tamam qocalır, dünya yavaş-yavaş düzəlir. Əsərin qəhrəmanı olan köçkün də öz yurduna, torpağına qayıdır.

— İndi hərə adını bir cərəyana yazır. Bir vaxt romanları əl-əl gəzən, indi də təzə bir «Möcüzə»yə başlayan Əlibala Hacızadə özünü hansı cərəyanın nümayəndəsi sayır?

— Mən realist ədəbiyyatı xoşlayıram. Amma özümü realizmlə romantizmin ortasında, qarışığında görürəm. İdeal həyat, ideal dövran olmadığı üçün yazıçı gərək insanı hərtərəfli göstərə. Neçə yüzillərdir ki, insan üzü kamilliyə gedir, amma hələ də kamil insan yoxdur. Çünki hər cəmiyyətin, hər rejimin nöqsanı var.

— Ədəbiyyatın nöqsanı nədir?

— Heç vaxt realist sovet ədəbiyyatı adlı bir ədəbiyyat olmayıb. Başdan-başa yalan üzərində yazılan bu əsərlər realist yox, riyalist ədəbiyyatın nümunələridir. Böyük, realist ədəbiyyat başı ulduzlarda, ayağı yerdə, zibillikdə olan insanı təsvir eləyir. İnsan həmişə belə olub. Onu başqa cür, əl-ayağını da göydə təsvir eləyəndə riyalist ədəbiyyat yaranır.

— Sizinlə görüşən, avtoqraf istəyən oxucular yəqin daha çox gün-güzərandan gileylənirlər. Onları necə sakitləşdirirsiniz?

— Məni özünə doğma hesab eləyən adamlar çoxdur. Görəndə də hamı öz dərdini danışır.

Təkcə gün-güzəran dərdini yox, oxucularım ən gizli, intim sirlərini də mənimlə bölüşürlər. Heç nəyə gücüm yetməsə də, onları axıracan dinləyirəm…

*Laura Cəbrayıllı*

## KİŞİLİK DƏRSİ

«Demokratik mətbuat», «Demokratik nəşriyyat» ifadələri Əlibala Hacızadənin 1990-cı ildə «Gənclik» nəşriyyatında «Dünyanı tanı» romanı nəşr olunandan sonra geniş və obyektiv vüsət almışdır. «Heykəl gülür» kitabından tutmuş son romanına qədər bütün əsərlərində romantika güclüdür. Bu da təbiidir. Çünki yazıçı istedadının qaynar çağlarında da şer yazır, qələmini poeziya aləmində də sınayır...

Əlibala Hacızadənin «Dünyanı tanı» romanı qlobal hadisələrə həsr olunub. Bu əsər zamanı qabaqlayan məsələlərlə, fikir və düşüncələrlə zəngindir. Təəssüf ki, bu qloballıq, bəşərilik Müseyibin şöhrət, qızı Simuzər xanımın təhsil alması naminə «gedər-gəlməzliyə» yuvarlanmaları oxucuda ikrah doğurur. Namusu, qeyrəti sintez edilməmiş nazir Ələmdara etibar edib. Gələcək nəslinin taleyini tapşırmaq valideyninin korafəhimliyindən başqa bir şey deyildir. Bütün bunlarla yanaşı, Nəzər müəllimi istəyən adamlar da var.Lakin onlar azlıq edir.

Əsərin ilk fabulasından sanki dünyaya qapı açılır. Oradan həyata Nəzər, Bikə, Süleyman, Zakirə, Murad, Tapdıq, Sadıq və bir çox başqaları boylanır. Müəllif «İtin əti olsun, sizin dişiniz» deyib oyundan kənarda qalmır. İnsanlığı zərrə-zərrə toplamağa can atır. Nəzər müəllimin şəxsi mövqeyindən asılı olmayaraq bu adamları müəyyən vaxt çərçivəsində əsl vətəndaş olmağa çağırır. «Siz müəllim olmaqdan əvvəl vətəndaş olmalısınız. Sizin ürəyinizdə bu torpağa, bu sadə, işləməkdən başqa bir şey haqda düşünməyə belə vaxtları olmayan bu zəhmət adamlarına məhəbbət olmalıdır. Olmasa, siz hədər yaşayırsınız, şikəstsiniz, sizin yetişdirdiyiniz, tərbiyə elədiyiniz uşaqlar da, bu torpağın gələcək vətəndaşları olacaq bu uşaqlar da sizdən zəif, sizdən aciz olacaqlar, vallah, olacaqlar, billah olacaqlar. Onda şagirdlər çoxalacaqlar. Onda şagirdlər istədiyini eləyəcəklər. Haqsızlıq ayaq tutub yeriyəcək, təmizlik, inam, gözəllik öləcək, həyat bu şirinliyini itirəcək».

Gələcək taleyindən əvvəlcə xəbər tutan Nəzər müəllim köhnə dəyirmanın təzə pərində qayış olmaqdan çəkinmir. Pedaqoji məfkurəsindən tamam uzaqlaşdırıldıqdan sonra Süleymanın təkidi ilə Xalq Nəzarəti Komitəsinin sədri seçilir. Burada da haqq, ədalət, yenilik hisslərindən ayrıla bilmir. Oğlunun da günahlarını hər addımda izləy-

ir. Yeni cəmiyyət uğrunda mübarizədə dəridən-dırnaqdan çıxır. Bütün əliəyriləri, mühafizəkarları, alverçiləri müharibədən gətirdiyi «Faşist uşağı faşistlər» adlandırır.

Pambıq məntəqəsinin müdiri Müseyiblər, əxlaq, cəmiyyət pozğunu nazir Ələmdar Qədirovlar, xoşbəxtliyini «Diplom»a qurban verən Simuzərlər, öz doğma oğlu Süleymanı ölüm ayağında da bağışlamayan İmran kişinin zəmanəsində yaşayırlar. Bu isə ağır dərddir.

«Dünyanı tanı» romanının müəllifi respublikamızda aparılan yeniliyi, aşkarlıq və demokratiyanı vaxtında qabaqlayır. Müstəqil respublikada qarşı-qarşıya duran ziddiyyətlər təhsil obyektlərində sistemləşmişdi. Bunun əksinə olaraq yaranmış iqtisadi və siyasi böhranın təsiri maarif, mədəniyyət, əxlaq normalarımızı da üstələyib. Nəticədə bütün həyatını, mənəvi potensialını cəmiyyət və onun gələcəyinə sərf edən məktəb direktoru Nəzər müəllimin yerinə Şakir adlı keçmiş şagirdi təyin edilir və gəldiyi gündən qocaman müəlliminin pensiyaya çıxarılması məsələsini qoyur. Mənəvi maneələr, qaba rəftarlar o qədər həddini aşır ki, axırda Nəzər müəllimin ərizəsini verib getməkdən başqa bir çarəsi qalmır. Ömrün ən dəhşətli anları da bundan sonra başlayır. Sərbəstlikdən yaranan haqqın iç üzü görünür. Nəzər müəllim hər addımda rüşvət, oğurluq, biganəliklə qarşılaşır. O, kənddəki yeznəsi Tapdığın və şəhərli yeznəsi Sadığın da mənəvi düsturunu açır. Məlum olur ki, Tapdıq öz işgüzarlığı, əməyə hədsiz məhəbbəti olan bir fəhlə, Sadıq isə bəxti taleyin sərt döngəsində xoşbəxtlik tapan bir meşşan əhval-ruhiyyəli idarə rəhbəridir.

Nəzər müəllim kimi kişinin oğlu Qəribin də meşşan həyatına, onun gətirdiyi «Qismətlərə» meyllidir. Bu hal hətta ana ilə oğulu qarşı-qarşıya da durğuzur, onların insanlıq duyğularını açmağa xidmət edir. Nəzər müəllimi ağır günlər keçirən,oğul-uşaq qayğısından kənarda qalan xəstə İmran kişinin də taleyi bərk düşündürür. O, bütün ağrılarını, acılarını üstünə tökmək üçün imkan gəzdiyi sabiq şagirdi, İmran kişinin oğlu Süleymandır. Vaxt elə gətirir ki, Süleymanı öz rayonlarına katib göndərəndə İmran kişi dünyasını dəyişir.

Əsərdə qüsurlu cəhətlərdən biri də təhsil sistemində «Kişilik dərsi»nin tədris edilməməsidir. Bir çox üzdəniraq müəllimlər əcnəbi paltarını dəyişmir, sinifdə, şagirdlər qarşısında da necə deyərlər «Mersedes»dən, «Toyota»dan düşmürlər. Bax, belə fəlsəfi dünyagörüşə malik olmağın nəticəsidir ki, Süleyman siniflərdə, auditoriyalarda bir para müəllimlərdən aldığı tərbiyə metodundan uzaqlaşa bil-

mir. Onun rəhbərlik etdiyi rayonda da rüşvət, oğurluq, xalq malını mənimsəmək halları baş alıb gedir.

Bütün dünyaya xas olan təmizliyi qorumaq üçün dəridən-qabıqdan çıxan Azər müəllim oğurluğu, saxtakarlığı özünə peşə etmiş bir ərazi əhalisinin tələsinə düşür. Maaşından borc verdiyi pulu benzindoldurma stansiyasının işçisi Yunis Bayramovdan «rüşvət» kimi qəbul ediləndə yaxalanır. Bu qürğunun müəllifi rayon prokuroru İsrafil Quliyevdir.

Mələk kimi təmiz bir adam gözlənilmədən həbs olunur. Onun təmizliyini dərk eləyən adamlar da üzə çıxmır,tərəddüdlər içərisində inamlarını öldürürlər. Bu isə böyük bir xalqın, başı bəlalı millətin faciəsidir.

Əsər sırf maarif işinə sərf olunsa da, bütün ictimai həyatı güzgü kimi göstərir. Xalqa ləyaqətli xidmətin acı nəticəsi öz bəhrəsini verir. Dustaqxanada acınacaqlı günlər keçirən Nəzər müstəntiq Xuduş tərəfindən vəhşicəsinə döyülür.

Bütün bu rəzalətlərin üstünü açmaq və millətə çarə yolu diləmək üçün Nəzər müəllimin yalnız bir yolu qalır. Sabiq şagirdi Süleymanla görüşmək. Nəhayət, buna nail olur. Bütün burada olan rayon fəallarının qüsurlarını Süleyman qarışıq, üzlərinə oxuyur. Ona çıxış yolu tapılmır. Bu acı «səhnədən» nəşələnən Süleyman rəngi ağarmış halda dodaqları titrəyərək Quliyevə, Ağayevə üzünü tutaraq deyir:

— «Bu qocanın doğrudan da başı xarab olub… Nə danışdığını bilmir daha. Basın getsin, eşidirsiniz, basın getsin… orda ağlı gələr başına».

Budur haqsızın haqlara göstərdiyi ən sadə yol.

İnanırıq ki, «Dünyanı tanı» romanının ikinci kitabı da oxucuların xoşuna gələcəkdir.

*Sərxan Əhmədov*
*Andreyevka kəndi*

## «MÖCÜZƏ» YOL GƏLİR

Məlum hadisələr başlayanda hər bir azərbaycanlı kimi məni də bu problem narahat edib və edir. Bu hamımızın dərdidir və bu prosesləri təhlil etmək, bunun mahiyyətini açıb göstərmək biz yazıçıların borcudur. Mən də öz imkanım daxilində bu məsələlərə müdaxilə etmək istəmişəm. Bu səbəbdən də «Möcüzə» adlı romanı yazdım.

1935-ci ildə Biləsuvar rayonunda anadan olan sevimli yazıçımız Əlibala Hacızadənin ilk kitabı «Heykəl gülür» olub. Bundan əlavə oxucularına «Təyyarə kölgəsi», «Vəfalım mənim», «Unutmaq olmur», «İtkin gəlin» trilogiyasını və digər maraqlı əsərlər bəxş edən tanınmış yazıçımız Əlibala Hacızadə qəzetimizin qonağıdır.

— Əlibala müəllim, bildiyimizə görə, bir müddət Əfqanıstanda işləmisiniz. Qürbətdəki həyatınız barədə nə deyə bilərsiniz?

— Elə oldu ki, 1966-cı ildə məni Əfqanıstana dəvət etdilər və mən orada 1966-1970-ci illərdə tərcüməçi kimi fəaliyyət göstərmişəm. Qürbətdə keçirdiyim illəri ömrümün ən yadda qalan, şirin, xatirələrlə dolu parçası hesab edirəm. Çünki o həyat mənim üçün təzə, gözəl, oxunmamış bir kitab idi. Orada mən ilk gündən düşdüyüm yeni mühiti, həyatı qələmə almağa başladım və o hekayələrdən bir neçəsini Bakıya göndərdim. Ancaq zaman ötdükcə gördüm ki, hekayə darlıq edir. Mənim gördüklərim, eşitdiklərim, müşahidə etdiklərim hekayə çərçivəsinə sığışmır. Bu vaxt qərara gəldim ki, daha iri həcmli bir əsər yazım və o zaman «İtkin gəlin» trilogiyasını düşündüm.

— «İtkin gəlin» trilogiyasının yəqin ki, yaranma tarixçəsi maraqlı hadisəylə bağlıdır.

— Demək olar ki, mövzu, ideya beynimdə, zehnimdə tam hazır idi. Bircə onu oturub qələmə almaq qalırdı. Bunun üçün qələm əhlinə bir təkan vacib şərtdir. Bu təkanı mən adi bir təsadüf nəticəsində tapdım. O da belə oldu ki, Kabulun Caharrahiye Tur Abbas xan deyilən mərkəzi küçəsindən keçən zaman yolda hərəkətin dayandığını gördüm. Sürücüdən burada nə olduğunu xəbər aldıqda o mənə «ora baxın» — dedi. Sürücü deyən istiqamətə baxanda sanki göydən yerə enmiş bir mələk gördüm. Şəhər həmin qadının gözəlliyi qarşısında sanki lal olmuşdu. Bu an özümdən asılı olmayaraq ucadan «tapdım»

— deyə səsləndim. Mən obrazı beynimdə, zehnimdə yaratmışdım, əyani şəkildə isə məhz həmin o qadında tapdım. Əsərdə də bunu sübut etməyə çalışmışam ki, hansı cəmiyyət olursa-olsun, belə gözəllik sahibi olan qadın heç vaxt xoşbəxt ola bilməz. O, ya gözəlliyinin, ya da xəyanətin qurbanı olmalıdır.

— Əlibala müəllim, əsərə çəkilən teleserial sizi qane edirmi?

— Bu ilk serial kimi tamaşaçılara təqdim edildi. Bu mənim üçün çox xoşdur. Serialın yaradıcı heyətinə öz minnətdarlığımı bildirirəm. Ancaq serialda texniki qüsurlar da mövcuddur və bu texniki qüsurların hiss olunması filmin dəyərini azaldır. Bir də bu romanı on iki seriyaya sığışdırmaq qətiyyən mümkün deyil. Ancaq biz maddi imkan olmadığına görə, ixtisar yolunu tutduq.

— Mümkünsə işlədiyiniz yeni əsər haqqında məlumat verərdiniz.

— Məlum hadisələr başlayandan hamı kimi məni də narahat edir. Bu ümumi problemin mahiyyətini açmaq biz yazıçıların borcudur. «Möcüzə» adlandırılan bu romanın baş qəhrəmanı Leyla adlı qızdır. Bu qızda qəribə Allah vergisi var. O uzaqgörəndir. Mən Leyladan istifadə edərək cəmiyyətdəki gizli prosesləri, insan xarakterindəki mənfi xüsusiyyətləri açıb göstərməyə çalışmışam.

*Xəyalə Bağırova*

## AXTARDIĞINI КАБИЛИН KÜÇƏLƏRİNDƏ TAPIB

Əlibala Hacızadə 1935-ci ildə müəllim ailəsində anadan olub. 1958-ci ildə Azərbaycan Dövlət Universitetini bitirib. 1962-ci ildən Yazıçılar Birliyinin üzvüdür. Filologiya elmləri namizədi, roman və povestlər müəllifidir.

— Əlibala müəllim, yaradıcılıq fəaliyyətinə nə vaxt və hansı əsərlə başlamısınız?

— 4-5-ci sinifdə oxuduğum zaman, yəni müharibədən sonrakı ilk illərə təsadüf edən dövrdə yazdığım yazılar təəssüf ki, itib-batıb. Onu yaxşı xatırlayıram ki, 6-cı sinifdə oxuyanda adını belə unutduğum bir pyes yazmışdım, sinif yoldaşlarımla onun tamaşasını hazırladıq. Mən özüm də həmin əsərdə bir rolda çıxış edirdim. Əsərdəki mətnə görə, mən qaça-qaça səhnəyə gəlməli, ayağım vedrəyə ilişməli və yıxılmalı idim, əlbəttə, yalandan. Ancaq mən həqiqətən yıxıldım və o qıtlıq illərində yeganə yamaqlı şalvarımın dizi də cırıldı. Evə gələndə nənəm buna görə məni o qədər danladı ki…

— Əlibala müəllim, «Təyyarə kölgəsi», «Vəfalım mənim» və «Dünyanı tanı» adlı əsərlərin davamını yazmısınızmı?

— Əvvəla, trilogiya şəklində düşündüyüm «Təyyarə kölgəsi» yarımçıq qalıb, yəni onun ikinci kitabı olan «Vəfalım mənim» çap olunub, amma üçüncü kitab hələ də işıq üzü görməyib. Çünki «Vəfalım mənim» çap olunandan sonra onun «qəhrəmanları» mənim yazı-pozu işimə mane oldular. Və düz 5 il mən nəşriyyatlarda heç nə çap etdirə bilmədim. «Dünyanı tanı» əsərinə gəldikdə isə, bu, dilogiya şəklində düşünülmüş əsərdir və ikinci kitabı hələ çap olunmayıb.

— Yeri gəlmişkən, siz «Vəfalım mənim» əsərində yazırsınız: «Vicdanı olan kəs əyrilik, xəyanətkarlıq, zülmkarlıq adlı bir yola səmt götürməz. Əsl insan odur ki, qəlbi güzgü kimi təmiz, qaynayan bulaq suyu kimi şəffaf olsun». Həyatda belə adamlarla az-az rastlaşırsınız, yoxsa…?

— Həyatda mərd insanlarla yanaşı, vəfasız dostlar da çoxdur. Bunları mən bədbəxt hesab edirəm, yazığım gəlir onlara. Məni ağrıdan odur ki, namərd adamlar başqalarını da bədbəxt və şikəst etməyə çalışırlar.

—Əlibala müəllim yaratdığı obrazlardan hansının taleyini yaşayıb.

— Tam şəkildə öz qəhrəmanlarımın heç birinin taleyini yaşamamışam. Və istəmirəm də… Ancaq mən yazdığım adamların dərdini, sevincini öz dərdimə, öz sevincimə çevirib yazmağı xoşlayıram. Mən onların həyatını xəyalımda yaradıb yaşamasam yazmıram, yaza bilmirəm.

— Hansı xarici ölkələrdə olmusunuz?

— 1966-70-ci illərdə Əfqanıstanda tərcüməçi işləmişəm. Orada gördüyüm hadisələr «Qürbət hekayələri» adlı kitabı yazmağıma səbəb oldu. Bundan başqa, İranda da olmuşam.

— Bu ölkələrdə sizin yaddaşınızda dərin iz qoyan hadisələrlə rastlaşmısınızmı?

— Bilirsiniz, mən Kabildə olarkən çox maraqlı hadisə baş verdi. Təsəvvür edin ki, dörd yol ayrıcında bütün maşınlar dayanıb yolun kənarı ilə məğrur yerişlərlə addımlayan bir qıza tamaşa edirdi. Zərziba içərisində alışıb-yanan bu qız mənim də diqqətimi cəlb etdi və istər-istəməz qışqırdım: «Tapdım». Bəli, mən Əfsanəni tapmışdım.

— Kitablarınıza görə aldığınız qonorar sizi qane edibmi?

— Əlbəttə, bu qonorar başqa yazıçıların aldığı qonorardan fərqli idi. Kitabın tirajı çox olduğu üçün mənə hətta tiraj pulu da verirdilər.

— Sənət adamlarının ailə həyatı oxucuların həmişə diqqət mərkəzindədir.

— Üç övlad — iki qız, bir oğul atasıyam. Üç nəvəm var.

— «Unudulmaq yaman dərddir» deyən yazıçımız bu təhlükədən qorxmur ki?

— Bu, qorxulu təhlükədir. Düşünən, həssas adamlar üçün, eləcə də mənim özüm üçün bu, ölmək kimi bir şeydir. Mən namərd dostlarımdan söyməklə, təhqir etməklə deyil, unutmaqla intiqam alıram. Bu isə intiqamların ən dəhşətlisidir.

*Billurə Cavadlı*
*«Hürriyyət» qəzeti*

## HƏYATI SEVGİSİZ YAŞAYANLARA ACIYIRAM

Əlibala Hacızadə 1935-ci il avqustun 28-də Biləsuvar rayonunda, müəllim ailəsində həyata göz açıb. Orta məktəbi bitirdikdən sonra sənədlərini ADU-nun Şərqşünaslıq fakültəsinə verib. 1958-ci ildə Universiteti bitirib. Hələ orta məktəbdə oxuduğu vaxtlardan yaradıcılıqla məşğul olmağa başlayıb. 1966-cı ildə Əfqanıstana işləməyə gedib. 4 ildən sonra Vətənə qayıdıb. İndiyədək 15-ə qədər kitabı işıq üzü görüb. Evlidir. 3 övladı var.

— Əlibala müəllim, 80-ci illərdə Sizin çapdan çıxmış «İtkin gəlin», «Əfsanəsiz illər», «Ayrılığın sonu yoxmuş» üçcildlik romanınız durğun səmada parlayan şimşəyi xatırladaraq oxucular arasında əks-səda yaratdı. Yadımdadır ki, kitablar əldən-ələ gəzir, oxucular səbirsizliklə əsərin sonunu gözləyirdilər. Bir yazıçı kimi oxucu marağının ən yüksək səviyyəyə çatmasını Siz o vaxtlar nədə görürdünüz?

— Bildiyiniz kimi, mən bir neçə il Əfqanıstanda yaşamışam. Əsər üçün geniş materialı da oradan götürmüşəm. Vaqe olan hadisələrin bəzisi canlı həyatdan, bəzisi yazıçı təxəyyülündən qidalanıb. Mənə elə gəlir ki, zəngin materiala malik olmağım, əfqanların yaşayışlarını, adət-ənənələrini öyrənməyim, insan qəlbinə nüfuz etməyə çalışmağım bu əsərlərimin oxucularının bədii zövqünü təmin edən amillər oldu.

— Həmin üçcildlikdən sonra hansı əsərləriniz çap olundu?

— 1985-ci ildə «Təyyarə kölgəsi»nin davamı olan «Vəfalım mənim» romanım, 1992-cı ildə isə «Dünyanı tanı» adlı kitabım nəşr olundu. Çap xərclərinin sürətlə artdığı indiki şəraitdə kitab nəşr etmək böyük problemlər yaratdığı üçün o vaxtdan heç bir kitabım işıq üzü görməyib.

— Hal-hazırda hansı əsər üzərində işləyirsiniz?

— «Möcüzə» adlı ikihissəli roman üzərində işləyirəm. «Möcüzə»nin birinci hissəsi əməkdaşı olduğum «Şəhriyar» qəzetində hissə-hissə dərc olunub.

— Əlibala müəllim, «Şəhriyar» qəzetində redaktor müavini vəzifəsində çalışırsınız. Bu məsuliyyətli praktiki iş Sizin yaradıcılığınıza mane olmur ki?

— Əksinə, gərgin iş prosesi, yeni adamlarla tanışlıq böyük yaradıcılıq imkanları açaraq təxəyyül dairəsini genişləndirir. Bir də yazıçı ilə jurnalist arasında o qədər də böyük fərq yoxdur.

— İlk dəfə çap olunduğunuz günü xatırlayırsınızmı? O gün keçirdiyiniz hissləri necə, unutmamısınız ki?

— İlk dəfə 1954-cü ildə «Gəncliyin səsi» almanaxında «Mənim ilk məhəbbətim» adlı hekayəm dərc olundu. Təbii ki, o vaxt unudulmaz hisslər, həyəcanlar keçirmişəm. Yazıçının əsərləri də onun üçün övlad timsalındadır. Dünyaya gələn körpə şadlıq gətirdiyi kimi, yeni kitablarım da sevincimə səbəb olur.

— İlk məhəbbətin acısını hamı hiss edir. Sizin həyatınıza ilk romantika nə vaxt daxil oldu?

— Orta məktəb illərində bütün gənclərin başına gələn mənim də başıma gəldi. Mən də o vaxt şagird yoldaşıma vuruldum. İlk məhəbbətinə qovuşmaq mindən birinə qismət olduğu kimi, mənim üçün də uğursuz oldu.

— Siizin yazıçı kimi formalaşmağınızda kimlərin təsiri olub?

— Universitetdə oxuduğum illərdə məni yaradıcılığa həvəsləndirən, istiqamət verən B.Vahabzadənin, Mir Cəlalın, Məmməd Mübariz Əlizadənin həyatımda rolu böyük olub.

Məktəb illərində isə ədəbiyyat müəllimim Konsul Qasımov məndə özümə qarşı inam yaradan, yazmaq istedadım olduğunu söyləyən ilk adam olub. Bu adamlara qarşı həmişə ürəyimdə dərin minnətdarlıq hissləri daşıyıram.

— Oxucu marağının həmişə diqqətdlə saxladığı kitablarınız hansı vaxtlarda nəşr olunub?

— İlk kitabım 1961-ci ildə çapdan çıxan «Heykəl gülür» olub. 1963-cü ildə «Unutmaq olmur» povestlər toplusu, 1964-cü ildə «Məhəbbət olmayan evdə», 1969-cu ildə «Cehiz», 1974-cü ildə «Pəhlivan» və «Təyyarə kölgəsi» kitablarım nəşr olunub. Qalanlarını isə bayaq qeyd etdim.

— Yazılarınızda ən çox məhəbbət, sədaqət, vəfa, qısqanclıq və intiqam mövzuları üstünlük təşkil edir. Özünüz necə, həqiqi və ömürlük məhəbbətə inanırsınızmı?

— Varlığımla inanıram. Dünyanı isə insanların bir-birlərinə qarşı inamı, məhəbbəti xilas edəcək.

Ömrünü sevgisiz keçirən, həyatını məhəbbətsiz yaşayanlara isə sadəcə olaraq yazığım gəlir. İnsan məhəbbətdən doğulur. Ömrünü həyata olan sevgisi ilə başa çatdırır.

— Sizin «Sev məni», «Ölüm bu dünyanın o üzündədir» adlı şerlərinizə bəstələnən mahnılar çox populyardır və sevilən nəğmələrdəndir. Bu ruhda yeni şerlər yazırsınızmı?

— Belə şerlər ilhamın gücü ilə yaranır və yaddaqalan olur. Bəzən yazsam da bu şerlər sayca çox olmur. «Sev məni» Elxan Şirinovun ifasında çox gözəl səslənir və aldığım məktublarda bu mahnını çox bəyəndiklərini yazırlar. Həmin mahnını mən özüm də həvəslə dinləyirəm.

— Sənət aləmində ilk addımlarını atan gənc yazarlara sözünüz.

— Səbirli olsunlar, həyatı dərindən öyrənməyə çalışsınlar, ürəklərində əsl söz olanda yazsınlar.

— Ən böyük arzunuz?

— Torpaqlarımızın geri qaytarılması. Zənnimcə, hər bir Azərbaycan vətəndaşının ən böyük arzusu yurd itkisi ağrısından qurtulmaqdır.

*Nazilə Nərimanqızı*

## UĞUR OLSUN!

Respublikamızda ictimai-siyasi həyatın görünməmiş bir sürətlə dəyişdiyi, aşkarlıq və demokratiya yolunda atılan addımların çoxaldığı bir zamanda mətbuat aləmində daha yeni bir səs eşitmək köhnə bir «əfqan» kimi mənim üçün çox xoşdur. Bu səs — Azərbaycan «əfqanlarının» nəşr etdiyi «Mübarizə» qəzetidir.

«Mübarizə»nin proqramı, qarşısına qoyduğu amal və məqsədlərlə tanışlıq göstərir ki, o bizim qəlbimizi hələ də göynədən və bəlkə də heç vaxt unutmayacağımız «əfqan» dərdlərimizin xalqımız üçün qaranlıq qalan bir çox guşələrinə işıq salacaq, gəncliklərini, şirin ömürlərini hədər yerə qurban vermiş Cavanşirlərimizin, Elçinlərimizin xatirəsini əbədiləşdirəcək, elimizin, obamızın bu ağır günlərində odun, alovun içində qazandıqları təcrübədən ağıl və müdriklik-lə istifadə edəcəkdir.

Mən ümid edirəm ki, «Mübarizə» qəzeti başqa nəşrlərin arasında öz səsi və öz yolu olan bir qəzet kimi oxucuların sevincinə çevriləcəkdir. Və bu işdə qəzetin yaradıcı heyətinə böyük uğurlar diləyirəm.

*Əlibala Hacızadə*

## «MƏNİM DƏ İLK MƏHƏBBƏTİM PUÇA ÇIXDI»

«İtkin gəlin»in müəllifi özünün sevgi taleyini Elməddinlə müqayisə etmir. Hərdən ilk sevgisini xatırlasa da, ailəsindən narazı deyil. Yazıçı hazırda «Şəhriyar» qəzetinin redaktor müavinidir. Çoxdandır ki, yeni kitablarla çıxış etmir.

— Əlibala müəllim, çoxdandır ki, oxuculara yeni kitablar hədiyyə etmirsiniz. Buna səbəb nədir?

— Bilirsiz, oxucularla görüşməməyimin səbəbi çoxdur. Ən əvvəl isə maliyyə çətinliklərinin olmasıdır. Çünki indi mətbəə xərcləri çox bahadır. Ona görə də mənim üç kitabım işıq üzü görə bilmir. Necə deyərlər, kitabın kitabı bağlanıb.

— Siz uzun müddət Əfqanıstanda işləmisiniz və oradan Azərbaycanda çox məşhur olan trilogiyada bəhs edirsiniz. Əfqanıstandan götürdüyünuz həyat süjetini Azərbaycan xalqına da rəva görmək olarmı?

— Ümumiyyətlə, tək Əfqanıstanda yox, bütün Şərq ölkələrində belə bir qayda olub. Bu, əxlaqın iqtisadi vəziyyətə meylindən doğub. Yəni bir kasıb ailə dəridən-qabıqdan çıxıb övladı üçün toy edir və bundan sonra bədbəxt hadisə zamanı gəlinin əri ölürsə, onda kasıb ailənin ikinci uşaq üçün toy etməyə imkanı olmur. Elə bu səbəbdən də əri ölmüş cavan gəlinin, Məşədi İbad demiş, bir kəllə qənd, üç manat pul və bir molla sözüylə kəbinini kəsirdilər ikinci qardaşa. Amma mən belə hallara bizdə də rast gəlmişəm. Elə indi də Azərbaycanın bəzi ucqar kəndlərində bu adəti davam etdirirlər. Mənsə şəxsən bu adətin əleyhinə olmuşam və ona görə də Elməddinlə Əfsanəni qovuşdurmuram. Çünki təsəvvür edə bilmirəm ki, qardaş qardaşın qadını ilə evlənsin. Ona görə də, mən Əfsanəni Yusifdən sonra Elməddinə versələr də, qovuşdurmuram.

— Eşitdiyimə görə, bu roman təsadüf nəticəsində meydana gəlib?

— Bilirsiz, roman heç də təsadüf nəticəsində yazılmayıb. Mən Əfqanıstana gedərkən Yazıçılar İttifaqının üzvü idim, 4 kitabım çıxmışdı və oxucular az-çox məni tanıyırdılar. Mən orada gördüklərimi və eşitdiklərimi heç cür nəzərdən qaçıra bilməzdim. Axı gördüeklərim nə hekayəyə, nə də povestə sığası deyildi. Ona görə də roman yazmağa məcbur oldum. Romanın başlamasına isə təsadüf belə olub.

Bir gün yoldaşlarımla Kabulun mərkəzi ilə gedərkən gördük ki, yol bağlanıb və hamı nəyəsə tamaşa edir. Qeyri-ixtiyari olaraq biz də dayandıq… Gördük ki, ağ geyinmiş, ayaqlarına qədər zinət əşyaları taxmış gözəl bir gəlin keçir. O gəlin bizim maşının yanından keçəndə mən özümdən asılı olmayaraq qışqırdım: «Tapdım». Yoldaşlarım dedilər ki, nəyi? Dedim, «heç». Çünki gəlin o qədər gözəl idi ki, onu oğurlaya və yoldaşını öldürüb ona yiyə dura bilərdilər. Elə onda hiss etdim ki, mən axtardığımı tapmışam. Onun gözəlliyinin yanında mən Əfsanənin gözəlliyini çox sönük canlandırmışam. Elə həmin gözəlin təsadüfi görüşü mənə «İtkin gəlin»in təkanını verdi. Ancaq trilogiya mənim 16 illik zəhmətimin məhsuludur.

— Nə üçün Sizi Əfqanıstana göndərmişdilər?

— Əfqanıstana mən təsadüf nəticəsində getmişəm. Sadəcə olaraq fars dilini bildiyimə görə. O zaman Müdafiə Nazirliyinə fars dilini bilən tərcüməçi lazım olduğu üçün, məni də apardılar. Mən indi də o təsadüfə çox borcluyam. Çünki trilogiyanın səbəbkarı o olmuşdur və burada deyə bilmədiklərimi orada demişəm.

— Həmişə məhəbbətdən yazan bir yazıçının ilk məhəbbəti necə olub və indi xatırlayırmı?

— Mənə elə gəlir ki, tək-tək adamlar ilk məhəbbətə qovuşur. Təəssüf ki, mənim də ilk məhəbbtimin oxu daşa dəydi. Ancaq hərdən bir şirin xatirə kimi gəlib gözlərim qarşısında dayanır.

— Özünüzü xoşbəxt sayırsınızmı?

— Baxmayaraq ki, ilk məhəbbətim puça çıxıb, amma ailəmdən narazı deyiləm. Özüm də ki, babayam. Kaş hamının ailəsi mənimki kimi olaydı. Oxucularımla mehriban olduğum kimi, ailə üzvləri ilə də səmimiyəm.

— Oxuculara yaxın vaxt ərzində hansı kitabları hədiyyə edəcəksiniz?

— Mənim oxucularıma üç kitab borcum var. Əgər sponsor tapsam, bu yaxın vaxtlarda «Möcüzə» romanımı oxucuların ixtiyarına verəcəyəm.

## AVROPA ŞURASI ƏLİFBA SIRASINA FİKİR VERİR

Əlibala Hacızadə: «Azərbaycanın problemlərini isə görmür»

«Heç bir beynəlxalq qurum, o cümlədən Avropa Şurası Azərbaycana hökmranlıq edə bilməz. Azərbaycan rus imperiyasının himayəsi altından çıxıb AŞ kimi təşkilatların təsiri altına düşməməlidir».

Bunu yazıçı Əlibala Hacızadə deyib: «AŞ çox demokratik və ədalətli bir təşkilat hesab olunurdu. Amma Azərbaycan və Ermənistanın bu quruma daxil olması prosesi tamamilə bizə əksini göstərdi. AŞ öz sıralarına təcavüzkar dövlət olan Ermənistanı və təcavüzə məruz qalmış Azərbaycanı eyni prinsiplər, eyni şərtlərlə qəbul etdi. Üstəlik Ermənistanın məsələsini birinci həll edərək, Azərbaycanın məsələsini sonraya saxladı. Buna bəhanə gətirdi ki, guya proses ingilis əlifbası sırası ilə aparılıb. Bir halda ki, AŞ belə xırda məsəlyə — əlifba sırasına fikir verir, niyə Ermənistanın Azərbaycana məxsus bu boyda ərazisini işğal etdiyini, bir milyondan çox qaçqın ordusunun yarandığını görmür? Məsələlərə dərindən fikir verdikdə AŞ qeyri-demokratik, qeyri-obyektiv bir təşkilat təəssüratını yaradır. Bütün bunlara baxmayaraq, Azərbaycan hökuməti öz işini davam etdirməlidir. Müstəqil Azərbaycan dövlətçilik siyasətini yeritməlidir. Beynəlxalq təşkilatların diqtəsi ilə oturub-durmamalıdır. Çünki bu, heç bir məntiqə sığışmır. Azərbaycan dövləti özü müstəqil siyasət yeridir. Eyni zamanda o özü cinayətkarı da, işğalçını da yaxşı tanıyır, öz problemlərini də yaxşı bilir. Ona görə də torpaqlarının azad olunmasını da özü həll etməlidir».

*«Olaylar» qəzeti*

## «MƏNİM BİR PARTİYAM VAR: ƏSGƏRİ DƏ ÖZÜMƏM, LİDERİ DƏ»

*Əlibala Hacızadə*

— Ad günümü yaxşı ovqatla qarşılayıram. İşləyirəm. Bağda bir xəlvət guşəyə çəkilib, həm istirahət edirəm, həm də yaradıcılıqla məşğul oluram. Özümün ad günümə — ən böyük hədiyyəm illərdən bəri üzərində işlədiyim «Möcüzə» romanımdır.

— Hədiyyənin «Möcüzə»sini bəlkə açıqlayasınız.

— Bu romanın mövzusu müasir həyatımızdan götürülüb. Azərbaycanın bu günü ilə bağlıdır. Erməni-Azərbaycan münaqişəsi, Sovet İttifaqının çökməsi, cəmiyyətdə gedən proseslərdən bəhs edir. Bir qələm sahibi kimi, cəmiyyətdəki durumu, inkişaf yolunu aydınlaşdırmaq məqsədini qarşıya məqsəd qoymuşam. Bilirsiz, cəmiyyət indi çox mürəkkəbdir. Yalan, satqınlıq, namərdlik ayaq açıb yeriyir. Rüşvətxor təmizlikdən danışır. Ən böyük yalançı — sədaqətdən, xəyanətkar — məhəbbətdən. Bunları açmaq üçün cəmiyyətin gözə görünməyən qatlarına baş vurmaq lazımdır. Romanda bu qatlara öncəni görməyi bacaran qaçqın qız obrazı ilə müdaxilə edirəm. Biz hara gedirik? Nəyin qurbanıyıq? Nə üçün bu günə düşmüşük? O qız dünəni də görür, sabahı da.

— Əlibala müəllim, siz özünüz necə, möcüzəyə, öncəni görməyə inanırsınız? Yoxsa bu yaradıcılıq təxəyyülüdür?

— İnanıram. Özümün də belə bir hissiyyatım var. İnsanlarla, hadisələrlə rastlaşanda, o saat bilirəm ki, məsələn, mənə «Qurban olum» deyən insanın daxilində nə var. Heç zaman yanılmıram. Yəqin təhlil və hissiyyat nöqteyi-nəzərdən bu xüsusiyyətim var.

Əlibala müəllimə də gündaşlarını biz tanıdası olduq. Bildirdi ki, Elxan Babayevi radiodan tanıyır. Yaxşı musiqişünas hesab edir. Eyni zamanda bu sözləri digər gündaşına da aid etmək olar: «Vaqif Mustafayev bir sənətkar kimi çox istedadlı, enerjili, cavan rejisordur».

Sonda isə Əlibala Hacızadə cəmiyyətdə gedən əksər proseslərə inanmadığını dilə gətirdi:

— Heç vaxt heç bir partiyanın üzvü olmamışam. Mənim bir partiyam var. Ürəyimin, bu torpağın partiyası. Əsgəri də özüməm, lideri də. Mən ancaq o cərgəyə qoşulacam ki, görəcəm düzülüblər, əllərində silah, bellərində patrondaş gedirlər düşmən üstünə. Mənim amalım, əqidəm budur.

## ADINI MƏN QOYMUŞDUM, ORXANIM!

İyirmi beş il bundan qabaq, bəyaz bir yanvar günü, gözlərini ağappaq dona bürünmüş dünyamıza açanda, dayın kimi, atanın-ananın yerə-göyə sığışmayan sevincinə qoşulub sənin adını mən qoymuşdum, Orxanım. O zaman «Təyyarə kölgəsi» romanım təzəcə çap-dan çıxmışdı: sevə-sevə yaratdığım, amma həyatın və pis adamların qəddarlığı nəticəsində ürəyi partlamış qəhrəmanımın — Orxanın adını sənin qulağına pıçıldayıb: «Sənin adını Orxan qoyuram, bacıoğlu. Ürəyin, təmizliyin, xeyirxahlığın ona oxşasın, ancaq taleyin Orxanın taleyinə oxşamasın» — demişdim.

Həqiqətən də sən öz əxlaqın, təbiətin, məsumluğun, tərbiyən və xeyirxahlığınla mənim Orxanıma bənzəmişdin — sadə idin, təvazökar idin, gözəgirən deyildin, zəhmətsevər, böyük-kiçik yeri bilən idin. Ehtiyacın məngənəsində sıxıla-sıxıla, bəzən tay-tuşlarının yanında əyin-başından utana-utana beş il Azərbaycan Neft və Kimya Sənaye Universitetini bitirib Səngəçal Neft və Qazçıxarma İdarəsinin neftçiləri ilə dəniz buruqlarında adi fəhlə kimi işləyəndə, ailən də, qohum-əqrəban da sənə baxıb gizli bir fərəh duyurdu. Tələbə yoldaşların da, fəhlə yoldaşların da səni çox istəyirdi, Orxanım. Çünki sən çox mehriban idin, xoşqılıq idin: sən hamını sevdiyinə görə, hamı da səni sevirdi, Orxan.

Ancaq… sən demə, taleyin romanımdakı Orxanın taleyindən də dəhşətli olacaqmış. O Orxanın ürəyi partlamışdı, sənin isə ürəyin də, bütün vücudun da partladı,Orxanım. O Orxanın bütöv vücudunu tabuta qoyub dəfn eləmişdim, sənin isə… vücudundan, o gözəl boy-buxunundan heç nə tapmadığımıza görə, tabutuna sən ağırlığında torpaq doldurub, bir az da sümük — ət parçası (sənin idimi, əsgər yoldaşlarının idimi — Allah bilir) qoyub torpağa tapşırdım, Orxanım. Sən 181 nömrəli «N» hissəsinin əsgəri kimi, elə dünyaya gəldiyin bəyaz bir qış günündə, qatı duman qoynunda Beyləqanda, şirə zavodunun anbarına zərərsizləşdirilmiş mina maşınını boşaldarkən, əsgər yoldaşlarınla birgə, güclü bir zəlzələ kimi seysmik stansiyalar tərəfindən qeydə alınan bir mina partlayışına düşdün və bir andaca yox oldun, Orxanım. Yanvarın 19-u, 94-cü il… Və elə o an sən Vətən torpağını yağılardan azad etmək xatirinə geydiyin əsgər paltarını dəyişib şəhidlik paltarı geydin: əsgər libasını müharibə qurtaran kimi

soyunmaq, dəyişmək olur — ancaq şəhidlik libasını dəyişmək mümkün deyil: o, sənin heç vaxt köhnəlməyəcək, heç vaxt cırılmayacaq, həmişə təmiz, həmişə qanlı, həmişə şərəfli və əbədi libasın olaraq qalacaq, Orxanım. Sənin adının qabağına yazılan «mühəndis», «fəhlə», «əsgər» sözlərinin sırasına bir ad da əlavə olundu — şəhid!

Mən sənin haqqında bu qəmli yazını qırxın çıxandan sonra yazıram, Orxanım. Neçə dəfə qəsdləndim, ancaq yaza bilmədim, gözlərimi yaş tutdu, qələmim titrədi. Yazıq anan, əziz bacım heç vaxt yuxuma girməzdi: amma sən dünyanı dəyişəndən sonra o dərdli qadın tez-tez yuxularıma girir, Orxan. Bir dəfə yuxuda xəyalına, bir dəfə də aşkarda — yas məclisində özünə dedim:

— Kaş mən öləydim, bacı, sənin bu dağını görməyəydim.

— Elə demə, qardaş, — dedi və ağladı. Səsi ağladı, gözlərinin yaşı qurumuşdu.

Bacım tək səni itirmədi, Orxanım. O, çalınmamış bir toy itirdi, üzünü görmədiyi, tanımadığı bir gəlin, neçə-neçə nəvə itirdi. Ona yalnız heç vaxt köhnəlməyəcək, həmişə göynədəcək dərdin yadigar qaldı, mənə isə sənin gözəl xatirən və bir də bu səkkiz misralıq şer qaldı, Orxanım.

Ömrünün baharı xəzana döndü,
Ömrünün gülləri soldu, Orxanım.
Hamımız qərq olduq göz yaşlarında,
Anan saçlarını yoldu, Orxanım.

Doyunca üzünü görmədik sənin,
İtdin qucağında dumanın, çənin.
Gömüldün qoynuna ana Vətənin —
Məzarın nur ilə doldu, Orxanım.

Allah sənə rəhmət eləsin, Orxanım. Allah övlad dağı görmüş əziz bacıma və sinəsi dağlı bütün analarımıza və bacılarımıza səbr və dözüm versin. Amin!

*«Ədəbiyyat qəzeti»,*
*25 mart, 1994*

## «ƏFQANLAR İNGİLİSLƏRİ YALIN ƏLLƏ QOVMUŞDULAR»

Yazıçı Əlibala Hacızadə Azərbaycanın təslimçi sülhə razılaşacağına inanmır. Müharibəyə gəlincə, «… bu xalq bir himə bənddi» deyir. Onunla Qarabağ problemiylə bağlı söhbətimizə Əfqanıstandan başladıq. Özü belə istədi.

— 1966-70-ci illərdə Əfqanıstanda olmuşam. O zaman bu ölkədə milli azadlıq hərəkatı yenicə başlayırdı. Hərəkatın başında duranlardan biri Nur Məhəmməd Tərəki, başqası sonralar Əfqanıstanın prezidenti olan Bəbrək Karməliydi. Yadımdadı, parlamentin bütün iclasları radio ilə canlı yayılırdı. Bəbrək Karməl Məhəmməd Zahir şahın iştirak elədiyi iclaslarda kəskin tənqidi nitqlər söyləyirdi. O, Məhəmməd Zahir şahla əfqan dövlətini birlikdə yaradan generalın oğludur. Vaxtilə atasının qan töküb qurduğu quruluşu dağıtmaq, sosializmi bərqərar eləmək istəyirdi. Aralarında olan bu ixtilafa görə atası onu oğulluqdan, vərəsəlikdən məhrum eləmişdi. Ona görə də Kabilin ucqar yerlərindən birində kirəkeş qalırdı. Bəbrək şahın hüzurundakı çıxışlarının birində «Məmləkət məhv olub gedir, ehtiyac, yoxsulluq xalqı məhv eləyir. Siz bunu görürsüzsə, niyə islah eləmirsiz, yox, görmürsüzsə, niyə görmürsüz?» demişdi. Sovet tərbiyəsi görmüş adam kimi fikirləşirdim ki, iclasdan çıxan təki onu dama basacaqlar. Sabahısı onu yenidən parlament iclasında, Kabilin küçələrini gəzən görəndə təəccübləndim. Təsəvvürünüzə gətirin ki, belə adam sonralar alkoqolik ömrü yaşadı, Moskvada balıq tutmaqla canını tapşırdı… O vaxt sovet hökuməti Əfqanıstana qoşun yeritməkdə səhv elədi. 10 ilə yaxın döyüşdülər, amma əfqan xalqının iradəsini qıra bilmədilər. Çox döyüşkən xalqdı. İndi qoca bir əfqanın söhbətini xatırlayıram. Böyük bir ağacı göstərib «1919-cu ildə top-tüfəngli, təyyarəli ingilisləri, bellə, külünglə, əliyalın süpürüb atmışıq, səfirlərini də bu ağacdan asmışıq» dedi.

— Azərbaycansa ermənilərə cavab verə bilmir?

— Əfqanlar da, azərbaycanlılar da qeyrətli, torpağını sevən xalqdı. Sadəcə, bizim xalqın başında durub irəli aparan olmadı. Xalq o zaman qalib gəlir ki, başında qətiyyətli, iradəli və vicdanlı komandan durur. Münaqişə başlayanda Azərbaycan ən azı iki səhvə yol

verdi. Birincisi, Ermənistandan qovulmuş 200 min azərbaycanlını Qarabağda yerləşdirmək lazımıydı. İkincisi, xalqı səfərbər eləyən lider gərəyidi.

— Deyirsiz, o zaman xalqı səfərbər eləyən olmadı. Bəs indi necə, gecdi?

— İndi də gec deyil. Bu xalq himə bənddi. Mən küçələrdə camaata baxıram. Hamı öz-özünə danışa-danışa gedir. Ehtiyacdan, yoxsulluqdan danışsalar da, bilirəm ki, köklü problemləri Qarabağdı. Hətta küçədə əl-qolunu ölçə-ölçə keçənə baxanda öz-özümə pıçıldayıram: görəsən, bu camaat dəli olmayıb ki? Xalqı qaldırmaq lazımdı. Bismillahla donuz darıdan çıxan deyil.

— Düz bir aydı Qarabağ yenə gündəmin əsas mövzusudur, bəzi ziyalılarımızsa susur.

— Mənim harda imkanım olub, hansı mətbuat mənə yer ayırıb, öz fikirlərimi çatdırmışam. Mən vəzifədə olanların özlərinə üz tutub demişəm ki, siz necə rahat yatır, çörək yeyirsiz. Mən bir şerimdə «özümü Şuşada dar ağacından asacam» demişəm. Ancaq özünü asmaq kişilik deyil. Kişilik düşməni dar ağacından asmaqdı. O vaxt yetişib. Bu gün biz bircə Partiyanın — torpağımızın ətrafında birləşməliyik.

— Bəzi ziyalılar, yazıçılar Qarabağdan söz düşəndə siyasətə qarışmadıqlarını deyirlər. Amma prezidentə mədhiyyə oxumağı siyasət saymırlar…

— Yazıçı mənəvi-əxlaqi cəhətdən cəmiyyətdən bir qədər yuxarıda durmalı, proseslərin görünən və görünməyən tərəflərini duymalı, təhlil eləyib qiymət verməli, xalqa çatdırmalıdı. Siyasətçilər hamısı yaxşı yazıçıların tələbələridi. Şərqdə mədhiyyəçilər olub. Yaxşı hökmdarlar yaxşı şairi, yazıçını qorumaq, yaşatmaq, ondan məsləhət almaq üçün ətrafına yığıb. Mədhiyyə ədəbiyyatını SSRİ vaxtında Stalin yaratdı. Hanı o yazılan mədhiyyələr, şerlər?

— Necə bilirsiz, Dağlıq Qarabağ məsələsini hansısa dahi siyasətçinin hesabına həll eləmək mümkündürmü və Azərbaycanda bu məsələni həll eləyəsi şəxsiyyət varmı?

— Belə bir adam var: Heydər Əliyev. O bu məsələni həll eləməyə qadirdi. Nə vaxt və necə həll eləyəcək, deyə bilmərəm.

— İndi beynəlxalq aləm Azərbaycana təzyiq göstərir. Bəzi ekspertlər güman eləyir ki, daxili qüvvələrin hesabına təslimçi sazişi

gündəmdən götürmək, Qarabağı qoruyub saxlamaq olar. Hər hansı bir kütləvi aksiya keçirilsə, orada iştirak edərsizmi?

— Birincisi, onu deyim ki, Avropa Şurasına çətinliklə qəbul olunduq. Heç kəsin ağlına gəlmir ki, niyə bu qurum işğalçını da, torpağı işğal olunmuş ölkəni də öz sıralarına eyni gündə, eyni prinsiplərlə qatır. Özü də latın əlifbasını bəhanə gətirib öncə Ermənistanın məsələsini qoyurlar. Necə olur ki, əlifbada hərflərin yerini pozmayan beynəlxalq təşkilat bu boyda işğalçı dövlətlə işğal olunan dövlətin fərqini bilmir?! İkincisi, deyirlər ki, biz sülh danışıqlarına üstünlük veririk və hərb yolu tutsaq, beynəlxalq ictimaiyyət bizə təcavüzkar kimi baxar. Bununla qətiyyən razı deyiləm. Ermənilər indi də, Qars, Naxçıvan məsələsini qaldırırlar. Onlar təcavüzdən qorxmurlarsa, biz niyə öz torpaqlarımızı qaytarmaqdan çəkinməliyik?

— Mitinqlərə münasibətinizi bildirmədiz…

— Fransa səfirliyi qarşısında «soyqırım» oyunuyla bağlı keçirilən mitinqləri və Fransa bayrağının yandırılmasını alqışlayıram. Əyalətlərdə qaz, su, işıq üçün təşkil olunan aksiyaların da tərəfdarıyam. Ona görə ki, neft ölkəsi enerjidən əziyyət çəkməməlidi. Qazımızı satmağa ölkə gəzirik, əyalətlərdə adamlar qazsız-işıqsız qırılırlar.

— İnanırsızmı, beynəlxalq təzyiqlə və ya reallığın diqtəsiylə Azərbaycan prezidenti bizə sərfəli olmayan sazişə imza atar?

— İnanmıram. Onu da bilirəm ki, ermənilər zəli kimi şeydi. Bir millətin iki dövləti ola bilməz. Əgər belə bir hadisə baş versə, onlar yeni-yeni iddialar irəli sürəcəklər. Buna görə də xarici dövlətlər buna yol verməz və Azərbaycanı da məcbur eləməzlər.

—Əgər prezidentə təzyiq edib hər hansı sazişə qol çəkdirsələr?..

— Onda biz heç nəyə baxmadan öz torpağımız, ərazi bütövlüyümüz uğrunda savaşa qalxmalıyıq.

*Sakit Sabiroğlu*

## ULU BABAMIN ƏSLİ ƏRDƏBİLDƏNDİR

Oxucuların sevə-sevə mütaliə etdiyi «Təyyarə kölgəsi», «Vəfalım mənim», «İtkin gəlin», «Əfsanəsiz illər», «Ayrılığın sonu yoxmuş» trilogiyalarının və saysız-hesabsız povest, hekayə kitablarının müəllifi yazıçı Əlibala Hacızadə rubrikamızın qonağıdır.

— Əlibala müəllim, rubrikamız haqqında məlumatınız var, bu gün onun qonağısınız.

— Çox maraqlı mövzuya toxunmusunuz. Hər bir insan öz ulu nəslinin tarixini bilməlidir. Bu, Şərqdə çox geniş yayılmış məsələdir. Şərqdə, aradan min il keçməsinə baxmayaraq, ulu babalarının, hətta hansı İmamın nəslinə gedib çıxdığını bilirlər.

Çox təəssüf ki, bizdə bu məsələyə maraq az olub, öyrənilməyib. Savadsızlığın da təsiri olub.

Bu sual məni çox düşündürür. Ona görə də son vaxtlar öz nəslimlə maraqlanmağa başlamışam.

— Elə isə nəsliniz haqqında məlumat verməyinizi istərdik.

— Atam, babam, babamın atası, ulu babam. Mənim yalnız bunlar haqqında məlumatım var. Ulu babamın adını, yəni atamın babasının atasının adını bu yaxınlarda öyrənmişəm. Onun adı Kərbəlayi Məhəmməd Hüseyn olub. Əslən Ərdəbillidir. O, dindar imiş. Onun doğum ili və vəfatı məlum deyil. Eşitdiyimə görə, Kərbəlaya gedib, orada vəfat edib və dəfn olunub. Kərbəlayi Məhəmmədin iki oğlu olur: Hacı Xanalı və Hacı Ağabala. Hacı Xanalı mənim ulu babam, onun övladı Əlibala isə mənim babam olub.

— Deməli, babanızın adını daşıyırsınız?

— Atam atasının adını mənə, mən də öz oğluma atamın, oğlum da öz oğluna mənim adımı verib. Beləcə nəsil təkrar olunur.

— Babalarınızdan gördüyünüz olubmu?

— Hacı Xanalını görmüşəm. Onun oğlu Məşədi Əlibalanı isə görməmişəm, cavan ölüb.

— Ulu babanızın Ərdəbildən olduğunu qeyd etdiniz. Azərbaycana gəlişi hansı dövrə aiddir?

— XX əsrin əvvəllərində ulu babam Azərbaycana gəlir. Muğanda, Səlyan rayonunda məskən salır.

— Gəlişinin səbəbi nə olur?

— Mənə elə gəlir ki, dolanışıqla əlaqədar gəlir. Amma burada var-dövlət sahibi olur. Hacı Xanalının dəyirmanları, su nasosları var imiş, 7 dəyirmandan ikisi indi də işləyir. Özü də bu sərvətə halal zəhməti sayəsində sahib olur.

— Həmin var-dövlətdən sizə pay çatdımı?

— Ulu babam Hacı Xanalı nə qədər varlı olsa da, müharibə vaxtı acından ölüb, çünki qardaşı Hacı Ağabala bütün varını-yoxunu götürüb İrana ev almaq üçün gedir. Yollar bağlanır, geri qayıda bilmir. O, ötən əsrin 50-ci illərində orada vəfat edir.

Hacı Xanalının ikimərtəbəli evini isə Sovet hökuməti məktəb edir.

— Bəs atanız nə ilə məşğul olub?

— Atam və anam ziyalı olublar. 30-cu illərdə hər ikisi pedaqoji ali təhsil alıb. Atam indi də gözümün qabağındadır. Olduğu kimi xatırlayıram. Müəllim işləyirdi. Sonralar müharibə iştirakçısı olmuşdu. Atam çox alicənab insan idi. Heyf ki, onu tez itirmişəm.

— Sizcə nəsildən-nəsilə keçən əlamətlər şəraitə və zamana uyğun dəyişə bilərmi?

— Nəslimizlə bağlı bir faktı nəzərinizə çatdırım. Mən Universitetdə oxuduğum illərdə soy-kökümüzlə maraqlanarkən belə bir şey kəşf etdim. Bizim ata nəslində olan kişi tayfalarının çoxu cavankən, 35 yaşında vəfat edir. Özü də dördüncü uşağın dünyaya gəlişindən bir il üç ay neçə gün keçdikdən sonra.

Məşədi Əlibalanın dördüncü uşağı dünyaya gələndən sonra 35 yaşında vəfat edir. Görünür, ondan da qabaq belə olub. Atam Qüdrətin də başına belə hadisə gəldi.

— Deməli, nəsildən-nəsilə keçən xüsusiyyətlər dəyişmir?

— Estafeti mən pozdum. Evlənəndən sonra bu faktı yadıma salaraq övladlarımın üçdən artıq olmasını istəmədim və bununla da tilsimi qırdım, gördüyünüz kimi hələ də yaşayıram. (Gülür).

— Antuan de Sent Ekzuperinin belə bir fikri var. O yazır ki, əgər bir çiçəyin tumurcuq kimi doğulub, açılıb, maya tutub, meyvəyə çevrilib, nəhayət, yetişib budaqdan qopmasına qədərki yolunu bütün incəliklərinəcən yazmaq mümkün olsaydı, bir xalqın tarixi qədər qalın kitab yaranardı. Bu dilsiz-ağılsız təbiət haqqında deyilən sözləri insana şamil etsək nələr alındığını təsəvvür edirik. Bu fikri deməkdə məqsədim var. Əsərlərinizdə nəsil tarixinə müraciət etmisinizmi?

— Mənə belə bir hadisə danışıblar. Hacı Xanalı kənddə Hüseynqulu adlı yetim bir oğlanı evinə gətirib elə oğlu kimi qəbul edir, o da həyət-bacaya, mal-heyvana baxır. Görür ki, yaxşı oğlandı, valideynlik edir, hələ onu evləndirir də. Həyətdə ona ev verir. Günlərin bir günü Hüseynqulu baxıb görür ki, Hacı hər gün həyəti gəzir və bir yerə çox diqqətlə baxır. Bir-iki gün müşahidə etdikdən sonra gecənin bir aləmində Hacının baxdığı yeri qazaraq bir küp qızıl tapır. Hacı səhəri gün həmin yerin qazıldığını görür və bu barədə Hüseynquludan soruşur. Hüseynqulu and-aman eləyib xəbəri olmadığını deyir, arvadı isə dözmür, küpün yerini bildirir. Hacı küpün ağzını açır, Hüseynqulunun arvadına ürəyi istəyən qədər qızıl verir. Sonra Hüseynquluya həyəti tərk etməsini əmr edir. Arvadı da ondan ayrılmır və kənddən çıxırlar. Babamın qızıllarına Cəlilabadda ev alır və orada yaşayırlar.

Mən bu epizodu «Dünyanı tanı» əsərimə gətirmişəm. Bundan başqa nəslimizlə bağlı heç bir şey yazmamışam. Amma gələcəkdə bu barədə nə isə yazmaq fikrindəyəm.

— Sizcə insanın formalaşmasında nəslin təsiri varmı?

— Sözsüz, nəslin halallığının, haramlığının, zəhmətkeşliyinin, müftəxorluğunun övladının tərbiyəsinə təsiri böyükdür, çünki görür, götürür, nəticə çıxarır. Sonradan dəyişə də bilər. Ataların bir məsəli var. Deyir: «Oddan kül törəyər». Bəzən ləyaqətlidən fərsiz övlad törəyir və yaxud da əksinə. Mühitin insana təsiri çoxdur.

— Əlibala müəllim, yaşlı nəsillə gənc nəslin bir-birinə münasibəti barədə fikrinizi bilmək istərdik.

— Atalar, oğullar problemini deyirsiniz. Bu həmişə olub və gələcəkdə də olacaqdır. Ailədən başlayan problemlər cəmiyyətdə öz əksini tapır. Müasir dövrdə yeni nəsil başqa cür yaşamağa çalışır. Yaşlı nəslin illərlə alışdığı qayda-qanunlara tabe olmaq istəmir. Bəzən kənara çıxmalar olur. Bu da təbiidir. Çünki cəmiyyət bir yerdə durmur, inkişaf edir. Bu baxımdan həm yaxşı, həm pis sapmalar var. Yaxşı xətti aparan övladlar yaşlı nəslin həmişə sevimlisi olur. Dediyiniz bu məsələyə münasibəti mən öz əsərlərimdə bildirmişəm. Təmiz adamın övladının layiqli olmasının, çirkab içindən çıxmış adamın sonradan təmiz cəmiyyətə qoşulması xətti əsərlərimdə vardır.

*Alimə Aləm*

## SƏNƏTKAR ZAMANLA ÜZ-ÜZƏ

Əlibala Hacızadənin fikrincə, əsl sənət ömrü bu məqamdan başlayır

… Qəribəliklərlə, təzadlarla dolu olan dünyanı necə var elə qələmə almağı bacarır. İnsanın özünün də bəzən baş açmadığı iç dünyasını zərgər dəqiqliyi ilə duyur. Qayğı ilə qayğısızlığın, sevinclə kədərin, ömürlərə meh kimi gələn xoşbəxtliklə, tufan təki gələn bədbəxtliyin girdabında dolaşan taleləri bir ömürdə yaşadır. Taleləri öz ömrünün gözünə qatıb yaşatdığına görə, onların aqibətinin necə olmasına baxmayaraq, «bu yaşamda» (onun əsərlərində) Əlibala Hacızadənin təmkini, sakitliyi, müdrikliyi duyulur. Zülmət qaranlıqda belə, son ucda işığın olacağına inam hissin ölmür. Ancaq bu gün, oxucusuna bu hissləri aşılayan yazıçı ayrı ruhda köklənib:

— Fikirli, pərişan günlərimi yaşayıram. Yeni mühitə uyğunlaşmamış cəmiyyətimizdə duyduğum, hiss elədiyim problemlər məni çox narahat edir. Rahatlıq hissini itirmişəm, mənəvi sıxıntı içindəyəm. Bu sözlərimə görə elə fikirləşməyin ki, bədbinliyə qatılmışam. Əsla! Bu da bir dövrdür, gəlib keçəcək. Və əminəm ki, sınaqlardan üzüağ çıxacağıq.

Son illər yazı-pozu işim çox ləng gedir. Sənət adamının ürəyi, beyni gərək ancaq sənət məsələləri ilə qayğılana. Bu sözü həmişə deyirəm, son on ildə nələri itirmişik? İgid oğlanlarımız şəhid olub, bir də geri dönməyəcəklər. Geri alacağımız torpaqlarımızı itirmişik. Üçüncü itkimizi isə indi hələ hiss eləmirik. Onun yeri sonra görünəcək. O nədir?

Qələm əhlinin yaza biləcəyi, amma yaza bilmədiyi əsərlər. Şəxsən mən bu 10 ildə neçə-neçə roman yaza bilərdim. Dərdlər əl-qolumu qələmdən soyutmasaydı. Ancaq kiçik hekayələri nəzərə almasam, üzərində işlədiyim yeganə əsər «Möcüzə» romanıdır. Onu da hələ tamamlamamışam.. Hadisələrin axarını görsəm də yaza bilmirəm. Yenə deyirəm, bütün bunlara baxmayaraq, mən təbiətən nikbinəm. İnanıram ki, hər şey öz yerini alacaq. İndi heç kimdən ummağa dəyməz. Zaman elə zamandır.

— Əlibala müəllim, zamanın fərqinə varmayaraq həmişə öz oxucusunu tapan əsərlərinizə üz tutaq. Eşitdiyimizə görə, yaxın za-

manlardan etibarən «Təyyarə kölgəsi», «Vəfalım mənim» (üçüncü əsərin adını oxucular birinci dəfə eşidir) «Ölüm yoxdur» trilogiyası «Bizim əsr» qəzetində çap olunacaq. Nə soruşmaq istərdim. Hər bir əsərin bəzən yazıçı təxəyyülünə, bəzənsə onun rahatlığını pozan müşahidələrinə əsaslanan «yaranma tarixi» var. Maraqlıdır ki, yarım əsrə yaxın bir müddət öncə qələmə aldığınız «Təyyarə kölgəsi» əsərinin qəhrəmanlarının həyatını zaman-zaman izləmisiniz. Bu marağın arxasında nə durur? Müşahidə, yoxsa təxəyyül?

— Mən həyatın özünü yazmağı xoşlayıram. Bəri başdan deyim ki, əsərlərimin yaranma tarixi yazıçı təxəyyülünə əsaslanmır, həyatın özündən gəlir. Yalnız müəyyən ümumiləşdirmələr istisna deyil. «Təyyarə kölgəsi» elm sahəsində çalışan ziyalılarımızın həyatındandır. 40 ildən artıqdır ki, bu mühitdəyəm, ab-havasına, yetirmələrinə yaxından bələdəm. «Təyyarə kölgəsi»nin yaranma tarixi belə olub. Tələbə yoldaşım, sonradan isə Akademiyada həmkarım olan bir xanım namizədlik işinin müdafiəsi münasibəti ilə (bu, Elmlər Akademiyasında bir növ adət halını alıb) banket verirdi. Bizi evinə dəvət eləmişdi. Məclisdə qulluğumuzda duran yaraşıqlı bir zabit diqqətimi çəkdi. Yanımdakılardan soruşdum ki, «bu zabit kimdir», dedilər «həyat yoldaşıdır, təyyarəçidir». Bu söz məni tutdu. Təyyarəçi göylərdə, onun qəşəng, cavan xanımı isə yerlərdə. Onların məhəbbəti mənə maraqlı göründü. Və beləliklə, Gülmirə, Əqdəm surətləri yarandı. Onların həyatını olduğu kimi yazmışam desəm düz olmaz. Sadəcə, bu insanların simasında ümumiləşdirmə aparmışam. «Təyyarə kölgəsi»nin ilk əlyazmasını da o xanıma təqdim elədim. Dedim «bax, bu romanın ideyasını siz vermisiniz».

Deməsəydim, ömründə «Təyyarə kölgəsi»ndə özünü tanımayacaqdı. Surətləri çox ümumiləşdirmişdim. Əsər xoşuna gəldi, xeyirduasını verdi. Allah rəhmət eləsin, indi haqq dünyasındadır.

— Gülmirənin kimliyinin oxucularımızda dərin maraq oyadacağını nəzərə ala bilərsiniz?

— Bilərəm. Onsuz da onun kimliyini sirr saxlamıram, adını da deyərəm. Məşhur şərqşünaslarımızdan biri olub, Teyyubə Ələsgərova. Çox gözəl əxlaqlı, mehriban, qayğıkeş xanım idi. Gözəl ailəsi vardı. Bayaq dediyim kimi, göylər adamı ilə yer qızının məhəbbəti məni cəlb elədi.

Sonra Əfqanıstana getdim. «Təyyarə kölgəsi» yarımçıq qaldı, sizə təxminən 64-66-cı illərdən danışıram. «İtkin gəlin» trilogiyasını

yazdım. Bu əsərə bir də düz 20 ildən sonra qayıtdım; üzə «Vəfalım mənim» çıxdı. Çox böyük əks-səda yaratdı. Bədxah adamlar başladılar bu romanda müasirlərini axtarmağa; kimin kimə oxşadığını hallandırmağa. Bir çox adamlara gedib dedilər ki, «Əlibala səndən yazıb. Filan obrazın prototipi sənsən». Beləliklə, nə qədər tanınmış, səlahiyyətli elm adamları mənə düşmən kəsildi. Gəlirdilər ki, «niyə məndən yazmısan». Təbii ki, etiraz edirdim. Sözümə inanmırdılar ki, «bəyəm özümü tanımıram». Adətən axırda belə cavab verirdim ki, «Siz də bu əməllərin sahibisinizsə, mən nə edim». Kəsəsi, bu əsərlərə görə başım çox ağrıyıb. Məni infarkt dərəcəsinə qədər çatdırıblar. «Ölüm yoxdur» yomanında bu hadisələrdən də yazmışam.

— Elə bir əsəriniz yoxdur ki, orada ölüm duyulmaya, «mən də varam» deməyə. Qəribədir ki, adətən qəhrəmanlarınız ölümə tez qovuşur. Və məhz bu zaman ölüm öz hökmünü itirir, sanki yaşam və ölüm arasında sədd pozulur… İndi isə, «Ölüm yoxdur» deyirsiniz…

— «Təyyarə kölgəsi» romanının epiqrafında yazmışam ki, bu əsəri öləndən sonra da xatirələrdə, qəlblərdə yaşamağa qadir olan insanlara ithaf edirəm. Hamımız Allahın yaratdığı bəndələrik, bir gün öləcəyik. Adil Babayevin bir şeri var, çox xoşuma gəlir.

Yenə güllər açacaq,
Yenə insanlar bir-birini sevəcək.
Mən dünyada olmayanda!

Hünər odur ki, öləndən sonra yaşamağı bacarasan. Bunu insanlığa naxış olanlar bacarır. Heç uzağa getmirəm. Əli Kərim nə ömür yaşadı ki? Ancaq o hələ də qəlblərdə yaşayır və yaşayacaq. Çox dirilər gəlib gedəcək, Əli Kərim yaşayacaq. Belə adamlara ölüm yoxdur. Ölümə iki — fiziki və mənəvi baxımdan yanaşmaq lazımdır. Əsl ölüm mənəvi yoxluqla başlayır. Xatirələrdən silinirsənsə, deməli, artıq yoxsan, bir heçliksən. Yaradıcı insanların sənət ömrü də var. Bu da hər yaradıcıya qismət deyil. Bilirsiniz, zaman ən ədalətli hakimdir. Təbliğatçılar, himayədarlar meydandan çəkiləndən sonra Sənətkar Zamanla üz-üzə qalır. Zaman heç kəsə, heç nəyə görə üzgörənlik eləmir. Ya tarixdən silir, ya da yaşadır!

*Sevinc Rəhimova*

## ƏLİBALA HACIZADƏ POÇTUN YARITMAZLIĞI UCBATINDAN «İTKİN GƏLİN»LƏ TANIŞ OLA BİLMƏYİB

«İtkin gəlin»i oxumusuz (bunu ona görə arxayınlıqla söyləyirik ki, o vaxtlar bu əsərə bələd olmayan tapılmazdı, hələ oxumayana ədəbiyyatdan bixəbər adam tək baxırdılar), hətta teleserialını da izləmisiz. Başıbəlalı Əfsanənin melodramatik macəraları çoxlarını bir neçə damla göz yaşından məhrum eləyib, sevdalı cavanların ürək tellərini, qəzəbli tənqidçilərin əsəb tellərini tərpədib. Onun yazdıqları bu trilogiyayla bitmədi. Oxucu reaksiyasından ruhlanıb əvvəl yazdıqlarının ardına vardı: «Dünyanı tanı», «Vəfalım mənim»… Sevgi dastanları, romantik macəralar dolu dünya, silsilə qadın obrazları. Və bu qadınları sevə-sevə, əzizləyə-əzizləyə kitablarına gətirən Əlibala Hacızadə:

— Qadınlıq bir elmdi, ancaq müdrik adamlar bu elmi öyrənə bilər. Allah-təala qadını yaratdı, özü də çaş qaldı ki, bu nə varlıqdı ki, ondan özüm də baş açammıram. Qadını tamam-kamal dərk eləmək mümkünsüzdü.

Bu dəfə dövrünün populyar yazıçısı özü sevgi kürsüsündə oturdu:

— Hər kəsin ürəyinin xəlvət bir hücrəsi var.

— Düzdü, hətta bir-biriylə əhd-peyman eləyib sədaqətlə ömür sürməyə söz verən adamların da qəlbində gizli yer var. Amma bunu etiraf eləmək çox çətindi. Adamın elə bir yaşı olur ki, çar-naçar hisslərinin əlində qalır, nə deyə, nə susa bilir. İndi gəl yaşa görüm, necə yaşayırsan.

— Bəs sizə gərək olan adam…

— Mənimçün müqəddəs adamdı. Heç uzaqda da deyil, evimin içindədi.

— Gərəkliyini gizlətdiyiniz adam?

— Beləsi də var, amma necə söyləyəsən. Hətta onun özünə də demək olmur ki, səni çox istəyirəm. Gizlətmirəm, elə anlarım, elə hallarım olub... Amma ağıl hər şeyə qalib gəlib. Könül ayrı səltənətdi, ağıl bir ayrı. Kiminə ağıl qəddarcasına hakimlik eləyir, kiminin səltənətinin hökmdarı könüldü, sahibini dartıb xoşbəxtliyə, dünyəvi ləzzətlərə aparır.

— Sizin səltənətin hakimi kimdi?

— Məndə həmişə ürək hakimdi. Hərdən oturub ağlıma da, könlümə də baxıram, ürəyim xoşuma gəlir. Ona pərəstiş eləyirəm, çünki ürəyim çox zərifdi; sən bir sözlə məni öldürə də bilərsən, dirildə də.

— Bu zərif ürəyi birinci dəfə kim tovlayıb tora salıb?

— 5-ci sinifdə oxuyurdum. Rus dili müəllimimə vurulmuşdum. Sinfimizin bütün oğlanları mən gündəydi, hamı səbirsizliklə bu gözəl qızın dərsini gözləyirdi.

— Hətta dalaşırdız da.

— Yox, müəllimdi deyən, heç kim qorxusundan açıb-ağarda bilmirdi. Amma görürdüm axı, o sinfə girəndə mən tamamilə dəyişirdim, gözüm qapıda qalırdı, o biri oğlanlar eynilə mənim hisslərimi keçirirdilər. Amma sevgi gərək qarşılıqlı olsun, yoxsa bilirsiz, nə fəsadlar törənər. «İtkin gəlin»də Nəcməddin ağanı xatırlayın. Dağ boyda kişi özündən 40 yaş kiçik bir qadının əsiri olur. Dünya necə eləyir bəs? Qapısının nökəri olan Əbdülün qucağına girir. Yadınızdadısa, Nəcməddin ağa özünü vurur. Onu mən öldürdüm, çünki gərək ayağını yorğanına görə uzadaydı. Ağıllı adam bilməlidi ki, yersiz, vaxtsız-vədəsiz gələn məhəbbətin axırı fəlakətdi. Dünyanı ona görə öldürdüm ki, bu qədər təmiz məhəbbəti ayaqladı, o da öz xəyanətinin cəzasını aldı.

— Bir halda ki, Dünya Nəcməddin ağaya ancaq maddi marağı ucbatından bağlanmışdı, niyə, qıraqdakı sevgisinə görə ittiham olunmalıdı?

— Məni qabaqladız. Bəli, qarşılıqsız, nəyəsə hesablanan sevgi bu yolda tez azır, rüsvaycasına məğlub olur.

— Yaxşı, sizin oxlarınız hamısımı belə hədəfdən yayınıb?

— 45-50 il bundan qabaq şəhərə gələndə gözüm qonşuluqdakı qızı tutdu, nəsə ürəyim ona sarı atlanırdı, fikirləşirdim ki, hələ bu həyətə təzə köçmüşəm (kirayənişin qalırdım), bir müddətdən sonra tanış olaram, ürəyimi açaram. Sentyabrın biri dərsə getdim (birinci kursdaydım), ikinci saatdə həmin qız əlində jurnal sinfə girdi. İndi halımı təsəvvür eləyin.

— Deməli, oxunuz yenə müəllimə tuş gəldi…

— Sevgi deməzdim, onun cücərtiləriydi, dərhal məhv elədim. O müəllim, mən tələbə, özü də yetim. Görkəmimdən də cin hürkür. Mən belə şeyləri deməyə heç utanmıram, üçüncü kursa qədər Bakı

kimi şəhərin qışını tək pencəklə yola vermişəm. Bu məhəbbətimə də qəbir qazdım.

— Deyəsən, sevgi dünyanız qəbir sarıdan korluq çəkməyib…

— Yox, niyə ki? Qarşılıqlı sevgilərim də olub. Məndən kiçik bir xanımı sevmişəm, hərçənd ağlım bu sevdanı rədd eləyirdi, mən təslim olmadım.

— Bir müddət Əfqanıstanda yaşamısız. Əfqan gözəllərindən könlünüzü oxşayan olubmu?

— Biz sovet adamıydıq deyən əxlaqımıza, hərəkətimizə nəzarət eləyirdik. Xoşuma gələn vardı. Ancaq bu münasibət hər ikimiz üçün təhlükəliydi, düzdü, görüşürdük, dərdləşirdik, amma bundan o yana getmədi.

— Neçə yaşınız vardı?

— 32-33.

— Subayıdız?

— Yox…

— Çox vaxt kişinin qıraqda şəxsi həyat yaşamasının səbəbini qadında görürlər.

— Kişini əldə saxlamaq üçün qadın ağıllı, fərasətli olmalıdı. Kişilər eqoistdilər. Qadın var ki, bu despot kişini əyir, eləyir mum, qadın da var ki, elə davranır, kişi başını götürüb qaçır.

Sizə bir əhvalat danışım. Qadın əriylə evə gec gəlməsi üstündə dalaşır, küsür. Kişi də hər dəfə iclasda olduğunu bəhanə eləyir. Günlərin bir günü təsadüfən pəncərədən baxan qadın ərinin həyətə girdiyini, ancaq özgə binanın qapısını açdığını görüb təəccüblənir. Diqqətlə baxıb görür ki, əri üçüncü mərtəbəyə qalxdı. Məəttəl qalır, axı o mənzildə ərinə dəxli olmayan rus qadını yaşayır. Mətbəxin içi görsəndiyindən qadın baxır ki, həmin rus yaxşıca stol açdı, bir yarım litrliyi də gətirib qoydu ortalığa. Deyə-gülə şam eləyən ərinə baxan qadın səhvini anladı. Səhəri onu işə yola salanda xahiş elədi ki, evə tez gəlsin, dolma bişirəcək. Bu xörəyi çox sevən əri vaxtında geri dönür. «Mən bilirdim ki, onun xoşladığı şeylər var, ancaq heç vaxt buna əhəmiyyət vermirdim. İndisə hər şey ürəyimcədi, münasibətimizdəki soyuqluq aradan götürülüb».

— İlıq söz istəyən təkcə kişilər deyil axı?

— «Dünyanı tanı» romanımda belə bir epizod var, qocalmış ər-arvad söhbətləşir. Arvad boynuna alır ki, ərini hələ evlənməmişdən

sevir, indiyə kimi də bu hiss içindədi. Kişi başını bulayır: «Ay zalımın qızı, bunu o vaxt deyərdin də. Bəlkə də heç bu qədər qocalmazdım». Düzdü, hər adamın isti sözə ehtiyacı var. Sən verməsən, gedib kənarda axtaracaq. Bilirsiz, mən inanmıram ki, ömrünün axırına qədər kimsə öz eşqinə sadiq qalsın.

— Romanlarınız romantik macəralarla doludu. Adama elə gəlir ki, bunu yazan müəllifin başı macəralardan əskik deyil.

— Bir gün gecə saat 4-də telefonum zəng çaldı. Bir qadınıydı, dedi ki, «İtkin gəlin»i indicə bitirmişəm. Soruşdum, kimsiz, cavab verdi ki, mən də sizin İtkin gəlininizəm. Ömrünüz boyu məni axtaracaqsız. Əgər bu xanım mənə heç olmazsa, öz telefon nömrəsini söyləsəydi, yəqin mən onunla tanışlığa can atardım, bəlkə də xoşuma gələrdi, münasibətimiz yaranardı. On il bundan qabaq bir qızdan məktub aldım, yazırdı ki, mən taleyi gətirməmiş bir qızam, gündəlik yazmışam. Oktyabrın 11-i saat 11-də sizə zəng eləyəcəm. Əgər dəstəyi özünüz götürsəz, sizinlə görüşəcəm. Mənsə məktubu oktyabrın 13-də aldım. İndi baxın, poçtun yarıtmaz işi üzündən mən o qızla tanış olammadım.

— Bunlar baş tutmayanlardı…

— Mən macərapərəst deyiləm. Kiməsə ürəyimi açmağa tələsmirəm, əvvəl onun o biri üzünü görməyə çalışıram. Bilәndə ki, etibarlı adamdı, onda hisslərimin cilovunu buraxıram.

— Bayaqdan ailədən danışırıq. Öz ailənizdə necə, münasibətlər tarazdımı?

— Hə, mənim xanımım çox gözütox, qabiliyyətli, mənim bir sözümü iki eləməyən qadındı.

— 60 ildən çoxdu ki, bu dünyanın sakinisiniz. Ürəyinizin dərinliyində elə bir sevgi varmı ki, indi də onun işığına gedirsiz?

— Var.

— Ömrünüzün hansı ilində tapmışdınız bu sevdanı?

— 40 yaşım vardı. Sonra köçüb başqa şəhərə getdi… Amma noolsun, ayrılıq hələ sevginin qurtarması deyil.

## HEYDƏR ƏLİYEV «İTKİN GƏLİN»Ə QAYĞI GÖSTƏRİB

Birinci katibin göstərişiylə bu əsər 100 min tirajla çap olunub

Dünyada ən çox nifrət etdiyi şey yalandır. Deyir, ilanla baş-başa yaşayaram, yalanla yox. Amma 50 il ərzində dərya adlandırdığı Bakıda o qədər yalanların, xəyanətlərin şahidi olub ki.

Özünü ədəbiyyat aləminin fəhləsi adlandırır. Tələbəlik illərində müəllimi Bəxtiyar Vahabzadənin qəlbinə salmış olduğu sənət odunun yaşının bu çağında da alovlandığını deyir.

Vergilidir. İşıq, torpaq vasitəsilə qazanıb vergini. Elə o vaxtdan da əlinə qələm götürüb, yazmağa başlayıb.

Deyir, bir gün qələm həmkarlarımdan biri «niyə camaat səni bu qədər çox sevir?» — deyə sual edib. Cavabında «çünki sevgimiz qarşılıqlıdır, mən də onları çox sevirəm» deyib. Sevməyə, sevilməyə möhtac olan həmkarının kimliyini açıqlamadı. Biz də təkid etmədik. Buna ancaq o özü — ötən illərin ən çox çap olunan, bu günsə əlyazmaları maddi imkansızlıqdan arxivdə mürgü vuran Əlibala Hacızadə bilir.

### «QARA KAĞIZ» YALAN OLUB

İkinci cahan savaşından altı il öncə dünyaya gələn Əlibala Hacızadənin ömrünün uşaqlıq çağı daha çox müharibə, davadan sonrakı aclıq, yoxsulluq illəri ilə bağlıdır. Deyir, dava başlayan gün Cəlilabadda qohumlarıgildə imişlər. Səhərisi geri qayıtdıqda atasını evdə tapmayıblar, üstəlik qapıları da bağlı olub. Müharibənin başlandığını da ilk dəfə onda eşidiblər. Xəbəri verən qonşu qadın ailə başçısı Qüdrət müəllimin də könüllü davaya getdiyini deyib.

1943-cü ildə atasının «qara kağız»ını alırlar. «Ehsan verdik. Atamın ölüm xəbəri gələndən bir müddət sonra anam da dünyasını dəyişdi».

Üç körpə uşaq ata nənələri Səriyyə xanımın ümidinə qalır: «Sağ qalanlar bir-bir geri qayıdırdı. Gözümüzü yoldan yığsaq da, içimizdə dəli bir ümid atamın qayıdacağı ayın, günün həsrətindəydik».

1945-ciilin sonları olardı. Qonşu uşaq 10 yaşlı Əlibalaya atasının davadan qayıtdığı xəbərini verərək muştuluq istəyir. Qışın oğlan çağında ayaqyalın, başıaçıq cumur atasının qabağına.

Davadan qayıdandan iki il sonra atası təkrar ailə həyatı qurur. Daha doğrusu, «qocalmışam, üç uşağa baxa bilmirəm» deyən anası və bacısı onu buna təhrik edir: «Qəribə bir hiss keçirirdim. Bilmirdim analığıma nə deyim, ana, yoxsa bacı… Bir həftəlik götür-qoydan sonra qərarımı verdim. Dilimə bacıdan başqa söz gətirə bilmədim». Bir il sonra ailədə 4-cü uşaq dünyaya gəlir. Körpənin adını Əlibala qoyur — Nizami. Bundan bir il iki ay neçə gün sonra isə 35 yaşlı ailə başçısı dünyasını dəyişir.

«MƏN UŞAQ OLMAMIŞAM…»

«Uşaqlığım sıxıntı içərisində, yarı ac, yarı tox keçib. Yenə atamın sağlığında maddi ehtiyacımızı qismən də olsa ödəyə bilirdik. Onun vəfatı ilə ailəmizin də ağır günləri başladı. Atam davadan əvvəl də müəllim işləmişdi, şalvar, pencəyi bol idi. Onun kostyumlarını, anamdan qalma ziynət əşyalarını satmaqla birtəhər dolanırdıq. Bir dəfə nənəm Biləsuvara, həftə bazarına getmişdi. Atamın sonuncu kostyumunu, şalvarını satıb, ərzaq almalıydı. Vaxt ötsə də nənəm gəlib çıxmaq bilmirdi. Bacılarım acından ağlayırdılar. Nə edəcəyimi bilmədiyimdən kolxoz həyətinə getdim. Öyrəndim ki, bir az əvvəl fermanın xəstə danasını kəsib ətini camaata paylayıblar. Anbardarın yanına getdim ki, mənə də ət versin, dedi, qalmayıb. Kor-peşiman geri döndükdə fermanın arxasında iki itin ölmüş bir danaya keşik çəkdiyini gördüm. İtlər dananın qarın-bağırsağını qarın üzərinə dağıtmışdı». Ağlına gələn fikrin təsirindən itləri qovur, cibindən qəməsini çıxardaraq danaya yaxınlaşır: «İtlərin nəfəsi toxunmayan yerdən dananın dərisini kəsib, bir parça ət götürdüm. «Əzizbəyov kanalı» bağımızın başından axırdı. Kəndin yeganə su mənbəyi bu kanal idi. Su götürmək üçün buzda baltayla oyuq açmışdım. Əti yumamış evə aparmaq, bişirmək istəmədiyimdən kanalın qırağında diz çöküb ovuclarımı suya saldım. Buz kimi soyuq su iliklərinə işləsə də, əlini sudan çıxartmaq istəməyib, hər şey elə ani baş verib ki… Ətin əlindən sürüşməsiylə buzun altında qeyb olmasını görüb. Evdə oturub yemək gözləyən, ağlayan bacıları gözləri önünə gəlir. Hönkürtüsünü saxlaya bilmir. Başını qaldıranda həyətlərindən tüstü qalxdığını

görür. Tələsik evə cumur. Nənəsi həftəbazarından qayıtmışdı. Satdıqlarına un almışdı. Nəvələrini başına yığıb sacda fətir bişirirdi.

«Mən uşaq olmamışam» deyir Əlibala Hacızadə və əlavə edir ki, uşaqlığının belə qəmli-kədərli xatirələri o qədərdir ki… «11-12 yaşım olardı. Bir pyes yazmışdım. Nə adı yadımdadır, nə də əlyazması qalıb. Sinifdə uşaqlarla birlikdə bu pyesi səhnələşdirdik. Mənim rolumda belə bir epizod vardı; qaça-qaça gələndə ayağım vedrəyə dəyib, yıxılmalıydım. Epizodun təbii alınması üçün bərkdən üzüqoylu necə yerə yıxıldımsa, şalvarımın dizi cırıldı. Geyinəcək başqa şalvarım da yox idi. Nənəm deyinə-deyinə yamadı».

## «İTKİN GƏLİN»İN NÖVBƏSİ

1958-ci ildə Universitetin şərqşünaslıq fakültəsinə daxil olur. 61-cı ilin 13 sentyabrında isə gələcək həyatını sevib-seçdiyi Xanımla birləşdirir: «Tələbə yoldaşımgilə qonaq getmişdim. Gördüm qəşəng bir qız var. Kim olmasıyla maraqlandım. Dostum dedi ki, yoldaşının bibisi qızıdır». Həmin gündən Əlibala Hacızadə dostugildə lövbər salmalı olur.

Toyunu Mədinə bibisi edir. Bəy isə qəpik-qəpik yığdığı məvacibindən gəlinə qara məxmər parça, nişan üzüyü, özünə alababat bəylik kostyumunu güclə ala bilir. «42 ildir Xanımla bir yastığa baş qoyuruq. Üç övlad, üç nəvəmiz var. Aramızda anlaşma, sevgi, hörmət olmasaydı çətin ki, bu onillikləri geridə qoya bilərdik. Bu vaxta qədər heç evlilik tariximizi keçirməmişik. Qismət olsa 50 illiyimizi — qızıl toyumuzu qeyd edəcəyik».

1966-cı ildə Əfqanıstanda olur. Ömrünün 4 ilini ailəsi ilə birgə bu ölkədə keçirir. Ona yazıçı kimi şöhrət qazandıran «İtkin gəlin», «Əfsanəsiz illər», «Ayrılığın sonu yoxmuş» trilogiyasının bünövrəsini də burada qoyur. «Sovet İttifaqında yaşaya-yaşaya belə bir kitab yazmağım mümkün deyildi. İttifaqda yaza, dilə gətirə bilmədiklərimi Əfqanıstanda «İtkin gəlin»də dedim. İstər əxlaqi, istər sosial-ictimai, istərsə də siyasi baxımdan». Kitabın ilk cildini və ikinci hissənin yarısını Əfqanıstanda yazır. Ömrünün 16 ilini üçlüyün araya-ərsəyə gəlməsinə sərf edir. Amma özünün də etiraf etdiyi kimi, trilogiyaya sərf etdiyi illər ömrünün ən xoşbəxt çağlarındandır.

Üçlük öz tirajına görə o dövrün bütün standartlarını vurub, dağıdır. «İtkin gəlin»in ilkin tirajı 50.000 nüsxə olur. Kitabın çap olunduğu vaxt Heydər Əliyev Mərkəzi Komitənin birinci katibi işləy-

irmiş. Saatlıda pambıqçılarla görüş zamanı birinci katib pambıqyığan qızların arzu-istəkləri ilə maraqlanır. Qızlardan biri deyir ki, «İtkin gəlin»i istəyirik. Rayona cəmisi bir nüsxə gəlib. Oxumaq üçün növbəyə durmuşuq. Mən siyahıda 23-cü adamam. Tezliklə pambıqçı qızların bu istəyinə əməl edilir. Birinci katibin göstərişi ilə işıq üzü görən tirajın sayı yüz minə çatır.

QAZANCA YAŞANAN ÖMÜR

«30 ildən artıqdır ki, qazanca yaşayıram. Atamın, babalarımın yaşamadığı illərin əvəzini də mən yaşayıram».

Deyir, ulu babası 35 yaşında dördüncü övladının dünyaya gəlişindən bir il iki ay sonra dünyasını dəyişib. Eyni tale «İtkin gəlin»in müəllifinin babasından da yan keçməyib. Ailədə 4-cü uşağın doğuşundan 14 ay sonra axirət evinə köçüb. Yazıçının atası Qüdrət müəllim də 35 yaşında, oğlu Nizami 1 yaş 2 aylıq olanda həyatla vidalaşıb: «Universitetdə oxuduğum illər ailəmizin nəsil ağacını tərtib etdim. Nəslin taleyinə yazılmış qəfil, vaxtsız ölüm faktlarını da onda aşkarladım. Sonradan unutdum bu oxşar ölüm hadisələrini. Bir də üçüncü övladımın dünyaya gəlişindən sonra xatırladım. Bu hesabla mənim də növbəm çatmışdı. Dördüncü uşağın doğuşu mənim ölümüm demək idi. Tarixin təkrarlanacağından qorxdum. Və xanımımla belə qərara gəldik ki, daha ailəmizdə artım olmasın».

64 MİN DOLLARLIQ KİTAB

Əsərlərini heç vaxt məqsədsiz yazmayıb. Yazdığı, nəfəs verdiyi hər kitabında nə isə məqsədi olub. «İtkin gəlin»də, «Vəfalım mənim»də, «Təyyarə kölgəsi»ndə də… Elə müəyyən fəsilləri qəzetlərdə çap olunan «Möcüzə» romanında da cəmiyyəti qapıbir qonşu adlandırdığı yalanla-xəyanətin əlindən qurtarmağa çalışır. Bunun mümkünsüz olduğunu bilə-bilə.

Vaxtilə əsərləri ard-arda yüksək tirajla çap olunurdu. Ötən əsrin ən çox çap olunan və qazanan qələm sahiblərindən olub. Müasir yazarlarımızın çoxuna yuxu, fantastik rəqəm kimi görünsə də, tək bir kitabının nəşrindən 64 min dollar qazanc əldə edib. Bu günsə iki hissəli «Möcüzə», «Dünyanı tanı» romanının ikinci cildi, onlarla əlyazması mürgülü bir həsrətlə çap olunacağı günü gözləyir. Elə maddi imkansızlıqdan məşhur «İtkin gəlin» trilogiyası əsasında çəkilən eyni

adlı teleserial da ürəyincə alınmayıb. Teleserialın çəkilişinə sərf olunan 12 milyon manatı güclə toplayıblar. Yenə sağ olsun Lütfi Məmmədbəylinin dostları. Onların yardımı olmasaydı, «İtkin gəlin» də yaranmazdı. Aktyorların çoxu da serialda təmənnasız, pul almadan çəkilib.

ARZUYA BAX…

İllər öncəsi xəyallarında qurduğu xoşbəxtliyə real həyatda qovuşub. Göydə tanrı, yerdə yaxşı insanların sayəsində min bir əzab, çətinliklə də olsa, arzu, istəklərinə çatıb, pulu, evi, maşınları olub. Amma hər şeyə rəğmən narazıdır. Sənət adamlarının sıxıntı, gərginlik içərisində yaşamaları onu narahat edir. Deyir, millətin sözünü deyən ziyalılar yaşamağı bacarmır. Maddi problemlər gənc yazarların yazmaq vərdişini tərgidib. Ömrünü xalqına, millətinə sərf edən insanlara sonda bu məmləkətin torpağında uymaq üçün axirət evi pulla satılır. Yaradıcı adamlara dövlət səviyyəsində qayğı göstərilməsini, təqaüd kəsilməsini arzulayır. Başqa arzuları da var. Tanrı ailə üzvlərindən heç birinin ölüm xəbərini ona eşitdirməsin. Nəvələrinin toyunu görsün. Nəvə toyunda qol götürüb oynamağın baba üçün ayrıca ləzzəti var. Bir də iki ildən sonra haqlayacağı yetmiş yaşına sağlam, gülər üz getsin. Və bu qısa zaman kəsiyi ərzində əlyazmaları işıq üzü görsün…

*Mənsurə Səttarova*

## ƏLİBALA HACIZADƏ: GÜNAH OLMASA DEYƏRDİM Kİ, QADIN PSİXOLOGİYASINDAKI ZİDDİYYƏTLƏR BƏZƏN ONLARI YARADAN ALLAHIN ÖZÜNÜ DƏ HEYRƏT İÇİNDƏ QOYUR…

«Səmavi dünyamız»ın bu sayının qonağı görkəmli yazıçı — «İtkin gəlin», «Əfsanəsiz illər», «Ayrılığın sonu yoxmuş», «Təyyarə kölgəsi», «Dünyanı tanı», «Vəfalım mənim», «Möcüzə» və s. romanların müəllifi Əlibala Hacızadədir.

Ailəlidir. İki qızı, bir oğlu var.

— Dövran dəyişir, rəngarəngləşir. Dünyalar çoxalır, əfsanələr azalır…

— Mən bu fikirlə şərik deyiləm. Düzdür, dövranın dəyişməyi, rəngarəngləşməyi ilə razıyam, ancaq əfsanələrin azalmağı ilə yox. Belə çətin zamanda, əksinə, əfsanələr bir az da çoxalıb, yeni əfsanələr yaranıb — qeyrət, namus, aclıq əfsanələri… Yeni məhəbbət əfsanələri yaranır ki, əsla keçmişdəkilərinə bənzəmir…

— Biz müharibədə ərini və ya nişanlısını itirən, sonra da ömrü boyu tək yaşayıb, tək də dünyasını dəyişən qadınlarımızı qabarıq şəkildə təqdim edir və onların təkliyindən ağız dolusu danışıb, aşılamağa çalışırıq. Bu nə dərəcədə düzgündür? Axı dünyaya gələn hər bir qadının ana olmağa haqqı var…

— Bu problem təzə deyil. Bu, bütün dövrlərdə rast gəldiyimiz ağrılarımızdandı. Uzağa getməyək… 1941-45-ci illər müharibəsində ərini itirmiş, təkliyin, kimsəsizliyin, intizarın əzablarına dözüb, yol gözləyən, yeganə körpəsini böyüdən, saçının birini qara, birini ağ hörən, namusla, qeyrətlə yaşayan qadınlarımız az olmayıb. Mən onların bir çoxunu tanıyıram. Onlar yarımçıq bir ömür yaşasalar da, indi bu ixtiyar çağlarında el-oba, qohum-qardaş yanında heç kəsdən baxışlarını gizlətmir, hamının üzünə şax baxırlar. Məncə, onların ömrünü bütöv və kamil insan ömrü adlandırmaq düzgün olmaz… Bu, onların günahı deyil, zamanın günahıdır. Təəssüf ki, o ağrılı dövrə bənzər bir zamanla yenə qarşılaşmışıq. Qız-gəlinlərimiz ər, sevgili itkisi ilə üzləşirlər. Onlara bütün məhrumiyyətlərə dözməyi, əvəzində isə alnıaçıq, üzü ağ yaşamağı arzulayıram… Mən bu ağrını hələ 35 il öncə «Ağ saçlı qızın hekayəsi» novellamda yazmışam.

— Mühit iradəni sarsıtmır ki?…

— Sarsıdır… Ancaq bu, zəif adamlar üçündür. Həyat son dərəcə amansızdır. Zaman heç kəsə, xüsusilə zəiflərə rəhm etmir. Zəif iradəliləri zaman tank kimi öz tırtılları altına alıb əzir. Mən dözümlü insanları sevirəm. Sınmayan, dərdin qabağında sızlamayan, mərdliyi hər şeydən üstün tutanları bəyənirəm.

Bir şerimdəki misraları xatırladım:

Sızlama, ürəyim, sən dözümlü ol,
Bu dünya həm acı, həm də şirindi.
Bir gözünlə ağla, bir gözünlə gül,
Dünya əzabına dözənlərindi…

— Siz qadın psixologiyasını dərindən bilirsiniz. Sirr deyilsə, aydınlıq gətirin.

— Yazılarımı oxuyan oxucuların çoxu bu sualı verir ki, qadın psixologiyasını belə incəliklərinə qədər haradan bilirəm? Qadınların özündən, həyatın özündən… Mən ünsiyyət sevən adamam. Hamı ilə — həm qadın, həm də kişilərlə dərdləşirəm.

Ağrılarını, əzablarını duyuram, onları dinləyirəm. Sonralar hansısa bir yazımda bunları göstərirəm.

— Qadın haqqında deyilməmiş sözünüz qalıbmı?

— Var! Qadın dünyanın ən zərif, ən gözəl, ən sevimli məxluqudur. Qadını — Allah dünyanı, dünyanın kişi qisminin həyatını, varlığını gözəlləşdirmək, mənalandırmaq üçün xəlq edib. Bütün bu xüsusiyyətləri ilə bərabər, qadın eyni zamanda son dərəcə mürəkkəb, mən deyərdim ki,anlaşılmaz bir xilqətdir. Bu anlaşılmazlığı bəzən ağıllı qadınların özləri də hiss edirlər. Qadınlar çox zaman nə istədiyini və niyə istədiyini anlamaqda aciz olurlar. Bəzən onu sevən, onun üçün ölümə belə getməyi bacaranı kənara atır, zahiri parıltılı, sərvətli adamları tuturlar.

Qeyrəti, sevgini şöhrətə qurban verirlər və haçansa (bəlkə də çox tez) səhv etdiklərini anlayıb peşimançılıq çəkir, ağlayıb sızlayırlar. Mən qadınlar görmüşəm ki, böyük, ülvi, yerə-göyə sığmayan bir məhəbbətlə sevən adamı, ancaq səliqəli, kraxmallı köynək geyməyi xoşlayan, maşınının içini və çölünü təmiz saxlayan, şeri və musiqini duymayan və ömründə bir misra belə şer yazmayan və oxumayan, rüşvətxor, içi boş bir adama dəyişib və sonra peşimançılıq ömrünün

axırına qədər, hətta, qocalanda da onu tərk etməyib; sonrakı peşimançılıq isə fayda vermir. Mənim belə qadınlara yazığım gəlir. Hətta, günah olmasa deyərdim ki, qadın psixologiyasındakı bu ziddiyyətlər bəzən onları yaradan Allahın özünü belə heyrət içində qoyur. Həyatda qadın-kişi münasibətlərində yaranan problemlərin, əzabların əsl səbəbi məhz elə bu ziddiyyətlərdir.

— Qadınınızdan razısınızmı?

— Nədi, bizi dalaşdırmaq istəyirsiniz? Zarafat edirəm. Razıyam. Bir həqiqəti də deməliyəm ki, sənət adamının qadını olmaq çox çətindir. Belə qadınlar bilməlidirlər ki, ərləri təkcə onlara məxsus deyil, o, hamınındır, o, sənətindir, hamını onlara qısqanmaq lazım deyil. Onlar zərif olurlar, öz dünyaları olur. O dünyanı başa düşən və qiymətləndirən qadınlar həm özlərini, həm də əsl sevgisi sənət olan həyat yoldaşlarını xoşbəxt edirlər.

— Əlibala müəllim, zahirən hər şeyiniz var, nəyiniz çatmır?

— Yaxşı sualdır… Təkcə rahatlığım! Heç onu da istəmirəm, çünki rahat ömür dərdsiz, qayğısız, əzabsız bir ömürdü. Belə ömür isə mənə gərək deyil.

— İlk kövrək addımlarını atan qəzetimizə və onun qadın kollektivinə arzunuz, sözünüz…

— Mən sizin «Səmavi dünyamız» qəzetinizin çıxan nömrələrini oxumuşam. Sizin baş redaktorunuz Mailə xanımı yaxşı bir qələm sahibi və gözəl bir insan kimi tanıyıram. «Səmavi dünyamız» kimi maraqlı, insanı yer qayğılarından uzaqlaşdırıb o mavi səmaya aparmağa — insan ürəyinin səyahətinə çıxarmağa qadir bir kövrək ovqatlı qəzet nəşr etdiyi üçün ona və redaksiyanızın bütün əməkdaşlarına öz dərin minnətdarlığımı bildirirəm.

Kişilərə cəsarət edib müxalifət təşkil etməyinizdən çox şeyi öyrənəcəyimə əminəm. Çünki inanıram ki, məhz sizin qəzetinizin səhifələrində bu müxalifətin nəticəsi olaraq qadınların zərif ürəyinin çox gileyini, çox açılmamış sirlərini öyrənə biləcəyəm. İnsanı, qadını dərd danışdırır. Bu söhbətlərdən sizin çox məhrəm hisslərinizi oxuyacağam. Sonra da soruşacaqsınız ki, Əlibala müəllim, siz bu sirləri, incəlikləri haradan bilirsiniz? Mən də cavab verəcəyəm:

Sizin özünüzdən!

*Zəhra Səfəralıqızı*
*Səbahət Cəfərqızı*
*«Səmavi dünyamız» qəzeti*

## «MƏN DƏRK OLUNMAMIŞ BİR KİTABAM»

— Nə ilində doğulmusunuz?

— Qaban ilində.

— Hansı bürc altında?

— Qız bürcündə.

— Etiqadınız?

— Müsəlmanam.

— Hobbiniz?

— Yoxdur.

— Siyasi mövqeyiniz?

— Siyasi mövqeyim Azərbaycanı əsl məhəbbətlə sevənlərin mövqeyidir. Lakin özüm siyasətlə məşğul olmuram.

— Sosial durumunuz?

— Xoşuma gəlmir.

— Şikayətiniz?

— Zəmanədən narazıyam.

— Ədəbiyyatda idealınız?

— Konkret idealım yoxdur. Hər hansı sənətkarın bu və ya digər əsərini sevə bilərəm.

— Gənc yazarlardan kimlərə üstünlük verirsiniz?

— Qulu Ağsəsə və Fazilə Qafarqızına.

— Televiziyada hansı kanalı izləyirsiniz?

— Space kanalını.

— Ən çox qorxduğunuz şey?

— Xəyanət.

— Yazılarınızın ilk oxucusu?

— Özüm və makinaçım.

— Həyata baxışda optimist, yoxsa pessimistsiniz?

— Optimistəm.

— Ən çox kimləri mütaliə edirsiniz?

— Yaxşı şer və yaxşı nəsr əsərlərini.

— Qarabağ səninçün nədir: İtirilmiş torpaq, milli faciə, yoxsa…

— Qarabağ mənim ən yaralı və ağrılı dərdimdir. Bu dərd bizim milli faciəmizdir.

— Sevdiyiniz müğənni?
— Zeynəb Xanlarova və Briliyant Dadaşova.
— Ən çox oxuduğunuz qəzet?
— «Ədəbiyyat qəzeti».
— Qadınlara inanırsınızmı?
— Ancaq məni sevən və sevdiyim qadına inanıram.
— Səcdə qıldığınız?
— Səcdə qıldığım insan var. Adını demirəm.
— Əməyinizə verilən qiymət?
— Oxucularım dövlətimizdən yaxşı qiymət verib.
— Oxucuların sevimlisi Əlibala Hacızadə özü üçün kimdir?
— Mən özümçün hələ tam dərk olunmamış və oxunmamış bir kitabam.

## «KİTABIN KİTABI BAĞLANIB»

Əlibala Hacızadə 50-60-cı illərdə ədəbiyyata gələn yazarlarımızdan biri kimi özünün bir çox hekayə, povest, romanları ilə geniş oxucu kütləsinin rəğbətini qazanıb. Əsərlərinin tirajının çoxluğu, geniş yayılması onun oxucu kütləsi arasında sevilməsinin göstəricisidir. O, real həyatdan yazan yazıçıdır. Hətta sovet dövründə yazdığı əsərlərində belə kolxoz, sovxoz, zavod və s. istehsalat sahələrinə aid bircə əsər belə qələmə almayan yazıçı əsas diqqətini insan probleminə yönəltmişdi. Onun üçün insan kəşf olunmamış, öyrənilib qurtarmamış, hər zaman təzə bir kainat təsiri bağışlayır. O, insanı bütün daxili ziddiyyətləri, daxili çarpışmaları, daxili təzadları ilə qələmə almağı xoşlayır. Onun fikrincə, insan həm çox uca, yaranmışların əşrəfi sayılan əlçatmaz bir varlıqdır və eyni zamanda ən çirkin işlər görməyə meylli olan bir varlıqdır. Yazıçı insanı məhz bu cür təqdim edir, daxili aləmini bu cür açır.

— Əlibala müəllim, əsərlərinizdəki qadın obrazları həyatda tanıdığınız qadınlardır, yoxsa bu, sadəcə olaraq yazıçı fantaziyasıdır?

— Qadın problemi təkcə həyatın deyil, eyni zamanda ədəbiyyatın mühüm problemidir. Qadın doğrudan da mürəkkəb və anlaşılmaz varlıqdır. Bunu təkcə mən yox, böyük şəxsiyyətlər də deyiblər. Nədir bunun anlaşılmazlığı? Belə bir rəvayət var ki, Allah-taala qadını yaratdı, sonra yuxarıdan onun ürəyinə, qəlbinə, rəftarına, hərəkətlərinə baxdı və bir şey başa düşmədi. Çaşıb qaldı. Təəccüb etdi ki, nə üçün bu qadın məxluqu belə anlaşılmaz, ziddiyyətli və mürəkkəbdir. Nədir bunun mürəkkəbliyi? Qadın bəzən onu sevəni, onun üçün canından keçəni görmür, görə bilmir, qiymətləndirə bilmir. Və onu başa düşməyənin, qədrini bilməyənin arxasınca qaçır. Bu anlaşılmazlıq deyil, bəs nədir? Bu söhbətlər, əlbəttə, bütün qadınlara aid deyil, qadın oxucularım qoy məndən inciməsin. Sadəcə onların özləri də çox hallarda bütün bunları etiraf edirlər.

— Qeyd edirsiniz ki, qadın anlaşılmaz, çətin varlıqdır. Axı klassiklərimiz qadınları həm də «incə məxluq», «ana», «müqəddəs varlıq» adlandırıblar…

— Heç nə ideal deyil. Nisbət var. Bunlar hamısı müqayisədə. Doğrudur, qadın zərifdir, gözəldir, yaradandır. Amma bu zərifliyin al-

tında bir anlaşılmazlıq da var ki, bəzən qadın özü də bundan baş aça bilmir.

— Sizin yaratdığınız Dünya obrazı kimi.

— Bəli. Həmin bu fikrin təsiri altında o obraz meydana gəlib. Belə baxanda Dünyanın nəyi əskik idi, hər şeyi var idi. Varı-dövləti, onu dəlicəsinə sevən Nəcməddini də. Mən Dünyanın simasında o cür düşünən, o cür hərəkət etmək istəyən qadınları cəzalandırmışam ki, belə qadınların aqibəti budur.

— Müasir dövrdə qadınlarımız ictimai-siyasi həyatda fəal iştirak edirlər. Milli Məclisdə, parlamentdə, tribunalarda öz sözlərini çəkinmədən deyirlər.

— Əlbəttə, bu cür qadınlarımız da var. Burla xatun, Nigar qeyrətli qadınlarımız da çoxdur. Dediklərim bütün qadınlara aid deyil. Amma bəziləri var ki, daxili görünüşü ilə zahiri görünüşü arasında böyük ziddiyyət, uçurum var. Bax bunu ədəbiyyat qeyd eləməlidir, göstərməlidir. Qadının, ümumiyyətlə, insanın əsl qiyməti onun təmizliyidir. Mən insanları ancaq bu meyarla ölçüb qiymət verirəm. Sədaqətdir, mərdlikdir, vəfadır. Bütün bunlar insanı gözəlləşdirir, ucaldır. Bunun əksi olan hallar isə insanı cılızlaşdırır, uçuruma aparır. Bununla bağlı nə vaxtsa mənim yazdığım bir bənd şer yadıma düşdü:

Vəfasızdan vəfa ummaq əbəsmiş,
Hicranında oda yanmaq əbəsmiş.
Vəfalıdan zəhər al, iç, bal dadar,
Vəfasıza könül vermə, aldadar.

İnsanın ziddiyyətli təbiətini bilmək yazıçının müqəddəs borcudur. Yazıçı o zaman yazıçı olur ki, insanın içində gedən daxili çarpışmaları real həyata uyğun şəkildə, psixoloji cəhətdən əsaslandırılmış və inandırıcı şəkildə oxucusuna çatdıra bilsin. Əgər yazıçı bunu edə bilirsə, o əsl yazıçıdır.

— «Təyyarə kölgəsi» əsərinin iki hissəsi çapdan çıxıb. Siz əsərin qəhrəmanı Gülmirəni hələ də tək saxlamısınız.

— (Gülür) Doğrusu, Gülmirəni çox istəyirəm. Onu heç kimə verə bilmərəm. Özümçün saxlamışam.

— Əlibala müəllim, gəlin son dövr ədəbiyyatına ötəri bir nəzər salaq. Yeni əsərlərdə nədənsə qadın probleminə çox az toxunulur. Bu, nə ilə bağlıdı?

— Müharibə ilə. Biz qələm adamlarının fikirlərinin çaşqınlığı, qayğıları ilə bağlıdır. Yazıçı o zaman mükəmməl bir əsər yaradır ki, onun beyni, ürəyi kənar problemlərdən azad olsun. Təəssüf ki, indi yazıçılarımızın böyük əksəriyyəti ehtiyac içindədir, yeni yazdıqları əsərlərini çap etdirə bilmirlər. Elə mən özüm də. «Möcüzə», «Dünyanı tanı» kitabımın II hissəsini, «Təyyarə kölgəsi» ilə «Vəfalım mənim»in III hissəsini, son 40 il ərzində yazdığım şerləri, tərcümələr toplusunu çap etdirməkdə çətinlik çəkirəm. Bəzən mən zarafata salıb deyirəm ki, indi kitabın kitabı bağlanıb. Ancaq bu o deməк deyil ki, son dövrlərdə kitablar çap olunmur. Çap olunur, ancaq o kitablar ki… Bu da bir boz ədəbiyyat axını əmələ gətirir. Bunların içərisində çox az, nadir halda yaxşı əsərə rast gəlmək olur.

— Deyirlər ki, çətin günün ömrü az olar.

— Mən də buna ümid edirəm. Bütün bunlar belə qalmaz, qala da bilməz. Çünki bizim itirdiklərimizin çoxu göz qabağındadır. Torpaqlarımızın 20%-i gedib, görürük. Şəhidlərimiz var, Allah onlara rəhmət eləsin, görürük və ağlayırıq. Əl arabasında gəzən cavanlarımız var, görürük. Amma bir itkimiz də var ki, hələ onu görmürük. Bunu çox məhdud çərçivə içində adamlar bilir. O, bizim sənətkarlarımızın yazmalı olduğu, ancaq bu vəziyyət üzündən yaza bilmədikləri əsərlərdir ki, bu əsərlər inanıram, haçansa yazılacaq. Hələlik belə əsərlər yazıla bilmir… Doğula bilmir… Stol üstünə gələ bilmir… Mən inanıram ki, əsl yazarlarımız öz sözünü deyə biləcəklər.

— Əlibala müəllim, eşitdiyimizə görə Siz həm də şer yazırsınız…

— Bəli, yazıram. Əsərlərimdəki bütün şerlər özümündür. Onları ayrıca kitab kimi çap etdirmək fikrim var. Sağlıq olsun.

*Təranə*

## «ŞƏHRİYAR» QƏZETİNİN BAŞ REDAKTORU, PROFESSOR HACI VASİM MƏMMƏDƏLİYEV, REDAKTORU, PROFESSOR MƏŞƏDİ ŞAHİN SƏFƏROV CƏNABLARINA

Əziz dostlarım! Həm daimi oxucusu, həm də müəllifi olduğum doğma «Şəhriyar» qəzetinin 100-cü nömrəsinin işıq üzü görməsi münasibətilə icazə verin Sizi və redaksiyanızın bütün yaradıcı heyətini bu fərəhli gündə səmimi qəlbdən təbrik edim, hamınıza işlərinizdə yeni-yeni uğurlar, şəxsi həyatınızda böyük-böyük sevinclər arzulayım.

Böyük və ustad şairimizin adını daşıyan «Şəhriyar» qəzeti nəşr olunduğu bu iki il müddətində qəzetlər arasında öz xüsusi dəsti-xətti, aydın istiqaməti ilə seçilmiş və ətrafına yüksək zövqlü oxucular toplaya bilmişdir. Yaxşı haldır ki, «Şəhriyar» hər cür siyasətdən kənardır, dedi-qodular, şayiələr, ayrı-ayrı şəxslərin, liderlərin, partiyaların ünvanına yönəlmiş materiallar çap etmək, sensasiya axtarmaq yolu ilə ucuz şöhrət axtarmağa çalışmır. Yüksək insani, islami dəyərlər, zərif, poetik hisslər sizin qəzetin işıqlandırdığı əsas məsələlərdir.

Redaksiyalarımız qonşu olduğundan mən qəzetinizin naşirinin — Azərbaycan — İran «İslam Vəhdət Ocağı»nın prezidenti Ağayi Əliəkbər Hüseynxaninin, baş redaktor Hacı Vasimin, redaktor Məşədi Şahinin, eləcə də redaksiyanızın bütün əməkdaşlarının necə böyük məsuliyyət, məhəbbət və qayğı ilə «Şəhriyar»ın üstündə əsməyinin şahidiyəm. Kollektivinizdəki mehribanlıq, işgüzar münasibət məni çox sevindirir.

Yeri gəlmişkən onu da deyim ki, Sizin mənə bəslədiyiniz dostluq və qardaşlıq əlaqələrinin nəticəsində son illərdə yazdığım «Möcüzə» romanım hissə-hissə oxucularımıza çatdırılır ki, buna görə də sizə öz xüsusi minnətdarlığımı bildirirəm.

Gün o gün olsun ki, «Şəhriyar»ımızın 1000-ci nömrəsinin çıxdığı günü bayram edək. İnşallah!

*Əlibala Hacızadə*
*Yazıçı, «Nizami Gəncəvi»*
*jurnalının redaktoru*

## «İTKİN GƏLİN» İRANDA MARAQLA QARŞILANMIŞDIR

Əlibala Hacızadə müasir Azərbaycan ədəbiyyatının orta nəslinə məxsus görkəmli yazıçıdır. Onun hekayə, povest və romanları oxucuların dərin hüsn-rəğbətini qazanmışdır. «İtkin gəlin» silsilə romanı əsasında ekranlaşdırılmış çoxseriyalı televiziya filmi tamaşaçılar tərəfindən son dərəcə rəğbətlə qarşılanmışdır. Bunu Dövlət Televiziya şirkətinə gələn onlarla məktub da təsdiq edir. «İtkin gəlin» televiziya filmi təkcə Azərbaycanda deyil, onunla qonşu olan ölkələrdə də gözəl əks-səda vermişdir. Budur, Azərbaycan milli televiziya şirkətinin ünvanına İran Azərbaycanının yazıçı və şairlərindən bir qrupunun imzası ilə dərin minnətdarlıq məktubu göndərilmişdir. Görkəmli qələm sahiblərindən Məhəmməd Sübhani, Həsən Qubadzadə, Nadir-İlahi, Səməd Bəhluli və ümumiyyətlə 28 nəfər sənət sahibinin imzaladıqları həmin məktubda Azərbaycan respublikasının milli televiziyası ilə verilən 12 seriyalı «İtkin gəlin» filminin İran tamaşaçıları tərəfindən böyük maraqla qarşılandığından səmimi söhbət gedir.

Məktubda deyilir: Biz bu məktubu göndərən İran Azərbaycanının yazıçı və şairləri şair Məhəmməd Sübhaninin başçılığı ilə respublikanın televiziya şirkətinin rəhbərliyinə, Əfsanə və Elməddin obrazlarının ifaçıları Məleykə Əsədova və Elşən Rüstəmov cənablarına, filmin ssenari müəllifi, hörmətli Əlibala Hacızadə və filmin bütün yaradıcı heyətinə təqdirəlayiq işlər üçün ürəkdən təşəkkürümüzü bildirir, onlara uzun ömür, möhkəm cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

Bu münasibətlə «Şəhriyar» qəzetinin və «Nizami Gəncəvi» jurnalının kollektivi də məktubda adları çəkilən sənət sahiblərini ürəkdən təbrik edir və bu arzuya qəlbən qoşulurlar.

*«Şəhriyar» qəzeti*

## «AZADLIQ» QƏZETİ REDAKSİYASINA

Hörmətli Gündüz bəy.

Mən sizin redaktoru olduğunuz «Azadlıq» qəzetinin 14.02.95-ci il tarixli 11-ci nömrəsində Q.Rasim adlı bir müəllifin imzası ilə çap etdiyiniz «İran mollası, yoxsa İran sələmçisi?» adlı yazını oxuyub, etiraf edim ki, çox təəccübləndim. Əvvəla, ona görə ki, burada yazılanların əksəriyyəti yalan və uydurmadır, qanı, canı qərəzdən yoğrulmuşdur. İkincisi, belə bir yazının azadlıq kimi gözəl və müqəddəs bir sözü özünə ünvan götürmüş «Azadlıq» qəzetində dərc olunması məni hədsiz dərəcədə məyus etdi. Çünki mənim fikrimcə, azadlıq həqiqət odundan keçdikdə saflaşır, büllurlaşır: Yalanla qurulan azadlıq «dünyası» yalanla da uçurulub dağıdılır gec-tez. «Azadlıq» gərək həqiqəti özünə şüar etsin. Yalanlardan, yalançılardan və böhtançılardan özünü qorusun. Yoxsa onun düz sözünə də inanan olmaz.

Respublikada tez-tez müşahidə olunan maliyyə fırıldaqlarından çox böyük təşviş hissilə danışan məqalə müəllifi «Nizami Qurban oğlu adlı orta savadlı, peşəsi metro stansiyalarında kitab satmaq olan bir şəxsin» maliyyə cinayətlərini açmaq əvəzinə, dərhal qılıncını götürüb İran dövlətinin ali dini idarəsi sayılan QUM Elm Hövzəsinin Bakıdakı nümayəndəsi Ağayi Əliəkbər Hüseynxaninin üstünə düşür və elə burda da xoruzun quyruğu görünür. Oxucu dərhal anlayır ki, Q.Rasim də, deyəsən, Nizami Qurban oğlunun qurbanlarındandır. Oxuculara aydın olsun deyə, ədalət və insaf naminə söyləməliyəm ki, mən üç ilə yaxın bir müddətdə həqiqətən Qum Elm hövzəsinin nümayəndəsi olan, öz xeyriyyçilik əməlləri ilə şöhrət qazanmış Əliəkbər Hüseynxanini Allah adamı, pak və dindar bir alim (molla yox, hər iranlı molla deyil), imkansızlara, yetim-yesirə, şəhid ailələrinə, məscidlərə təmənnasız kömək göstərən, Azərbaycanda «Şəhriyar» kimi çox sevilən və oxunan bir qəzetin, «Nizami Gəncəvi» jurnalının çap olunması üçün əlindən gələni əsirgəməyən, alimlərimizin, şairlərimizin əsərlərinin işıq üzü görməsi üçün şərait yaradan, bazar iqtisadiyyatının kəsərli və rəhmsiz qılıncının az qala başını kəsdiyi onlarla ziyalımızı — alimi, yazıçını, jurnalisti, qaçqını işlə təmin edib çörək verən xeyirxah bir insan kimi tanımışam. Buna görə ona «çox sağ ol» demək əvəzinə, bu cür böhtanlar çirkabına atmaq, məncə, nə qəzetinizə, nə də Rasimə baş ucalığı gətirməz. Hüseynxaninin çalışdığı

Qum Elm Hövzəsinin xidmət etdiyi amal yalana və fırıldağa qarşı ən kəskin şəkildə mübarizə aparan və insanın mənəviyyatının saflaşması uğrunda zehinləri tərbiyələndirməyə çalışan bir qurumdur.

Nizami Qurban oğlunun bu fırıldağında, Rasimin yazdığına görə, Əliəkbər Hüseynxaninin də iştirakı güman edilir. Qəribədir, Rasim hələ güman eləyir və belə qəzəblə danışır. Görəsən onun əlində bir fakt olsaydı, neylərdi? Mən Rasimin nəzərinə çatdıra bilərəm ki, Nizami bir çoxları kimi, Ağayi Əliəkbər Hüseynxaninin də xeyli pulunu aparmışdır.

Rasim bunu da yazır ki, «Bu orqanlarla əməkdaşlıq edən mənbələrə görə, qəzetin və jurnalın baş redaktoruna Hüseynxani «Hövzeyi-Qum» adından hər ay min dollar qeyri-rəsmi pul verir». — Bu da uydurma və yalandır, çünki respublikamızın görkəmli alimi, təkcə Azərbaycanda deyil, bütün Şərqdə tanınıb sevilən professor Hacı Vasim baş redaktor kimi nəinki ayda min dollar almır, hətta bu işi o, ictimai əsaslarla görür və indiyəcən bir manat da pul almayıb.

Hörmətli Gündüz bəy!

Bunu da deməyi özümə borc bilirəm: Azərbaycanın düşdüyü indiki ağır vəziyyətdə respublika prezidentinin səyləri ilə qonşu dövlətlərlə, o cümlədən də İranla əlaqələrimizin daha da yaxınlaşdırılmağa çalışıldığı məsul anlarda bizim bəzi mətbuat orqanlarında tez-tez belə su bulandıran məqalələrin dərc olunması bir redaktor kimi Sizi düşündürməlidir! Görünür, bu, kimlər üçünsə sərfəlidir.

Yalan və böhtan üzərində qurulmuş sözü keçən məqalə müəllifinin jurnalist, zərərdidə, cavan, qoca və ya kimlərinsə fitvasına uyaraq əlinə qələm alıb, meydana girən bir şəxs olduğunu deyə bilmərəm. Sadəcə bunu deyirəm ki, əgər Rasim cavan jurnalistdirsə, indidən yalan və böhtan yolunu tutmasın. Və siz də öz «Azadlıq»ınızı belə adamlardan qoruyun.

*Hörmətlə:*
*Əlibala Hacızadə*
*«Nizami Gəncəvi» jurnalının redaktoru*

## «DÜNYANI TANI»YAN ƏDİB

Bu günlərdə geniş oxucu kütləsinin dərin məhəbbətini qazanmış yazıçı-şair Əlibala Qüdrət oğlu Hacızadənin 60 yaşı tamam olmuşdur. Ə.Hacızadə 1935-ci il avqustun 28-də Biləsuvar rayonunun Ağalıkənd kəndində anadan olmuş, 1958-ci ildə M.Ə.Rəsulzadə adına BDU-nun şərqşünaslıq fakültəsini bitirmişdir. Tələbəlik illərində «Mənim ilk məhəbbətim» adlı hekayəsi Universitetin qəzetində çap etdirmişdir. 1961-ci ildə «Heykəl gülür», 1963-cü ildə «Məhəbbət olmayan evdə» adlı kitablarını oxuculara təqdim edir.Sənət aləminə yenicə qədəm qoyan gənc yazıçı elmi sahədə də axtarışlar aparır. O, 1964-cü ildə «Fərruxi Yəzdinin poeziyası»na həsr etdiyi dissertasiyasını müdafiə edərək filologiya elmləri namizədi elmi dərəcəsini alır.

Təxminən eyni zamanda yazıb tamamladığı «Unutmaq olmur» adlı üçüncü kitabı çapdan çıxır.

1966-1970-ci illərdə Əfqanıstan Respublikasında tərcüməçi kimi işləyən Ə.Hacızadə Vətənə qayıtdıqdan sonra coşğun bir ilhamla yeni-yeni əsərlər üzərində işləyir və 1974-cü ildə bir-birinin ardınca iki yeni kitabını («Təyyarə kölgəsi» və «Pəhləvan») ədəbiyyatsevərlərin ixtiyarına verir.

Ə.Hacızadə 5 illik fasilədən sonra şah əsəri sayılan «İtkin gəlin» trilogiyasının eyni adlı birinci kitabını çap elətdirir. Əsər uğur qazanır, müəllifinə böyük şöhrət gətirir və bir neçə dəfə təkrar nəşr olunur. 1981 və 1983-cü illərdə həmin trilogiyanın əsasında, yazıçının öz ssenarisi ilə, respublikamızda ilk dəfə «İtkin gəlin» adlı çoxseriyalı (12 seriyadan ibarət) bədii televiziya filmi çəkilmişdir (1993-cü ildə).

1985-ci ildə «Təyyarə kölgəsi» romanının davamı olan «Vəfalım mənim» və 1990-cı ildə «Dünyanı tanı» əsərlərini bizlərə ərməğan etmiş hörmətli sənətkarlarımızın «Möcüzə» adlı digər bir romanı hazırda «Şəhriyar» qəzetinin səhifələrində hissə-hissə çap olunur.

Azərbaycan Respublikası Ali Sovetinin sədri sevimli yazıçımızı təbrik etmiş, ona uzun ömür və yeni-yeni uğurlar arzulamışdır. Biz də bu səmimi təbrikə qoşulur və yubilyara sənət sevincləri diləyirik.

*Mirövsət Hətəmov*

## «MƏN FAYDALI İŞLƏ MƏŞĞULAM»

Görkəmli yazıçı Əlibala Hacızadə 1935-ci ildə Biləsuvar rayonunun Ağəlikənd kəndində müəllim ailəsində anadan olub. Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsini bitirib. 1962-ci ildən Yazıçılar Birliyinin üzvü, 1964-cü ildən filologiya elmləri namizədidir. Üç övlad atasıdır. İki nəvəsi var.

— Əlibala müəllim, hazırda «İtkin gəlin»in nümayişi gedir. Bu filmin çəkilişi bir müəllif kimi sizi qane edirmi?

— «İtkin gəlin»in ekrana gətirilməsi mənim çoxdankı arzum idi. Hətta bir zamanlar məşhur mərhum rejissorumuz Əjdər İbrahimov «İtkin gəlin»dən üç seriyalı televiziya filmi çəkmək fikrinə düşmüşdü. Lakin o zaman maddi imkanların məhdudluğu buna imkan vermədi. Ancaq görkəmli rejissorumuz L.Məmmədbəyli mənim bir neçə əsərimi («Unutmaq olmur» və «Əgər inanmırsansa») ekrana gətirmişdir.

Xalq artisti Lütfi Məmmədbəyli əsəri çəkmək fikrində olduğunu mənə bildirəndə hədsiz dərəcədə sevindim və çoxseriyalı televiziya filmi üçün ssenari yazdım. Lütfi Məmmədbəyli iqtisadiyyatımızın və mədəniyyətimizin böhran keçirdiyi bu son illərdə böyük fədakarlıq göstərərək müxtəlif təşkilatlardan xeyli pul topladı, yaxşı sənətkarlarımızdan ibarət yaradıcı heyət təşkil etdi və böyük zəhmətlərdən sonra nəhayət, on iki seriyalı «İtkin gəlin» televiziya filmini ekrana çıxarmağa nail oldu. Rejissura işindən, aktyorların oyunundan bir müəllif kimi mən çox razıyam. Maddi imkansızlıq üzündən və texniki avadanlıq olmamasından filmdə bir sıra ixtisarlar, texniki qüsurlar tamaşaçılarımız kimi mənim də nəzərimdən qaçmır. Lakin varını verənə çox sağ ol deməkdən başqa söz qalmır.

— Axır vaxtlar qeyri-fəal olmağınızın səbəbi nədir?

— Mən deyərdim ki, bu belə deyil. Son illər xalqımızın başına gətirilən və hamımızın qəlbini ağrıdan problemlərimizdən, dərdlərimizdən bəhs edən «Möcüzə» adlı roman yazmışam. Kitab nəşri maddi imkansızlıq üzündən son dərəcə məhdudlaşdığına görə həmin romanı «Şəhriyar» qəzetində bir ildən artıqdır ki, hissə-hissə çap etdirirəm. Bundan başqa, böyük Türk yazıçısı Rəşad Nuri Güntəkinin «Dodaqdan qəlbə» romanı əsasında altı seriyalı televiziya filminin ssenarisini yazmışam. Oxuculara tanış olan iki kitabım artıq çap olunmuşdur. Hələlik işıq üzü görməyən «Təyyarə kölgəsi» trilogiyasının mo-

tivləri əsasında çoxseriyalı televiziya filminin ssenarisini yazıram. Bunlardan başqa, əlimdə bir sıra işlər var ki, onları deməyə bəlkə də lüzum yoxdur.

*Gülnarə Cahangirli*

## HƏYATİ ROMAN

Bu günlər görkəmli yazıçı Əlibala Hacızadənin «İtkin gəlin» romanı əsasında çəkilən eyniadlı çoxseriyalı televiziya filmi tamaşaçıların çox xoşuna gəlib. Çoxsaylı oxucularımızın xahişini nəzərə alaraq yazıçı ilə müsahibəni dərc edirik.

— Romanın mövzusu sizin öz təxəyyülünüzdür, yoxsa həyatdan götürülmüşdür?

— Yalnız öz təxəyyülümün məhsulu deyil. Romanın ana xəttini təşkil edən ailə məsələsinin tarixi qədimdir, yəni böyük qardaş öləndən sonra kiçik qardaşın onun dul qalmış qadınını alması məsələsi demək olar ki, uzun müddət bütün müsəlman aləmində məlum və qəbul olunmuş bir hal sayılırdı. Bu da mənim diqqətimi çoxdan cəlb etmişdi və bu barədə uzun müddət düşünmüşdüm. İnqilabdan əvvəl Azərbaycanda da belə hallar çox olub. Hətta indinin özündə də ucqar kəndlərdə az da olsa belə hadisələrə təsadüf edilir. Şərqdə isə, o cümlədən Əfqanıstanda da bu ənənə qədim tarixə malikdir və indi də yaşayır. Bu qeyri-əxlaqi məsələ əsasən iqtisadi çətinliklər üzündən (yəni bir qardaş xərc çəkib, pul töküb evlənir. O qardaş hər hansı bir səbəb üzündən öləndən sonra ikinci qardaşın o qədər xərc çəkmək, evlənmək imkanı yoxdur) baş verir və çox zaman ata-ananın təkidi ilə qardaş öz ölən qardaşının qadını ilə evlənir. Bu məsələ mənim bəyənmədiyim, qəbul edə bilmədiyim bir hal olduğu üçün romanda ön plana çəkmişəm. Əlbəttə, əsərdə həyatdan götürülmüş əhvalatlar və obrazlar da vardır. Yəni demək istəyirəm «İtkin gəlin» təxəyyüllə həyat materiallarından yaranmışdır.

— Əfqan həyatına müraciət etməyimizin səbəbi nədir və bu hansı hisslərlə bağlıdır?

— Mən 1966-1970-ci illərdə Əfqanıstanda tərcüməçi işləmişəm. Əfqan həyatı mənimçün yeni idi, maraqlı idi. Mən orda bir silsilə «Qürbət hekayələri» yazdım. Ancaq gördüm ki, müşahidələrim, öyrənib-bildiklərim hekayə çərçivəsinə sığmır. Ona görə də iri həcmli əsərlər yazmaq, əfqan həyatını (onlar bizdən az fərqlənirlər) təsvir etmək, həm də illərdən bəri ürəyimdə yığılıb qalmış, yaza bilmədiyim, deyə bilmədiyim mətləbləri kağıza köçürmək qərarına gəldim. «İtkin gəlin», «Əfsanəsiz illər», «Ayrılığın sonu yoxmuş» romanları üzərində 16 ildən çox işləmişəm.

— Əgər romanı təzədən yazmalı olsaydınız, əsərdə hansı dəyişiklikləri edərdiniz?

— Romanı təzədən yazmaq istəsəydim, yenə belə yazardım. Hələ üstəlik Əfsanə ilə Şahinin və balaca Əfsanənin sonrakı həyatını da təsvir edərdim. Çünki mənə məktub yazan bir çox oxucular məhz bu üç nəfərin sonrakı həyatının necə olacağı ilə maraqlanırlar. Mən isə romanın sonunda, qəbr üstündə işarələrlə oxucularıma bildirmişəm ki, Əfsanə Şahinin böyük məhəbbət cazibəsindən qaçıb qurtara bilməyəcəkdir. Taleyin hökmü ilə özünün və məhəbbətinin başına min müsibətlər gəlmiş Əfsanə, canından çox sevdiyi Elməddinin yadigarı olan balaca Əfsanəni də öz balası kimi böyüdüb saxlayacaqdır.

— Məlumdur ki, roman əsasında eyniadlı çoxseriyalı film çəkilib. Bu film haqqında fikrinizi bilmək istərdik?

— Mən Azərbaycanda ilk dəfə çoxseriyalı film çəkmək kimi məsuliyyətli və çətin bir işin altına girmiş respublikamızın görkəmli xalq artisti, dostum Lütfi Məmmədbəyovun və onun ətrafına toplanmış yaradıcı heyətin böyük fədakarlığını qiymətləndirməyə bilmirəm. Onlara öz müəllif təşəkkürümü bildirirəm. Bir sözlə, texniki qüsurları nəzərə almasaq, əsasən filmdən, aktyorların canlı, yaradıcı işindən razıyam. Lakin yaxşı olardı ki, bu sualla sənətşünaslara və tamaşaçılara müraciət edəsiniz. Yaxşını da, pisi də onlardan eşitmək mənimçün xoşdur.

— Əgər sirr deyilsə, «İtkin gəlin»in müəllifi hazırda hansı işlərlə məşğuldur?

— Burda heç bir sirr yoxdur. Mən neçə illərdir ki, «Möcüzə» adlı roman üzərində işləyirəm. Əsərin birinci hissəsini bitirmişəm. Və bu ilin avqust ayından «Şəhriyar» qəzetinə təqdim etmişəm. Hazırda roman hissə-hissə çap olunur. Bundan başqa, müasir İran yazıçısı Sadiq Çubəkin «Səbr daşı» adlı romanını ana dilinə çevirmişəm. Müasir İran alimi Məmməd Rza Həkiminin «Müsəlmanların elmi» adlı çox qiymətli kitabını tərcümə edirəm. Bu sonuncu əsər də «Şəhriyar» qəzetində hissə-hissə çap olunur. Son vaxtlar məni «Azərbaycan – İran İslam Vəhdət Ocağı»nın nəşr etdiyi «Nizami Gəncəvi» adlı elmi-ədəbi jurnalın redaktoru təyin ediblər. Bu da ədəbiyyat işidir. Deməli ki, mən həmişə olduğu kimi, indi də ədəbiyyat aləmində yaşayıram.

*Maral Əlimirzəyeva*

## «MƏNİ SƏHNƏ YAŞADIR»

— Kamal müəllim, ən əvvəl səhnədə 40 yaşınızı ürəkdən təbrik edir və «görüş otağı»mıza xoş gəlmisiniz deyirik.

— Doğrusu, sizin dəvətinizi gözləmirdim. Çox razıyam sizlərdən məni dəvət etdiyiniz üçün. Təbrikinizi də ürəkdən qəbul edir və bu sevinci sizlərlə bölürəm.

— Çox sağ olun! Kamal müəllim, siz istedadlı rejissorumuz Lütfü Məmmədbəyovun quruluş verdiyi «İtkin gəlin» filmində baş rollardan biri olan Nəcməddin roluna çəkilmisiniz. Yaxın vaxtlarda filmin nümayişi başa çatdı və Kamal Xudaverdiyev Nəcməddini ilə özünün «şedevr rolu»nu yaratdı. Yanılmıram ki?

— Əlibala Hacızadə qələminin vurğunuyam. Hələ kitab şəklində «İtkin gəlin»i oxuyanda qəlbən Nəcməddinə vuruldum və istədim ki, kaş bu kitab yox, bir tamaşa olaydı. Bu arzu ilə yaşayırdım. Bir gün rejissorumuz Lütfü müəllim mənə zəng edib dedi ki, «İtkin gəlin»ə televiziya quruluşunu vermək istəyir, Nəcməddin roluna isə məni çəkmək istəyir. Doğrusu, sevindim, ancaq bu sevinci gizlətdim. Filmin çəkilişi başladı. Həyəcan keçirirdim. Qorxduğum o idi ki, tamaşaçım Nəcməddini mənfi obraz kimi qəbul etməsin. Nəcməddin mənən təmiz, xeyirxah bir insandır. Dünya xanımı o fahişəxanadan götürüb saxlayır. Ancaq Dünya xanım nəfsini boğa bilmir. Nəcməddin Dünyanı dəlicəsinə sevir, ona əyləncə yox, əsl məhəbbət rəmzi kimi baxır, məhəbbətinin də qurbanı olur. Sevinirəm ki, bu rolum tamaşaçılar tərəfindən düzgün başa düşülüb və yüksək qiymətləndirilib. O ki, qaldı sizin ifadə etdiyiniz kimi bu rolun mənim səhnə dünyamda şedevrliyinə, mən sizinlə razılaşa bilərəm. Nəcməddin mənim bu günə kimi oynadığım rolların şahıdır. Ancaq inanıram ki, bu hələlik «şedevr» olacaq. Axı, hələ məni qabaqda çoxlu rollar gözləyir.

— Biz buna inanırıq, Kamal müəllim. Son zamanlar aktyorlarımızın çoxu bizneslə, kommersiya ilə məşğul olurlar. Siz necə, bu fikrə düşməmisiniz ki…

— Mən səhnə üçün doğulmuşam. Ömrümün sonuna kimi də səhnədə qalacağam. Fikirləşəndə ki, 4 ildən sonra təqaüdə çıxacam, az qala dəli oluram. Mənə elə gəlir ki, mən təzəcə dünyaya gəlmi-

şəm. Yaşadığım bu 56 ili bir sirli, möcüzəli nağıla bənzədirəm. Ömür vəfa etsə, daim səhnədə qalacağam. Heç bir şeylə məşğul olmuram. Yeganə yolum sənətdir. Fikrim, xəyalım isə rollarımdadır. Məni səhnə yaşadır, o səhnəsiz yaşaya bilmərəm.

— Kamal müəllim, siz ata rolları yaradan və bu rollara möhür vurmağı bacaran, özününkü edən nadir aktyorlarımızdansınız. Bəs niyə filmlərə çəkilmirsiniz?

— Nə isə, kinorejissorlarımız məndən uzaq gəzirlər. Mən onları da qınamıram. Bəlkə onlara lazım deyiləm, məni hər hansı bir rolda görmürlər. Heç nə deyə bilmərəm. Ancaq filmlərə çəkilmək istərdim.

— Belə bir sual: «Aktyor və siyasət. Siyasətə münasibətiniz, yəni aktyorun siyasətlə məşğul olmasına necə baxırsınız. Bir də az qala yadımdan çıxmışdı. Hansı siyasi partiyanın üzvüsünüz?

— İncəsənət adamının siyasətlə məşğul olmasına pis baxıram. Siyasət bir qrup adama məxsusdur. Bizim sənət isə xalqa. Ona görə də siyasətdən daima uzaq qaçmışam. Onu da deyim ki, heç bir siyasi partiyanın da üzvü deyiləm. Elə bir fikrə də düşməmişəm. Məni xalqımın taleyi, ailəm və sənətim daha çox düşündürür.

— Söhbət ki, ailəyə gəlib çatdı…

— Ailəliyəm. Gec evlənmişəm, böyük oğlum Ağahüseyn Azərbaycan Dövlət Mədəniyyət Universitetinin menecer fakültəsində oxuyur, sonbeşiyim Rövşən isə 7-ci sinif şagirdidir. Həyat yoldaşım isə evdar qadındır. Bir də anam var, bu da mənim ailəm barədə qısaca məlumat.

— Nə üçün Ağahüseyn sizin yolunuzu davam etdirmədi?

— Mən övladlarımı sərbəst böyüdürəm. Hansı sənəti sevirlərsə, onun arxasınca getsinlər. Təki xalqa, ailəyə yararlı bir vətəndaş kimi böyüsünlər. Ona görə də sənəti özləri seçib. Deyəsən, heç Rövşənin də aktyor olmaq həvəsi yoxdur.

— Bəs asudə vaxtınızı necə qurursunuz?

— Övladlarım gənc olduğundan ailəmin bütün qayğısı öz çiynimə düşür. Asudə vaxtımda televizora baxıram. Arabir dəniz kənarına çıxıram. Beləcə ömrü yavaş-yavaş vururuq başa.

— Kamal müəllim, bəs hobbiniz nədir?

— Hobbim təklikdir, özünəqapanmağı xoşlayıram. Belə demək mümkünsə, sakitliyi sevirəm.

Kamal müəllimlə söhbət edirəm. Artıq gözünə eynək vurur, saçlarına da qarlar ələnib. Onsuz da uca dağların başı daima qarlı olur. Kamal müəllim, siz də teatr dünyasında bir dağsınız — qarlı bir dağ. Söhbətimiz zamanı problemlərdən danışmadı. Bilirəm ki, Kamal müəllim 1975-ci ildən ev növbəsindədir, hələ də mənzil ala bilməyib. Anasının bir otaqlı evində yaşayır. Əlbəttə, bunun özü bir dəhşətdir. Ömrünün 40 ilini xalqa xidmətdə keçirən, ona mədəni qulluq edən respublikanın xalq artisti niyə mənzilsiz qalsın. Axı artıq övladları böyüyüb. Ağahüseynin ailə qurmağının vaxtı çatıb.

— Kamal müəllim, sevimli prezidentimiz Heydər Əliyev hələ 1975-ci ildə sizin teatrın səhnəsində «Şəhərin yay günləri» tamaşasına baxanda sizin rolu bəyənib və sizin kollektivə 5 mənzil ayırıb. O mənzil alası olanlar siyahısında sizin də adınız olub. Bəs niyə bu günə kimi evsiz qalmısınız?

— İnan ki, gec ailə həyatı qurmağıma da səbəb elə bu ev olub. Siz tamamilə düz deyirsiniz. Bu günə kimi evsizəm. 1975-ci ildən də ev növbəsindəyəm. Ümidimi itirməmişəm. Yəqin ki, haqq nahaqqa bir gün qalib gələcək.

— İnşallah, Kamal müəllim, hal-hazırda hansı tamaşalar üzərində işləyirsiniz? Nə isə teatrınızın da təmiri qurtarmaq bilmir?..

— Hal-hazırda istedadlı rejissorumuz Bəhram Osmanovla yaradıcılıq işi aparıram. Onun hazırladığı «Qaracalar altında ehtiraslar» festival tamaşasında ata roluna dəvət olunmuşam. Bir də Şekspirin «Kral Lir»ində Kral rolunda. «Kral Lir» tamaşasına teatr kollektivinin baxışı olub. Amma tamaşaçılarımız bunu görməyib. Allah qoysa yəqin ki, teatrın təmiri başa çatar və biz də öz ata ocağımızda tamaşaçılarımızı sevindirərik. Ümidlə yaşayırıq.

— Ürəyinizdə gəzdirib səhnədə oynamadığınız rol varmı və özünüzü xoşbəxt sənətkar sayırsınızmı?

— Hər yaşın bir hökmü — dövrü var. Arzuladığım bütün rolları oynamışam. Heç bir rolda da gözüm yoxdur. Tam yaradıcılıq eşqi, ilhamı ilə də hər gün teatra gəlirəm. Bəli, həm də bir sənətkar kimi, bir insan kimi də xoşbəxtəm.

— Daima ilham mənbəyiniz çağlasın, Kamal müəllim. Sizə yaradıcılıq sevincləri arzu edirəm. Təzə mənzilinizdə görüşənədək. Biz öz arzularımızı sizə dedik. Sizin bizlərə və oxucularımıza deyiləsi sözləriniz varsa, buyurun.

— Sizlərə ailə səadəti, xoşbəxtlik arzu edirəm, qələbə xəbərini birinci sizin qəzetin səhifələrindən oxuyaq. Oxucularınıza isə mənalı ömür arzu edirəm. Daima gözləriniz gülsün, könlünüz sevinsin.

*Alim Nəbioğlu*

*«İki sahil», 25 noyabr 1994*

## ƏFQANISTANI İNDİYƏDƏK TƏKCƏ AZƏRBAYCAN MƏĞLUB EDƏ BİLİB

Keçmiş «əfqanlar» «Vətəndaş həmrəyliyi»nin dəyirmi masasında

«Dəyirmi masa»nın ilk mövzusu üzərində xeyli düşünəsi olduq. Tamaşaçısı perik düşmüş teatrdanmı başlayaq, oxucusuna kitab aldıra bilməyən yazıçılardanmı, rəssamlığın problemlərinimi «kətana» köçürək, yoxsa İçərişəhərin əprimiş daş abidələrinimi? Bəlkə kinostudiyanın boş çəkiliş otaqlarını işıqlandıraq? Bütün bunlar bir qədər sonra. Mütəmadi olaraq oxucularımızı «Dəyirmi masa»nın çeşidli mövzuları ətrafında toplanmış mütəxəssislərlə görüşdürəcək, müxtəlif cərəyan və qütbləri təmsil edən personaların qənaətlərini ixtiyarınıza verəcəyik. İndi isə bugünkü qonaqları təqdim edirik: Yazıçı Əlibala Hacızadə, şair Zakir Sadatlı və Respublika Əfqanıstan Müharibəsi Veteranlar Komitəsinin sədri Məmməd İsgəndərov. Yəqin sonuncunun «titulundan» söhbətin nədən getdiyini duydunuz. Elədir, bu adamların hər üçü vaxtı ilə Əfqanıstanda işləyib, yaxud döyüşüblər. Beynəlxalq terrorizm məkanı kimi bütün dünyanı lərzəyə salan Əfqanıstan, vaxtı ilə super dövlətlərin qoşunlarını geri oturtduğundan ABŞ onunla təkbaşına döyüşmək istəmir. Görəsən, əfqan mücahidlər doğrudanmı belə əfsanəvi gücə malikdirlər? Əfqanıstanda xeyli soydaşımızın yaşadığından necə, xəbəriniz varmı? Sizi bu ölkə ilə bağlı daha nələr maraqlandırır? Elə isə bu yazını axıra qədər oxumağa çalışın. Əvvəlcə qoy məşhur yazıçı Əlibala Hacızadə Əfqanıstana gedib çıxmağının tarixçəsini danışsın.

### Ə.HACIZADƏ ƏFSANƏNİ NECƏ TAPDI?

**Əlibala Hacızadə**: Əfqanıstana getməyim, görünür, alın yazım imiş. Orta məktəbi Biləsuvarda bitirib nənəmin arzusu ilə Bakıya həkim olmaq üçün gəlmişdim. Amma uşaq vaxtı evimizdə atamın yazdığı ərəb qrafikalı yazılarını görəndən qəlbimdə bu əlifbaya bir maraq oyanmışdı. Ona görə də nənəmin sözündən çıxıb sənədlərimi Tibb Universitetinə yox, Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsinə verdim və fars şöbəsinə daxil oldum. 1958-ci ildə Universiteti bitirən kimi təyinatımı Akademiyaya verdilər. (O vaxtdan bu

günə Şərqşünaslıq İnstitutunda işləyirəm). 1964-cü ildə dissertasiyamı müdafiə etdim. 1966-cı ildə fars dilini bilənləri tərcüməçi kimi xaricə işləməyə göndərirdilər. O siyahıya mən də düşdüm. Yadımdadır, mən Universitetə qəbul olunandan nənəm ağlayırdı ki, İrana göndərəcəklər, biz səni görməyəcəyik. Nənəmin dediyi oldu, mən Əfqanıstana gedəsi oldum və 4 il orada qaldım. Amma gedəndə artıq Yazıçılar Birliyinin üzvü idim, 4 kitabım işıq üzü görmüşdü. İstər-istəməz bu təzə mühitdə, tamam başqa bir ölkədə diqqətimi çəkən mövzuları qələmə aldım. Bir müddət «Qürbət hekayələri» silsiləsini yazdım. Amma bu hekayələr ürəyimi soyutmurdu. İri bir əsərin dünyaya gəlişini duyurdum. Əfqan qadınının, Şərq qadınının taleyini qələmə almaq ürəyimdən keçirdi. Şərqdə heç sevmədiyim bir adətlə Əfqanıstanda təkrar rastlaşdım. Ailənin dul qalmış gəlinini o biri qardaşa ərə verirlər. Kabulun küçələrində düşüncələr içində gedərkən, dördyolda nəqliyyatın dayandığını gördüm. Atlı da dayanmışdı, piyada da. Sürücüdən soruşdum ki, nə olub? Dedi, bir ora bax. Gördüm, ağappaq libas geymiş, zəngin ailənin qızı olduğu sırğalarından, sinəbəndindən, qolbağından, jiletinin qızıl düymələrindən, ayağının xalxalından bilinən, son dərəcə gözəl bir qız gəlir. Şahanə yerişi ilə, qızılın səsi, cingiltisi ilə... Özümdən asılı olmadan qışqırdım — «tapdım, bu, Əfsanədir!» Və görən kimi də duydum ki, bu qadın ömründə xoşbəxt ola bilməz. Qız vaxtı üstündə dava düşəcək, ərə getsə, ərinin başı kəsiləcək. Beləcə, orda tapdığım talesiz obrazlarım mənə o qədər doğmalaşdı ki, son nöqtəni hətta üstündən 16 il keçəndən sonra da qoymağa əlim gəlmirdi…

— Əgər bu ölkədə tapdığınız obrazları bu qədər sevmisinizsə, onda ölkədən ayrılmanız yəqin çətin olub…

— Dörd il az müddət deyil. Amma fikrim elə Vətəndə idi. Sən demə, üstündə gəzdiyimiz bu torpağın qüdrətini anlamaq üçün gərək qürbət görəsən. Orda bizə yaxşı maaş versələr də, qala bilmirdim. Bir dəfə Fərəh şəhərində — İrana yaxın yerdə ürəyim necə sıxıldısa, bir şer yazdım:

Ömrümün gülləri bükdü boynunu,
Əsdi, yaman əsdi yeli qürbətin.
Başıma dağlar tək qar ələndi, qar,
Gəzdi saçlarımda əli qürbətin.

Həsrətdən quzutək mələyir ürək,
Çarə yox, hər dərdə dözəsən gərək.
Yağ-bal yedirtsə də ögey ana tək,
Zəhər tuluğudur dili qürbətin.

Vətənsiz dünyada, Allah, neylərdim,
Vətənə çatsaydım, olmazdı dərdim.
Ana qucağında rahat ölərdim,
Axmazdı gözümdən seli qürbətin.

Elin öz qəmidir mənim öz qəmim,
Eldən ayrı düşsəm, el olar qənim.
Qəbrimi qürbətdə qazmayın mənim,
Üstümdə bitməsin gülü qürbətin.

Bu pıçıltılar şairinmi, qürbətinmi, yoxsa Vətəninmi səsi idi? «Qürbətin heç gülünü də istəmirəm». Bu sözlərə kövrəldik. Çünki Əfqanıstan bizim üçün həm də adı kədərlə anılan bir ölkədir. Bu qürbət elə, qərib ölkəyə yüzlərlə soydaşlarımızın məzarı qarışıb. Bu torpağa yüzlərlə azərbaycanlı ana-bacının, qız-gəlinin gözləri dikilib. Yüzlərlə azərbaycanlı oğullarının bu ölkədə arzuları da dəfn olunub. O arzuların üstündən isə qürbətin gülü də bitib, tikanı da…

ƏFQANISTANDA DÖYÜŞƏN 10 MİN AZƏRBAYCANLIDAN BİR NƏFƏR DƏ FƏRARİ OLMAYIB

**Məmməd İsgəndərov**: — Mən Universitetin hüquq fakültəsini rus dilində bitirmişəm. Hərbi Komissarlıqda bizi hərbi xidmətə çağıranda komissar adımı sərhəd qoşunlarına yazdı. Hissələrə ayrılanda ali təhsilli olduğumu bilib dedilər ki, sən sıravi əsgər deyilsən. Hökumət 6 il səni oxudub, indi də sən ona xidmət etməlisən.

— Neçənci il idi?

— 1982-ci il.

— Qoşunların tərkibində sərhədi keçdiniz və tanımadığınız bir ölkə ilə qarşılaşdınız. Əfqanıstan haqda nə eşitmişdiniz?

— Biz SSRİ adlı ölkənin vətəndaşı kimi tərbiyə olunurduq. Bu, adi fakt deyil və xahiş edirəm, bu məsələni unutmayaq. Biz hərbi and

içdik və tapşırıq aldıq ki, Əfqanıstanda döyüşəcəyik. Sovet qoşunu nizami ordu idi, əfqanlarsa partizan dəstələri ilə döyüşürdülər.

— O zaman Əfqanıstanda zamanın əqrəbləri neçənci ili göstərirdi?

**Zakir Sadatlı**: — Müharibə 1359-cu ildə başlayıb, XIV yüzillikdə. Bizim təqvimlə 1979-cu ildə, müharibənin lap ilk günündə hərbi xidmətə çağırıldım və Əfqanıstana göndərildim. General da olsan, Vətənin əsgəri kimi əmrə tabesən. İndi də əsgərik, Vətən, dövlət nə əmr etsə, quluyuq. Bu demokratiya, azadlıq rəngləri bir az qarışdırıb. Bir kərə başa düşmək lazımdır: demokratiyanın orduya nə dəxli? Əmr müzakirə olunmur, əmr icra olunur. Mən şəxsən 36 hərbi əməliyyatda iştirak etmişəm. Məşhur Lurka əməliyyatının iştirakçısıyam. Bu ölkədə döyüşən 10 mindən yuxarı azərbaycanlılardan bir nəfər də olsun, fərari olmayıb.

M.İ. — Sovet qoşunlarının Əfqanıstanda məğlubiyyətindən danışırlar. Xeyr, Sovet ordusu Əfqanıstanda məğlub olmadı. O zaman siyasət dəyişdi və qoşun əmrlə geri çağırıldı.

## VƏTƏNİ QORUMAQ İSTƏMƏYƏNİ DİVARA HÖRÜRLƏR

— Bu ölkənin xarakterik xüsusiyyətləri nədir?

Ə.H. — Olduqca kasıb bir ölkədir. Bu kasıb ölkənin mərd adamlarını tez sevdim. Onlar «nəzafət» deyirlər — yəni təmizlik. Təmizkarlığı sevən millət deyillər. Amma təbiət etibarı ilə mərddirlər. İstər dostluqda, istərsə də düşmənçilikdə. Sifətləri birdir. Çox qonaqpərvər, Allahı sevən xalqdır. Onlar «islamın əsl varisləri bizik» deyirlər. Deyirdim, əşi, siz bu dini sonradan qəbul etmisiniz, əsl varis ərəblərdir. Çox kasıb yaşayır bu xalq. Hərənin çiynində bir adyalı, əlində də bir radiosu. Bütün günü hind musiqisinə qulaq asırlar. Bir də son xəbərləri izləyirlər, vəssalam. Kabulun yanında Darülləman kəndi var. Bir ağacın altında oturub qoca əfqanla söhbət edirdim. Dedi ki, biz toplu-tüfəngli ingilisləri ölkədən qovub səfirlərini də tutub bax, indi altında oturduğumuz bu ağacdan asmışıq. Barmağımı dişlədim. İslam qoşunu bu dini yayanda Zəmburək Şah əmr verib — Kabul hər yanı dağlarla örtülən boşqaba oxşayır — o dağların üstündə divarlar ucalsın. Kim bu əmri yerinə yetirməsə, onu da divara qoyub hörün. Bir dəfə oğlumla gəzə-gəzə dağlara qalxdıq. Qalanın daşları arasında insan sümüklərini gördüm. Demək, tənbəllik edəni, Vətəni

qorumaq istəməyəni həqiqətən divara hörüblər. Bu xalqın psixologiyasını, adətini öyrənmədən ona hücum etməyə dəyməz.

Z.S. — Sovet ordusunda hər əsgərə sənəd verirdilər. O sənəddə əfqanla necə rəftar etmək, bu xalqın psixologiyası haqda ətraflı məlumat vardı. O sənəddə bu xalqın çox qonaqpərvər olduğu yazılmışdı. «Əgər sizi evə dəvət etsələr, onun qadını haqda heç nə soruşmaq olmaz». Bu və başqa bir çox incəliklər nəzərə alınmışdı. Necə əməl olunurdu, bu ayrı məsələdir.

Ə.H. — Mənim dediyim başqadır, qardaşım. Mütəxəssislərlə məsləhətləşmək lazımdır.

M.İ. — O vaxt siyasət bir idi — Əfqanıstana girmək və orada möhkəmlənmək! Adət-ənənəyə, psixologiyaya gəlincə, bəli, hamıya məlumat sənədi paylanmışdı. Amma müharibə müharibədir. Həmişə amansız olur.

— Mətbəxləri də maraqlıdır… Onillərlə müharibə aparan, olduqca kasıb bir ölkə bəs nə yeyir?

Ə.H. — Buğdasından siqaretinədək satın alırlar. Özlərinin istehsal etdiyi bir qaragül dəridir, bir də kişmiş.

M.İ. — Qara alver, narkotik satışına görə, bu ölkə öncül yerlərdən birini tutur.

Ə.H. — Qidaları düyü, bir də sudur.

## ƏFQANISTAN ADLI ÖLKƏ VAR, AMMA ƏFQAN XALQI YOXDUR

— Düyünü necə hazırlayırlar, bizim plova oxşayır?

Ə.H. — Yox, özbək aşına bənzəyir. Pambıq yağı ilə bişirirlər. Üstünə nar düzürlər. Bir də kabab.

M.İ. — Faktiki olaraq ölkə feodal dövrünü yaşayır. Biri bəydir, beş-on arvadı var, amma başqası heç evlənə bilmir. Bir dəfə bəyin evinə getmişdik. Saydım 6 arvadı var. Təsəvvür edin, 6 arvad. Biri lap balaca idi, 10-11 yaşı ancaq olardı. Soruşuram, bu uşaq nəyə lazım? Bəy cavab verdi ki, onu ucuz, 10-11 qoyuna almışam. Gözləyirəm, böyüsün.

Ə.H. — Məmməd müəllimin sözünə qüvvət, iki əsgərim vardı.Cavan oğlanlar idi, amma evlənə bilmirdilər. Bir gün sevincək gəldilər ki, bizi təbrik edin, evləndik. İkimiz də birdən! Bilirdim ki, pul-

ları yoxdur. Demə, uzun-uzadı fikirləşəndən sonra çıxış yolu tapıblar: cavanlardan biri bacısını o birinə, o da öz bacısını buna ərə verib.

M.İ. — Hələ neçəsini mən evləndirmişəm. Evlənmək üçün çox az miqdarda pul lazımdır. Amma o qədər kasıbdırlar ki, heç ağıllarına da gəlmir ki, başqa birisinin niyə 5 arvadı var… Rus, Amerika əsgərləri onları bir xeyli oyatdı hələ.

— Onlar da parçalanmış vəziyyətdədir? Yoxsa, lazım olanda birləşirlər?

M.İ. — Onları qorxu hissi birləşdirir.

Z.S. — Yeri gəlmişkən, bir məsələyə aydınlıq gətirim. Əfqanıstan adlı ölkə var, amma əfqan xalqı yoxdur. Var puştu, tacik, özbək… Pulları da əfqani adlanır.

— Bəs dilləri?

Ə.H. — İkidilli ölkədir. Həm puştu, həm də dəri dilləri dövlət dili sayılır. Bu dillər Hind-Avropa dilləri qrupuna aiddir. Dörd il orada qalsam da, axıra yaxın puştuca güclə danışırdım. Yəni hər ikisi fars dilinin bir qolu olsa da, ləhcə fərqləri çoxdur.

## BU ÖLKƏNİ YENDİRƏN YEGANƏ XALQ BİZİK

Z.S. — Əfqanıstanın müstəqil bir ölkə kimi formalaşmasında biz azərbaycanlıların, türklərin böyük xidmətləri olub.

— Maraqlıdır…

Z.S. — 1747-ci ildə Əfqanıstan dövləti yaranıb. O dövləti quran Əhməd şah Dürrani bizim Nadir şahın sərkərdələrindən biri olub. Dağıstan döyüşlərində Əhməd şah, Nadir şahın sərkərdəsi kimi döyüşüb, sücaət göstərib. Nadir şahın vəfatından sonra Əhməd şah onun ailəsinə çox yardım edib. Dövlətçiliyi, idarəçiliyi Əhməd şah Nadir şahdan öyrənib. Bayaq Əfqanıstandakı milli palitradan danışdıq. Bəli, orada puştular, taciklər, özbəklər, türkmənlər və xəzərlər yaşayır. O xəzərlər bizim azərbaycanlılardır. Nadir şahın dövründə Əfqanıstana əfşarların böyük bir köçü gedib. Bir fakt da var. Tarixən bu ölkə heç kimə baş əyməyib. Onu yendirən yeganə xalq bizik. Çünki Nadir şah qoşunları ilə Əfqanıstana daxil olub onu diz çökdürüb. 1739-cu ildə Nadir şah bütövlükdə Əfqanıstanı özünə tabe edir və təbəəsini ora hakim qoyur.

— Saydıqlarınız xalqlardan hansıları sovet qoşunlarına qarşı daha barışmaz idi?

Z.S. — Sovet qoşunlarına qarşı ayrı-ayrı qruplar döyüşürdü. O qrupların etnik tərkibi çox müxtəlif idi. Polyaklardan tutmuş zəncilərədək.

— Deyirlər, Sovet Ordusunun tərkibindəki müsəlmanlara yerli camaatın münasibəti isti olub…

Z.S. — Belə hallar olub. Amma biz gecə-gündüz oturub onlarla çay içmirdik. Xüsusi çadırlarda yaşayırdıq. Əfqanıstan dağlar ölkəsidir. Dağlarda xırda və çevik dəstələrlə döyüşmək olduqca çətindir. Onlar vurub-dağıdır, odlayır, aradan çıxırdılar. Amma heç bir döyüşdə Sovet ordusunun məğlubiyyət faktı olmadı.

— Yerlilərdən fərarilik edən, siz tərəfə keçən necə, vardı?

M.İ. — Çox, lap çox belə hallar olub.

Z.S. — Əfqanıstan müharibəsini nə çox böyütmək, nə də həddən artıq kiçiltmək lazım deyil.

— Hazırda əfqan döyüşçüsünün «məğlubedilməz» obrazı yaranıb…

M.İ. — Boş söhbətdir. Bu obrazı süni yaradırlar. Dəstələr vardı, qardaşın hərəsi birində döyüşürdü. Görüşəndə bir-birindən soruşurdular ki, sizdə vəziyyət necədir? O da cavab verirdi ki, amerikanlar ət, çörək, hər şey verir. Bəs sizdə necədir? Deyirdi ki, pis. Ruslar heç nə vermir. Siz tərəfə keçsəm, mənə yaxşı olar?..

Z.S. — Əfqanıstan müharibəsində dünyanın irili-xırdalı bəzi ölkələrinin barmağı vardı. Buna görə bu müharibə ocağı hələ də sönməyib. Bu xalq feodal-patriarxal adət-ənənələri ilə yaşayır. Torpağına, kökünə bağlı xalqdır. Yəni onların itirəsi, qoruyası, üstündə əsəsi heç nələri yoxdur. Lazım oldu, çəkilirlər dağlara. Neçə il desən, o qədər də vuruşmağa hazırdır.

— Əskidən qalma vəhşi adətləri…

Z.S. — Bəli, baş kəsmək çox adi haldır.

Ə.H. — Bir qolugüclünün, bəyin gözü birinin arvadına düşür. Ya oğurlayır, ya da ərini öldürüb aparır.

— Zakir müəllim, sizin «Yaddaşımın Əfqanıstan yazıları» povestinizdə bir epizod var: Onlar dağın başında, biz dərədə. Biz XX, onlar XV əsrdə. Dövrlərimiz heç bir nöqtədə kəsişmir deyə, ümumi dil tapa bilmirik…

Bu geridə qalmış ölkəni zaman-zaman dünyanın diqqət mərkəzinə gətirən nədir?

Z.S. — Maraqlı sualdır…

M.İ. — Terrorizmə meyllilik elə ən kasıb ölkədə olur. Bu ölkədə vəziyyət heç vaxt sakitləşməyəcək. Burada hakimiyyət uğrunda vuruşan, eyni zamanda böyük dövlətlərin marağının ifadəçisi olan ayrı-ayrı silahlı dəstələr var. Bundan başqa feodal düşüncənin təzahürü kimi bəzi tayfa başçılarının başına toplaşıb döyüşənlər və bütün bu dəstələrə silah satmaqda maraqlı olan ölkələr var.

## ORADA ŞUŞALILAR VAR…

— Bəs bu ölkəni xaosdan necə çıxartmaq olar?

M.İ. — Əhali çox safdır. İş yerləri yaratmaq, işlətmək, qanunlara tabe olmağı öyrətmək, ayrı-seçkiliyi ortadan qaldırmaq lazımdır.

M.İ. — Terrorizmin nə olduğunu dünya hələ indi anlayır. Onun sivil dünyaya zərbəsi çox təhlükəlidir. Ona görə hamı əl-ayağa düşüb. Bəs Qarabağ müharibəsi niyə yada düşmür? Neçə illərdir haray salırıq, terrorizmin acı nəticələrindən faktlarla danışırıq, bizi heç kim eşitmir.

Z.S. — Mən həmişə bu suala cavab axtarmışam ki, dünya ilə Əfqanıstan niyə dil tapa bilmir? Əfqanıstan çox mürəkkəb bir ölkədir. Şərq xalqlarının mənsub olduğu xüsusiyyətlər bu ölkədə hələ də qorunur. Onu saysız müharibələrə, bəlkə də adamların saflığı və mübarizliyi bağlayır.

Ə.H. — Bu gün Əfqanıstanda 3 azərbaycanlı kəndi var. Nadir şahın vaxtından köçənlərdir. Nanəkçi, Təpə… o birinin adı yadımdan çıxıb. Bu üç əfşar kəndi bu gün də qalır. Kabulla Bəqramın arasında bir Qarabağ kəndi də var. Bir dəfə sürücüyə dedim, saxla, bir ayran içək. Gedib ayran içdik, baxdım çox axar-baxarlı yerdir. Adını soruşdum. Dedilər, Qayeyi-Qarabağ. Dəhşətə gəldim. Soruşdum, hardan gəlmisiniz? Bilmədilər. Üç gündən sonra əsgərlərdən biri atasından soruşub mənə söylədi ki, əslimiz Qafqazın Şişə kəndindəndir. Bay, bunlar Şuşalıdır ki! Ağa Məhəmməd Şah Qacar Qarabağa hücum edəndə bu ailələr köçə-köçə gəlib bu axar-baxarlı yerə çıxıblar. Məskən salıb, kəndin də adını qoyublar Qarabağ.

Z.S. — O kənddə biz də olmuşuq. Elə bil indicə Şuşadan çıxıblar. Bütün adətləri, ləhcələri ilə əsl qarabağlıdırlar.

— Dünyanın nəzərlərini cəlb edən bir ölkə haqda söhbətinizi maraqla dinləyirik. Əfqanıstanı yetərincə tanımasaq da, terrorizmlə, onun nəticələri ilə çoxdan tanışıq. Azərbaycan 10 ildən çoxdur ki,terrorla mübarizə aparır. Bir dəfə Əfqanıstanda olmusunuz. Terrorizmlə mübarizə kompaniyası genişlənərsə, siz özünüzü bu ordunun sıralarında görürsünüzmü?

Ə.H. — Yaşıma görə məni bəlkə aparmazlar. Amma könüllü olaraq, terror ocaqlarını söndürən orduya qoşularam. Çünki bizim Qarabağımız terrorizmin qurbanıdır.

M.İ. — Terrorizmin ocaqlarını söndürmək üçün qonşularımızdan başlayıb düz Əfqanıstanadək getməyə hazırıq.

Z.S. — Mənim arzusunda olduğum, təkrar getmək istədiyim yeganə ölkə Əfqanıstandır. Amma səyyah kimi. Heç birinci kərə də mən o torpağa düşmən kimi qədəm qoymamışam. Biz Vətənin, dövlətin əsgəriyik. Dünən də, bu gün də. Amma mən o xalqı sevirəm.

Sonda Əlibala müəllimdən dəri dilində sülhün necə səsləndiyini xəbər aldıq. Elə «sülh» dedi. Bütün Əfqanıstan xalqları — puştu, türkmən, özbək… və bütün Şərq dünyasının dilində bu söz eynidir — SÜLH!

*Laura Cəbrayıllı*

## ƏSƏRİNİ ALMAĞA PULU OLMAYAN YAZIÇI

Əziz oxucular, Sizi «Ana Vətən» qəzeti redaksiyasının «qonaq otağı»nda diqqətimizi cəlb edə biləcək istənilən elm, mədəniyyət, incəsənət xadimləri ilə maraqlı görüşlər gözləyir.

«Qonaq otağı»nın ilk müsahibi oxucular arasında geniş şöhrət qazanmış «İtkin gəlin» trilogiyasının müəllifi Əlibala Hacızadədir.

«Şəhriyar» qəzetinin redaksiyasına daxil oluram. Qapı açıqdır, geniş otaqda Əlibala müəllim əyləşib, əlində siqaret nə isə oxuyur. Salam verib xeyli irəli keçdim. Başını ağır-ağır qaldırıb salamımı aldı. Çox kədərli görünürdü. Hal-əhval tutub kədərli görünüşünün nə ilə əlaqədar olduğunu soruşanda dedi:

— Bilirsiniz, indi bir hekayə oxuyurdum. Bu hekayə cəhalət dövründə qız uşaqlarının diri-diri basdırılmasından bəhs edir. Bir az da nasazam.

Buna baxmayaraq həvəslə söhbətə başladıq:

— Bir yazıçı kimi Sizi cəmiyyətin hansı problemləri narahat edir?

— Məni bir yazıçı, vətəndaş, ən nəhayət, xalqımın oğlu kimi narahat edən məsələlərdən ən başlıcası Qarabağ problemimizdir. Elə ona görə də bu torpağın oğlu kimi özümü çox pis hiss edirəm. Bəzən hansısa bir görüşdə və ya bir tədbirdə iqtidarlı, müxalifətli olmağından asılı olmayaraq belə bir sual verməк istəyirəm: Siz gecələr evinizdə necə rahat yata bilirsiniz? Mən özümə də o sualı verirəm. Onun fərqi yoxdur ki, əsirlikdə olan mənim anam deyil, bacım deyil, axır ki, bu millətin, bu torpağın övladıdır. Və əsirlikdə qız-gəlini olan bir xalq özünü necə xoşbəxt hiss edə bilər? Proses uzandıqca sanki bu halla camaat barışmağa doğru gedir, mən isə bununla qəti razı deyiləm. İkinci, məni narahat edən problem xalqımın düşdüyü güzərandır. Biz bu çətinliyi XX əsrin əvvəllərində keçməli idik. Lakin bolşeviklər gəldilər, feodalizm sistemindən birbaşa sosializm sisteminə keçdilər. Xalqın keçid dövründə ağrı-acılarına dözə bilmirəm. Və torpaq itkilərimizdən əlavə, bizim çox böyük yazılmamış romanlarımız, çəkilməmiş filmlərimiz var ki, bax bu da bizim dərdlərimizdir.

— Yeri gəlmişkən, Əlibala Hacızadə necə dolanır?

— Əlibala Hacızadə hamı kimi dolanır, bir neçə yerdə işləyirəm ki, ailəmi saxlaya bilim. Halbuki indi mənim istirahət edib yaradıcılıqla məşğul olan vaxtımdır. Təqaüdə çıxmış bir adam kimi alacağım pul ailəmə bəs etmir. Ona görə də canımın dərdindən bütün ziyalılar kimi, mən də bir neçə yerdə işləyirəm. Çox təəssüf ki, bunlardan heç kim danışmır. Bu problemlərlə vəzifə başında oturan şəxslər məşğul olmalıdır.

— Neçə vaxtdır ki, oxucuları sevindirmirsiniz. Bu oxuculara etinasızlıqdı, yoxsa küskünlük?

— Mən o fikirlə razı deyiləm. Yazı işi bir növ xroniki xəstəlikdir. Uzun illərdir ki, bir roman üzərində işləyirəm. «Möcüzə» adlanır. Romanın birinci hissəsini qurtarmışam, artıq ikinci hissə üzərində işləyirəm. Bir vətəndaş, bir insan kimi, öz əsərimdə ağrılı-acılı vəziyyətimizi əks etdirməyə çalışmışam. Əsərdə bir qadın obrazı yaratmışam. Bu öncəgörən bir obrazdır, yalan cəmiyyəti ayağının altına alıb tapdalayır. O cəmiyyəti ki, orada yalan danışılır, hamı bir-birini aldadır. Hətta ata oğulu, oğul da ananı. O qız bunu açıq görür və deyir.

— Əsərlərinizdə ən çox məhəbbətə üstünlük verirsiniz. Bu mövzu yəqin ki, sizin həyatınızın ana xəttidir…

— (Gülür. Bir qədər fikrə getdikdən sonra söhbətinə davam edir). Təbii ki, məhəbbət hissini mən də yaşamışam. Mən hər şeyə məhəbbət bəsləyən bir adamam. Məhəbbət dövrün və insanın bəzəyidir. Yəni demək istəyirəm ki, məhəbbət əbədi bir məfhumdur.

— Sizə elə gəlmirmi ki, M.F.Axundovun, M.Cəlilin ədəbiyyata gətirdiyi aydınlıq az qalır ki, itsin?

— Yox, mən bu fikirlə qəti razı deyiləm. Ona görə ki, Mirzə Cəlilin, Sabirin yandırdıqları o gur çıraq tariximizin hər dövründə yanacaq. İndiki şərait elədir ki, o çırağın altındakıların nə ilə məşğul olduqları aydın deyil. Mən şerimizdən, poeziyamızdan çox razıyam. Ancaq dərd burasındadır ki, istedadlı yazıçılarımız əsərlərini maddi imkan çatışmamazlığından çap etdirə bilmir. Cızmaqara ilə məşğul olub, imkanı olanlar kitab nəşr etdirirlər. Bu ədəbiyyatımızı bozlaşdırır. Və oxucu elə bilir ki, ədəbiyyat bundan ibarətdir.

## YAXŞI Kİ, MƏNİ TANIMADI

— Sizə bir balaca sirr açacağım. Evdə kitab saxlaya bilmirəm. Kim istəsə verirəm. Bir dəfə şəhərdə səkinin üstündə çoxlu kitab

gördüm, yaxınlaşıb baxanda «Dünyanı tanı» romanımı da onların arasında gördüm. Kitabın qiyməti 15 min manat idi. Fikrimin gözü ilə cibimə baxdım. Cəmi 5 min manat pulum var idi. Astadan kitabı yerinə qoyub getdim. Və gedə-gedə özümü danladım ki, bu nə vəziyyətdir sən düşmüsən. Sənin bir kitab almağa belə pulun yoxdur. Həm də bir şeyə çox sevindim ki, nə yaxşı kitab satan kişi məni tanımadı. Yəqin ki, çoxları fikirləşər Əlibala müəllim kasıblığını etiraf eləməyə utanmır. Ancaq mən niyə utanmalıyam? Qoy cəmiyyət utansın ki, onun yazıçısının öz kitabını almağa pulu yoxdur.

— Demək olar ki, bütün günü bu sönük otaqda olursunuz. Yazıçı üçün «yaratmaq» və «iqlim» anlayışı nə deməkdir?

— Mən öz qələm yoldaşlarım adından deyə bilərəm ki, vəziyyətimiz yaxşı deyil. Əvvəla, yazıçının ürəyi bülbül kimi cəh-cəh vurub, saz kimi köklənməlidir. Gərək o maddi problemlərdən qayğılanmasın. Elə başıma gələn bir əhvalatı sizə danışım. «İtkin gəlin»in üçüncü hissəsini yazırdım. O yerində idim ki, ölkənin şahı, əsərin qəhrəmanı, məmləkət şairi Məhəmməd Şəfi Rəhgüzəri müəyyən siyasi məqsədlərlə saraya dəvət edib. Və şair sevinir ki, yaxşı oldu, gedib bu xalqın dərdini şaha söyləyəcəm. Bu nə məmləkətdir sən saxlayırsan? Bu xalqın vəziyyətindən sənin xəbərin varmı? Var, niyə düzəltmirsən. Yoxdursa, niyə yoxdur? Elə odlu sözlər düşünmüşdüm ki, həm ürəyimi boşaldım, həm şahlara sözümü deyim, həm də oxucularıma. Ayrıca yazı otağım olmadığı üçün mətbəxdə oturub yazırdım. Birdən kürəyimə bir göyərçin əli qondu. Baxdım, gördüm uşaqlarımın anası, xanımımdır: yəqin ki, bilərsiniz, yaradıcı adam yazdığı səhnənin içində olur. Kənar mühiti görmürsən. Qələmi saxlayıb soruşdum ki, nədi? Dedi ki, bəs, evdə ət, kartof, soğan qurtarıb. Dedim nə ət, nə kartof, nə soğan? Mən bu saat saraylarda şahlarla oturmuşam. Gördüm yoldaşım bir az geri çəkildi. Bir an ona elə gəldi ki, yəqin kişinin başı bir az çaşıb.

## QƏLƏM İTKİSİ, YOXSA ÖVLAD İTKİSİ?

— Yazıçı üçün itki anlayışı nə deməkdir? Sizcə yazıçının ən böyük itkisi qələm itkisidir, yoxsa övlad?

— Mən həmişə fikirləşmişəm ki, sənətkarın yaratdığı əsər onun övladıdır. Övlad dünyaya gələndə ata-ana nə qədər sevinirsə, qələm sahibi də, yaradıcı insan da təzə əsəri çap olunanda bir o qədər

sevinir. Bunların ikisi də sənətkar üçün önəmlidir. Mənim üçün bunlar arasında fərq yoxdur. Övlad və əsər – hər ikisi bərabərdir, qiymətlidir.

NOSTALJİ, HƏM DƏ XATİRƏLƏR

— Sizin «İtkin gəlin» əsərinizdə sosializm dövrü üçün yasaq olan çılpaq səhnələr var. Bu Sizə baş ağrısı gətirmədi ki?

— Yox. Mən sadəcə taleyimdən çox razı oldum ki, Əfqanıstana getdim. Yaxşı bilirəm ki, bu əsəri burada yaza bilməzdim. Romanda təsvir elədiyim o nümayişlərin, inqilabların heç biri orada yox idi. O mənim arzularım idi. İstəyirdim ki, xalq ayağa qalxsın, öz haqqını tələb etsin.

—Əsərdə Yusifin ölüm səhnəsi çox kövrəkdir. Bu sizin daxilinizdən gələn kövrəklikdir?

— Əlbəttə ki. Mən həyatda həssas adamları sevirəm. Çünki kobud adamlar belə zərif hisslərdən məhrum olurlar.

— Siz Yusifi, Əbdülü öldürməyə bilməzdinizmi?

— Mümkün idi. Sadəcə bu da bir dərsdir. Həyatda müxtəlif insanlar olur. Mən istəyərdim ki, kitabımı oxuyanlar buna hazır olsunlar.

— Bu gün həmin əsəri yenidən işləsəydiniz, hansı dəyişikliklər edərdiniz?

— Həmin əsəri üç kitab bir yerdə olmaqla çap eləyirlər. Mən heç birinə yenidən əl vurmamışam.

— Əsərdə ən maraqlı səhnə Əbdülün öldürülməsidir. Siz Nəcməddinin yerinə olsaydınız, Əbdülü öldürərdinizmi? Ümumiyyətlə, Dünya—Əbdül məhəbbətinə münasibətiniz?

— Hər kəs yaxşı bilir ki, hamı öz əməlinə cavabdehdir. Onların hamısının «Qatili» mən olmuşam. Çünki hər bir obraz öz əməlinə cavab verir. Dünya-Əbdül məhəbbətinə münasibətimi əsərdə bildirmişəm.

— Əsərinizin qəhrəmanını bu gün aramızda görürsünüzmü?

— Bəli, bir dəfə həm zahirən, həm də daxilən Əbdülə oxşayan bir adamla rastlaşmışam. Bir də ki, nə çoxdur indi bizim Nəcməddinlərimiz.

— Yazıçı Əlibala Hacızadə unudulmaqdan qorxmur ki? Aranıb-axtarılırsınızmı?

— Bu çox ağrılı bir sualdır. Unudulmaq yaman dərddir. Unudulmaq üç cür olur. Biri var cəmiyyət tərəfindən unudulasan, biri var sevgilin tərəfindən, biri də var ki, öləndən sonra unudulasan. Bilirsiniz, bunların hamısından ağrılısı cəmiyyət tərəfindən unudulmaqdır. Öz sağlığında cəmiyyət tərəfindən sayılmayan, unudulan adam bu ağrıları öz dərisində hiss edir. Necə deyərlər, bütün vücudunda hiss edir.

## OLMAYIR VƏFASI İLK MƏHƏBBƏTİN

— Siz romanda Elməddini öz sevgisinə qovuşdurmamısınız, bəs həyatda özünüz necə, ilk məhəbbətinizə qovuşmusunuzmu?

— Yox, rəhmətlik S.Rüstəmin bir şeri var; «Olmayır vəfası ilk məhəbbətin». Mənim tanıdığım adamların böyük əksəriyyəti öz sevgisinə qovuşmuyub. Və zaman keçəndən sonra bu, bir xoş xatirəyə dönür. Bəlkə də o qovuşmamağın özündə də bir hikmət var. O məhəbbət, o həsrət insanın ürəyində elə bir məşəl yandırır ki, onun odu həmişə sənin bədənini qızdırır.

— «Göyərçin»inizi sevib aldınızmı?

— (Yenə gülür) Bəli, mənim xanımım çox alicənab bir insandır. Bilirsiniz şair, yazıçı, sənətkarın xanımı olmaq çox çətindir. Buna da hər qadın dözə bilməz. Ağıllı, düşüncəli qadın bir həqiqəti qəbul etsə, o çox böyük qadın hesab olunur mənim aləmimdə. O nədir? Qadın özlüyündə başa düşməlidir ki, mənim həyat yoldaşım tək mənim deyil, o, həm də xalqın yaradan oğludur. Əgər başa düşməsə, qısqanclıq səhnələri yaratsa, onda o öz həyatını da korlamış olur, şairin həyatını da.

— Son illər Azərbaycanın ictimai-siyasi həyatında ziyalıların iştirakı niyə yoxdur?

— Ziyalılar xüsusi, zərif bir təbəqədir. Cəmiyyətin ən ağıllı, ən uzaqgörən hissəsidir. Ziyalı odur ki, xalqın ümumilikdə həyatını, məişətini düşünür. Sadəcə o ziyalıları bir yerə yığmaq, onlara qulaq asmaq lazımdır. İndi ziyalılar pərən-pərəndir, hərəsi öz qayğısının dalınca qaçır.

— Qismət olsun deyirəm, görək XX1 əsrin ilk günü Ə.Hacızadə özünü necə hiss edəcək?

— Ömür mənasında onu allah bilir, çatacayıq, ya yox. Daxili aləmimdən gələn səsin təsiri altında deyirəm, mən qəbul edə bilmirəm ki, Qarabağ dərdi bizim ürəyimizdə XX1 əsrə getsin. Əgər getsə,

onda biz zəif xalq imişik. Bizim sevinməyə, bizim «Mən Koroğlu, Qaçaq Nəbi nəvəsiyəm» deməyə haqqımız yoxdur.

— Ə.Hacızadə Novruz bayramında papaq atdımı?

— Novruz bayramını ailəmlə bir yerdə keçirtdim. Bizə papaq atan oldu, ancaq mən tənbəllik elədim.

Bax beləcə Ə.Hacızadə ilə vaxtımız başa çatdı. Maraqlı müsahibəyə görə ona təşəkkür etdim. Əlibala müəllim öz növbəsində qəzetin kollektivinə yaradıcılıq uğurları arzuladı.

*Zemfira Rəfili*
*«Ana Vətən» qəzeti*

## MƏN MÜƏLLİMLƏRİMİN GƏZƏN, DANIŞAN ƏSƏRİYƏM

— Əlibala müəllim nə vaxt, harada dünyaya göz açıb? Uşaqlığı necə keçib? Ötən illərin, yəqin ki, maraqlı xatirələri var…

— Adi bir kənd uşağı olmuşam. 1935-ci ildə Biləsuvar rayonunun Ağalıkənd kəndində dünyaya göz açmışam. Atam-anam müəllim olub. İlk müəllimim də elə anam Asya olub.

Müharibə başlanan gün gəlir yadıma. Biz ailəlikcə Cəlilabad (o vaxtkı Astraxanbazar) rayonuna getmişdik. Atam Qüdrət evdə qalmışdı. Qayıtdıq, gördük qapımız bağlıdır. Sən demə, həmin gün müharibə başlayıbmış. Atam da qapıları bağlayıb açarı qonşuya veribmiş, könüllü surətdə cəbhəyə yollanıbmış. Özü də kənddən gedən yük maşınının içində yer olmadığına görə atam kabinanın üstündə oturub gedibmiş cəbhəyə. Və…

Müharibə illərini yaxşı xatırlayıram. Həyatımız çox ağır keçdi. Evdə nə vardı satdıq, dolandıq. Amma ən dəhşətlisi o oldu ki, 1943-cü ildə atamdan qara kağız gəldi ki, həlak olub. Və biz də yasını saxladıq, əlimizi üzdük. Müharibə qurtardı, amma gözümüzü yoldan çəkmədik. İnanmırdıq nə isə bu kağıza. Xüsusilə atamın anası, yəni nənəm Səriyyə heç inanmırdı və elə yolunu gözləyirdi.

1945-ci ilin çiskinli bir payız günü idi. Gördüm ki, nənəm həyət-bacanı silib-süpürür və mənə dedi ki, samovara od sal. Dedim kim gəlir, qonaq gələcək? Dedi ki, Qüdrət gələcək, bu gün gələcək Qüdrət.

Teleqram yox, kağız yox. 43-cü ildə kişinin yasını vermişik. Baxdım nənəmə, dedim vay, yazıq ana, yazıq nənə, başı xarab oldu, oğul dərdindən başına hava gəldi.Qonşumuz Əli kişi vardı, o da keçəndə gördü ki, nənəm həyət-bacanı süpürür, dedi ay Səriyyə, xeyir ola? Dedi bilmirsən sən, bu gün Qüdrət gələcək. Çox qəribədir, həmin gün axşam çağı həmin o qonşumuz Əli kişinin İbiş oğlu qaça-qaça gəldi ki, muştuluğumu verin, Qüdrət gəlir. Mən elə corablı qaçdım, yarı yolda qucaqlaşdıq, görüşdük, ağladıq… Beləcə, atam gəldi. Müharibə dövründən dəhşətli və yadımdan çıxmayan xatirələrimdən biri budur.

Anam hələ müharibə vaxtı vəfat etmişdi, atam isə 1949-cu ildə rəhmətə getdi.

1953-cü ildə Xırmandalı kənd orta məktəbini bitirib Bakıya gəldim. Nənəm, bacılarım mənim həkim olmağımı istəyirdilər. Amma mən evimizdə ərəb əlifbası ilə yazılmış yazılar görmüşdüm. Baxıb-baxıb oxuya bilməmişdim. Demişdim ki, gedib bu əlifbanı öyrənəcəyəm. Bu maraq gətirib məni Universitetin şərqşünaslıq fakültəsinə çıxardı. 1953-cü ildə şərqşünaslıq fakültəsinə girdim və 5 il orada oxudum. Mənim bir yazıçı, bir şərqşünas kimi yetişməyimdə Universitet müəllimlərimin haqqı-sayı çoxdur. Bunlardan mən professor Mübariz Əlizadənin adını həmişə çox böyük hörmətlə çəkmişəm, ömrümün axırına qədər də həmişə çəkəcəm. Bəxtiyar Vahabzadə, Mir Cəlal Paşayev, Cəfər Xəndan, Əli Sultanlı və onlarla başqaları mənim müəllimim olub. Və indi papağımı qabağıma qoyub hərdən fikirləşəndə belə qərara gəlirəm ki, mən müəllimlərimin gəzən, danışan əsəriyəm…

Universiteti bitirəndən sonra Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda işləmişəm.

Elə orta məktəbdə oxuyanda yazı-pozu həvəsinə düşmüşəm. İlk yazımı o vaxt «İnqilab və mədəniyyət» (indiki «Azərbaycan») jurnalına göndərmişdim. Onuncu sinifdə oxuyurdum. Rəhmətlik yazıçımız Salam Qədirzadədən bir məktub aldım ki, hekayəniz zəif olduğuna görə…

Universitetin «Lenin tərbiyəsi uğrunda» adlı qəzeti vardı. 1954-cü ildə orada «Ömrüm təzələndi» adlı ilk hekayəm dərc olundu. 1956-cı ildə isə mərhum şairimiz Səməd Vurğunun həyatından yazdığım «Yada düşdü» adlı hekayəm işıq üzü gördü. Sonra «Uşaqgəncnəşr»də çıxan almanaxda «Mənim müəlliməm» adlı hekayəm dərc olundu.

Həyatımda ən xoşbəxt günlərdən biri də onu hesab edirəm ki, uzun mübarizədən sonra 1961-ci ildə mənim «Heykəl gülür» adlı ilk hekayələr kitabım çap olundu. Mən o kitabla, demək olar ki, çox böyük, müqəddəs bir aləmə daxil oldum…

— İndiyə qədər hansı kitablarınız çap olunub?

— Mənim 15-ə yaxın kitabım nəşr olunub. «Heykəl gülür», «Unutmaq olmur», «Məhəbbət olmayan evdə», «Cehiz», «Pəhləvan», «Təyyarə kölgəsi», «İtkin gəlin», «Əfsanəsiz illər», «Ayrılığın sonu yoxmuş», «Dünyanı tanı». Sonra «İtkin gəlin» rus dilində çıxdı. Amma mənim yarımçıq əsərlərim var. «Təyyarə kölgəsi» özü trilogiyadır, onun iki kitabı çıxıb: «Təyyarə kölgəsi», «Vəfalım mənim». Üçüncü kitabım isə əlyazması şəklində hazırdır, çap etdirə bilmirəm; maliyyə məsələsi, nəşriyyat, kağız problemləri.

İkinci bir əsərim var, yarımçıqdı o da: «Yandırılmış adamlar» romanı. Onun əsasında bir pyes də yazmışam.

«Dünyanı tanı» romanı dilogiyadır, iki hissəli romandır, onun birinci hissəsi çap olunub, ikinci hissəsi yox. Bu əsərləri mən yarımçıq hesab edirəm, oxucularıma borcluyam.

«İtkin gəlin» əsasında 12 seriyalı bir telefilm üçün ssenari yazmışdım. Bizim görkəmli rejissorumuz Lütfü Məmmədbəyov onu çox böyük maliyyə və texniki çətinliklərlə də olsa çəkib ortalığa çıxartdı.

Son vaxtlar Rəşad Nuri Güntəkinin «Dodaqdan qəlbə» romanı əsasında altı seriyalı bir ssenari yazmışdım. Lütfi müəllim onu da çəkib.

«Yandırılmış adamlar» pyesini Əzizbəyov teatrına təqdim etmişəm, çox güman ki, orada oynayacaqlar.

Mən bu illər ərzində elmi işlə də məşğul olmuşam. 1964-cü ildə İran şairi Fərruxi Yəzdinin həyat və yaradıcılığı haqqında dissertasiya yazmışam. O, maraqlı bir şairdir, haradasa bizim Nəsimiyə oxşayan bir şairdir. Nəsiminin dərisi soyulubsa,bunun həqiqəti deyən dodaqları tikilib.

Rəhmətlik akademik Ziya Bünyadovun tapşırığı ilə Azərbaycan tarixilə çox sıx bağlı, çox gözəl bir tarixi-əbədi mənbə olan «Rahət-is-südur və ayət-is-sürur» (Səlcuq Xanədanı tarixi haqqında «Könüllər açan və sevinclər saçan kitab») kitabını tərcümə etmişəm, amma çap etdirə bilməmişəm.

İran yazıçılarının hekayələrini də tərcümə etmişəm.

İndi, Azərbaycan-İran arasında bağlanmış müqavilə əsasında nəşr olunan və oxucular arasında şöhrət tapmış «Şəhriyar» qəzetində çalışıram.

— Əlibala müəllim, bir dəfə fəhlə yataqxanasında görüşdə «İtkin gəlin» əsərinizlə bağlı maraqlı bir əhvalat danışdınız…

— Qəribə bir şey oldu. Oğlum Universitetə imtahan verirdi. Bütün valideynlər kimi mən də həyəcan içində idim. Universitetin qabağında gəzişirdim. Və təbii ki, məni tanıyanlar çox idi. Cavanlar yığışdılar başıma, ayaqüstü bir ədəbi məclis təşkil olundu. Bir cavan oğlan yaxınlaşdı mənə, dedi ki, müəllim, «İtkin gəlin»də sizin təsvir etdiyiniz hadisə bizim kənddə də baş verib. Dedim a bala, sən hardansan? Dedi mən Gədəbəydənəm. Kəndin adını da dedi, amma mən yadımda saxlaya bilmədim. Dedim necə? Dedi ki, iki qardaş vardı, biri Bakıda oxuyurdu, biri də kənddəydi. Bakıda oxuyan qardaş bir gün gəldi dedi ki, bəs mən filan qızı sevirəm. O biri qardaş da səsini

çıxarmadı, qız böyük qardaşa qismət oldu. Və həmişə oğlan hər gecə sizin kitabınızı ağlaya-ağlaya oxuyur və qoyur başının altına, yatır.

Mən çox mütəəssir oldum və sonra gəldim bunu yoldaşlarıma danışdım ki, belə bir hadisə olub. Dedilər o oğlan düz demirmiş. Dedim niyə düz deməsin, nə münasibətlə yalan danışsın axı? Dedilər yox, əhvalatı düz deyib, amma gərək sən tutaydın ki, ağlayan elə o özüymüş. Yoxsa nə bilirdi ki, kəndin o başında kimsə sənin kitabını qoyur başının altına, ağlaya-ağlaya yatır?..

Bir ayrı qəribə epizod da deyim sizə. Telestudiyada bir qız mənə rast gəldi. Dedi ki, Əlibala müəllim, siz mənə çox böyük bir yaxşılıq etmisiniz. Dedim ay qızım, bəs tanımaya-tanımaya mən sizə necə yaxşılıq etmiş ola bilərəm? Dedi müəllim, eynilə əxlaqda da, gözəllikdə də, xasiyyətdə də bir-birinə oxşayan iki qardaş — qonşumuzun oğlanları bir-birindən xəbərsiz məni sevirdilər. Mən də çaşıb qalmışdım bunların hansına «hə» deyim. Sizin «İtkin gəlin»i oxuyandan sonra çıxış yolu tapdım, ikisinə də rədd cavabı verdim. Dedim çox sağ ol, qızım, düz eləmisən…

— Əlibala müəllim, çox sağ olun, sizə yeni-yeni yaradıcılıq uğurları arzu edirik.

*Şöhlət Abbas*

## «QİYAMƏT GÜNÜ YAXINLAŞIR»

«Azərbaycanda ziyalılar infarkt vəziyyətindədir»

— Əlibala müəllim, baş verən hadisələrdən o nəticəyə gəlmək olarmı ki, dünyanın axırı çatıb.

— Bu məsələ məni çoxdan düşündürür. «Qurani-Kərim»də bildirilir ki, halalla haram qarışanda, kişilərlə qadınlar arasında oxşarlıq yarananda, zəlzələlər çoxalanda, sel-su tüğyan edəndə qiyamət günü yaxınlaşır. Əlli ildir bu şəhərdəyəm. Bu müddətdə nə zəlzələ, nə sel-su görməmişəm. Şəhərin sakinləri də bunu təsdiqləyə bilərlər. Təbiətin bu gün dəlilik etməsi insanların ona qarşı rəhmsiz rəftarının cavabıdır. Çünki insanlar Allahın işinə qarışırlar. Axı, təbiəti də Allah yaradıb. Təbiətə qarşı amansızlıq etmək elə Allahın işinə qarışmaq deməkdir. Təbiətin dili, ağzı yox, mitinq edə, şüar deyə. Ona görə də səbir kasası daşanda onu bu hala salanlardan intiqam alır. O ki,qaldı dünyanın axırının yaxınlaşması məsələsinə, tarixin önündə 100 il o qədər də uzun vaxt deyil.

— Bildirdiniz ki, kişi qadına oxşayanda, halalla haram qarışanda dünyanın axırı çatır. Deməli, Azərbaycanın da axırı çatıb.

— Bu gün yalan cəmiyyətimizi ayağının altına salıb çığnayır. Ata övladını, övlad anasını, arvad ərini aldadır. Şəxsən mən ilanla baş-başa yaşayaram, yalanla yox. Yalanın ayaq açmasının səbəbi cəmiyyətdir. Cəmiyyət insanları yalan danışmağa, oğurluq etməyə, pis yola getməyə məcbur edir. Həmişə cəmiyyətin nöqsanları insanların əxlaqında öz əksini tapıb.

Son vaxtlar qadınlar, xüsusilə qızlar çox açıq-saçıq geyinirlər. Qarın nahiyəsini açıq qoymaq dəb düşüb. Bunların hamısı xaricdən gələn zay tərbiyənin təsirindən yaranır. Bəzən görürsən kişilər saç uzadır, qadın paltarı geyinir. Adam bunu görəndə dəhşətə gəlir. Kişinin kişi, qadının qadın yeri var.

Zaman nəhəng bir əjdahanı xatırladır. O ağzını açıb havanı sorur. Ətrafda olanlar gəlib onun ağzına girirlər. Kim o ilanın ağzına düşdüsə, məhv olur. Özünü ilanın ağzından qurtaran isə sabah cəmiyyətin qarşısında alnıaçıq gəzə biləcək.

— Xeyli müddət Əfqanıstanda yaşamısınız. Necə düşünürsünüz, bu gün əfqanların başına gətirilənlər daxili qarşıdurmaya görə deyilmi?

— Əfqan xalqı döyüşkən, mərd, vətənpərvərdir. On il Sovet İttifaqı müharibə apardı, amma əfqanları məğlub edə bilmədi. Sonda biabırçı şəkildə Əfqanıstandan çıxmağa məcbur oldu.

Bəs, necə olur ki, biz torpağımızı işğal edənləri evimizdən qova bilmirik? Sadəcə, bu işi təşkil etmək lazımdır. Əfqan üçün torpaq dəyəri insan həyatından qat-qat üstündür. Əfqan öz torpağı uğrunda ölməkdən qorxmur. Elə ailə var idi ki, üç övladı şəhid olmuşdu, buna baxmayaraq, dördüncü övladı da cəbhəyə gedirdi.

Əfqanıstanın bugünkü vəziyyəti daxili çəkişmələrin nəticəsi deyil. Bu ölkənin strateji mövqeyi digər dövlətlərin ona qarşı olan marağını artırır. Bu yaxınlarda Amerikanın rəsmi nümayəndəsi bəyan etdi ki, həmin ölkənin hərbi qüvvələri uzun müddət Əfqanıstanda qalacaq. Bundan sonra Əfqanıstanın yüz dəfə müstəqilliyindən danışılsa da, bu, kağız üzərində olacaq.

— Qəhrəmanlıqda əfqanlardan geridə qalmadığımızı söyləyirsiniz. Bunun nəticəsini isə görmürük.

— Bizdə də birlik yoxdur. Əfqanıstanda tayfabazlıq, bizdə isə vəzifəpərəstlik var. Bunun da əsas səbəbini «mənəm-mənəmlik»də görürəm. Cəmiyyətdə birlik yoxdur. Müxalifətin özündə də birlik yoxdur. Bu torpağın bu günə düşməsində günahı olan adamlar var. Onları xalq tanıyır. Buna baxmayaraq onlar bu gün azad gəzirlər. Zərrə boyda günahı olan adamlar isə cəzalarını çəkirlər. Cəzasızlıq hökm sürən cəmiyyətdə istənilən cinayəti gözləmək mümkündür. Son dövrlərdə elə namərdlər gördük ki, bu, ancaq dəhşətdir. Məgər torpağı satmaq olar? Torpağı satmaq ana-bacı satmaq kimi bir şeydir. Buna necə rəvac veriblər, nədi-nədi «kreslo» əldə edəcəklər. Bu heç bir düşüncəyə sığışmır.

— Əlibala müəllim, dediyiniz məsələlərə münasibətdə ziyalıların səsi çıxmır. Buna səbəb nə ola bilər?

— Ziyalı millətin dərdini çəkən təbəqədir. Bunu inkar etmək olmaz. Çünki o yeraltı çayların hara axdığını yaxşı bilir. Azərbaycan ziyalılarının çoxu ayaq üstə infarkt vəziyyətində gəzir. Bütün bəlaları ziyalı görür, amma onun sözünü eşidən yoxdur. Qarabağda vəziyyət dəyişən zaman bir yazı hazırlamışdım. Hansı qəzetə apardımsa, o yazını dərc etmədilər. Bəhanə də gətirdilər ki, bu yazı milləti qızışdıracaq. O zaman Zori Balayanın «Ocaq» kitabı çıxmışdı. İndiyə kimi də o məqaləni çap etdirə bilməmişəm. Mane olan isə özümüzünkülərdir. Qəribə orasıdır ki, məqalənin işıq üzü görməsinin əleyhinə

çıxanlar birbaşa Qarabağ məsələlərinin içində idilər. Həmin göstərişi verənlərdən biri Şərqşünaslıq İnstitutuna gəlmişdi. Ona bildirdim ki, nə üçün məqalənin dərc olunmasına mane olur. Söz verdi ki, məsələni həll edəcək. Amma etmədi. Özü isə Qarabağ yolunda «getdi». Əgər ziyalını yazı yazmağa da qoymurlarsa, onun infarkt keçirməkdən başqa çarəsi yoxdur. Ziyalıların məsləhətini dinləmək lazımdır, onların hamısının ürəyi doludur. Hamısı qan ağlayır. Onlar rahat yaşaya bilmirlər. Bir halda ki, bizim torpağımızda düşmən at oynadır, anabacımız erməni əsirliyindədir, necə rahat olmaq olar?

Sovet dövründə çoxu partbiletdən qorxurdu. İndikilər qanundan da qorxmurlar.

— Sizcə, niyə olanlardan ibrət dərsi götürmürük?

— Onu ancaq ağıllı adamlar edir. İbrət götürmək qabiliyyəti bizdə zəifdir. Bilə-bilə özünü oda atırsansa, bu sənin ağıllı olduğuna dəlalət etmir.

— Bir əsr sonra dönüb geri baxanda bu günün məsuliyyətini kimlər daşıyacaqlar?

— Mən ayrı şeyin dərdini çəkirəm. Dünyanın müxtəlif təşkilatlarından borclar alınır. Elə borclar var ki, 40 ildən sonra qaytarılacaq. O pullar hara gedir, hara xərclənir, bunu demək çətindir. Bu vəsaiti kim qaytaracaq. Xalqı kapitalın əlində əsir etmək olmaz. Borcu alan iki dəfə keflənir: bir onu alanda, bir də qaytaranda.

— Siz ortaq məxrəcə gəlmək üçün nə təklif edirsiniz?

— Bu, mühüm problemdir. Sağlam cəmiyyətdə belə problem olmur. Orada əsas mənafe torpaq, dövlət və xalqdır. Bunu əldə əsas tutan cəmiyyət büdrəmir, inkişaf edir. Bizdə isə ortaq məxrəcə gəlmək üçün uzun bir proses olmalıdır. Təəssüf ki, bu gün heç kəs ortaq məxrəcə gəlmək istəmir. Öz evini vətəni, öz yaxınlarını milləti hesab edən adamlar var. Bu çox cılız düşüncədir. Təəssüf ki, bu, belədir. Nə qədər ki, bu torpağın övladı olduğumuzu dərk etmirik, bu problemlərdən yaxamızı qurtara bilməyəcəyik. Bunun üçün ziyalıların gücündən istifadə etmək lazımdır. Onlar təsir qüvvələrini itirməyiblər. Sadəcə onlar elə vəziyyətə salınıb ki, belə bir görüntü yaranıb. Bu məqamda onların özlərinin də günahı var. Əsas günah isə onları bu günə salanlardadır. Ziyalılar maddi cəhətdən sıxıntı keçirirlər. Böyük əksəriyyəti çox pis dolanır. Onların dolanışıq tərzini təsəvvür etmək üçün özümdən bir misal çəkim.

Bir dəfə baxdım ki, müəllifi olduğum «Dünyanı tanı» kitabın evdə yoxdur. Fikirləşdim ki, dostlarımın hansına qonaq getsəm, xahiş edəcəyəm ki, o kitabdan varsa, mənə versinlər. Bu fikirlə «Azərnəşr»dən aşağı düşürdüm. Gördüm ki, Nizami heykəlinin yanında divarın üstünə kitablar düzüblər. Səliqəsindən hiss olunurdu ki, həmin kitablar şəxsi kitabxananın olub. Orada «Dünyanı tanı»nı gördüm. Kitabı əlimə aldım. Hiss olunurdu ki, cəmi bir-iki dəfə oxunub. Əlimdə kitab gəldim satıcının yanına. Qiymətini soruşdum. Dedi ki, on beş min manatdır. Fikrimin gözü ilə cibimi qurdaladım. Gördüm cibimdə cəmi 5 min manat var. Sakitcə kitabı yerinə qoydum. Başladım özümü söyməyə: «Bu nə gündür ay Allah! Öz kitabımı da almağa pulum yoxdur». Birdən yadıma başqa şey düşdü. Nə yaxşı ki, satıcı məni tanımamışdı. Onda daha çox utanardım. Məni qınaya bilərlər ki, nə üçün özümü belə miskin göstərirəm. Deyərlər ki, Əlibala bunu dediyinə görə utanmırmı? Mən onlara cavab verirəm ki, utanmıram. Qoy, zəmanə utansın ki, onun ziyalısının öz kitabını almağa pulu yoxdur. Ziyalının övladı görəndə ki, valideyni bu qədər xidmət göstərir, əvəzində pis gündə yaşayır, bu sənətə nifrət etməzmi? Bunun yeganə yolu cəmiyyəti sağlamlaşdırmaqdır, qanunları işlək hala gətirməkdir. Sivil ölkələrdə qanun ölkənin başçısı üçün də, çobanı üçün də eynidir. Amma bizdə qanun mənim kimi adama gələndə zərgər dəqiqliyi ilə işləyir, vəzifə sahiblərinin qarşısında isə acizdir. Nə qədər ki, belədir, cəmiyyət düzəlməyəcək.

— Bir az pessimist görünürsünüz. Bu, Azərbaycan ziyalısının görüntüsüdür?

— Ziyalılar pessimist deyil. Amma pessimist olanları da var. Ümumiyyətlə, bədbinlik çox pis xəstəlikdir. Bu insanları tərksilah edir. Vay o günə ki, bütün millət bədbin ola. Hələlik o vəziyyətdə deyilik, amma ona doğru gedirik. İnanıram ki, bu bədbinliyi aradan qaldıracağıq. Bunun bir açarı var ki, o da Qarabağdır. Hələlik biz danışıqlara, dünya ictimaiyyətinə arxalanırıq, ermənilər isə dünya ictimaiyyətini saymır. Bəs onda nə etməliyik? Bismillah ilə donuz darıdan çıxarmı? Tarixə nəzər salaq. Ermənilər indiyədək işğal etdikləri hansı ərazini azad ediblər? Bu gün Avropa Şurası bizə öz hökmünü diktə etməklə məşğuldur. Əgər o təşkilat doğrudan da demokratikdirsə, onun gözünün qabağında Ermənistan Azərbaycanın 20 faiz ərazisini işğal edib, 1 milyon adamı öz yurd-yuvasından didərgin salıb. Amma həmin təşkilat görmür ki, Ermənistan işğalçı ölkədir. Əksinə, Azərbaycanla Ermənistanı eyni vaxtda öz sıralarına qəbul edir. Bi-

zimkilər ortaya kəskin şəkildə mövqe qoymalıdılar. Ermənistanın torpaqlarımızdan çıxması üçün müəyyən müddət qoyulmalıdır. O vaxta qədər Ermənistan torpaqlarımızdan çıxsa sülhlə razılaşmalıyıq, əks təqdirdə torpaqlarımızı işğaldan azad etməliyik. Heç onda dünya dövlətləri də bizə bir söz deyə bilməyəcək. Çünki biz harasa hücum etmirik.

Torpaqlarımızı işğaldan azad etməliyik!

*Elşad Eyvazlı*

# YAZIÇI ONA GÖRƏ BÖYÜK OLUR Kİ, O, DÜNYANIN ƏN BƏDBƏXTİDİR

İnsanları düşünə-düşünə yaşamağa çağıran görkəmli yazıçımız Əlibala Hacızadə, yazmağa macal tapmadığı əsərlərini ən böyük itkisi hesab edir.

— Əlibala müəllim, əsərlərinizin birində bu şirin və gözəl dünyaya gəlib, yaşayan insanlar kimi müəllimlərinizə borclu olduğunuzu qeyd edərək, deyirsiniz ki, birindən əlifba, birindən düzlük və təmizlik, birindən ədalət və insaf... öyrənmişəm... Və özümü onların bir əsəri, bir kitabı sanmışam… Görəsən Əlibala Hacızadə bəs həyatdakı pislikləri kimdən öyrənib? Əgər pislik etməyi bacarmırsınızsa, onda sizi ideal insan hesab etmək olarmı?

— Çox yaxşı məsələyə toxundunuz. Fikrimcə, hər bir oxumuş, savad almış kəs kimi mən həyatda nə qazanmışamsa, müəllimlərimə borcluyam və mən sitat gətirdiyiniz romanımda da qeyd etmişəm ki, mən müəllimlərimin gəzən, danışan, yaşayan əsəriyəm. Və həqiqətən də bu belədir. Mən «Dünyanı tanı» əsərimi müəllimim Bəxtiyar Vahabzadəyə bağışlayanda qeyd etdiyiniz hissəni oxudum və o çox mütəəssir oldu. Elə buradan da deyə bilərəm ki, daima müəllimə pak, təmiz insan, varlıq kimi baxmışam. Çünki mənim atam da, anam da müəllim olub. Hələ onlar müəllim ola-ola, uşaqlıq çağlarımda onların çörək yeməyinə təəccüblənirdim ki, görən müəllim də çörək yeyə bilərmi?

İdeal insan məsələsinə gəlincə, mən ideal insan təsəvvür eləmirəm. Arzum olub ki, hər kəs aqil insan olsun və kamillik dərəcəsinə qədər yüksələrək ideallaşsın. Ancaq hələ ki, bu arzu olaraq qalır. Alimlərin, şairlərin, yazarların arzusu olaraq…

— Sizcə ideal insan olmağın arzu olaraq qalması nə ilə əlaqədardır?

— İdeal insan olmağı arzu edənlərin özlərini də saf-çürük etmişəm və görmüşəm ki, onlar kamil, ideal insan səviyyəsinə qalxa bilməyiblər. Bunun səbəbini mən mühitlə, zamanla bağlaya bilərəm. Çünki mühit insanı axıra qədər insaflı olmağa, xeyirxah olmağa, son anda ədalət mücəssəməsinə çevrilməyə qoymur. Ən çox sevdiyim adamlar o adamlardır ki, onlar mühitin cəngindən silkinib, çırpınıb çıxmağı bacarırlar və öz təmizliklərini qoruyurlar. Öz təmizliyini qo-

ruyan adamlara isə mən daima pərəstiş edirəm. Elələri də olur ki, həyat onları sınmağa, zəiflik göstərməyə sövq edir, çirkaba batırır. Mən hansısa yazımda yazmışam ki, insan doğrudan da yaranmışların ən şərəflisidir. Amma mən insan psixologiyasını öyrəndikcə bu qənaətə gəlmişəm ki, insan insan olduğuna, məhz müqəddəs olduğuna görə, başı ulduzlara toxunur. Amma bəzən ayaqları çirkablar içinə də düşür. Mən insana bu prizmadan, bu nöqteyi-nəzərdən yanaşaraq, ədalətli zamanın çirkli girdabından silkinib təmiz çıxan, heç olmasa, pislik etməyi bacarmayan adamlara böyük hörmətlə yanaşmışam və yanaşıram da. Çünki zamanın axarından duyulur ki, sən pislik etmirsənsə, deməli, elə yaxşılıq edirsən. Səssiz-səmirsiz…

— Əlibala müəllim, siz «Dünyanı tanı» əsərində obrazlarınızın dili ilə maraqlı bir fikir söyləyirsiniz. Qeyd edirsiniz ki, insanlar bəndədən daha çox qorxurlar, nəinki Tanrıdan. Görəsən cəmiyyətimizdə bəndə qorxusu, Tanrı qorxusunu belə üstələyib?

— Bu çox qəribə fikirdir. Elə demək olar ki, həmin romanı yazmağa məni sövq edən də bu fikir olub. Biz cəmiyyətdə yaşayırıq və cəmiyyətin o üzünü də, bu üzünü də görmüşük. Məncə bu gün cəmiyyətdə belə bir nüans qorxusundan yalan danışmaq olmur, bəndə qorxusundan da düzü demək olmur. Nə deməkdir bu… Tanrı yalan danışmağı qadağan edir, çirkin sifət adlandırır. Bu gün Tanrı kəlamına tapınmaqdan daha çox, cəmiyyətimizin xatalı ünsürlərinə üz tuturuq.

Bu gün cinayətkara, oğruya, üzr istəyirəm, «julikə» həqiqəti deyəndə, deyəndə ki, sən rüşvətxorsan, az qalır səni öldürsün. Niyə? Çünki sən ona həqiqəti deyirsən. Bütün bunlara baxanda görürsən ki, Tanrının səbri tükənməzdir, böyükdür. Onun hüzurunda yalan danışanda insan fikirləşir ki, Tanrı buna görə ona 40 ildənmi, 50 ildənmi sonra və ya o dünyada cəza verəcək.

Amma indi bu da bir reallıqdır ki, həqiqəti dediyinə görə səni öldürürlər. Ona görə də məcbur olursan ki, yalan danışasan, həqiqəti deməyəsən.Pis adama, rüşvətxor adama deyəsən ki, bu yaxşı adamdır, təmiz adamdır.

Elə bu prizmadan danışaraq qeyd edirəm ki, həyatda hər kəsin bir xasiyyəti olur. Mən də hər şeyə dözürəm və ümumiyyətlə dözümlü adamam. Amma yalana dözə bilmirəm. Yalan mənim bir nömrəli düşmənimdir. Yalanın böyüyü, kiçiyi yoxdur. Əgər sən mənə kiçik bir yalan deyə bilirsənsə, sabah yalanın böyüyünü də deyəcəksən. Onda tərəf-müqabilim haqqında olan fikrim tamam dönür, sınır. Həmin an o adamı mən yer üzünə gəlməmiş bir adam hesab edirəm. Ona görə də

bu kriteriya ilə yaşamağı xoşlayan adamam. Elə yazılarımda da insanları düşünə-düşünə yaşamağa çağırmışam. Düşünə-düşünə yaşayan adam peşiman olmur. Çox görürəm ki, əksəriyyət elə Tanrı ümidinə yaşamaq yolu tutub, onlara mənim yazığım gəlir. Düşünə-düşünə yaşamaq məncə insan üçün hörmətdi, izzətdi, şərəfdi və nəticə etibarı ilə həm özü, həm də övladları üçün baş ucalığıdır.

— Ümumiyyətlə götürsək, bugünkü ədəbiyyatımızda yaradıcı proseslər necə, sizi qane edirmi?

—Yox, hazırkı ədəbiyyatımızdan mən çox bədbinəm. Düzdür, yazıçılarımız, şairlərimiz yenə də yazırlar. Şerimiz, poeziyamız, xüsusilə cavanların simasında müəyyən qədər inkişaf edir. Lakin nəsə bir durğunluq hiss edirəm ədəbiyyatımızda. Bu özünü dramaturgiyamızda da göstərir. Əlbəttə, bu durğunluğun düzəlməsi üçün uzun bir proses tələb olunur. Ancaq bugünkü səviyyə, bugünkü mərhələ əlbəttə ki, o qədər də qənaətbəxş deyil.

— Sizcə bu qənaətbəxşsizliyin səbəbi nədədir?

— Bunu onunla izah edə bilərəm ki, biz Qarabağ münaqişəsinə düçar olandan sonra, çox şeyləri itirmişik. İlk növbədə torpaqlarımızı, cavanlarımızı itirmişik. Nə qədər şikəstimiz var. Bir millət kimi mənən sındırıblar bizi. Mən hərdən təəccüb edirəm ki, biz necə yaşayırıq. Bizim gözlərimizə necə yuxu gedir ki, mənim, sənin torpaqlarında düşmən at oynadır, qocalarımız, qadınlarımız, uşaqlarımız düşmən əsirliyindədirlər. Bax, mən bunu heç cür ağlıma sığışdıra bilmirəm. Məclislərdə də, görüşlərdə də qeyd edirəm ki, siz necə yatırsınız, mən yata bilmirəm. Mənim şəxsən yediyim də, içdiyim də yuxularım da haramdır. Bu məsələnin ədəbiyyatda əksinə gəlincə isə mən başqa bir məqama da toxunmaq istərdim. Bayaq itkilərimizdən danışdım. Ən böyük itkimiz hələ gözümüzə görünmür. Ən böyük itkimiz yaza bilmədiyimiz əsərlərdir, çəkə bilmədiyimiz rəsmlər, bəstələyə bilmədiyimiz nəğmələrdir. Hələ bunu çox az adam hiss edib, duya bilir. Amma illər keçdikcə bu itkilərimizi daha dərindən dərk edəcəyik və onda bu boşluğu doldurmaq çox çətin olacaq bizim üçün. Ona görə də mən müasir ədəbi prosesdə ayrı-ayrı sıçrayışları, nüansları çıxmaq şərti ilə bir süstlük, bir ölgünlük, bədbinlik hiss edirəm. Çünki səbrin də bir həddi var və sənətkar o zaman yazıb-yaradır ki, fikri azad, qəlbi rahat olsun, oxucuya deməyə sözü olsun. Məsələn, mən deyirəm ki, torpaqlarımız azad olunmalıdır. Amma necə, hansı qüvvə ili? Bu cavabsız suallar əslində qələm əhlini məyuslaşdırır.

— Əlibala müəllim, siz söhbətinizdə müharibə mövzusuna da toxundunuz. Amma gərək ki, bu günkü ədəbiyyatımızda müharibə mövzusu yoxdur, xüsusilə də nəsrimizdə. Baxmayaraq ki, torpaqlarımız işğal altındadır. Görəsən müharibə mövzusunda yazmaq üçün hökmən oturub müharibənin bitməsinimi gözləmək lazımdır?

— Əlbəttə, sizin fikrinizlə mən dərazıyam. Ötən 1941-45 müharibəsində də bu proses hiss olunurdu. Ancaq müharibənin gedişində də xeyli əsərlər yaranmışdı. Daha sanballı əsərlər isə müharibədən sonraya təsadüf etdi. Mən cəsarətlə deyə bilərəm ki, indinin özündə də ədəbiyyatımızda bu səpkili əsərlərə təsadüf edilir. Bir çox yoldaşlar kimi mənim özüm də bu hadisələri əks etdirən «Möcüzə» adlı romanımın birinci hissəsini bitirmişəm.Artıq ikinci hissəsi üzərində işləyirəm. Bir tərəfdən baxanda indi iri həcmli əsər çap elətdirməyin özü də müşkül məsələdir. İndi elə şərait yaranıb ki, kimin pulu var, kitab çap elətdirə bilir, kimin pulu yoxdur, durub baxır. Amma bu əsas vermir ki, müasir ədəbi prosesimizdə bir gözləmə mövqeyi var və oturub gözləməliyik ki, müharibə nə vaxt bitəcək, biz də oturub bu haqda əsərlər yazacağıq.

— Əlibala müəllim, bilirik ki, uzun illər Əfqanıstanda diplomatik fəaliyyət göstərmisiniz və yaradıcılığınızın bir hissəsi də Əfqanıstan həyatı ilə bağlıdır. Bilmək istərdik ki, bu fəaliyyət sizin ədəbi yaradıcılığınıza nə dərəcədə təsir etdi?

— Əfqanıstandakı fəaliyyətim mənim həyatımda böyük və önəmli tarix oldu. Mən Əfqanıstana getməsəydim, bir sıra silsilə qürbət hekayələri yaza bilməyəcəkdim. Əfqanıstana getməsəydim, «İtkin gəlin» trilogiyasını Vətəndə yazmalı olacaqdım. Yazacaqdım, amma tamam ayrı şeydən. Mənim ora düşməyim mənim üçün yeni sahələr açdı. Gördüm ki, orada Azərbaycan oxucusuna demək üçün çoxlu məqamlar var.

Halbuki onları mən burada, Vətəndə ömründə deyə bilməzdim. Əfqanıstana getməmişdən əvvəl bir hekayə yazmışdım, rüşvət haqqında. Onu Bakıda çap eləmirdilər. Hekayədə bir nəfəri rüşvət üstündə tuturlar, azadlığa çıxanda soruşurlar ki, necə oldu qurtardın? Deyir, — bizim uşaqlar mərifətlidirlər. Bir balaca rüşvət verdim, buraxdılar. O vaxtlar bunu cəmiyyətimizə yad haldır deyə çap eləmirdilər. Əfqanıstana getdikdən sonra Kabildən hekayəni göndərdim və sonra çap elədilər. Üstünə də yazmışdım ki, «Əfqanıstan, 1968-ci il». Yəni, o senzuranın sıxıntıları altında ürəyimdə qalan, deyə bilmədiy-

im sözləri, əfqan mühitində imkan tapıb deyə bildim. Məsələn, «Qəzet də yalan danışır» adlı hekayəni burada yaza bilməzdim. Necə ola bilərdi ki, sovet qəzeti yalan danışa bilər. Məni ittiham edərdilər. Yaxud da ki, Nəcməddin tapança ilə ona xəyanət edən Dünyanı vurub öldürür. Burada mən onu yaza bilməzdim ki, sovet adamında tapança nə gəzir? Yazdığım trilogiyada milli azadlıq hərəkatını təsvir etmişəm. Bunu bəlkə də heç kim bilmir, fərqinə də vardır. İzdihamlar, küçələrdə camaat üsyan edir… Onda Əfqanıstanda elə şeylər yox idi. Bu mənim arzularım idi. Bunu ona görə yazmışdım ki, İlahi, görən bizim xalq nə vaxt deyəcək ki, bu nə hakimiyyətdir, bu nə sistemdir? Nə vaxta kimi biz qul olaraq yaşayacağıq? Mən bütün bunları yazırdım. Amma burada elə bilirdilər ki, mən əfqan xalqının milli azadlıq mübarizəsini əks etdirmişəm. Bir sözlə, Əfqanıstanda qazandıqlarım itirdiklərimdən çox oldu. O trilogiyanın yazılmasına görə, özümü çox xoşbəxt hiss edirəm. Fürsətdən istifadə edib, oxucularıma öz təşəkkürümü bildirirəm ki, əsəri çox yaxşı qarşıladılar və məni daha da ruhlandırdılar.

— Artıq əsrin başa çatmağına az qalır. XX əsr Azərbaycan ədəbiyyatına nəzər salanda Əlibala müəllimi ən çox nə düşündürür. XX əsrin yekunu olaraq, ədəbiyyatımızı Əlibala Hacızadə bir yazıçı, bir qələm sahibi kimi necə xarakterizə edə bilər…

— XX əsrin son mərhələsidir… Bir növ minilliyin təhvil-təslim məqamıdır. Nə qazanılıb, nə əldə olunub, nə itirilib… Şəxsən mənə görə, XXI əsrə Azərbaycan ədəbiyyatı daha böyük diapazonla, böyük əsərlərlə, dahi qələm sahiblərimizlə qədəm qoyacaq. Onlar arasında ən çox cavanları görürəm. Mən, onların əsərlərini oxuyuram, bu xalqın, bu millətin həyəcanlarını,çırpıntılarını duyuram və hiss edirəm ki, bu dərd o cavanları əsil şair, yazıçı eləyəcək. Çünki dərdsiz şair, yazıçı olmaq mümkün deyil. Mən hələ xoşbəxt yazıçı, şair görməmişəm, bu mümkün olan şey deyil. Bəlkə də yazıçı, şair ona görə böyük olur ki, o, dünyanın ən bədbəxtidir.

Azərbaycan ədəbiyyatının XXI əsrdəki mənzərəsini nikbinliklə qarşılayıram. Burada bizim yaxşı, sanballı yazıçılarımız meydan sulayacaqlar. Bu əsrdə yazıb-yaradan, millətin, xalqın taleyini əsərlərində əks etdirən, düşünən və düşündürən sənətkarlarımız XXI əsrdə də yaşayıb-yaradacaq, öz davamçılarını yetişdirəcəklər. Mən bu fikirlərimi səsləndirməklə, XXI əsrin ilk onilliyini indidən təsəvvür edirəm. Güman edirəm ki, mədəniyyətimizin də, ədəbiyyatımızın da çiçəklənmə dövrü hələ qarşıdadır. Əgər biz Qarabağ dərdini ürəyi-

mizdə və taleyimizdə XXI əsrə aparmasaq. Bu haradasa bizim qabağımıza yeni əsrin astanasında dığırlanan yekə bir daşdır. Ümidvaram ki, bu problemi əsrin sonuna qədər həll edəcək, gülər üzlə, əlimizdə qələm deyəcəyik ki, XXI əsr, xoş gördük səni!

*Yunis Orucov*

## ÜÇ İNSAN ÖMRÜ YAŞAMIŞAM

İntuisiya ilə yazdığım bu əsəri öncəgörən qadın oxuyub mənə dedi ki, sən özün vergilisən, ona görə də intuisiya ilə belə bir əsəri yaza bilmisən

1935-ci ildə Biləsuvar rayonunun Ağalıkənd kəndində müəllim ailəsində anadan olub. BDU-nun şərqşünaslıq fakültəsini bitirib. EA-nın Şərqşünaslıq İnstitutunda işləyir.

Əsərləri ilk dəfə «Gəncliyin səsi» adlı almanaxda çap olunmuşdur. «Heykəl gülür» adlı ilk kitabı 1961-ci ildə çapdan çıxıb. 1962-ci ildə SSRİ Yazıçılar İttifaqının üzvü olub. 1964-cü ildə Fərrux Yəzdinin həyat və yaradıcılığı haqqında dissertasiya müdafiə edib. Daha sonra onun «Məhəbbət olmayan evdə» (1963) və «Unutmaq olmur» (1964) adlı romanları çap olunub. Əfqanıstanda tərcüməçi işlədiyi dövrdə «İtkin gəlin» romanını yazıb. «Əfsanəsiz illər», «Ayrılığın sonu yoxmuş» adlı romanları ona böyük şöhrət gətirib. «Vəfalım mənim» romanı isə böyük qalmaqala səbəb olub. Bu kitaba görə ciddi təzyiqlərə məruz qalıb. İki dəfə işdən çıxarılıb, lakin hər dəfə bərpa olunub. Əsərlərinin çapına qadağa qoyulub. Beş il qadağadan sonra «Dünyanı tanı» romanını çap etdirib. «İtkin gəlin» və «Yandırılmış adam» dram əsərləri Gəncə Dövlət Teatrında uzun müddət oynanılıb. «İtkin gəlin» trilogiyası əsasında 12 seriyalı teleserial çəkilib və televiziya vasitəsilə nümayiş etdirilib. «Şəhriyar» qəzetində işlədiyi dövrdə bir sıra tərcümələr edib. İranın keçmiş xarici işlər naziri Əli Əkbər Vilayətinin «Səfəvilər dövründə İranın xarici siyasəti tarixindən», Rəcəb Nejadın «Zamanın aynası» adlı kitablarını fars dilindən azərbaycancaya çevirib.

— Əlibala müəllim, əvvəlcə szin dilinizdən eşitmək istəyirik ki, «sarı sim» nədir?

— «Sarı sim» çox şairanə bir addır. Mən qəzetinizin səhifəsində bu rubrikanı görən kimi çox bəyəndim. Çünki çox zərif duyğulara toxunur. Siz bilirsiniz ki, tarda, sazda bir sarı sim var və bu sarı sim musiqinin ahənginə xüsusi bir gözəllik bəxş edir. İnsanların ürəyində də gözə görünməz bir sarı sim var, onu gözlə görmək mümkün deyil. Bir yaxşı söz, bir yaxşı baxış, münasibət insanın ürəyini titrədirsə, deməli, o zaman ürəkdəki o sarı simə toxunulub.

— Müsahibələrinizin birində qeyd etmişdiniz ki, yaradıcılığınıza on bir yaşınızdan başlamısınız…

— Bu son illərə qədər onun fərqinə varmırdım. Amma bu yaxınlarda mən bunun maraqlı bir tarixçəsini özüm üçün aydınlaşdırdım. İlk əsərimi doğrudan da on bir yaşında olarkən, beşinci sinifdə yazmışam, dram əsəri idi. Məktəbdə sinif yoldaşlarımla tamaşaya qoymuşduq və özüm də bu rolların birinin ifaçısı olmuşam. Əsərin adı və məzmunu yadımda deyil. Təbii ki, o zaman belə şeylərə əhəmiyyət vermirdim. Mən oynadığım obraz qaça-qaça səhnəyə girir və vedrəyə dəyib yıxılır. Mən bu rolu oynayanda vedrəyə ilişib yalandan yox, həqiqətən yıxıldım. O zaman, müharibədən sonrakı aclıq illərində mənim yeganə şalvarım var idi, o şalvarın dizi partladı. Evə qayıdanda nənəm məni çox danladı. Dedi, indi dərsə nə geyinib gedəcəksən? Niyə mən bu məsələni təfsilatı ilə danışdım? Mən indi aydın görənlərin həyatından bir roman yazmışam. Cəmiyyətin iç üzünü göstərmək üçün bu mövzunu bir vasitə kimi seçmişəm. İç üzünü açmaq üçün axı gərək mikroskop gözü ilə cəmiyyətin içinə, bütün varlığına nüfuz edə biləsən, onun əsil simasını duya biləsən. İndi həyatda hamı yalan danışır, biri-birini aldadır. Düzlük düzdə qalıb. İnsanlar biri-birini aldatmaqla dolanırlar. Bu mənim ürəyimi ağrıdır. Odur ki, aydın görən obrazını yaratdım və saldım bu cəmiyyətin içinə. Mərkəzi Komitənin katibindən tutmuş adi sürücüyə qədər insanların əsil simasını o görücü qadın oxucuya təqdim edir.

— Sonuncu yazdığınız əsərinizdən danışırsınız?

— Elədir, hələ dərc olunmayıb. Və istəyirdim ki, mən bir öncəgörən adam tapım, görüm intuisiya ilə yazdığım bu əsəri necə qiymətləndirəcək. Bir dostum məni belə bir insanla tanış elədi. Onun adı Nailə Əmrahovadır. Dedim siz mənə sənətinizin hikmətlərini açın, siz bunu haradan bilirsiniz, mən bu mexanizmi öyrənmək istəyirəm.

— Onun hər şeyi doğru dediyinə necə inandınız?

— Məni görən kimi «Kamil kimdir, səni operasiya edib bir dostunun vasitəsilə» — dedi. Doğrudan da məni Kamil adlı həkim operasiya etmişdi, çox yaxın dostumun tövsiyəsi ilə. 80-ci ildən bəri demək olar ki, onun hesabına yaşayıram. Məni birinci dəfə görən adam hardan bilir bunu? O əsəri oxuyub mənə dedi ki, sən özün vergilisən, ona görə də intuisiya ilə belə bir əsəri yaza bilmisən.

— Gərək ki, o qadın sizə verginin işıq və torpaq vasitəsilə verildiyini söyləyib…

— O işıq və torpaq sözünü çox fikirləşdim. Axırı tapdım. Uşaq idim, traktorçu qonşumuz Umud kişi mənə dedi ki, Əlibala, gəl bu şnuru tut, mən traktoru işə salım. Mən də şnuru tutdum, o motoru fırlayanda məni «tok vurdu». Bütün bədənimi gizildədib ayağımın altındakı torpağa keçdi. Mən görücü qadının dediklərini bir həftə fikirləşəndən sonra bu proses yadıma düşdü və xatırladım ki, ondan sonra mən yazmağa başlamışam. Bu mənim üçün çox maraqlıdır. Romanın adını «Möcüzə» qoymuşam və həqiqətən bu qadın ecazkar bir qadındır.

— Amma mən fikirləşirdim ki, sizin yaradıcı kimi formalaşmağınızda ziyalı ailəsində doğulmağınız rol oynayıb.

— Mənim səkkiz yaşım var idi anam rəhmətə gedəndə. Atam isə on beş yaşım olanda rəhmətə gedib, onların yalnız kitabları qalmışdı mənə. Uşaqlığım müharibənin acı illərinə düşür.

— Müharibəni necə xatırlayırsınız?

— Müharibəni başladığı gündən axırına qədər xatırlayıram. 1941-ci ildə biz Astarxanbazara qonaq getmişdik. Atam müəllim işlədiyinə görə məktəbdə qalmışdı. 22 iyulda gəldik evə, gördük qapımız bağlıdır. Nənəm soruşdu ki, Qüdrət hanı?

Dedilər getdi müharibəyə. Müharibə başlayan kimi elə həmin gün də atam könüllü surətdə cəbhəyə yazılmışdı. Tez bir zamanda atamdan qara xəbər gəldi. Yanından gələn də var idi. Dedi ki, bombaya düşüb, məhv olublar. Müharibə qurtarandan sonra atam sağ qayıtdı. Anam rəhmətə gedəndən sonra bizi nənəm saxlayırdı, Səriyyə idi adı. 1945-ci ilin axırları, çiskinli bir payız günü idi. Gördüm nənəm mənə dedi ki, Əlibala, samovarı hazırla. Dedim samovarı neynirsən? Dedi qonağımız gələcək, Qüdrət gələcək. Başladı həyətbacanı süpürməyə. Sonra çıxdı həyətdən kənarda, yolun qırağını da süpürdü. Qonşumuz Əli kişi vardı. Dedi ay Səriyyə, nə əl qatıbsan özünə yenə, sil-süpürlə məşğulsan. Dedi ki, Qüdrət gələcək. Əli kişi mənə bir işarə elədi. Yəni ki, arvad havalanıb. Çıxıb getdi. Ondan 3-4 saat sonra həmin kişinin oğlu İbiş qaça-qaça gəldi ki, muştuluğumu verin, Qüdrət gəlir. Yadıma gəlir ki, bir cırıq ayaqqabım var idi, onu da tapmadım geyməyə, corabla qaçdım. Gördüm bir kişi şineldə, «veşmeşok»la, əsgər çəkmələrində gəlir. Çayın qırağında qucaqlaşdıq, ağlaşdıq.

— Qara xəbər gələndə nə etdiniz?

— El adəti ilə qıtlıq da olsa, molla çağırdıq, ehsan təşkil etdik. Qırxını da verəndən sonra gözümüzü yoldan çəkdik. Amma anası inanmırdı onun ölümünə.

— Yəqin bu yüksək intuisiya sizə gendən gəlib, ümumiyyətlə, özünüzü vergili sayırsınızmı, Əlibala müəllim?

— Nailə xanım deyəndən sonra özümü vergili hesab edirəm. Hərdən deyirdim ki, ilahi, sən məni niyə belə yaratmısan? Niyə mən bir kəlmə sözdən ölürəm və ya bir kəlmə sözdən dirilirəm. Hərdən mənə elə gəlir ki, mən bir insan ömrü deyil, üç insan ömrü yaşamışam. Bəlkə də ona görə belə tez qocalmışam. Mən insanın yalan danışmasını duyuram, amma utanıram onu utandırım, deyim ki, sən niyə yalan danışırsan? Onu da ürəyimə dərd edib əsəbləşirəm, niyə bu insanlar iki simalıdır? Çox adamlara demişəm, sən bu işi gördün, bunun nəticəsi bu olacaq və doğrudan da olub.

— Mənə indi aydın oldu ki, siz insanların ürəyinə necə girib çıxa bilirsiniz. Əlbəttə, qadın obrazını bu qədər dolğunluğu ilə vermək, onun hissiyyatlarını, düşüncələrini olduğu kimi qələmə almaq, qadının dünyasını yaratmaq asan deyil!

— Mənə bu sualı çox verirlər. Bir dəfə görüşlərin birində bir qadın təkrar soruşdu ki, qadınların psixologiyasını siz hardan belə yaxşı bilirsiniz? Dedim elə sizin özünüzdən. Necə? Mən çox xoşqılıq adamam, yəni birinci dəfə gördüyüm adamla beş dəqiqədən sonra on ilin, yüz ilin dostu kimi danışa bilirəm. Çünki onun ürəyini, hisslərini, düşüncəsini oxuyuram və qadın ürəyinin mexanizmini öyrənirəm. O da heç özünün də xəbəri olmadan dərdini mənə danışır. Sonra onları ümumiləşdirirəm və bunlardan bir variant kimi yazılarımda istifadə edirəm. Məsələn, romanlarımda əks etdirdiyim qadınların hərəsinin həyatı yüz min qadının həyatının ümumiləşmiş formasıdır. Mən çox vaxt dinlədiyim qadınlara bu hissin necə başladığını və nə ilə bitəcəyini deyirəm. Və sonda həmin məsələyə münasibətin doğruluğu onların heyrətinə səbəb olur.

— Xahiş edirəm ilk məhəbbətiniz barədə danışasınız.

— Qonşuda bir qız var idi, rəhmətlik Əlyağa Ağayev demişkən, «asiğ olmuşdum». 8 yaşım var idi. Bu qız mənə o qədər doğma idi ki…

— Hər bir insan öz əsərlərində həyatının müəyyən dövrünü yaşayır. Sizdə necə?

— Mən bir kiçik hekayəmdə yazmışam. Şəhərə kənddən gələn bir uşaq olur, kirayədə qalır, Universitetdə imtahan verir. Həyətdə birinə vurulur. Sentyabrda dərsə gələndə görür ki, həmin qız əlində jurnal girdi sinfə. Sən demə, həmin cavan qız Universitetin müəlliməsi imiş. Bu «Heykəl gülür» kitabımdadır.

— Çox maraqlıdır. Mən bir şeyi də bilmək istərdim, siz özünüz qadını necə görmək istərdiniz?

— Qadın dünyanın ən şərəfli və ən gözəl məxluqudur. Yer üzündə Məhəmməd peyğəmbərdən tutmuş bütün dahilər bunu deyiblər. Mən yeni bir şey demirəm, qadın həyatın yaraşığıdır, gözəlliyidir. Amma qadın çox ziddiyyətli bir məxluqdur. O qədər mürəkkəbdir ki, bəzən özü-özündən də baş açmır. Məsələn, biri bir qadının yolunda varını-yoxunu verməyə, hətta ölməyə də hazırdır. Görürsən, qadın onu sevmir, sevə bilmir. Gedir eləsini sevir ki, onu təhqir edir, döyür, alçaldır. Bu anlaşılmazlıq deyil? Səni sevəni sev də, sevməyənə sən niyə qul olursan? Qadın sevdiyi adamı, yolunun üstünə çıxan adamı xoşbəxt etməyə çalışmalıdır. Qadını mən əvvələn ağıllı, həssas, ərinin ürəyindən keçənləri başa düşmək qabiliyyətində görmək istəyirəm. Belə olanda qadın özü də xoşbəxt olar. Qadının gözəlliyi mənəvi gözəlliyindədir. Əksinə, hiylə, məkr, yalanla onlar çox şeyi itirirlər. Bu yolla insanın həyatına daxil olan qadınlar kişinin ürəyində duruş gətirib, möhkəm qərar tuta bilməzlər. Sən düşünülmüş yalanlarınla, ağıllı mühakimələrinlə ürəyə girə bilərsən, amma orada yaşaya bilməzsən. Sən o qapıları elə bağlayarsan ki, bir də geriyə sənin yolun olmaz. Mən insanlar tanıyıram ki, yalan uydura-uydura yaşayıblar və nəticə etibarilə özləri uduzublar.

— Müdriklər deyir, ürəyin elə sirləri var ki, ağlın ondan xəbəri yoxdur…

— Bəli, bəli. Sizin bu sözünüz Rəsul Rzanın bir şerini yadıma saldı. Birinci bənddə deyir ki, sən mənə yox dedin, çıxıb getdin, elə bildim hər şey qurtardı. İkinci bənddə gör nə deyir:

Röyada dün gecə dodaqlarından
Öpürkən qəlbimin əsdi telləri.
Sən demə əqlimmiş səni unudan,
Qəlbimin bu işdən yoxmuş xəbəri.

Gözəl deyib, həqiqətən qadınların məhəbbətində əqillə hissiyyat biri-birinə ziddir. Hətta Allahın özü bəzən göydən baxır yarat-

dığı, xəlq elədiyi bu məxluqa və deyir ki, mən bu yaratdığımdan özüm də baş aça bilmirəm. Mən bunu özümdən uydurmuşam ey… Doğrudan da mürəkkəb bir varlıqdır. Qadın insan taleyində həm xoşbəxtlik və həm də bədbəxtlik yaradıcısıdır.

— Qadınlarda sadaladığınız bu müsbət keyfiyyətləri öz həyat yoldaşınızda görürsünüz?

— Bəli, görürəm. Ağıllı, sədaqətli, kişinin rahatlığı üçün hər şeyi etməyə qadir olan bir insandır.

—Övladlarınızdan necə? Razısınız?

— Bəli. Böyük qızım Təranə Universitetin filologiya fakültəsini, oğlum Qüdrət şərqşünaslıq fakültəsini, kiçik qızım Asya isə jurnalistika fakültəsini bitiriblər. Üçündən də razıyam.

— Uzun müddət Şərq ölkələrində yaşamısınız. Ailənin tərbiyəsində Şərq stilini əsas götürmüsünüz, yoxsa…

— Yox. Təkcə sırf müsəlman xisləti və tərbiyəsi yolu ilə getməmişəm. Müasir insan gərək dünyanın bütün mədəni nemətlərindən istifadə edib öz həyatını maraqla yaşaya bilsin. Oğlum-qızlarım namaz qılan, oruc tutan xalis müsəlmandırlar, amma eyni zamanda müasir dünyanın gedişatından xəbərləri olan uşaqlardırlar.

## MƏN SİZİN İTKİN GƏLİNİNİZ OLACAĞAM

Qadın mürəkkəb bir mexanizmdir. Qovur səni, amma ürəyində deyir ki, kaş qayıdaydı…

— Əlibala müəllim, siz qadının çox yüksək tutulması fikrini qeyd elədiniz. Amma bu dəqiqə Azərbaycanda yeni qadın qul bazarları yaranır…

— Bu çox ağrılı bir məsələdir, çox dəhşətli bir şeydir. Bu bizim milli fəlakətimizdir.

— Bəziləri buna pis münasibət ifadə etmir. Məsələn, deyirlər ki, qadın pis yola düşüncə, gedib bazarda zəhmətini satıb pul qazansa yaxşıdır.

— Cəmiyyətimizdə qadınların iki cür bazarı var. Birinə qul bazarı deyirlər. Mənim aləmimdə bu nisbətən yaxşı bazardır. Hərçənd ki, çox təhqiredici, alçaldıcı bir adı var. Elə ora düşən adamın özü də həm alçalır, həm də təhqir olunur. Axı o da insandır, nəyi səndən,

məndən əskikdir ki, əməyini satır, başqa birisi isə alır. Cəmiyyətin binası qədimdən elə qurulub ki, biri qul olmalıdır, biri ağa. Kimin şansı gətirib o ağadır, kiminki bəd gətirib o, quldur. Bu yolla çörək qazananları mən çox istəyirəm. Əgər imkanım olsaydı, onların hamısını o qul bazarından yığardım, deyərdim, alın bu sizin maaşınız, gedin oturun, insanlığı, milləti təhqir etməyin. Heyif, mənim belə imkanım yoxdur, imkanı olanlar isə bu barədə düşünmürlər. Düşünsələr, allah haqqı, bu torpaqda bir nəfər ac olmaz. Bu torpağın sərvəti çoxdur. O biri deyilən bazar isə… Qadınlar gedirlər Dubaya, Türkiyəyə, özlərini satırlar, bu çox dəhşətli, lap öldürücü bir dərddir. Bu dərd qeyrəti olan hər bir kişini, istər vəzifəsi olsun, istərsə də olmasın, düşündürməlidir. Bunların başqa imkanı yoxdur ki, yəqin o yola düşürlər. Bundan da bizim bəzi arsızlarımız, şərəfsizlərimiz istifadə edirlər. Amma bu çox dözülməz və ağrılı bir problemdir.

— Bəs Azərbaycanın digər problemləri, ümumiyyətlə, bu günkü durumu barədə fikriniz necədir?

— Azərbaycanın bu günkü durumunu iki cəhətdən qiymətləndirirəm. Biri siyasət aləmində, beynəlxalq aləmdə görünən tərəfidi. Bundan mən razıyam. Məsələn, bu günlərdə Avropa Şurasına daxil olduq, siyasət aləmində bizim sözümüzü deyən var. Amma mən o Avropa Şurasının ədalətli bir şura olması fikrinə bir qədər şübhə ilə yanaşıram. Avropa Şurası nə cür Avropa Şurasıdır ki, təcavüzkarı da, işğala məruz qalanı da eyni gözdə görür. Ona görə də mən Avropa Şurasının ədalətli qərarlar çıxardacağına şübhə edirəm.

— Əlibala müəllim, yaradıcılığınızla bağlı nə deyərdiniz?

— Nə yazmışam, yazmışam. Dərc olunanları oxumusunuz. Hələ dərc olunmayanlar da durur.

— Onların dərc olunması nə ilə bağlıdır?

— Maliyyə problemləri ilə. Nəşriyyatlar kitab buraxa bilmir. Sponsor tapmaq lazımdır. Mənim yaşda kişi gedib kimə deyim ki, beş min dollar pul burax, mənim 500-1000 ədəd kitabım çıxsın. İmkan yoxdu, yəni bütün yazıçıları deyirəm ha… İndi çap elətdirmək mümkün deyil.İndi elə adamlar var ki, axtarsan bir misra ürəyə yatan yaradıcılığı yoxdur, amma dalbadal kitabları çap olunur. Kitab bazarını bunlar işğal ediblər. Amma əsl yazıçılar ki, kitabları bu xalqa, oxuculara lazımdır, onların kitabları qalıb stolun üstündə. Bu böyük dərddir. Mən müsahibələrimin birində demişəm ki, «kitabın kitabı

bağlanıb». «Dünyanı tanı» romanımın ikinci cildi çap olunmayıb. «Yandırılmış adamlar» romanım var mənim, çap olunmayıb.

— Yandırılmış adamlar deyəndə nəyi nəzərdə tutmusunuz?

— Müasir həyatımızda insan problemlərinə həsr olunub. Yəni tarixən kapitalizm, sosializm cəmiyyəti problemi olmayıb, insan problemi olub.

— Olubmu ki, hansısa bir əsərinizdə həyatın səhifələrini canlandırmısınız və buna görə böyük bir təzyiqlə üzləşmisiniz?

— Olub. «Təyyarə kölgəsi» əsərimin davamı olan «Vəfalım mənim» əsərimə görə mənim başıma olmazın müsibətləri gətirdilər. Bu adamlar o romanda özlərini tanımışdılar. Bu o adamlar idi ki, romanda obrazların etdiyi əməlləri bunlar özləri həyatda edirmişlər, sən demə. Məhz elə adamlar məni işdən çıxartdılar. Bu səksəninci illər idi. Məni beş il çap olunmaqdan məhrum elədilər. Mərkəzi Komitə birinci dəfə işdən çıxarılanda bərpa elədi, ikinci dəfə işdən çıxartdılar, bərpa elədi, axırda qutuya saldılar. Baş elmi işçilikdən, 325 manat vəzifə maaşı var idi onda, elədilər kiçik elmi işçi, 145 manat mənə maaş verdilər. Və illər boyu mən o cür məhrumiyyətlərə düçar oldum.

— Siz o təzyiqlərə məruz qalanda, hardasa yazdığımızı dəyişmək fikrinə düşmədiniz ki?

— Yox, qətiyyən. Yenə çap elətdirdim o romanı. Bir cümləsini də dəyişdirmədim, əksinə, bir az da artırdım.

— Təzədən bu illərə boylansaydınız, hansı işinizə görə peşimançılıq hissləri keçirərdiniz?

— Mənim bu yaxınlarda 65 yaşım tamam oldu. Mən şəxsən əməllərimdə heç bir şeyə peşiman deyiləm. Bircə şeyin peşimançılığını çəkirəm. O da bundan ibarətdir ki, bütün enerjimdən, imkanlarımdan tam istifadə edə bilsəydim, daha çox əsər yaza bilərdim. Edə bilməmişəm.

— Nəyə görə?

— Ona görə ki, bütün bu son illərin hadisələri məni də digər ziyalıların saldığı vəziyyətə salıb. İndi biz itkilərdən danışırıq son zamanlar. Şəhidlər vermişik, torpaqlar vermişik, bunu xatırlamamaq mümkün deyil. Bunları geri qaytaracağıq. Amma bir itki də var, onu hələ heç kim görmür. Şairlərimizin, rəssamlarımızın yarada biləcəkləri, ancaq yaratmadığı əsərlər. Mən bu on ildə ən azı beş roman yazardım. Amma «Möcüzə»ni hələ də qurtara bilmirəm. Çünki mən

rahat yaşaya bilmirəm. Mənim vətəndaşım, qadınlarımız, analarımız, bacılarımız ermənimin əlində əsir olurkən, torpağımda düşmən at oynadırkən mən necə rahat ola bilərəm?

— Maraqlıdı, «Ölüm yoxdur» əsərinizdə hansı fikir formalaşır?

— O mənada götürmüşəm bunu ki, düzdür, ölüm haqdır, amma adam var, ölür, amma yaşayır, adam var ki, yaşaya-yaşaya ölüdür. Mən burda öləndən sonra yaşayan adamları nəzərdə tutmuşam.

— Əfsanə kimdir, Əlibala müəllim?

— Əfsanə «İtkin gəlin»in əsas qəhrəmanıdır. Bu kitabı Əfqanıstanda olarkən yazmağa başlamışam. Əfsanə gözəl, dərdli, ağıllı Şərq qadınıdır. O gözəl olduğu qədər də bəxtsizdir. Bu gözəllik onun xoşbəxtliyinə mane olur. İstər o cəmiyyətdə, istərsə də bu cəmiyyətdə həddindən artıq gözəl qız, qadın çox nadir hallarda xoşbəxt olur. Onların gözəlliyindən hər kəs istifadə etməyə, onu ələ almağa, özününkü eləməyə çalışır. Ona görə də bu gözəlin gözəlliyi başına bəla olur. Xüsusilə Əfqanıstan kimi bir yerdə belə gözəl qadının ərinin başını kəsib alarlar əlindən, oğurlayarlar, apararlar, satarlar onu. Min iş gətirərlər başına məhz o gözəlliyə sahib olmaq üçün.

— «İtkin gəlin»lə bağlı oxucular sizə müraciət edib?

— Çox. Bir dəfə gecə saat üç idi. Oturub yazırdım, birdən telefon zəng çaldı. Telefonu götürüb dedim kimdir? Cavab gəldi ki, «siz məni tanımazsınız, mən sizin «İtkin gəlin» kitabınızı oxumuşam, yata bilmirəm. Sizə həm təşəkkür etmək istəyirəm, həm də qəzəbimi bildirmək istəyirəm ki, mənim şirin yuxumu qaçırtmısınız». Mən ondan ikinci dəfə soruşanda ki, axı kimdir zəng edən, o qız cavab verdi ki, siz məni ömrünüz boyu axtaracaqsınız, tapa bilməyəcəksiniz. Mən sizin İtkin gəlininiz olacağam. Axtarın, məni tapa bilməyəcəksiniz.

— Xaricdə çoxlu maraqlı hadisələrlə rastlaşmısınız?

— Əfqanıstanda dörd il tərcüməçi işləmişəm. Ora gedəndə artıq Yazıçılar İttifaqının üzvü idim. Üç kitabım çıxmışdı. Orda yaradıcılıq üçün çox maraqlı həyatla qarşılaşdım. Qürbətlə bağlı bir neçə hekayə yazdım. Amma gördüm müşahidələrim hekayələrə sığışmır. Mənim burda yazmaq istədiyim, amma yaza bilmədiyim, çap etdirə bilmədiyim məsələlərə də toxunmuşam. Məsələn, Şərq aləmində belə bir adət var, böyük qardaş öldü, kiçik qardaş onun arvadını almalıdır. Mən buna qarşı çıxmışam o romanda. Orda mənim bir tələbəm var idi, soruşdum neçə arvadın var? Dedi dörd. Soruşdum necə olub ey bunları almısan? Dedi birincisini on altı yaşımda sevdim, atama

dedim, aldı. İkincisini yetkin vaxtımda sevdim, aldım. Üçüncüsünü qardaşım öldü, qardaşımın arvadını atam dedi ki, al. Biz qoymarıq ki, namusumuz, qeyrətimiz gedib başqasının ayağı altında tapdansın. Dördüncüsünü də atam aldı. Dedi vəzifəli adamlardan biri ilə qohum olmaq lazımdır. Getdi onda Əfqanıstanın baş naziri var idi, Məhəmməd Haşim Meyvəndəl, onun bacısı qızını aldı, qara qız idi.

— Özünüz gözəl şerlər müəllifisiniz. Niyə onların dərc olunmasını bu qədər gecikdirmisiniz?

— Mən şair deyiləm axı…

— Şair deyilsiniz, amma bir kitablıq materialı stolunuzun üzərində görürəm. Sevdiyiniz şerlərdən birini deyin.

— Ən çox sevdiyim şer?

Qədrimi bilmədin, ay qədirbilməz,
Sən ömrün boyunca tək qalacaqsan.
Küsdürdün qəlbimi, qapına gəlməz,
Sən ömrüm boyunca tək qalacaqsan.

Səadət qonmuşdu başına sənin,
Çünki mən çıxmışdım qarşına sənin.
Dilin zəhər qatdı aşına sənin,
Sən ömrün boyunca tək qalacaqsan.

Zər-ziba içində süsləsələr də,
Naz-nemət içində bəsləsələr də,
Yanında olsa da nəvə də, ər də,
Sən ömrün boyunca tək qalacaqsan.

Pərişan, peşiman baxıb yollara,
Sən nə göz yaşı tək, nə geyin qara,
Məni diri-diri gömdün məzara,
Sən ömrün boyunca tək qalacaqsan.

— Əlibala müəllim, indi də sizi oxucularınız şair kimi sevəcəklər. Əgər sirr deyilsə, deyin görüm, bu şeri kimə həsr etmisiniz?

— Heç, elə-belə…

— Elə-belə bu cür təsirli şer yarana bilməz… (gülürük)

— Mənim belə şerlərim çoxdur. Elə bilirlər ki, konkret bir adama həsr eləmişəm. Mən dərdli adamlarla görüşmüşəm, onların göz yaşlarını, çırpıntılarını, sarsıntılarını görmüşəm, elə bilmişəm ki, onlar mən özüməm.

— Sevgi nədir?

— Məhəbbət adi insani hissdir… Hamı istəyir ki, onu sevsinlər. Elə uşağı götür, sən onu döyürsən, o sənin ətəyindən yapışır. Cavan da istəyir onu sevsinlər, 100 yaşında qoca da istəyir ki, onu sevsinlər. Hamı deyir ki, sev məni. Sevgi Allah-Təala tərəfindən insana, bütün həyata bəxş edilmiş bir nemətdir. Bir şerim var:

Ürəyimə od salıbdır bir gözəl,
Odu deyir, közü deyir, sev məni.
Dilində get deyir, ürəyində gəl,
Qaşı deyir, gözü deyir, sev məni.

Mən sevirəm, məhəbbəti min aləm,
Qismətimiz gah sevincdi, gah da qəm.
Qədəmləri dəyən yerdən öpürəm,
Ayağının tozu deyir, sev məni.

Gözəllikdə yer üzündə o birdi,
Sevən könlüm zülflərinə əsirdi.
Yaram üstə duz bassa da nə sirdi,
Şirin olur duzu, deyir, sev məni.

Ondan başqa bir kimsədə yox gözüm,
Gül adıdır əzəl sözüm, son sözüm.
O tanrıya qul olmuşam mən özüm,
Tanrım gəlib özü deyir, sev məni.

— Görürəm ki, siz ömrünüz boyu gənclik eşqilə yazıb-yaratmısınız. Gənclərimiz barədə nə deyərdiniz?

— Ümumiyyətlə, mən gəncləri çox istəyirəm. Onların dərdlərini, problemlərini başa düşürəm. Onların gəncliyi çox mürəkkəb bir vaxta təsadüf edib. Onlar çırpınırlar, onları həyat sıxır. Naz-nemət içində yaşayanlarla işim yoxdu mənim. Gənclərimizin böyük əksəriyyəti sıxıntı içərisindədir. Qidalanmaqdı, yaxşı geyinməkdi, yaxşı

dərs oxumaqdı — bunlar hamısı bir yerdə gəncləri formalaşdırır. İnanıram ki, bunları ağılla, idrakla keçib gedən gənclər sabah layiqli insanlar, layiqli vətəndaşlar olacaqlar. Amma bu axının içində büdrəyib yolda qalanlar da çox olacaq. Oğurluğa, nəşəyə, pozğunluğa qoşulanlar da çoxdur. İstər qız, istər oğlan olsun, bunlar ələnəcək-ələnəcək, axırda ləyaqətlilər, mətanətlilər, ürəklilər üzə çıxacaqlar. Büdrəyənlər arxadan onlara baxıb həsəd aparacaqlar ki, axı bunlar da bizimlə gedirdilər, biz yarı yolda qaldıq.

— Siz bu gün gənc olsaydınız, nə edərdiniz?

— Mən gənc olsaydım, buralarda tapılmazdım, səngərlərdə olardım. Elə indiki yaşımda da deyirəm ki, torpaqlarımızı azad etməyə çalışardım. Əgər bu gün əmr versələr, 17 yaşından 60 yaşına qədər hamı bir nəfər kimi getsin cəbhəyə, mən gedib pasportumu dəyişdirərdim, edərdim 55 yaş, qoşulardım əsgərlərə.

— Bu yaşda özünüzü necə hiss edirsiniz?

— Özümü yaxşı hiss edirəm. Amma dərdliyəm. Ürək dolusu gülə bilmirəm. Mənim tez-tez ürəyimdə tikələr qalır. Bir tikə çörəyin dalınca qaçan, ehtiyac içində yaşayan insanları görəndən sonra necə rahat çörək yeyə bilərəm?

— Dolanışıq necədir, Əlibala müəllim?

— Dolanışıq? Çəkdiyim ucuz siqaretə bax, özün hər şeyi başa düşəcəksən.

*Saminə Hidayətqızı*

## «MƏN ƏDƏBİYYATIMIZN ÖGEY ÖVLADIYAM»

Yazıçının əsərləri onun özü haqqında çox şeyi deyir. O, dərddən yazır, çünki özü də bu dərdi yaşayıb. Və bu gün də yaşayır. Onun qəhrəmanları ehtiyacdan, ayrı-ayrı çatışmazlıqlardan əziyyət çəkir. O özü də bunların hamısını görüb və yaşayıb. Elə bu gün də yaşayır. «Bu gün» sözünü eləcə söz xətrinə söyləmədim. Ona görə ki, hər sənətkara, söz adamına nəsib olmayan böyük bir oxucu ordusunu sonsuz sevgi ilə bu günə gətirib çıxaran sevimli yazıçımız Əlibala Hacızadə ona olan diqqətsizliyə görə dünənində də, bu günündə də özünü ədəbi aləmdə qərib sayır. Amma günahı da kimsədə görmür. Özü demiş, görünür bu aləmə qaynayıb-qarışa bilməyib.

Ancaq onun həmişə söz, sənət məclislərində aləmə necə qaynayıb-qarışdığının çox şahidi olmuşam. Həmişə də özü kimi sadə insanların arasında. Cek Londonun məşhur «Martin İden» əsərində deyildiyi kimi, yazıçının sevinci elə onun yaradıcılığındadır. Bir də ona ruh verən oxucu sevgisidir ki, yazıçı bu məhəbbəti illüziya, fantaziya elementlərindən uzaq, elə həyatın özündən götürdüyü əsərləri ilə qazanıb. O, insanların faciəsini özgə bir yanğı ilə qələmə alır. Ona görə ki, o, cəmiyyətimizdə də əksər insanların xoşbəxt olmadığını görür və bundan təsirlənir. Özünü şair saymasa da, oxucu onun şerlərini də çox sevir. Bəlkə ona görə ki, onlar bu şerlərin isti göz yaşları qədər ürəkdən gəldiyinə əsla şübhə eləmir. Və oxucu özünü tapır bu sevginin, qəmin içində. Əlibala müəllimin özü də şer, poeziya vurğunudur. Onun müəyyən məqamları olur ki, həmin vaxt sevdiyi bir şer parçasını dinləmək onun üçün hava kimi, su kimi bir şeydir. Onunla söhbətin, onun şerlərini dinləməyin özü də bir aləmdir. Amma bu söhbəti qələmə almaq texniki səbəblərdən o qədər də asan başa gəlmədi.

— Əlibala müəllim, bu gün söz adamı üçün dəyişən zamanın yükünü çiynində daşımaq yəqin ki, o qədər də asan deyil. Bu baxımdan sizi hansı problemlər narahat edir?

— Yazıçı və zaman problemi müasir, həmişəyaşar bir problemdir. Bütün cəmiyyətlərin özlərinin salnaməçiləri olur. O cəmiyyətin tərcümeyi-halını, tarixini yazan yazıçılar, şairlər olur. Təsadüfi deyil ki, keçmiş dövrləri biz o dövrdə yaşamış sənətkarların əsərlərindən öyrənirik. Mənə elə gəlir ki, yazıçı cəmiyyətin öndə gedən,

qabaqcıl adamı olmalıdır. O, adi insanlardan heç olmasa bir baş yuxarıda durmağa qadir olan insan olmalıdır. Və onlar cəmiyyətin daxilində gedən prosesləri hamıdan, hətta siyasətçilərdən də əvvəl təhlil edib, bu barədə insanlara məlumatlar verməlidirlər. Mən yazıçını cəmiyyətin ən xoşbəxt və ən bədbəxt insanı hesab edirəm. Xoşbəxtdirlər ki, onların istedadı var. Onlar öz ürək sözlərini yazıb tarixin qoynuna ata bilirlər. Yaşadığı cəmiyyətin panoramını çəkib gələcək nəsillərə qoyub gedirlər. Bu baxımdan yazıçının ölməzliyi də meydana çıxır. Onlar əbədiyyət yolçularına çevrilirlər. Sənət, ədəbiyyat əbədiyyətə gedən bir yoldur. Bu baxımdan onları xoşbəxt hesab edirəm. Amma onların bədbəxtlikləri də var. Bu bədbəxtliklər də ondan ibarətdir ki, onlar xüsusi biçimli, xüsusi təbiətə malik, zərif qəlbli, ancaq dərin düşünən insanlar olur. Bu da onlara böyük qayğılar, dərdlər gətirir. Məsələn, böyük yazıçıların həyatını göz önünə gətirin. Görün, onların hansı biri şəxsi həyatında xoşbəxt olub? Bir də xoşbəxt insandan böyük sənətkar çıxa bilməz. Dərd, qayğı insanı danışdırır. Və onların həyatını öyrənəndə görürsən ki, onlar təkcə öz dərdlərini deyil, sənin, mənim, cəmiyyətin dərdlərini qələmə alırlar. Buna görə də onlar bəzən cavan yaşlarında dünyalarını dəyişirlər. Hər halda onlar adi insan ömrü yaşamırlar. Ona görə də mən bu insanları fərqləndirirəm.

— Yəqin sizin üçün də yaşayıb-yaratmağın çətinlikləri az deyil?

— Cəmiyyət yeniləşdikcə təbii ki, insanlar da dəyişir. Və zamana uyğunlaşmaq lazım gəlir. İndiki çətinliklər yaradıcı insanları daha çox sıxır. Eləsi var, bu dəyişikliyə uyğunlaşa bilmir, eləsi də var ki, onun üçün münbit şərait yaranır. Mənim aləmimdə sənət adamları dözümlü olmalıdır. Zəifləri həyat sevmir, zaman tank kimi onları ayaq altına alır. Bizim yazıçılarımız bu reallıqları da əks etdirir. Ancaq ümumilikdə götürdükdə ədəbi aləmdə bir nizamsızlıq hökm sürür. Buna görə də ədəbi aləmi tənzimləyən bir qüvvəyə ehtiyac var. Bu da zamanın axarında öz yerini tapacaq.

— Bəs siz özünüzü bugünkü ədəbi mühitdə necə hiss edirsiniz?

— Mən ədəbi mühitdə özümü bir az qərib hiss edirəm. Hələ 15-20 il əvvəl «Yeni fikir» qəzetində bir məqalə ilə çıxış etmişdim. Orada belə bir söz işlətmişdim ki, mən ədəbiyyatımızın ögey balasıyam. Çünki özümə qarşı qayğı, diqqət hiss etməmişəm. Sadəcə yaxşı adamların qayğısı ilə bu kitabları çap etdirmişəm. Ona görə də yuxarıda Allah, aşağıda bu insanlara minnətdaram ki, mənə ürək sözlərimi

deməyə şərait yaradıblar. Sadəcə, mənim özümdə də günah var. Bu günah da ondan ibarətdir ki, mən yuxarı, vəzifəli insanlarla qaynayıb-qarışa bilmirəm və ona görə də yaddan çıxıram. Zaman hər şeyi yer-bəyer edən bir hakimdir. Mən oxucularımdan çox razıyam. O qədər mənə məktublar, zənglər, minnətdarlıqlar olur ki, mən bu məhəbbət qarşısında mütəəssir oluram. Elə hallar olur ki, hətta mənim əlimi öpmək istəyirlər, ayağım altında qurban kəsirlər. Məni şəxsən tanımayan, görməyən adamlar sevirlər. Bu mənim üçün çox böyük şeydir. Yeri gəlmişkən, mən ayrı-ayrılıqda cavab verə bilmədiyim oxucularıma minnətdarlığımı bildirirəm. Dostum, professor Nazim Hüseynliyə təşəkkür edirəm. Ona görə ki, o, məni yubileyimdə kitabımın çapı ilə təbrik edib. Məndən soruşanda ki, nə üçün uşaq da, böyük də sizi belə sevir, cavab verirəm ki, mən də sizin hamınızı sevirəm. Mənim məhəbbətim müqabilində ola bilməzdi ki, onlar da məni sevməsinlər.

— Məhəbbət demişkən, sizin geniş mənada məhəbbətə münasibətiniz də bir az fərqlidir. Məhəbbətə bu qədər önəm vermək nədəndir?

— Məhəbbət mənim üçün ən ülvi hissdir. Yer-göy məhəbbət üstündə qərar tutub. İnsanların bir-birinə sevgisi, valideyn-övlad sevgisi, təbiətə, Tanrıya sevgi — bunlar hamısı müqəddəs şeylərdir. İnsan o zaman xoşbəxtdir ki, o, gözəlliklərdən zövq ala bilir. Buna görə şəxsən mən özümü bütün bu gözəllikləri görüb-duyan insan hesab edirəm. Və hər şeyi də qiymətləndirməyi bacarıram. Xoşbəxt o yazıçıdır ki, o, belə məsələlərdən yazır. İnsan qeyri-adi məxluqdur. O bəzən o qədər müqəddəs olur ki, başı ulduzlara dəyir, bəzən də o qədər çirkindir ki, ayağı çirkablar içindədir. Bax, insanda bu təzadı görmək lazımdır. Sizə deyim ki, həyatda ideal heç nə yoxdur. Nə əsər, nə insan, nə də cəmiyyət. Buna görə də bu təzadlı hissləri başa düşən adamların özlərinin gözəllik haqqında müəyyən konsepsiyaları olur. Və bu konsepsiyalarla yaşayıb-yaradırlar.

— Amma məhəbbətin də öz faciəsi olur, elə deyilmi?

— Mərhum şairimiz Süleyman Rüstəmin bir şeri var. «Nədəndir bilmirəm, getməz ey könül, Başımdan sevdası ilk məhəbbətin». Əlbəttə, məhəbbət böyük olduğu qədər də onun böyük faciəsi var. İnsan elə məqamlara düşür ki, o hətta sevdiyini öldürə də bilir. Qısqançılıqdan insan böyük bəlalara düçar olur. Məsələn, insan tanıyıram ki, hər şeyi var. Varı-dövləti, sağlamlığı. Bir dəfə gördüm ki,

onlar zahirən xoşbəxt görünürlər. Məlum oldu ki, bu insanlar çox qısqancdırlar. Məhəbbətin qısqanclıq kimi bir naqisliyi də var. Ancaq qısqanclıq məhəbbət olan yerdə olur. Mən ərinin qısqandığı qadını xoşbəxt sayıram. O yalan sözdür ki, insan bir dəfə sevir. Hər yaşın öz sevgisi olur. Gəlir, yaşadır və yaxud da məhv edir. Məsələn, Nəcməddin Dünyanı böyük məhəbbətlə sevirdi. Ancaq bu məhəbbət onu da məhv elədi, Dünyanı da.

— Hazırda hansı əsər üzərində işləyirsiniz?

— Bugünkü cəmiyyətimizin panoramını yaratmaq hər bir yazıçının borcudur. Mən də bekar qalmamışam. Son illərdə «Möcüzə» adlı bir roman üzərində işləyirəm. Artıq birinci hissə hazırdı, ikinci hissə üzərində işləyirəm. Roman müasir həyatımızın son 14-15 illik dövrünü əhatə edir. Burada cəmiyyətin bütün təbəqələri öz əksini tapır. Çalışmışam ki, bir obrazla cəmiyyətin simasını açım. Bildiyimiz kimi, cəmiyyətdə yaxşı hallar olduğu kimi, bir sıra mənfi hallar da müşahidə olunur. Əvvəla, iqtisadi durumun zəifliyi, bazar iqtisadiyyatının sərt qanunlarına dözmək məsələsinə adət etməmişik. Yalan isə bizim cəmiyyətin gəmiricisinə çevrilib artıq. Ətrafa, insanlara baxırsan hamı bir-birini aldadır. İndi bu keçid dövründə yaşayan insanların əsl simasını açmaq sənət adamlarının vəzifəsidir. Məsələn, bu romanda sovet dövründə vəzifə sahibi olmuş, hamının inanıb hörmət bəslədiyi obrazlar var ki, əl çaldığımız bu adamların kim olduğu sonradan məlum olur.

— Bu obraz həyatdan götürülüb, yoxsa…?

— Şəxsən mən həyatda belə adam tanımıram. Amma belə adamların olduğuna inanıram. Mən bunu intuisiya ilə yazmışam. Bu qız bədbəxt bir insandır. Toy günündə ermənilər qardaşı ilə sevgilisini qətlə yetirirlər. Ümumiyyətlə, bu obraz vasitəsilə insanın necə ikiləşdiyinin şahidi olursan.

— Siz bir vaxtlar Əfqanıstanda çalışmısınız. Əfqanıstan və İran ədəbiyyatı ilə bağlı hansı qənaətdəsiniz?

— Mən 1966-70-cı illərdə Əfqanıstanda tərcüməçi kimi çalışmışam. Elə «İtkin gəlin» romanını da orada başlamışam. Yazdıqlarımı əfqan dostlarıma oxuyurdum. Ancaq onu özüm yazdığımı demirdim. Və onlardan nəyi düzgün yazmadığımı öyrənirdim. Əfqan ədəbiyyatı zəif ədəbiyyatdır. Məsələn, onların 30 səhifəlik kitabının yarıdan çoxu düzəlşlərə həsr edilir. Ancaq İran ədəbiyyatının tədqiqatçısı kimi deyə

bilərəm ki, onların çox güclü ədəbiyyatı var. İran ədəbiyyatının Firdovsi, Hafiz, Sədi, Xəyyam kimi dünya şöhrətli sənətkarları var.

— Mümkünsə bir az da dostlarınız haqqında danışardınız…

— Mən 50 ildir ki, bu şəhərdəyəm. Ancaq onların bir qismi artıq dünyasını dəyişib. Şair Ağacavad Əlizadə, Fərman Kərimzadə, İsi Məlikzadə, İsa İsmayılzadə, Firudin Ağayev, Şahmar Ələkbərzadə və başqaları. Fərmanla doğmalığım daha çox olub. Onun qəfil ölümü mənə çox pis təsir edib. Fərmanın ürəyi Qarabağ kimi bir dərdə dözmədi. Onda mən belə bir şey də yazmışdım.

Gəlişin yadımdadı,
Fərman, Fərman.
Gülüşün yadımdadı —
Fərman, Fərman.
Hər işin yadımdadı,
Fərman, Fərman.

Zəmanə qırdı səni,
Bu dərdlər yordu səni,
Anan çağırdı səni —
Fərman, Fərman…

— Bəs bu gün kimlərlə dərdləşir, oturub-durursunuz?

— Bu gün də çox dostlarım var. Şair Abbasəli Sarovlu, yazıçı Nahid Hacızadə, Oqtay Rza, Firuz Mustafa, İlyas Tapdıq. Onların hərəsinin mənim qəlbimdə öz aləmi var.

— Bəs dolanışıq, maddi qayğılarınız nə yerdədir?

— Yazıçıların böyük əksəriyyətinin maddi durumu qənaətbəxş deyil. Yaradıcı insanlar gərək iqtisadi qayğılardan azad olsun, qayğılar onu çaşdırmasın. Bu insanlara dövlət səviyyəsində qayğı göstərilməlidir.

*Mina Rəşid*

## ƏLİBALA HACIZADƏ YENİDƏN OXUCULARIYLA

*Yazıçının 10 cildliyinin ilk beş cildi oxuculara təqdim olundu*

Ötən həftə görkəmli yazıçı – «İtkin gəlin», «Əfsanəsiz illər», «Ayrılığın sonu yoxmuş» trilogiyası, «Vəfalım mənim» və s. kimi məşhur əsərlərin müəllifi Əlibala Hacızadənin «Gülağa Qənbərov Xeyriyyə Fondu»nun təşəbbüsü və maliyyə dəstəyi ilə 10 cilddə nəşr ediləcək əsərlərinin ilk 5 cildinin təqdimat mərasimi keçirildi.

«Avropa» otelində düzənlənən bu mərasim görkəmli mesenat H.Z.Tağıyevin layiqli davamçısı, xeyriyyəçi Gülağa Qənbərovun təşəbbüsü ilə baş tutmuşdu.

Sözün, sənətin işığına toplaşan tanınmış ziyalılar, elm, mədəniyyət xadimləri ədəbiyyatımıza, incəsənətimizə, təhsilimizə diqqət və qayğı ilə yanaşan mesenat, şair Gülağa Tənhaya (Qənbərov) bu xeyirxahlığına görə təşəkkür etdilər.

Mərasim Ə.Hacızadənin həyat yoluna qısa «səyahət»lə başlandı. Yazıçının həyat və yaradıcılıq yolundan söz açdı.

Əlibala Hacızadənin 10 cildliyinə ön söz yazmış yazıçı Nahid Hacızadə çıxış edərək bu gün yarım əsrlik əziz dostunun həyatında ən əlamətdar, unudulmaz bir gün olduğunu bildirdi: «Hər yazıçıya indiki iqtisadi çətinlik dövründə külliyyatını çap etdirmək nəsib olmur. Kitab nəşr etdirmək hal-hazırda demək olar ki, söz adamı üçün əsil bayramdır. Ancaq çoxcildliyin nəşri bayramlar bayramıdır. Kitablarının nəşr edilməməsindən gileylənən Əlibala bir neçə ay əvvəl müsahibələrinin birində demişdi ki, «Mən ədəbiyyatımızın ögey balasıyam» Mən onu bu sözünə görə qınadım ki, yox, Əlibala, sən həmişə ədəbiyyatımızın doğma balasısan. İndi üzümü ona tutub deyirəm: gör sənin məclisinə necə insanlar, necə dostların gəlib. Deməli, sənin nigarançılığın əbəs imiş. Mən fəxr edirəm ki, Ə.Hacızadənin kitabına ön söz yazaraq onu nəsrimizin nəğməkarı adlandırmışam. Çünki o, qəlbinin bütün zənginliyini əsərlərinə verib. O, müasir Azərbaycan poetik nəsrinin ustaları sayılan Məmməd Səid Ordubadi, Cəfər Cabbarlı, Seyid Hüseyn, Ənvər Məmmədxanlı və İlyas Əfəndiyev ənənələri üstündə köklənmiş nəğməkar bir yazıçıdır. Əlibala Hacızadə bənzərsiz söz ustasıdır. Onun oxucu auditoriyası olduqca genişdir. Öz yazılarında insanlara həmişə ümid, inam təlqin edən Əlibala müəllim neçə-neçə romanlarının əlyazmaları stolunun üstündə

hələ gəlib çıxmayan naşirini gözləyəndə dedi ki, «kitabın kitabı bağlanıb». Mən yenə onu qınadım ki, «ay Əlibala, sənin kimi yazıçının kitabı heç vaxt bağlana bilməz». Gülağa Qənbərovun sevimli ədibimizin 70 illik yubileyi ərəfəsində əsərlərinin 10 cildliyini çap etdirməsi bir daha təsdiqlədi ki, Əlibala Hacızadə «kitabı bağlanan» yazıçılardan deyil.

N.Hacızadə «Gülağa Qənbərov Xeyriyyə Fondu»nun prezidenti Gülağa Qənbərova Ə.Hacızadənin həm dostu, həm də bir oxucusu kimi minnətdarlığını bildirdi.

Mərasimdə çıxış edən akademik Bəkir Nəbiyev Əlibala Hacızadə ilə birgə keçirtdikləri gənclik illərinə qayıtdı: «Əlibala Hacızadə saçına barmaq batmayan, qarayanız, qara qaş, qara göz cavan bir oğlan olduğu vaxtlarda tez-tez «Azərbaycan gəncləri» redaksiyasına gələr, mən də onu qəbul edib şerlərini dərc edərdim. İndi bu əziz gündə Əlibala müəllim böyük sənətkar, ən yüksək səviyyəli əsərlər müəllifi kimi təqdim olunanda əlçatmaz o günlər yadıma düşdü…»

Çıxışını davam etdirən natiq üzünü dostuna tutdu: «Fikir verin, burada 10 cildlikdən söhbət gedir. Əlibala, dahi şairimiz Mirzə Ələkbər Sabir bircə kitabının belə çapını görmədi. Onun ölümündən sonra dostu Abbas Səhhət «Hophopnamə»ni çap etdirdi. Böyük şairimiz Mikayıl Müşfiqin kitabları işıq üzü görsə də, amma bunun ləzzətini ala bilmədi. Sən xoşbəxtsən ona görə ki, bu gün bu təntənənin canlı şahidi kimi yaşayırsan və bu, sənin halal haqqındır».

B.Nəbiyev Gülağa Qənbərovun maddi köməyi sayəsində Əlibala Hacızadənin əsərlərinin çapını, həmçinin külliyyatının kitabxanalara, oxuculara, təhsil müəssisələrinə pulsuz paylanmasını yüksək dəyərləndirdi.

Azərbaycan Yazıçılar Birliyinin katibi, xalq şairi Fikrət Qoca qələm dostu barəsində xoş sözlər söylədi: «Biz bu axşam Ə.Hacızadənin ona şöhrət gətirən əsərlərinin 5 cildinin təqdimat mərasiminə toplaşmışıq. Əlibala müəllimin 70 illiyinəcən daha 5 cildi çapdan çıxacaq və beləliklə, oxucular sevimli yazıçımızın tam külliyatı ilə tanış olacaqlar. Əlibala Hacızadəyə bu sevinci yaşadan insana, sözü uca tutan, onu qiymətləndirməyi bacaran Gülağa Tənhaya təşəkkür edirəm».

Mərasimdə çıxış edən şair Vahid Əziz isə Əlibala Hacızadənin sovet dövründə dövlət büdcəsinə ən çox gəlir gətirən yazıçı olduğunu vurğuladı. V.Əziz bu gün yazıçının külliyyatını nəşr etdirməklə çağdaş Azərbaycan ədəbiyyatı tarixinə böyük xidmət göstərən xey-

riyyəçi Gülağa Qənbərova minnətdarlığını bildirdi. Eyni zamanda indiyədək Ə.Hacızadəyə xalq yazıçısı fəxri adı verilməməsi və fərdi təqaüd kəsilməməsi üçün təəssüf edən V.Əziz üzünü Fikrət Qocaya tutaraq bu məsələnin Yazıçılar Birliyinin rəhbərliyi qarşısında qaldırılmasını xahiş etdi.

Millət vəkili, şair-publisist Sabir Rüstəmxanlı Ə.Hacızadənin əsərlərini əhatə edən 10 cildlik külliyyatının 5 cildinin çapı münasibəti ilə yazıçını təbrik edib ona yaradıcılıq uğurları arzuladı: «Əlibala Hacızadənin kitabları ən zəhmətkeş kitablardır. Ən çox oxunduğu üçün, təxminən Azərbaycan torpağına bənzəyir. Yazda da «əkilir», payızda da. İstismar edirik o «torpağı». Hər dəfə də yüksək məhsul götürürük. Əlibala müəllimin kitabları bu millətin «istismar» etdiyi kitablardır. Gecə-gündüz oxunur, vərəqlənir, vərəqlər cırılır, qopur, düşür, yenidən cildlənir, yenidən oxunur. Kitabın və müəllifin bundan böyük xoşbəxtliyi ola bilməz».

S.Rüstəmxanlı kitab çapı ilə bağlı bir məsələyə də münasibət bildirdi: «Vay o kitabların halına ki, bəzi sponsorların köməyi ilə xaricdə çap etdirilir, amma vərəqləyən belə olmur. O sponsorlara ar olsun ki, mənəviyyatımıza zərbə vuran, ədəbiyyata, bədii söz sənətinə dəxli olmayan kitablar çap etdirirlər. Sevindirici haldır ki, Gülağa Qənbərov Vətəndən uzaqlarda yaşasa da, Vətənin tərəqqisi, inkişafı üçün öz köməyini əsirgəmir. Əlibala müəllimin kitablarının «Gülağa Qənbərov Xeyriyyə Fondu»nun maliyyəsi ilə təmənnasız işıq üzü görməsi təqdirəlayiqdir».

S.Rüstəmxanlı respublikamızda və kənarda yaşayan bütün imkanlı soydaşlarımızın da bundan sonra Gülağa Qənbərov kimi ədəbi, elmi-publisistik əsərlərin yeni əlifba ilə çapına qayğı ilə yanaşmasını arzuladı.

Azərbaycan MEA Geologiya İnstitutunun direktoru, akademik Akif Əlizadə bu mərasimdə iştirakından məmnun olduğunu söylədi və Ə.Hacızadəni 10 cildliyin nəşri münasibətilə təbrik etdi: «Əlibala Hacızadə kimi görkəmli bir yazıçının 10 cildliyini nəşr etdirməklə çağdaş Azərbaycan ədəbiyyatı tarixinə böyük xidmət göstərmiş xeyriyyəçi Gülağa Qənbərova təşəkkürümü bildirirəm. Çünki Gülağa müəllim öz əməlləri ilə insanlara xoşbəxtlik gətirir. Hesab edirəm ki, o, bundan sonra da ədəbiyyatımızın və incəsənətimizin inkişafında xeyriyyəçiliyini davam etdirəcək».

Akademik Budaq Budaqov Ə.Hacızadənin dilimizin şəhd-şirəsini istər nəsr əsərlərinə, istərsə də şerlərinə hopdurduğu üçün daima sevilə-sevilə oxunduğunu qeyd etdi.

Filologiya elmləri doktoru, professor Nizaməddin Şəmsizadə Ə.Hacızadənin bütün əsərlərini əhatə edən 10 cildliyini oxuculara təmənnasız hədiyyə etdiyinə və xalqımızın rifahı naminə həyata keçirdiyi xeyriyyə işlərinə görə Gülağa Qənbərova təşəkkür etdi: «Ölkədə bəzən elə kitablar çap olunur ki, yazılan sözlərdən kağız utanır. Kağızın qiyməti sözün qiymətindən baha olması indiki dövrdə söz adamı üçün ağır dərddir. Allah bizi belə kitablardan, belə sponsorlardan uzaq eləsin».

Xeyriyyəçi Gülağa Qənbərov ünvanına söylənən xoş sözlərə görə hamıya öz minnətdarlığını bildirdi. Bədii yaradıcılığına və yüksək insani keyfiyyətlərinə dərin hörmət bəslədiyi Əlibala Hacızadənin əsərlərinin 10 cildliyini öz maliyyə vəsaiti hesabına çap etdirən Gülağa Tənha dedi ki, insan etdiyi yaxşılıqları dilə gətirməməlidir: «Mən Əlibala müəllim haqqında danışarkən onu demək istəyirəm ki, bizim ömür yolumuz bir-birinə çox bənzəyir. İkimiz də həyatımızın müəyyən hissəsini Əfqanıstanda yaşamışıq. O, anasız böyüyübsə, mən də uşaq ikən ailədən uzaq düşmüşəm. Bir sözlə, ikimiz də çətinliklərlə qarşılaşmışıq. Və bu ağrı-acılar yaradıcılığımızda öz əksini tapıb… Mən Əlibala müəllimlə şəxsən tanış olandan sonra onun nə qədər təvazökar bir insan olduğunu gördüm. Mən ondan dəfələrlə hər hansı bir probleminin olub-olmaması barədə soruşsam da, heç vaxt heç nə deməyib. Halbuki rayonlarda olanda biri deyir, mənə inək al, biri maşın istəyir, digəri deyir ki, məni evləndir. Hər kəsin bir dərdi. Amma Əlibala müəllim bir dəfə də olsun nəyəsə ehtiyacı olduğunu dilə gətirməyib. Bir təsadüf nəticəsində məlum oldu ki, Əlibala müəllim əsərlərini yenidən çap etdirmək istəsə də, maliyyə çətinliyi ucbatından iş yarımçıq qalıb. Və mən özümə borc bildim ki, onun bu arzusunu yerinə yetirim. Mən tək Əlibala müəllimin yox, Vətənini, xalqını sevən hər bir azərbaycanlı insanına təmənnasız xidmət etməyə hazıram. Bu, mənim Vətənə, torpağa məhəbbətimdən irəli gəlir. Azərbaycana gəldiyim ilk gündən bildirmişəm ki, mən heç bir siyasi və kommersiya fəaliyyəti ilə məşğul olmuram. Ölkəyə nə pul, nə də vəzifə üçün gəlməmişəm. Sadəcə olaraq xeyriyyəçi H.Z.Tağıyevin ənənəsini, yolunu davam etdirmək istəyirəm… Hörmətli prezidentimiz İ.Əliyevə öz minnətdarlığımı bildirirəm ki, Azərbaycanda indi sabitlikdir. Maneəsiz olaraq ölkəyə gəlirik, Vətənimi-

zə, millətimizə xidmət edə bilirik. Hərdən mənə sual verirlər ki, siz əvvəllər də gəlmişdiniz, bəs niyə qayıdıb getdiniz? 90-cı illərdə Azərbaycana 6 milyon dollara yaxın pul gətirmişdim. O vaxtkı bəzi məmurlarımız məni aldadıb həmin pulu əlimdən aldılar. Ona görə də 93-cü ildə ölkədən çıxıb getdim. Bütün bunlara baxmayaraq, mən mərhum prezidentimiz H.Əliyevin çağırışı ilə yenidən Azərbaycana qayıtdım və bundan sonra da müstəqil ölkəmizin daha da çiçəklənməsi yolunda dövlətimizə ən yaxın yardımçı olmağa çalışacağam».

Gülağa müəllim daha sonra qeyd etdi ki, Ə.Hacızadənin adına bankda xüsusi hesab açdırıb və həmin hesaba Rusiyadan hər ay 500 ABŞ dolları məbləğində təqaüd kimi pul daxil olacaq.

Mərasimdə şair Oqtay Rza, filologiya elmləri namizədi Xeyrulla Əliyev, xalq artisti Kamal Xudaverdiyev çıxış edərək Əlibala Hacızadənin bənzərsiz qələm sahibi kimi məziyyətlərindən danışdılar və ona yeni yaradıcılıq uğurları arzuladılar.

Sonda mərasimin səbəbkarı Əlibala Hacızadə görülən bu xeyirxah işlərə görə xalqımızın vətənpərvər, qeyrətli oğlu Gülağa Qənbərova dərin təşəkkürünü bildirdi. Ə.Hacızadə həmçinin mərasimə qatılmış görkəmli insanlara onun haqqında söylədikləri xoş sözlərə görə razılıq etdi və hamıya can sağlığı arzuladı.

Əməkdar artist Səidə Quliyeva, aktyor İlham Əsgərov, Mətanət Atakişiyeva və başqaları Əlibala Hacızadənin və Gülağa Qənbərovun şerlərindən nümunələr söylədilər, müğənnilərdən Elxan Şirinov, Zeynəb Behbudova isə onların sözlərinə bəstələnmiş mahnılar ifa etdilər.

*Elbar Şirinov*

## NƏCMƏDDİNİN ƏLİYLƏ DÜNYANI ONA GÖRƏ ÖLDÜRDÜM Kİ…

Bu yandan da «kitabın kitabı bağlanıb»

Gələcəyi haqqında məlumatlıdır. Keçmişi də maraqlı olub. Bu gününü isə iş otağında çap olunmasını gözləyən əsərlərinə baxa-baxa keçirir. Ancaq yazmağından da qalmır. Nə qədər ki, sevir və duyur, yazacaq. Yazdıqları oxucuya çatacaqmı, onu özü də bilmir. Ümumiyyətlə, «yazıçının yazmaq qərarı nədən doğur?» — deyə yazıçı Əlibala Hacızadəylə söhbətə başlayırıq.

— Mən altıncı sinifdə oxuyandan yazıram. İlk əsərim məzmununu xatırlamadığım dram idi. Üstündən 55 il keçdikdən sonra mən siz verən sualın cavabını tapdım. Bir dəfə öncəgörən dostum mənə dedi ki, sənə işıq və torpaq vasitəsilə vergi verilib. Əvvəl heç nə xatırlaya bilmədim. Ancaq bir həftədən sonra yadıma belə bir əhvalat düşdü. Qonşumuz Umud kişi traktorçu idi. Bir gün məni çağırdı ki, gəl, şunuru tut, traktoru işə salım. Mən də tutdum. Motorun dəstəyini fırladanda məni bərk «tok» vurdu. Bütün bədənim gizildədi. Torpaq da yaş olduğundan cərəyan məndən torpağa keçdi. Deməli, işıq və torpaq həmin vaxt mənə vergi verilməsinə yardımçı olmuşdu. İlahi bir qismət imiş. Ondan sonra yavaş-yavaş yazmağa başladım. 1953-cü ildə Bakıya gələndən sonra yaxşı ədəbi mühitə düşdüm. Müəllimlərim vardı — Mir Cəlal, Mübariz Əlizadə, Əli Sultanlı. Onlar böyük şəxsiyyətlər idi.

— Belə deyirlər ki, yaradıcı insan öz əsərilə heç nə demək istəmir. Sadəcə, özünü ifadə edir. Əgər belədirsə, yazıçının çap olunmaq istəyi nədən doğur?

— Mən bu fikirlə razılaşa bilmərəm. Əgər oxucuya heç nə deмirəmsə və bunu istəmirəmsə, demək, mən yazıçı deyiləm. Mən oxucuya həyatı başa salmaq istəyirəm.

— Buna nə dərəcədə nail olursunuz?

— Deyə bilmərəm… Sözü de, yiyəsi götürər. Çoxları mənə «sağ olun, mənim hisslərimi necə gözəl ifadə etmisiniz» — deyir. Bir dəfə telestudiyada bir qız yaxınlaşıb dedi ki, Əlibala müəllim, siz mənə böyük bir yaxşılıq etmisiniz. Mən də baxıram ki, bu qızı tanımıram axı. O danışdı ki, iki qardaş bir-birindən xəbərsiz onu sevirmiş. Hansını seçmək çətinliyi qarşısında qalan qız «İtkin gəlin»dən ibrət

götürüb hər ikisinə yox deyib. Mən də ona dedim ki, afərin, qızım, hansı birinə «hə» desəydin, böyük fəlakətlərə səbəb ola bilərdin.

— Əlibala müəllim, sizcə, ədəbi tənqid nəyə lazımdır?

— Tənqidçiləri qəbul etmirəm. Çünki indi sağlam tənqid yoxdur. Bizdə tənqid münasibət üzərində qurulub. Məsələn, sizə bir yaxşılığım dəyibsə, mənim kitabım haqqında mütləq xoş fikirlərinizi yazırsınız. Bu zaman əsərin səviyyəsi o qədər də önəmli sayılmır.

— Bəs, Sovetlər dönəmində vəziyyət necə idi?

— O vaxt hər şeyin meyarı, ölçüsü vardı. Professor Şahin Səfərov mənim üzümü görmədən böyük bir məqalə yazmışdı. Orada da qeyd etmişdi: «Üzünü görmədiyim Əlibala Hacızadə». Ədəbiyyatda Mehdi Hüseyn, Rəsul Rza kimi aparıcı şəxsiyyətlər vardı. Onlar ədəbiyyat aləmində milçək vızıltısını da eşidib öz münasibətlərini bildirirdilər. İndi belə şeylər yoxdur.

— Ədəbiyyatımız o dəyərləri nə vaxt itirdi?

— Zaman dəyişdi. Zaman dəyişəndə hər şey dəyişir. Hələ bir sistemdən çıxmışıq, təzəsini yarada bilməmişik. Yazarlarda da, oxucularda da bir çaşqınlıq var. Fikrimcə, yazıçı cəmiyyətin axarını, gedişin nəylə nəticələnəcəyini əvvəlcədən bilməli və bu barədə cəmiyyəti xəbərdar etməlidir.

— Yəni öncəgörən olmalıdır?

— Bəli. Sənətkar cəmiyyətin öncəgörəni olmalıdır. Əsl yazıçı cəmiyyəti bir-iki kitabla da silkələyə bilər. Onu ya qaldırar, ya da məhv edər…

— Bayaq tənqiddən əbəs yerə söz açmadım. Maraqlıdır, hansısa yazıçı tənqiddən nəticə çıxarıb yaradıcılığında nəyisə dəyişibmi?

— Belə şey olmayıb. Məsələn, mən haqqımda yazılan tənqidi məqaləni oxuyub qoyuram kənara. Heç bir təsiri yoxdur. Çünki ən yaxşı tənqidçi özüməm. Əsərlərimin hansı yerinin zəif, harasının güclü olduğunu özüm bilirəm. Hələ elə bir tənqidçi görməmişəm ki, «Təyyarə kölgəsi», «Vəfalım mənim»i mən istəyən kimi açsın.

— Ümumiyyətlə, əsərləriniz haqqında adi oxucu, yoxsa, tənqidçi fikirlərini əsas görürsünüz?

— Adi oxucunun fikri daha səmimidir. O siyasətsiz, birbaşa öz münasibətini bildirir. Tənqidçi müxtəlif prizmalardan, kiminsə xoşuna gəlib-gəlməyəcəyini müəyyənləşdirib fikir söyləyir. Tənqidçi biri haqqında yaxşı fikir desə, o biri deyəcək, bəs mən? Ədəbi tənqid belə

şeyləri nəzərə alıb qələm işlətdiyinə görə, onun fikirlərinə inanmıram.

— Bəs tənqidin peşəkarlıq tərəfini nəzərə almırsınız?

— Tənqiddə peşəkarlıq ikinci dərəcəli şeydir. Hər bir tənqidçinin öz düsturu, öz çərçivəsi, ora düşən və düşməyən əsərləri, yazıçıları var… Rəsul Rzanı sərbəst vəzndə yazdığına görə tənqid edirdilər, bu yoldan çəkindirmək istəyirdilər. O bunlara fikir vermədi. Fikrət Qoca onun 70 illiyində yaxşı bir şer yazmışdı.

Bunlar söydülər, tənqid elədilər,
Rəsul Rza qulaq asmadı, yazdı,
O qulaq assaydı, Rəsul Rza olmazdı.
Budur əsas məsələ.

— Əsərləriniz elə bitir ki, onların mütləq ardı olacağını düşünürsən. Növbəti cildlərdən isə soraq yoxdur.

— Yarımçıq əsərlərim yetərincədir. «Vəfalım mənim»in 3-cü cildi — «Ölüm yoxdu» hazırdır, çap etdirə bilməmişəm. «Yandırılmış adam» da, «Dünyanı tanı»nın 2-ci cildi də çap gününü gözləyir. Əvvəllər kitablarım dəfələrlə 100 min tirajla çap olunub. İndi dövlət nəşriyyatları zəifləyib, özəl nəşriyyatlar pulla çap edir. Necə deyərlər, kitabın kitabı bağlanıb. Oxucu kitab ala bilmir. Həvəsi olanın pulu, pulu olanın həvəsi yoxdu. İndi 500 nüsxə kitabı neyləyəcəyəm? Elə min nəfərdən çox dost-tanış, qohum-əqraba var. Oxucunun gözləməyinə nə verirlər, yazıçının imkanı yoxdur çap etdirməyə. Bəlkə o kitabların nəşrini heç mən də görmədim

— Cild-cild əsərləri sizə yazdıran ilham pərisi haqqında da eşitmək maraqlıdır.

— Konkret bir adam nəzərdə tuta bilmirəm. Ürək bir söz demək istəyirsə, onda yazıram. Bildiklərimi istəyirəm hamı bilsin. Mən «İtkin gəlin»də Nəcməddini öz əliylə güllələtdim. Yəni ayağını yorğanına görə uzat, bu yaşda cavan qızla evlənmək olmaz. Cəmiyyətdə mövcud olan belə adamlara göstərmək istəmişəm ki, bu işin axırı necə olur. Dünyanı Nəcməddinin əliylə ona görə öldürdüm ki, onun haqqı yox idi o məhəbbətin qarşısında ərinə xəyanət etsin. Dünyalara göstərmək istəmişəm ki, xəyanətin sonu budur. Əbdülü öz oğlunun əliylə öldürdüm ki, Nəcməddin kimi kişiyə namərdlik etmək olmazdı. Bildiyim şeyi deməsəm, ürəyim partlayar. İlham insanın ürəyindədir. Ürək ki, düşündü, sevdi, duyğulandı, o həmişə yazmağa məcbur edəcək.

— Planlarınız haqqında da bilgi verərdiniz.

— Xırda-xuruş işlərlə məşğuluq. Kartof-soğan dərdi yazmağa qoymur.

— Əvvəldə öncəgörən dostunuzun keçmişiniz haqqında düzgün məlumatlar verməyindən danışdınız. Bəs o, gələcəyiniz haqqında nələr dedi?

— Gələcəyimi qəsdən soruşmuram. Çünki özüm bilirəm. Məsələn, bilirəm ki, nə qədər yaşayacağam…

— Nə qədər?

— Hər halda 70-i keçəcəm.

*Jalə İsmayıl*

## BİR ÖMRÜN FƏLSƏFƏSİ
(*İxtisarla*)

Yazıçı Əlibala Hacızadənin həyatını və yaradıcılıq fəaliyyətini işıqlandıran «Bir ömrün fəlsəfəsi» kitabı yazıçı-publisist Həqiqət xanım Kərimovanın 2002-ci ildə ziyalılara hədiyyə edəcəyi növbəti kitabıdır. Əsərdən bəzi parçaları ixtisarla oxucularımızın nəzərinə çatdırırıq.

Gözlərin şəfəqli, ürəyində qış,
Neçə ağrı-acı ora yol almış.
Qəmini dostların duymasın deyə,
Gülsən də o hisslər qəlbimə tanış.

Kimi aldadırsan aldat, özün bil!
Elə bu xislətlə həm sev, həm sevil.
Amma əziz dostum, unutma heç vaxt,
Həqiqət bunlara aldanan deyil!

Təmiz xislətinin qəlbi qan ağlar,
Düşər saçlarına vaxtsız bəyaz qar.
Naqisə bu dünya geniş olsa da,
Qəlbi gülməyənə dünya daralar.

Dərmansız bir dərd var yaman azardı…
Biri guya şair, biri yazardı.
Sözə gövhər dedi dahi Nizami,
Bəs niyə şeriyyət indi bazardı?

Kim səni duyacaq de, ey sənətkar?
Elə zamandır ki, göz kor, qulaq kar!
İlahi nurundan nurlananların
Çəkilib yoluna uca hasarlar.

Mən kül üfürmədim heç zaman gözə,
Qələmin qızıldır, özün möcüzə.
Torpaqdan, işıqdan sənə bəxş olan,
Vergidən gecə də dönər gündüzə.

Tərif edərəmmi mən hər kimsəni?
Addan-sandan ötrü tir-tir əsəni…
Şöhrətdən başına tac qoyan insan,
Bəyənə bilərmi, məni ya səni?

Təəssüf eləmə! Bu da bir ömür!
Torpaqdan xəlq olan torpağa dönür.
Hərdən ürəyində alışıb-yanan
Azacıq ümidlər büsbütün sönür.

Yaxşı ki, sən varsan, yazan qələm var,
Arabir başıma cəm olur dostlar.
Kaş ki, itməyəydi deyirəm Ya Rəbb,
Onlarda tapdığım təmiz etibar.

## YAZIÇININ ÖMÜR YOLU

Əlibala Qüdrət oğlu Hacızadə 1935-ci il avqustun 28-də Puşkin (indiki Biləsuvar) rayonunun Ağalıkənd kəndində, müəllim ailəsində anadan olub. Atası Qüdrət kişi böyük Vətən Müharibəsi başlanan gün cəbhəyə yola düşüb. 1944-cü ildə anası, 1949-cu ildə isə atası vəfat edib. 1958-ci ildə ADU-nun Şərqşünaslıq fakültəsini bitirib. Elə həmin ildən Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda işləyir.

Əsərləri ilk dəfə «Gəncliyin səsi» adlı almanaxda çap olunmuşdur. «Heykəl gülür» adlı ilk kitabı isə 1961-ci ildə çapdan çıxıb. 1962-ci ildə SSRİ Yazıçılar İttifaqının üzvü olub. 1964-cü ildə Fərruxi Yəzdinin həyat və yaradıcılığı haqqında dissertasiya müdafiə edib. Daha sonra onun «Məhəbbət olmayan evdə» (1963) və «Unutmaq olmur» (1964) adlı povestləri çap edilib. 1961-ci ildə ailə həyatı qurub, iki qızı və bir oğlu var. 1966-1970-ci illərdə Əfqanıstanda tərcüməçi işləyib. Həmin dövrdə «İtkin gəlin» romanını yazıb, əsər 1979-cu ildə çap edilib. 1980-ci ildə «Əfsanəsiz illər», 1981-ci ildə isə «Ayrılığın sonu yoxmuş» adlı romanları ona şöhrət gətirib. «Təyyarə kölgəsi» adlı romanı 1974-cü ildə kitab şəklində çıxıb. Həmin əsərin davamı kimi çapdan çıxan «Vəfalım mənim» romanı isə böyük qalmaqala səbəb olub. Bu kitaba görə ciddi təzyiqlərə məruz qalıb. İki dəfə işdən çıxarılıb, lakin hər dəfə də bərpa olunub. Üçüncü dəfə isə onun baş elmi işçi vəzifəsi kiçik elmi işçi vəzifəsi ilə əvəz edilərək

əsərlərinin çapına qadağa qoyulub. Beş il qadağadan sonra yazıçı «Dünyanı tanı» romanını çap etdirib. Maliyyə problemləri ilə əlaqədar «Dünyanı tanı»nın ikinci hissəsi, «Təyyarə kölgəsi» və «Vəfalım mənim» romanlarının davamı kimi yazdığı üçüncü roman və «Yandırılmış adam» əsərinin birinci hissəsi çap olunmamış qalıb.

«Unutmaq olmur», «Əgər sevirsənsə» adlı televiziya tamaşalarının müəllifidir. Onun yazdığı «İtkin gəlin» və «Yandırılmış adam» dram əsərləri Gəncə Dövlət Teatrında uzun müddət oynanılıb. «İtkin gəlin» trilogiyası əsasında 12 seriyalı teleserial çəkilib və televiziya vasitəsilə nümayiş etdirilib.

Bütün bunlarla yanaşı, Ə.Hacızadə «Şəhriyar» qəzetində işlədiyi dövrdə bir sıra tərcümələr edib. İranın keçmiş xarici işlər naziri Əli Əkbər Vilayətinin «Səfəvilər dövründə İranın xarici siyasəti tarixindən», Əbdülrəhman Yusifpurun «Qurani-Kərimin 30-cu cüzünün təfsiri», Rəcəb Nejadın «Zamanın aynası» adlı kitablarını fars dilindən azərbaycancaya çevirib.

## ŞƏXSİYYƏT UCALIĞI

Filosofların yeri düşdükcə işlətdikləri bu şərəfli kəlmələri çoxları hörmət və ehtiram bəslədikləri insanlara ünvanlayırlar. Mənəvi cəhətdən pak və təmiz insanlar üçün fikrimcə, bundan daha gözəl ifadə işlətmək olmaz.

Lakin bu kəlmələri hədsiz dərəcədə çox işlətdikdə sanki o, öz məna dəyərini itirir. Ona görə də çalışacağam ki, bu kitabda həmin kəlmələrə xas olan xüsusiyyətləri incə təfərrüatına qədər ünvanladığım şəxsin psixoloji aləmini fəlsəfi baxımdan təhlil etməklə aça bilim. Dünyada sözün gücündən qüdrətli nə var ki? Vaxtı ilə L.Feyerbax yazırdı ki, «Söz həyat və həqiqət deməkdir». T.Mann isə yazırdı ki, «Söz həyatın özüdür». İstərdim ki, oxucularım həyatın və həqiqətin özü olan sözümün səmimiyyətinə inansınlar, dediklərimi düşünüb təhlil etsinlər. Əvvəlcə onunla ünsiyyət zamanı müşahidə etdiyim xüsusiyyətlərdən başlamaq istəyirəm.

Mehribandır, sadədir, qəlbinin sözləri gözlərindədir. Belə insanlar riyakarlıqdan uzaq olurlar. «Həyat — düşüncəli insan» kontekstində maraqlı mülahizələri bir yazıçı kimi onun dünyanı dərketmə sistemində daha çox diqqəti cəlb edir. Gerçəkliyin ideal dərəcədə

hərtərəfliliyi və düzgünlüyü sözsüz ki, sonsuz prosesdir. O, bu gerçəkliyin — həqiqət yolunun yolçusudur.

Həqiqət isə qurban və çılğın fəaliyyət tələb edir. Onu elə bir sferada axtarmaq lazımdır ki, bu yolun yolçusu o fövqə yüksələ bilsin. Lakin ruhi sağlamlıq olmadan o fövqə yüksəlmək qeyri-mümkündür. Çünki ruhi sağlamlıq üçün fəaliyyətdə, həyat tərzində, rəftarda bir sözlə, zehniyyətdə inqilab etmək lazımdır. O, bu sınaqlardan alnıaçıq, üzü-ağ çıxıb, ruhi sağlamlığını qorumaq üçün fiziki sağlamlığından keçib. Qəribə — hamıya maraqlı olan dünyasına qapılıb. Məhəbbət onun ruhi qidasıdır. Vətən məhəbbəti, insanlara sevgi, ailəyə bağlılıq oxucularına təlqin etdiyi ən gözəl keyfiyyətlərdir. Ömər Xəyyamın belə bir qiymətli fikri var: «İdrak yalnız o zaman həqiqi idrak olur ki, o sevən idrak olsun. Yalnız bu halda iradənin, idrakın, sevginin vəhdəti, bütövlüyü konsepsiyası yaranır və bütövlük müxtəlif səviyyələrdə müxtəlif baxımdan təzahür edir».

## O, AZƏRBAYCANLI OLDUĞU ÜÇÜN FƏXR EDİR

1938-ci ilin bəhərli yay günlərindən birində atası Qüdrət müəllim, anası Asya xanım (o, da müəllimə idi) Biləsuvarın izdihamlı bazarında bazarlıq edərkən balaca Əlibalanı boş piştaxtalardan birinin üstünə qoyub, aldıqları ərzağı qablaşdırmağa məşğul ikən qəribə bir hadisə baş verdi. Sarışın, göy gözlü, gülümsər çöhrəli körpə yoxa çıxdı. Ananın hıçqırıqları Qüdrət müəllimi çaş-baş qoysa da, özünü ələ alıb milis çağırdı. Bir andaca adamlar bir-birinə dəydi. Bazarın giriş və çıxış qapıları bağladıldı. Uşağı bərk-bərk sinəsinə sıxıb qapıdan çıxmaq istəyən rus qadını yaxalandı. Övlad üzünə həsrət qalan qadın gözlərindən təbəssüm süzülən al yanaqlı Əlibalanı seçmiş, ilk baxışdaca xoşlayıb onu piştaxta üzərindən oğurlamışdı. Milisin təkidlə «körpəni nə üçün oğurlamısınız?» — sorğusuna — «ona görə ki, tək idi» cavabını verib. Məsuliyyətdən yaxa qurtarmaq istəyən qadını tezliklə şöbəyə apardılar. Bütün bunları Əlibalaya anası ölümündən azacıq əvvəl danışmışdı. Hərdən bir xatırlayır: «Şükür ki, məni həmin qadından aldılar, yoxsa indi Əlibala Hacızadə yox, Aleksandr Petroviç adını daşıyacaqdım. Milliyyətimdən də xəbərim olmayacaqdı». Azərbaycanlı olduğu üçün özünü xoşbəxt sanır Əlibala müəllim.

ONA DÜZGÜN HƏYAT YOLU GÖSTƏRƏN, LAKİN VAXTSIZ İTİRDİYİ ANASI ASYA XANIMI GÖZ YAŞLARI İÇİNDƏ XATIRLAYIR

Anası Asya xanım körpə Əlibalanı bazarda itirsə də tez tapdı. Onu 9 yaşında ikən itirən Əlibala üçünsə bu itkisi əbədi oldu. Ağır itgilərin ölçü meyarı olmur. Əlibalaya təmizlik, halallıq təlqin edən, öz ciddiyyəti ilə həm müəllim kontingentində, həm də ailədə fərqlənən Asya müəllimə, Əlibalaya xas olan bəzi artıqlıqları tez görür, qarşısını alırdı. Həyətlərində bütün meyvələrdən əkilmişdi. Təkcə üzümləri yox idi. Əlibala qonşu həyətdə iri giləli üzümə baxıb, onu oğurlamaq yolları arayırdı. İki bacısının əlindən tutub həyətlərini bir-birindən ayıran hasarın yanına gətirdi. «İstəyirsiniz?» — soruşdu.

Qızlar bir ağızdan «istəyirik» — dedilər. Bir göz qırpımında hasarı aşıb, üzümü dərdi, bacıları ilə bölüşdü. Balaca bacısı üzümü bir az yeyib qalanın həyətdəki səkinin üstünə qoydu. Dərsdən qayıdan Asya xanım salxımı yarı yeyilmiş üzümü görüb, uşaqların üçünü də çağırdı. «Bizim bağımızda təkcə üzüm yoxdur, hər meyvədən var, bunu haradan almısınız?» Balaca Əlibala heç nəyi gizlətmədi: «Qonşu bağdan dərdim». Son sözü bitirər-bitirməz üzünə dəyən sillədən gözünə qaranlıq çökdü, qulağındakı uğultu bitməmiş, o biri üzünə sillə dəydi. «Ürəyinizdən nə keçsə ata-ananıza deməlisiniz. Bu qapıdan heç vaxt haram yol tapıb keçə bilməyib, keçməyəcək də…» Demək olmaz ki, bu tənbeh nadincliyi ilə ad çıxarmış Əlibalaya təsir etmədi. Etdi və söz verdi ki, qonşu həyətdən bir də heç nə oğurlamayacaq. Bir müddət sonra isə o, öz halal meyvələrinin oğurluğuna qurşandı. Müharibənin ağır illəri idi. Həyətlərində uca, qol-budaqlı bir alma ağacı vardı. Cəbhədə vuruşan atası Qüdrət müəllim üçün bu ağacın lap yuxarısında xeyli payız alması saxlamışdılar.

Əlibalaya isə Asya xanımla Səriyyə nənə dönə-dönə tapşırmışdılar ki, onlara toxunmasın, payızda atası gələndə dərərlər, onun payıdır. Dərməmək! — Necə dərməsin? — Al yanaqlı, iri almalar Əlibalanın yuxusuna da haram qatıb, «gəl məni dər» — deyirdi. Səhər anası ilə nənəsi işə gedəndə yuxarı dırmaşıb almaları dərdi, qoynuna doldurub aşağı düşdü, doyunca yedi. Bu minvalla üç-dörd günə ağacda beş-on alma qaldı.

Nənəsinin və anasının axtarışlarına baxmayaraq «oğru» tapılmadı. Əlibaladan soruşanda «məgər mən o ağacın başına çıxa bilərəmmi?»

— söylədi. Asya xanım bir səhər xoş əhvali-ruhiyyə ilə Əlibalanı çağırdı. «Oğlum, oğurlanıb, oğurlansın, daha nə etmək olar?» «Qalx, o almaları dər, orda qalmasın, saxlayaq atana». «Mən o ağacın başına çıxa bilərəmmi?» — sualı Əlibalanın yadından nə tez çıxdı? Sevinc içində pişik cəldliyi ilə ağaca dırmaşdı. Elə həmin an çılpaq ayaqlarına vurulan çubuğun səsi beynində əks-səda verdi, yerə tullandı. «Bəs sən necə oldu ki, bu ağaca dırmaşdın?» Asya xanım hirsindən tir-tir əsirdi. Əlibala yenə də söz verdi ki, bir daha oğurluq etməyəcək… Amma…

SÜD OĞRUSU

Qəribədir uşaq dünyası… Hərdən düşünəndə dodaqları qaçır… İnana bilmir ki, o bapbalaca, sarışın, gözlərindən dəcəllik yağan Əlibala onun özüdür… Süd həvəskarı… İçdikcə doymayan, ürəyinə düşəndə xəlvəti gedib qoyun-keçini tutub südünü əmən balaca dəcəl…

Səriyyə nənə inəyi, qoyun-keçini sağan kimi Əlibalaya isti-isti bir stəkan verərdi. Sonra bişirib teştə tökər, sərərdi. Üstünə pişik baş salmasın deyə qarğıdan hörülmüş çığla örtər, daş qoyardı. Günortalar könlünə süd düşən Əlibala bu teştin ətrafına pərvanə kimi dolanar, hirsindən nə edəcəyini bilməzdi. Arabir qaçıb qoyun, keçini əmmək ona çətin olanda fikir onu götürüb gedərdi. Teştdəki südü necə içsin ki, nə qaymağa ziyan dəysin, nə də bilən olmasın? Nəhayət, çarə tapdı.

Göy soğan qoparıb bu biri ucunu da kəsdi. Teştin qırağına uzanıb qarğı çığın qırağından soğanı südün içərisinə saldı, sümürdü. Balaca Əlibala südü sümürdükcə, aldığı zövqü dünyanın heç bir ləzzətinə dəyişməzdi. Günlər keçdikcə Səriyyə nənənin heyrəti daha da çoxalırdı. O, qonşu arvadları başına yığıb bir «möcüzə»ni tam təfərrüatı ilə danışırdı. «Vallah, başa düşə bilmirəm, bəlkə şeytan əməlidir».

«Qaymaq bütöv qalır, amma süd yoxdur. Teştin altında da deşik yoxdur ki, deyim axıb gedir. Bu nə möcüzədir, Allah?» Qorxub, vahiməyə düşmüş kənd qadınları ona nə qədər məsləhətlər versələr də, heç nəyin xeyri olmurdu. Bir gün yenə Əlibala öz aləmində idi, uzanıb südü sümürdükcə ləzzət alırdı. Qəflətən başına dəyən zərbə əlindəki soğanı da süd teştinin içinə saldı. Səriyyə nənənin səsi həyəti başına götürəndə Əlibala başa düşdü ki, hər şey bitdi. Nənə isə qışqırırdı: «Ay ev pişiyi, məni xəyaldan xəyala salan oğru pişik! İndi necəsən iş başında tutulmusan? Cavab ver, bu nə oyundur? Sənə süd la-

zımdır, de günortalar da verim». Əlibala isə düşünürdü: «Yaxşı ki, məni qoyun-keçini tutub əməndə görmədi, yoxsa, onda nə həngamə olardı».

## ONU HAMIYA SEVDİRƏN NƏDİR?

Kimsə deyəcək ki — «Əlbəttə, qüdrətli qələmi, istedadı».

Etiraz etmirəm. Əlibala Hacızadənin qələmində nadir yaradıcılıq məharəti var. Bu ilahi qüdrət və məharət onun bir yazıçı kimi püxtələşməsində əsaslı rol oynayıb, şair kimi yetişdirib. Lakin onu başqa yazıçılardan fərqləndirən bir cəhət də var. Uşaqlıq xatirələrinin dumanlı pərdəsini qırıb ötüb keçən illərin sonsuz kədəri ilə üz-üzə dayanmaq onu kövrəltsə də bir qəribə hadisəni heç cür unuda bilmir. Qonşuları traktorunu yoxlamaq üçün verdiyi elektrik məftilinin cərəyana qoşulması və 10 yaşlı Əlibalanın nəm torpağa çırpılması. Sonra isə… Özünə gələndə o sanki başqa bir aləmin yaşantısını yaşamış, əlinə qələm götürüb elə o vaxt ilk pyesini yazmışdı. Məktəbdə tamaşaya qoyulan həmin pyesin adını unutsa da, bədənindən keçən isti cərəyanı və torpağa zərblə çırpılmağını, keçirdiyi mübhəm anların yaşantısını bu gün də unuda bilmir. O nə an, o nə yaşantı, o nə möcüzə idi? Bu qüdrət və istedad o zaman hansı ali qüvvə tərəfindən ona bəxş olunmuşdu? Cavabsız suallar axarında çox düşünüb. İnsan şüuru bunları dərk etməyə hələ tam mənada qabil deyil! Sonda gəldiyi nəticə budur!

İlk pyesinin ilk tamaşası məktəbdə qoyuldu. Əsas rolu da özü ifa edirdi. Pyesdə yazdığı hadisələrin sanki həqiqət olduğuna özünü inandıra-inandıra tamamilə başqa bir əhvali-ruhiyyəli obraz yaratdı. Ayağı təsadüfən vedrəyə ilişib guya yıxılmalı olan bu obrazı o qədər dolğun yaratdı ki, həqiqətən yıxıldı. Yeganə çöl-bayır şalvarının dizləri qırmızı kərpicdən tikilmiş döşəməyə sürtünüb cırıldı. Gözlərində cilvə göz yaşları yanaqları aşağı süzülə-süzülə evə gəldi. Səriyyə nənə deyinə-deyinə 10 yaşlı Əlibalanı soyundurub, şalvarın dizlərinə səliqə ilə yamaq vurdu. Bəlkə də, bu yıxılmaq özü də rəmzi məna kəsb edirdi? Əlibala aktyor ola bilməzdi. O, qələm üçün, yazmaq üçün doğulmuşdu. Rəngarəng dünyasının vəsfəgəlməz gözəlliyində xəyalən bir-birindən dəyərli əsərlər yazırdı… 9 yaşında ikən itirdiyi anasının şəfəq dolu baxışları yuxuda da onu isindirir, oyananda sanki

hər şeyi itirdi. 6-cı sinifdə oxuyan Əlibala böyüklərə xas olan düşüncələrlə yaşayırdı.

Zaman keçsə də, hərdənbir o cərəyanı, torpağa çırpılmağını xatırlayır, yaşadığı həmin mübhəm anları isə heç cür təsvir edə bilmir. O anları düşünən kimi nə isə dumanlı, anlaşılmaz hisslər varlığına hakim kəsilir. Bu dumanlı pərdəni qoparmaq, əsl həqiqəti dərk etmək istəyir. Təəssüf ki, insan üçün sirri dərk edilməyib anlaşılmayan çox şeylər vardır.

## İLK MƏHƏBBƏT, YOXSA GÖZƏLLİK ÖNÜNDƏ İLK HİSSİYYAT?

Altıncı sinifdə oxuyanda ilk məhəbbət onu haqladı. Məktəblərinə yeni rus dili müəllimәsi gəlmişdi. Tamara adlı bu gənc müəllimə arabir onlara gələrdi. Qüdrət müəllimlə dərslə bağlı məsləhətləşərdi. Balaca Əlibala üçün bu gəliş əsil bayram olardı. Amma qəlbini bircə şey yamanca sıxırdı. O da məktəbdə bir çox oğlanların Tamara müəlliməyə vurulması idi. İlk qısqanclıq hissləri onun zərif, çiçək kimi yenicə süslənən məhəbbətini qılınc kimi doğrayıb töksə də o, bu məhəbbətdən bəxtiyarlıq duyurdu.

## UNUDULMAZ İLLƏR

Nənəsi Səriyyənin ən böyük arzusu min bir əziyyətlə böyütdüyü Əlibalanı həkim görmək idi. Ona görə də nəvəsini Bakıya yola salanda bərk-bərk tapşırmışdı ki, sənədlərini Tibb Universitetinə versin. Əlibalanın isə öz arzuları vardı. Şərqşünas olmaq. Evdə atası Qüdrət müəllimin anasına ərəb əlifbası ilə yazdığı məktubları oxuyarkən bu istək onun arzularına hopmuşdu. Xəlvəti oxuyardı o məktubları… Bakıya çatan kimi sənədlərini Azərbaycan Dövlət Universitetinə verdi. Altı imtahandan yaxşı qiymətlər aldı. Bircə imtahanı qalmışdı — Coğrafiyadan qiymət alsa idi, artıq tələbə idi. Professor Qasım Gül ondan imtahan götürəcəkdi və nədənsə Əlibalanın ürəyinə dammışdı ki, yaxşı qiymət alıb girəcək. Növbəti imtahana gedəndə şifonerin yuxarısına qoyduğu sənədləri yerində görmədi, kimsə cırıb atmışdı. Əlibala üçün heç bir qaranlıq məsələ qalmamışdı. Kədərlə universitetə yollandı. Sənədsiz olduğu üçün onu imtahana bu-

raxmadılar. İmtahan Komissiyasının sədri Mirzə Mədətovun yanına gedib sənədlərinin tramvayda oğurlandığını desə də o, Əlibalanın imtahan verməyə buraxılmasını mümkünsüz hesab etdi. Universitetin rektoru Cəfər Xəndana ərizə yazıb, «nənəmin himayəsində böyümüşəm, yetim oğlanam, kömək edin» — deyib yalvarsa da, rektor: «Get, gələn il gələrsən» — deyib razılaşmadı. Nənəsinin borc-xərclə onu Bakıya yola salmasını xatırlayan Əlibalanın gözlərinə yaşdan dumanlı pərdə çəkildi. Tale onu çoxmu sınağa çəkəcəkdi?

## HƏMİD ARASLININ ÇÖRƏK VERDİYİ YAZIÇI

Rektorun yanından çıxanda ümidini və inamını büsbütün itirmişdi. Əzizi ölmüş adamlar kimi qapının yanında dayanıb, başını aşağı salmışdı. Qəflətən başını qaldıranda Həmid Araslını gördü. Bir neçə gün əvvəl Həmid Araslı Əlibaladan imtahan qəbul edib ona «beş» yazmışdı. Rəhmətlik ayaq saxlayıb diqqətlə Əlibalaya baxdı. «Nə var, ay oğul, nə olub?» Elə bil Əlibalanın üstünə günəş doğdu. Nəvazişli sorğudan kövrəldi. Boğazına tıxanan zəhərli qəhəri güclə boğdu: «İmtahan vərəqimi tramvayda çıxarıblar, Həmid müəllim, indi məni imtahana buraxmırlar» — dedi. Qolundan tutub onu Mirzə Mədətovun yanına apardı. «Bu oğlan sənədini itirib, xahiş edirəm, adını yazın, gəlsin imtahan versin, sonra köçürərsiniz. Çox savadlı oğlandır».

Əlibala «baş üstə» kəlməsini eşitcək heyrətdən donub qaldı. Gör neçə saat Mirzə müəllimə yalvarmışdı! Qaça-qaça, nəfəsi tıxanmış halda imtahan otağına girdi. Professor Qasım Gül ona bilet çəkdirdi. Hamı imtahan verib getmişdi, təkcə ikisi qalmışdı. Bildiyi suallar olsa da, təngənəfəslik və həyəcandan danışa bilmədi. Professor mehribanlıqla: «Oğlum, görürəm bilirsən, bəs sənə nə olub, niyə cavab vermirsən?» — soruşdu.

Əhvalatı olduğu kimi danışdı. Gah o, gah da bu biri binaya qaçmasından, yalvarışlarından, ona məhəl qoyulmamasından, nəhayət, Həmid Araslının xeyirxah hərəkətindən. Sonra isə göstərici çubuğu götürüb xəritə önünə keçdi. Müəllimin suallarına cavab verib bir-bir izah edib xəritədə göstərdi. «Yaxşı» qiymət aldı.

Sentyabrın 1-də ilk dərs günü Həmid Araslını gördü. Qəribə dünyası vardı Əlibalanın. Ona yaxınlaşıb özünü təqdim etmək fikrin-

dən daşındı. Düşündü ki, Həmid müəllim yəqin buna başqa rəng verər. Elə bilər ki, Əlibala ondan istifadə edib semestr imtahanlarında qiymət almaq üçün tanışlıq verir. Özünü saxladı.

1958-ci ildə Universiteti bitirib indiki Şərqşünaslıq İnstitutuna təyinat aldı. Mövzu götürüb işlədi. O zamanlar H.Araslı həmin institutun şöbə müdiri idi. Əlibala mövzunu götürüb müdafiəyə gedəndə isə Həmid müəllim Nizami Muzeyinin direktoru vəzifəsində çalışırdı. Həmid Araslını Əlibalanın dissertasiyasına birinci opponent təyin etdilər. On gün sonra Nizami Muzeyinə gedəndə onu təbrik edən Həmid Araslı yazdığı 10 səhifəlik rəyi Əlibalaya verib: «Çox gözəl əsər yazmısınız» — dedi. Əlibala doluxsundu: Həmid müəllim, deməli, siz mənim müdafiə edəcəyimə əminsiniz? — Əlbəttə — dedi, bu nə sözdür? Bəs rəyi nə üçün belə çox yazmışam, ay oğul?» Hər şeyi danışdı. Onun xeyirxahlığından bəhrələndiyini, bu gün nə qazanıbsa ona borclu olduğunu söylədi. Həmid Araslı Əlibala kimi çox tələbəyə kömək etmişdi. Lakin bu qürurlu, səmimi oğlanın dediyi — «Sizə yaxınlaşıb təşəkkür etmədim. Fikirləşdim ki, düşünərsiniz ki, Əlibala bu qarşılıqlı hörmətdən istifadə edir» — cümləsi Həmid Araslını heyrətə gətirdi. Ayağa qalxıb «Halal olsun sənə, ay oğul, — yaman qəribə oğlanmışsan, gör nələri götür-qoy etmisən» — dedi.

On illər hiss olunmadan keçib getdi.

Əlibala Hacızadə «İran şairi Fərruxi Yəzdi» mövzusunda dissertasiya müdafiə edib filologiya elmləri namizədi alimlik dərəcəsi aldı. Həqiqəti danışdığı üçün ağzı çuvalduzla-qıyıqla tikilən Fərruxi Yəzdini qəlblərə köçürtdü. Ömür tarixində əbədi iz qoyan, şüuruna nəqş olunan əziz bir adı isə bu günə qədər məhəbbətlə xatırlayır. Dərindən köks ötürüb «Allah sənə rəhmət eləsin, Həmid müəllim» — deyir. Valideynlərinin itgisindən sonra Əlibala Hacızadə üçün dünyanın ən ağır itgisidir bu itgi…

## NƏ QƏRİBƏ, NƏ AMANSIZSAN, HƏYAT?

1978-ci ildə Əlibala Hacızadə Biləsuvara — Nizami adına məktəbə görüşə dəvət edildi. 30 illik ayrılıqdan sonra dəcəl uşaqlıq illərini keçirdiyi məktəb ona nədənsə qəribə görünürdü. Direktorun otağında əyləşib kövrək xatirələrin qanadında xəyala dalmışdı. Nimdaş geyimli bir qadının maraq dolu baxışlarını öz üzərində hiss edib

susuzluğunu dilinə gətirdi. Çay hazır olmadığı üçün «Bacı, mənə bir stəkan su verin» — dedi. On beş dəqiqə sonra görüş başlandı. Söz yazıçıya verildi. Əlibala müəllim danışırdı, zalda diqqət və sakitlik hökm sürürdü. Qəflətən gözü bayaq ona su verən qadına sataşdı. Zalın başında, giriş qapısının yanında dayanıb böyük maraqla yazıçını dinləyirdi. Yazıçı isə danışa-danışa düşünürdü: «Bu uşaqlar nə tərbiyəsiz olublar, qalxıb yaşlı bir qadına yer də vermirlər». Beş dəqiqə sonra danışıb qurtardıqdan sonra tribunadan aralanmaq istəyəndə həmin qadın ona yaxınlaşdı: «Əlibala, məni tanımadın?» Bu ərkyana, məhrəm sualdan diksindi.

— Bayaqdan elə sizə baxıram, düşünə-düşünə qalmışam. Mənə tanış gəlirsiniz!

— Tamara müəlliməyəm! — Son kəlmələr Əlibala üçün gözlənilməz oldu. Elə bil ətrafda hər şey başına fırlandı. Heç bir şeylə ifadə edə bilməyəcəyi bir sarsıntı varlığını çulğadı. Gözləri önünə zərif, nərmənazik müəlliməsi gəldi.

Qəribədir, indi ona tamam başqa gözlə, başqa nəzərlərlə baxdı. (Aman, nə qəribədir həyat? Nə o əvvəlki müəllimə, nə də Əlibala ona vurulan əvvəlki şagird deyildi. O, zərif hissləri öz coşğun axarında insanları daşlara-qayalara çırpan zaman məhv etmişdi.)

Ana-bala kimi qucaqlaşdılar. Tamara Biləsuvarda ailə qurmuş, on övladı olmuşdu. Uşaqlarından birinin adını Əlibala qoymuşdu. Yaşa dolmuş, kökəlmiş, tamam dəyişmişdi. Maddi çətinlik içində yaşayırdı. Əlibala üçün bu görüş nə qədər sevindirici idisə, o qədər də kövrək görüş idi. Ona görə də səhhətində yaranan nasazlığı qəfil hiss etdi. Görüşdən sonra veriləcək banket «Yaxşı yol» restoranında nəzərdə tutulmuşdu. Lənkəran yolu üstündəki bu restoranda ona xüsusi qulluq göstərilsə də, boğazından bir tikə də olsun çörək keçmədi. Planlaşdırdığına görə Biləsuvarda üç gün qalacaqdı, heç üç saat da qalmadı. Maşına əyləşib 30-40 kilometr sürətlə Bakıya səmt götürdü. Özünü Bakıya — evlərinə güclə çatdırdı.

## KAMİL MƏMMƏDOVU ÖZ XİLASKARI SANIR

Sübhə qədər nə onun gözünə yuxu getdi, nə də evdəkilərin. Bir ay ağır xəstə yatdı. Bu müddətdə öyüməkdən rəngi-rufu sapsarı saralmış, heç nə yemədiyi üçün tamamilə arıqlayıb zəif düşmüşdü. Onu xəstəxanaya qoymalı oldular. Dostu Əli onu Leninqradda ali

məktəb bitirmiş İsmayıl adlı bir həkimə göstərdi. Əlibalanı diqqətlə müayinə edən həkim — «ağır stress keçirmisiniz, öyüməkdən — 12 barmaq bağırsağın soğancığı partlayıb və daxilə qansızma başlayıb» — dedi.

Uzun müddət (1978-1981) qonşusu Barat müəllim yaxın dostu həkim Kamil Məmmədovun nəzarəti altında pəhrizlə yaşadı. Nəhayət, pəhrizlə yaşaya bilməyəcəyini görüb üzərində cərrahiyyə əməliyyatı aparılmasına icazə verdi. Müvəffəqiyyətlə bitən cərrahiyyə əməliyyatından sonra söz verdi ki, ona ikinci dəfə həyat bəxş edən Kamil Məmmədovun adını yazacağı bütün əsərlərində çəkəcək. Ən ümdəsi isə öz xilaskarının obrazını hamıya sevdirəcək.

Ömür başdan-başa fəlsəfədir: kim üçün adi, kim üçünsə mürəkkəb. Demokritin belə bir fikri var: «Güclü iradə insan üçün qiymətli keyfiyyətdir. Ən böyük qələbə öz üzərində çaldığın qələbədir». Gəlin həmişə qalib olmaq hissi ilə yaşayaq, Əlibala müəllim!

*Həqiqət Kərimova*

## MÜƏLLİF «İTKİN GƏLİN»İ ŞƏHƏRİN MƏRKƏZİNDƏ TAPIBMIŞ

Pambıq tarlasında işləməyə gedən məktəblilərin arasında «sovka briqadiri» imiş: butulkalara yığılmış böcəkləri hesablayırmış. Axı o, yaxşı oxuyan şagird idi. Sonra Universiteti bitirəcək, hətta müdafiə edib alim olacaq, hərbi mütərcim sifətilə Əfqanıstana gedəcək və:

— Mənim o vaxt da əsas işim yazıçılıq idi. Rayonlarda, məclislərdə oluram. Hətta məni üzdən tanımayan da, haqqımda danışır — deyəcək…

Biz isə gəlin onun sadəcə ad-familini qeyd edək: — Əlibala Hacızadə.

— Əlibala müəllim, «İtkin gəlin» trilogiyasının xeylaq oxucusu var. Yaxşı olardı ki, deyəsiz: əsərin süjetini haradan götürmüsünüz?

— Süjetin bəzi məqamlarını həyatdan götürmüşəm. Bəzi məqamları isə öz təxəyyülümün məhsuludur…

— Bəzi şübhələnən oxucular var ki, hadisələr sizin həyatınızla bağlıdır.

— Yox, mənim həyatımla bağlı deyil. Düzdür, bəzi yerlər var ki, qürbət ağrıları, filan, amma bütövlüklə yox. Həmin əsərdə mənə ən yaxın obraz Nəcməddindi, onun ahıl vaxtında vurulmasıdı. Bu hisslər doğmadı mənə.

— Bəs Əfsanə?

— Bu əsər haqda çox fikirləşirdim. Bir il idi ki, Əfqanıstanda yaşayırdım. Maşınla bir dəfə şəhərin mərkəzindən keçəndə gördüm ki, bütün nəqliyyat dayanıb, adamlar diqqətlə qabağa baxır. Qarşıdan bir gözəl xanım gəlirdi. Bilirsiz, o qədər gözəl idi ki… Ağ, ipək kofta — orda arxalıq deyirlər — geymişdi, sinəsi qızıl düyməli. Gözlərində qəribə işıq vardı, elə bil projektor idi. Hamı ağzını açıb ona baxırdı. Onda mən sürücüyə dedim:

— Tapdım. Bu Əfsanə idi.

— …

— Mənə elə gəldi ki, o qadın heç vaxt xoşbəxt olmayacaq, çünki çox gözəldi. İstəyir mal-dövlətin içində saxla, istəyir 7 qıfıl arxasında. Xeyri yoxdur.

— Mən isə elə bilirdim ki, Əfsanə Əfqanıstanda sizin….

— Bildim nəyi deyirsən. Yox, orda elə şey qətiyyən mümkün deyildi. KQB imkan verməzdi.

— Əlibala müəllim, oxucu məktubu alırsınızmı?

— Bəli, alıram. O vaxt da, indi də mənə xeyli oxucu məktubu gəlir. Bir ara məktubların sayı azalmışdı, çünki əsərlərimin birində səhvən baş qəhrəmanın telefon nömrəsini yazmışdım və həmin nömrə mənim öz telefonumun nömrəsi idi.

— Sizə zəng edənlər və məktub yazanlar nədən bəhs edirlər?

— Bizdə bilirsiz ki, çox yaxşı oxucular var. Mənə məsləhət verəni var, tək-tük vaxt tənqid edirlər, amma 99 faizi tərifləyib məmnun qaldığını bildirirlər, eləsi də var taleyini danışır… Bəzən küçədə, məclisdə mənə yaxınlaşırlar, nəsə soruşurlar, nə haqdasa fikrimi bilmək istəyirlər.

—Əlibala müəllim, mən bilmək istərdim: sizin sevgi haqda fikriniz?

— Sevgi böyük nemətdi, müqəddəs nemətdi, elə nemət ki…

— Bağışlayın, üzr istəyirəm, hərdən belə də deyirlər: qadın böyük nemətdi.

— Sevgisiz qadın qiymətsizdi, qadını cəh-cəlala bükən, onu ülvi, toxunulmaz, müqəddəs edən, göylərə qaldıran, ürəklərin şahına çevirən məhz sevgidi. Həyatın, dünyanın, kainatın mənası sevgidi, məhəbbətdi!

— Əlibala müəllim, bayaq söhbət Nəcməddindən düşdü və dediz ki, Nəcməddin sizə doğmadı. Sizdə də məhəbbət hissi varmı?

— İnsan yaşa dolduqca həyata daha çox bağlanır. Bunu hamı etiraf edir, vaxt olacaq siz də biləcəksiniz. Bəzən kişi məclislərində yeyib-içəndə müxtəlif sağlıqlar deyilir. Biri ata-ananın sağlığını, biri dostun sağlığını, biri evladın sağlığını, başqası isə həyat yoldaşının sağlığını qeyd edir. Mən deyirəm ki, bura baxın, heç o yan-bu yanı yoxdu. Hamının qəlbində bir ilahi sevgi, bir qadın yaşayır. Bütün kişilər kimi mənim də qəlbimdə bir ilahi sevgi uyuyur. Bundan başqa, mənim ailəmə, evladlarıma, nəvələrimə olan sevgim var.

— Əlibala müəllim, sizə həyatda uğurlar arzulayırıq və…

**P.S.** Və Əlibala müəllim söhbətin sonunda dedi ki, yaradıcılıq planlarımdan bir şey yazsan qeyd et ki, hazırda «Möcüzə» əsəri üzərində işləyirəm. Hazırkı hadisələrdən, dövrün bəlalarından və təbii ki, məhəbbətdən bəhs edir.

*Qurban Yaqublu*

## 11 İL GECİKƏN TƏŞƏKKÜR

Onu tanımaq üçün tanış olmağa bir o qədər də ehtiyac yoxdur. Çünki yaratdığı əsərlər bizə onu yaxşı tanıtdırıb. Hansı düşüncənin, hansı qəlbin sahibi olması da elə əsərlərindən, yaratdığı incilərdən bəllidir. O, Azərbaycan ədəbiyyatının külüng vuranlarındandır. Onunla çoxdan görüşüb söhbətləşmək arzusundaydıq. Görüşüb, heç də ƏFSANƏ olmayan maraqlı söhbətlərini dinləmək keçirdi könlümüzdən. Onun izahında yaxından istədik DÜNYANI TANIyaq. Xeyli müddət idi ki, onunla görüşmürdük. Nəhayət, arzumuzu reallaşdırmaq qərarına gəlib, belə deyək ki, AYRILIĞA SON qoyduq. Onunla TƏYYARƏ KÖLGƏSİ-ndə yox, redaksiyamızın qonaq otağında söhbətləşdik. Beləliklə, qonaq otağının ilk qonağı üçüncü kursa qədər paltonun nə olduğunu bilməyən Əlibala Hacızadə. Əlibala müəllimlə söhbətə başlamamışdan öncə qonağımız «Xəbərçi»yə uğurlar diləyib, ürək sözlərini bizimlə bölüşdü.

— Şadam ki, bu gün belə bir gənc, mehriban kollektivin qonağı oluram. Qəzetinizin ilk sayını oxudum. Xoşuma gəldi. Onu da deyim ki, «Xəbərçi»nin təsisçisi və baş redaktoru İlqar Məmmədov mənim əsərlərimdən («Dünyanı tanı» romanından) diplom işi müdafiə edən ilk tələbə olub. Həm də bu işi çox uğurla başa vurub. Arzu edirəm ki, addımlarınız möhkəm, qəzetiniz ən oxunaqlı qəzetlərdən olsun.

— Uşaqlıq, gənclik illərini necə xatırlayırsınız?

— Uşaqlıq xatirələri unudulmaz və yaddançıxmaz olur. İnsanın son anına qədər onu təqib eləyir. Mənim də uşaqlığım müharibənin qanlı-qadalı illərinə təsadüf edib. Həm kədərli, həm də sızıltılı və haradasa müəyyən sevinclə keçmiş günlər olub. 1935-ci il avqust ayının 28-də Biləsuvar rayonunun Ağəlikənd kəndində müəllim ailəsində anadan olmuşam. 1941-ci ilin 22 iyunu – Böyük Vətən müharibəsinin başlanması günü yadıma gəlir. Həmin vaxt Cəlilabadda qonaq idik. Atam evdə qalmışdı. Evə qayıdarkən qapımızın bağlı olduğunu gördük. Sonra bizə məlum oldu ki, müharibə başlayıb və atam da könüllü olaraq döyüşə yollanıb. Atam müharibəyə gedəndən sonra bir müddət ondan məktub aldıq. 1943-cü ildə belə bir xəbər çatdı ki, atam Qüdrət bomba altında olan blindajda həlak olub. Və biz də onun adət-ənənə ilə yasını yola verdik. Bir müddət sonra anam dünyasını

dəyişdi və biz üç uşaq, mən və iki bacım atamın anasının himayəsində qaldıq. O zaman, müharibə dövründə çörək yox idi, qıtlıq, aclıq idi. Bizim kənddə neçə adam gördüm ki, jımıx yeyə-yeyə üstündən su içdiyinə görə dünyasını dəyişdi. Ancaq Allah-təala bir yandan bağlayırdısa da, bir yandan da açırdı. Çöllərdə o qədər göy-göyərti, əvəlik, çətənə bol idi ki, camaat gəlib onlardan yığıb bir təhər dolanırdı. Atam da, anam da müəllim olduqlarından yaxşı məvacib alırdılar. Müharibənin sonunadək atamın pal-paltarını, ayaqqabılarını arpaya, buğdaya, una dəyişib birtəhər yaşayırdıq. 1945-ci ilin 9 mayında müharibə qurtardı, lakin ondan neçə ay sonra çiskinli bir payız günündə nənəm tezdən oyanıb dedi ki, samovara odun hazırla. Bunun səbəbini öyrəndikdə nənəm bildirdi ki, atan gələcək. İlk öncə buna inana bilmədim. Axı iki il öncə onun ölüm xəbərini almışdıq. Düşündüm ki, arvadın başına hava gəlib. Nənəm həyət-bacanı süpürməyə başladı. Bu zaman atam müharibəyə gedərkən evimizin açarını verdiyi qonşu yolla keçirdi. Dedi ki, ay Səriyyə, xeyir ola, səhər-səhər yaman əl-ayağa düşmüsən? Nənəm ona da bildirdi ki, Qüdrət gələcək. O kişi də mənim kimi başını buladı, yəni bu mənada ki, arvadın başı pozulub getdi. Düz iki saat keçdi. Həmin kişinin oğlu İbrahim qaçaraq gəldi ki, Əlibala, muştuluğumu ver, atan gəlir. Ayaqyalın, başıaçıq atamı qarşılamağa qaçdım. Sən demə, bizə o vaxt yanlış məlumat göndəriblərmiş.

Müharibədən sonra atam evlənmək istəmirdi. Nənəm Səriyyə məcbur elədi ki, evlən. Bir sözlə, nənəmlə bibimin təkidi nəticəsində atam evlənməyə məcbur oldu. 1947-ci ildə bir dul qadını gətirib atama xanım elədilər. 1948-ci il may ayının 15-də atamın dördüncü uşağı dünyaya gəldi. Adını da mən qoydum — Nizami. Bu uşaq dünyaya gələndən 1 il iki ay neçə gün sonra 1949-cu ilin avqustunda atam dünyasını dəyişdi.

Mən orta məktəbi Xırmandalı kəndində bitirdim. 1953-cü ildə Bakıya gəldim. Universitetin şərqşünaslıq fakültəsinə daxil oldum. Bu fakültəyə daxil olmağımın səbəbi isə bu idi ki, evdə atamın kağızlarının içində ərəb əlifbası ilə yazılmış sənədlər görmüşdüm. Bu isə məni cəlb etmişdi. Nənəm isə deyirdi ki, sən həkim olmalısan. Çünki özünün iki qardaşı həkim idi. Dedim ki, həkimliyə gedirəm. 300 manat pulla gəldim Bakıya. Lakin həkimliyə yox, ərəb əlifbasının dalınca.

Universitetdə oxuyarkən çox hadisələr oldu. Bir şeyi kəşf etdim özüm üçün. Hər insanın nəsil şəcərəsi var. Maraqlandım, gördüm

ki, mənim ulu babam dördüncü uşağı dünyaya gələndən 1 il 3 ay neçə gün sonra 35 yaşında ölüb. Atamgil də dörd uşaq olublar. Axırıncı uşaq dünyaya gələndən 1 il 3 ay neçə gün sonra babam da ölüb — 35 yaşında. Atam da eyni ilə onlar kimi dördüncü uşağı dünyaya gələndən 1 il 3 ay neçə gün sonra — 35 yaşında dünyasını dəyişib. Bu söhbətə sonra qayıdacağam…

Universitetin yataqxanasında mənə yer vermədilər. Aldığım təqaüddən həm ev kirayəsini verir, həm də dolanırdım. Təsəvvürünüz tam olsun deyə deyim ki, üçüncü kursu bitirənə qədər mən qışda palto nə olduğunu bilmədim. Yağışda-qarda pencəklə gəzirdim. Məktəb yeməkxanasında çörək yeyirdim, evdə mənzil sahibəsi bişirdiyi çörəkdən verəndə yeyirdim, verməyəndə yox. Yəni çox kasıb bir həyat keçirirdim.

— Ədəbiyyata gəlişiniz necə…

— Universitetdə ədəbi mühit məni çox cəlb elədi. Çünki hələ yeddi illik məktəbdə oxuyarkən şer, pyes, hekayə yazırdım. Bir pyes yazmışdım, indi adı da, məzmunu da yadımda deyil. Ancaq bir epizodunu xatırlayıram. Həmin epizodu sinif yoldaşlarımla oynadıq. Obrazlardan biri də mənim öz üzərimə düşmüşdü: guya mən qaça-qaça girirəm səhnəyə, ayağım bir vedrəyə ilişir, yıxılıram. Mən də qaça-qaça gəldim, ayağım ilişdi vedrəyə və doğrudan yıxıldım. Məktəbin döşəməsi də qırmızı kərpicdən idi. Yeganə, aman-zaman bir şalvarım var idi, onun da dizi partladı. Gəldim evə, nənəm başladı danlamağa ki, bu şalvarı harada cırmısan, niyə cırmısan? Hər halda nənəmi başa düşmək olardı. Çünki səhərisi gün məktəbə geyinib getməyə başqa şalvarım yox idi. Beləcə «yaradıcılığım» başladı. Universitetdə də mərhum Mübariz Əlizadə, Mircəlal Paşayev, Əli Sultanlı, Yusif Şirvan, Bəxtiyar Vahabzadə kimi müəllimlərim olub. Bizim ədəbiyyat dərnəyimiz var idi, əvvəl Mircəlal müəllim rəhbərlik edirdi, sonra da Bəxtiyar Vahabzadə. Orada həftədə bir-iki dəfə yığılıb şerlərimizi, hekayələrimizi oxuyurduq. Həmin tələbələrdən çoxlu şairlər, alimlər yetişdi. Bu yaxınlarda dünyasını dəyişmiş Yaşar Qarayev, Ağacavad Əlizadə, Abbasəli Sarovlu, Famil Mehdi, Tofiq Hacıyev, Hüseyn Kürdoğlu, Firudin Ağayev və başqaları. Mən o illərdən çox razıyam, həyatımın parlaq, kasıbçılıq içərisində olsa da xatirələrlə dolu zəngin illəri idi.

*Şöhrət Abbas*

## BUNA GÖRƏ ÖZÜMÜ BAĞIŞLAYA BİLMİRƏM

Yazıçı Əlibala Hacızadə 1935-ci ildə Biləsuvar rayonunun Ağa-əli kəndində müəllim ailəsində anadan olub. 1953-cü ildə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinə daxil olub. Universiteti bitirdikdən sonra Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda kiçik elmi işçi kimi çalışıb. 1962-ci ildən Yazıçılar Birliyinin üzvüdür. Ailəlidir, üç övladı, üç nəvəsi var.

— Əlibala müəllim, ilk əsəriniz necə və nə zaman yarandı?

— Bu, orta məktəbdə oxuduğum illərə təsadüf edir. Yaradıcılığa dram əsəri ilə başlamışam. Adı və obrazları yadımda qalmasa da, həmin əsər kənd məktəbində səhnəyə qoyuldu. Yadımdadır ki, onda IV ya da V sinifdə oxuyurdum. Yaratdığım obrazlardan birini özüm ifa edirdim. Orda belə bir yer var idi ki, qaça-qaça səhnəyə gəlməli və ayağım vedrəyə ilişib yıxılmalı idim. Təbii ki, bu süni surətdə yaradılmalı idi. Amma mən qaça-qaça gəldim, ayağımı vedrəyə ilişdirdim, lakin doğrudan yıxıldım. Nəticədə müharibədən sonrakı qıtlıq illərində yeganə şalvarımın dizi cırıldı. Evə gələndə nənəm məni çox danladı: "Səhər məktəbə nə geyinib gedəcəksən?" Necə deyərlər, qurban tələb edən sənətə şalvarım qurban getdi.

Bakıya gələndən sonra Universitetdə yaxşı ədəbi mühitə düşdüm. Mir Cəlal Paşayev, Yusif Şirvan, ustadım Bəxtiyar Vahabzadə dərnəyimizin rəhbəri olub. Sənətin sirlərini onlardan öyrənmişik.

— Taleyinizi əks etdirən əsər yazmısınızmı?

— Bütövlükdə yox. Ola bilsin müəyyən anlar əks olunub. Amma taleyimi tam əks etdirən əsər hələ yazmamışam.

— Deyirlər, insan yaşa dolduqca kövrək olur və bir az da uşaqlaşır. Sizcə bu, nədəndir?

— Haqlısınız, insan yaşa dolduqca uşaq kimi küsəyən olur. Çünki uşaqlıq, gənclik illəri o qədər şirindir ki, geriyə dönmək, həmin illərə qayıtmaq istəyir. Bir daha dönə bilməyəcəyin illər üçün istər-istəməz qəribsəyirsən.

— Yeri gəlmişkən, xəyalən uşaqlığınıza döndükdə nələri xatırlayırsınız?

— Uşaqlığım müharibə illərinə təsadüf edib. Sıxıntılı günlər keçirmişəm. Bir tikə çörək, bir sabun parçası tapanda sevinirdik. Evə çay, qənd gələndə, təzə paltar alanda sevincimizin həddi-hüdudu olmurdu.

Müharibədən atamın «qara kağızı» gəldi. Yasını saxlayıb, ehsanını verdik. Lakin möcüzə baş verdi. Müharibə qurtarandan sonra atam sağ-salamat qayıdıb gəldi. Təəssüf ki, anam onun qayıtmağını görmədi. Çünki atam gəlməzdən əvvəl. 1943-cü ildə dünyasını dəyişmişdi.

Bir maraqlı faktı da qeyd edim.

Bir gün nənəm məni yuxudan oyadıb dedi ki, dur, samovara od at. Özü də həyət-bacaya əl gəzdirdi. «Qonağımız olacaq?» — deyə soruşduqda «Atan gələcək!» — dedi.

Elə bildim havalanıb. Lakin üç-dörd saat keçməmiş atam gəldi. Elə o vaxt dərk etdim ki, yalnız ana ürəyi övladının başına gələnləri hiss etməyə qadirdir.

— Bəs hələ uşaq olan Əlibala müəllim həmin anı necə yaşadı?

— Çox böyük sevinc və göz yaşları içərisində.

Yağışlı, çiskinli bir hava idi. Atamı görən kimi ayaqyalın qarşısına qaçıb qucağına atıldım. Amma bu sevincimiz də uzun çəkmədi. 1949-cu ildə onu da itirdik və hiss etdim ki, yetim qaldım. Amma həyat yaxşı insanlardan xali deyil. Məni tək qalmağa qoymadılar, mənə dayaq olub, kömək etdilər. Bu yaşıma qədər nə qazanmışamsa, nəyə nail olmuşamsa, göydə Allahım, yerdə yaxşı insanların sayəsində baş verib.

— Şəxsən kimi nəzərdə tutursunuz?

— Əsasən müəllimlərimi. Mən özümü onların gəzən, danışan, yazan, yaşayan əsərləri hesab edirəm.

— Həyat sizə nə öyrətdi?

— Həyatın mənə öyrətdiyi birinci hikmət odur ki, düşünə-düşünə yaşa. Necə gəldi yaşamaq yaşayış deyil. Yaddan çıxartmaq lazım deyil ki, həyat müvəqqətidir. Çalış yaxşılıqla xatırlanasan. Çünki sənin adın özündən sonra gələnlərin də fəxri və ya ləkəsidir.

Şəxsən mən Allahın köməkliyi ilə həyat sınaqlarından mərd-mərdanə çıxmışam. Heç kəsin yanında gözükölgəli deyiləm. Kasıbçılıq çəkmişəm, amma kiməsə əyilməmişəm, kişi kimi yaşamışam. Kimsə deyə bilməz ki, Əlibala Hacızadə mənə pislik etdi, xətrimə dəydi. Könül sındırmağı dünyanın ən böyük günahı hesab edirəm.

Özümdən yaşca kiçik olan bir uşağın xətrinə dəymişəm. Sonrakı illərdə görmüşəm ki, bu hadisə onun yadında qalmayıb. Əks təqdirdə, xahişlə qapımı açıb yanıma gəlməzdi. O unutsa da, mənim yadımda qalıb və buna görə özümü bağışlaya bilmirəm. Artıq 60 il keçsə də…

— Özünüzün özünüzə etirafınız olubmu?

— Olub. Özümə etirafım budur ki, daha çox yarada bilərdim. Amma etmədim.

— Səbəb?

— Bunun obyektiv və subyektiv səbəbləri olub. Özümdən asılı olmayan səbəblər üzündən istədiklərimin hamısını əks etdirməmişəm.

— Ən böyük mükafatınız nə olub?

— Ən böyük mükafatım məni sevənlərin məhəbbəti olub. İstər oxucu, istər övlad, istərsə də dost məhəbbəti qazanmışam.

— Sizcə, insan ömrünü mənasızlaşdıran nədir?

— Onun ağılsızlığı, düşüncəsizliyi. Allah-təala insanı yaradarkən ona ağıl verib. Kimi ağılla hərəkət edib xoşbəxt olur, kimi isə əhəmiyyət vermir, saymazyana keçir və cəzasını alır.

— Səhvləriniz çox olub?

— Yox, böyük səhvlərim olmayıb. Bir neçə xırda səhvlərim olub ki, bu da dərindən düşünməməyimin səbəbidir.

— Ən böyük sevinci nə vaxt yaşamısınız?

— İlk əsərim yarananda, ilk övladım dünyaya gələndə, hamı tərəfindən sevildiyimi görəndə çox sevinmişəm və kövrəlmişəm?

— Hazırda ömrünüzün hansı fəslini yaşayırsınız?

— Ömrümün payız fəslidir. Yarpaq tökülən fəsil… Bu elə yaşantıdır ki, baş verənləri olduğu kimi qəbul etməlisən. Nəinki başqalarını, özünü də aldatmalı deyilsən.

— Bəs hansı fəsli sevirsiniz?

— Qəribə də olsa… payızı (kövrəlir).

— Elə zənn etdim ki, baharı deyəcəksiniz.

— Hər fəslin öz gözəlliyi var. Payızda insan daha müdrik, daha şairanə olur. Təbiətin payızı ömrümüzə gələcək payıza daha çox bənzəyir. Daha doğrusu, onu xatırladır, xəbərdarlıq edir. Ömrün çiskinli fəsli gəlir və ömrümüzün günləri payız vaxtı ağaclardan saralıb tökülən yarpaqlar kimi tökülməyə başlayır. Fərq burasındadır ki, yarpaq heç olmasa gələn bahar yaşıllaşır, ömür isə...

— Tənha olanda hansı düşüncələr sizi narahat edir?

— Özümə hesabat verirəm. Özümə kənardan baxır, ikiləşirəm. Qarşımdakı Əlibala daxilimdəki Əlibalanı ittiham edir, əfv edir, sevir, rədd edir. Deməli, heç vaxt tək qalmıram.

— Əlibala müəllim, söhbətimizin sonunda polislərə münasibətinizi də bilmək maraqlı olardı.

— Polislərə münasibətim çox yüksəkdir. Onlar olmasa, şübhəsiz, özbaşınalıqlar baş verə bilər. Polislər arasında ləyaqətli insanlar çoxdur. Çoxu da dostlarımdır. Onlara həmişə hörmətlə yanaşmışam.

Biz də öz növbəmizdə hər bir sətrini sevə-sevə oxuduğumuz «İtkin gəlin»in müəllifinə bundan sonrakı yaradıcılığında hər kəsin stolüstü kitabına çevrilə biləcək dəyərli əsərlər yaratmasını, payız fəsli hesab etdiyi ömründə bahar yaşantıları, daxilindəki Əlibalanı daim sevməsini və əhv etməsini diləyirik.

*Mətanət Şamilqızı*
*«Polis» qəzeti*

## ƏLİBALA HACIZADƏ HEKAYƏTİ

Onun üçün ayrılığın sonu yoxdur

… Balaca bir hücrənin bapbalaca mətbəxinin «səması»na topa-topa «buludlar» yığışmışdı. Kənardan baxana elə gəlirdi ki, «bomboz buludlar» bir himə bənddir. İndicə boşalacaq. Yağacaq, hey yağacaq… Amma bu «buludlar» asimanın, göy üzünün doğurduğu, törətdiyi, dünyaya gətirdiyi buludlardan deyildi. Bu, onun çoxunu ciyərinə çəkərək azını havaya bəxş etdiyi siqaretin yaratdığı buludlardı. Bir azdan bu buludlar da yazıçı qələmindən süzülərək ağ vərəqlərin üzərinə yağmağa başlayacaq. Bu yağışdan gölməçə, sonra ümman, sonra dəniz, sonrasa okean yaranacaq. Bu qələmdən yağan «yağış» nəticəsində ilk dəfə indi əlyazması qalmayan, adını belə xatırlamadığı pyes yaranıb. Bu haqda bir az sonra. Hələliksə…

### «ƏLİBALA, MUŞTULUĞUMU VER, ATAN GƏLİR»

1935-ci il avqustun 28-də Biləsuvarın Ağalıkənd kəndində Qüdrət müəllimin ailəsində ilk övlad — oğul payı dünyaya göz açır. Uşağa babasının adını qoyurlar — Əlibala. Balaca Əlibala 6 yaşına çatanda fəlakətlərə, göz yaşlarına, milyonların ölümünə səbəb olan müharibə başlayır. Dünya savaşının başladığı ilk gündən — 1941-ci il iyunun 22-dən Qüdrət müəllim könüllü cəbhəyə yollanır. Az sonra isə Əlibala məktəbə. Titrək, hələ bərkiməmiş barmaqları ilə qələm tutmağı, «ana», «vətən» kəlmələrini yazmağı ona anası öyrədir, ibtidai təhsilini anasından alır. 6-7-ci sinifdə oxuyanda isə riyaziyyat, tarix dərslərini atasından öyrənir. Atası 1943-cü ilə qədər mütəmadi olaraq evə məktub göndərir. Lakin həmin il məktubların arası kəsilir. Bu dəfə ailəyə atanın «qara kağız»ı gəlir. Hələ bu ağır dərdi balaca ürəyində çəkməyə macal tapmamış dünyanın ən böyük itkisi olan ana itkisi ilə qarşılaşır. Bundan sonra isti ana qucağına, ata nəvazişinə, qayğısına həsrət qalan Əlibala iki bacısı ilə birlikdə nənəsinin himayəsində böyüyür… Müharibə qurtarandan sonra çoxlarının sağ qalan əsgərləri geri döndüyü halda, onlar «Ölülər geri dönmür» — deyib gözlərini yoldan yığmışdılar. Amma 1945-ci ilin noyabr ayında gözlənilməz hadisə baş verir. Bir gün səhər nənəsi Əlibalaya deyir ki, samovara od salsın, atası gələcək. Uşaq da olsa, bunu eşidən Əlibalanın beynindən bir fikir keçir ki, yəqin nənəsi havalanıb. Nənəsi

isə həyət-bacanı süpürməyə başlayır. Yolun kənarını təmizləyəndə qonşuları Əli kişi xəbər alır: «Ay Səriyyə, xeyir ola, səhər-səhər belə sil-süpür edirsən?» Səriyyə xala «Qüdrət gələcək» — cavabını verəndə isə Əli kişi də başını yelləyib keçir. Ancaq bir neçə saatdan sonra elə Əli kişinin oğlu qaça-qaça muştuluq xəbərini çatdırır: «Əlibala, muştuluğumu ver, atan gəlir…»

Qüdrət müəllim doğma yurd-yuvasına qayıdandan sonra uzun müddət evlənmir. Anası nə qədər təkid etsə də, «qocayam, uşaqlara, həyət-bacaya, heyvanlara baxa bilmirəm» desə də, əvvəl buna razılıq vermir. Ancaq sonra anası və bacısı kişini «yoldan çıxarır», evləndirirlər. 1948-ci il mayın 15-də Qüdrət müəllimin dördüncü övladı dünyaya gəlir. Adını da Əlibala özü qoyur — Nizami. Həmin il Nizami Gəncəvinin yubileyi keçirildiyindən. Ancaq körpənin dünyaya gəlişindən 1 il 3 ay neçə gün sonra — 1949-cu ilin avqustunda Əlibala 35 yaşlı atasını əbədi itirir. Və qalır ata-anasız…

Orta məktəbi bitirib Bakıya gələndə nənəsi Əlibalaya tapşırmışdı ki, həkim olsun. Çünki repressiyaya məruz qalan və yenidən qayıdan iki qardaşı da həkim idi. Lakin nəvəsi fikrində başqa ixtisası tutmuşdu. Valideynləri müəllim, ziyalı olduğundan evlərində xüsusi «kitabxana» vardı. Ümumiyyətlə, evlərində kitab yüksək dəyərə malik nemətlərdən sayılırdı. Elə Əlibalaya da kitaba, yazı-pozuya olan maraq onlardan keçmişdi. Bakıya gələndə isə Əlibala qarşısına məqsəd qoymuşdu — ərəb, fars dillərini öyrənəcəkdi. Ona görə də sənədlərini Azərbaycan Dövlət Universitetinin (indiki BDU) şərqşünaslıq fakültəsinə təqdim edir və ora qəbul olunur. Ərəb, fars dillərini öyrənmək eşqi, həvəsi isə o zaman doğmuşdu ki, atası dünyasını dəyişəndən sonra evdəki kağızları yoxlayanda əlinə qəribə bir vərəq keçmişdi. Ərəb əlifbasında yazılan bu vərəqi nə qədər cəhd etsə də, oxuya bilmir Əlibala. Və məhz bu vərəqi oxuya bilmək üçün ərəb əlifbasını öyrənmək qərarına gəlir. Lakin sonradan bu vərəqi tapa bilmir… Nənəsi Əlibalanın şərqşünaslıq fakültəsinə daxil olduğunu biləndə ağlayır ki, nəvəsini İrana konsul aparacaqlar, onlar da onun üzünə həsrət qalacaq. Gülmüşdülər nənənin bu fikrinə. Amma qəribədir ki, illər sonra nəvəsi İrana konsul getməsə də, Əfqanıstana tərcüməçi getdi.

## 35 YAŞINDA ÖLMƏLİYKƏN 70-Cİ SİNNİNİ HAQLAYIR

Tələbəlik illərində, hələ nəsillərindəki qocalar sağ ikən Əlibala şəcərələrini öyrənməyə başlayır. Məlum olur ki, ulu babası dördüncü övladı olandan 1 il 3 ay bir neçə gün sonra 35 yaşında rəhmətə gedib. Eləcə də babası, atası. Nəslin bu gen xüsusiyyətini yadda saxlayır. Universiteti qurtarandan 3 il sonra nənəsi, analığı, qohum-əqraba Əlibalanı evləndirmək qərarına gəlir. İlk övladı Təranə dünyaya göz açır. Sonra Qüdrət, Asya anadan olur. Və birdən bu əhvalat yadına düşür. Axı o da dördüncü övladı olanda 35 yaşına haqlayacaqdı. Qərara alırlar ki, dördüncü uşaq olmasın. Beləliklə, 35 yaşında ölməliykən 70-ci sinnini yaşayır. Və düşünür ki, yəqin Tanrı ata-babalarının ömründən kəsdiyi illəri ona bağışlayıb. Universitetdə oxuyarkən qaynar ədəbi mühitə düşür. Mir Cəlal Paşayev, Həmid Araslı, Əli Sultanlı, Mübariz Əlizadə kimi müəllimlərdən dərs alır. Əvvəl Mir Cəlal Paşayev, sonra Yusif Şirvan və Bəxtiyar Vahabzadənin rəhbərlik etdiyi ədəbiyyat dərnəyində sənətin sirlərini öyrənir. Elə tələbəlik illərində tədricən mətbuata yol açmağa başlayır. «Gəncliyin səsi», «Gənclik təranələri» almanaxlarında, Universitetin qəzetində hekayələri nəşr olunur… İlk qələm təcrübəsi 6-cı sinifdə oxuyarkən yazdığı pyes olub. İndi o pyesin nə əlyazması qalıb, nə də adı yaddaşındadı. Ancaq yazıçı o pyesin bir kiçik epizodunu xatırlayır. O da ona görə ki, pyes siniflərində səhnələşdirilmiş və oynanılmışdı. Rol bölgüsü aparılanda obrazlardan birini də müəllifin özünə həvalə etmişdilər. Həmin rolda Əlibala qaça-qaça səhnəyə gəlməli, birdən ayağı köhnə vedrəyə ilişərək yıxılmalı və durmalı idi. Əlibala yazdığı kimi qaçaraq səhnəyə çıxır, ayağı vedrəyə ilişir və doğrudan yıxılır. Bu zaman evdə də, məktəbə də, çölə də geyindiyi yeganə şalvarı cırılır. Axşam evə gələndə nənəsi buna görə onu xeyli danlamışdı.

Sonra Əlibala şerlər, hekayələr yazmağa başlayır. Onlardan bəziləri indiyədək saxlanıb, ancaq müəllif tərəfindən zəif hesab olunur. 10-cu sinifdə oxuyanda isə «İnqilab və mədəniyyət» («Azərbaycan») jurnalına bir hekayəsini göndərir. Az sonra nəsr şöbəsinin müdiri Salam Qədirzadənin imzasıyla məktub alır ki, hekayə jurnalın tələblərinə cavab vermədiyinə görə, çap oluna bilməz. Əsər uğursuzluğa düçar olsa da, sevinirdi müəllif. Sevinirdi ki, Salam Qədirzadədən məktub alıb. Bir neçə ildən sonra Bakıda bu yazıçıyla tanış olur, dostlaşır.

«AĞ SAÇLI QIZIN HEKAYƏSİ» ƏLİBALA HACIYEVİ ƏLİBALA HACIZADƏYƏ ÇEVİRDİ

Universitetə daxil olduğu ilk illərdə «Ağ saçlı qızın hekayəsi»ni yazır. Əsəri oxuyub fikrini bildirməsi üçün Bəxtiyar Vahabzadəyə verir. Bəxtiyar Vahabzadə əsəri götürür və 3 gündən sonra müəllifinə qaytarır. Hekayə onun xoşuna gəlmişdi, ancaq kiçik bir dəyişiklik etmişdi. Əlibala Hacıyev imzasını pozaraq Əlibala Hacızadə yazmışdı. Və o vaxtdan milyonların ürəyində «İtkin gəlin», «Əfsanəsiz illər»lə… özünə yer qazanmış yazıçı əsərlərini Əlibala Hacızadə imzası ilə tamamlayır. Əlibala Hacızadənin ilk yazısı «Azərbaycan gəncləri» qəzetində çıxmışdı. Bu, Əhmədağa Muğanlının «Səs veririk ki» hekayəsinə yazılmış resenziya idi. Yazı qəzetdə çıxanda müəllifin xəbəri olmamışdı. Yalnız 9 rubl qanorarını alanda yazısının işıq üzü gördüyünü bilmişdi. Bu, Əlibala Hacızadənin ilk qonorarı, yazısının ilk haqqı idi. Onda hələ tələbə olan Əlibala bu pulu yeməyə xərcləmişdi. O illərdə kirayədə qalırdı, yalnız tələbə təqaüdü ilə dolanırdı. Pul göndərəni də yoxuydu. Bəlkə də, bu pul onunçün göydəndüşmə idi. Çünki kasıb yaşayırdı. O dərəcədə ki, üç ilin qışını bircə pencəklə «yola salıb», başqaları kimi geyməyə paltosu, taxmağa saatı olmayıb. Amma bu çətinliklər qarşısında tab gətirə bilir, sınmır, əyilmir, iradəsinə güc gələrək dözür. Tanrı dözümlü insanları sevir deyirlər. Vaxt çatır, Əlibala Hacızadənin üzünə xoş sabahlar açılır. Yaxşı insanlar çıxır qarşısına. 1958-ci ildə Universiteti bitirəndən sonra təyinatla Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda işləməyə başlayır. 1962-ci ildə Yusif Məmmədəliyev Akademiyanın prezidenti olanda mənzil alır. Həmin il ilk kitabı «Heykəl gülür» işıq üzü görür, SSRİ Yazıçılar İttifaqının üzvü seçilir. 1964-cü ildə namizədlik dissertasiyasını müdafiə edir, İran ədəbiyyatına aid tədqiqatlar aparır, məqalələr yazır, fars dilindən tərcümələr edir. O, Məhəmməd Ravəndinin «Səlcuq xanədanı tarixi haqqında könüllər açan və sevinclər saçan kitab»ını, Qurani-Kərimin 30-cu cüzünün təfsirini, Şah İsmayıl Xətai haqqında kitabı Azərbaycan dilinə çevirib. 1966-cı ildə Əfqanıstana tərcüməçi göndərilir. «Unutmaq olmur», «Məhəbbət olmayan evdə», «Cehiz», «Pəhləvan», «Təyyarə kölgəsi», «İtkin gəlin», «Əfsanəsiz illər», «Ayrılığın sonu yoxmuş», «Vəfalım mənim» və s. kitabları çıxır. Lakin sovet dövründə adi hal almış senzuraya görə fikirlərini nə qədər mətnaltı məna ilə verməyə çalışsa da, bu, Əlibala Hacızadənin də əsərlərindən yan keçmirdi. Elə yazıla-

rı olurdu ki, bir neçə qəzetə təqdim edirdi, ancaq çap olunmurdu. Hətta belə bir hadisə də baş vermişdi: «Böyük dərd» adlı hekayəmdə yazıram ki, biz çırağıq, öz dibimizə işıq salmırıq, biz iynəyik, hamını bəzəyirik, özümüz lüt gəzirik…

1958-ci ildə Mehdi Hüseyn sədr olanda Yazıçılar Birliyində bu hekayəni oxudum. Mehdi Hüseyn soruşdu ki, «fit verib nefti aparan gəmilər kimindi?» Dedim, yəqin ingilis gəmiləri olar. Onda axı, deyə bilməzdim ki, bu, rus gəmiləridi. Dedi, «onda get, ora bir «ingilis» sözü əlavə et, gətir, Əli Vəliyev jurnalda çap etsin». Elə də oldu. Hekayədə düzəliş edəndən sonra çap olundu.

## HEYDƏR ƏLİYEVDƏN XAHİŞ OLUNANDAN SONRA «İTKİN GƏLİN» 200 MİN TİRAJLA BURAXILDI

Ancaq yaşlı nəslin nümayəndələri gənc yazıçıya qarşı pis münasibət bəsləməyiblər. Sadəcə, bəzən laqeydlik göstərib — əsərlərini oxumayıb, çap etməyiblər. Məsələn, «Unutmaq olmur» povesti 2 il «Azərbaycan» jurnalında «yatdı». Jurnalın o zamankı baş redaktoru Əbülhəsən Ələkbərzadə əsəri oxumadı ki, oxumadı. Baxmayaraq ki, ondan sonra verilən əsərlər hətta çap olunurdu da. Sonda Əlibala Hacızadə gözləməkdən usanıb əsərini geri götürür. «Laqeydlik kimsəsizlikdən irəli gəlir. Məni tapşıran, əlimdən tutub bir kəsin yanına aparan yoxdu» düşüncələri ilə əlaqələndirirdi belə münasibəti. Amma yaxşı insanlarla da qarşılaşır Əlibala Hacızadə. Belələrindən Əzizə Əhmədova və naşir Əjdər Xanbabayevi həmişə minnətdarlıqla anır. Çünki onlar yazıçı üçün «yaşıl işıq» yandırıblar. Bu hadisəni xatırlayır Əlibala müəllim: Mərhum Heydər Əliyev ötən əsrin 80-ci illərində Saatlıda pambıq tarlasına gəlir. Qızmar günəş altında yorulmadan çalışaraq ölkənin «üzünü ağ edən» qızlara təşəkkürünü bildirir və deyir ki, kimin nə xahişi, istəyi varsa, çatdırsın. Bu zaman briqadanın qızlarından biri deyir: «İtkin gəlin» adlı kitab çıxıb. Onun cəmi bir nüsxəsi kəndə gəlib. O bir dənə kitabı oxumaq üçün növbəyə düzülmüşük. Mən də 23-cü adamam. Mümkünsə deyin, o kitabdan çox buraxsınlar». Bundan sonra kitab 200 min tirajla yenidən buraxılır. Ardınca «Əfsanəsiz illər» 200 min tirajla çap olunur. Kitabları baha qiymətə satmağa başlayırlar. Müəllifin özünə belə. Hətta həmin kitabların sayəsində digər satılmayan kitabları da satırdılar. Elə Əlibala müəllim özü də bu halla qarşılaşıb: «Müşfiq heykəlinin yanındakı kitab mağazasına girmişdim. Dostuma kitabımı hədiyyə etmək istəy-

irdim. Bir də gördüm, satıcı qız kitabımın üstünə 5-6 başqa kitab da qoyub. Soruşdum ki, «bu nədir? Mən axı, o kitabları istəməmişəm». Qız da cavab verdi ki, «direktor tapşırıb ki, o biri kitabları almayana bunu da verməsinlər. Yanımdakı dostum mənim kitabın müəllifi olduğumu deyəndə qız üzr istədi».

MƏNİM BİRCƏ MÜKAFATIM VAR, O DA XALQIN, OXUCULARIN MƏHƏBBƏTİ»

«Maliyyə çətinliyi insanın əl-qolunu daha çox bağlayır, nəinki senzura» deyir Əlibala Hacızadə. Əsərlərini çap edə bilməkdə çətinlik çəkir. Amma burda da dadına dostları çatır. 65 illik yubileyində Ali Diplomatiya Kollecinin rektoru Nazim Hüseynli yazıçının bir kitabını 500 nüsxə ilə çap etdirir və hədiyyə verir. Martda isə Gülhüseyn müəllim Əlibala Hacızadənin əsərlərinin 10 cildliyinin birinci cildini buraxdırır. Kitabın təqdimat mərasimini Əlibala müəllimin sinif yoldaşı olmuş Şairəlinin oğlu Alim Şirinov keçirir. Və mərasimdə yazıçı üçün sevindirici bir hadisə baş verir. Məhz təqdimat üçün Bakıya gələn dostu, Moskva Dövlət Dumasının üzvü, memarlıq elmləri doktoru, şair Gülağa Tənha 10 cildliyi çap edəcəyini deyir. Artıq sentyabrın sonunda birinci cild işıq üzü görəcək. Amma Əlibala Hacızadənin giley-güzarı diqqətdən kənarda qalmasındadır. Deyir ki, heç bir təmənnası yoxdu, heç nə istəmir. Hərçənd ki, ehtiyacları var. İndiyədək heç bir fəxri ad, titul, prezident təqaüdü almayıb: «Bilsəm ki, həyatım fəxri addan asılıdır, yenə də kimsəyə bir söz demərəm. Deməyəcəm də. Mən indiyədək heç kimin qarşısında əyilməmişəm. Versələr də sağ olsunlar, verməsələr də. Sadəcə, insanı bir şey göynədir. Mən o məmurların yerində olsaydım, gözə girib həyasızlıqla, çığır-bağırla fəxri ad, təqaüd, rütbə tələb edənlərdənsə, səssiz-səmirsiz, əli qoynunda durub bu mənzərəni seyr edən adamları önə çəkərdim, qiymət verərdim. Ancaq bu mənəm. Hamı mən ola bilməz. Bunu tələb də edə bilmərəm. Mən heç bir mükafat istəmirəm. Mənim bircə mükafatım var, o da xalqın, oxucuların məhəbbətidi. Xoşbəxtliyim də ondadır ki, camaatımız yüksək səviyyəli oxucudu. Yaxşı əsərlə pisi seçir, qiymətləndirir və müəllifinə öz məhəbbətini bildirir».

«GÜLMİRƏ O QƏDƏR YAXŞI QIZDIR Kİ, KİMSƏYƏ VERMƏYƏ ÜRƏYİM GƏLMİR, ONU ÖZÜMÇÜN SAXLAMIŞAM»

«Sonuncu cümləmi bilməsəm, əsəri yazmağa başlamıram. Əvvəldən bilirəm ki, kitab hansı sözlə bitəcək» deyir Əlibala Hacızadə.

Bir də görürsən, aylarla heç nə yazmır. Gəzir, dolaşır, beynində, ürəyində yazır ancaq. Elə kağız, qələmsiz qürbətdə yazdığı bir şerini də daha çox sevir.

«Bitməsin üstümdə gülü qürbətin». Bu misralarla bitən şeri düz 16 ildən sonra kağıza köçürüb. Trilogiyasını isə 16 ilə yazıb. Əfsanə, Elməddin, Nəcməddin, Dünya… onun yanında gəzib, onunla, ürəyində, beynində yaşayıb. Kiminlə söhbət edibsə, fikrində Dünya olub. Nəcməddin haqqında düşünüb. Yaratdığı adamları özününküləşdirib. Sevənlə sevir, ölənlə ölür, bir sözlə, onlarla yaşayır. Artıq ayrılıq məqamı yetişəndə isə çətin olur yazıçı üçün. «İtkin gəlin»i bitirən zaman qorxmağa başlamışdı Əlibala Hacızadə. Qəhrəmanlarından ayrılacaq deyə, əsəri bitirmək istəmirdi. 10 səhifə yaza bilərdisə, ikisini yazır, sonra gedib gəzirdi. Düşünürdü ki, «bax, nöqtə qoyacam və bununla da hər şey qurtaracaq. Ayrı adamlar, ayrı qəhrəmanlar gələcək». Və az sonra yeniləri gəlməyə başlayırdı: «Mən sevib, yaxud nifrət edib yazmışam. Kimisə sevdiyimdən gözəl yaratmışam. Birini pis qələmə vermişəmsə, cəmiyyətimizə, millətimizə, əxlaqımıza nöqsan bilib damğalamışam. Mən kolxozdan, sovxozdan, tarla qəhrəmanlarından yox, insanlardan yazmışam. Mən insanlara insan gözü ilə baxmışam, vəzifə gözüylə deyil. Elə kəslərdən yazmışam ki, onlar həmişə var. Nə qədər ki, insan, bəşər, cəmiyyət var, məhəbbət, xəyanət, mərhəmət, mərdlik, namərdlik, ədalətsizlik də olacaq. Bunlar əbədidir. Bəlkə elə buna görə də ürəyimi sakit hesab edirəm ki, yazmaq xatirinə yazmamışam, boşuna kağız-qələm korlamamışam».

Elə obrazları da olub ki, yaratdıqdan sonra vurulub onlara Əlibala müəllim. Məsələn, Gülmirə, Əfsanə, Dünya. Deyir ki, cavanlar ailə qurmağı səadət hesab edirlər. O isə bunu səadət deyilən böyük məfhumun bir hissəsi, «damcısı» adlandırır: «Ticarət texnikumunda mənimlə görüş keçiriləndə tez-tez bir sual ünvanladılar ki, niyə Gülmirəni ərə vermirsiz? Axırda bu suala cavab verdim. Dedim, Gülmirə o qədər yaxşı qızdır ki, kiməsə verməyə ürəyim gəlmir, onu özümçün saxlamışam».

## İTKİN GƏLİN 30 İLDƏN ÇOXDUR Kİ, TAPILMIR

Müəllifin başına «İtkin gəlin»lə bağlı o qədər əhvalatlar gəlib ki. Onlardan birini danışır: «Bir gün gecə saat 3-də evə zəng gəldi. Gözəl səsli bir xanımdı. Əlibala Hacızadə olduğumu soruşandan sonra «siz məni tanımırsız. Nömrənizi çoxdan bilirdim, amma zəng vur-

mağa ürək etmirdim. İndi etdim. Kitabınızı bu dəqiqə oxuyub qurtarmışam və yerimin içində qıvrılıram, yata bilmirəm. Siz məni yatmağa qoymursunuzsa, mən də sizi yatmağa qoymayacağam. Adımı deməyəcəyəm. Mən də sizin İtkin gəlininiz olacam. Ömrünüz boyu məni axtaracaqsınız, tapmayacaqsınız» dedi və dəstəyi asdı. Bu hadisədən 30 ildən çox vaxt keçib, lakin İtkin gəlin hələ də tapılmayıb. Tapılsaydı, yaxşı dostum ola bilərdi. Çünki zərif, incə qəlbli, həssas və içi nəğmələrlə dolu bir insandı. Mən də elə insanları xoşlayıram» deyir Əlibala müəllim. Ancaq yazıçının özündə qəddarlıq var. Əsasən də müsbət qəhrəmanlarına qarşı. Deyir ki, mənfi qəhrəmanları ona görə mənfidir ki, onlar Allahın qəzəbinə gəliblər. Döyülmüşün nəyini döyəsən? Müsbət qəhrəmanlarını isə çox incidir, yəni həyat belədir. Ətrafa boylanmağı məsləhət görür: «Oğrunun, yalançının, pisin işi yaxşı gedir. Yaxşı adamların işi isə daşdan keçir. Əzablarını, göz yaşlarını toplasaq, özlərindən böyükdü. Niyə? Çünki həyat budur. Bunları göstərməsəm, həyatı göstərməmiş oluram. Və bir də nədənsə ölümü həzm edə bilmirik. Halbuki ölüm haqdır. Sonda hamı öləcək».

Qəhrəmanları isə onunçün heç vaxt qocalmır. Onlardan harda, nə vaxt, necə ayrılırsa, elə o yaşda da qoyub gedir. Çünki sonradan onların qocalığını, ölümünü görmək istəmir: «Əqdəm, Nəcməddin, Zərintac… ölüblərsə də, mənim fikrimdə sağdılar, diridirlər. Mən onları ürəyimdə yaşadıram. Xəyalımda onlarla danışıram, dərdləşirəm, sual verirəm. Bəzən sualıma cavab gəlir. Bəzənsə gəlməyəndə özüm onların yerinə cavab verirəm».

Günəşdən, istidən qorunmaq üçün təyyarə kölgəsinin də mümkün olduğunu deyir Əlibala Hacızadə. O da əgər təyyarə alçaqdan uçarsa. Sadəcə, ağacdan, dağdan, qayadan fərqli olaraq, təyyarə kölgəsi «qısa ömürlüdür». Zaman kimi sürətlə gəlir və eləcə də keçib gedir. Ancaq kölgəsi insanların həyatında qalır.

… Zaman su kimi axır. Saatın əqrəbləri sürətlə irəliləyir. Bir azdan Günəş buludların arasından boylanacaq. Otaqsa hələ də boz duman içindədir. Bu siqaret «buludları» arasından isə bir cüt mavi göz dünyanı seyr edir. Yenə xəyallara dalıb. Bəlkə də, həyatını bağladığı qəhrəmanlarını düşünür, ya da onlarla söhbət edir. Yox, yəqin, özünə yeni qəhrəmanlar, dostlar axtarır. Bu, Əlibala Hacızadədir. Bir azdan ona yol yoldaşlığı edən, çəksə də, çəkməsə də, onsuz ölə biləcək siqaretlərinin «buludları» dolacaq və yağışını yağdıracaq. Bax onda…

*Xəyalə Hüseynli*

## «AZƏRBAYCANIMIZ DA ƏFSANƏ KİMİ GÖZƏL VƏ ZƏNGİNDİR»

Ədəbiyyatımızın cəfakeşi, sütunlarından biri, uşaqdan böyüyədək hamının sevimlisi, böyük istedada malik olan yazıçı Əlibala Hacızadə müsahibim oldu. Zəngləşib «Vahid poeziya evi»ndə görüşdük. İllər saçlarına dən, üzünə qırışlar salsa da, hələ ki, gümrahlığına, şux yerişinə toxuna bilməmişdir. Yaradıcılığı da yerli-yerində.

Sevimli yazıçımız ömrünün 70-ci baharındadır. Bir də ki, 70 yaş yaradıcı adam üçün ömrünün yarısı deməkdir. Hələ bundan sonra neçə-neçə əsərlər yazacaq, neçə-neçə oxucu qəlbinə yol tapacaq, ruhunu təzələyəcəkdir. Muğan torpağının ab-havası ilə böyüyüb boya-başa çatan balaca Əlibala II Dünya müharibəsinin ağrı-acısını da dadmışdır. Atası müharibəyə yollananda o, çox kiçik idi. Bütün ailənin ağırlığı qoca nənəsinin çiynində idi. Kənddə məktəb olmadığından qonşu kəndə məktəbə gedirdi. Gündə neçə kilometr məsafə qət edən Əlibala — gələcəyin ən çox sevilən yazıçısı ədəbiyyatın döngədalanında da yorulmur, elə hey irəli getməyə can atırdı. Çoxlarının cəsarət edib toxuna bilmədiyi mövzuları bizlərə açıqlayır, gözümüzün qarşısında əks etdirirdi. Qalın-qalın romanları da oxucunu düşündürməyə sövq edirdi. Yaratdığı neçə-neçə obrazın dili ilə danışır və qəlbləri fəth edirdi.

Böyük yazıçı Bernard Şoudan soruşurlar: Sizcə, yaxşı əsər yazmaq üçün nə etmək lazımdır? Çox hazırcavab olan Bernard Şou belə cavab verir:

— Sadəcə, soldan sağa yazmaq lazımdır.

Mən isə belə deyirəm: təkcə soldan sağamı? Bunu hamı bilir.

Mücərrədlikdən, yoxluqdan elə bir varlıq yaratmaq lazımdır ki, həyatın özü orada əks olunsun. Xəyallar reallığa çevriləndə daha inandırıcı olur. Bəlkə də, Əlibala müəllim dörd il əfqan torpağında işləməsəydi, belə bir əsər yaranmayacaqdı.

— İlk yaradıcılığa neçənci ildən və nədən başlamısınız?

— İlk yazılarımı neçənci ildə yazdığımı dəqiq yadımda saxlamamışam. Ancaq onu bilirəm ki, 6-cı sinifdə oxuyandan yazı-pozu ilə məşğul olmuşam. İlk dəfə pyes yazmışam. Çox vaxt şerdən başlayıb dram əsərinə keçid alırsan. Məndə isə əksinə olub.

— Pyesin məzmunu nədən ibarət idi?

— Təəssüflər olsun ki, məzmununu da unutmuşam. Çünki pyes yazmaq 6-cı sinifdə oxuyan uşaq üçün çox tez idi. Məktəb səhnəsində tamaşaya qoyuldu. Müharibədən sonrakı qıtlıq və çətinlik illərində yeganə şalvarımın dizi cırıldı. Həmin gecə nənəm məni o ki, var danladı. Üstündən 50 il vaxt keçib. İndiki incəsənət adamlarının dili ilə desək; incəsənət qurban tələb edir. Mən də ilk qurban kimi yeganə şalvarımı vermişəm.

— Bir yazıçı kimi şairlik də edirsiniz. Buna ehtiyac duyursunuz, yoxsa ilham pərisi çiyninizə qonub şer yazmağa vadar edir?

— Özümü heç vaxt şair hesab etməmişəm. Amma yaradıcılığımın əlli ili ərzində ürəyim dolu və kədərli olanda, çətin vaxtlarda şer yazıram. Hətta mərhum yazıçımız Əzizə Əhmədova dəfələrlə mənə müraciət edib, — bu şerləri bir yerə topla, ayrıca kitab şəklində çap edək. Şerlərim itib-batmasın, — deyə romanlarımdakı obrazların dili ilə bəzilərini vermişəm.

— Siz trilogiyanızda bir Dünya obrazı yaratmısınız. Yəni yaratdığınız Dünyada bu dünyadakı ən gözəl qadın surətini vermisiniz. Bunu hardan tapmısınız?

— Bu maraqlı bir əhvalatdır. Dünya bir qadın kimi çox gözəldir. Bizim eyni zamanda yaşadığımız dünyanın simvolik obrazıdır. Bu dünya da yaşamalı, sevilməli, gözəldir, o Dünya kimi. Məkrli, xəyanət və yalanla dolu bir dünya. İnsan xislətini, yəni bu dünya ilə o Dünyanı birləşdirərək məzmunlu, mənalı bir obraz verməyə çalışmışam. 60-70 obrazı olan bu romanda özüm hakiməm və hər kəsə əməlinə görə cəza vermişəm. Məsələn, Nəcməddin kimi bir adamın məhəbbətinə xəyanət etdiyinə görə, o qadına belə cəza vermişəm və Nəcməddinin əli ilə onu mən öldürmüşəm. Nəcməddin də gərək özündən 40 yaş kiçik olan Dünyaya vurulmayaydı, ayağını yorğanına görə uzadaydı. Ən böyük günahı elə bu idi.

— Əgər sizi Əfqanıstana, yaxud başqa bir ölkəyə göndərsələr gedərsinizmi?

— Çox maraqlı sualdır. Dünyada gedən prosesləri izləyirsiniz. Təəssüf hissi ilə deyirəm ki, dünya iki yerə bölünüb: müsəlman dünyası və xristian dünyası. Qeyri dinlərin dünyası birləşib müsəlman dünyasına qarşı təzyiq edir. Bir daha qəribliyə düşmək istəmirəm. Qəribliyin nə demək olduğunu çox yaxşı bilirəm. Ailəm, uşaqlarımla birlikdə olsam da, qürbətdən həmişə qaçmışam. Həftədə bir dəfə gələn təyyarədən məktub və ya «Ədəbiyyat» qəzeti gözləyirdim.

Doğulduğum torpaq mənim üçün müqəddəs və əzizdir. Dəfələrlə Şərq ölkələrindən dəvət alsam da, olunan təkliflərlə razılaşmamışam:

Qəbrimi qürbətdə qazmayın mənim,
Bitməsin üstümdə gülü qürbətin.

Ayrılığın, həsrətin nə olduğunu gözəl bilirəm. Qürbətdə yaşayanlara yazığım gəlir.

— Əlibala müəllim, sizinlə eyni yaşda olanlar, nisbətən yaşca kiçik olanlar prezident təqaüdü və yaxud fəxri fərmanlar alır. Sizdə bu gerilik nədəndir?

— Sadəcə, yazı-pozu ilə məşğul olanda qarşıma məqsəd qoymamışam ki, təqaüd və yaxud mükafatlarla təltif olunum. Yəqin yaddan çıxmışam. Adamların vicdanına, insafına arxayın oluram. Əgər qələm əhli də ədalətsizlik edirsə, onda qiyamət günü yaxınlaşır. Ən ədalətli şəxs ziyalı olmalıdır.

— Yenə qayıdaq «İtkin gəlin»ə. Bəs Əfsanə necə yarandı.

— Mən Əfqanıstana getməsəydim, belə bir əsər də yaranmazdı. Əvvəl «Qürbət hekayələri»ni yazdım. Amma gördüklərim, eşitdiklərim, öyrəndiklərim hekayə çərçivəsinə sığışmırdı. Beynimdə iri həcmli roman yazmaq haqqında fikirləşirdim. İşim çox olduğundan sadəcə təkan lazım idi. Deməli, Kabil şəhərinin mərkəzi küçələrində, dörd yol ayrıcı deyilən bir yerdə bütün hərəkət dayanmışdı. Adətən, belə yerlərdə tez-tez qəzalar baş verirdi. Sürücüdən nə baş verdiyini soruşdum:

— Ağayi Hacızadə, ora bax! Gördüm bir qız gəlir, su sonasına bənzəyir. Ağappaq ipəkdən don geyinib. Zəngin ailənin qızı olduğu dərhal bilinir. Sinəsində sinəbənd, köynəyinin düymələri qızıldan, qolunda qolbaq, barmaqları üzüklərlə dolu, gözlərindəki işıq üstündəki bər-bəzəkləri daha da zinətləndirirdi. Şahanə yerişi, məğrur addımı, gözəlliyi ilə qürrələnən bir gözəldi bu gözəl. Arxasınca kasıb ailədən olan başqa bir qız da gəlirdi. Sən demə, maşınları, atları, dəvələri, bir sözlə, bütün hərəkəti dayandıran bu qızın gözəlliyi imiş. Oturduğum maşının yanından gəlib keçəndə bir xeyli bunun gözəlliyinə tamaşa etdim. Qışqırdım: — Tapdım.

— Adını tapmışdım, amma özünü təsəvvür edə bilmirdim. Ancaq əsərdə gördüyüm gözəlliyini verə bilməmişəm.

— Nə üçün?

— Çünki o gözəllik qarşısında söz tapa bilməmişəm. Belə gözəl qadın xoşbəxt ola bilməz. Qoymazlar ailəsi ilə birlikdə sakit yaşasın. Bax, bizim Azərbaycanımız da bu qadına bənzəyir. Sərvətli, zəngin və gözəldi.

«Vəfalım mənim» romanım çoxlu sayda tirajla çap olundu. Dost-tanışlarım arasında mənə qarşı qısqanclıq yarandı. Bunu təbii hesab etdim. Populyar bir yazıçı kimi olmağımda iki insanın rolu böyükdür. Biri ulu öndərimiz Heydər Əliyev, digəri isə «Gənclik» nəşriyyatının direktoru Əzizə Əhmədova. Bu iki şəxsiyyətin ruhu qarşısında baş əyirəm.

— «Möcüzə» romanında nədən bəhs olunur?

— Deməli, bu on ildə başımıza gələn müsibətləri əks etdirmişəm. Mərkəzi Komitədən tutmuş, sıravi işçiyə qədər. Hər təbəqədən bir obraz yaratmışam. Orada qaçqınımız da var, erməni əsarətinə düşən qızımız da var, pasportunu, soyadını dəyişib özünü azərbaycanlı kimi qələmə verən də var. Bir sözlə, cəmiyyətimizdə baş verən prosesləri vermişəm.

On cildlik kitabımın birinci cildinə göstərdiyi köməyə görə Gülhüseyn müəllimə təşəkkürümü bildirirəm.

*Səmayə Güləliqızı*

## ƏLİBALA HACIZADƏ DÜNYASI

Əbəs yerə yazıçı və alim ömrünü zülmət gecənin dərinliklərində alışıb-yanan şama bənzətmirlər. Şam yanır və öz şöləsi ilə qaranlıqları aydınlığa çıxarır. Ətraf şamın işığı ilə şölələnir, şam isə özü əriyir

Yazıçı, alim ömrü də belədir. O, gözünün nurunu, qəlbinin istisini yaratdığı obrazların, elmi əsərlərin içində əridir, insanların dərdini, faciəsini yaşayaraq yanır, oxucularının qəlbini isidir.

Bir ürək tanıyıram — Orxanın sevgisini, Əfsanənin faciəsini, Gülmirənin kədərini qəlbinin istisi ilə isidərək yanıb və bu yanğı ilə oxucularını da ağladıb.

Bir ürək tanıyıram — neçə-neçə insan qəlbinin sevincini, kədərini, sevgisini özündə yaşadır. Fikirləşdim ki, bəlkə elə bu insanın həyat nəğməsinin notlarını birlikdə dinləyək?!

***

Bu yaxınlarda sevimli yazıçımız Əlibala Hacızadənin 70 yaşını qeyd edəcəyik.

70 yaşın 50 ilindən bizlərə sevimli yazıçımızın yaratdığı obrazlar — Təyyar, Solmaz, Zərifə, Əfsanə, Orxan, Əlikram, Əsmər, Aydın, Məlik, Ceyhun, Gülmirə boylanır. 70 illik bir ömrün ağrılı-acılı, sevincli-kədərli günləri muncuqlar kimi illərin, ayların qaranlıq guşələrinə səpələnib. Əlbəttə ki, o muncuqların hamısını yığıb-yığışdırmaq mümkün deyil. Lakin elə muncuqlar var ki, illərin qaranlıq guşələrində işarır, gəl-gəl deyir. Məhz həmin işaran muncuqları bir yerə toplayaraq Əlibala Hacızadə yaradıcılığının vurğunu olanlara çatdırmaq istəyirəm.

***

Əlibala Hacızadə qəlbində üç arzu böyüyərək qol-qanad açıb, həqiqətə çevirib. Bir ürək üç dünyaya dönüb — müəllim, yazıçı, alim ömrü.

Bu adlar onun adı ilə qoşa çəkilir. Bu üç dünyanı onun qəlbində birləşdirən isə həyata, insanlara və sənətə bağlılığıdır. Əsərlərinin hər sətrində Əlibala Hacızadə qəlbinin çırpıntıları, dəniz tək saf baxışlarının təmizliyi duyulur.

Əlibala Hacızadə 70 yaşın astanasındadır. Doğrusu, 70 yaşın gəlib onun qapısını döyməsinə inanmağım gəlmədi. Əslində bu yaş piranəliyin gəncliyidir.

İnsan həyatı təzadlarla zəngindir. Həyatın ona nə bəxş edəcəyindən xəbərsizdir. Əlibala Hacızadə ömrünün alın yazısında acılı-şirinli günlər bir-birini əvəz edib.

«Əlli ildir mən yetiməm dünyada,
Nə atam var, nə anam var, ilahi»

***

Hələ 1999-cu ildə qələmə alınmış bu misralarla o, qəlbinin fırtınalarını, ata-ana nisgilini fəryada çevirmişdir. Ovcundadır Əlibala Hacızadə qəlbi sanki. Sıxır ovcunda onu ilk qazancı kimi. Əllərindən misralara çevirir qəlbinin nisgilini:

«Atam, anam öldü getdi,
Mən neylim, ölə bilmədim.
Kimsə kimə boyun əydi,
Mən heç kəsə əyilmədim».

Bu misralara şermi, nəğməmi, ürək yanğısımı deyək? Bu sətirlər ürək yanğısından doğmuş, hissdən, duyğudan yaranmışdır.

Deyirlər ki, ürək yumruq boyda ət parçasıdır və bəzən həyat onu özündən də ağır yükləyir. Ürəyin ən daşınmaz yükü itkidir. Bu misraları ilə Əlibala Hacızadə hələ uşaq ikən itirdiyi atasının, anasının xiffətini çəkir.

***

Ə.Hacızadə şerləri ilə tanış olduqda onun xarakterində iki cəhətə daha çox valeh oluram — səmimiyyət və sadəliyə. Bu səmimiyyəti insanlara və həyata nikbin, ümidli və etibarlı baxışın, sadəliyi ilə müdrikliyin təzahürü kimi qiymətləndirmək olar. Onun şerləri sanki

şirin bir söhbəti xatırladır. Burada gəncliyin şıltaq günlərinin kövrək xatirələri də var, nəsihəti də. Burada itirilmiş torpaqlarımızın harayını da eşidirik. Bu haraya Ə.Hacızadə qəlbinin harayı da qoşulur.

«Şöhrət gedib, namus gedib, ar gedib,
Mənim üçün nə müqəddəs var, gedib.
Mən necə yaşayım, torpaqlar gedib,
Kül olsun başıma, Tanrım, kül olsun!»

Bu şerin hər misrasından Əlibala Hacızadənin harayı eşidilir. Bəzən bu haraydan insan təəccüblənir də. Təəccüb edirsən təbiətən bu qədər sakit adamda olan üsyankarlığa. Onun bütün içindəki vulkanı bu misralarda sanki püskürür.

Ə.Hacızadə ilə ünsiyyətdə olan hər bir kəs özünü xoşbəxt saya bilər. Onu dinlədikcə, bu böyük şəxsiyyəti nəhəng qayaya, onun qəlbinin dərinliklərindən süzülüb gələn və insanı valeh edən danışığını isə çağlayan çeşməyə bənzədirəm.

***

Ə.Hacızadənin xeyriyyəçi Gülağa Qənbərovun köməyi ilə böyük tirajla işıq üzü görmüş kitablarını vərəqləyirəm. Hələ gənclik illərində bu əsərlərin ecazkar sehrinə büründüyüm anlar fikrimdə canlanır. Qarşımda mənə boylanan neçə-neçə insan taleyinin pıçıltılarıdır, qulağımda səslənir. Hər dəfə dərddən boğulub ağlayanda, hər dəfə «mən kiməm» – sualı cavabsız qalanda, dünya, təbiət, insanlar haqqında fikirlər axınına düşəndə bizlərdən hər birimiz Əlibala Hacızadə kitabını ələ alırıq, əsərlərini oxuyuruq. Onun hekayə, povest və romanlarında bir şirinlik, səmimilik, həyatilik cazibəsi var. O, əvvəlcə qəhrəmanının təbiətindən söhbət açır, xatirə şəkilli epizodlar bir-birini əvəz edir. Bu maraqlı insanların tale yolu bizlərdən hər birimizi dərin həyati düşüncələrə aparır.

Viktor Hüqonun gözəl bir fikri var. «Sevən və iztirab çəkən qəlb ülvidir».

Bəlkə elə qəlbində belə məhəbbəti yaşatdığı üçün Əlibala Hacızadə əsərləri qəlbə məlhəm və məhrəmdir.

«Əfsanəsiz illər»i ilə o qəlblərdə əfsanələşib, «Vəfalım mənim» ilə insanların qəlbində sevgi toxumu əkib. Bizlər onun bu və adlarını sadalamaqla bitməyən əsərləri ilə tanıyıb sevmişik. Ali mək-

təbdə təhsil alan zaman mən sevimli yazıçımızı bir müəllim kimi kəşf etdim, daha sonra isə bir şair kimi. Bəlkə də bu səbəbdən onun şerləri haqqında daha çox söhbət açmaq istərdim.

***

Ə.Hacızadə şerlərində, nəsr əsərlərində, baxışlarında bir dəniz coşğusu var. Onun gözləri də dəniz kimi mavidir. Bu baxışlardan bizə neçə-neçə yaratdığı əsərlərin qəhrəmanlarının pünhan sirləri gizlənib? Dəniz də sirlər dünyasıdır. Neçə-neçə insan öz dərdini, qəlbini dənizlə bölüşür. Hər dalğa bir insan ömrünün sahilə çırpınan fəryadıdırsa, hər əsərinin qəhrəmanı Ə.Hacızadə baxışlarında gizli bir sirrə dönüb. Əlibala Hacızadə yaradıcılığında qulaq pıçıltısı, gecə əsrarəngizliyi, sayrışan ulduzların parıltısı var.

Budur, onun ömür qatarı düz 70 ildir ki, gedir. Bu ömür qatarının yollarında heç də yaşıl işıq yanmayıb. Bəzən qırmızı işıq da nəsib olub bu ömür qatarının aydın yollarına. Ömür yolunun ayları, illəri bu qatarın vaqonlarıdır. Bu vaqonlardan isə bizə yazıçının saymaqla bitməyən hekayə, povest və romanları boylanır. Ömrünün 70-ci pilləçıxarında hələ bizi neçə-neçə yaradılan insan taleləri gözləyir. Qələmindən neçə-neçə bəxtsiz talelər bizlərə boylanır. Bəlkə də qəlbindəki ağrı-acıları atıb bunlarla. Amma yox, bəlkə də ağ kağızlar insanlardan daha vəfalı çıxıb ona. İllərin kədər yağışını yağdırıb bu ağ vərəqlərə Əlibala Hacızadə.

Yazdıqlarını bulud kimi dolmuş gözlərində gilələnən göz yaşlarında ovudub. Heç kimdə tapa bilmədiyi təsəllini tapıb əsərlərində.

Tanrı Sizi qorusun, əziz müəllimim!

*Çinarə Vüqar*

*«Təzadlar» qəzeti, №5(553), 2005*

## «GÜLAĞA TƏNHA ƏSƏRLƏRİMİ UNUDULMAQDAN QURTARDI»

Əlibala Hacızadə: Allah bir tərəfdən bağlayanda, o biri tərəfdən açır.

Yeni ilin ilk günləri sənət adamları, o cümlədən bütün Əlibala Hacızadəni sevənlər üçün əlamətdar oldu. Çünki 2005-ci ilin yanvar ayının 5-də, görkəmli yazıçımız Əlibala Hacızadənin 10 cildlik kitabının 5 cildliyin təqdimatı keçirildi. Xatırladaq ki, bu kitablar «Gülağa Qənbərov Fondu» tərəfindən təmənnasız olaraq çap olunub və pulsuz oxucuların ixtiyarına veriləcək. Onu da qeyd edək ki, bu il həm də tanınmış yazıçımızın 70 yaşı tamam olur. Sovet və müstəqillik dövrünə də şahidlik edən yazıçımızla söhbətə də dövrlər müqayisəsindən başladıq:

— Mən hər iki dövrün ədəbiyyatının şahidi və iştirakçısıyam. Bu ədəbiyyatları bir-birindən ayırmaq düzgün olmasa da, ideoloji baxımdan fərqlənirlər. Sovet ədəbiyyatı kommunist ideologiyasına xidmət edən vasitəyə çevrilmişdi. Bütün yazıçı və şairlərin stolunun üstündə gözəgörünməz əllərlə yazılmış təlimat var idi. Çox az yazıçı o təlimatdan kənara çıxa bilirdi. Disident adlanan belə insanlara misal olaraq rus ədəbiyyatında Pasternakı, Azərbaycan ədəbiyyatında isə Bəxtiyar Vahabzadəni, Xəlil Rzanı göstərmək olar. Pasternakın başına gələnlər bizə bəllidir. Amma Bəxtiyar Vahabzadəyə olunan təzyiqlərdən çoxları xəbərsizdirlər. O dövrdə problemləri xalqa çatdırmağın ən yaxşı yolu prosesləri xaricə transfer etmək idi. Yəni istənilən problemin xaricdə baş verdiyini yazmaqla həmin yazının senzuradan keçməsinə yaşıl işıq yandırılmasına nail olurduq. Əks halda illərlə yazıların çap olunmazdı. Məsələn, Azərbaycanın neftinin daşınıb aparılmasını və bizə heç nəyin qalmadığını yazdığım hekayədə neft aparan gəmilərin haraya məxsus olduğunu yazmadığım üçün problem yarana bilərdi. Hekayənin məzmunu ondan ibarət idi ki, neft mədənlərində işləyən fəhlə lampa yandırmaq üçün neft tapmır. Həmin fəhlənin evindən çıxan Nəriman Nərimanov sahildə neft daşıyan gəmiləri görür və bundan qeyzlənərək «sərvətimizi, gözümüzün işığını aparırlar» deyir. Gənc yazıçıların toplantısında bu hekayəni oxuyub tribunadan düşəndə Yazıçılar Birliyinin o vaxtkı sədri, rəh-

mətlik Mehdi Hüseyn məni yanına çağırıb həmin gəmilərin hansı ölkəyə məxsus olduğunu soruşdu. Bir anlıq susdum və ardınca «ingilis gəmiləri idi» dedim. Mehdi Hüseyn də «o zaman oraya «inkilis» sözünü əlavə et və gətir» söylədi. Doğrudan da həmin yazım çap olundu. Yəni Sovet adamına sözü birbaşa deməyə imkan verilmirdi. Sovet adamı təmiz, nöqsansız olmalı idi. Yaxud, rüşvətxorluqla bağlı yazımı Bakıda olarkən çapa göndərmədilər, dedilər ki, onsuz da «Qlavlit» geri qaytaracaq. Doğrudan da belə idi. Məcbur qaldım ki, Əfqanıstana gedəndən sonra yazının Kabildə yazıldığını qeyd edərək Azərbaycana göndərim. Ondan sonra yazı çap olundu. Amma indiki ədəbiyyata baxıram, sistem tamamilə dəyişib. Söz azadlığı şair, yazıçı üçün ən mühüm amildir. Daha maneə, qadağa yoxdur. Əlbəttə ki, bu qadağasızlığı da şərti qəbul etmək lazımdır. Yalnız müəyyən etik qaydaların gözlənilməsi şərti ilə söz azad olmalıdır. Məsələn, elə yazılar olur ki, adam oxumağa, evinə aparmağa utanır.

— Gənc nəsil ədəbiyyatçılarla yaşlılar arasında uçurum aradan qalxa biləcəkmi?

— Yaşlı nəsil artıq öz sözünü deyib. Hər sahədə olduğu kimi, ədəbiyyatda da yeni nəsil meydana gəlir. Bunların içərisində istedadlı cavanlar olduğu kimi, sözə məsuliyyətsiz yanaşan, yazarkən qarşı tərəfin necə zərbə alacağını düşünməyənlər də var. Təbii ki, ötəri haldır. Zaman hər şeyi ələyib, öz yerinə oturdacaq.

— Hər halda cavanlar yaşlıları ağır ittihamlarla suçlayırlar. Hətta Anarın, Bəxtiyar Vahabzadənin kitablarını yandırmağı da təklif edirlər…

— Düzgün deyil. Çünki onların kitablarını yandırmaq istədikləri, təhqir etdikləri bu adamların ədəbiyyatımızın yaşanmasında rolları olubdur. İndi cavanların onlara qarşı ittihamla çıxış etmələrinə heç bir əsasları yoxdur. O zaman ittiham edə bilərlər ki, özləri nəsə bir fundamental əsər ortaya qoysunlar. O zaman heç qarşı tərəfi suçlamağa ehtiyac qalmayacaq. Kim daha sanballı əsər ortaya qoysa, o da ədəbiyyatda qalacaq.

— Sovet dövrü ilə müqayisədə bu gün Azərbaycan ədibinə münasibət necədir?

— O zaman yaradıcılıq, istirahət evləri var idi və bizə həqiqi mənada qayğı göstərilirdi. Təəssüf ki, belə şeylər bu gün yoxdur. Nə qədər yazıçımız var ki? Vur-tut min nəfər yazıçı və şairimiz var. Bu min nəfərin də hərənin özünə görə ehtiyacı var. Bunları yaxşı maaş,

yaxşı təqaüdlə təmin etmək Azərbaycan dövləti üçün heç də çətin olmaz. Yaxud, cavan yazarlar əsər yazmalı vaxtlarında çörək pulu dalınca ora-bura qaçır, kirayədə yaşayırlar. Bu adam nə yaza, nə yarada bilər?! Sovet dövründə kitabı nəşriyyata verib, pulunu alırdın, indi isə pul verib kitabını alırsan. 12 ildir ki, dövlət nəşriyyatlarında mənim kitabım çıxmır. Deməli, qonorar da yoxdur. Hamıya da mənim taleyim qismət olmur ki, qarşıma xeyriyyəçi insanlar çıxdı və arzularım yerinə yetdi. Bu kitabımı 65 illiyimdə dostum, professor Nazim Hüseynli çap etdi. Ötən il isə «Səhər» verilişindən sonra Saatlıdan olan xeyriyyəçi Gülhüseyn Əhmədov mənimlə görüşdü və kitabımın birinci cildini çap etdi. Həmin kitabın təqdimetmə mərasimində isə Moskvadan gələn mesenat Gülağa Qənbərov iştirak edirdi. Burada da maraqlı hadisə oldu. Tədbirin keçirilməsinə bir neçə gün qalmış Gülağa müəllimlə bir yerdəydik, dedim ki, kitabımın təqdimat mərasimi olacaq. O isə mənə dedi ki, bu gün Moskvaya uçacam, amma həmin mərasimdə mütləq iştirak edəcəyəm. Doğrusu, mən buna razı olmayacağımı bildirdim və dedim ki, o boyda yolu bir kitabın təqdimat mərasimində iştirak etmək üçün geri qayıtma. Nə isə, mən tədbir başlayanda, Gülağa Qənbərovu iştirakçılar arasında görəndə bu insanın mərdliyinə, sözünə sadiqliyinə heyran qaldım və qürur duydum ki, Azərbaycanımızın belə mərd oğulları var. Həmin mərasimdə çıxış üçün söz alan Gülağa Qənbərov mənim bütün külliyyatımı çap etdirəcəyini deyəndə gözlərim yaşardı. Çünki mən bundan sonra əlli il də yaşasaydım, 10 cildlik külliyyatımı çap etdirə bilməzdim. Gülağa Qənbərov isə təmənnasız olaraq bu kitablarımı çap etdirməyi öz boynuna götürdü. Artıq bildiyiniz kimi, beş cild hazırdır, yerdə qalan beş cild isə yayda çap olunacaq. Bu, Gülağa Qənbərov tərəfindən Azərbaycan ədəbiyyatına ən böyük töhfədir. Mən onu yalnız Hacı Zeynalabdin Tağıyevlə müqayisə edə bilərəm.

— Deməli, Gülağa Qənbərovla tanışlığınız həmin mərasimdən əvvəl var idi?

— Bəli. Mən son iki-üç il ərzində onun Azərbaycanda etdiyi yaxşılıqların, xeyriyyə tədbirlərinin şahidi olmuşam. Bilgəhdəki Qocalar evi, Şüvəlanda Zəif eşidən və görən uşaqlar üçün pansionat, Əhmədlidəki 3 saylı uşaq bağçasında görülən işlərin hamısı Gülağa Qənbərovun maliyyəsi hesabına olub. Açığı, mən kitablarımın çap olunması ilə bağlı Gülağa müəllimdən kömək istəməyə utanırdım. Fikirləşirdim ki, onsuz da millətimiz üçün xeyli işlər görüb, bu torpaqdan bəhrələnənlərdən fərqli olaraq, Azərbaycanda heç bir kommer-

siya fəaliyyəti ilə məşğul olmaya-olmaya, xaricdə qazandığı pullarını vətəni üçün xərcləyir. Amma özü mənə nə üçün bu barədə ona demədiyimə görə irad tutdu.

— Səhv etmirəmsə, Gülağa Qənbərov şer də yazır…

— Gülağa Qənbərovun belə xeyirxah olmağında bəlkə də ən böyük rol onun şair təbiətli olması oynayır. Gülağa müəllim «Tənha» təxəllüsü ilə çox gözəl şerlər yazır. Ötən il onun «Mən Allah adamıyam» şerlər kitabı çapdan çıxdı. Artıq onun şerlərinə bir çox tanınmış bəstəkarlar mahnılar bəstələyib, ünlü müğənnilər oxuyurlar. Məsələn, Elza Seyidcahan, Könül Kərimova və başqaları. Yanvar ayının 10-da isə yeni bir kitabın təqdimat mərasimi olacaq. «Dərdin nazını çəkmə» adlanan bu kitabın şer həvəskarlarında çox maraq və həvəs oyadacağını bir professional yaradıcı adam kimi deyirəm. Gülağa Tənhanın şerlərində bir yanğı var, vətən yanğısı. Bu kitabda da vətən, millət və digər aktual mövzulara toxunulub.

— Kitabların latın qrafikası ilə çapı yazıçılarla akademikləri üz-üzə qoyub…

— Birincisi, prezidentin bu barədə sərəncamını düzgün qiymətləndirirəm. Ancaq bir gileyimi də deməyə ehtiyac görürəm. Yazıçılar Birliyi tərəfindən prezidentə göndərilən siyahıda mənim heç bir əsərimin adı yox idi. Yəni Gülağa Qənbərov mənim kitablarımı çap etdirməsəydi, əsərlərim unudulub gedəcəkdi. Çünki gənc nəsil köhnə əlifbanı bilmir. Gəncliyin köhnə əlifbanı bilməməsi isə hamımız üçün təhlükəlidir.

— Bəs niyə dostlarınız Sizi yada salmayıblar?

— Heç özlərindən də soruşmadım. Hamısı ilə yaxşı münasibətim var. Əgər özləri bunu etməyiblərsə, onlara nə deməliydim? Ancaq Allah bir tərəfdən bağlayanda, o biri tərəfdən açır. Əgər onlar bir kitabımı çap etsəydilər, qonorar alardım. Bu olmadı, ancaq əvəzində on cildliyim çap olundu.

*Elvin*

## MƏHƏBBƏT — ƏBƏDİ ÖMÜR DEMƏKDİR

«Söz-sözə» ədəbi birliyinin növbəti qonağı görkəmli yazıçımız Əlibala Hacızadə idi.

Məlum olduğu kimi, artıq neçə illərdir ki, «Təhsil» Cəmiyyətinin nəzdində «Söz-sözə» adlı ədəbi birlik fəaliyyət göstərir. Əsasən gənc yazarların təmsil olunduğu birliyin məqsədi ədəbi aləmdə ilk addımlarını atan gənclərimizə düzgün istiqamət vermək, onların peşəkar sənətkar kimi yetişmələrinə stimul yaratmaqdır. Ona görə də tanınmış şair və yazıçılarımız tez-tez ədəbi birliyin məclislərinə dəvət olunurlar.

Filologiya elmləri namizədi Nəzakət xanım Məmmədli birliyə rəhbərlik edəndən bəri isə görkəmli sənətkarların gənc yazarlarla görüşə dəvət olunması daha müntəzəm xarakter alıb. Xatırladaq ki, bundan əvvəl tanınmış şairlərimiz Nəriman Həsənzadə və Söhrab Tahir gənc yazarlarla görüşə gəlmişdilər. «Söz-sözə»nin budəfəki qonağı isə görkəmli sənətkarımız — «İtkin gəlin», «Ayrılığın sonu yoxmuş», «Vəfalım mənim» və s. məşhur əsərlərin müəllifi Əlibala Hacızadə idi.

Tədbiri giriş sözü ilə «Təhsil» Cəmiyyəti İdarə Heyətinin sədri Nuqay Əliyev açdı:

— Hörmətli tədbir iştirakçıları, bildiyiniz kimi, artıq neçə illərdir ki, Azərbaycan Respublikası «Təhsil» Cəmiyyətinin nəzdində «Söz-sözə» adlı ədəbi birlik fəaliyyət göstərir. Dərnəyin müntəzəm olaraq keçirilən məclislərində gənc yazarlar öz əsərlərini həmkarlarının müzakirəsinə çıxarır və sonda ən maraqlı şerlər almanax şəklində çap olunur.

Onu da qeyd edim ki, gənc yazarlara lazımı məsləhət vermək və onları düzgün istiqamətləndirmək üçün tanınmış şair və yazıçılarımız tez-tez ədəbi birliyin məclislərinə dəvət olunur. «Söz-sözə»nin bugünkü qonağı isə görkəmli sənətkarımız Əlibala Hacızadədir. Təklifimizi qəbul edib bu məclisə təşrif buyurduqları üçün başda Əlibala müəllim olmaqla bütün tədbir iştirakçılarına «Təhsil» Cəmiyyətinin rəhbərliyi adından öz minnətdarlığımı bildirir və sözü ədəbi birliyin rəhbəri Nəzakət xanıma verirəm.

Nəzakət Məmmədli, filologiya elmləri namizədi, «Söz-sözə» ədəbi birliyinin rəhbəri:

— Mən də Nuqay müəllimin ürək sözlərinə qoşulur və başda Əlibala müəllim olmaqla bütün qonaqlarımıza, xoş gəlmisiniz — deyirəm.

Əlibala Hacızadə geniş təqdimata ehtiyacı olmayan bir sənətkardır. Hamının yaxşı tanıdığı bu insan, sözün həqiqi mənasında, xalqın yazıçısıdır. O, yaradıcılığı çox geniş olan bir sənətkardır. Lakin buna baxmayaraq yaradıcılığı onun daxili aləminin çox kiçik bir hissəsidir. Təxminən 6-7 ildir ki, biz Əlibala müəllimlə bir yerdə işləyirik və mən hər dəfə onda yeni xüsusiyyətlər kəşf edirəm. Ümumiyyətlə, o, çox zəngin, dəniz qədər bir insandır.

Mən Əlibala müəllimi qiyabi olaraq uşaqlıq illərimdən tanıyıram. Anam çox mütaliə sevən bir insan idi. O, hər dəfə Əlibala Hacızadənin kitabını əlinə götürəndə iş-güc yadından çıxırdı. Bilirsiniz ki, uşaqda anaya qarşı bir qısqanclıq hissi olur, istəyir ki, anası yalnız onunla maraqlansın. Anamın onun kitablarını çox maraqla oxuduğunu görəndə, etiraf edim ki, bir uşaq kimi məndə də Əlibala müəllimə qarşı «mənfi» münasibət yarandı. Fikirləşirdim ki, bunlar necə kitabdır ki, anam onları əlinə götürəndə yerə qoymur. Onu da qeyd edim ki, əslində ananı müvəqqəti də olsa baladan ayıra bilməsi həmin yazıçının necə böyük bədii istedada malik olduğunu göstərir.

Hazırda Əlibala müəllimin 10 cildliyi çapa hazırlanır. Bununla yanaşı, o, yeni bir roman üzərində işləyir. Həmin əsərin bəzi motivlərini mənə də danışıb. Əminəm ki, bu, çox gözəl bir roman olacaq.

Mən bütün tədbir iştirakçıları adından Əlibala müəllimə uzun ömür, can sağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayır və sözü ona verirəm.

Əlibala Hacızadə:

— Əvvəla, hamınızı salamlayıram, xoş gəlmisiniz. Çox sağ olun ki, öz qiymətli vaxtınızı bu görüşdə iştirak etməyə sərf etmisiniz. Bu görüşü təşkil etdikləri üçün başda Nuqay Əliyev olmaqla «Təhsil» Cəmiyyətinin rəhbərliyinə və «Söz-sözə» ədəbi birliyinin sədri, gənc alimimiz və şairəmiz Nəzakət xanım Məmmədliyə öz təşəkkürümü bildirirəm.

Mənim yaxın dostlarımdan da bu tədbirə təşrif buyuranlar var: mənim 10 cildliyimə ön söz yazan — sevimli yazıçımız Nahid Hacı-

zadə, gözəl ziyalımız Nodar Qədirli də bu tədbirdə iştirak edir. O, həmin Nodardır ki, mən ona şer həsr eləmişəm:

… Ölüm bu dünyanın o üzündədi.
Bu üzü dünyanın güldü, çiçəkdi.
Ölməzlik məhəbbət zirvəsindədi,
Məhəbbət — əbədi ömür deməkdi.

Mən heç vaxt boğazdan yuxarı söz deməmişəm, ürəyimcə olmayan bir yazı qələmə almamışam. Hətta sovet rejiminin qılıncının dalı da, qabağı da kəsəndə mən kolxozdan, sovxozdan, zavoddan, pambıqdan yazmamışam. Yazmışam, amma ilk növbədə insan haqqında. Məsələn, demişəm ki, bu, traktorçudur, ancaq necə traktorçu: kənddə işıq yoxdur… Hərə bir qab götürüb gəlir ki, Əli əmi, nənəm deyir bizə bir az nöyüt versin. Bir də görürsən ki, Əli əmi traktorun yanacağını payladı camaata, traktor qaldı tarlada. Briqadir isə buna hirslənib Əli əmiyə deyir ki, sən qara yun kimi bir şeysən, səni yumaqla ağartmaq olmaz. Doğrudan da qara yunu nə qədər yusan ağarmaz.

Vaxt gəlir həmin kəndə işıq çəkilir. Beləliklə, Əli əmi yaddan çıxır, daha heç kim qab götürüb nöyüt dalınca onun yanına qaçmır. İndi kənd əhalisi əvvəlkinə nisbətən ona çox az hörmət eləyir. Bu zaman Əli əmi traktorun yanacağını camaata payladığı üçün həmişə onu danlayan briqadirə xitabən deyir: sən deyirdin ki, qara yunu nə qədər yusan ağarmaz, amma mən deyirəm ki, zəmanə yusa qara yun da ağarar.

Demək istəyirəm ki, mən həyata həmişə belə baxmışam və 70 illik ömrümü gözümün qabağına gətirəndə bununla fəxr edirəm. Bir dəfə «yuxarı»dan mənə dedilər ki, öz tərcümeyi-halını yaz. Yazdım ki, «Mən Əlibala Qüdrət oğlu Hacızadə 1935-ci ildə Puşkin rayonunda (indiki Biləsuvar) anadan olmuşam, oxuyuram və yaşayıram…». Bəli, mənim tərcümeyi-halım bundan ibarətdir: anadan olmuşam, yaşayıram, işləyirəm… Yəni, mənim də hamının olduğu kimi adi bir tərcümeyi-halım var. Amma təbii ki, hər kəsin ömrü kitablara sığışmayan bir romandır. Mən o yazıçını, o şairi xoşbəxt hesab edirəm ki, o, ayrı-ayrı insanların ürəyinə girib onların tərcümeyi-halını öz həyatı kimi yaşayır və yazır.

Mən bu tədbirdə iştirak edən gənc yazarlara məhz belə sənətkar olmağı arzulayır və bu müqəddəs yolda onlara uğurlar diləyirəm.

Sonra söz yazıçı Nahid Hacızadəyə verildi:

— Mənim Əlibala müəllimlə tanışlığım 1955-ci ilə gedib çıxır. Artıq 49 ildir ki, biz bir yerdəyik, nəfəs-nəfəsəyik. Hətta, çoxları elə bilir ki, biz qardaşıq.

Əlibala müəllimlə mənim çox zəngin xatirələrim var. Yadımdadır, 1956-cı ildə bir universitet qəzeti nəşr olunurdu və tələbələr bu qəzeti müntəzəm oxuyurdular. O vaxt həmin qəzetdə Əlibala müəllimin Səməd Vurğunun ölümünə həsr olunmuş bir hekayəsi çap olunmuşdu. Səhərisi gün tələbələr dəhlizlərdə əllərində bu qəzet Əlibala müəllimi göstərirdilər ki, həmin hekayənin müəllifi bu oğlandır. Beləcə o, hamının tanıdığı bir tələbəyə — gənc yazıçıya çevrildi.

Təsadüfi deyil ki, M.S.Ordubadidən sonra kitabları ən çox tirajla çap olunan yazıçı Əlibala Hacızadədir. Mənə elə gəlir ki, Əlibala müəllimin oxucular tərəfindən sevilə-sevilə oxunmasının əsas sirri budur ki, o, qələmə aldığı mövzunu sanki ürəyinin tellərində çalır. Onun ürəyindən qopan səda da, oxucunun qəlbinin tellərini tərpədir. Bu adam başdan-başa emosiyadır. Ümumiyyətlə, onun əsərlərinin mayasında bir insan sevgisi, bir sehr var.

Bir sözlə, mən Əlibala Hacızadənin həyat və yaradıcılığı barədə istənilən qədər danışa bilərəm, amma vaxtınızı çox almaq istəmirəm. Mən də öz növbəmdə Əlibala müəllimə uzun ömür, can sağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayır, bu görüşdə iştirak edənlərin hamısına öz təşəkkürümü bildirirəm.

Nodar Qədirli:

— Əlbəttə, Nahid müəllim, Nəzakət xanım olan yerdə mənim Əlibala Hacızadənin yaradıcılığı haqqında söz açmağım doğru olmaz. Amma qısaca olaraq onu deyə bilərəm ki, Əlibala müəllim olduqca humanist, əliaçıq, alicənab, çox kövrək bir insandır. Allah ona uzun ömür, can sağlığı versin.

Daha sonra gənc şairlər Sona Xəyal, Şəlalə Ana və başqaları çıxış edərək Əlibala müəllimin əsərləri barədə söhbət açdılar, onun yaradıcılığının gənc yazarlar üçün əsl örnək olduğunu vurğuladılar.

Sonda Əlibala Hacızadə gənc yazarları maraqlandıran suallara ətraflı cavab verdi və öz istəklərinə nail olmaq üçün onlara əzmli, iradəli olmağı və heç vaxt ruhdan düşməməyi tövsiyə etdi.

*Qurban*

## ONU ƏSƏRLƏRİMDƏ YAŞADACAĞAM

*Yazıçı Əlibala Hacızadə Gülağa Qənbərov haqqında bədii əsər yazmaq istəyir.*

Cənub bölgəsi bir sıra görkəmli alimləri, din xadimləri, idmançıları və s. tanınmışları ilə məşhur olsa da, hələ ki, ədəbiyyat dərsliyinə düşən yazıçısı yoxdur. Lakin cənubun dərslikdə olmasa da, minlərlə oxucunun qəlbində olan bir yazıçısı var — bu romanlarını sevə-sevə oxuduğumuz Əlibala Hacızadədir. Biləsuvar rayonunda anadan olub, boya-başa çatan, şərq dilləri üzrə ali təhsil alan, Əfqanıstanda işləyən, «Əfsanəsiz illər», «Vəfalım mənim», «İtkin gəlin» və s. əsərləri ilə minlərlə oxucunun qəlbinə yol tapan Əlibala Hacızadə 2 hadisəni həyatında ən unudulmaz məqam sayır.

Heydər Əliyev Azərbaycan KP MK-nın 1-ci katibi işləyərkən, 1980-ci ildə Saatlı rayonunda pambıqçılarla görüşə gedib və kolxozların birində pambıqçıların qayğıları ilə maraqlanır. Təkidlə təklif edir ki, nəyə ehtiyacları var-mebelə, xalçaya, avtomobilə… bildirsinlər, kömək edək. Onun təkidindən sonra bir pambıqçı qız bildirir ki, problemimiz Əlibala müəllimin yeni çapdan çıxan «İtkin gəlin» kitabıdır. Bu kitabdan kəndə cəmi 1 ədəd çatıb, növbə ilə oxuyuruq, mən 23-cü adamam. Mümkünsə, həmin kitabdan çox çap edilsin. Pambıqçıların bu arzusunu reallaşdırmaq üçün H.Əliyevin tapşırığı ilə həmin kitab 2 dəfə və hər dəfə 100 min tirajla çap olunur. Sonralar oxucu marağı nəzərə alınaraq yazıçının «Əfsanəsiz illər», «Ayrılığın sonu yoxmuş» kitabları da təkrar və yüksək tirajla oxuculara təqdim olunur.

Əlibala müəllim üçün 2-ci unudulmaz hadisə məşhur xeyriyyəçi Gülağa Qənbərovun onun 10 cildlik seçilmiş əsərlərinə sponsorluğu öhdəsinə götürməsidir.

Bu xeyirxah işin qısa tarixçəsi var:

Əlibala müəllim «Kaspi» qəzetinə verdiyi müsahibədə və bizimlə söhbətində bildirdi ki, televiziyada 1 il öncəki çıxışımda ürək ağrısı ilə qeyd etdim ki, kitablarımı çap etdirə bilmirəm. Əvvəllər deyərdilər ki, kitabını gətir, pulunu verək və çap edək. İndi deyirlər pulunu gətir, sonra kitabını apar. Bu çıxışımdan sonra Saatlıdan olan Gülhüseyn Əhmədov mənə zəng vurub kitabımın 1-ci cildinə sponsorluq etmək istədiyini bildirdi və vədinə də əməl etdi. Bu ərəfədə

mən televizorda Gülağa Qənbərovun xeyriyyə işləri barədə süjetə baxıb, onun hədsiz səxavətinə, ürək açıqlığına həqiqi mənada heyran oldum. Bu barədə mətbuatda da çıxışım oldu. Gülağa müəllim minnətdarlığıma Rusiya mətbuatında cavab verdi, sonra da Bakıya gələndə mənimlə görüşdü. Və kitabımın təqdimat mərasimində də mütləq iştirak edəcəyini bildirdi. Dediyini elədi də. Təqdimat mərasiminə 2 saat qalmış məxsusi bu tədbirə görə Moskvadan Bakıya gəldi və həmin tədbir zamanı mənim 10 cilddən ibarət seçilmiş əsərlərimi çap etdirməyi və pulsuz yaymağı öhdəsinə götürdü. Artıq həmin 10 cildin 5 cildi hazırdır. Bu kitabların yanvar ayında «Avropa» otelində olduqca yüksək səviyyədə təqdimat mərasimi oldu. Gülağa müəllim bütün bunlarla kifayətlənməyib ağsaqqal yaşımda heç bir sıxıntı çəkməməyim üçün ömrümün sonuna qədər mənə hər ay ödənilməklə 500 dollar həcmində təqaüd təyin etdi. Heç vaxt sözdən əziyyət çəkməyən mən, yazıçı Əlibala Hacızadə onun bu xeyirxahlığı önündə söz tapa bilmədim.

Əlibala müəllim daha nələri bildirdi:

— Beləcə dostluğumuz başladı. Onun xeyriyyəçi işləri ilə qürur duyuram. Həqiqi mənada fəxr edirəm ki, belə geniş qəlbə, həm də şairlik istedadına malik eloğlumuz var. O bir çox xeyriyyə işləri ilə məni və başqalarını təəccübləndirib. Uşaq evində 300 uşağı başdan ayağa təzə paltarlarla bəzəyəndə də bu əməli hamımız alqışladıq. Lakin həmin uşaq evində anadangəlmə lal rus uşağının təzə paltarın sevincindən vəcdə gəlib dil açması, güclə də olsa Gülağa müəllimə «spasibo» deməsi tədbir iştirakçılarını dəhşətə gətirdi.

Əlibala müəllimlə Gülağa müəllimi başqa tellər də bağlayır. Əlibala müəllim:

— Mən də Əfqanıstanda olmuşam, tərcüməçi kimi yaşamışam. Gülağa da Əfqanıstanda olub. Lakin o, bu torpaqda döyüşçü kimi min cür əzablarla üzləşib, yaralanıb, əsir düşüb. İndi də Əfqanıstanda aldığı yaralardan əziyyət çəkir. Lakin Allah-Təala onu od-alovun içindən salamat çıxarıb. Salamat çıxarıb ki, onun daha böyük xeyirxahlıq etməyə fürsəti olsun.

Əlibala müəllim Gülağa Qənbərovun digər xeyriyyə işlərindən də qürurla danışdı.

— Gülağa müəllimin rəhbərlik etdiyi fond dəyərli bəstəkarımız, şərqin ilk opera yazan qadın bəstəkarı Şəfiqə Axundovanın da 80 illiyinin sponsoru olub. O dünya çempionları – Məmmədyarovlar

ailəsinin — Şəhriyarın, Zeynəbin, Türkanın bütün xarici səfərlərini maliyyələşdirir. Bu işlər o qədər çoxdur ki, və o qədər səxavətlə edilir ki, mən bunları sadalamaq yox, bədii əsərdə əbədiləşdirmək istəyirəm.

*Nicat*

## ƏLİBALA HACIZADƏ: «DÜZ İKİ İL İKİ AY OLAR Kİ, ÖMRÜMÜN İŞIQLI ZOLAĞINDAYAM»

«… Ədəbiyyat aləmi müqəddəs bir aləmdi və əbədiyyət adlı bir dünyaya uzanan bir çox yolların ən gözəli, şirini və əzablısıdı. Mən ömrümün böyük bir hissəsini burada — müqəddəs saydığım bu dünyanın içində yaşamışam. Onun paklığını, müqəddəsliyini bildiyim üçün, o aləmin qapısı ağzında ayaqqabılarımı təmizləyib içəri girmişəm, bilmişəm ki, o saf, şəffaf dəniz kimi, natəmiz, napak şeyləri qəbul etmir, silkinib, çırpınıb gec-tez sahilə atır.

… Ümumiyyətlə, həyatda nə istəmişəmsə, tanrım verib – gec verib, amma verib. Əvvəl sınayıb, sıxıb, imtahana çəkib, dözdüyümü, naşükür, asi olmadığımı görüb istədiklərimin ən yaxşısını əta edib mənə.

… Təmiz yaşamışam. Heç kəsə əyilməmişəm, özümü də heç kəsdən üstün tutmamışam. Elə yaşamışam ki, hamının gözünün içinə dik, şax baxa bilərəm».

Bu, 14 illik fasilədən sonra oxucularla görüşə gələn Əlibala Hacızadənin ürək sözləridir.

Bu yaxınlarda görkəmli yazıçı Əlibala Hacızadənin 10 cildliyinin birinci cildi işıq üzü görüb. Əlibala müəllimin əsərləri uzun illər idi ki, nəşr olunmurdu. Nəhayət ki, bu problem öz həllini tapıb. Birinci cild oxucuların ixtiyarındadır. İki aydan bir isə yazıçının növbəti kitabları ilə tanış olmaq imkanı qazanacağıq. Bu xoş xəbəri dəqiqləşdirmək üçün Əlibala Hacızadəyə müraciət etdik. Yazıçı son dövrlərdə həyatında baş verən yeniliklərdən söhbət açdı:

— Çoxdan belə bir fikrim var idi ki, 55 ildə yazdıqlarımı bir araya toplayım. Və imkan olarsa, sağlığımda onları çap etdirim. Çünki ömür artıq gedir. Şair, yazıçı da dünyasını dəyişəndən sonra onun qələmindən çıxanların hamısını bir araya toplayıb, çap etmək müşkül məsələdir. Bilirsiniz ki, nəşr işi çox çətindir. Qələm əhlinin övladları əksər halda bu işi görə bilmirlər. Bu fikirlə də yazdıqlarımı bir araya toplamışdım. Ancaq bu bir layihə olaraq qalırdı. Bu ilin mart ayında dövlət televiziyasının «Səhər» proqramının şənbə qonağı idim. Verilişin aparıcısı Esmira Çərkəzqızı söhbət əsnasında çap işi barədə soruşdu. Mən də təbii cavab verdim ki, vəziyyət pisdir. Keçmişdə deyirdilər ki, kitabını gətir, pulunu apar. İndi deyirlər pulunu gətir, kitabını apar. Veriliş efirə getdiyi gün Esmira Çərkəzqızı mənə zəng vur-

du ki, bir nəfər israrla sizin koordinatınızı istəyir. Adı Gülhüseyn müəllimdir. Bir sözlə, səhərisi günü Gülhüseyn müəllim mənə zəng vurdu və biz görüşdük. Məlum oldu ki, Gülhüseyn müəllim Saatlıdandır. Saatlının ən mötəbər ağsaqqallarından olan Ələhməd Əhmədovun oğludur. Onu da deyim ki, Gülhüseyn Əhmədov son dərəcə ziyalı bir insandır. O, mənə bildirdi ki, mən sizin bir kitabınızın nəşrinə kömək etmək istəyirəm. Nəşriyyatda danışın, nə qədər maliyə vəsaiti lazımdırsa, deyin. Açığı deyim ki, bu münasibətdən çox kövrəldim. Çünki ömrümdə birinci dəfə gördüyüm insanın ədəbiyyatımıza, mədəniyyətimizə bağlılığı, o cümlədən, mənim yaradıcılığıma verdiyi qiymətdən mütəəssir oldum.

Beləliklə, mənim 10 cildliyimin birinci cildi işıq üzü gördü. Ancaq məsələ bununla bitmədi. Bildiyiniz kimi, qələm yoldaşlarımın yaxından iştirakı ilə «Fərid» şadlıq evində kitabın təqdimat mərasimi keçirildi. Bunu da bir möcüzə, son vaxtlar qarşıma çıxan yaxşı insanların əməli sayıram. Çünki «Fərid» şadlıq evinin sahibi ilə təzəcə tanış olmuşdum. Həmin vaxt mənimlə çox mehribanlıqla görüşən bu cavan oğlan bildirdi ki, Biləsuvarda orta məktəbdə bir yerdə oxuduğum Şairəlinin oğludur. O, kitabın təqdimat mərasimini keçirəcəyini bildirdi. Həmin məclisdə bir ayrı möcüzə də baş verdi. Kitabımın təqdimat mərasimində mənim yaxın dostum, hazırda Moskvada yaşayan, əslən Masallının Ərkivan kəndindən olan memarlıq doktoru, Moskva Dumasının üzvü Gülağa Qənbərov iştirak edirdi. Təqdimat mərasimində çıxış edən Gülağa Qənbərov bildirdi ki, qalan 9 cildin nəşrini öz üzərinə götürür. Bir sözlə, hər kitab arasında 2 ay fasilə olmaqla, 70 illik yubileyimə kimi 9 cildin işıq üzü görməsi planlaşdırılır. Bundan başqa, Fəxrəddin adlı bir dostumuz mənim internetdə saytımı açmaq istəyir. Sürprizlər bununla qurtarmır. Dünənin söhbətidir. (Biz yazıçıyla iyunun 5-də görüşmüşük — S.R.) Yaxın dostumun oğlu Fikrət Babayev zəng elədi ki, evdəsənsə, sizə gəlirik. Bir az keçdi, bir nəfərlə bizə gəldi. Otaqlarımıza baxdılar. Məlum oldu ki, Fikrət Babayevin 70 illik yubileyimə hədiyyəsi var: mənzilimi təmir etdirəcək.

Görürsünüz, elə bil möcüzələr aləminə düşmüşəm. İstər-istəməz mən bu haqda fikirləşirəm. Çox götür-qoydan sonra bu qərara gəlmişəm ki, hər bir insanın ömründə zolaqlar olur. İşıqlı və qaranlıq. İşıqlı zolağa düşdünsə, işin rast gələcək. Yox, Allah eləməmiş, qaranlıq zolağa düşdün, problem problemi üstələyəcək. Mən düz 2 il 2 ay olar ki, ömrümün işıqlı zolağındayam. Mən həmən tarixdə gözəl,

nurlu bir insanla tanış olmuşam. O insanla tanış olandan sonra sanki tale mənim üzümə gülüb. Problemlərim öz-özünə həll olunur. O insanın ayağı mənə düşərli oldu.

— On cildlikdə indiyə qədər işıq üzü görməyən əsərlərinizlə də tanış olacağıq?

— Bəli. Məsələn, birinci cildə şer və hekayələrimi vermişəm. O şerlərin, hekayələrin əksəriyyəti birinci dəfədir ki, işıq üzü görür. Ümumiyyətlə, 10 cilddə mənlə bağlı bütün yazıları verəcəyəm. Hətta oxucu məktublarını, müsahibələri də dərc etdirəcəyəm.

— Yəqin ki, 10 cildlik Əlibala Hacızadəni tək yazıçı kimi deyil, həm də bir insan kimi xarakterizə edəcək.

— Elə demək olar. Məni yaxından tanıyanlar bilir ki, çox bədbin adamam. Mən bir ömürdə ən azı iki-üç insanın ömrünü yaşamışam. Buna görə də vaxtından tez qocalmışam. Hərçənd hər şey zamana tabedir. Dünyada zamandan qəddar, kəskin heç nə yoxdur. Zaman həm də ən adil hakimdir. Adi bir məqama diqqət yetirin. Elə qələm əhli var ki, əsərləri övladlarının sayəsində dönə-dönə nəşr olunur. Ancaq zaman gələcək, onlar da bu dünyada olmayacaqlar. Onda məlum olacaq ki, bu əsərlər həqiqətən yaşamağa qadirdir, yoxsa yox. Ayrı cür desək, qələm əhli zamanla üzbəüz qalır. Zaman onu bayram yumurtası kimi dişinə vurur. Yaşamağa qadirdirsə, onu qoyur əbədiyyət yolunun üstünə. Zamanın imtahanından keçmədinsə, heç.

— Siz öz əsərlərinizin taleyini necə görürsünüz?

— Bəlkə də bir çoxları məni qeyri-təvazökarlıqda qınayacaqlar. Ancaq mən inanıram ki, yazdıqlarımın çoxu qalacaq, yaşayacaq. Çünki mən həmişə ürəyimin sözünü yazmışam. Heç vaxt qeyri-səmimi olmamışam. Bir də ona görə arxayınam ki, mən kolxozdan, sovxozdan deyil, insandan yazmışam.

— Yeri gəlmişkən, müasir Azərbaycan romanı barədə də fikirlərinizi bölüşərdiniz…

— Müasir Azərbaycan romanından danışarkən, ilk növbədə qeyd etmək lazımdır ki, bu sahədə cavanların imzası görünmür. Bunun bir sıra səbəbləri var. Əvvəla, roman janrı ən çətin janrdır. Bir romanı yazmaq üçün uzun illər lazımdır. Şer isə elə deyil. Qısa zamanın və mən deyərdim, ovqatın, hisslərin məhsuludur. Bu barədə Nazim Hikmətin bir fikrini xatırlatmaq istəyirəm. Nazim Hikmət həmişə deyirdi ki, mən şeri təyyarədə, oteldə, süfrə arxasında, bir sözlə, hər yerdə yazıram. Ancaq romanı hər yerdə yazmaq olmur. Roman yaratmaq üçün uzun illər və səbir lazımdır. Məsələn, «İtkin gəlin»i 16 ilə yazmışam. Bilirsiniz, roman janrını mən ədəbiyyatımızın uzaqvuran topu hesab eləyirəm. Onun qayəsi, məramı daha geniş və dərindir. Roman müəllifi tam bir dövrü, neçə-neçə insanın taleyini qələmə almalıdır. Bir sözlə, roman hər hansı bir dövrün dolğun və bitkin mənzərəsini yaratmalıdır. Məsələn, Şoloxovun «Sakit Don» romanını oxuyarkən biz o dövrün salnaməsi ilə tanış oluruq. Və yaxud İsa Hüseynovun «Yanar ürək» romanını oxuyanda o dövrün, eləcə də, kolxoz quruluşunun mahiyyətini dərk edirik.

İndiki cavanlarda isə səbir yoxdur. Bir də şairlərimiz məndən inciməsin, bir qədər asan yolu seçirlər. Amma etiraf edək ki, yaxşı şairlərimiz də var.

Söz düşmüşkən, mən bir məsələyə münasibətimi bildirmək istəyirəm. Bu gün ədəbiyyatda atalar və oğullar problemi var. Bəzi cavanlar yaşlı nəsli inkar etmək istəyirlər. Bu, düzgün deyil. Ömrü boyu ədəbiyyata xidmət etmiş qocaman bir yazıçının yaradıcılığının üstündən necə xətt çəkmək olar?

— Əlibala müəllim, bu tendensiya həmişə olmayıb? Ədəbiyyata gələn hər yeni nəsil ilk növbədə öz sələflərini tənqid, bəzənsə inkar etməyi özünə borc bilir. Heç uzağa getməyək. 60-cı illərdə də bu tendensiya olub. Sadəcə, bu gün gənclər bir qədər ifrata varırlar. Ən pisi isə odur ki, üstündən xətt çəkdiklərinin müqabilində ortaya heç nə qoymurlar.

— Bunu düz deyirsiniz. 60-çılar da ədəbiyyata gələndə özlərindən əvvəlkilərə tənqidi yanaşırdılar. Ancaq onda mizan-tərəzi pozulmamışdı. İndi isə mizan-tərəzi pozulub.

— Sizcə, mizan-tərəzi niyə pozulub?

— Əvvəllər sistemin özündən irəli gələn bir ağsaqqallıq var idi. Senzuranın, qocaman ədəbiyyatçıların sözü keçirdi. İndi bunların heç biri yoxdur. Kim necə istəyir elə yazır, necə istəyirsə elə də tənqid edir.

— Ədəbi mühitdə xaosu aradan qaldırmaq üçün mütləq nəzarət olmalıdır?

— Demirəm o vaxtdakı kimi senzura olsun. Onda biz «bir sözü necə yazaq ki, keçsin» məsələsi üzərində baş sındırırdıq. Bir dəfə neftimiz haqqında bir hekayə yazmışdım. «Biz iynəyik, hamını bəzəyib özümüz lüt gəzirik». Hekayə Azərbaycan neftinin talan olunması barədə idi. Gənclər günündə oxudum. Hekayədə belə bir ifadə var idi: «gəmi neftimizi daşıyır». Mehdi Hüseyn soruşdu ki, bala, bu gəmilər kimin gəmiləridir? Dedim, nə bilim, yəqin ingilisin olar. Dedi, hə, onda ora bir «ingilis» sözünü artırıb, verərsən Əliyə (söhbət Əli Vəliyevdən gedir – S.R.) çap eləsin. Eləcə, bir dənə «ingilis» sözünü əlavə etdikdən sonra hekayəm işıq üzü gördü. Nə o vaxtkı kimi senzura olsun, nə də indiki kimi hərc-mərclik. Hər şeyin həddi, ölçüsü olmalıdır.

— Əlibala müəllim, sizi həmişə susan görürük. İstər ədəbi mühitdə, istərsə də cəmiyyətdə baş verən heç bir hadisəyə müdaxilə etmirsiniz, münasibətinizi bildirmirsiniz.

— Bilirsiniz, yazıçı ən böyük siyasətçidir. Ancaq onun yeri tribuna deyil, yazı mizinin arxasıdır.

*Sevinc Rəhimova*

## ƏLİBALA HACIZADƏ SEVGİSİNİN SİRRİ

*«Əsərlərimi ürəyimin qanıyla yazmışam»*

Xəbər verdiyimiz kimi, bu yaxınlarda görkəmli yazıçı Əlibala Hacızadənin «Gülağa Qənbərov Xeyriyyə Fondu»nun təşəbbüsü və maliyyə dəstəyi ilə 10 cilddə nəşr ediləcək əsərlərinin ilk 5 cildinin təqdimat mərasimi keçirildi. Mesenat H.Z.Tağıyevin davamçısı, xeyriyyəçi Gülağa Qənbərovun təşəbbüsü ilə «Avropa» otelində düzənlənən təqdimat mərasiminə toplaşan tanınmış elm, mədəniyyət xadimləri, ziyalılar bənzərsiz qələm sahibi Ə.Hacızadənin sevincinə şərik olub, ona yeni yaradıcılıq uğurları arzuladılar. Biz də özümüzə borc bilərək Əlibala müəllimlə görüşüb, ona «Gözünüz aydın olsun, böyük ədib!» — deyərək, keçirdiyi xoş anları oxucularımızla bölüşməsini istədik.

— Həqiqətən yaradıcılıq taleyimdə 2004-cü il elə il oldu ki, bunu 70 illik ömrümdə görməmişdim. Qeyd etdiyiniz kimi, bunu tək mənim yaradıcılığımın bayramı deyil, eyni zamanda ümumi ədəbiyyatımızın bir xoş günü hesab etmək olar.

Doğrudan da bu qayğını indiyədək heç kəsdən heç zaman görməmişəm. Bu qayğıya, bu yerə-göyə sığışmayan sevincə görə xalqımızın böyük oğlu, H.Z.Tağıyev ənənələrinin davamçısı xeyriyyəçi Gülağa Qənbərova cild-cild kitab yazan Əlibala Hacızadə öz minnətdarlığını ifadə etmək üçün söz tapa bilmir. Bunu mən taleyimin özəl bir səhifəsi adlandırıram. Və Gülağa Qənbərova böyük sevgilərimi bildirirəm.

Bilirsiniz, mən ətrafıma, keçdiyim yola baxıram, bu cür insan, bu cür şəxsiyyət görməmişəm, yəqin ki, bundan sonra da görməyəcəyəm.

Gülağa Tənha Azərbaycanımızın gözəl oğludur. O, həm də istedadlı şairdir, eyni zamanda xeyriyyəçidir. Gülağa Qənbərov inşaat və memarlıq doktorudur. Allah-Təala elə bil ki, bu kişiyə bir neçə adamın payına düşə biləcək istedadı, qabiliyyəti, ruzini verib. O, həyatında çox çətinliklər görüb, Əfqanıstan müharibəsinin iştirakçısıdır. Yaralanıb, əsir düşüb. Bunu çox adam bilmir, Gülağa Qənbərov o sərvəti ki, əldə edib, bu onun zəkasının məhsuludur. Bu adam olduqca ağıllı, istedadlı insandır. O, əlindəki sərmayəni Azərbaycandan kənarda qazanıb. Baş-

qa ölkələrdə — Rusiyada, İspaniyada, İtaliyada, Fransada qazandığı pulları gətirib öz xalqına, millətinə xərcləyir.

Onu da qeyd edim ki, Gülağa Qənbərov ümummilli liderimiz Heydər Əliyevin Dünya Azərbaycanlılarının I qurultayındakı çağırışından sonra Azərbaycana gəlib.

Azərbaycanın pullu oğlanları çoxdur. Amma mən cəsarətlə deyirəm ki, Gülağa Qənbərov kimi xeyriyyəçimiz yoxdur. Pullu oğlanlarımız çox olsa da, xərcləyən yoxdur. O pulu ki, sən bu xalqın alın təri ilə əldə edirsən, hətta deyərdim ki, oğurlayırsan, heç olmasa bir hissəsini bu insanların özünə xərclə. Mən onların xətrinə dəysə də, bunu ömrümün axırınadək deyəcəyəm…

O ki, qaldı G.Qənbərovun etdiklərinə, gözümlə gördüklərimin bir neçəsini qeyd etmək istəyirəm. Bilgəh qəsəbəsində Əmək və Müharibə veteranları pansionatı var. Ora vaxtilə keçmiş milyonçulardan birinin at tövləsi olub. Gülağa müəllim bayram günlərinin birində oradakı qocalara baş çəkəndə vəziyyətlərini görmüşdü. Bir milyon dollardan çox pul xərcləyərək həmin binanın yerində üçmərtəbəli gözəl bir pansionat tikdirdi. Qocalar üçün hər cür şərait yaratdı. Həmin pansionatın təməli qoyulanda da, açılışında da iştirak etmişəm.

Əhmədli qəsəbəsindəki 3 saylı Uşaq Evi «Gülağa Qənbərov Xeyriyyə Fondu» tərəfindən himayəyə götürülüb. Ata-ana nəvazişindən məhrum olan uşaqlar üçün üç ildir ki, hər Novruz bayramı ərəfəsində Gülağa müəllimin iştirakı ilə bayram süfrəsi açılır, uşaqlar təzə paltarlarla təmin olunur.

Mən orada dəhşətli bir məqamın şahidi oldum. Milliyyətcə rus olan lal uşaqlardan biri özünün təzələnmiş üst-başına baxıb, sonra Gülağa müəllimə sarı dartınaraq «spa… spa…» edə-edə qaldı. Hiss elədim ki, lal uşaq «spasibo» demək istəyir. Dedim, vay dədəm, vay, indi lal uşağın dili açılacaq. Bəlkə də indi o uşağın dili açılıb. Çünki insanın keçirdiyi hər hansı bir həyəcandan, sarsıntıdan dili tutula da bilər, açıla da… Məsələn, mən bunu özümdə görmüşəm.

Gülağa müəllimin mənim üçün etdiyi xeyirxahlığın qarşısında sevincdən, demək olar ki, lal oldum. Həmişə bülbül kimi ötən Əlibala lal oldu. Söhbət əsərlərimin 10 cilddə çap olunmağından gedir. O kitablara mənim çəkimdən ağır pullar xərclənir. Məncə, bu kişinin Məkkəyə, Həccə getməsinə ehtiyac yoxdur. Onun doğma torpağında insanlara etdiyi xeyirxahlıqlar müqəddəs yerlərə ziyarətə bərabərdir. O, Azərbaycana milyardlar xərcləyib. Hələ də qarşıda böyük planları var. Bu, məsələnin bir tərəfi. Digər tərəfdən, Gülağa müəllim ədə-

biyyat, mədəniyyət və incəsənətin inkişafına xüsusi qayğı göstərir. Belə ki, Yazıçılar Birliyinin poliklinikasını təmir etdirib. Bundan əlavə, qadın bəstəkarlar içərisində Şərqdə ilk opera yazan Şəfiqə Axundovanın 80 illik yubileyi həyata keçirilib, onun yaradıcılığı haqqında yazılmış kitab çapa verilib.

— Əlibala müəllim, bəs Sizin Gülağa Qənbərovla tanışlığınız necə olub?

— Az.TV-də Gülağa Qənbərovun xeyriyyəçiliyindən bəhs edən veriliş gedirdi. Gülağa Qənbərovun öz hesabından Masallı rayonunun Ərkivan kəndindəki müəllimlərə aylıq maaş kəsilməsindən danışılırdı. Həmin vaxta qədər G.Qənbərov barəsində heç nə bilmirdim. Son 20 ildə Ərkivan kəndində 4-5 dəfə olsam da, onun adını bir dəfə də eşitməmişdim. Bu, qısqanclıqdan, ya paxıllıqdanmı irəli gəlirdi, bilmirəm. Həmin verilişdən sonra görmədiyim, tanımadığım insana ürəyimin diqtəsi ilə bir açıq məktub yazdım. Bu məktub mətbuatda da dərc olundu.

— Məktubun məzmunu nədən ibarət idi?

— Gülağa Qənbərova təmənnasız qayğısına görə minnətdarlığımı bildirmişdim. Azərbaycanda pullu oğlanlar çox görmüşəm. Restoranlarda bir gecədə min-iki min dollar səpələyən oğlanlarımıza nə gəlib?! Odur ki, Gülağa müəllim gözümdə ilahiləşdi. Çünki həmişə arzusunda olduğum, ancaq görə bilmədiyim bir insanı tapmışdım. Az müddətdən sonra Gülağa müəllimdən bir məktub aldım. Məlum oldu ki, onun özü də gözəl şair imiş. 2003-cü ildə «Mən Allah adamıyam» adlı ilk şerlər kitabı çapdan çıxıb. Kitabın adı müəllifin daxili aləmini əks etdirir. Yeri gələndə, deyirəm ki, sən sadəcə, Allah adamı deyilsən, sən Allahın ən yaxşı adamısan.

O, qazandığı pulları ki, belə fədakarlıqla millətinin yolunda əsirgəmədən xərcləyir, bunu yalnız Allahın ən yaxşı bəndəsi edə bilər. Gülağa müəllimin bu günlərdə ikinci kitabı işıq üzü görüb. Ötən həftə həmin kitabın təqdimat mərasimi keçirildi. Kitabın adına fikir verin: «Dərdin nazını çəkmə…» Vallah, bu, əsl şair sözüdür. Dərdin nazını çəkmək və yaxud çəkməmək kimin ağlına gələr?! Gözəlin nazını çək, ya çəkmə deyərlər. Dərd özü də dərddi də… Gülağasa deyir, dərdin nazını çəkmə…

Vətən həsrəti, qəriblik, tənhalıq onun bütün şerlərinin əsas leytmotivini təşkil edir. «Gətir Azərbaycanı!» şeri dediklərimi əsas-

landırmağa yetər. Dostlarından biri zəng edib, Moskvada yaşayan Gülağadan soruşur ki, Vətəndən ona nə göndərsin? Cavab verir ki:

«… Ey dostum,
göndərə bilirsən əgər,
Göndər bu diyara
Azərbaycanı!»

Eləcə də Əfqanıstandakı qanlı-qadalı günlərdə Gülağa bir an da olsa, Vətəni yaddan çıxarmayıb. İndi də o günlərin ağrı-acılarını içində daşıyır, qulağında səslənir o atəş səsləri. Çox acılı günlər keçirib bu insan…

Elə oldu ki, keçən il Az.TV-1-in «Səhər» proqramı məni şənbə qonağı kimi öz verilişinə dəvət etdi. Şerlərimə yazılmış mahnıları oxudular, əsərlərimdən parçalar göstərdilər. Çıxış elədim, söhbətin gedişində gözəl aparıcı Esmira xanım Çərkəzqızı soruşdu ki, kitablarımın çapı nə vəziyyətdədir? Cavab verdim ki, ay qızım, vallah, keçmişdə deyirdilər, kitabını gətir, pulunu apar, indi də deyirlər, pulunu gətir, kitabını apar, ona görə də kitabın kitabı bağlanıb. Proqramın yaradıcı heyəti ilə sağollaşıb gələndən 15-20 dəqiqə sonra Esmira xanım mənə zəng edib redaksiyaya çoxlu təşəkkür zəngləri gəldiyini və Gülhüseyn adlı bir tamaşaçının isə təkidlə mənimlə tanış olmaq, telefonlarımı əldə etmək istədiyini söylədi. «Mən bilmirəm düz elədim, ya yox. Sizin telefon nömrələrinizi verdim» — deyə narahatçılığını bildirdi. «Yaxşı etmisən, ay qızım!» — dedim.

Səhəri tanımadığım, üzünü belə görmədiyim Gülhüseyn müəllim zəng elədi və biz görüşüb, tanış olduq. O, Saatlı rayonundandı, atası Ələhməd Əhmədov rayonun ağıllı, müdrik ağsaqqallarından imiş. Əsərlərimi, televiziyadakı çıxışımı tərifləyib təşəkkür edəndən sonra dedi: «Hiss elədim ki, kitablarınızı çap etdirməyə çətinlik çəkirsiniz. Əgər razı olsanız, mən bir kitabınızı nəşr etdirib, sizə hədiyyə etmək istəyirəm».

Təbii ki, indiki çətin bir zamanda görmədiyim, tanımadığım bir adamdan belə bir təklif eşidəndə çox kövrəldim və sevindim. Dedim: «Qardaş, sən ki, birinci dəfə gördüyün bir qələm sahibinə bu sözü deyirsən, elə bil ki, o kitabı çap etdirib, mənə hədiyyə vermisən. Çox sağ ol, mənə daha heç nə lazım deyil». Amma o razılaşmadı. Xeyirxah, ədəbiyyatımızı dərin məhəbbətlə sevən, gözəl ziyalımız Gülhüseyn Əhmədov bir kitabımı təmənnasız nəşr etdirdi…

Kitab nəşr olunandan sonra dostlardan biri – Məmməd Əhmədov zəng edib məni «Fərid» şadlıq evinə dəvət etdi. Soruşdum ki, nə

məsələdir? Dedi ki, sənin kitabını «yumaq» istəyirik. Dedim, lazım deyil, əl çəkmədilər. Gedib gördüm ki, məclis qurulub, məni gözləyirlər. Elə bu zaman içəri bir cavan oğlan daxil oldu. Biləndə ki, Əlibala Hacızadə mənəm, tez mənə sarı gəlib qucaqladı, üzümdən öpdü. Dedi: «Sizi neçə ildir axtarıram, tapa bilmirəm». Soruşdum ki, axı sən kimsən? Dedi ki, orta məktəbdə sizinlə oxuyan Şairəli Şirinovun oğluyam.

Şairəli mənim ən əziz uşaqlıq dostum idi.

Alim Şirinov mənə dedi ki, Əlibala müəllim, bu restoran mənimdir və sizin kitabınızın təqdimatını keçirməyi öz üzərimə götürürəm. Etiraz etməyimə baxmayaraq, bir təhər razı saldı…

Bu həmin vaxt idi ki, biz Gülağa müəllimlə birlikdə Əhmədli qəsəbəsindəki 3 saylı Uşaq Evinə getmişdik. Oradan qayıdanda yolda soruşdu ki, nə var, nə yox, mən də bu hadisəni ona danışdım. Soruşdum ki, Moskvaya nə vaxt gedirsiniz? Dedi, nədi ki? Dedim, bəs sizin də kitabımın təqdimatında iştirak etməyinizi istərdim.

Düzü, onu əvvəlcədən xəbərdar etmədiyimdən heyfsləndi. Yenə də təqdimatın nə vaxt olacağını soruşdu. Dedim ki, iyunun 29-da. Dedi ki, sabah gedirəm, amma narahat olmayın, kitabın təqdimatında mütləq iştirak edəcəyəm. Dedim, Gülağa müəllim, nə danışırsınız, kitabımın təqdimatında iştirak etməkdən ötrü Moskvadan bura gələcəksiniz? Gələcəyini söylədi. Fikirləşdim ki, sözdü də deyir… Təqdimat günü bir də gördüm ki, öz hədiyyəsi ilə məclisə daxil oldu. Yerimdə donub qaldım…

Tədbirdə Gülağa müəllim də çıxış elədi. Dedi, Gülhüseyn müəllimi sağ olsun ki, Əlibala müəllimin bir kitabını çıxarıb, mən isə onun əsərlərini 10 cilddə çap etdirəcəyəm.

Və beləliklə, o, əsərlərimin 10 cildliyinin ilk 5 cildini böyük tirajla çap etdirib, oxuculara təmənnasız hədiyyə etdi. İnşallah, may ayının sonlarına yaxın — 70 illik yubileyimin ərəfəsində tam külliyyatım 10 cilddə oxucularıma hədiyyə ediləcək. Qeyd edim ki, bu kitabları satmağa heç kimin ixtiyarı yoxdur. Çünki Gülağa Qənbərovun bir şüarı var: «Mən siyasətlə və kommersiya fəaliyyəti ilə məşğul olmuram».

— Əsərlərinizin ilk 5 cildinin təqdimat mərasimini dostlarınızdan biri bayramlar bayramı adlandırdı. Həmin anları necə yaşayırdınız?

— Elə bilirdim möcüzələr aləminə düşmüşəm. Yəni heç ağlıma gəlməyən şeylər baş verirdi. Yatanda yuxuma da gəlməyib. Bax, belə bir aləmdə idim.

Gülağa müəllim tədbirdə çıxışı zamanı dedi ki, «mən Əlibala müəllimlə iki ildir tanışam, ondan dəfələrlə hər hansı probleminin olub-olmaması barədə soruşsam da, heç vaxt heç nə deməyib. Onun elə bu cəhəti mənim xoşuma gəldi».

Gülağa müəllim o qədər həssas, zərif qəlbli insandır ki, onda olan keyfiyyətləri hər kəsdə görmək mümkün deyil.

— Əlibala müəllim, çoxlarının yadındadır ki, 70-80-ci ilin ədəbi mühitində necə səda doğuran romanlarınız yüksək tirajla, hətta təkrar çap olunurdu. Ancaq nədənsə sonralar səsiniz-sorağınız eşidilmədi. Buna səbəb nə idi? Kitablarınızı çap etdirə bilmirdiniz, yoxsa yazmaqdan imtina etmişdiniz?

— Yazmaqdan heç vaxt imtina etməmişəm. Əsas səbəb maddi imkansızlıq idi.

1992-ci ildə «Dünyanı tanı» romanım 80 min tirajla çap olundu, ikinci hissəsini isə çap etdirə bilmədim. İnşallah, növbəti 5 cildlikdə çap olunacaq.

— Bir vaxtlar aləmə səs salan məşhur «İtkin gəlin», «Əfsanəsiz illər», «Ayrılığın sonu yoxmuş» trilogiyası, yüz əlli-iki yüz min tirajla nəşr olunan «Vəfalım mənim» romanı geniş oxucu marağına səbəb oldu və ədəbi mühitdə partlayış kimi qarşılandı. Səbəbi nə idi?

— Həqiqətən də «Təyyarə kölgəsi» romanının ikinci hissəsi olan «Vəfalım mənim» işıq üzü görəndə bomba kimi partladı. Kitab mağazalarında, köşklərdə satıcılar kitablarımın üstünə «məşhur» yazarların satılmayan kitablarını qoyub oxuculara sırıyırdılar. Hətta mənim özümə də satıblar.

Sözüm onda deyil… «Vəfalım mənim» çapdan çıxandan sonra bəzi yazı-pozu adamları darılmağa başladılar. Qısqanclıq, paxıllıq çoxlarının içini didib-dağıtdı. Onların bu hərəkətlərinə çox heyrətlə baxırdım. Çünki ömrüm boyu heç kəsin nə sərvətində, nə şöhrətində, nə də cah-calalında gözüm olmayıb. Allaha şükür, həyatda nə istəmişəmsə Tanrım verib — gec verib, amma verib. Nə isə…

***

Həmin o bədxahlar gedib yüksək vəzifəlilərin qulağına pıçıldayırdılar ki, kitabdakı filan obraz sənsən. Beləliklə, onları mənə qarşı qaldırdılar. Hətta iki dəfə işdən çıxarıldım. Sağ olsun filologiya elmləri namizədi Xeyrulla Əliyevi, məni yenidən işimə bərpa etdirdi. O vaxt Akademiyada baş elmi işçi kimi çalışırdım. Qərara gəldilər ki, komissiya yaradıb, məni attestasiyadan keçirsinlər. 9 nəfərdən ibarət komissiya yaradıldı. İllərlə bir yerdə işlədiyim insanlardan altısı əleyhimə səs verdi və «qazandılar».

Baş elmi işçi kimi 320 manat maaş alırdım. Maaşımı 145 manata endirməklə yanaşı, vəzifəmi də aşağı saldılar. Bununla da kifayətlənmədilər. Əvvəlcə mənəvi terrora əl atdılar. Evə zəng edib, qızımdan soruşurdular ki, atanın ürəyi ağrımır hələ? Aradan bir müddət keçəndən sonra yenə zəng edib, oğluma deyirdilər ki, «Gəlib hamınızın başını kəsəcəyik!» Evə gələndə həyat yoldaşım narahatlıqla soruşdu ki, axı sən nə etmisən ki, telefonda bizi ölümlə hədələyirlər? Dedim ki, lap qələt eləyirlər. Öldürən heç vaxt deməz ki, gəlib səni öldürəcəm. Amma o nankorların əməllərindən doğrudan da ürəyim ağrıdı. Bir gün işdə özümü çox narahat hiss etdiyim üçün getdim evə. Evimə zəng edən adam hətta oğlumun dərsdən nə vaxt qayıtdığını da bilirdi. Həmin gün necə oldusa, oğlum dərsdən gec çıxır. Evə təzəcə çatmışdım ki, telefon zəng çaldı. Dəstəyi qaldırdım. Telefondakı adam dedi ki, «oğul, Əlibala müəllim Akademiyanın binasından çıxıb, qarşıdakı yolu keçərkən onu maşın vurub öldürüb. Gəlin meyidini aparın». Tüklərim biz-biz oldu. Dedim, kimdi danışan. Dedi ki, tanışlarından biridir. Cavab verdim ki, sizinlə danışan elə Əlibalanın özüdür. Tez dəstəyi qoydu…

Bir gün də iş yerində cavan bir qadın içəri daxil olub, ağlamağa başladı. Ağlamağının səbəbini soruşanda məlum oldu ki, romanda təsvir etdiyim durna boğazlı, yanağı xallı qadın obrazı ona çox oxşayıb. Hətta əri evdə deyib ki, əsərdəki o qadın sənsən. Dedim, ay xanım, bir saat gözlə, Bakını dolaşıb, on-on beş nəfər durna boğazlı, yanağı xallı qadın tapıb gətirim…

Bir vəzifəli şəxsi inandırmışdılar ki, «Əlibala sənin arvadın haqqında yazıb. Lakin adındakı saitləri saxlasa da, samitləri dəyişib».

Dedim, a kişi, vallah, soruşsan, əlifbanı düz-əməlli deyə bilmərəm. Məgər mənim işim-gücüm qurtarıb ki, sait-samit yeri dəyişim?..

Və yaxud, vaxtilə İlyas İsmayılov Respublikanın Baş prokuroru işləyəndə yanına üç nəfər vəzifəli şəxs gəlib, guya romanda onları biabır etdiyim üçün haqqımda cinayət işi qaldırılmasını xahiş edirlər.

Sən demə, İlyas müəllim də «Vəfalım mənim» romanını oxuyubmuş. Başlayıb tərifləməyə. Deyib, çox yaxşı əsərdir. Bu adamlar isə deyiblər ki, «cənab prokuror, məgər biz özümüz özümüzü bu qədər tanımırıq? Əsərdəki filan obrazlar bizik».

Prokuror da deyib ki, deməli, o əməllərin sahibləri sizsiniz, onda belə çıxır ki, Əlibala müəllim haqqında yox, sizin barənizdə cinayət işi qaldırılmalıdır…

***

Bax mən belə ömür yaşamışam. Odur ki, qurban olum Allaha, yaxşı insanlara. Yuxarıda Allah, aşağıda yaxşı insanların sayəsində indiyədək yaşamışam və yaşayıram. Bu da bir qismət, taledi…

— Bu gün bəzilərinin iki-üç «kitab» çap etdirib, «xalq yazıçısı» və yaxud «xalq şairi», bir-iki «klip» çəkdirib, «əməkdar artist» adı aldığı bir zamanda xalq yazıçısı olmasa da, xalqın yazıçısı Əlibala Hacızadə böyük ədibimiz M.S.Ordubadidən sonra ən çox oxunan və ən yüksək tirajla çap olunan sənətkar olaraq başını aşağı salıb, öz işini görməyə üstünlük verir. Bu, nədəndir?

— Mən heç vaxt dünya malı, fəxri adlar, mükafatlar həsrəti ilə yaşamamışam. Nə veriblər, qane olub, Allahıma şükr etmişəm. Mənim üçün ən böyük fəxri ad — yazıçı, ən böyük mükafat — oxucularımın mənə bəslədiyi məhəbbətdir və bununla həmişə fəxr etmişəm. Bu mənada, xalqın yazıçısı olmaq mənimçün daha önəmlidir. O ki, qaldı xalq yazıçısı fəxri adına, versələr də sağ olsunlar, verməsələr də.

İndi qarşıdan 70 illik yubileyim gəlir. Heç kimə şikayət edəsi deyiləm ki, mənə ad verin, təqaüd verin. Allah Gülağa müəllimin canını sağ eləsin, mənə ömürlük təqaüd kəsib. Bankda adıma xüsusi hesab açdırıb.

Bütün bunlara baxmayaraq, gərək belə olmayaydı…

— Fərdi təqaüddən söz düşmüşkən, «Gülağa Qənbərov Xeyriyyə Fondu»nun Sizə hədiyyə olaraq adınıza bankda xüsusi hesab açdırmasını ədəbiyyatımıza verilən qiymət kimi hesab etmək olarmı?

— Bu, ilk dəfə mənə qismət oldu. Ancaq şair qardaşımız Gülağa Tənhanın fikri var ki, tək mənə deyil, digər sənət adamlarımıza da köməklik etsin, bütün dəyərli əsərlərin oxuculara çatdırılmasına şərait yaratsın. Odur ki, Gülağa müəllimin bu niyyətini alqışlayıram.

— «Ayrılıq var — sonu şirin vüsaldı,

Ayrılıq var — sonu yoxmuş, ay aman». — deyən Əlibala müəllim bu gün yenə oxucularıyladı…

— Sevdiyinlə qovuşursansa, həsrətində olduğun insanlarla 15-20 ildən sonra görüşürsənsə, bu, sonu olan ayrılıqdır. Elə ayrılıq da var ki, onun sonu yoxdur. Bu isə ölümdür. İnsan isə iki dəfə ölür. Birinci dəfə fiziki cəhətdən ölüb, bu dünyadan köçür, ikinci dəfə isə mənəvi olaraq yaddaşlardan silinir. Bir də var ölməzlik — əbədi yaşamaq.

Həyatda yaxşı əməl sahibləri həmişə yaşayır. O ki, qaldı oxucularımla yenidən birlikdə olmağıma, buna görə özümü bəxtəvər hesab edirəm. Ona görə ki, şan-şöhrət axtarmayan, yalnız sevilmək arzusunda olan bir adam istəyinə çatırsa, bu, böyük xoşbəxtlikdir. Bir vaxtlar arzu edirdim ki, kaş mənim bir mahnımı oxuyaydılar. Bu arzuma da çatdım. Şerlərimə bəstələnmiş mahnılar Zeynəb Xanlarova, Brilyant Dadaşova, Aygün Kazımova, Elxan Şirinov, Baloğlan Əşrəfov, Ağadadaş Ağayev kimi populyar müğənnilərin repertuarında geniş yer tutmuşdur.

— Əlibala müəllim, niyə Sizi insanlar belə çox sevirlər? Bunun səbəbi nədir?

— Mən uzun müddət bu cür sorğuları cavabsız qoymuşam, ancaq bu sualları verənlərin çox olduğunu görüb, indi deyirəm: çünki mən bütün insanları, sizin hamınızı təmənnasız bir məhəbbətlə sevirəm; çünki mən sevənlə sevmişəm, ölənlə ölmüşəm, ac qalanla ac, susuz qalanla susuz qalmışam. Ona görə də siz məni belə çox sevirsiniz, sevməyə bilməzsiniz.

Bir də ki, mən oxucularımın sevə-sevə oxuduğu əsərlərimi ürəyimin qanıyla yazmışam, hər bir sətrin içində yaşamışam və yaşayıram. Ürəyim dolu olanda, insanlara deməyə sözüm olanda əlimə qələm almışam, ürəyim boş olanda susmuşam. Elə yaşamışam ki, hamının gözünün içinə dik baxa bilirəm. Gözəl ailəm, ağıllı övladlarım, nəvələrim, qardaşım, bacılarım, yaxşı qohum-əqrəbam mənə görə heç kəsin yanında xəcil olmayıblar.

Ayağımın altında kəsilən qurbanlar, «Qoy o kitabları yazan əlindən öpüm!» — deyən insanlar görmüşəm. Ölkəmizin hər yerində yüzlərlə Əfsanə və Elməddin adını daşıyan qəhrəmanlarım var. Hətta bir neçəsinin elçiliyində, nişanında, toyunda bir ağsaqqal kimi iştirak etmişəm. Bu, məhəbbət deyil, mükafat deyil, bəs nədi?

İnsan xoşbəxtlik, sevilmək üçün doğulub:

Ürəyimə od salıbdı bir gözəl,
Odu deyir, közü deyir: «Sev məni».
Dilində «get» deyir, ürəyində «gəl»,
Qaşı deyir, gözü deyir: «Sev məni».

— Biz də Sizə həmişə sevilməyi arzulayırıq, Əlibala müəllim!

*Elbar Şirinov*

## TƏHKİYƏNİ XOŞLAYAN ŞAİR

Əlibala Hacızadənin on cildliyinin birincisi işıq üzü gördü.

Bilməm nədən belə doğmasan mənə,
Bir belə qohumun, yadın içində.
Tək sənin adını yazmışam, gülüm,
Qəlbimə min gözəl adın içində…

Dildən-dilə gəzən məşhur nəğməni, Əlibala Hacızadənin şirin dilli bu misralarını eşitməyən çətin tapıla. Şer, misra… Əlibala Hacızadənin şerdən keçib nəsrə gəlməyini ədəbiyyatçılar çoxdan bilir, hərdən məlum fakt kimi təkrarlayırlar. Əksinə, Azərbaycan ədəbiyyatında ən çox oxunan bu nasiri oxucular da şerdən ayırmağa, hərləyib-fırlayıb sözü «Unutmaq olmur», «Təyyarə kölgəsi», «İtkin gəlin»dən salmağa çalışırlar. Onu nə şairlərimiz şerdə görmək istəyir, nə də oxucuları. Niyəsini axtaranlar, suala öz arşınıyla cavab ölçənlər çox olub. Unudulan, nəzərdən qaçan başqa məqamlar var.

Bəlkə də dünənki ədəbi nəsil üçün ədəbiyyatı sərhədlərə bölüb ayırmaq maraqlı, əhəmiyyətli bir iş sayılıb — amma bu gün, gendən baxanda, gözə belə xətləmə görünmür. İndi günlər ötdükcə, dəyişən müəllif etirafları da ciddi qəbul olunmur. Hökmü ayrı-ayrı yazarlar yox, yaradıcılıq prosesinin özü verir — yersiz və hədsiz mübahisələrdən sonra oxucularla müəlliflərin fikri təxminən bu nöqtədə kəsişir. Alimlər də fərqli bir sübut ortaya qoya bilmirlər. Fakt faktlığında qalır: Əlibala Hacızadə ədəbiyyatda heç yerdən heç hara adlamayıb. Pambıqla baş kəsənlərin meydan oxuduğu bir vaxtda əlinə qələm alıb və ədəbiyyata özü boyda hisslərini gətirib. Amma onu sevdirən təkcə bu hisslər olmayıb. Elə kommunizm quruculuğundan yazanlar da təsirli olsun deyə süjetə məhəbbət səhnələri yükləməyi xoşlayırdılar. Sevgidən yazmaq həmişə, hamının xoşuna gəlib. Amma hamının yazdığı oxunmayıb. Bu «niyə»ni də izah etmək istəyənlər, cavab tapdığına özünü inandıranlar çox olub. Yenə də kimlərinsə xırda, məişət həyatından böyük, bəşəri mövzulara baxanda papağı başından düşüb… Fakt isə faktlığında qalır, Əlibala Hacızadənin hekayələri, povestləri, qəribə olsa da, ən çox romanları oxunur! Çox vaxt belə deyirlər ki, bu yazıçı oxucuların dilini tapdı. Deyəsən, əksinədir axı, oxucular çoxlarından fərqli olaraq, Əlibala Hacızadə ilə

asanlıqla dil tapa, onunla danışa, həmsöhbət ola bildilər. Elə hamının sponsor axtarışına çıxdığı bir vaxtda bu proses də tərsinə oldu — kitabını çıxarmaq istəyən özü soraqlayıb yazıçını tapdı.

«Əlibala Hacızadənin təzə kitabı çıxıb» xəbəri də ədəbi mühitə tez yayıldı.

— Nədən yazıb?

— Özündən.

— Nə yazıb?

— Yazıb ki, mən ömrü boyu «siz» olmuşam, siz də ömrünüzün bir neçə anı «mən» olmağa çalışın.

Sadəlövhlüyü ilə eynən şairlərə oxşayır, amma onu qınamağa dəyməz. Əslində, Azərbaycan oxucusunun bu «mən»lə nə vaxt, necə, niyə doğmalaşdığını heç kim bilmir. Müəllif isə bədii əsərlərini əhatə edən on cildliyinin I cildinə 50 illiyin ilk qələm nümunələrini toplayıb sanki hansısa sirri oxumaq istəyir. Kitabına ön sözü yenə Nahid Hacızadə yazıb, ondan sonra özü də girişə bir əlavə eləyib: «Gəlişim səssiz-küysüz olub, burda yaşadığım o 50 il də səsdən-küydən, münaqişə, çəkişmə-didişmələrdən uzaq olub və yəqin ki, gedişim də səssiz-küysüz olacaq…» Onun səssiz-küysüz, pıçıltı ilə oxunan yaradıcılığı kimi, birinci cildi də nəzmlə başlayır. «Heykəl gülür», «İntihar», «Qara yun»… hekayələri onu gah nəzmə, gah da təhkiyənin ağır bir küncünə sarı çəkir. Araya Füzuli haqqında hekayələr, uşaq hekayələri, qürbət hekayələri, müharibə hekayələri düşür. Yazıçı imkan tapıb «Son məktub»u da imzalayır və povestlərə tələsir: «Unutmaq olmur», «Məhəbbət olmayan evdə», «Piyada adam», «Atamın gəlini» görünür…

Danılmaz və qaçılmaz tale! Onu qürbətə aparan taledən bəlkə də ilk növbədə, şerlər gözləmək olardı. Dünya ədəbiyyatında da dəfələrlə rast gəlinən fakt yenə özünü yetirib ilkin aldanışları üstələyir: qürbətin havası ədəbiyyatın əlifbasını bilməyənlərə şer yazdırır, şairləri isə hisslərin, təəssüratların çoxluğu nəsrə, daha geniş meydana itələyir. Əslində, Əlibala Hacızadənin Əfqanıstandan Bakıya göndərdiyi «Qürbət hekayələri», özüylə gətirdiyi «Əfqan trilogiyası» bizim ədəbi aləmə yad ölkədən gələn sirli bir bağlama kimi yetişdi. Oxucu da ilk baxışdan göründüyü kimi sadəlövh deyil, onu belə hisslərin, təəssüratların yeniliyi tovladı. Sözsüz ki, bir də çox vacib şərt olan müəllifin səmimiliyidi. Yazıçının bu səmimiliyi qondarma deyildi, bir qismi anadangəlmə idi. (Belə anadangəlmə səmimiyyətin nə olduğu-

nu əslində, yazıçılar bilmirlər, çünki belə adamlar oxucuyla, adətən, nəzmlə danışırlar). Səmimiyyətin bir qismini isə tale qürbətin əliylə ona gətirmişdi. Sadə, səmimi olmaq! Nədənsə «bu, çox asandır» deyənlər heç məktubu da özü kimi, istədiyi şəkildə yaza bilmirlər. Bu məktubları elə bil bu deyib, başqası yazıb…

Qəribə səslənsə də, dövr Əlibala Hacızadəyə xidmət eləyirdi. Süni, qurama, qondarma obrazların içində onun məhəbbət fədailəri dərhal seçildi. Elə ona görə də «Təyyarə kölgəsi»nə sığınanlar, «İtkin gəlin»ə ağlayanlar gözləndəndən və görünəndən çox oldu. Bu göz yaşlarına görə yazıçını indi də qınayanlar var. Bir vaxt rus ədəbiyyatında da oxucuların göz yaşından məşhur «Liza gölü» yaranmışdı. Sonra? Yox, bu nəticəyə görə təkcə yazıçıları qınamaq olmaz. Oxucu yetişməlidir. Oxucunu isə biz düşündüyümüz kimi təkcə ədəbi proses yox, hər şey — şərait, mühit, cəmiyyət, siyasət… yetişdirir. Əlibala Hacızadə romanlarının süjet xəttini yaşına uyğun dəyişdi. «Dünyanı tanı», «Möcüzə» yazıldı — amma oxucular hələ də köhnə əsərlərin nostalijisi ilə yaşayırlar.

Onun ömrünün 50 ilini yaradıcılıq alıb. Yazıçı bu yaradıcılığın ilk illərinə qayıdıb ardıcıllıqla qələmə alınan nümunələri təqdim edir. Birinci cild çapdan çıxıb, 1953-cü ildən başlayıb çəkilən bu təzə yola 61-ci ildə ara verilir. İrəlidə bizi Əlibala Hacızadənin ömürdən aşırdığı onilliklər, sevilə-sevilə oxunan əsərlər gözləyir…

## OĞULLAR VƏTƏNƏ OĞUL OLMASA…

Sənət və ədəbiyyat bütün dövrlərdə ayrı-ayrı nüfuzlu şəxslər — mesenantlar tərəfindən himayə edilmişdir. Doğrudur, əsrlər boyu Azərbaycan xalqının xarakterinə çevrilən bu keyfiyyət 90-cı illərin əvvəllərindəki xaotik və qarmaqarışıq dövrdə müəyyən qədər sönməyə, sozalmağa başlamışdı. Lakin ümummilli liderimiz, dünya səviyyəli dahi siyasətçi Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə bütün sahələrdə olduğu kimi, kimlərinsə qəsdi ilə sıradan çıxarılmaqda olan milli ənənələrimizin, mənəvi-əxlaqi dəyərlərimizin bərpası istiqamətində də əzəmətli dönüş baş verdi. Uzun müddət qayğıdan, diqqətdən kənarda qalmış, ağır maddi və mənəvi problemlərlə üz-üzə buraxılmış incəsənət adamlarımız, elm fədailərimiz, ədəbiyyat xadimlərimiz yenidən ümummilli liderimizin hərarətli qəlbinin sevgi və məhəbbət

nuru ilə əhatə olundular. Elmimizə, ədəbiyyatımıza, incəsənətimizə, tariximizə uzun illər təmənnasız xidmət etmiş insanlar üçün Prezident təqaüdü, Prezident mükafatı təsis olundu, dövlət vəsaiti hesabına onların əsərlərinin nəşri başlandı, layiqli sənətkarlarımız fəxri adlarla təltif olundu, yubileyləri keçirilməyə başlandı.

Böyük liderimiz tərəfindən əsasları müəyyənləşdirilmiş həmin ənənələr bu gün dövlətimizin başçısı, dərin məfkurə sahibi İlham Əliyev tərəfindən uğurla davam etdirilməklə bərabər, ayrı-ayrı iş adamlarımız, vətənimizdən kənarda yaşayan eloğlularımız tərəfindən öyrənilir və onlar da ümummilli liderimizin tövsiyələrini həyata keçirmək üçün əllərindən gələni etməyə çalışırlar. Belə oğullarımızdan biri də hazırda Moskvada yaşayan, Moskva şəhər Dumasının üzvü, iş adamı, adi xeyirxahlıq timsalına çevrilən bir insan, həmyerlimiz Gülağa Qənbərovdur. «Mənim üçün Yer kürəsi Azərbaycandan başlayır» tezisini özünün həyat amalına çevirən Gülağa müəllimin respublikamızın çiçəklənməsi naminə gördüyü nəhəng tikinti-quruculuq işləri, səhiyyə, təhsil, mədəniyyət, idman sahəsində həyata keçirdiyi tədbirlər ilk öncə əbədi Prezidentimiz Heydər Əliyevin Dünya azərbaycanlılarının birinci qurultayında ölkəmizdən kənarda yaşayan eloğlularımıza üz tutaraq söylədiyi «müstəqil Azərbaycan həmişə sizin dayaq yeriniz olacaq… biz də sizi özümüzün elçiləri hesab edirik, sizə çox ümidlər bəsləyirik, sizə arxalanırıq, sizi dayaq hesab edirik» tövsiyəsinin həyat vəsiqəsidir.

«Mənim Azərbaycanda heç vaxt pul qazanmaq niyyətim olmayıb, arzum yalnız Azərbaycanın çiçəklənməsi olub» deyən bu böyük iş adamının sözlərinin səmimiliyini onun vəsaiti hesabına ucalan binalar, salınan körpülər, çəkilən yollar, rayonlarımızda açılan şəhid abidəsi kompleksləri, böyük bərpa işləri, geniş xeyriyyə tədbirləri, yardımlar və s. əyani surətdə təsdiqləyir. Nahaq yerə deyil ki, onun vəsaiti ilə maliyyələşən «Gülağa Qənbərov Xeyriyyə Fondu» son illər Azərbaycanda ən çox xeyriyyə işləri görən təşkilat kimi tanınmaqdadır. Sevimli yazıçımız Əlibala Hacızadə ilə görüşdə də məhz həmin məqamlar vurğulandı:

— Gülağa müəllimi mən neçə illərdir tanıyıram, onun qəlbində yalnız Azərbaycana məhəbbət, xalqımızın haqlarının dünyada tanınması, insanlarımızı ehtiyacsız görmək istəyi var. Rusiyada, başqa xarici ölkələrdə imkanlı həmyerlilərimiz çoxdur, onların əksəriyyəti respublikamıza gəlib-gedəndə ya öz qohum-qardaşları üçün nəsə edir, ya da öz

kəndi, rayonu üçün. Amma Gülağa müəllim bütövlükdə respublikamızın çiçəklənməsi, qüdrətlənməsi üçün çalışır. Onun rəhbərlik etdiyi fond təmənnasız olaraq respublikamızda tikinti-abadlıq işləri, xeyriyyə tədbirləri üçün hər ay azı yüz min dollarla vəsait xərcləyir. Mən onun keçirdiyi bir çox tədbirlərdə iştirak etmiş, kimsəsiz, tənha insanların ona minnətdarlıq edərkən necə kövrəlib-dolduqlarını gözlərimlə görmüş, bu yüksək insanpərvərlik və xeyirxahlıq qarşısında söz tapa bilməyən adamların Gülağa müəllimi bağrına basaraq ağlaya-ağlaya «Sən mənim öz övladımsan» deməsi mənim yazıçı qəlbimi riqqətə gətirib. Şüvəlan qəsəbəsində zəif eşidən və sonradan karlaşmış uşaqlar üçün internat məktəbdə Novruz bayramı münasibətilə sovqat paylayarkən lal bir uşağın qəfildən dil açıb çox çətinliklə də olsa «sağ ol» sözünü tələffüz etməsi hamımızın gözünü yaşardıb. Allah xeyirxahları sevir, Gülağa müəllim də bu mənada Allahın sevimli bəndələrindəndir.

— Əlibala müəllim, siz eloğlumuzun xeyirxahlığından ürəklə danışırsınız, axı bu xeyirxahlığın müqabilində təmənna olduğunu söyləyənlər də var…

— Bəri başdan deyim ki, bu, böhtandan, yalandan başqa bir şey deyil. Bu fikri söyləyənlərin özlərinin qəlbində ya qərəz yuvası var, ya da həmin insanlar Gülağa müəllimi yaxşı tanımırlar. Siz özünüz deyin, Respublika Onkoloji Mərkəzinin əsaslı təmirinə milyonlarla vəsait qoymaqda hansı təmənna ola bilər? Yaxud, Şüvəlan qəsəbəsində zəif eşidən və sonradan karlaşmış uşaqlar üçün xüsusi internat məktəbin müasir tələblərə cavab verən yeni korpusunun tikintisində gizli nə məqsəd ola bilər? Üç mərtəbədən ibarət bu korpus 700 min ABŞ dollarına başa gəlmişdir. Belə obyektlər yüzlərlədir. Bilgəh qəsəbəsindəki «Müharibə və Əmək veteranları pansionatı»ndakı quruculuq işləri, Masallı rayonunda «Qoç türbəsi» qəbristanlığındakı böyük abadlıq, həmin rayonun Ərkivan kəndinə uzanan yolların asfaltlaşdırılması, «Şəhidlər bulağı» kompleksinin yaradılması Gülağa Qənbərovun həyata keçirdiyi böyük layihələrin çox az bir hissəsidir. Bundan əlavə, «Gülağa Qənbərov Xeyriyyə Fondu» hesabına 20-dən çox ağır xəstənin müalicəsinin təşkil olunması, Əhmədli qəsəbəsindəki 3 saylı uşaq evinə müntəzəm yardımlar göstərilməsi, müxtəlif idman turnirlərinin keçirilməsi, musiqi müsabiqələrinin təşkili onun nəzərdə tutduğu cari proqramların tərkib hissəsidir. Burada siz bir ədəd də olsun biznes, işgüzarlıq fəaliyyəti görməzsiniz. Hamısı respublikamıza son dərəcə gərək olan quruculuq, abadlıq, yaradıcılıq işləridir.

— Əlibala müəllim, bildiyimizə görə, Gülağa Qənbərov təkcə qurub yaratmır, həm də ədəbiyyat və mədəniyyət adamlarımıza xüsusi diqqət yetirir, onların əməyini dəyərləndirməyə çalışır…

— Gülağa müəllim demək olar ki, hər ay ədəbiyyat və incəsənət adamlarımızın yaradıcılığına, yubileylərinə həsr olunmuş tədbirlər keçirir, onları qayğı və məhəbbətlə əhatə etməyə çalışır. Məsələn, tanınmış sənətçimiz, xalq artisti, bəstəkar Şəfiqə Axundovanın 80 illiyi münasibətilə keçirilən tədbirdə onun rəhbərlik etdiyi xeyriyyə fondu çox fəal iştirak etdi.

— Gülağa müəllim özü də yaradıcı insandır. Bəs onun daim sevib əzizlədiyi şair və yazıçılarımız onun bədii yaradıcılığını necə dəyərləndirir?

— Mən onun «Mən Allah adamıyam» kitabını oxuyanda çox həyəcanlandım. Doğrusu, iş adamının yaxşı şair ola bilməsini düşünmürdüm. Lakin onun həssas, incə qəlbli bir şair olduğunu birinci səhifədəcə özüm üçün kəşf etdim. Xalq şairimiz Bəxtiyar Vahabzadənin bir qeydini nəzərə çatdırmaq istərdim. Hörmətli şairimiz öz yazılarının birində Gülağa müəllimin aşağıdakı şerini görün necə təhlil edir.

«Oğullar Vətənə oğul olmasa,
Vətən də itirər vətənliyini…

Bu iki misraya bugünkü ağrı-acılarımız sığışıb. Həm məzmun, həm də fikir etibarı ilə qüdrətlidir». Yaxud Gülağa Qənbərovun başqa bir şeri:

Sabah nə olduğunu
Hər işi, hər əməli
Yağışa düşənlərə
Kaha olanlar bilər. — misraları haqqında görkəmli şairimiz yazır: «Başımızın üstündəki Allaha inamımızdan doğan bu qüdrətli misralara görə Sizə təşəkkürlər…»

Bundan əlavə, tanınmış tənqidçi Vaqif Yusifli də «Mən Allah adamıyam» kitabını yüksək qiymətləndirib: «Bu kitabı oxuyub Gülağanı bir şair kimi dərk etdim, qəbul etdim. Ona görə də ona bu şeriyyət aləmində əbədi qalmağı arzulayıram…» Həmin fikirləri bölüşən ədəbiyyatşünas alim Cavanşir Yusifli isə əlavə edir: «Bu kitabda çap olunan şerlər Gülağa müəllimin gördüyü işlərin, həyata keçirdiyi xoş əməllərin poetik təzahürüdür…» Filologiya elmləri namizədi

Asif Rüstəmli də şairin yaradıcılığını yüksək dəyərləndirərək «onun açdığı və keçdiyi yolun əbədi olacağına» inamını ifadə edib.

— Əlibala müəllim, yazıçı kimi Gülağa müəllimin xeyirxahlığının kökünü nədə görürsünüz?

— O, halal bir ailədə dünyaya gəlib, halal bir ananın döşündən süd əmib, halal bir kişinin çörəyi ilə böyüyüb. Mən onun qoca anasını bağrına basıb, necə böyük məhəbbətlə «ana» dediyini özüm görmüşəm. Elə bir oğul yurdunu, vətənini, xalqını qəlbən sevməyə bilməz. Bundan əlavə, Gülağa müəllim özü dəfələrlə vurğulayıb ki, mən xeyirxahlığı mərhum Prezidentimiz, ümummilli liderimiz Heydər Əliyevin tövsiyələrindən öyrənmişəm.

— Ola bilərmi ki, Gülağa Qənbərov gələcəkdə hansısa bir əsərinizin qəhrəmanına çevrilsin?

— Gülağa müəllim mənim tanıdığım insanların və dostlarımın ən yaxşıları sırasındadır. Ona görə ki, o harada olursa-olsun — Moskvada, Madriddə, Londonda, Nyu-Yorkda — orada Azərbaycan qeyrəti, mənəviyyatı, əxlaqı var, orada xeyirxahlıq və insanlıq var.

*İbrahim Quliyev*
*şair*

# «ƏLİBALA HACIZADƏ SOVET DÖVRÜNDƏ DÖVLƏT BÜDCƏSİNƏ ƏN ÇOX GƏLİR GƏTİRƏN YAZIÇI İDİ»

Vahid Əziz: «*Onun əsərlərinin 300 min tirajla nəşr edildiyi vaxtlar olub*»

«Əlibala Hacızadənin kitabları ən zəhmətkeş kitablardı. Təxminən torpaq, Azərbaycan torpağı kimidi. Yazda da əkirsən, payızda da. Hər dəfə məhsul götürürsən. Torpağı istismar edirik. Əlibala müəllimin kitablarını bu millət oxuyur, vərəqləyir, vərəqlər cırılır, qopur, düşür, yenidən cildləyirlər, yenidən oxuyurlar. Əlibala müəllimin kitabları bu millətin gecə-gündüz «istismar» etdiyi kitablardı. Bundan böyük xoşbəxtlik ola bilməz».

Bu sözləri yazıçı-publisist, millət vəkili Sabir Rüstəmxanlı Əlibala Hacızadənin kitablarının 10 cildliyinin təqdimatına həsr olunmuş mərasimdə dedi. «Avropa» otelində düzənlənən mərasim xeyriyyəçi Gülağa Qənbərovun təşəbbüsü ilə baş tutmuşdu. Qeyd edək ki, Əlibala Hacızadənin əsərlərinin əvvəlcə 5, indi isə 10 cildliyini nəşr etdirən də Gülağa Qənbərovdur. Bu mənada dünənki mərasimdə sözün, sənətin işığına toplaşmış bütün çıxışçılar, o cümlədən, ölkənin tanınmış söz sənətkarları, elm, mədəniyyət, incəsənət xadimləri Əlibala Hacızadənin əsərlərinin qəhrəmanlarının unudulmaz obrazlarını yaratmış aktyorlar ilk növbədə messenat Gülağa Qənbərova belə bir xeyirxah əməli həyata keçirdiyinə görə təşəkkür etdilər. Mərasim Əlibala Hacızadənin həyat yoluna qısa işıq salınması ilə başladı. Yazıçının tərcümeyi-halı oxundu, yaradıcılığı vərəqləndi. İstedadlı aktyor İlham Əsgərov Əlibala Hacızadənin çox sevdiyi şerlərindən oxudu. Müğənni Zeynəb Behbudova yazıçının sözlərinə bəstələnmiş mahnı ifa etdi. Ə.Hacızadənin kitablarına yazılmış ön sözün müəllifi, yazıçı Nahid Hacızadə bu günün əziz dostunun həyatında ən unudulmaz bir gün olduğunu dedi. «Hər yazıçıya külliyyatını çap etdirmək nəsib olmur. Kitabın nəşri bayramdı. Amma çoxcildliyin nəşri bayramlar bayramıdı. Əlibala kitablarının nəşr etdirilməsindən giley edirdi həmişə. Deyirdi ki, «mən ədəbiyyatımızın ögey balasıyam». Mən onu qınayırdım ki, yox, sən elə doğma balasısan. İndi, gör sənin məclisinə necə dostların gəlib. Nigarançılığın əbəs imiş.

Mən Əlibala müəllimin kitabına yazdığım ön sözdə onu ədəbiyyatımızın nəğməkarı adlandırmışam. Əlibala müəllim kitabların çap olunmamasından gileylənəndə deyirdi, «kitabın kitabı bağlanıb». Mən

yenə onu qınayırdım ki, sənin kitabın bağlana bilməz. Gülağa Qənbərovun bu 10 cildliyi çap etdirməsi təsdiqlədi ki, həqiqətən Əlibala Hacızadə kitabı bağlanası yazıçılardan deyil».

Daha sonra akademik Bəkir Nəbiyev Əlibala Hacızadə ilə birgə keçirdikləri gənclik illərinə «qayıtdı». «Vaxt vardı, Əlibala başına barmaq batmayan, qara qaş, göy göz, gözəl cavan bir oğlan olduğu illərdə şerlərini götürüb «Azərbaycan gəncləri» redaksiyasına, dostu Bəkirin yanına gələrdi, Bəkir də onları qəbul edərdi və çap edərdi. İndi Əlibala müəllim yüksək səviyyəli əsərlərin müəllifi kimi təqdim olunanda o günlər yadıma düşür» deyən B.Nəbiyev üzünü dostuna tutdu: «Burada 10 cildlikdən söhbət gedir. Mirzə Ələkbər Sabir bircə kitabının belə çapını görmədi. Onun ölümündən sonra Abbas Səhhət indi hamımızın oxuduğu «Hophopnamə»ni çap etdirdi. Mikayıl Müşfiqin kitabları çap olunsa da, bunun ləzzətini yaşaya bilmədi. Sən xoşbəxtsən, ona görə ki, bu gün bu vüsəti görürsən, yaşayırsan və bu, sənin halalındı».

Yazıçılar Birliyinin katibi Fikrət Qoca qələm dostunu 10 cildliyinin nəşri münasibətilə təbrik etdi. Müğənni Elxan Şirinov Azərbaycan oxucusuna «İtkin gəlin» əsərindən yaxşı tanış olan «Sev məni» şerinə gözəl bəstəkarımız Cavanşir Quliyevin bəstələdiyi mahnını ifa etdi. Şair Vahid Əziz isə bildirdi ki, Əlibala Hacızadə sovet dövründə dövlət büdcəsinə ən çox gəlir gətirən yazıçı idi. Onun əsərlərinin 300 min tirajla nəşr edildiyi vaxtlar olub. Vahid Əziz indi yazıçının 10 cildliyini nəşr etdirməklə çağdaş Azərbaycan ədəbiyyatı tarixinə böyük xidmət göstərmiş xeyriyyəçi Gülağa Qənbərova təşəkkür etdi. Vahid Əziz indiyədək Əlibala Hacızadəyə xalq yazıçısı fəxri adı verilməməsindən, ona fərdi təqaüd kəsilməməsindən narahatlığını da gizlətmədi və üzünü Fikrət Qocaya tutub bu məsələni Yazıçılar Birliyi rəhbərliyi qarşısında qaldırmağı tövsiyə etdi. Söz yenə musiqiyə verildi. «Savalan» qrupunun üzvləri mərasimi rövnəqləndirdilər.

*Məlahət Rzayeva*

## SADƏLİKDƏ BÖYÜKLÜK

Mən həyatda sadə və təvazökar adamlara hörmət və rəğbət bəsləyirəm. Əlibala müəllim də belə insanlardandır. Hələ tələbə ikən Əlibala müəllimin bütün ailələrin stolüstü kitabına çevrilmiş «İtkin gəlin», «Əfsanəsiz illər», «Ayrılığın sonu yoxmuş» əsərləri məndə müəllifə qarşı böyük sevgi hissi oyatmışdı.

Yazıçı ilə yaxından tanış olmaq arzusu ilə yaşayırdım. Dörd il öncə, bir dostum məndən xahiş etdi ki, yazdığı şeri «Şəhriyar» qəzetində dərc etdirmək üçün onunla redaksiyaya gedim. Çünki mən də qəzetdə işləyirdim. «Şeri kimə verəcəksən?» — deyə soruşdum. O, düşünmədən: «Əlibala müəllimə» — dedi. Düzü, bu adın fərqinə varmadım. Biz redaksiyaya daxil olanda dostumu yaşlı bir şəxs gülərüzlə qarşıladı, dostum onun kef-əhvalını soruşdu. Hiss etdim ki, bunlar köhnə tanışdır. Sonra dostum üzünü mənə tutub: «Camal, məgər Əlibala müəllimlə tanış deyilsən?» — deyə soruşdu. Doğrusu, tutuldum, heç nə deyə bilmədim. O, əlavə etdi: «Bir binada işləyirsiz, amma hörmətli yazıçımızla tanış deyilsiz».

Həmin gündən çoxdan həsrətində olduğum sevimli yazıçımızla yaxından tanış oldum. Biz tez-tez dəhlizdə Əlibala müəllimlə qarşılaşır, hal-əhval soruşurduq. Hər şeydən öncə, onun sadəliyi, səmimiyyəti məni heyran etmişdi.

Əlibala Hacızadə həyatda olduğu kimi, yaratdığı əsərlərində də şər qüvvələrə qarşı mübarizdir. Cəmiyyətdə neqativ hallara qarşı barışmaz mövqeyi dəfələrlə iş yerini itirməsinə, vəzifəsinin kiçildilməsinə səbəb olsa da, Əlibala müəllim heç zaman sınmamış, bədxahlar və məddahlar qarşısında qürurla dayanmışdır. Yüksək əxlaqi keyfiyyətlərinə görə Əlibala müəllim həm oxucuları, həm də həmkarları arasında böyük hörmət sahibidi.

Əlibala müəllim yaradıcılığı, orijinallığı, üslubu, dili ilə digər yazarlardan seçilir. O, oxucularını səthi və bayağı düşüncələrdən əl çəkib həyatda yüksək mənəvi dəyərlərə söykənməyə sövq edir. Yaratdığı əsərlərdə kapital dünyasının eybəcərliklərini göstərməklə gənclərin mənəvi və milli dəyərlərdən uzaqlaşmasına imkan vermir, onları zəka sahiblərinin əhatəsində olmağa səsləyir.

Əlibala müəllim boğazdan yuxarı danışan, nəyin, yaxud kimlərinsə xatirinə söz deyən nasirlərdən deyil. O, zahirən sakit görünsə də, içində daim təlatümlü bir dəniz dalğalanır. Adamlarda etibarsızlığı, xəyanəti, yaltaqlığı, məddahlığı görəndə bu dəniz daha da coşaraq «Məhəbbət olmayan evdə» (1963), «Unutmaq olmur» (1964), «Təyyarə kölgəsi» (1974), «İnam», «Vəfalım mənim», «Dünyanı tanı» kimi iri həcmli əsərlərə çevrilir.

Təkəbbürlü adamlar Əlibala müəllimin sadəliyi qarşısında bir an da olsa, əriməyə məcbur olur. «Sadəlik böyüklükdür» deyənlər yanılmayıblar. O, hamıya qayğıkeşliklə yanaşır, əlindən gələn köməyi heç kimdən əsirgəmir. Gənclərə böyük ümid bəsləyən Əlibala müəllimin onlara torpağa bağlılığı, milli mənliyi, milli qüruru, Vətən təəssübkeşliyini, mənəvi dəyərləri qorumağı tövsiyə edir, riyakarlığa, mənəviyyatsızlığa qarşı barışmaz olmağa çağırır.

Əlibala müəllim həm də böyük ürəkli yazıçıdır. O, gənc yazarlara həmişə qayğı və həssaslıqla yanaşır. Onda insanlara olan məhəbbət tükənməzdir. Çünki ən güclü məhəbbət daşürəkli adamları belə əritməyə qadirdir.

Əlibala müəllim bu gün zahirən gülərüz, xoşrəftar, mehriban görünsə də, qəlbində dağ boyda Qarabağ dərdi daşıyır.

Nasir bu dərdə dözə bilmir, keçirdiyi hissləri misralara çevirir:

«Gecələr Qarabağımı basıb bağrıma,
Körpə uşaq kimi mışıl-mışıl yatardım.
Gözlərimdə şır-şır axan bulaqlar,
Yuxularımda başı qarlı silsilə dağlar,
Xəyallarımda gah çiçəkdim, gah qardım…»

Əlibala müəllim bu gün sakit axan çaya bənzəyir. Deyirlər, sakit axan su dərin olar. Bəli, Ə.Hacızadənin həm yaradıcılığı, həm insani keyfiyyətləri, həm də bəşəri duyğuları olduqca dərindir.

Bu dərinliyə baş vurmaq həvəsində olan gənc yazarlar hələ çoxlu yuxusuz gecələr keçirməli, çox müşahidələr, tədqiqatlar aparmalıdırlar. Əlibala müəllimin özünün dediyi kimi, o, dərk olunmamış bir kitabdır.

Əlbəttə, biz bu kitabı vərəq-vərəq oxuyub, dərk etməyə çalışmalıyıq.

*Camal Zeynaloğlu*

## ƏLİBALA HACIZADƏNİN 10 CİLDLİYİNİN İLK BEŞ CİLDİ OXUCULARA TƏQDİM OLUNDU

«Avropa» otelində yazıçı Əlibala Hacızadənin 10 cildlik külliyyatının 5 cildliyinin çapdan çıxması münasibətilə təqdimat mərasimi keçirildi. Tədbirdə çıxış edən yazıçı Nahid Hacızadə bildirdi ki, ədəbiyyatımıza «Təyyarə kölgəsi», «İtkin gəlin», «Əfsanəsiz illər», «Ayrılığın sonu yoxmuş» və digər bu kimi dəyərli əsərlər bəxş edən Ə.Hacızadənin 5 cildliyinin işıq üzü görməsi əlamətdar hadisədir. Ona görə ki, sonuncu əsəri 12 il bundan əvvəl çap olunan sevimli yazıçımızın kitablarından yeni nəsil xəbərsiz idi. Həmin kitablar köhnə əlifba ilə buraxılmışdı. Moskvada yaşayan, Azərbaycanla sıx əlaqələr saxlayan, ədəbiyyatımıza, incəsənətimizə, təhsilimizə diqqət və qayğı ilə yanaşan mesenat, şair Gülağa Tənha Qənbərov 5 cildliyin ərsəyə gəlməsində böyük zəhmət çəkib, kitabların çap xərcini öz üzərinə götürüb...

Millət vəkili, şair-publisist Sabir Rüstəmxanlı Ə.Hacızadənin əsərlərini əhatə edən 10 cildlik külliyyatın 5 cildinin çapı münasibəti ilə yazıçını təbrik etdi, ona yaradıcılıq uğurları arzuladı:

— … Geniş oxucu kütləsinin ixtiyarına verilən beş kitabın hər biri xalqımız üçün, ədəbiyyatsevərlər üçün qiymətli xəzinədir. Bu əsərlər çap olunduğu illərdə ədəbi hadisə kimi dəyərləndirilmişdir… «Əfsanəsiz illər». «İtkin gəlin», «Ayrılığın sonu yoxmuş» kimi kitabları ilə Ə.Hacızadə oxucu qəlbinə yol tapa bilmiş, ədəbi həyatda özünə layiqli yer tutmuşdur…

S.Rüstəmxanlı çıxışında kitab çapı ilə bağlı bir məsələyə də münasibət bildirdi. Göstərdi ki, son illər ayrı-ayrı şəxslər ədəbiyyata, bədii söz sənətinə dəxli olmayan kitablar çap etdirirlər. Çox təəssüf ki, bu işdə imkanlı şəxslərin də günahı az deyil. Onlar tanınmış, nüfuzlu, istedadlı qələm sahiblərini himayə etmək əvəzinə «boz» ədəbiyyata «yaşıl işıq» yandırır, heç kimin maraq göstərməyəcəyi, oxumayacağı kitabların çapına səxavətlə pul xərcləyirlər… Sevindirici haldır ki, Gülağa Tənha Qənbərov Vətəndən uzaqlarda yaşayıb-yaratsa da, Vətənin tərəqqisi, inkişafı üçün öz oğul səyini, əməyini əsirgəmir. «Gözsüz qalan körpəyə göz olmağı», «köməksizin əlindən yapışmağı» əsl savab iş bilməklə yanaşı, Əlibala Hacızadə kimi sənətkara da qayğısını əsirgəmir. Bəli, Əlibala müəllimin kitablarının

«Gülağa Qənbərov Xeyriyyə Fondu»nun maliyyəsi ilə təmənnasız işıq üzü görməsi təqdirəlayiqdir. İnanmaq istərdik ki, respublikamızda və kənarda yaşayan bütün imkanlı soydaşlarımız, mesenatlar da bundan sonra Gülağa Qənbərov kimi ədəbi, elmi-publisistik əsərlərin yeni əlifba ilə çapına qayğı ilə yanaşacaqlar…

Mərasimdə çıxış edən akademik Bəkir Nəbiyev Əlibala Hacızadənin 5 cildliyinin çapını, eyni zamanda həmin külliyyatın kitabxanalara, elmi-ədəbi, təhsil müəssisələrinə pulsuz paylanmasını yüksək qiymətləndirdi. O, vaxtilə yazıçının hər bir əsərinin oxucular tərəfindən böyük maraqla qarşılanmasını onun qələmə aldığı hadisələrə nüfuz etməsi, ədəbi dilimizin incəliklərinə dərindən bələd olması ilə əlaqələndirdi…

Akademik Bəkir Nəbiyev çıxışında Əlibala Hacızadənin gənclik illərinə də «səyahət etdi». — Vaxt vardı, Əlibala saçına barmaq batmayan, qara qaş, göy göz cavan bir oğlan idi. Tez-tez «Azərbaycan gəncləri» redaksiyasına gələr, mən də onu qəbul edər, söhbətləşər, şerlərini qəzet səhifələrində verərdim. İndi bu mərasimdə, bu əziz gündə Əlibala müəllim böyük sənətkar, yüksək səviyyəli əsərlər müəllifi kimi təqdim olunanda o günlər yadıma düşür…

Natiq çıxışını belə tamamladı: — … Burada 10 cildlikdən söhbət gedir. Əlibala müəllim xoşbəxtdir ki, bu sevinci, bu fərəhi sağlığında yaşayır. Mirzə Ələkbər Sabir bircə kitabının belə çapını görmədi. Onun ölümündən sonra Abbas Səhhət indi hamımızın oxuduğu «Hophopnamə»ni çap etdirdi. Mikayıl Müşfiqin kitabları işıq üzü görsə də, bunun sevincini yaşaya bilmədi. Sən xoşbəxtsən, ona görə ki, bu gün bu sevinci yaşayırsan.

Mərasimdə Əlibala Hacızadənin qələm dostları, respublikamızın tanınmış ziyalıları da onun barəsində xoş sözlər söylədilər. Azərbaycan Yazıçılar Birliyinin katibi, xalq şairi Fikrət Qoca:

— … Biz bu axşam yazıçının ona şöhrət gətirən əsərlərinin 5 cildinin təqdimat mərasiminə toplaşmışıq. Bu ilin payızınacan, Əlibala müəllimin 70 illiyinəcən daha 5 cild çapdan çıxacaq və beləliklə, oxucular sevimli sənətkarımızın yaradıcılığı ilə mükəmməl tanış ola biləcəklər… Mən uzun illərdir ki, Əlibala Hacızadənin yaradıcılığını izləyir, onun hər uğuruna, hər yeni əsərinin nəşrinə ürəkdən sevinirəm. Əlibala müəllimə kitab sevinci yaşadan bir insana, sözü uca tutan, onu qiymətləndirməyi bacaran, sözlə, şerlə nəfəs alan Gülağa Tənhaya minnətdarlığımı bildirirəm.

Akademik Budaq Budaqov: — … Ə.Hacızadə yaradıcılığa şerlə başlamışdır. Sonra məşhur «Qürbət hekayələri» silsiləsini, «Əfqan trilogiyası»nı, publisistik məqalələrini qələmə almışdır. Nəşr əsərlərində də poeziyadan ayrılmamış, könül duyğularını misralara çevirmişdir. Dilimizin şəhd-şirəsini romanlarına hopdurmuşdur. Məhz buna görə də əsərləri daim sevilə-sevilə oxunur…

Akademik Akif Əlizadə:

— … Əlibala Hacızadə kimi görkəmli bir yazıçının 10 cildliyini nəşr etdirməklə çağdaş Azərbaycan ədəbiyyatı tarixinə böyük xidmət göstərmiş xeyriyyəçi Gülağa Qənbərova təşəkkürümü bildirirəm…

Mərasimdə Azərbaycan Mədəniyyət və İncəsənt İnstitutunun kafedra müdiri, filologiya elmləri doktoru, professor Nizaməddin Şəmsizadə, şair Oqtay Rza, filologiya elmləri namizədi Xeyrulla Əliyev, xalq artisti Kamal Xudaverdiyev çıxış edərək Əlibala Hacızadəyə yeni-yeni yaradıcılıq uğurları arzuladılar.

Mərasimdə aktyor İlham Əsgərov Əlibala Hacızadənin və Gülağa Tənhanın şerlərindən nümunələr söylədi, müğənnilərdən Elxan Şirinov, Zeynəb Behbudova isə onların sözlərinə bəstələnmiş mahnılar ifa etdilər.

Vaqif Bayramov<br>«Xalq» qəzeti

# ƏLİBALA HACIZADƏNİN ƏSƏRLƏRİNİN 10 CİLDLİK KÜLLİYYATININ TƏQDİMATI KEÇİRİLDİ

«Avropa» otelində tanınmış yazıçı Əlibala Hacızadənin 10 cildlik külliyyatının ilk beş cildinin təqdimat mərasimi keçirilib. Gülağa Qənbərov Xeyriyyə Fondunun köməkliyi ilə işıq üzü görən toplunun digər 5 cildi isə yazıçının 70 illik yubileyi ərəfəsində, sentyabr-oktyabr aylarında oxucuların ixtiyarına veriləcək.

Təqdimat mərasimini giriş sözü ilə işıq üzü görən toplunun ön söz müəllifi Nahid Hacızadə açdı. Əlibala Hacızadənin yaradıcılığına müxtəlif rakurslardan qiymət verən N.Hacızadə onunla bağlı xatirələrini söylədi. Vahid Əziz bu vaxta qədər Ə.Hacızadəyə xalq yazıçısı fəxri adı verilməməsindən, ona fərdi təqaüd kəsilməməsindən narahatlığını bildirdi. Qeyd etdi ki, Yazıçılar Birliyi bu haqda düşünməlidir. Yazıçını hər bir insanın dostu adlandıran natiq onun yaradıcılığında Cəfər Cabbarlı, İlyas Əfəndiyev qələminə bənzərliyin olduğunu vurğuladı. Daha sonra Ədəbiyyat İnstitutunun direktoru, akademik Bəkir Nəbiyev çıxışını Ə.Hacızadə ilə keçirdiyi gənclik illərinin xatirəsi üzərində qurdu: «Vaxt vardı, Əlibala başına barmaq batmayan, qara göz cavan bir oğlan olduğu vaxtlarda şerlərini «Azərbaycan gəncləri» redaksiyasına, dostu Bəkirin yanına gətirərdi. Bəkir onları çap etdirərdi. İndi Əlibala müəllim yüksək səviyyəli əsərlərin müəllifi kimi təqdim olunanda o günlər yadıma düşür. Burada söhbət 10 cildlik kitabın nəşrindən gedir. Rəhmətlik Sabir heç kitabının bir cildinin belə nəşrini görə bilmədi». Bəkir Nəbiyev bu mənada Ə.Hacızadəni xoşbəxt adlandırdı və buna xeyriyyəçi G.Qənbərova minnətdarlıq etdi.

Yazıçı, millət vəkili Sabir Rüstəmxanlı isə Ə.Hacızadənin kitablarını «ən zəhmətkeş kitablar» adlandırdı. Yazıçılar Birliyinin katibi Fikrət Qoca da tədbirin səbəbkarını təbrik etdi. Və Ə.Hacızadəyə xalq yazıçısı adı verilməsi məsələsini qaldıracağını vəd etdi.

Təqdimat mərasimində çıxış edənlər, elm, mədəniyyət, incəsənət xadimləri Əlibala müəllimin yüksək sənət nümunələri yaratmasından, onun əsərlərinin oxucuda yüksək bədii zövq yaratdığından bəhs etdilər. Onlar bu əsərlərin oxuculara çatdırılmasına kömək etdiyinə görə, Gülağa Qənbərova minnətdarlığını bildirdilər. Çıxışçılar bildirdilər ki, Ə.Hacızadənin əsəri əsasında çəkilmiş «İtkin gəlin» çox seriyalı bədii filmi hələ də geniş tamaşaçı kütləsinin yaddaşından silinməyib. Şair İlyas Tapdıq və başqaları dərc olunan toplu haqqında öz fikirlərini söylədilər. Tədbirin bədii hissəsində Əlibala Hacızadənin şerləri səsləndirildi, əsərlərindən parçalar ifa olundu.

*Vüsalə*

## BÜTÜN ZAMANLARIN SEVİMLİ YAZIÇISI

*Əlibala Hacızadənin 10 cildliyinin ilk 5 cildi təqdim olundu*

Əlibala Hacızadə adı keçən əsrin 70-80-ci illərinin oxucularına yaxşı tanışdır. O illərin yeniyetmələri gözlərini həyata Ə.Hacızadənin əsərləri ilə açıb desəm, yanılmaram.

Yanvarın 5-də Avropa otelində görkəmli yazıçının əsərlərinin 10 cildliyinin birinci 5 cildinin təqdimat mərasimi keçirildi. Xatırladaq ki, Ə.Hacızadənin əsərlərinin 10 cilddə çap olunması üçün maliyyə xərcini «Gülağa Qənbərov Xeyriyyə Fondu»nun sədri, tanınmış şair Gülağa Tənha (Qənbərov) öz üzərinə götürüb. Ölkəmizin görkəmli ədəbiyyat, incəsənət və mədəniyyət xadimlərinin iştirak etdiyi mərasimdə ilk söz 10 cildliyin birinci cildinə «Nəsrimizin nəğməkarı» adlı ön söz yazmış yazıçı Nahid Hacızadəyə verildi. Ə.Hacızadə ilə eyni soyadda olduğunu qeyd edən natiq bəzən oxucuların onları qardaş və əmioğlu hesab etdiyini və bununla bağlı suallara tez-tez cavab verdiyini qeyd etdi. «Həmişə belə suallara bir cavabım olub: bizi tutduğumuz ədəbi yol qardaşlaşdırıb» — deyən yazıçı Ə.Hacızadə ilə ilk tanışlığından bu günə qədər baş verən və oxuculara məlum olmayan bir çox hadisələrdən söhbət açdı. Sovet dövründə Ə.Hacızadənin kitablarının ən çox tirajla çap olunduğunu, onun dövlətin büdcəsinə ən çox xeyir verən yazıçı olduğunu vurğuladı.

Ədəbiyyatşünas alim Bəkir Nəbiyev yazıçının əsərlərini bir tənqidçi kimi təhlil edərək Sovet dövründə hər yazıçının cəsarət edib deyə bilmədiyini Ə.Hacızadənin sətraltı fikirlərlə söylədiyini dilə gətirdi.

Xalq şairi Fikrət Qoca yaşda Əlibaladan 3 gün böyük olduğunu dedi: «Əlibala 3 gün artıq yaşamalıdır ki, gəlib mənə çatsın» — deyən şairin atmacası mərasim iştirakçılarının gurultulu alqışlarına səbəb oldu. F.Qoca Ə.Hacızadənin bütün zamanlarda oxucuların sevimli yazıçısı olduğunu vurğuladı: «Əlibala Hacızadə 10 minlərlə oxucusu olan yazıçıdır, onun kitabını çap etmək təkcə Əlibala Hacızadəyə deyil, Azərbaycan xalqına, eyni zamanda, Azərbaycan dövlətinə xidmətdir».

Şair Vahid Əziz, Sabir Rüstəmxanlı, Oqtay Rza, ədəbiyyatşünas alim Xeyrulla Əliyev öz çıxışlarını yazıçının əsərlərinin təhlili və

bu kitabları çap edən xeyriyyəçi G.Tənhaya minnətdarlıq üzərində qurdular.

Mərasimin sonunda çıxış edən xeyriyyəçi şair G.Tənha öz xeyriyyə işlərini davam etdirəcəyini söylədi.

Sonda söz alan Ə.Hacızadə çox geniş çıxış etdi. O, çıxışını çətin bir zamanda onun 10 cildlik kitabının maliyyə xərcini öz boynuna çəkən şair G.Tənhaya və mərasimdə iştirak edənlərə minnətdarlıqla bitirdi.

Mərasim iştirakçıları Ə.Hacızadə və G.Tənhanın sözlərinə yazılmış mahnıları «Tənha» ansamblının müşayiəti ilə respublikamızın tanınmış müğənnilərinin ifasında dinlədilər.

*Dayandur Sevgin*

## «O, HƏR İŞDƏ TƏNHADIR»

Əlibala Hacızadə: «Bu kitabın sevincini heç vaxt yaşamamışdım»

Əlibala Hacızadənin təqdimata ehtiyacı yoxdur. «Təyyarə kölgəsi», «İtkin gəlin» trilogiyaları ilə əbədi oxucu məhəbbəti qazanmış yazıçı bu gün də yazıb yaratmaqdadır. Ancaq qarşısına xeyirxah insanlar çıxmasaydı, yəqin ki, Əlibala müəllimi bir qədərdən sonra gənc nəsil tanımayacaqdı. Artıq bu qorxu arxada qalıb. Onunla söhbətimiz də elə bu barədədir. Redaksiyamıza qonaq gəlmiş Əlibala müəllimlə yaxşı insanların yaxşı işləri haqqında söhbət etdik.

— Əlibala müəllim, «kitablarınız niyə çap olunmur?» sualına həmişə «möcüzə gözləyirəm» deyirdiniz. Deyəsən, artıq möcüzə baş verib axı?

— Çox düz deyirsən. Doğrudan da mən tamam ruhdan düşmüşdüm. Keçən il mart ayının yeddisində Azərbaycan Televiziyasının «Səhər» proqramında şənbə qonağı olarkən, Esmira çərkəzqızı ilə maraqlı bir söhbət etdik. O, məndən kitablarımın çapı haqqında soruşanda cavab verdim ki, vəziyyət çox pisdir. Keçmişdə deyirdilər kitabını gətir, pulunu apar, indi deyirlər pulunu gətir, kitabını apar. Kitabın kitabı bağlanıb. Hə, bu müsahibədən bir-iki saat sonra mənə zəng etdilər ki, bəs sizi narahat edən Saatlı rayonundan Gülhüseyn Əhmədovdur. Bu insan mənimlə görüşmək istədiyini söylədi. Vədələşib sabahı günü görüşdük. Təzə tanışım dedi ki, əsərlərimin hamısını oxuyub. Televiziyadakı çıxışımdan isə ona məlum olub ki, əsərlərimin çapında çətinlik çəkirəm. «Özümə borc bildim ki, sizinlə görüşəm və əsərlərinizin bir qisminin çapını öz boynuma götürəm. Bu mənim sizə hədiyyəm olar» sözləri mənə çox təsir elədi, kövrəldim. Dedim: «Gülhüseyn müəllim, çətin bir dövrdə belə bir təklif etdiyinizə görə çox sağ olun. Elə bilin ki, həmin kitabı çap edib verdiniz mənə. Bu söz mənim bəsimdir». Dedi ki, Əlibala müəllim, nə danışırsınız, bu qədər yolu sizdən bir «sağ ol» almağa gəlməmişəm ki. Xahiş edirəm hesablatdırın, görün bir kitabınızın xərci nə qədər edir, mən ödəyəcəyəm. Sözünün üstündə durdu. Həmin on cildi ki, mən nəzərdə tutmuşdum, onun birinci cildini Gülhüseyn müəllim çap

etdirdi. Mənim kitablarım həmişə yüz min tirajla çap olunub. İnandırıram sizi, beş yüz tirajla nəşr edilən bu kitabın sevincini heç vaxt yaşamamışdım.

— Bəs tanınmış xeyriyyəçi Gülağa Tənha ilə tanışlığınız necə oldu?

— Kitab çap olandan bir neçə gün keçmiş dostlarımdan biri mənə zəng elədi ki, gəl, sənin kitabını yuyaq. Ədəbiyyat aləmində bir «yumaq» məsələsi var axı. Getdim, gördüm oturublar. Elə təzəcə başlayırdıq ki, içəri bir oğlan girdi. Uşaqlar məni təqdim etdilər. Dedilər tanış ol, Əlibala Hacızadədir. Elə bunu demişdilər, oğlan məni qucaqladı. «Ay əmi, hardasan, mən səni nə vaxtdır axtarıram». Sonra məlum oldu ki, mənim Şairəli adlı bir orta məktəb yoldaşım olub, onun oğludur. Həm də oturduğumuz restoranın sahibidir. Adı Alim Şirinovdur. Elə oradaca elan etdi ki, Əlibala müəllim, bu kitabın təqdimatını oturduğunuz bu restoranda öz hesabıma mən keçirəcəyəm. İndi gəlirəm Gülağa müəllimlə tanışlığa. Bir gün televiziyada Gülağa Qənbərov adlı bir şəxsin Bilgəhdə qocalar evi tikdirməyindən, Mərdəkanda əlil uşaqlara yardım etməyindən, Masallının Ərkivan kəndində «Şəhidlər bulağı» tikdirməyindən və bir çox başqa xeyriyyəçi əməllərindən bəhs edən verilişə baxırdım. İndiki ağır vəziyyətdə belə bir adamın olması məni çox sevindirdi və mən mətbuatda Gülağa Qənbərova açıq məktub yazdım. Bu, keçən ilin əvvəllərində olub. Bir az keçmişdi, Rusiya mətbuatında onun mənə yazdığı açıq məktubu oxudum. Sonra Bakıda tanış olduq. Gördüyü xeyriyyə işlərinin yığıncaqlarına məni də dəvət edirdi. Keçən il mart ayının 22-də Əhmədlidə bir uşaq evindəki tədbirdə iştirak etdim. Həmin gün Gülağa Qənbərov 300 uşağı başdan-ayağa geyindirdi. Hətta yadımda qalan bir epizodu da demək istəyirəm. Lal, rusdilli bir uşağın əynindəki paltara baxıb sevincindən bir neçə cəhddən sonra «spasibo» sözünü deməyi bütün yığıncaq iştirakçılarını dəhşətə gətirdi. Yəni sevincdən anadangəlmə lal olan bu uşağın dili açılmışdı. Bu görüşdən qayıdanda maşında mən Gülağa müəllimi bir həftə sonra keçiriləcək kitabımın təqdimat mərasiminə dəvət etdim. O mənə bildirdi ki, bu axşam Moskvaya uçur, ancaq təqdimat mərasiminə mütləq gələcək. Dedim, ay Gülağa müəllim, uzaq yoldur, gəlməsəniz də olar. Bir həftəyə Moskvaya gedib-gəlmək asan iş deyil axı. Ancaq təqdimat mərasiminə 2 saat qalmış Gülağa müəllim zəng etdi ki, artıq Bakıdadır və özünü təqdimat mərasiminə çatdırdı. Buna qədər onunla mənim kitablarımın çapı barədə heç bir söhbətimiz olmamışdı. Həmin təqdimat mərasi-

mində Gülağa Qənbərova da söz verdilər. O, geniş bir çıxış etdi və bu kitabı çap edənə təşəkkküründən sonra «Əlibala müəllimin əsərlərinin 10 cildliyini özüm çap edəcəyəm» — dedi. Bundan sonra bu gözəl insanla daha da yaxınlaşdıq. Qeyd edim ki, ona qədər Gülağa Tənhanın şer yazdığından xəbərsiz idim. Elə həmin görüşdən bir az sonra onun «Mən Allah adamıyam» kitabının təqdimat mərasimi oldu. Mərasimdə bir çox tanınmış yazıçılar, eləcə də Xalq şairi Bəxtiyar Vahabzadə iştirak edirdi. O, həm də kitabın ön sözünü yazmışdı. Mən bu kitabı oxuyandan sonra gördüm ki, Gülağa müəllim doğrudan da hərtərəfli biliyə, istedada malik bir adamdır. Mənə həsr etdiyi «Tanrı ovsunudu qələmin» şeri mənim sözlərimin gözəl təsdiqidir.

Sonra onunla bir çox xeyriyyə tədbirlərində iştirak etdim. Əsas da şikəst, sahibsiz insanlara etdiyi köməklər mənim qəlbimi kövrəldirdi. Belə tədbirlərin birində Gülağa müəllimə dedim ki, sizin Məkkəyə, Mədinəyə getməyinizə ehtiyac yoxdur. Siz savabı öz xeyriyyəçilik işlərinizlə qazanmısınız. Bu yaxınlarda, yəni yanvarın 10-da Gülağa Tənhanın ikinci — «Dərdin nazını çəkmə» kitabının təqdimat mərasimi keçirildi. Bu kitaba Xalq şairi Fikrət Qoca çox əhatəli bir ön söz yazıb. Elə kitabın adındakı fikir oxucunu düşündürür. İndiyə qədər ulu babalarımız, nənələrimiz dərdi bayatıya çeviriblər. Yəni dərdin nazını çəkiblər. Amma G.Tənha oxucularına «Dərdin gözünü ov, dərdin nazını çəkmə» deyir. Bu fikrin özü insanı düşünməyə məcbur edən bir fəlsəfədir.

— Əlibala müəllim, sizin həyatınızla Gülağa Tənhanın həyatında bəzi paralellər diqqət çəkir. O, sovet dövründə Əfqanıstanda döyüşüb, ağır yaralanıb. Sizin də ömrünüzün müəyyən hissəsi bu ölkə ilə bağlıdır. Gülağa müəllimin «Əfqanıstan» poeması, sizin «İtkin gəlininiz»…

— Düzgün müşahidə etmisən. Bir vaxt mənim gəzdiyim, dolandığım yerlərə o, silahla gedib. Yaralanıb, əsir düşüb. İndi də o ağrılar onun bədənindən çıxmır. Döyüşlərin birində atılan topdan qulağının pərdəsi deşilib. Yəqin ki, odun-alovun içindən Allah onu çıxarıb ki, gəlib xeyirxah işlər görsün. Elə mənim kitabımı götürək. On cild kitabın hər cildini 1500 tirajla çap etdirib, oxuculara təmənnasız paylamaq inanın ki, hər adamın işi deyil. Bunu yalnız Gülağa Tənha edə bilərdi və etdi də. Onun işində adamı valeh edən bir məqam var — Gülağa Tənha Azərbaycanda bir qəpik də qazanmır. O, Rusiyada, İngiltərədə, İspaniyada və başqa ölkələrdə qazandığı pulları Azər-

baycanda xeyriyyə işlərinə xərcləyir. Yanvarın 5-də mənim kitablarımın təqdimat mərasimində hamını şoka salan, məni kövrəldən bir gediş də etdi Gülağa müəllim. Ömrümün axırına qədər 500 dollar məbləğində mənə təqaüd verəcəyini elan etdi. Gülağa Qənbərov Fondunun prezidentinə, tanınmış insana öz minnətdarlığını bildirmək üçün tanınmış yazıçı Əlibala Hacızadə söz tapa bilmədi.

— Gülağa müəllimin xeyriyyəçilik işlərini bədii şəkildə tarixdə saxlamaq fikriniz yoxdur ki?

— Ürəyimdən xəbər verirsən. Ancaq son günlər elə həyəcanlıyam ki, fikrimi toplaya bilmirəm. Belə bir əsər yazmaq fikrim var. Çünki Gülağa müəllimin xəcalətindən çıxmaq üçün başqa imkanım yoxdur. Yalnız belə bir əsər yazmaqla onun mənə elədiklərinin cüzi bir əvəzini verə bilərəm. Yazıçının əlindən yazmaq gələr. Mən də bu qabiliyyətimi xeyriyyəçi Gülağa Tənha üçün nümayiş etdirəcəyəm.

— Siz Gülağa Tənhanın xeyriyyəçilik fəaliyyətindən bəhrələnən yeganə insan deyilsiniz. Onun başqalarına etdiyi yardımlar da dillərdə əzbərdir.

— Düz deyirsən. Bu yaxınlarda görkəmli bəstəkarımız, Azərbaycanın ilk opera yazan qadın bəstəkarı Şəfiqə Axundovanın 80 illik yubileyini çox yüksək səviyyədə keçirdi. İndi də onun haqqında yazılmış kitabı çap etdirir. Şahmatda uğur qazanmış Məmmədyarovlar ailəsinə etdiyi kömək haqqında da eşitmiş olarsan. Onların ailəlikcə xaricə getməsinin, yarışlarda iştirak etməsinin xərcini Gülağa müəllim çəkir. Rusiyada 300, İngiltərədə 200, İspaniyada 250 nəfər Azərbaycanlını işlə təmin edib, onlara yüksək maaş verir. Bunlar o adamlardır ki, bu ölkədə iş tapa bilməyib. Gülağa Tənhaya müraciət ediblər. Gülağa müəllim elə bir adamdır ki, ona uzanan əli xeyirxahlıqla tutur və həmin insandan köməyini əsirgəmir. Dəqiq bilirəm ki, bu insan imkansız, lakin istedadlı adamlara həmişə kömək etməyə hazırdır və onlardan həzz alır. Gələcəkdə də imkanı olmayan tanınmış yazıçıların kitablarının çapını planlaşdırır.

— Gülağa müəllimin təxəllüsü də bizi maraqlandırır. Bu qədər dost-tanışı olan adam özünü niyə tənha saysın ki?

— Bu təxəllüs çətin seçilib. Gülağa müəllim kiçik yaşından qəriblikdə yaşayıb. Əvvəlcə Bakıya gəlib, sonra Moskva həyatı, daha sonra Əfqanıstan cəhənnəmi. Həmişə təkərlər üstündə yaşayan insan özünü necə hiss etməlidir. Hara gedib, özünü tək görüb. Gülağa kimi ikinci xeyriyyəçi tanımıram. Pulu olanlar çoxdur. Ancaq onların pul-

ları xalqın dərdinə yaramayan pullardır. Bu işdə də Gülağa tənhadır. O mənə həmişə deyir ki, pul qazanmaq çətindir, onu xərcləmək isə bundan da çətindir. Pulu gərək elə yerə xərcləyəsən ki, izi qala. Fikrət Qoca həmin gecədə yaxşı bir çıxış etdi. Zeynalabdin Tağıyevə qarşı 70 il mübarizə aparan sovet hökuməti ona qalib gələ bilmədi. Niyə? Onu xeyirxah əməlləri saxladı. Pullu oğlanların hamısı belə etsə, vallah, küçədə dilənçi qalmaz.

*Dayandur Sevgin*

## «KİTABIN KİTABI BAĞLANIB»

*Yazıçı Əlibala Hacızadəni çoxları tanıyır, amma hamı bilmir ki, o, necə çətin ömür yaşayıb. Bəlkə də birnəfəsə oxuduğumuz əsərləri-ni yazanda nələr yaşayıb, nələrdən keçib?*

*Uşaq yaşlarından ata-ana nəvazişindən məhrum olub o. Gənclik illərini də çətinliklə keçirib. Deyir ki, «3-4 il qışı bir pencəklə keçirdim. Çox çətin günlərim olub. İndi isə həyat mənim üçün adi və maraqlıdır. Həyatda elə bir şey ola bilməz ki, məni təəccübləndirsin. Mən həyatımı əzabla, ancaq mənalı keçirmişəm».*

*Bəli, bu sözlər hamımızın sevə-sevə oxuduğumuz «İtkin gəlin», «Ayrılığın sonu yoxmuş», «Əfsanəsiz illər», «Vəfalım mənim», «Təyyarə kölgəsi» və s. əsərlərin müəllifinə məxsusdur. Onun dediklərinin arxasında nələr durduğunu bilmək istəyirsinizsə, özünü dinləyin.*

«10 ildən sonra Azərbaycanda 5-6 sənətkar qalacaq, oxucular da cılızlaşmış kütləyə çevriləcək»

### «Anarın köməkliyi ilə ev almışam»

— Zamanın indiki axarında Əlibala müəllimin maddi durumu necədir?

— Yaxşı sualdır. Sözsüz ki, bir zamanlar Yazıçılar İttifaqı çox güclü təşkilat idi. İstirahət eləmək, yeni əsərlər yaratmaq üçün hər il öz üzvlərinə sanatoriyalara, istirahət evlərinə yol vərəqələri verirdi. Gedirdik, istirahət də edirdik, əsərlərimizi də yazırdıq. Maşın verirdilər növbəsiz və öz qiymətinə, evi olmayan yazıçılara ev verirdilər. Məsələn, Anar müəllimin köməkliyi ilə mən Yazıçılar İttifaqından ev və iki dəfə maşın almışam. İstirahət evlərinə getmişəm. Ancaq indi heç nə yoxdur O zaman kitabımız çap olunurdu, yaxşı qonorar alırdıq. Yəni yazıçının, şairin güzəranı yaxşı idi. Amma indi keçid dövrü ilə əlaqədar olaraq bunların hamısı demək olar ki, yox dərəcəsindədir. Yazıçılar Birliyi imkansızdır. Şüvəlandakı yaradıcılıq evi qaçqınlardadır. Yazıçıların heç yerə istirahətə getməyə imkanı yoxdur. İndi dövlət nəşriyyatları da tam qüvvələri ilə işləmədiyinə görə yazıçılar kitablarını çap etdirmək imkanından məhrum olublar.

Onu da qeyd etmək lazımdır ki, oxucunun da imkanları məhduddur. O zaman kitab su qiymətinəydi. Oxucu heç bir fikir çəkmədən istədiyi kitabı alıb oxuya bilirdi. İndi necə ki, yazıçı kitab çap etdirə bilmir, oxucu da kitab ala bilmir. İndi nəşriyyatlar çoxdur, amma onlar bir prinsiplə işləyirlər, pulunu gətir, kitabını çap etdir. Əvvəlsə bizə deyirdilər ki, «kitabını gətir, çap eləyək, gəl pulunu apar». Ona görə də mən deyirəm ki, «kitabın kitabı bağlanıb». İndi yazıçı kitabını çap etdirə bilmir, kitablar tökülüb qalıb masasının, dolabın üstündə. Oxucu da kitab ala bilmir. Çünki o, dilemma qarşısında qalıb: yaxşı kitab alsın, yoxsa bir kilo ət? Ailəsini dolandırmaq üçün məcburdur ki, ət alsın.

Onu da deyim ki, kitab çap etdirmək həm də asandır. Kimin pulu var, gedib pulunu verir, kitabını çap etdirir. İndi maşallah, o qədər yazıçılar, şairlər meydana çıxıb ki… Amma mənə elə gəlir ki, bu, uzun müddət davam etməz. Əgər davam etsə, ədəbiyyatımızın vəziyyəti pisləşəcək, Hər bir yazıçı kimi, mən də oxucularımı itirirəm. On ildə mənim bir kitabım çıxıb. Onu da dostum Nazim Hüseynli mənə hədiyyə edib. Kitab 500 nüsxə ilə işıq üzü görüb. Amma saymışdım, bir dəfə «Ayrılığın sonu yoxmuş» kitabından 1754 nüsxə dost-tanışa paylamışdım. İndi o 500 nüsxəni mən hara çıxara bilərəm? Heç üzünü də görmədim. Mənim kitablarım həmişə 100-200 min tirajla çıxırdı…

Maddi durumum da bu məsələlərlə bağlıdır. Pul hər şeyi həll edir. Yazıçının, sənətkarın qayğısına qalmaq, onun problemləri ilə məşğul olmaq lazımdır. Maddi durum yaxşı olmayanda, sənətkar çalışır-çarpışır ki, ailəsini dolandırsın. Şəxsən mənim maddi durumum çox ağırdır. Heç kəsdən utanmıram, çəkinmirəm. Çünki bu mənim günahım deyil. Cəmiyyətin, zamanın günahıdır, qoy zəmanə utansın ki, öz sənətkarını yaşada bilmir. Mənə deyirlər ki, «sən xaricdə yaşasaydın, milyarder yazıçı olardın». Amma burada mən ehtiyac içində çırpınıram. Üç-dörd yerdə işləməyə məcburam, əsərlərimi yaza bilmirəm. Çünki vaxtım yoxdur, vaxtım olanda da fikirlər mənə imkan vermir. İndi prezidentimiz sənət adamlarına təqaüdlər kəsir, onlara yaşamaq üçün imkan yaradır. Düzdür, bütün sənətçiləri əhatə etmək çətindir, ancaq mən belə fikirləşirəm ki, sənət aləmində müəyyən əməyi olan və yaşı 60-dan keçmiş hər bir kəs təqaüdə layiq görülməlidir.

Mən elə yazıçılar, şairlər tanıyıram ki, ehtiyac onları intihara məcbur edib. Ürək ağrısı ilə deyirəm ki, mənim tələbə yoldaşlarım-

dan biri, şair Hüseyn Kürdoğlu bu yaxınlarda intihar etdi. Xəstəydi. Akademiyada işləyirdi, maaşı az idi, dava-dərmanı baha. Ehtiyac onu sürüklədi bu addımı atmağa. Halbuki bizim borcumuzdur həmin adamları qoruyaq. Amma təəssüflər olsun ki, biz bunu edə bilmədik. İstedadlı şair idi, 69 yaşında özünü öldürdü. Bax, sənət adamının indiki vəziyyəti belədir.

Hərdən mənə deyirlər ki, «sponsor tap, kitablarını çap etdir». Mən bu yaşda durub sponsor axtarmayacağam ki. Mən özüm indi cavanlara sponsorluq etməli, kitablarını nəşr etdirməliyəm.

Digər tərəfdən, sponsorlar da indi bilirlər ki, mədəniyyətə qoyulan pul batır. Onu fikirləşmirlər ki, bu mənəvi sərvətdir, bu gün xeyir verməsə də, sabah xeyri dəyəcək. Bu sponsor xəstəliyi o qədər genişlənib ki, bu yaxınlarda uşaqlardan birinə deyirəm ki, evlənsin. Deyir, «sponsor olsaydı, evlənərdim».

**«O dövrün ədəbiyyatı naqis ədəbiyyat idi»**

— Əlibala müəllim, ötən əsrin 60-70-ci illər ədəbiyyatı ilə bu günkü ədəbiyyatımız arasında hansı fərqlər var?

— Keçmişin ədəbiyyatı ilə indinin ədəbiyyatı arasında yerləgöy qədər fərq var. Keçmişin ədəbiyyatı çox inamlıydı. Mən ideya tərəfini kənara qoyuram. Yazıçı kitabını yazırdı, gətirib verirdi nəşriyyata. Nəşriyyatda Bədii Şuradan keçirdi, verirdi növbəyə. Onda çap problemi yox idi, indi var. İndi heç kəs, heç kəsin kitabını oxumur. Nə bədii şura var, nə «qlavlit» var, nə senzura var. Kitabın xeyirli, zərərli olub-olmaması aydınlaşdırılmır. Qaldı ki, ideya cəhətdən, biz Sovet hökumətinin dövründə yazıb-yaratmışıq. O dövrlərdə biz istədiyimizi yazmırdıq. Yazsaydıq da, «qlavlit» çıxarırdı. O dövrün ədəbiyyatı naqis ədəbiyyat idi. Çünki o ədəbiyyat insanı bir tərəfli göstərirdi. Deyirdi ki, Sovet adamının nöqsanı ola bilməz. Sovet adamıdırsa, iki arvad saxlaya bilməz. Halbuki o dövrdə üç-dörd arvad saxlayan kişilər vardı. Amma bunu yazıçı deyə bilərdimi? Yox, Sovet cəmiyyətində elə şeylər ola bilməz. Necə ola bilməz, var axı! Həqiqətdir. Ola bilməz ki, mən bunu görüm, amma deyə bilməyim? Mən hansısa həqiqəti «qlavlit»dən keçirmək üçün aylarla fikirləşirdim. Məsələn, mən o zamanlar deyə bilməzdim ki, neftimizi daşıyırlar. Soruşardılar məndən ki, kim daşıyır nefti? Mən məcbur idim, həmin hadisəni salırdım inqilabdan əvvələ. Daha deyə bilmirdim ki, ruslar

neftimizi aparır. Deyirdim ki, ingilislər neftimizi aparır. Belə hallar var idi. İndi belə şeylər yoxdur, nə istəyirsən yaz. İndi şairin, yazıçının əl-qolunu bağlayan heç nə yoxdur. Əgər mən «İtkin gəlin» əsərini yazanda, Azərbaycanda olsaydım, heç nə deyə bilməzdim. Mən o əsərdə deyirəm ki, «qəzet yalan yazır». O vaxtlar mən Azərbaycanda olsaydım, deyə bilərdimmi qəzet yalan yazır? Məndən soruşardılar ki, Sovet qəzeti yalan yazar? Və yaxud, orada yazmışam ki, Nəcməddin Dünyanı tapança ilə vurub öldürür. Məndən soruşardılar ki, Sovet adamında silah hardandı? Həmin adamın işini partiya iclasına qoyardılar. Deyərdilər ki, «Həyat yoldaşın sənə xəyanət edib, məhkəmə var, orqanlar var, müraciət elə». O vaxtlar mən, yenə deyirəm, Əfqanıstana getməsəydim, «İtkin gəlin»i istədiyim kimi yaza bilməzdim. Mən «İtkin gəlin» əsərində hər şeyi istədiyim kimi verə bilmişəm. Məhəbbəti, xəyanəti, dostluğu, nifrəti, peşmançılığı, əzab-əziyyəti — hər şeyi istədiyim kimi göstərə bilmişəm.

Bir də sizə bir söz deyim, bilmirəm «Vəfalım mənim» əsərini oxumusunuz, yoxsa yox. Orada Sakit Aranlı adlı bir yazıçı obrazı var. Onu həqiqəti yazan, realist bir yazıçı kimi vermişəm. Onun ətrafında olanlardan biri soruşur: «Müəllim, sən bu cür yazılar yazırsan, elə düşünürsən ki, bunları oxuyub, ibrət götürən olacaq?» Sakit Aranlı cavab verir — hə. Həmin adam «Axı indi kitab oxuyan yoxdur» söyləyir, yazıçı isə cavabında «Oxumayan oxumasın, oxuyan nə isə bir nəticə çıxaracaq» deyir. Yəni mən bu sözləri 10 il öncəni görərək demişəm. İndi də elədir. Kim nə istəyir yazır. Oxuyan oxuyur, oxumayan da özü bilər.

Mən on il öncəni görürəm. 10 ildən sonra Azərbaycanda 5-6 sənətkar, yaradıcı qalacaq. 10 ildən sonra mənim oxucularım cılızlaşmış kütləyə çevriləcək. Ədəbiyyatın vəziyyəti daha da pis olacaq. Bu da gələcək nəslin formalaşmasında əngəllər törədəcək. Biz keçən 10 ildə çox şeylər itirmişik, şəhidlərimiz qurban gedib, torpaqlarımız alınıb. Şəhidlərimizi geri qaytara bilmərik, amma torpaqlarımızı mütləq geri qaytaracağıq. Amma bir itkini geri qaytara bilməyəcəyik, o da bizim incəsənət adamlarıdır. Özümdən götürürəm: əvvəllər tez-tez əsərlər yazardım. Amma indi maddi imkansızlıq üzündən «Möcüzə» adlı romanımı 10 ildir yazıb qurtara bilmirəm. Çünki mühit imkan vermir. Mənim əl-qolumu kimsə bağlamır, sadəcə olaraq çəkdiyim çətinliklər mənə işləməyə mane olur.

**«Ömür qum saatı deyil ki, bir tərəfi dolan kimi, o biri tərəfə çevirəsən»**

— İndiki yazarlardan necə, razısınızmı?

— Yeni yazarlarımız yetişir, onların arasında istedadlı cavanlarımız çoxdur. Onlar sənəti başa düşərək, dərk edərək gəlirlər. Hamıya kömək edirəm. Biri üçün redaktorluq edirəm, birinə ön söz, rəy yazıram, birinin çapına kömək edirəm. İndi onların əlindən tutan, qayğısına qalan, kömək edən yoxdur. Bizim sabahımız təhlükədədir. Cavanların bir dəstəsi də var, onlar inkarçılıq yolunu tutublar. Mən onları bəyənmirəm. Onlar özlərindən böyük sənətkarları, Azərbaycan ədəbiyyatında müxtəlif izlər qoymuş adamları inkar edirlər. Mən bunu insafsızlıq hesab edirəm. O zaman səni inkar edərəm ki, səndən yaxşı yazım.

— Əsərlərinizi oxuyan oxucuda istər-istəməz fikir yaranır ki, bu insan özü kimdir? Necə həyat yolu keçib?

— Mən həmişə ədəbi tənqidin hüdudlarından kənarda qalmışam. Bunun bir günahı onların özündədirsə, bir günahı da məndə olub. Mən özümü gözə soxan adam deyiləm. Çağırılmayan yerdə görünməyi xoşlamıram…

Çox çətin həyat yolu keçmişəm. Yetim olmuşam. Anam Böyük Vətən Müharibəsi illərində vəfat edib. Atam müharibədən sonra dünyasını dəyişib. Yetimliyin bütün ağrı-acılarını dada-dada gəlmişəm bu yerə. İnan ki, Universitetin dördüncü kursunu bitirənə kimi qısa pencəklə keçirmişəm. Saatım olmayıb. Təqaüdün hesabına yaşamışam, oxumuşam. Bir insan kimi əzablı yol keçmişəm, amma mənalı yaşamışam, düşünə-düşünə yaşamışam. Çünki ömür qum saatı deyil ki, bir tərəfi dolan kimi o biri tərəfə çevirəsən. Özümü vicdanımın, Allahımın qarşısında təmiz adam hesab edirəm. Heç kəsi aldatmamışam, heç kəsin şöhrətinə əl atmamışam. Mənə pislik edən adamlar olub, baxmışam üzlərinə, demişəm Allah bilər. Onlar Allahın qəzəbinə düçar olublar. Onlar gediblər, mən hələ qalıram. Taleyimdən razıyam. Çünki mən dünya deyilən bu aləmin hər üzünü görmüşəm. Sən elə qəribə bir şey deyə bilməzsən ki, mən təəccüblənim. Mənim üçün hər şey adidir, eyni zamanda, maraqlıdır. Bu dünya oxunub qurtarılmaz bir kitabdır. Hərə özünə görə oxuyur bu kitabı.

— Əsərlərinizdə həmişə ilahi sevgi canlandırmısınız. Belə sevgi ilə həyatda üzləşmisinizmi?

— Həyatda elə sevgilər çox görmüşəm. İstər özümlə bağlı, istər dost-tanışların başına gələn belə hadisələrlə çox rastlaşmışam. Mən elə adam olmuşam ki, dərdli adamlar həmişə mənə yaxınlaşıblar. Və hər kəs — qadınlığından, kişiliyindən asılı olmayaraq, dərdini mənə danışıb. Məni sevənlər olub, mənim sevdiklərim olub. Deyirlər insan bir dəfə sevir, amma yalan sözdür. Hər yaşın özünün sevgisi var. İnsan sevgisiz yaşaya bilməz. Ən çirkin adamın özünün sevgisi olur. Bizim şairlərimizdən birinin bir şeri var, təxminən mənası belədir: «Sən məndən ayrıldın. Elə bildim hər şey qurtardı. Amma dünən gecə yuxuda dodaqlarından öpərkən ürəyimin telləri əsdi, sən demə ağlım səni unudubmuş, könlümün bu işdən xəbəri yox imiş». Yəni deməyim odur ki, insan sevdiyini unuda bilmir. Olur ki, hansısa hadisə onu məcbur edir unutmağa, insanın ağlı unudur. Amma qəlb unuda bilmir...

İndi də məhəbbət var, amma cılızlaşıb. Maddi çətinliklər gənclərimizə sevməyi yavaş-yavaş yadırğadır. İmkansızlıq insanların mənəviyyatına pis təsir göstərir. İndi cavanlarımıza baxıram, görürəm ki, bizim dövrün cavanları ilə indiki cavanlar arasında dağlar qədər fərq var. Bizim dövrün cavanlarında sevgi təmiz idi, bir-birini aldatmaq yox idi. İndi hamı bir-birini aldadır. Hamısı da ehtiyacdan irəli gəlir. Səməd Vurğun demişkən: «Ehtiyac qul edər qəhrəmanı da»…

*İradə Cəlilova*

## ƏLİBALA HACIZADƏNİN ÇIXIŞI

Əfqanıstan trilogiyasının rəğbətlə qarşılanması, ciddi marağa, mübahisəyə səbəb olması məni bir müəllif kimi sevindirməyə bilməz. Görüşlərdə verilən müxtəlif suallar, ünvanıma gələn saysız-hesabsız oxucu məktubları məni bir tərəfdən fərəhləndirirsə, digər tərəfdən də məsuliyyətimi artırır, bu müvəffəqiyyətin səbəbləri üzərində düşünməyə vadar edir. Zənnimcə, bu marağı bir neçə səbəblə izah etmək olar.

Deməliyəm ki, müasir intellektual oxucu hazırda çox ciddi sosial-ictimai təbəddülatlar keçirən Şərq xalqlarının həyatına, mübarizəsinə hədsiz maraq göstərir və bu da təbiidir: çünki Şərq həmişə bizim oxucular üçün tükənməz maraq obyekti olmuşdur. 1978-ci il Aprel inqilabından sonra yeni həyat qurmağa başlayan dost əfqan xalqının milli-azadlıq hərəkatının bədii əksini verməyə çalışdığım bu trilogiyaya oxucu marağının birinci səbəbi, məncə, bununla — mövzunun müasirliyi ilə bağlıdır.

Bu romanlar əsasən real həyat hadisələri əsasında yazılmışdır. Dörd il Əfqanıstanda yaşadığım müddətdə mən əfqan xalqının adət-ənənəsi, keçmişi, mədəniyyəti, ədəbiyyatı, milli-azadlıq uğrunda apardığı şərəfli mübarizə tarixi ilə, o zaman yenicə yaranmış ƏXDP-nin fəaliyyəti ilə yaxından tanış olandan sonra — o vaxta qədər mən əfqan mövzusunda «Od və pul», «Sümük», «Bir balaca», «Rentgen otağında ölüm», «Televizorun ölümü» və s. hekayələrimi yazmışdım — hiss elədim ki, zəngin təəssüratım və topladığım material iri həcmli əsər üzərində işləməyimə geniş imkan yaradır. Elə bu zaman — 1967-ci ilin əvvəllərində məni bu əsəri yazmağıma sövq edən qəribə bir təsadüf baş verdi: Kabil küçələrinin birindən keçərkən dörd yol ayrıcında bütün hərəkətin — maşınların, piyadaların dayandığını gördüm, maraqlandım. Səki ilə son dərəcə gözəl, milli paltarda, iri qara gözlərindən ətrafa nur səpələnən, boğazı qiymətli daş-qaşla bəzənmiş, məğrur addımlarla yeridikcə topuqlarındakı xalxalları musiqi çalan bir əfqan qızı gəlirdi. Sən demə, onun gəncliyi, gözəlliyi, məğrur yerişi imiş bütün hərəkəti saxlayan. O anlarda mənə elə gəldi ki, qadının bir əşya kimi alınıb-satıldığı bir cəmiyyətdə bu cür qənirsiz bir gözəl çətin xoşbəxt ola bilər: onu sevmədiyi, hətta görmədiyi bir adama sata bilərlər, onu oğurlaya bilərlər, aldada bilərlər, başına

min müsibət gələ bilər. Düşündüm ki, bu gözəl əfqan qızının bu misilsiz gözəlliyi altında maraqlı, qəmli və düşündürücü bir roman yatır. Kimliyini, nəçiliyini, xoşbəxtliyini, bədbədxtliyini bilmədiyim o qız ürəyimdə həmişəlik Əfsanə olaraq qaldı və təbii ki, romanlarımın sizə məlum qəhrəmanına çevrildi. İndi çox şadam ki, sədaqətli, ağıllı, xoşbəxt olmağa layiq Əfsanə bu kitabların səhifələrində uzaq Əfqanıstandan doğma Azərbaycanımıza gəlmiş, qızlarımızın, gəlinlərimizin yaxın həmdəminə, rəfiqəsinə çevrilmişdir. Oxucular elə «İtkin gəlin» kitabından Əfsanəni sevmiş, onu xoşbəxt görmək istəmişdilər: hələ üçüncü kitab — «Ayrılığın sonu yoxmuş» çap olunmamış, onlar mənə məktub yazaraq xahiş edirdilər ki, həyatda arzuları daşa toxunmuş Əfsanəni Elməddinlə qovuşdurum, xoşbəxt eləyim. Ancaq həyat bəzən ayrı-ayrı adamların istəyi ilə hesablaşmır və onun hökmünə hamımız əməl etməli oluruq.

Mən yazılarımda çalışıram ki, insanın zahirindən çox onun daxili aləmini, onun ürəyini görüm və təsvir edim: insan, dərisindən, dilindən, dinindən asılı olmayaraq, hər şeydən əvvəl insandır və yer üzünün insanlarını birləşdirən bir çox hisslər, düşüncələr eynidir — məhəbbət, sədaqət, nifrət, etibarsızlıq, xəyanət bu qəbildən olan mənəvi-əxlaqi məziyyətlərdir. Mən bu romanlarda öz qəhrəmanlarımın timsalında vətəni sevmək, xalqın xoşbəxtliyi uğrunda canından keçmək, dar ayaqda əqidəsindən, məsləkindən dönməmək, məhəbbətdə, sədaqətdə dəyanət kimi ümumbəşəri hissləri tərənnüm etməyə, harınlıq, əyyaşlıq, dönüklük, məsləksizlik kimi mənfi sifətləri qamçılamağa çalışmışam. Əsərin mövzusunun Əfqan həyatı ilə bağlı olmasına baxmayaraq, bir çox oxucular romanlarda təsvir olunan hadisələrə oxşar əhvalatların bizdə də baş verdiyin yazırlar; məsələn, Bakıdan N. adlı bir qız yazır ki, məni qonşuluğumuzda yaşayan iki qardaş bir-birindən xəbərsiz dəlicəsinə sevirdi: ikisi də ağıllı və yaxşı oğlanlardı. Mən çaşıb qalmışdım ki, onların hansına «hə» deyim. «İtkin gəlin»i oxuyandan sonra mən hər ikisinə rədd cavabı verməyi qərara aldım. Çünki başa düşdüm ki, hansına «hə» desəm də, mən o ocağın başında xoşbəxt ola bilməyəcəyəm. Məni gələcəkdə çəkə biləcəyim əzablardan xilas etdiyiniz üçün sizə təşəkkür edirəm. Yaxud ucqar dağ kəndindən bir oğlan danışırdı ki, «İtkin gəlin» romanınızda yazdığınız hadisə təxminən eyni şəkildə bizim kənddə də baş verib. Şəhərdən gələn böyük qardaş bilmədən kiçik qardaşın sevdiyi qızı alıb, kiçik qardaş isə eynən Elməddin kimi səsini çıxara bilməyib. İndi həmin kiçik qardaş sevdiyinin gözünün qabağında əriyə-əriyə ya-

şayır, hər gecə sizin kitabınızın hansı fəslinisə oxuyub ağlayır, sonra kitabı başının altına qoyub yatır.

Mən bunu bu romanlarda təsvir olunan hadisələrin həyatiliyi və tipikliyi ilə izah edə bilərəm. Madam ki, söhbət həyatilikdən, sənət əsərinin əsasını təşkil edən reallıqdan və inandırıcılıqdan gedir, yeri gəlmişkən bunu da deməliyəm ki, mənim bəzi qəhrəmanlarım indi də sağdır və Əfqanıstanda yeni həyat, yeni cəmiyyət qurmaqla məşğuldurlar: məsələn, Bəbir obrazının prototipi olan Bəbrək Karmənd — indi ƏXDP-nin baş katibi, İnqilab Şurasının sədri, əsərdə adlarını eynilə saxladığım Əbdülqədir xan Müdafiə naziri, Anahita xanım Ratebzad Maarif naziridir. Adlarını çəkdiyim bu adamlar Əfqanıstanda Aprel inqilabının fəal təşkilatçıları və iştirakçılarıdır.

… Yazıçı laboratoriyası dəmirçi kürəsinə bənzəməlidir: onda həmişə köz olmalıdır. Bu mənada mənim də laboratoriyam — kürəm boş deyildir. Trilogiyanı bitirəndən sonra oxucuların istəyini nəzərə alaraq, həmin əsərlər əsasında «İtkin gəlin» adlı bir pyes yazdım ıə həmin əsəri bu ayın 4-5-də C.Cabbarlı adına Kirovabad Dövlət Dram teatrı tamaşaya qoymuşdur. Əsərin rejissoru Azər.SSR Əməkdar incəsənət xadimi Yusif Bağırov, rəssamı Fuad Qafarovdur. Yeri gəlmişkən onu da deyim ki, oxucular bu trilogiyanı televiziya və kino ekranlarında da görmək istədiklərini bildirirlər. İndi söz kino və televiziya xadimlərimizindir. Hal-hazırda mən oxucularımıza tanış olan «Təyyarə kölgəsi» romanımın ikinci kitabı üzərində işləyirəm. Görüşlərdə, məktublarda oxucular əsərin əsas qəhrəmanlarından biri olan Gülmirənin, Orxanın və Əqdəmin ölümündən sonra, professor Salman Qurbanzadə kimi pambıqla baş kəsən, karyerist bir alimin döyüş meydanında tək qaldığından təəssüfləndiklərini bildirirdilər. Deməliyəm ki, bizim ağıllı, vətənpərvər, prinsipial bir ziyalı ordumuz yetişmişdir, onların ictimai həyatımızda tutduğu fəal həyat mövqeyi, işküzarlığı, yüksək mədəniyyəti məni həmişə maraqlandırmış və düşündürmüşdür. Elmimizin, mədəniyyətimizin, ədəbiyyatımızın — bir sözlə, müasir ictimai fikrimizin müxtəlif sahələrində çalışan, respublikamızın ümumittifaq və dünya miqyasında başını uca eləyən bu gözəl ziyalı ordumuzun içində, təəssüf ki, hələ də alaq otları, közü öz qabağına eşən, ikiüzlü, yaltaq və simasız adamlar var və bu, bizim hamımızın ürəyini ağrıtmaya bilməz. Mən «Təyyarə kölgəsi»nin ikinci kitabında Gülmirənin əlindən tutaraq bizim fikir dünyamızı bulandıran belə adamlara qarşı mübarizə aparmaq istəyirəm. Bu, hamımızın vətəndaşlıq borcudur.

## MƏSULİYYƏT VƏ... MƏHƏBBƏT

«Qələm əhli gərək heç vaxt məsuliyyət hissini itirməsin, vicdanının, qəlbinin əksinə getməsin, yalan yazmasın. İnsan özü qalmır, amma yaratdığı qalır. Yaxşısı da, pisi də... Gərək elə əməl sahibi olasan, elə əsər qoyub gedəsən ki, sağlığında özün, qohum-əqrəban, dostun-tanışın, öləndən sonra isə nəslin xəcalət çəkməsin!..»

Görkəmli yazıçımız Əlibala Hacızadənin «Təyyarə kölgəsi» romanının qəhrəmanı Nadirənin gündəliyindəki bu sözlər, şübhəsiz, müəllifin öz sözləridir, onun ədəbi mövqeyini, estetik kredosunu əks etdirir. Və bir müddət əvvəl əsərlərinin oncildliyinin ilk cildlərini vərəqləyərkən bu sözlərə rast gələndə, istər-istəməz düşündüm: Əlibala müəllim yarım əsrlik sənət yolunda yaradıcılığının erkən çağlarında bədii obrazın dili ilə irəli sürdüyü bu prinsiplərə sadiq qalmağı bacarıb, yalnız ürəyinin hökmü, qəlbinin «sifarişi» ilə yazıb, qələm və xalq qarşısında məsuliyyətini bir an da unutmayıb və indi, yaşının ixtiyar vaxtında, yetmişi haqladığı bir zamanda ona tükənməz sevgi bəsləyən milyonlarla oxucusunun qarşısında alnı açıq, üzü ağdır, əlli il bundan qabaq tam fərqli ictimai münasibətlərin, ədəbi meyarların hökm sürdüyü bir şəraitdə yazdığı əsərləri nöqtəsinə belə toxunmadan, «xəcalət çəkmədən» təzədən çap etdirə bilir. Bu isə bədii yaradıcılıqda istedadla şəxsiyyətin vəhdətinin zəruriliyi məsələsini bir daha təsdiq edir. Əlibala müəllimin yaradıcılığı ilə şəxsiyyəti arasında qəribə bir uyğunluq var, onun əsərləri özünə yaman oxşayır – belə bir harmoniyaya nail olmaq isə hər sənətkara nəsib olan xoşbəxtlik deyil. Odur ki, onun yaradıcılığından danışmaq elə özündən danışmaq deməkdir.

Ən əvvəl onu deyim ki, Əlibala Hacızadə bizim ədəbi tənqiddə və ədəbiyyatşünaslıqda həqiqi qiymətini almamış bir yazıçıdır. Mən (deyəsən, elə Əlibala müəllimin özü də) buna hardasa təbii baxıram, çünki o, bədii yaradıcılıqda ideoloji-siyasi prinsiplərə deyil, sırf ədəbi-estetik və mənəvi prinsiplərə əsaslanan bir sənətkardır və onun sovet dövründəki «rəsmi» tənqidin diqqətindən kənarda qalmasında qəribə heç nə yoxdur. Amma yazıçıya qarşı bu nümayişkaranə biganəlik tam qanunauyğun şəkildə geniş oxucu kütləsinin sonsuz məhəbbəti ilə kompensasiya olunurdu – o vaxtlar Əlibala müəllim bizim ən çox oxunan və ən çox çap olunan yazıçımız idi. Maraqlıdır, ədəbiyyatda xəlqilikdən ağız dolusu danışanlar hətta bu fakta da göz yu-

murdular. Görünür, onlar üçün xəlqilik partiyalılığın yalnız dekorasiyası idi, ona görə də funksioner tənqidçilər xəlqiliyi yaradıcılığının ruhunda, mayasında gəzdirən yazıçıya «ədəbiyyatımızın ögey balası» (ifadə Əlibala Hacızadəyə məxsusdur) kimi baxırdılar.

Mən tam cəsarətlə deyə bilərəm ki, Əlibala Hacızadə ədəbiyyatımızda ötən əsrin 60-cı illərindən özünü aydın şəkildə göstərən bütöv bir təmayülün yaradıcısıdır. Bu təmayülün mahiyyətini və spesifik cəhətlərini anlamaqdan ötrü onu təkcə bizim ədəbiyyatşünaslığın əsaslandığı rus-Avropa estetikası baxımından deyil, həm də (və daha çox) milli mədəniyyətimiz üçün tarixən təbii olan Şərq kontekstində incələmək lazımdır. Bu özünəməxsusluqda bir tərəfdən Əlibala müəllimin ixtisasca şərqşünas olması, Şərq ədəbiyyatına dərindən bələdliyi, digər tərəfdən də onun, ümumiyyətlə, şərqli təbiəti və təfəkkür tərzi az rol oynamamışdır. Və həmin təmayülün yaradıcısı olaraq, Əlibala Hacızadə ədəbiyyatımıza bir sıra yeni mövzular gətirib, üstəlik öz intuisiyası, yazıçı duyumu ilə uzaqgörənliyini təsbit edib. Bunlardan ən başlıcası məşhur «İtkin gəlin» trilogiyası ilə təmsil olunan əfqan mövzusudur. Əfqanıstan adlı ölkənin bizə çox uzaq göründüyü bir zamanda meydana çıxan bu əsər həmin ölkəyə sovet hərbi müdaxiləsindən və Azərbaycanda «əfqanlar» peyda olandan sonra daha böyük populyarlıq qazandı. Bu trilogiyada Əfqanıstan gerçəkliyi, əfqanların milli mentaliteti rasional düşüncəyə əsaslanan politoloji araşdırmalardan daha dəqiq və daha canlı inikasını tapmışdır. Və indi Əfqanıstan məsələsinin beynəlxalq bir problemə çevrildiyi şəraitdə trilogiyanın daha da aktual səsləndiyini sübut etməyə ehtiyac yoxdur. Trilogiyanın janr və poetikası isə özünəməxsusluğunu başqa bir planda nümayiş etdirdi – ilk Azərbaycan seriallarından biri mərhum Lütfi Məmmədbəyov tərəfindən məhz «İtkin gəlin» əsasında çəkildi.

Əlibala Hacızadənin ədəbiyyatımıza gətirdiyi digər bir mövzu elmi mühitin təsviridir. O, «Təyyarə kölgəsi», «Vəfalım mənim» romanları ilə elm adamlarının bir növ qapalı olan həyatını geniş oxucu kütləsinə çatdırdı. Böyük maraqla qarşılanan bu əsərlər həm də digər yazıçılar üçün örnək rolunu oynadı və bu sahədə sözün həqiqi mənasında Əlibala müəllimin davamçıları meydana gəldi.

1980-ci illərin ikinci yarısında – bütün ölkədə ekstrasensorikaya, paranormal hadisələrə, insan psixikasının sirlərinə marağın gücləndiyi bir şəraitdə Əlibala müəllim «Möcüzə» romanını oxucuların ixtiyarına verdi. Lakin bu əsər həm də o dövrdə baş verən mürək-

kəb ictimai proseslərə özünəməxsus bir baxışı əks etdirirdi. Ümumiyyətlə, Əlibala Hacızadənin ictimai gerçəkliyə münasibəti bütün yaradcılığı boyu spesifik çalarlara malik olmuşdur və bu, ayrıca tədqiq olunası bir mövzudur. Yaxşı yadımdadır, Qarabağ hadisələrinin yenicə başlandığı, emosiyaların coşduğu, pafoslu nitqlərin baş alıb getdiyi vaxt Əlibala müəllim sakit, kövrək bir yazı yazmışdı – «Mənim bülbül Qarabağım». Bu, adi məqalə deyildi, Əlibala müəllim sanki yüksək tribunalardan verilən bütün vədlərə rəğmən Qarabağın itiriləcəyini əvvəlcədən duyub ona ağı demişdi. Bu yazı həm də dilimizin bütün rənglərini, şəhd-şəkərini ehtiva etmək baxımından diqqəti çəkirdi. Ümumiyyətlə, Əlibala müəllimin bir çox yazılarında şeirlə nəsrin hüdudları itir – bu da onun yüksək poetik istedadının təzahürüdür. Əlibala müəllim həm də gözəl şairdir, nəğmələri dillər əzbəridir – bunu hamı bilir. Lakin mən bir müşahidəmi də qeyd etməyə bilmərəm: son 20-25 ildə poeziyamızda üstün mövqeyə çıxmış ovqat, forma və ifadə tərzi Əlibala müəllimin şeirlərində lap əvvəldən özünü göstərmişdir.

Əlibala Hacızadə təkcə qüdrətli nasir və şair deyil, həm də Füzulinin təbirincə desək, «iki aləmi» – sənət və elm aləmini «müsəxxər eyləmiş» (tutmuş) bir şəxsiyyətdir. Onun XX əsr İran poeziyasının məşhur nümayəndələrindən olan Fərruxi Yəzdiyə həsr olunmuş monoqrafiyası dünya şərqşünaslığında bu böyük şairin həyat və yaradıcılığı haqqında ilk geniş tədqiqatdır. Bundan başqa o, müasir İran romanının tipologiyasına dair fundamental elmi araşdırmanın müəllifidir. Əlibala müəllim həmçinin bir sıra orta əsr mənbələrini dilimizə tərcümə etmişdir.

Əlbəttə, bütün bu ədəbi və elmi uğurların bünövrəsində Əlibala müəllimin bənzərsiz şəxsiyyəti dayanır. Və mən təqribən iyirmi il ərzində onunla az qala hər gün təmasda olan bir insan kimi onun xarakterinin bəzi parlaq cəhətlərini qeyd etməyə bilmərəm. Bunlardan birincisi, Əlibala müəllimin sadəliyi və iddiasızlığıdır. O, ömrü boyu şöhrət və ad-san dalınca qaçmayıb, sadəcə şöhrət özü gəlib onu tapıb. Mənim xüsusi dəyərləndirdiyim ikinci cəhət bizim milli mentalitetimizin az qala ayrılmaz tərkib hissəsinə çevrilmiş paxıllıq hissinin Əlibala müəllimə tamamilə yad olmasıdır. O, istər ədəbiyyatda, istərsə də elmdə heç kəsin uğuruna qısqanclıqla yanaşmayıb, əksinə, hər kəsin, illah da gənclərin nailiyyətlərinə ürəkdən sevinib, hamıya kömək etməyə çalışıb. Nəhayət, üçüncüsü, Əlibala müəllimin səmimiyyətidir. O müxtəlif xarakterli insanlarla dostluq etməyi bacarır,

həmsöhbəti ilə özü arasında «baryer» yaranmasına imkan vermir, bunun da nəticəsində insanlar dərdlərini ona danışmaqdan, ən məhrəm duyğularını onunla bölüşməkdən çəkinmirlər. Onun bütün bu keyfiyyətlərinin kökündə isə bir amil dayanır – məhəbbət! Əlibala müəllimin varlığı sanki məhəbbətdən yoğrulub – ata-anaya, övlada, qadına, dosta, xalqa, vətənə, insanlığa məhəbbətdən! Əslində hansı mövzuda olursa-olsun, onun əsərlərinin də mayasında məhəbbət dayanır. Bu əsərlərin məhəbbətlə qarşılanmasının əsas səbəbi də elə budur. Və mən əminəm ki, həmin məhəbbət Əlibala Hacızadə yaradıcılığının həmişəyaşarlığını təmin edəcəkdir. Necə ki, özü də bir şeirində deyir:

*Ölməzlik – məhəbbət zirvəsindədi,*
*Məhəbbət – əbədi ömür deməkdi!*

**Məsiağa Məhəmmədi**
*(«525-ci qəzet», 9 avqust 2005-ci il, №150)*

# ƏLİBALA HACIZADƏNİN ŞERLƏRİ
# ÖMRÜN DAYANACAQLARI

Əlibala Hacızadənin şeirləri prozası kimi diqqət mərkəzində olmayıb, bəlkə belə deyək: müəllifsiz oxunub, əslində onun uzun illər ərzində yazdığı şerləri müəllifsiz şeirlər də adlandıra bilərik, yalnız bir qeyd-şərtlə – bunu deyərkən, türk mədəniyyətinin, bədii təfəkkür tipinin daha çox şifahiliyə meylliyini, bu lad üstündə özünü çox rahat hiss elədiyini nəzərə almaqla. Əlibala Hacızadənin şeirləri prozası kimi diqqət mərkəzində olmasa da oxunub, nəğmə kimi, türkü kimi, şərqi kimi və s., yaxud aşiq cavanların bir-birlərinə ünvanladığı məktublarda tumurcuqlanan qeyri-adi hislər kimi. Bunu xüsusi olaraq vurğulamaq lazımdır, nəyə görə? – hər şeydən qabaq burada «janr yaddaşı» ilə əlaqədar bir ayrıntını görükdürmək gərəkdir: sevgi məktublarıyla yollanan şeirlərin müəllifi bir qayda olaraq «gizlədilirdi», şeir hökmən müəllifsiz olmalıydı ki, aşiq olanın hiss və duyğularını mənzilinə maneəsiz çatdıra bilsin.

Azərbaycan şerində bu qat belə demək olarsa, hələ əl dəyilməmiş durur, bu ərazini hələ bir o qədər də şumlamayıblar, «xam külçədən» götürmək çox adamın ağlına gəlmədiyi bir zamanda Əlibala müəllim ürəyə köynək qədər yaxın olan hissləri şerin dilinə çevirir, şeir yazmır, bəlkə də hava, havacatla gələn duyğuları öz qəlibinə salıb geri göndərir, üstündə adını yazmağa da macal tapmır. Bu mənada onun keçən əsrin ortalarında yazdığı şeirlərlə bu gün qələmə aldıqları arasında zaman məsafəsi də hiss olunmur, səbəb bizim fikrimizcə odur ki, bu tipli şeirlərdə zaman bir an kimidir, hansı vaxtda, əyyamda dilləndirsən geri qayıtmaq istəyəcək, itirdiyi yuvasını axtaracaq. Bu şeirlərin poetikası elədir ki, ZAMAN həmişə, hər yerdə bir an kimi durdurulur, üfiqi mövqedən, perspektivdən şaquli istiqamətə dönür, dünyadakı bütün nəsnələri bir məcraya yığıb bir istiqamətə yönəldir. Zamanla bu şəkildə rəftar edilməsi xalq şeri üslubunun ümumi və həm də təyinedici komponenti sayılır.

Böyük-böyük romanların, cildlərin müəllifi olan Ə.Hacızadənin şeirləri qısa və lakonikdir, Əlibala müəllimin şerində «süjet» yoxdur, əksər hallarda son dərəcə güclü bir hissin, illər boyu ürəkdə, yaddaşda gəzdirilən bir duyğunun çatdırılması formasıdır, bütün misralar və bəndlər həmin o güclü hissin və duyğunun başına dolanır,

əslində bu şeirlər hardasa bir poetik deyimə, ifadə daxilinə sığışa bilən şeirlərdir.

Bilməm nədən belə doğmasan mənə,
Bir belə qohumun, yadın içində.
Tək sənin adını yazmışam, gülüm,
Qəlbimə min gözəl adın içində.

Eşqinlə inləyən bir bülbül oldum,
Sənə nəğmə oldum, qızıl gül oldum.
Sən məni yandırdın, dönüb kül oldum,
Mən səni qoymazdım odun içində.

Bu şeirlərin müəyyən qisminin povest və romanların səhifələrinə «dağılması» da təsadüfi deyildir, bu tipli deyim və poetik ifadələr həmişə, - nə yazmağından asılı olmayaraq çıxıb, daşdanıb ifadə olunmağa macal gəzib, özü-öz içində ələnib, maksimum qısa danışmağa, maksimum gücünü sərf eləyib «söz işlətməməyə» meylli olub.

Bu şerlər dərd-kədərlə nə qədər yüklü olsa da, oxunan kimi insana təsəlli verir, gözləmədiyi halda onun qulağına nəsə pıçıldayır, sovet dövründə növbə ilə oxunan romanların da, elə bu şeirlərin də oxucuya, insana bədii təsir qəlibi eynidir, ələ alan kimi nə oxuduğunu unudursan. Bu məqamda bir cəhətə diqqət yetirmək lüzumu yaranır: Əlibala Hacızadənin şeirlərini müasir poeziya nümunələri ilə müqayisə etdikdə açıq-aşkar bir fərqin olduğunu müşahidə edirsən. Müasir poeziyada, xüsusən də cavanların şerlərində şeir daha çox fikir, düşüncə qəliblərinin – daha dəqiqi formullarının üstündə qurulur. Burada əsas diqqət poetik obrazın əzəmətinə, gözqamaşdırıcı olmasına, kosmik ölçülərə malik olmasına verilir. Hiss, həyəcan… fikir və yenə də fikir. Məntiqi şəkildə mühakimə yürütməli olsaq, şerin içinə qoyulan fikir «qurtaran» kimi, başqa sözlə deməli olsaq, köhnələn kimi şeir də unudulur, köhnəlir, bir az da oxunan kimi surroqata çevrilir. Klassik şeirdə KÖNLÜNƏ müraciət edən, üz tutan aşiq belə deyək, müəyyən mətləbi istədiyi yanğıyla ifadə etmək üçün dağa-daşa düşməyib, nəyisə nəyləsə toqquşdurmayıb, özünə min verstlikdən baxmayıb, həmişə düşünüb ki:

İkimiz bir köynəkdə,
Yaxası dar olaydı.

Və belə olduğuna görə də ən gözəl bənzətmə kimi öz halını, düşdüyü vəziyyəti izhar etməyə çalışıb. Bu mənada YENİ şeirlə müqayisədə bu tipli şeirlərin ən ümdə üstünlüyü onların birbaşa, maneəsiz oxunması, müəllifindən «qaçmasıdır».

Əlibala müəllim kitab yazıçısı, kitab şairi deyil, belə deyək – qəribə çıxmasın – nəfəs adamıdır, onun mətnində mühakimə yürütmək, dərs keçmək... yoxdu, deyilən, nəfəsə gələn hər şey... özü pıçıldayır, sübut edir ki, yaşanıb, odlardan keçib, min il tənha yaşayıb, qayıdıb və indi özünü sözə çevirib. Əlibala müəllimin şerləri (bir kitaba yığılan şeirləri) ovqatla, ovqatın gücünə yox, ömrün dayanacaqlarında yazılan mətnlərdir. Başqa sözlə deyilərsə, bunların hamısı əslində bircə türküdür, ürəyində səslənən gözəl, həm də ürək yandıran mahnının hələ tamamlanmamış sözləridir.

Əlibala müəllim həm də tam açıqlanmayan, özü üçün də tam açılmayan bir söz adamıdır, onun yazıçı müşahidəsində, həyatı qəribə bir tərzdə seyr etməsində orijinal məqamlar, qəribə cəhətlər, sözə, təsvirə gəlməyən xüsusiyyətlər mövcuddur. Belə də olur, bəzən insan hər an ürəyində gəzdirdiyi, dolandırdığı, taleyi bildiyi şeylərdən vaz keçib, hər ağac başında bir təzə yuva tikməyi xoşlayır, başını qatır, ömrü boyu yazmaq istədiyi şey böyüyür, dərd kimi ürəyi şişirdir, vədəsini ötürür, yazılmaq məqamından da o yana keçir. Əlibala müəllimin nəsrlə yazmaq istədiyi ağrılı şeylər onun bənövşə ətirli şeirlərində daha qabarıq hiss edilir.

Ə.Hacızadənin şerlərində ehtiva olunan bədii təfəkkürün xasiyyəti elədir ki, bir anlığa hər şeyi öz içinə alaraq, özünəməxsus bölgü aparır, hər bir əşyanı, hər bir nəsnəni, özününküləşdirdikdən, öz nəfəsi ilə qızdırdıqdan sonra şerə çəkir və belə olduğu üçündür ki, burada müəyyən bir ovqatın ifadəsi nəyinsə, belə deyək, hansısa ideoloji, siyasi, ictimai havanın «ön sözünə» çevrilmir, hiss hissə, duyğu duyğuya, düşüncə düşüncəyə qatılaraq boy göstərir, rəng rəngin içinə girərək təmiz, bakirə hisslərin göyqurşağını yaradır, ifadə edilən duyğu o qədər fərdi xarakteri daşıyır ki, şeri oxuyan hər kəs onu özününküləşdirmək istəyir.

Fikir verin:

Ölüm bu dünyanın o üzündədi,
Bu üzü dünyanın güldü, çiçəkdi.
Ölməzlik məhəbbət zirvəsindədi,
Məhəbbət – əbədi ömür deməkdir.

Hicranın yolları bitməz, tükənməz,
Vüsal yollarına qar ələnibdi.
Ömrünü eşqinə qurban verən kəs,
Xəyanət əlilə güllələnibdi.

Sızlama ürəyim, sən dözümlü ol,
Dünya gah acıdı, gah da şirindi.
Bir gözünlə ağla, bir gözünlə gül,
Dünya, əzabına dözənlərindi.

Bu şer kiməsə köhnə dəbli, lap sərt şəkildə deyilərsə, möhür bəndi, necə bitməsi etibarilə primitiv görünə bilər, yəni doğrudan da, nə qədr demək olar: dünya gah şirindi, gah da acıdı, dünya əzabına dözənlərindi. Amma hər halda, yuxarıda dediyim mülahizəni bir də təkrarlamaq istərdim:bu şerdə heç olmazsa dediyinə möhkəm şəkildə, lap öz ölümünə inanırmış kimi inanan bir insanın səsi var. Müəllifin yuxarıda xatırlatdığımız üslub xüsusiyyəti – şerdə hər şeyi – gerçəkliyi bir nəfəslə, bir cəhdlə tam şəkildə çevrələyib «bölgü» işi aparmaq şerin ilk misralarından başlayır: ölüm bu dünyanın o üzündədi, bu üzü dünyanın güldü, çiçəkdi...Məhz belə olduğu üçündür ki, haçansa yazılan şerin içinə illər boyu yığılan bədii informasiya, bədii enerji vaxt gəlir, məqam yetişir ki, proqnozlar seriyasına çevrilir, ümumən, bizim qəti inamımıza görə, bədii mətnin içindəki informasiya laylarının sonradan həyat, gerçəklik hadisələri ilə təmasa girməsi çox təbii bir hadisədir. Bu mənada «Allah, hayana gedim» şeri çox səciyyəvidir.

Bu, dünyam, yolum hanı?
Bu, bağım, gülüm hanı?
Bu, qəbrim, ölüm hanı?
Allah, hayana gedim?

Çağır məni, pənahım!
Söylə, nədir günahım?
Yandırmır səni ahım?
Allah, hayana gedim?

Dözməyə səbrimiz yox,
Ölməyə qəbrimiz yox.

Getməyə yerimiz yox,
Allah, hayana gedim?

Bu şer dünyanı olduğu kimi yox, olmadığı, gözə görünmədiyi kimi qavramağın ən gözəl nümunəsidir.

Əlibala Hacızadənin şeirləri prozası kimi diqqət mərkəzində olmayıb, bəlkə belə deyək: müəllifsiz oxunub, əslində onun uzun illər ərzində yazdığı şerləri müəllifsiz şeirlər də adlandıra bilərik, yalnız bir qeyd-şərtlə – bunu deyərkən, türk mədəniyyətinin, bədii təfəkkür tipinin daha çox şifahiliyə meylliyini, bu lad üstündə özünü çox rahat hiss elədiyini nəzərə almaqla. Əlibala Hacızadənin şerləri prozası kimi diqqət mərkəzində olmasa da, oxunub, nəğmə kimi, türkü kimi, şərqi kimi və s., yaxud aşiq cavanların bir-birlərinə ünvanladığı məktublarda tumurcuqlanan qeyri-adi hislər kimi. Bunu xüsusi olaraq vurğulamaq lazımdır, nəyə görə? – hər şeydən qabaq burada «janr yaddaşı» ilə əlaqədar bir ayrıntını görükdürmək gərəkdir: sevgi məktublarıyla yollanan şeirlərin müəllifi bir qayda olaraq «gizlədilirdi», şeir hökmən müəllifsiz olmalıydı ki, aşiq olanın hiss və duyğularını mənzilinə maneəsiz çatdıra bilsin.

*Cavanşir Yusifli*

## "AYRILIĞIN SONU ...VARMIŞ"

Yaşımın məhəbbət romanları oxumağa çatmadığı zamanlardan oğrun-oğrun onun trilogiyalarını, povestlərini oxuyub, hər səhifəni acgözlüklə çevirəndə hərdən özüm də çaşırdım, deyirdim, bəlkə mən də aşiq olmuşam, ona görə sevgi romanlarına belə həsrət, belə təşnəyəm. Əslində isə yalan olmasın 2-3 günə bitirdiyim bu kitabların özünə aşiq olmuşdum sən demə. Bəlkə də başqa səbəblər var, kim bilir…Yeniyetməlik elə dövrdür ki…Amma bunu dəqiq bilirəm ki, bir vaxtlar heç ağlıma da gəlməzdi ki, adı çılğın məktəb illərindən mənim və sinif yoldaşlarımın dillər əzbərinə çevrilmiş Əlibala Hacızadə ilə artıq müsahib və həm də bir ədəbi dost olaraq görüşəcəm. Hələlik isə qarşıdan tələbəlik illəri gəlirdi. Əslində mənə klassik şərq ədəbiyyatından dərs deyəcək müəllimi ilk dərsdən heç tanımırdım da. Yalnız özünü təqdim edəndən sonra onun həmin məşhur yazıçı olduğunu bilib həm fərəhləndim, həm də bir qədər qürrələndim. Bu da gənclik marağı və sevdası idi. Onu da deyim ki, BDU-nun filologiya fakültəsinin 906-cı qrup tələbələri onu çox mülayim və həlim bir insan kimi tanıdı. Yox, yanılmamışdım, o romanları ancaq belə bir qəlbin sahibi yaza bilər, o sevdaya bu qərib aşiq düşə bilərdi. Dünən o, mənim üçün sadəcə bir yazıçı, bu gün tələbəni yola verən müəllim, indi isə kifayət qədər ciddi və düşündürən müsahib idi. Mənim üçün hər üç ampluada Əlibala Hacızadə maraqlı obyektdir. Amma sonuncu mərhələdəartıq oxucu və tələbə kimi yox, jurnalist və həm də filoloq kimi Əlibala Hacızadəni özlüyümdə kəşf etdim. Elə bu kəşfimdən yazacam… Səsinin məhdud dairədən eşidildiyi, "kitablarının kitabının bağlandığı" Əlibala Hacızadədən. Bir vaxtlar bəlkə də fərqinə varmazdı ki, ədəbiyyatın əbədi mövzusu olan tənhalıq, özü də ədəbi tənhalıq onun özünün nəsibi olacaq.

*"Biganəlik, laqeydlik insanları ayırır. Cəmiyyət isə artıq əfsanələrə inanmır. Çünki cəmiyyəti ayaqlar altına alıb rəhmsizcəsinə tapdayıb keçən yalanlar baş alıb gedir, ayaq tutub yeriyir. Yalan cəmiyyəti çürüdür. Hamı bir-birini aldadır. Yalan üzərində qurulan cəmiyyət isə çox miskin görünür. Allah qorxusundan yalan danışmaq olmur, bəndənin qorxusundan isə doğru…"*

Görüşümüzdə də çox duyğulu idi romanlarındakı kimi…Və həm də pessimist. Qolu-qanadı sınmış bir quşa bənzətdim onu. Azadlığından əsər-əlamət qalmamışdı. Təfəkküründə, məntiqində yox, sadəcə qabiliyyəti ilə imkanları tərs mütənasib idi. İçindəki bir dünya sözünü deməyə, daha doğrusu, çap etdirməyə imkanı yox idi. Onu bir az bu qayğılardan uzaqlaşdırıb küskün qəlbini ötənlərin xatirələri ilə toxdatmaq istədim. Himə bənd imiş kimi başladı, nə başladı. Azadlıq arzularından, itkin gəlinindən, utopiyasından, ədəbi üsullarından…

*"16 ilə yazdığım bu triologiyadakı bütün hadisələr Əfqanıstanda cərəyan edir. Əsəri isə 1966-cı ildə yazmağa başlamışdım. Tətillər, siyasi mübarizələr, çaxnaşmalar, inqilabi hərəkat və s. Amma heç kəs də soruşmadı ki, ay Əlibala müəllim, o illərdə Əfqanıstanda ictimai-siyasi durum heç də sizin yazdığınız kimi gərgin olmayıb axı?! Əfqanıstan mənim tale yazım idi. O əsərlərimdə isə ürəyimi istədiyim kimi boşaltmışam. Yəni Sovet senzurasının qılıncının dalının da, qabağının da kəsdiyi bir vaxtda içimdəkiləri deyə bilməzdim. Bu mənada ədəbi priyomdan istifadə edərək arzularımı Əfqanıstan müstəvisinə gətirdim. Məsələn, kitabın bir yerində yazıram: "Qəzet yalan danışır." Sovet cəmiyyətində belə yazmaq mümkünsüz idi. Və ya "Ağayi Nəcməddin ona xəyanət edən Dünyanı güllələyir."O illərin ideoloji mühitində sovet adamında tapança hardan idi. Onun məsələsini partiya iclaslarına çıxarar, onu sürgün edərdilər. Bu əsərdə həyatdan gələn real obrazlar çox azdır. Nümayişlər, tətil dalğası, azadlıq hərəkatı-bunlar mənim arzum idi. Xalq haqqı naminə ayağa qalxsın, tiranları, qaniçən sistemi dağıtsın. Çox-çox sonralar bu arzum Azərbaycanda gerçəkləşdi. Budur, ədəbi üsul, arzuların ünvanı…İndi yazmağın nə faydası?!»*

Kövrəlir, dərhal da özünü ələ alır. Məni isə bir oxucu kimi, xüsusən də Sovet məktəbinin şinelindən çıxmış bir oxucu olaraq düşündürən başqa məqamlar var: 20-ci əsrin fonu qırmızı idi və bu qırmızı xətt ədəbiyyatda da ana xətt kimi keçirdi. Bu əsrin ədəbi mühitində isə bir bozluğun fərqindəydim.

*"Mən qırmızı xəttin hər iki üzünü görmüşəm. O üzündə bir mizan-tərəzi, ədalət və həm də hər kəsin öz yeri var idi. Daha doğrusu, hər kəs öz yerində idi. Bu üzünə keçəndə isə mizan-tərəzi pozulur. Qələm sahibləri, yazıçı, şairlər cəmiyyətin ən aparıcı nümayəndələridir.*

*Əgər onlar da ədalətsizlik edirsə, deməli, dünyanın axırıdır.”*

Yaxşı ki, işıq ucu görünür. Biz isə “Cırtdan” nağılındakı kimi işıq gələn tərəfə gedirik. Hərçənd nə mən, nə də ki, qəhrəmanım nağıllara, əfsanələrə , heç möcüzəyə də inanmır. Baxmayaraq ki, son romanlarının birini “Möcüzə” adlandırıb. O isə ədəbiyyatın əbədi mövzusu olan tənhalığa üz tutub. Daha doğrusu, tənhalıq onu tapıb. Bizə bir şer də söylədi :

*Qədrimi bilmədin, ay qədirbilməz,*
*Sən ömrün boyunca tək qalacaqsan.*
*Sındırdın könlümü, qapına gəlməz,*
*Sən ömrün boyunca tək qalacaqsan.*

* * *

*Səadət qonmuşdu başına sənin,*
*Çünki mən çıxmışdım qarşına sənin.*
*Dilin zəhər qatdı aşına sənin,*
*Sən ömrün boyunca tək qalacaqsan.*

* * *

*Naz-nemət içində bəsləsələr də,*
*Zər-ziba içində süstləsələr də,*
*Yanında olsa da nəvə də, ər də,*
*Sən ömrün boyunca tək qalacaqsan.*

* * *

*Göz yaşın yuyacaq yanaqlarını,*
*Amma yuya bilməz günahlarını,*
*Tanrı da eşitməz o ahlarını,*
*Sən ömrün boyunca tək qalacaqsan.*

*Pərişan, peşiman baxıb yollara,*
*Sən nə göz yaşı tök, nə geyin qara.*
*Məni diri-diri kömdün məzara,*
*Sən ömrün boyunca tək qalacaqsan.*

Bir də borclarından danışdı. Dedi ki, bir dəfə Nizami adına Ədəbiyyat Muzeyində mənimlə görüş var idi. Görüşün sonunda foyedə mənə bir xanım yaxınlaşaraq utana-utana, "Əlibala müəllim, siz mənə iki qazan borclusunuz"-dedi. Çox baxdım, tanımadım. Üzü də mənə tanış gəlmirdi. Görəndə ki, mən onun sözlərini ciddi qəbul edirəm, əlavə etdi ki, o vaxt sizin kitablarınız başımı elə qatıb ki, yemək qarışıq qazanlarımı da yandırmışam. Əslində burda bir həqiqət var idi. Yazıçı elə yazmalıdır ki, oxucunu aludə edə bilsin. O, bunu bacarıb və bacarır da…Sonda bir məsəl də çəkdi:

*"Qocalara, uşaqlara və kitablara hörmət qalmayan cəmiyyətdə yaşamaq çətindir. Qocalar keçmişimiz, uşaqlar gələcəyimiz, kitablar isə keçmişlə gələcək arasında əlaqə yaratmaq üçün bir vasitə, körpüdür"*

Bu sözləri təhlil edərək düşünürdüm ki, bu gün cəmiyyətimizdə tarazlıq necədir, hörmət qalıb, ya yox. Efir söhbətimizdən sonra bir telefon zəngi dilemma qarşısında fikirlərimə nöqtə qoydu. Zəng vuran şəxs rayonların birinin icra başçısı idi ( özü ilə razılaşdırmadığından adını yazmıram ). Əlibala müəllimin kitablarının çapına kömək etmək niyyətini açıqlayıb məndən onun koordinatlarını istədi. Ürəyim rahatlandı, ona görə ki, yeni, sanballı romanlardan oxucu məhrum olmayacaq və həm də ona görə ki, qarışıq fikirlərimə bir aydınlıq gəlmişdi : Deməli, cəmiyyətdə hələ az da olsa kitablara hörmət qalıb.

**P.S.** Bu materialı yazarkən eşitdim ki, daha bir kitab aşiqi Əlibala Hacızadənin əsərlərinin küliyyatını nəşr etdirib. Axarıncı olsun !

*Esmira Çərkəzqızı*

## MƏNİM BÜLBÜL QARABAĞIM

Sənin sehrkar bağrının başından qopan ölməz oğullarının — böyük Üzeyirin möcüzəli musiqisi, Cabbarın, Seyidin, Xanın ürəkləri titrədən şaqraq səsi, Natəvanın həzin, kövrək, könüllər oxşayan poeziyası ilə tək Azərbaycanımızın, İttifaqımızın deyil, bəlkə də bütün Şərqin və Qərbin tələbkar sənətsevərlərinin marağını çəkən gözəl, şairanə adın, çox təəssüflər ki, bu günlər nigaran, qayğılı dünyamızın əksər xalqlarının dilində qəlb ağrıdan bir həyəcanla səslənir, mənim bülbül Qarabağım! Səndən uzaqlarda, yer kürəsinin müxtəlif guşələrində səs-söz sənətimizin qaranquşlarının haray çəkib ərşə ucaltdıqları məşhur «Qarabağ şikəstəsi»nin ülviliyini, əl-ün çatmazlığını hiss eləyib heyrətdən barmağını dişləyənlər doğma, qədim torpağımızın əzəli-əbədi bir parçası, füsunkar gözəlliklər məskənini gəlib ziyarət eləyəndə o sözə-bəyana sığmaz dağlarını, meşələrini, bulaqlarını köüllərində, gözlərinin bəbəklərində, xəyallarında və xatirələrində aparıblar, yaşadıblar bir sənət və sehr abidəsi kimi! Övladlarının, dürlü-dürlü naz-nemətlərinin, hətta yaraşıqda, uçarda-qaçarda misli-bərabəri olmayan atlarının belə xoş səsini-sorağını eşidəndə fərəhimizdən yerə-göyə sığmamış, bulaqların kimi çağlar, dağların kimi qəlbi, çiçəklərin kimi ətirli olmuşuq, fəxr eləmişik ki, biz sənin balalarınıq, sən bizim qədim və dəyişməz ünvanımız, məskənimiz, ata-babalarımızın ilk beşiyi, son məzarısan!

Min illərdir sənin səfalı qoynuna allı-güllü bahar gəlir; sən hər bahar libasını dəyişə-dəyişə cavanlaşır, hər nəsillə tay-tuş olub yaşayır, hər yeni nəsillə təzədən doğulursan. Mən sənin keçən baharlarını çox görmüşəm, ulularımızın yaşatdığı torpağından baş qaldırıb dünyamızı, ürəklərimizi ətirlə, xoş rayihə ilə dolduran nərgizlərinə, bənövşələrinə çox baxmışam. Ötən illər onlar sənin övladlarının da, qonaq-qaranın da gözündə əsil bahar çiçəkləri idilər, sevinc, fərəh bəxş edirdilər…

Bu il isə… Bu il isə mən sənin qar altından çıxan bənövşəndə də, novruzgülündə də, nərgizində də, nəğmələrində, çal-çağırlarında da gizli bir kədər, qəribə və düşündürücü bir pərişanlıq gördüm, mənim bülbül Qarabağım! Elə bil bənövşələrinin boynu bir az da bükülüydü, nərgizlərinin rəngi bir az da artıq saralmışdı. Və bu, qəlbimi titrətdi. Nə idi bu? Sənmi öz ciyərparalarına kəmiltifat olmuşdun, ya

onların üstündən acı bir rüzgar əsmişdimi? Bəli, acı rüzgar əsdi bizim üstümüzdən. Gözləmirdin, eləmi? İnanmırdın, eləmi?

Sən qonaqpərvərsən, sən geniş ürəkli, sən son tikəsini dost-qardaşı, hətta əsli-nəcabəti bilinməyənlərlə belə bölməyə hazırsan. Başqa cür ola da bilməzsən, çünki sən tarixi, dili, mədəniyyəti çox-çox qədim olan Odlar diyarının oxuyan bir parçasısan, mənim bülbül Qarabağım. Bütün bunlardan əlavə, sən mərdsən, inanan, etibar eləyənsən və yatsaydın heç yuxuna da girməzdi ki, bir zamanlar qonaq kimi sənə pənah gətirən, səndən sığınacaq istəyən və sənin səxavətlə yer, çörək, su verdiyin bir xalqın günlərin birində elə evladları əmələ gələcək ki, sənin varlığına — sənin ən müqəddəs və uğrunda ölümə belə hazır olduğun torpağına göz dikəcək və «bu yerlər mənimdir!» — deyəcək. İnanmazdın, eləmi? Ancaq — oldu! Onlar — bir ovuc mənsəbpərəst, xalqlar, qardaşlar arasına nifaq salmaq istəyən, əslində ancaq öz şəxsi mənafeyini güdüb ucuz şan-şöhrət, siyasi kapital qazanmaq istəyən bu adamlar sənin bərəkətli, axar-baxarlı torpağını qonaqların kimi gözlərində, könüllərində yox, əllərində, torbalarında aparmaq həvəsinə düşdülər. Mən gördüm — bu sənin həssas və mehriban qəlbini yaman incitdi, mənim bülbül Qarabağım.

Amma sən bilirsən: — yer üzündə kəssən — kəsilməz, üzsən — üzülməz bir hikmət də var — onun adı həqiqətdir; yarım — yarımçıq, yalana, riyaya bürünmüş həqiqət yox, tam, çılpaq həqiqət! Və bunu bil ki, tarix də sənin tərəfindədir, siyasət də. Tarixi saxtalaşdırmaq istəyənlər olub, indi də var, siyasəti öz istəkləri mənafeləri üstə qurmaq istəyənlər olub, indi də var!

Dost Əfqanıstanda işlədiyim illərdə Kabul ilə Bəgram şəhərləri arasında yerləşən gözəl bir kənd görmüşdüm, adı Qarabağ idi. Maraqlandıqda məlum oldu ki, o kəndin sakinləri Qacarın Qarabağa basqını zamanı doğma yerləri tərk edib buralara gəlib çıxmış və məskən salmışlar. Kabulun ətrafında daha iki kənd — Nanəkçi və Təpə kəndləri vardı ki, onları XVIII əsrin birinci yarısında Nadir şah Əfşar Əfqanıstanı işğal edərkən Təbrizdən buraya köçürmüşdü. Onlar — Təbrizdən və Qarabağdan gəlmiş bu sadə, zəhmətkeş, doğma torpaqlarından didərgin düşmüş bu azərbaycanlılar, o qardaş xalqın arasında yaşayırdılar, amma «babam, atam, anam… burda dəfn olunub deyə bu torpaq mənimdir!» — deyən yox idi. İnsanın nəcibi olduğu kimi, xalqların da nəcibləri çoxdur!

Sonralar əfqan həyatından qələmə aldığım «Əfqan trilogiyası»nda Qarabağ, Nanəkçi, Təpə kəndləri barədə yazmışam. Adicə sıra nəfəri olduğum Azərbaycan Sovet ədəbiyyatının ağıllı və müdrik ordusu az qala yetmiş ildir ki, cəmiyyətimizin əsasını təşkil edən, Böyük Vətən müharibəsində qələbəmizin təmin olunmasında mühüm şərtlərdən biri sayılan xalqlar dostluğu ideyalarını inanaraq və inandıraraq təsvir və tərənnüm etmişdir.

Mən əminəm ki, ədəbiyyatımızda xalqlar dostluğunu vəsf edən sənətkarlarımız bu gün öz oxucularının gözünün içinə şax və təmiz vicdanla baxa bilərlər. Çünki bu gün doğrudan da, Dağlıq Qarabağda baş verən və çox haqlı olaraq hamımızı düşündürən hadisələrin dostluq deyilən müqəddəs şeylə heç bir daxili və məntiqi əlaqəsi yoxdur və ola da bilməz. Amma… necə deyərlər, milçək bir şey deyil, ancaq könül bulandırır. Yazılarında xalqlar dostluğundan az-çox bəhs edən bir qələm sahibi kimi, bu hadisələri eşidib şahidi olanda, nə danım, doğrusu, bərk sarsıldım, fikirləşdim ki, doğrudanmı yanılmışam, dediklərimiz, yazdıqlarımız yalan imiş, şüar imiş?! Etiraf edirəm ki, bu mövzuda — məhz Azərbaycan-erməni xalqlarının dostluğu mövzusunda yenicə qələmə aldığım hekayəni əsəbi bir halda cırıb atdım. Çünki yalan sənətin düşmənidir. Əgər mənim yazdığım dünyanın gözümün qabağında uçub dağılırsa, necə deyə bilərəm ki, o, yaşayır və çiçəklənir? Bunu mənə nə oxucular, nə də vicdanım bağışlayar!

Həmin hadisələrdən xeyli keçəndən, daha doğrusu, Sov.İKP MK-nın Baş Katibi M.S.Qorbaçov Azərbaycan və Ermənistan xalqlarına müraciət edəndən, hisslər-emosiyalar səngiyib ağıl və idrak öz taxtına çıxandan, SSRİ Prokurorluğunun istintaq orqanları işə qarışıb olub-keçənlərin çoxunu saf-çürük eləyəndən sonra hamıya aydın olmuşdur və hələ bir az sonra da aydın olacaqdır ki, bütün bu hadisələrin xaricdə və daxildə əsl havadarları kimlərdir. Bax, indi, bütün ziyalıların indiki şəraitdə əsas vəzifəsi — kütləvi informasiya vasitələrindən bacarıqla istifadə edərək əsl həqiqəti xalq kütlələrinin aldadılmış, coşdurulmuş hisslərini sakitləşdirməkdən, Qərbin təbliğat maşınının və daxildəki bəzi üzdəniraq «vətənpərvərlərin» məharətlə uydurduqları yalanları, xam xəyalları ifşa eləməkdən, bu siyasətin dağıdıcı, nifaqsalıcı, nəticə etibarı ilə sarsıdıcı məqsədlərinin üstündən riya və xəyanət pərdəsini kötürməkdən ibarətdir.

Görürəm, qəmli gözlərində bir istehza gəzir, mənim bülbül Qarabağım! Yəqin demək istəyirsən ki, bəs hardaydınız, niyə bu hadisələri qabaqcadan görmürdünüz, niyə sözünüzü demirdiniz? Niyə bilmirdi-

niz ki, hələ 1956-cı ildə M.C.Bağırovun mühakiməsi zamanı müttəhimlər kürsüsündə oturan Qriqoryanın anasına yazdığı «Ana, indi rahat ola bilərsən, mən atamın intiqamını çoxdan almışam» sözlərini eşidəndən sonra arxayın-arxayın yatmaq olmaz. 1947-1949-cu illərdə Ermənistan ərazisinin dağ rayonlarında yaşayan azərbaycanlıları Milin-Muğanın rayonlarına köçürəndə çoxu istiyə-bürküyə davam gətirməyib tələf oldu. Məgər onları mənim qoynuma köçürə bilməzdiniz? Yaşardılar, tikərdilər, artıb-çoxaldılar! Məgər görmürdünüz ki, onları köçürəndən sonra o yerlərin, hətta əhalisini köçürmədikləri rayonların, kəndlərin adlarını yavaş-yavaş dəyişir, erməni adları qoyurlar? Niyə susurdunuz, hara baxırdınız. Axı, hər ad bir tarixdir!

Gözündən oxuyuram, deyirsən ki, axı, mən azərbaycanlıya da, erməniyə də, rusa da, gürcüyə də eyni gözlə baxmışam. Hətta mən deyərdim onlara özümünkülərdən də yaxşı baxmışam, qayğılarına qalmışam. Doğrudan da Dağlıq Qarabağın iqtisadi-sosial göstəriciləri Azərbaycandan da, Ermənistandan da irəlidədir. Deməli, dava heç də çörək, məktəb, kitab davası deyil. Mən görürdüm, hiss eləyirdim, iki il idi ki, onlar gizli imzalar toplayırdılar, haralarda yazırdılar… Siz bunu doğrudan görmürdünüz? Yox, sizin ayağınız, acığınıza gəlməsin, deyəsən torpaqdan üzülmüşdü. Siz beşmərtəbəli, onmərtəbəli evlərinizdə, idarələrinizdə oturmusunuz və elə bilmisiniz ki, iş otaqlarınız və kabinetləriniz elə vətəndir sizin üçün. Heç olmasa o ucalıqdan görəydiniz ki, mənim çörəyimi yeyib suyumu içən «Ocaq» kitabında mənim ürəyimə necə dağ çəkir? Soruşuram, axı, niyə susurdunuz?!

Düz deyirsən, mənim bülbül Qarabağım. Sənin bu hala düşməyində bizim də — sənin övladlarının da günahı az deyil. Sənin tarixçi, dilçi, ədəbiyyatçı oğulların sənə — sənin şanlı, qədim tarixin haqqında az danışıblar. Biz sənə bu barədə tez-tez, yorulmadan danışsaydıq, sən də eşidərdin, sənin müqəddəs torpağında yaşayan xalqların nümayəndələri də eşidərdi, okeanın o tayındakı düşmənlərimiz də.

Başqa xalqların, məsələn, gürcülərin alimləri vahid bir cəbhədə birləşərək, əl-ələ verərək öz doğma torpaqlarının dil, tarix, ədəbiyyat və s. qədimliyini sübut etmək üçün çalışdıqları halda, çox təəssüf ki, bizim o qədər də çox olmayan alimərimiz qrup, dəstə halında bir-birinə qarşı vuruşmaqla məşğul olublar. Azərbaycanımızın, doğma xalqımızın qədimliyini, ululuğunu sübut eləməyə çalışan qeyrətli alim qardaşlarımızı, özgələri yox, elə özümüzünkülər kimlərəsə xoş gəlmək xatirinə uzun illər «pantürkist», «paniranist» kimi təhlükəli adlarla damğalayıblar, gözüqıpıq eləyiblər, elmi fikrin inkişafına

mane olublar. Xalqlar dostluğunun böyük carçısı Cəfər Cabbarlı demişkən, «çayın quşunu çayın daşı» ilə vurub şikəst eləyiblər və yenə təəssüf ki, bu hal indi də, yenidənqurma və demokratiya şəraitində də davam etməkdədir.

Sən elə bilmə ki, qəlbini qanadan «Ocaq»a sənin övladların biganə qalmışdı. Yox, ona və onun kimi bir çox cızmaqaralara tutarlı, məntiqli, tarixi dəlillərə söykənən cavablar yazan oğullarımız vardı. Ancaq təəssüf ki, bizim bəzi qəzet-jurnal redaksiyalarımız bu vacib məsələ ilə əlaqədar susmağı daha üstün tutdular. Görürəm soruşmaq istəyirsən ki, yaxşı, bəs o, «Ocaq»ı yazanın, onu çap edənin məgər stolu, vəzifəsi, partiya bileti yox idi, yoxsa onlar tamam başqa planetdə yaşayan adamlardılar?

Görürəm, yenə astaca, ehtiyatla (qorxma, ucadan de sözünü, indi aşkarlıq dövrüdür, indi dövlətimiz, partiyamız haqq sözü ucadan demək ixtiyarı verib) soruşmaq istəyirsən ki, görəsən erməni ziyalıları, partiya və dövlət aparatı işçiləri də bizimkilər kimi əhali, cavanlar arasında sakitləşdirici, səbr və təmkinə çağıran iş aparırdımı? Əgər aparırdılarsa, bəs nəticəsi hanı, xeyr, əgər aparmırdılarsa, niyə aparmırdılar? Sumqayıt hadisələri niyə baş verdi? O şəhərə o dalğa Qafandan, Əsgərandan gəldi axı! Niyə gəldi? Necə oldu ki, Yerevanda, günün günorta çağı hamının gözünün qabağında P.Ayrikyan, İ.Muradyan, Səfəryan kimi karyerist və şübhəli, indi artıq məram, məqsəd və şəxsiyyətləri «Pravda» qəzetində (4 aprel, 1988) aşkar edilən adamlar Sovet dövləti əleyhinə, xalqlar dostluğu əleyhinə əsassız, çürük ittihamlar irəli sürməyə müvəffəq oldular?

Görürəm, sualların çoxdur, mənim bülbül Qarabağım. Bu sualların bir çoxunun cavabı «Pravda»nın «Təhrikçilər» məqaləsində verilmişdir və günlər keçdikcə, həqiqət dumanlar içindən sıyrılıb iti qılınc kimi çıxacaq və bütün günahkarlar, müqəssirlər öz cəzalarını alacaqlar…

Mən, bütün xalqımız kimi, dərindən inanıram ki, gələn baharda sənin bənövşələrin indiki kimi belə boynubükük, nərgizlərin belə rəngi qaçmış olmayacaq və sən yenə əvvəlki o şaqraq səsinlə hamımız üçün, bütün dünya üçün gözəl «Qarabağ şikəstəsi» oxuyacaqsan, mənim bülbül Qarabağım.

*04.04.1988*

## FƏSİLLƏRİN TACISAN

Eheyy, ey doğma yurdumun mərd, mehriban, ürəkli, çörəkli övladları! Naz-nemətli süfrələrimizin başına yığışın, yaz, bayram şamlarını yandırın, qoy onların kövrək, titrək şölələri süfrələrimizin üzərində işıq saçsın, ürəyimizi ılıq bahar hərarəti ilə isindirsin. Çünki əcdadımızın baş qoyduğu, qəhrəman oğul və qızlarımızın azad, firavan günlərə qovuşdurduğu müqəddəs torpağımıza — gözəl Azərbaycanımıza yaşıl donlu, əli gül-çiçəkli, xoş qədəmli bahar gəlir.

Bu gün bahar bayramının axşamıdır. Deyin-gülün, çalın-çağırın, ötən günlərimizdəki əməlləri, qazandığımız nailiyyətləri göz qabağına gətirin, ağıl, insaf, vicdan süzgəcindən keçirin, düşünün, görün ürək sındırmamısınız ki?! Oğruya, əyriyə, vicdansıza, rüşvətxora, bürokrata — onların bəd əməllərinə rast gəlib göz yummamısınız ki?

Baharın ilk gününü təmiz ürəklə, təmiz vicdanla, gülər üzlə qarşılamaq üçün məhz bu cür, vicdanla üzbəüz oturub öz-özünə haqq-hesab vermək, öz-özünə kənar adamın gözü ilə baxıb gözəgörünməz bir mizan-tərəzi qurmaq çox faydalıdır. Bahara bahar kimi təmiz, bahar kimi təravətli duyğularla gələnlərin ömrü bahar kimi də gözəl və mənalı olur.

Bu bahar daha qüdrətli, təpərli, bərəkətli olmalıdır. Yəqin onun gücünü, qüvvətini hiss elədiyi üçün respublikamızın ərazisində sərt qış olmadı bu il. Deməli, qış bahardan qorxub çəkindi, gözə görünmədi, torpağımıza əməlli-başlı qar da düşmədi. Bunu əkinçilərimiz, bağbanlarımız… hardasa özlərinə dərd elədilər, məhsulumuzun az olacağı qayğısı ilə yaşadılar. Amma yox, ata-babalarımız nahaqdan deməyiblər ki, cücəni payızda sayarlar. Sağlıq olsun, yaşayarıq, çalışarıq, görərik. Görərik ki, bu il məhsulumuz daha bol oldu.

Bəli, bu bahar ötən baharlara bənzəmir. Şəhərimizdə, kəndlərimizdə, oba və oymaqlarımızda rast gəldiyimiz sadə əmək adamlarının — kolxozçuların, fəhlələrin, ziyalıların simasında sonsuz bir sevinc, hərəkətlərində, işlərində, mühakimələrində bir səmimiyyət və yenilməzlik görürük. Onlar əvvəllər, yəni iki-üç il, beş il qabaq gördüyümüz adamlara oxşamırlar elə bil; əzgin, yorğun, həvəssiz işləyən, həvəssiz danışan adamlar indi idarənin, müəssisənin, kolxozun, zavodun, fabrikin adi işçisi kimi yox, əsil sahibi kimi danışırlar. Bu, sovet xalqlarının, sovet cəmiyyətimizin ictimai-sosial həyatında silinməz iz buraxan, tarixi bir hadisə kimi yadda qalan Sov.İKP

XXVII qurultayından, o yüksək tribunadan deyilən sözlərin həyatiliyini, əhəmiyyətini təzədən təsdiqləyən, yaradıcılıq imkanlarımızı daha da genişləndirmək üçün gözəl şərait yarandığını təkrar elan edən yanvar (1987-ci il) plenumundan sonra əmələ gəlmiş qəti inamın doğurduğu sevinc hissidir. Cəmiyyətimizin bütün sahələrində uzun illərdən bəri hökm sürən, təkcə əl-qolumuzu yox, fikir və düşüncəmizi də buxovlayıb, az qala iflic halına gətirmiş ətalətin, biganəliyin, bürokratizmin, təsərrüfatsızlığın, laqeydliyin sükunət buzunu qırmış bir prosesin ciddi, müdriklik, vətəndaşlıq qeyrəti, sağlam vicdan tələb edən yenidənqurma prosesinin hamıya bəxş etdiyi ləyaqət hissinin doğurduğu qürurdur bu! Çünki insan ləyaqəti ilə böyükdür, zəhməti ilə ucadır, həqiqəti ilə yenilməzdir! Bu ləyaqəti biz özümüz qorumalıyıq. Ləyaqəti qorumaq isə zəhmətimizin bəhrəsini, qurub-yaratdıqlarımızı qorumaq deməkdir. Belə olan yerdə həyatımıza, gülüstanımıza əyri əllər uzana bilməz və heç kim haqqımızı, mənliyimizi tapdamağa cəsarət etməz.

Bu bahar ötən baharlara bənzəmir. Bu bahar şanlı inqilabımızın yetmişinci baharıdır və ona görə də əzizdir, doğmadır. Biz bu zirvədən — yetmiş illik ağır sınaqlarla, mübarizələrlə dolu olan bu şərəfli yolun zirvəsindən boylanıb geriyə baxsaq, xalqımızın tarixinə qızıl hərflərlə yazılmış qələbələr salnaməsini oxuyar və qəlbimizi dolduran fərəh təkcə bahar bayramlı süfrəmizə deyil, heç yerə-göyə də sığmayacaqdır. İftixar hissi ilə düşünürük ki, ata-babalarımızın alın təri nahaq axmayıb bu torpağa. Bu torpaq ona görə müqəddəsdir ki, onun hər qarışı alın tərimizlə yoğrulub. Bəlkə elə buna görə də daşlardan sızıb gələn bulaqlarımızın suyu tər kimi şəffafdır.

Ötən baharlara bənzəməyən bu gözəl bahar bayramı axşamı xoş duyğuların qoynunda şirin yuxuya gedərkən başından min tufan, min qasırğa ötüb sovuşmuş ağsaçlı dünyamız yuxumuza girəcək yəqin. Görəcəyik ki, onun saçları pərişandır, fikri pərişandır. Stolumuzun üstündəki güldana qoyduğumuz ətirli nərgiz güllərində bu torpağın yetirdiyi və əvəzsiz ətri ilə adamı bihuş edən, boynu çiyninə düşən nərgiz güllərində də o pərişanlıq var. Kim bilir, bəlkə elə nərgizgülü də bir zamanlar qızılgül rəngində olub, uzaq Amerika Birləşmiş Ştatlarının Nevada ştatında torpağın bağrının başında keçirilən nüvə sınaqlarının zəhmli partlayışlarından, orda-burda uçan mərmilərin, təyyarələrin dəhşətli uğultusundan, dünyanı, bəşəriyyəti məhv etməyə can atanların hərəkətlərindən vahiməyə düşərək təbiətin bu gözəl qızının rəngi elə saralıb? Bu pərişanlıq bəlkə ana torpağın —

bizim Yer kürəsinin pərişanlığıdır ki, nərgiz şəklində, bənövşə şəklində onun bağrından qopub gəlib, insanlara öz dərdini, nigarançılığını danışmaq istəyir?

Bu bahar axşamı isti, rahat ocağımızın başında oturaraq televizorda «Zaman» xəbərlər proqramına baxıb şirin yuxuya gedəndən sonra əgər anamız torpaq — Yer kürəsi saçları pərişan, fikri pərişan halda yuxunuza girsə, nigaran baxışlarla sizə baxsa, onda əlinizi ürəyinizin üstünə qoyub tam arxayınlıqla «Nigaran olma, ana torpaq! deyin, — Sənin taleyin qüdrətli əllərdədir, nigaran olma!».

Bəli, bu bahar ötən baharlara bənzəmir!

*«Bakı» qəzeti, 1990*

## KEÇMİŞ UNUDULMUR, İNSANIN ÖMRÜ KEÇMİŞDƏN İBARƏTDİR. «AYRILIĞIN SONU YOXMUŞ»

Hər kitabı açanda, sanki bir qapı açılır üzümüzə. Kimlər, nələr, hansı olaylar durur o qapının arxasında? Əlibala Hacızadənin sənət mülkünün qapısı yəqin ki, ara vermədən açılanlardandır. Axı, onun oxucularının sayı-hesabı yoxdur… Uzun illər bir şöbədə işlədiyimizdən bunun şahidi olmuşam. Müxtəlif yaşlı, müxtəlif zövqlü, müxtəlif xislətli insanlar gəlir onun yanına. Onları bir məqam birləşdirir – Ə.Hacızadə yaradıcılığına sonsuz məhəbbət. Yazıçı onların hər birini səbrlə, müdrikliklə dinləyib yola salır. Həmişə ayağa qalxıb, pilləkənlərin başına qədər ötürür onları. Oxucuya sevgi və Ə.Hacızadə sadəliyindən xəbər verən bir hərəkətdir bu.

Şöbəmizin də qapısı onun kitabları kimi Əlibala Hacızadə sorağı ilə tez-tez açılır. Artıq bu suallara adət etmişik: - «Əlibala Hacızadə burada oturur? Onu nə vaxt görmək olar». Bəli, bu oxucu axını davam edir. Zaman ötür, bizim tanıdığımız dünya dəyişir, bu axın isə öz axarında davam edir.

Şahidi olduğumuz bu canlı axının bir qolu da var – gənc yazarlar. Azərbaycanın elə bir bölgəsi yoxdur ki, qələmini sınayan gənclər ona müraciət etməmiş olsun. Təqdim olunan yazıları diqqətlə oxuyur. Bəzən də bu qayğı hansısa gəncin ilk kitabında ön sözə çevrilir.

Hər birimizin bir taleyi var. Yazıçının isə iki: bu dünyanın qonağı olan insan taleyi və yazıçı taleyi.

Mənim tanıdığım Əlibala Hacızadə hər ikisindən şükürlü ola bilər. Çünki hər gün o, evindən isə, onu sevən həmkarlarının, qələm dostlarının, oxucularının yanına tələsir. Sonra da evinə, onun qayğısını çəkən ailəsinin yanına, illərin həmdəmi olan yazı masasının arxasına.

Əlibala Hacızadə şair qəlbli nasirdir, nəğməyə çevrilən şeirləri çoxdur. Tanrının məhəbbəti ilə əli qələmli, qəlbi şeirli olsun həmişə!

*Şəfəq Ənvər qızı Əlibəyli*

## BİR MİLYON SEVGİ

*Avqustun 28-də görkəmli Azərbaycan yazıçısı Əlibala Hacızadənin 70 yaşı tamam oldu.*

Əlibala Hacızadəni bu məmləkətdə tanımayan yoxdu. Səkkiz milyonluq Şimali Azərbaycan əhalisinin tən yarısı bədii ədəbiyyat oxuyursa, onların hamısı (yəni dord milyon oxucu) Əlibala Hacızadəni tanıyir. Elə bilirəm ki, 4 milyon oxucunun heç olmasa 1 milyonu Əlibala Hacızadəni sevir. Bir milyon sevgi... bu hər yazıçıya qismət olan səadət deyil.

Bəs bunun sirri nədədir?

Azərbaycan oxucuları ta qədimdən lirika üstündə köklənib. Uşaqdan tutmuş qocaya qədər hamı poeziyanı sevir, hamı şer deyir və heç də qəribə deyil ki, çoxu da şer yazır. Müstəqillik dönəmində şer kitabı çap elətdirənlərin əksəriyyətinin qeyri-professional olduğu da göz qabağındadır. Mən buna xəstəlik adı verə bilmərəm - bu, xalqın öz qanından gəlir.

Əlibala Hacızadənin nəsri də şerə yaxındır. İnsan hisslərinin lirikası üstündə köklənib-lirik nəsrdir onun nəsri. Sevgi, iztirab, insan qəlbinin həyəcanları, gözəlliyə pərəstiş, romantika, ayrılıq-hicran motivləri onun lirik nəsrinin emosionallığını artırır.

Ona populiyarlıq da qismət olub. 70-80-ci illərin oxucuları "Təyyarə kölgəsi", "Vəfalım mənim", "İtkin gəlin", "Əfsanəsiz illər", "Ayrılığın sonu yoxmuş" romanlarını sevə-sevə oxuyurdular. Əlibala Hacızadənin bu əsərləri sovet dönəmində misli görünməmiş bir tirajla (50 min, 100 min) çap olunurdu. Yazıçının o zamankı populyarlığını təsdiq edə biləcək bir misal gətirmək istəyirəm (misal Ə.Hacızadənin "Mən sözlərimin içində yaşayıram" qeydlərindən götürülüb): "Yaşlı nəslin yaxşı yadındadır ki, Heyder Əliyev cənabları o zaman pambıq yığımı mövsümlərində hər il - bu, az qala bir ənənəyə çevrilmişdi - böyük bir dəstə ilə - şairlər, yazıçılar, bəstəkarlar, müğənnilər və aktyorlardan ibarət böyük bir qrupla pambıq rayonlarına gedir və zona müşavirələri keçirirdi.

1980-ci ildə yayın qızmar günlərinin birində Saatlı rayonunda hansısa kolxozun qabaqcıl pambıqçı qızlar işləyən bir briqadasına

gedir, qızları başına yığır, onlara bu ağır zəhmətləri üçün təşəkkür edir və sonra soruşur:

-Bəlkə sizin də bir şeyə ehtiyacınız var. Maşına, mebelə. Utanmayın, deyin, mən canla-başla yerinə yetirərəm.

Pambıqçı qızlardan biri utana-utana qabağa çıxıb:

- Heydər müəllim, çox sağ olun. Bizim heç nəyə ehtiyacımız yoxdur. Ancaq bir xahiş etmək istəyirik. – deyir.

-Buyur, qızım.

- Bu yaxınlarda bir "İtkin gəlin" kitabı çap olunub. Ondan bizim kəndə cəmi bircə nüsxə gəlib çıxıb. Qızlarımız onu oxumaq üçün növbəyə durublar. Mən 23-cü adamam. Əgər mümkünsə, deyin, o kitabdan bir az çox buraxsınlar, biz də oxuya bilək.

- Elə bu?

-Elə bu, Heydər müəllim.

- Baş üstə, qızım, tapşıraram, buraxarlar".

Əlibala Hacızadə bu mənada milyonlarla oxucusu olan bir sənətkardır və əlbəttə, belə sənətkar özünü xoşbəxt sana bilər.

Onun əsərlərinin mövzusu ədəbiyyatdan yox, həyatdan gəlir. Təsvir elədiyi hadisələr, canlı və koloritli obrazlar bədii istedadının gücü ilə yeni bir həyat qazanmış olur. Görkəmli tənqidçi akademik Məmməd Arif məhz bu cəhəti yüksək qiymətləndirərək Əlibala Hacızadənin «İnam» povesti haqqında maraqlı bir məqalə yazmışdı.

Ə.Hacızadə təkcə romanlar müəllifi deyil, o, "Unutmaq olmur", "Məhəbbət olmayan evdə", "Piyada adam", "Atamın gəlini", "İnam", "Həsrət", "Meşədə", "Mərdlik" povestlərinin, neçə hekayənin və həmçinin elmi-publisistik məqalələrin də müəllifidir. Bu sıraya onun bir kitablıq şer yaradıcılığını da daxil edirik və bu şerlər onun necə həssas, kövrək bir ürəyə sahib olduğundan xəbər verir.

Arzu edirik ki, xalqın böyük məhəbbətini qazanmış Əlibala Hacızadə hökumətimiz tərəfindən də öz layiqli qiymətini alsın.

*Vaqif Yusifli*

## "ƏDƏBİ ALƏMDƏ DOSTLUQ, YOLDAŞLIQ BİRİNCİ YERDƏ DURMAMALIDIR"
## ƏLİBALA HACIZADƏ: "HƏYAT MÜBARİZƏDİR, GƏRƏK TƏSLİM OLMAYASAN"

Yazdığı bədii əsərlərdə daim ədalət axtaran, ədalətsiz və namərd hərəkətlərinə görə qəhrəmanlarını cəzalandıran yazıçı həyatda da ona qarşı olan haqsızlığa müdrikcəsinə sinə gərib. Gücü çatanlara özü cavab verib, gücü çatmayanları Allaha tapşırıb. Dini ayinlərə riayət etməsə də, özünü dindar sayan, bu dünyada heç kəsin xətrinə dəyməyən, adi qarışqanı belə ayaqlamayan, rəsmi Xalq yazıçısı adını almasa da, çoxdan xalqın yazıçısı olan Əlibala Hacızadənin 70 yaşı tamam olur. Yubileyinə bir neçə gün qalmış sevimli yazıçımızla görüşüb, 70 illik ömür yoluna birlikdə nəzər saldıq.

- Bütün zamanlarda oxucuların sevimlisi olan, mərhum tənqidçi Abbas Zamanovun təbiri ilə desək, Azərbaycanın milyonçu yazıçısı 70 yaşda özünü necə hiss edir?

- Sual maraqlı olduğu qədər də çətindir. Ona görə ki, 70 illik ömür yoluna ötəri də olsa nəzər salmaq lazım gəlir. 70 yaşın zirvəsindən keçdiyi çətin, məhrumiyyətlərlə, əzablarla dolu həyat yoluma baxanda həm sevinirəm, həm də kədərlənirəm. Sevinirəm, ona görə ki, çətinliklər, məhrumiyyətlər, əzablar məni sıxdıqca möhkəmlənmişəm və gəlib bu günə çatmışam. Çünki lap gənclik illərindən bir həqiqəti başa düşmüşəm ki, həyat mübarizədir. Bu, bəzən şüar kimi səslənir. Ancaq adam öz keçdiyi yola nəzər salanda görür ki, bu sözdə böyük həqiqət var. Həyat mübarizədir, gərək təslim olmayasan, vuruşa-vuruşa irəliləyəsən. Çünki həyatın qanunları bineyi-qədimdən elə yaranıb ki, zəifə, acizə öz qoynunda yer vermir. Bu əzmdə olan, döyüşməyə qadir, iradəsi möhkəm adamlar müəyyən mənada öz məqsədlərinə çatırlar. Bax, bu əzmi özümdə gördüyümə görə sevinirəm. Kədərlənirəm, ona görə ki, mən başqa cür də yaşaya bilərdim. Əgər bu alın yazım olmasaydı. Mən elə yaşaya bilərdim ki, bəlkə də indiki Əlibala Hacızadə olmazdım. Başqa bir adam olardım, başqa bir sənətin sahibi olardım. Fikirləşirəm ki, bu illər ərzində mən daha çox iş görə bilərdim. Bayaq dediyim çətinliklər buna müəyyən dərəcədə mane oldu. Məsələn, fikirləşirəm ki, bu illər ərzində yazdıqlarımdan üç qat artıq yaza bilərdim. Ancaq bu mənə nəsib olmadı. Bunu əlbət-

tə, kənardan baxan adamlar bilmirlər. Özüm analiz edəndə görürəm ki, öz əmək potensialımdan az istifadə eləmişəm. Bunu ancaq mən özüm bilirəm və bu da könlümdə qəribə bir qüssə hissi yaradıb.

- Sizə mane olan nə idi? Özünüzdən asılı olan səbəb idimi?

- Yox, mənim özümdən asılı olan səbəb deyildi. Bunları həyatın qarşıma qoyduğu şəraitin nəticəsi kimi qiymətləndirirəm.

- Gənclik illərində yazdıqlarınızla indiki yaradıcılığınız arasında nə kimi fərq görürsünüz?

- Hərdən yazdıqlarımı göz önünə gətirirəm. Fikir, qayə, ideya, məzmun etibarilə müqayisə eləyirəm ki, görüm mən yaradıcılıqda hansı inkişaf yolu keçmişəm və qəribə bir nəticəyə gəlib çıxıram. Əksər yazıçı və şairlərin ilk gənclik illərinin yaradıcılığında bir təcrübəsizlik, natamamlıq müşahidə edilir. Təvazökarlıqdan uzaq olsa da, özümün yazdıqlarıma baxanda, gözə çarpan elə bir qüsur görmürəm. 1953-cü ildə uşaqlığım keçən Biləsuvarla vidalaşıb Bakıya gələndə, kəndimizlə rayon mərkəzi arasındakı təxminən 2 km-lik bir yolda 18 yaşımda bir şer yazmışam. Bu yaxınlarda bir dostum onu mənim yadıma saldı:

Sən dedin ki, dünya qopar yerindən,
Başı qarlı bu dağ o dağa dəysə.
Sən dedin ki, biz görüşsək qan olar,
Aləm bilər dodaq dodağa dəysə.

Mən dedim ki, hicran uzun ömürdən,
Torpaq acgöz bir sərçədi, ömür dən,
Mənim üzüm qara olsun kömürdən,
Dodaqlarım yad bir yanağa dəysə.

Bu şeri 53 il əvvəl yazmışam. Bir dostum mənə dedi ki, «Torpaq acgöz bir sərçədi, ömür dən» deyən Əlibala elə 18 yaşında sənətkar olub. Demək istəyirəm ki, mən gənclikdə yazdıqlarımla indikilər arasında elə bir fərq görmürəm. O zaman yazdığım əsərlərdə də saf məhəbbəti tərənnüm eləmişəm, indi də. O zaman da sevgidə, məhəbbətdə xəyanəti damğalamışam, indi də. Namərdliyi, ədalətsizliyi bütün zamanlarda pisləmişəm.

- Böyük şair, böyük yazıçı sözünə mətbuat səhifələrində tez-tez rast gəlirik. Belə bir titula necə baxırsınız?

- Şair, yazıçı heç vaxt özünə dahi, böyük titulları yaratmır. Bu, ya oxucuların, ya da tənqidçilərin sözü olur. Şairi, yazıçını özündən yaxşı tanıyan yoxdur.

- Bu sözünüzün davamı kimi, indi imkanlı adamların qalın-qalın kitablar çap etdirməsi dəbdədir. Tanınmış yazıçı kimi münasibətiniz maraqlı olardı.

- Bu, bir xəstəlikdir. Pulunu xərcləməyə yer tapmayan adamlar şer kitabları çap elətdirir, özlərini şair kimi xalqa sırımaq istəyirlər. Deyim ki, bu işdə ədəbi mühitin də günahı var. Ədəbi mühit belələrinə qarşı münasibətini bildirməlidir. O adam da başa düşməlidir ki, onun yazdıqları cəfəngiyatdır. Əgər sən bir qəzet redaktoru kimi mənim zəif yazımı çap edirsənsə, dostum yox, düşmənimsən. Yəni xətir üçün xəstə yatmazlar. Bu bir atalar sözüdür. Mənim şəxsiyyətindən xoşum gəlməyən adamlar var. Ancaq onların yazdıqları əsil ədəbiyyat nümunəsidirsə, mən onun qarşısında heç vaxt əngəl ola bilmərəm. Çünki mən ona mane olsam da, yazdığı ədəbiyyat nümunəsi haçansa öz qiymətini alacaq. Odur ki, ədəbi aləmdə dostluq, yoldaşlıq birinci yerdə durmamalıdır. Birinci yerdə ədəbi nümunənin özü durmalıdır.

- İstər qələm adamı, istərsə də adi adamlar yaşın müəyyən həddindən sonra dinə bağlanırlar. Adətən 60-70 yaşdan sonra bir çox adamlar axirət sevdasına düşürlər. Siz də artıq 70 illiyinizi qeyd edirsiniz. Ymumiyyətlə, dinə münasibətiniz necədir?

- Mən bu 70 illik ömrümü gözümün qabağına gətirirəm və görürəm ki, lap əvvəldən, özümü dərk eləyən vaxtdan dünyanın elə-belə yaranmadığına, günəşin, ayın öz-özünə hərəkət etmədiyinə dumanlı şəkildə olsa da, məndə bir inam olub. Ancaq ciddi, dərin təhlil etmək imkanım olmayıb. Ona görə ki, ədəbiyyat olmayıb. Qurani-Kərimin tərcüməsi Azərbaycan oxucusuna son 25-30 ildə gəlib çatıb. Düzdür, mən ixtisasca şərqşünasam. Farsı-ərəbi orijinaldan oxuya bilirəm. O cümlədən Quranı da oxuyuram. Ancaq Quranı oxumaqla başa düşmək çətindir. Hər sözündə min bir hikmət olan müqəddəs kitabın mahiyyətini bir şərqşünas üçün anlamaq çətindir. Buna baxmayaraq, mən özümü dindar adam hesab edirəm. Bu sözüm oxucuya qəribə görünə bilər. Mən içimdə dindar adamam. Ola bilər ki, İslamın bir çox qanunlarını yerinə yetirməyə qadir deyiləm. Ancaq mənim içimdə həmişə bir Allah xofu, Allah sevgisi olub.

- Əsərlərinizdəki bir çox obrazlar dinə sizin kimi münasibətdədir. Dini ayinlərə riayyət etməsələr də, daim ədalət axtarırlar.

- Yaratdığım obrazlarda həm özümün, həm də ətrafımda olanların bir xisləti, bir xasiyyəti öz əksini tapıb. Obrazlarımın – əlbəttə, burda söhbət müsbət obrazlardan gedir – içində bir ədalət mələyi bardaş qurub oturub və onları idarə edir. Ancaq bütün insanlar kimi, mənim qəhrəmanlarım da səhv etməkdən sığortalanmayıb. Məsələn, Nəcməddin mənim çox istədiyim, qüdrətli bir insandır. Təmiz və sevgi dolu ürəyi var. Ədaləti, eyni zamanda, mal-dövləti var. Ancaq həyat təkcə bunlardan ibarət deyil. Nəcməddin kimi bir şəxs büdrəyir. Dünyanı çirkabın içindən çıxarıb gətirib özünə xanım-xatın ailə eləyəndə böyük savab işi gördü. Ancaq Dünya bu topdağıtmaz evdə yaşaya bilmədi, özünə yeni çirkab bir dünya axtarışında oldu və Ağayi Nəcməddin tərəfindən öldürüldü. Əsərdə Dünyanı Nəcməddin öldürür. Dünyanı Nəcməddin yox, mən öldürdüm. Öldürdüm ki, sən niyə belə bir kişiyə xəyanət etdin. Nəcməddini öz əli ilə mən güllələdim ki, ey müdrik insan, sən gərək bu səhvə yol verməyəydin. Sən bilmirdinmi ki, bəs səndən qırx yaş kiçik Dünya belə bir yola düşə bilər. Gələk evin nökəri Əbdülə. Nəcməddin kimi müdrik bir kişi onu evinə gətirib çörək vermişdi. Sonda öz ağasına xəyanət etdi. Onu öz oğlunun əli ilə mən öldürdüm ki, namərdliyin cəzası budur. Bunları mən maraqlı süjet kimi oxucu üçün danışmıram və yazmamışam. Mən bu obrazları insanlara dərs vermək üçün, ibrət götürmək üçün yaratmışam.

- Yeri gəlmişkən, əsərlərinizdə daim haqq-ədalət axtarırsınız və ədalətsizləri, namərdləri cəzalandırırsınız. Bəs həyatda qarşınıza çıxan haqsızlığa necə cavab verirsiniz?

- Yazdığım əsərlərdəki qəhrəmanların taleyi mənim əlimdə olub. Çalışmışam ki, ideal insan obrazı yaradım. Bilirəm ki, ideal insan yoxdur. Bununla belə, mən onların obrazını yaratmağa cəhd etmişəm. Həyat isə bədii əsərdən çox fərqlənir. Həyat reallıqdır. Haqqımın tapdandığı məqamlar olub. Mübarizə aparmışam. İmkanım daxilində onlara cavab vermişəm. Vaxt olub onlar qalib gəlib. Amma nəticə etibarı ilə haqq qalib gəlib. Mənə haqsızlıq edənlərə gücüm çatmayanda onları gözəgörünməz Allaha tapşırıram. Gözümün qabağında beləleri heç-puç olub gediblər. Bu da ədalətin təntənəsidir.

- Bildiyimə görə, "Təyyarə kölgəsi" trilogiyanızı yazandan sonra sizə qarşı bir çox haqsızlıqlar olub, hətta sizi işdən çıxarıblar.

- Bu əsər ziyalılarımızın həyatından bəhs edir. Nədir burada mənim qayəm? Ziyalı, elm xadimi millətin öndə gedən dəstəsidir. Bunlar kamil insan olmalıdırlar. Ətrafımdakılar onlardan nümunə

götürməlidirlər. Universiteti bitirəndən mən elm aləmindəyəm. Bəzən gördüklərim məni təəccübləndirib. Qabaqcıl elm xadiminin, alimin nöqsanlarını görəndə təəccüblənməklə yanaşı, həm də təəssüf hissi keçirmişəm. Savadlı, sözün əsil mənasında ziyalı olan adamın səhv addımı cəmiyyətə mənfi təsir edir. Bu əsərdə çalışmışdım ki, elm adamlarının nöqsanlı cəhətlərini açıb göstərəm. Görünür, kitabdakı obrazların prototipləri özlərini tapmışdılar və odur ki, mənə qarşı hücumlar başladı. Əvvəl maaşımı minimuma endirdilər. Yrəkləri soyumadı, işdən çıxardılar. Bu işdə paxılların da rolu az deyildi. Vəzifəli şəxslərə öz qələm yoldaşlarım gedib deyirdilər ki, bəs filan əsərində Əlibala sənin obrazını yaradıb. Belə adamlar da ağına-bozuna baxmadan mənə qarşı ədalətsizlik edirdilər. Bunu da desəm, oxucular üçün maraqlı olar. O qansız adamlar evimə zəng edirlər, qızım dəstəyi götürür. Soruşurlar ki, atanın ürəyi ağrıyır? Qızım cavab verir ki, yox. Deyirlər elə edərik ki, ağrıyar. Qızım da bir az hazırcavabdı. Deyir ki, ağrısın atamı istəməyənlərin ürəyi. Sonrakı gün yenə zəng gəlir, oğlum götürür. Soruşurlar ki, bura Əlibalanın evidir, uşaq cavab verir ki, bəli. Deyirlər ki, gəlib hamınızın başını kəsəcəyik. Evə gəlmişəm, görürəm uşaqların anası qorxudan tir-tir əsir. Mənim üstümə düşür ki, sən neyləmisən ki, gəlib bizi öldürmək istəyirlər. Deyirəm narahat olma, öldürmək istəyən qabaqcadan xəbərdarlıq etməz. Nə qədər özümü sərbəst aparsam da, ürəyim dözmədi bu söz-söhbətlərə. Bir neçə gün evdə dincəlirdim ki, zəng gəldi. Götürdüm dəstəyi, soruşdular ki, bura Əlibalanın evidir? Dedim, bəli. Elə bildi danışan oğlumdur. Dedi ki, anana, bacılarına xəbər ver, Əlibala Nərimanov prospektini keçəndə maşın vurdu, öldürdü. Gəlin meyitini aparın. Soruşdum kimdi danışan, dedi, tanışlarındandır. Dedim, səninlə danışan Əlibalanın özüdür. İstəyirdim bir-iki yaxşı söz deyəm, dəstəyi asdı.

Ancaq sonralar zaman hər şeyi öz yoluna qoydu və həmin şəxslər ədalətli Allah tərəfindən cəzalandırıldılar. Beləliklə, müsibətlər gətiriblər mənim başıma. Ona görə də müsahibələrimdə və oxucularla görüşlərdə deyirəm ki, "Təyyarə kölgəsi"nin ikinci kitabı "Vəfalım mənim" yox, "Cəfalım mənim" oldu.

- Əlibala müəllim, uzun müddət kitablarınız çıxmadı. Ancaq keçən il birdən-birə bir kitabınız, sonra isə oncildliyiniz çapa hazırlandı və beş cildinin artıq təqdimatı olub.

- İnanırsınız ki, bir ildən çox keçməsinə baxmayaraq, bu işlərdən hələ də mən şok vəziyyətindəyəm. Səmimiyyətlə etiraf edirəm

ki, mən Allahdan nə arzu etmişəmsə verib. Ancaq bunlar bir az gec olub.

- Yəni gec olub, güc olub.

- Bəli, elədir ki, var. Deməli, 2004-cü ildə dövlət televiziyasının "Səhər" proqramında kitablarımın çıxmamasından gileylənmişdim. Elə həmən gün Saatlı rayonunun imkanlı bir adamı Gülhüseyn Əhmədov mənə zəng vurub görüşmək istədiyini bildirdi. Görüşdük. O mənə bildirdi ki, bir kitabınızın çap olunmasına kömək etmək üçün gəlmişəm. Ağzıbağlı konvertdə kitabın çıxması üçün lazım olan pulu mənə verdi. Əlbəttə, mən götürmək istəməsəm də, o, təkid etdi, bunu özü üçün xeyirxah bir iş hesab etdiyini dedi. Bəli, elə bu uğurlar da o gündən başlandı. Deməli, kitab çıxandan sonra bir nəfər yenə imkanlı adam kitabın təqdimatının keçirilməsini öz boynuna götürdü və kitabın təqdimatında iştirak edən eloğlumuz, gözəl şairimiz Gülağa Tənha mənim əsərlərimin oncildliyinin çapının xərcini çəkəcəyini bildirdi. Oncildliyin artıq 5 cildi işıq üzü görüb, qalan 5 cildi isə 70 illik yubileyimlə əlaqədar elə bu gün-sabah hazır olmalıdır.

*Dayandur Sevgin*

**P.S.** Avqustun 28-də sevimli yazıçımız Əlibala Hacızadənin 70 yaşı tamam olur. Yubileyi münasibətilə sevimli yazıçımızı redaksiyamızın kollektivi və "Sözün sorağı" ədəbi məclisinin üzvləri adından təbrik edir, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

## MÖCÜZƏLİ OTAQ

Yazıçı Əlibala Hacızadə. Orta və yaşlı nəsil onu daha yaxşı tanıyır. "İtkin gəlin", "Əfsanəsiz illər", "Ayrılığın sonu yoxmuş" kimi ölməz əsərlərin müəllifini XX əsrin 80-cı illərinin ən məşhur, ən sevimli yazıçısı adlandırsam, yəqin, məni qınamazlar. Əsərləri əlbəəl, ev-ev gəzən Ə.Hacızadə 70 illik ömrünün ən yaddaqalan, ən maraqlı və möcüzəli hadisəsini də məhz həmin dövrdə yaşamalı olub. O, 20 ildən çox bu haqda, demək olar ki, susub, hamını heyrətləndirəcək həmin əhvalat haqda çox az adama danışıb. Bəli, xalqın sevimli yazıçısı ƏLİBALA HACIZADƏ ANASI ASYA XANIMIN VƏFATINDAN UZUN İLLƏR SONRA ONUN RUHU İLƏ BİRBAŞA TƏMASDA OLUB. Özü də yuxuda yox, yaşadığımız real həyatda. Necə? Bunu artıq siz də biləcəksiniz.

... Ana müqəddəs varlıqdır. Onun qarşısında böyük qələm ustadları da, dahi şəxsiyyətlər də acizdirlər. Əlibala Hacızadə də istisna deyil. Həmin gün o, KİÇİK RUH-BÖYÜK ANANIN yanında balacalaşmışdı. Aciz idi. Çünki sevimli övladını minbir əzab-əziyyətlə böyüdüb boya-başa çatdırmış anası, daha doğrusu, onun ruhu qarşısında heç nə edə bilmirdi. Yalnız xəyallara dalıb ötüb keçənləri vərəqləyir, ana nəvazişinin həsrətini duyurdu. O gün adi günlərdən deyildi. Bu, böyük yazıçının yaşadığı möcüzəli, sirli bir gün idi...

***

1982-ci il SSRİ adlı superdövlətin bir çox qadağa tətbiq etdiyi dövrlərdən elə də seçilmirdi. Ziyalısından, fəhlə və kəndlisindən tutmuş hamı qırmızı imperiyanın qanunlarına tabe olmalıydı, ona riayət etməliydi. Əks təqdirdə həmin şəxsi sərt cəzalar gözləyirdi. Ən ağırları da vardı. "Qırmızılar"ın qurduğu dövlətin qanunları haqda bir kəlmə belə mənfi söz işlədən qırmızı pasportlu sovet vətəndaşı ya üzərinə "Lenin s nami" yazılmış psixi xəstəxanalara göndərilməli, ya saxta ittihamlarla həbsxanalara salınmalı, ya da ev dustağı olmalıydı. Sui-qəsdlər də edilirdi. Belələrinin zəhərlənməsi və ya avtomobil qəzalarına düşməsi halları daha geniş yayılmışdı. "KQB" var gücüylə işləyirdi. Çünki Dövlət Təhlükəsizlik Komitəsi (DTK) imperiyanın əsas sütunu-ruporu idi.

Sovet dövründə dini ayinlərin və milli bayramların keçirilməsi də rəsmən yasaqlanmışdı. Məscidlərimiz kitabxanalara və başqa obyektlərə çevrilmişdi. Milli bayramlarımızın təntənə ilə qeyd olunmasına icazə verilmirdi. Amma imperiya, onun "KQB"-si nə qədər güclü olsa da, hökmranlıq etdiyi 75 il ərzində xalqın iradəsini qıra, onun qədim milli adət-ənənələrini məhv edə, doğma Azərbaycan dilimizi sındıra bilmədi. Müsəlman qanunlarına uyğun mərasimlər düzənlənir, imamlarımıza yas saxlanılır, Ramazan ayında iftar süfrələri açılır, Qurban bayramında toğlular kəsilirdi. Novruz onda da başqa aləm idi. Elə bir azərbaycanlı ailəsi tapmazdın ki, süfrəsində bayram aşı olmasın, masaya səməni, şəkərbura, paxlava, qoz, fındıq, rəngli yumurta qoymasın, tonqal qalamasın. Xalq dini ayinləri, milli bayramları qeyri-rəsmi olsa da, qeyd edirdi. Ana dilimizi isə nəinki məhv edə bildilər, əksinə, Azərbaycan dili daha da inkşafdaydı. Bu işdə dilçi alimlərimizlə yanaşı, yazıçı və şairlərimizin də misilsiz xidmətləri olub. Bu illərdə dövrün yazarları təkcə ən yaxşı əsərlərini yazmayıblar. Onlar həm də Azərbaycan dilini yüksək səviyyədə inkişaf etdirib, onu mərhələdən mərhələyə çatdırıblar. Cəfər Cabbarlı, Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq, Səməd Vurğun, Süleyman Rüstəm, Mirzə İbrahimov, Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Seyfəddin Dağlı, İsi Məlikzadə, Qılman İlkin, Cabir Novruz, Anar, Fikrət Qoca, Əlibala Hacızadə, Əzizə Cəfərzadə, Nüsrət Kəsəmənli kimi yazıçı və şairlərimizin hər bir əsəri, hər bir hekayəsi, şeri, novellası, romanı özü bir xəzinədir. Bunlar zəngin, mənəviyyatımızla dolu, hamımızın ilham aldığı, qızıldan qiymətli bir varlıq, dünyadır. Ədiblərimiz fərqli talelər yaşasalar da, bu xəzinədə onların hərəsinin özəl payı var. Bu pay sahiblərindən biri də, sözsüz, Əlibala Hacızadədir, qırmızı imperiyanın enişini-yoxuşunu, aclıq dövrünü, ikinci dünya savaşının ağrılarını görmüş, Əfqanıstan həyatını yaşamış, inanılmaz möcüzə ilə rastlaşmış yazıçı...

ƏLİBALA HACIZADƏ ANASININ RUHU İLƏ NECƏ DANIŞDI?

Çox yorğun idi. Ona şöhrət gətirəcək ölməz əsərlər yazmaq asan deyildi. Gecəsini gündüzünə, gündüzünü gecəsinə qatmışdı. Nə vaxt yatdığını, nə vaxt oyandığını unutmuşdu. Yediyinə, içdiyinə də elə fikir vermirdi. Evdən bayıra da, demək olardı ki, çıxmırdı. Zəhməti hədər getmədi. 1979-1982-ci illər çətin, əziyyətli keçsə də, indi

onu barmaqla göstərirdilər, hamı onun yazıb yaratdığı Əfsanə, Elməddin, Dünya, Əbdül obrazlarından danışırdı. Qəhramanlarının dedikləri şerlər artıq mahnılara çevrilmişdi. Hamı, xüsusən də gənclər yenicə satışa çıxarılmış "Vesna" maqnitafonlarında Ağadadaş Ağayevin məharətlə ifa etdiyi mahnılara qulaq asırdı. Yazıçı üçün, ömrünü, həyatını xalqa sıx bağlamış bir insan üçün bundan artıq heç nə lazım deyildi. Bircə yorğunluq onu əldən salmışdı. Bir qədər istirahət etmək heç də pis olmazdı. "Bəlkə doğma kəndə gedim? Qohum-əqrabanı da çoxdan görmürəm. Amma indi ora getmək bir qədər münasib deyil. Hava tez-tez dəyişir. Bəs hara gedim?" Telefon zəngi onu fikrindən yayındırdı. Dəstəyin o biri tərəfində uzun illər dostluq etdiyi Fikrət Qoca idi. Şairdən təklif vardı. O, Əlibala müəllimi bir neçə günlüyə rayona istirahətə dəvət edirdi. Göydəndüşmə təklifə düşünülmədən razılıq verilir. Beləliklə, dostlar əyalətə yollanırlar. Onlar Telman adlı şəxsin evinə toplaşırlar. Aran zonasında ruhları çağırmaqla məşhur olan Telman qonaqlarını səmimi qəbul edir. Məclis qurulur. Söhbətin qızğın çağında Fikrət Qoca Ə.Hacızadəyə Telmanın ruhları çağırması ilə tanındığını bildirir. Sovet rejiminin məlum qadağalarına baxmayaraq, yazıçı marağı hər şeyi üstələyir və Əlibala müəllim bunun necə olduğunu, texnologiyasını öyrənmək istəyir...

Telmanın evindəki iş otağı qaranlıq gecəni xatırladır. Eyvana açılan pəncərə pərdələrlə, demək olar ki, daim örtülür. Əşyalarla yarıboş otaqdakı rəfdə dini kitablar və dini əşyalar diqqəti çəkir. Ən cəlbedici isə otağın tən ortasındakı dəyirmi masadır. Mizin üstündəki üç əşya otağın ab-havasını tamam dəyişir. Bunlar qara rəngli stolüstü lampadan, dairəvi şəkildə düzülmüş 32 hərfdən, bir də adi, amma sanki sehirlənmiş, aşağı hissəsi oxla işarələnmiş nəlbəkidən ibarətdir. Otağa daxil olanda adama elə gəlir ki, başqa aləmdəsən, kimsə səni qaranlıq bir dünyaya gətirib. Amma o dünyanın da öz aylı-ulduzlu gecəsi var. İçəri daxil oldular. Telman masanın üstündəki elektrik lampasını yandırıb izahat verdi. "Gördüyünüz bu nəlbəkini tərsinə çevirib azad bir ruh çağıracam. Ruh gəlib nəlbəkinin altına girəcək və o, bütün sualları cavablandıracaq. Altında ruh olan nəlbəki üzərindəki ox işarəsi istiqamətində hərflərə doğru hərəkət edib sözlər əmələ gətirəcək. Hərfləri yan-yana düzüb suallarımıza cavab alacağıq" dedi və dərhal da nəlbəkini arxası üstə çevirdi. Telman gözlərini yumub pıçıldamağa başladı. Və qəflətən nəlbəki tərpənməyə başladı. Bu, sözün əsl mənasında möcüzə idi! Yazarlar yerlərindəcə səssiz-səmirsiz donub qalmışdılar. Hərçənd Əlibala Hacızadə burada hansısa

fırıldağın olduğundan şübhələnməyə başlamışdı. Sözsüz, bu, Telmanın gözündən qaçmadı. O, mat-məəttəl qalmış, amma üzündəki şübhələri gizlədə bilməyən Əlibala müəllimin masaya daha da yaxınlaşmasını istədi. Səssiz-səmirsiz, heç bir sual verməyən Ə.Hacızadə Telmandan qəfil təklif alır: "Əlibala müəllim, barmağınızı nəlbəkiyə toxundurun. İndi siz altında ruh olan nəlbəkinin tərpənməyini hiss edəcəksiniz". Yazıçı barmağını arxası üstə çevrilmiş nəlbəkiyə toxundurdu. Möcüzə bitməmişdi: Nəlbəki asta-asta sağa və sola hərəkət edirdi! Telman ruha ünvanladığı sualları ilə bu hərəkəti daha da sürətləndirdi. Cavablar nəlbəkinin alt hissəsindəki ox işarəsinin hərflərə yaxınlaşması ilə verilirdi. Əlibala Hacızadə Telmanın möcüzələrinə hələ də inana bilmirdi. Ona elə gəlirdi ki, ev sahibi hansısa foks və fırıldaqla məşğuldur. Elə bu düşüncəylə "bu ruh çox atdanıb düşür" kəlməsini də deməyi unutmadı. İfadə səslənən kimi nəlbəki coşquyla titrəməyə başladı. Ruh bu sözlərdən qəzəblənmişdi. Qəflətən nəlbəki sürətlə hərflərə doğru hərəkət edib, Ə.Hacızadənin sözlərinə söyüşlə cavab verdi. Bu ifadəni qələmə almaq olmur, amma Əlibala müəllim həmin sözləri ömrünün sonunadək unutmayacaq.

Ruhun cavabından sonra Telman onu azad buraxdı. Amma yazıçı şübhələrdən hələ də qurtulmamışdı, ona görə də Telmandan anası Asiyanın ruhunun çağırılmasını xahiş etdi. Əlibala müəllim gözəl bilirdi ki, anasından soruşacaqlarını nə Fikrət Qoca bilir, nə də Telman.

***

... Ömrünün 70-ci ilini yaşayan Əlibala Hacızadənin iki bacısı var. Dayısı Əliağa qatı stalinçi olub. Qırmızı imperiyanın dövründə əksəriyyət kimi o da dahi rəhbərin - Stalinin varlığı ilə yaşayıb, onu bəşəriyyətin rəmzi sayıb. Həmin dövrdə "Onsuz həyat yoxdur" ideologiyası şüurlara hopmuşdu. Marks, Engels və Lenin sosializmin teoretik və praktik baniləri, Stalin isə onların davamçısı sayılırdı. Stalinə olan bu sevgi Hacızadələr ailəsində yenilik etdi: Əliağa öz yeganə bacısı Asiyanın qızının adını Melis qoydu, yəni "Marks, Engels, Lenin və Stalin". Amma "millətlər atası"na olan sevgi bununla bitmədi. Hacızadələr ailəsində ikinci qız uşağı da dünyaya gəlir. Bu dəfə yenə dayı uşağa Svetlana adını verir, rəhbərin qızının şərəfinə.

Əlibala müəllim hələ uşaq yaşlarında olarkən Hacızadələr ailəsi maraqlı bir əhvalatla da qarşılaşıb. Bir gün anası Asyanın qızıl boy-

unbağısı itir. Hər yan ələk-vələk edilir. Qohum-əqraba bir-birinə dəyir, amma boyunbağı tapılmır. Kimi Asya xanımın anasından qalan yadigarının quyuya düşdüyünü, kimi oğurlandığını deyir. Beləcə, boyunbağı əhvalatı unudulur və yalnız bir-iki ildən sonra bu zinyət əşyası işlədilməyən, köhnə saxsı qabın içindən tapılır. Sən demə, parçaya bükülmüş boyunbağı Asya ananın boyunundan qaba düşübmüş. İndi Əlibala Hacızadə bu haqda düşünürdü. Bunlardan isə nə Fikrət Qocanın xəbəri vardı, nə də Telmanın...

***

Ev sahibi şamansayağı görkəm aldı. Yenə də gözlərini yumub pıçıltı ilə nəsə deyirdi. Və qəflətən nəlbəki hərəkətə gəldi. Telmanın "Əlibala müəllim, ananızın ruhu burdadır" deməsi yazıçını titrətdi. İçi göynəyə-göynəyə, ayaqları əsə-əsə masaya yaxınlaşdı. Anası gözlərinin önündə canlandı. Onunla bağlı xoş günləri ani də olsa, xatırladı.

İlk sualı Telman verdi: "Asya xanım, buradakılardan kimi tanıyırsan?" Nəlbəki hərflərə doğru hərəkət etdi: "Can Əlibala". Yazıçının dili tutuldu, boğazı qurudu. Əlibala müəllimi ürəkləndirdi və o, ardıcıl suallar verməyə başladı. Sanki birdən Telmanı sınamaq üçün hazırladığı suallar yadına düşdü. "Ana, yadındadır, neçə qızın vardı" sualına dəqiq cavab verildi: "İki". Gözlərini hərəkətdə olan nəlbəkidən ayırmayan, bir anlığa da olsa, kipriklərini qırpmadan Ə.Hacızadə böyük bacısının adını soruşur. " Melis" cavabını oxuyan yazıçı daha da həyəcanlanır. Anadan kiçik qızının da adını soruşur. "Svetlana" cavabı Əlibala müəllimi daha da tərlədir. Bu da təbii idi. Axı, o, ömür boyu sonsuz sevgi bəslədiyi doğma anası ilə təmas qururdu. Ancaq tam yəqin olmaq üçün bir sual da qalırdı: "Ana, mən balaca olanda qızıl boyunbağın itmişdi. Yadındadır, onu hardan tapdın?" Nəlbəki yenidən hərflərə doğru hərəkət edir. "Saxsı qabdan" ifadəsi bütün fikirləri alt-üst edir. Ölməz əsərləri ilə milyonların sevimlisinə çevrilmiş, oxucularının misilsiz rəğbətini qazanmış, adı kənd-kənd, oba-oba dillər əzbəri olmuş böyük yazıçı anasının ruhu qarşısında çox kiçilmişdi. Onu sanki ildırım vurmuşdu. Ustad yazıçı indiyədək belə möcüzəli, amma xoş vəziyyətə düşməmişdi. O, nə deyəcəyini, nə edəcəyini bilmirdi. Xəyallar onu uzağa, lap uzağa aparmışdı. Yalnız Telmanın "Əlibala müəllim, ananız növbəti sualınızı gözləyir" kəlməsindən sonra yazıçı sanki qəflət yuxusundan ayıldı. Ə.Hacızadə tez-

tələsik anasına daha bir neçə sual verir, çünki bir azdan Telman ruhu azad edəcəkdi.

Bu, yazıçının həyatında ən qəribə, ən xoş gün idi. O, bu təəssüratlardan ayrılmaq istəmirdi. "Aman Allah, bu, nədir? Axı, belə şey necə ola bilər? Telman bunu necə edir? Bəlkə röyadayam? Belə də yuxu olarmı?" Bu suallar Əlibala müəllimi rahat buraxmırdı. Daha ruhların çağrılmasına, nəlbəkinin hərflər istiqamətində hərəkətinə şübhə etməyən yazıçını bu dəfə möcüzənin necə baş verməsi maraqlandırırdı. Birdən onun yaddaşına bibisinin həyat yoldaşı Miryaqub düşür...

***

...Rayonda digərlərindən fərqlənməyən bir ailə vardı. Ailə başçısı Miryaqub arzularla yaşayırdı. Əsas istəyi iki gözəl oğul balasını istədiyi kimi böyüdüb başa çatdırmaq, onları layiqli övlad kimi yetişdirmək idi. Sözsüz, ata Allahdan qız payı da istəyirdi. İnanırdı ki, Ulu Tanrı onun arzularını reallaşdıracaq.

Miryaqub övladlarını hədsiz dərəcədə çox sevərdi, onlarla nəfəs alardı. Sübh çağı işə gedərkən körpələri oyadıb onlarla bir müddət oynayan Miryaqub gecədən xeyli keçmiş doğma ocağına qayıdarkən yenə də uşaqları yuxudan edərdi. Amma ailədəki sevincli günlərin ömrü çox çəkmir. 1941-ci ilin yayında almanların SSRİ-yə təcavüzü hər şeyi alt-üst edir. Azərbaycanın yüzlərlə oğlu kimi, Miryaqub da cəbhəyə yollanır. Moskva istiqamətində gedən döyüşlərdə ağır yaralanır. Səngərdən hospitala aparılır. Bir müddət müalicə olunduqdan sonra isə komandanlığın əmri ilə evlərinə buraxılır, sağlamlığını orada bərpa etmək üçün.

...Bir il ərzində elə bir dəyişiklik baş verməmişdi. Kişilərin böyük əksəriyyəti cəbhəyə yollandığından hər yerdə olduğu kimi, burada da əsas işləri qadınlar görürdülər. Ən çətin işlər isə, şübhəsiz, Miryaqub kimi tək-tük kişilərin çiynindəydi. O, evində 13 ay qalır və bu müddət ərzində Miryaqubun bir qızı dünyaya gəlir. Mövcud çətinliklər körpənin də səhhətinə təsir edir. Uşaq möhkəm xəstələnir. Dünyaya göz açmış bu varlığın öləcəyini və ya qalacağını Ulu Tanrıdan başqa heç kəs bilmir. Miryaqub üzünü yenidən göylərə tutur, balasının xilası üçün Allaha yalvarır. O, ağsaqqal məsləhətinə də qulaq asır. Onların tövsiyəsiylə Miryaqub uşağı şəhərə aparıb oradakı həkimlərə göstərmək qərarına gəlir. Amma necə? Bir yandan, "Hər şey cəbhə üçün"

şüarı olan SSRİ kimi ölkənin iri şəhərlərindən tutmuş kiçik yaşayış məntəqəsinədək problemlər başdan aşır, kənddəki işlər üst-üstə yığılır, o biri yandan, canından çox sevdiyi körpəsi can verirdi. Bütün çətinliklərə baxmayaraq, Miryaqub son qərarını verir: Körpənin həyatı xilas edilməlidir! Uşaq mütləq şəhərə aparılmalıdır! Amma düz deyiblər ki, "sən saydığını say, gör fələk nə sayır".

Gecədən xeyli keçmişdi. Körpənin ağır vəziyyəti atanın yuxusunu ərşə çəkmişdi. O, sabahkı planlarını cızırdı. Elə bu vaxt qapı döyüldü. Hərbi geyimli şəxslər idi. Hərbi komissarlığın əməkdaşları Miryaqubun təcili onlarla getməsini tələb edirlər: "Stalinqrad uğrunda şiddətli vuruşlar gedir. Əsgərə, canlı qüvvəyə böyük ehtiyac var. Tez ol, geyin. Birbaşa cəbhəyə gedəcəksən". Bir neçə saat əvvəl Tanrıya yalvarıb körpəsinin ölümdən qurtulmasını istəyən Miryaqub indi hərbçilərin qarşısında diz çökmüşdü: "Qurban olum, balam ölür. Sübh tezdən körpəni şəhərə aparıb həkimlərə göstərməliyəm. Uşağa baxsınlar, evə gətirim, sonra cəbhəyə yollanım. Başınıza dönüm, mənə 10-12 saat vaxt verin". Amma bu yalvarışlar əbəs idi: Miryaqub onlarla getməli idi! Ata illərlə həsrətində qaldığı, indi isə sanki əzrayılla çarpışan qızını qucağına aldı, xəstə, amma şirin yuxuda olan körpə iri gözlərini qəfil açdı. Baxışları ilə sanki atadan imdad diləyirdi, ondan kömək istəyirdi. Miryaquba elə gəldi ki, çiləli uşaq bu dəqiqə dil açacaq. Körpəsini bağrına basan ata övladından ayrılmaq istəmirdi. O, Allahın ona verdiyi qız payını itirəcəyindən bərk qorxurdu. Miryaqub sevimli ailəsindən, eləcə də can üstə olan körpəsindən göz yaşları ilə ayrıldı. Bu, onun son gedişi idi. Körpəsinin sağ qalacağından və ya öləcəyindən həmişəlik xəbərsiz qalan ata buraları birdəfəlik tərk etdi. Daha sonra Miryaqubdan heç bir xəbər gəlmədi. Çoxları düşünürdü ki, o, döyüşlərin birində həlak olub, ya da itgin düşüb...

## RUH BƏDƏNİ YUXUDA TƏRK EDİR

...Otaqda yenə üç nəfərdilər. Əlibala Hacızadə Telmandan bibisinin həyat yoldaşı Miryaqubun ruhunu çağırmağı xahiş etdi. Ev sahibi yenə də özünəməxsus tərzdə gözlərini yumub, pıçıltı ilə danışmağa başladı. Amma nəlbəki bu dəfə hərəkətə gəlmədi. Telman onun ruhunu üç dəfə də çağırdı, nəlbəki isə hərəkətsiz idi: Ruh gəlmirdi. Bu nədir? Möcüzə bitdi? Əlibala müəllim yenidən həyəcanlanmağa başlamışdı. Bu, təbii ki, Telmanın gözündən qaça bilməzdi: "Əlibala müəllim, həyəcanlanmayın. Miryaqubun ruhunu çağırmı-

şam. O, gələcək". Amma bu gəliş başqa idi. Ruh Telmanın çağırışlarına cavab vermirdi.

Aradan 7 saatadək vaxt keçirdi. Artıq əqrəblər gecə saat 3-ü vururdu. İntizarda olan yazarlar təəssüratlarını bölüşürdülər. Nəhayət, o biri otaqdan Telmanın səsi eşidildi: "Əlibala müəllim, Miryaqubun ruhu gəldi". Möcüzəli otaqda nə vaxt olduqlarını özləri də bilmədilər. Nəlbəki hərəkətə gəlmişdi. İlk sualı yenə də Telman verdi: "Miryaqub, buradakılardan kimi tanıyırsan?" Nəlbəki hərflər istiqamətində hərəkətə keçib "Əlibala" sözünü yazdı. "Şok terapiyası" hələ öndə idi. Ə.Hacızadənin "Miryaqub, ölmüsən, yoxsa sağsan" sualına cavab gözlənilməz oldu: O, "sağam" deyirdi. Aman Allah! Axı, bu, necə ola bilərdi? Ystündən uzun illərin ötməsinə baxmayaraq, hamı onu ölmüş bilirdi. Əgər Miryaqub sağdırsa, onun ruhunu necə çağırmaq olar? Növbəti "sağsansa, bəs indi hardasan" sualına "İngiltərədəyəm" cavabı verildi. "Orda evlənmisən" sualına da "hə" deyildi. Nəlbəki daim hərəkətdəydi. Görkəmli yazıçı sanki qəzet üçün müsahibə alırdı. O, sualı sual ardınca verirdi. "Həyat yoldaşının adı nədir" sualına isə "Ketrin" cavabı verildi. Ə.Hacızadə Miryaqubun ruhundan çox şey xəbər aldı. Bildi ki, müharibə vaxtı o, əsir düşüb. Dava qurtardıqdan sonra İngiltərəyə gedib. Orada işə düzəldikdən sonra Ketrin adlı bir qadınla evlənib, üç uşaqları, dörd nəvələri var. Əlibala müəllim "Miryaqub, bəs niyə vətənə qayıtmadın? Axı, səni gözləyənlər vardı" sualına "Qorxdum" cavabını aldı. "Axı, sən kimdən qorxurdun?" Cavab o qədər də təəccüblü deyildi: "Stalindən". Bəli, müharibə vaxtı əsir düşən sovet əsgərləri arasında təbliğat aparılırdı ki, əgər geri dönsələr, Stalin ya onları güllələtdirəcək, ya da Sibirə-"Arxipelaq"a sürgün etdirəcək. Bu səbəbdən almanlara əsir düşən yüz minlərlə sovet əsgəri vətənə dönməkdən imtina edirdi. Onların sırasında Miryaqub da var idi.

Ə.Hacızadənin növbəti sualı onun ailəsi ilə bağlı oldu: "Miryaqub, əvvəlki ailəni unutmamısan?" Nəlbəki yenidən hərflərin üzərinə şığıdı: "Yox. Onları həmişə xatırlayıram". "Neçə övladın vardı, xatırlayırsan" sualı sanki gözlənilməz oldu. Altında ruh olan nəlbəki bilmir, hansı tərəfə, hansı hərfə yan alıb cavab versin: iki, yoxsa üç? Axı, Miryaqub sonuncu dəfə evdən çıxanda iki oğlu qalmışdı. Körpə qızının sağ qalacağına isə heç bir ümidi yox idi. Ona görə də cavabın verilməsində çətinlik yaranmışdı. Bunu Əlibala Hacızadə də hiss etmişdi və sualını özü cavablandırdı: "Miryaqub, sən gedəndən sonra Tanrı qızın Səmayəni ölümdən qurtardı. Övladlarının üçü də bu gü-

nədək sağdır". Nəlbəki hərəkətini dayandırdı. Onun altındakı kiçik ruh sanki nəhəng bir insana çevrilmişdi, adama elə gəlirdi ki, o, hönkür-hönkür ağlayır. Əlibala müəllim daha sual vermədi. Telmanın "Miryaqub, sən azadsan" kəlməsindən sonra ruh yoxa çıxdı, nəlbəki əvvəlki kimi tam hərəkətsiz qaldı. Yazarlar hələ də şokdaydılar. Onlar nəyin baş verdiyini dərk edə bilmirdilər. Bu möcüzədən ayılmaq istər Əlibala Hacızadə, istərsə də Fikrət Qoca üçün çətin idi, olduqca çətin.

Bir sual da cavabsız qalırdı: Miryaqubun ruhu niyə gec gəldi? Telman bunu belə izah edirdi ki, ölülərdən fərqli olaraq, həyatda yaşayan insanların da ruhunu çağırmaq mümkündür, amma bir şərtlə: Gərək onlar yuxuda olsunlar. İnsan yuxuda olarkən ruh cismi tərk edir. İngiltərə ilə Azərbaycan arasında vaxt fərqini nəzərə alsaq, Miryaqubun ruhunun səhərə yaxın gəlməsi başa düşüləndir, yəni Bakıda saat 3.00 olanda Londonda təxminən gecəyarısıdır. Ruh azad olunmasa, cisim ayılmır. Telman da "ruh, sən azadsan" deməsəymiş, Miryaqub gözlərini bir daha açmazdı. Ruh azad olduqdan sonra geri-cismə qayıdır. Əks təqdirdə həyatla vidalaşmalısan. Görünür, əbəs yerə deməyiblər ki, filankəs yatıb, ayılmayıb.

*Ədalət Əliyev*

## ŞAİRLƏRİN, YAZIÇILARIN ÇOXU BƏDBƏXTDİR

## KİTABIN KİTABI BAĞLANMIŞDI – AÇILDI

Sevimli yazıçımız Əlibala Hacızadə ilə görüşüb sənət söhbəti etmək, baş-başa dərdləşmək çoxdankı arzum idi. Baxmayaraq ki, onunla neçə illərdir ki şəxsən tanışam, lakin arzum elə arzu olaraq qalmaqda idi. Nəhayət ki, bu görüş baş tutdu.

Əlibala müəllimlə axşamdan sözləşdiyimiz kimi, onun iş yerində – AMEA-nın Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunda görüşdük. Neçə illərdən bəri ürəyimdə ipə-sapa düzüb saxladığım suallardan birini ünvanlamaqla söhbətimizə körpü saldım:

- Əlibala müəllim, çoxdandı sizin əsərlərinizin yolunu həsrətlə gözləyən oxucular, nəhayət, bu yaxınlarda şad xəbər eşitdilər: Əlibala Hacızadənin oncildliyi çap olunur! Bu xəbər doğrudurmu?

- Doğrudur.

- Bəs niyə bu qədər gec?

- Həqiqətən də, mənim 1992-ci ildə çap olunan son “Dünyanı tanı” romanımla əsərlərimin işıq üzü görməsi dayandı. Məlum Qarabağ hadisələri, cəmiyyətdə baş verən çaxnaşmalar hər sahəyə olduğu kimi, ədəbiyyat, sənət sahəsinə də öz mənfi təsirini göstərdi, kitab çapı ilə məşğul olan nəşriyyatların işində də bir durğunluq yarandı. 1995-ci ilədək heç bir kitabım çıxmadı. O zaman mən Ali Diplomatiya Kollecində dərs deyirdim. Kollecin rektoru, professor Nazim Hüseynli mənim balaca bir kitabımı öz vəsaiti hesabına çap etdirib 65 illik yubileyimə hədiyyə etdi. Sonra yenə kitablarımın nəşri dayandı. Artıq dövran dəyişmişdi; əvvəllər deyirdilər, kitabını gətir – pulunu apar, indi isə deyirdilər ki, pulunu gətir, kitabını apar. Yəni ki, kitabın kitabı bağlanıb artıq! Ona görə də kimin pulu vardı – gətirib kitabını aparırdı, mənim kimi pulsuzlar da kənarda durub baxırdı. Beləcə, 10 ilə yaxın müddətdi ayrıca qəzetlərdə, jurnallarda haqqımda gedən yazıları, aparılan müsahibələri, romanlardan parçaları nəzərə almasaq, kitabım nəşr olunmayıb. Ötən il martın 7-də mənim AzTV-nin “Səhər” proqramında “Şənbə qonağı” kimi çıxışımdan sonra Saatlı rayonunun icra hakimi Gülhüseyn Əhmədov mənim bir kitabımı nəfis şəkildə çap etdirdi...

- Atalar yaxşı deyiblər ki, hər qaranlıq gecənin bir işıqlı gündüzü var...

- Elədir. Kitab çapdan çıxandan sonra dostlarım əl çəkmədilər ki, gəlin kitabı yuyaq. Razılıq vermədim, lakin mənə qulaq asanmı vardı?! Bir də gördüm zəng edirlər ki, dur gəl Patamdartdakı “Fərid” restoranına. Əlacsız qalıb getdim. İçəri girmişdim ki, cavan bir oğlan yaxınlaşdı stolumuza. Dostlarım dedilər ki, tanış ol, bu, Əlibala Hacızadədir. Oğlan bunu eşidən kimi yaxınlaşıb məni qucaqladı ki, bəs ay əmi, hardasan, neçə ildir səni axtarıram, tapa bilmirəm. Dedim: “Ay oğul, kimsən, məni niyə axtarırsan?” Qayıtdı ki, Aşağı Cürəlidə orta məktəbdə oxuyanda Şairəli adlı sinif yoldaşın, dostun olub, onu xatırlayırsanmı? Dedim ki, nə danışırsan, heç yadımdan çıxırmı ki?! Alim adlı həmin gənc, sinif yoldaşım Şairəlinin oğlu və bu restoranın sahibi olduğunu dedi. O, təzə çap olunmuş kitabımı görəndə ikiqat sevindi, kitabın təqdimatını özünün keçirəcəyini bildirdi. Nə illah elədim, dedi, “yox ki, yox!” Siyahı tutuldu, dəvətnamələr yazıldı, təqdimatın günü təyin olundu: iyunun 29-u!

- Deyəsən, oncildliyinizin sponsoru, görkəmli xeyriyyəçi eloğlumuz Gülağa Qənbərovla tanışlığınız da təsadüfi olub...

- Doğrudur. Danışdığım hadisəyə qədər, yəni hələ iyunun 22-də televiziya verilişlərindən qiyabi tanıdığım, Masallının Ərkivan kəndindən olan Gülağa Qənbərovla görüşmüşdüm. Qeyd edim ki, onun respublikamızda gördüyü xeyriyyə işləri barədə televiziyadan eşitdiyim məlumatlar məndə o qədər xoş təəssürat oyatmışdı ki, tanımaza-bilməzə ona müraciətlə açıq məktub şəklində bir məqalə yazıb mətbuatda çap etdirmişdim. Bir də gördüm ki, onun da mənə açıq məktubu dərc olunub mətbuatda! Beləliklə tanış olduq. Sən demə, Gülağa Tənha həm də gözəl şair imiş. Vətən həsrətli şerləri insanın qəlbini oynadır, xüsusilə də, “Vətənə gələndə”, “Dünya” və s. Onlarla şerinə mahnılar bəstələnib, dinləyicilər tərəfindən sevilir. Həm vücudu, həm də qəlbi yaralı olan Gülağa müəllim Əfqanıstan müharibəsi veteranıdır. Ancaq qəlbini döyündürən vətən yanğısı hər zaman onu böyük xeyriyyə aksiyaları keçirməyə sövq edir. Dediyim həmin görüş də Gülağa Qənbərovun Əhmədlidəki 3 saylı uşaq evinə növbəti yardımı zamanı baş tutmuşdu. Bu aksiya zamanı o, uşaq evinin 300 nəfər balaca sakininə başdan-ayağacan geyim əşyaları gətirmişdi. Bu uşaqların sevinclərini görəndə ürəyim dağa döndü; həqiqətən də, yetim ürəyi sevindirməkdən böyük savab iş yoxdur dünyada!

Gülağa müəllimlə söhbət zamanı sözarası məndən soruşdu ki, nə var, nə yox? Hər işin qaydasında olduğunu bildirib, haçanacan Bakıda olacağını soruşdum. Dedi, sabah gedirəm. Heyfsiləndiyimi görüb, sə-

bəbini soruşdu. Burada olsaydı, ayın 29-na nəzərdə tutulmuş kitabımın təqdimat mərasiminə dəvət etmək istədiyimi bildirdim. O, bir həftədən sonra yenidən Bakıya qayıdıb bu mərasimdə hökmən iştirak edəcəyini bildirəndə, düzü, o qədər də inanmadım. Və...

Gülağa Qənbərov həmin gün həqiqətən də gəldi, həmin tədbirdə iştirak və çıxış etdi. Burada onun dediyi sözlər mənim kimi, yəqin çoxları üçün də gözlənilməz oldu: "Gülhüseyn müəllim sağ olsun, Əlibala müəllimin bir kitabını çap etdirib. Mən isə sevimli yazıçımızın oncildliyini nəşr etdirib onun 70 illik yubileyinə hədiyyə edəcəyəm".

- Bu sözlər söz olaraq qalmadı ki?

- Qətiyyən. Bunlar adi söz deyil, onun verdiyi bir hökm idi. Artıq kitablarımın 5 cildi 1500 tirajla işıq üzü görüb və Gülağa müəllim "Avropa" otelində çox yüksək səviyyədə təqdimat mərasimi də keçirib. Növbəti beşcildliyim isə çap prosesindədir, yəqin ki, ilin sonunadək onların nəşri başa çatacaq.

- Əlibala müəllim, qarşınızda haçansa belə bir işıqlı yolun açılacağına inanırdınızmı?

- Qiymət xanım, siz özünüz də şair olduğunuz üçün yaxşı bilirsiniz: insan həyatında bəzən elə zamanlar olur ki, qarşında qara zolaq açılır – gedirsən, gedirsən, görürsən ki, elə qaranlıqdasan, bir yana çıxa bilmirsən. Nəfəsin təntiyənə, taqətdən düşənə qədər gedirsən və Allah istəsə, birdən bir ağ zolaq peyda olur qarşında və ... rahat nəfəs alırsan. Mən də elə bir vəziyyətdə idim, ruhdan düşmüşdüm. Nə qədər çırpınsam da, qara zolaqdan çıxa bilmirdim, tamam öləzimiş, solğun həyatdan bezmişdim. Belə bir vaxtda Gülağa Tənha kimi nəcib allah adamı çıxdı qarşıma. O bütün insanların, xüsusilə də, köməyə ehtiyacı olan böyük sənətkarların hamısının xeyirxahıdır. Gözəl bəstəkarımız, xalq artisti Şəfiqə Axundova barədə yazılmış kitabı çap etdirib, təqdimat mərasimini keçirdi. Akademik Bəkir Nəbiyevin yubileyini keçirdi, haqqında kitab nəşr etdirdi. Akademik Akif Əlizadənin kitabının işıq üzü görməsi də Gülağa müəllimin adı ilə bağlıdır.

- Gülağa Tənhanın Azərbaycan təhsilinə yaxından kömək göstərdiyini də xalqımız yüksək qiymətləndirir...

- Bilirsinizmi, həmin işlərin həcmi, ona sərf olunan vəsait o qədər böyükdür ki, bu insanın qeyrətinə, xalqı yolunda göstərdiyi fədakarlığa heyran qalmaya bilmirsən. Gülağa Qənbərov Masallıda, Şamaxıda, Bakıda müasir üslubda məktəb binaları tikdirərək, şagird-

lərə hədiyyə edib. Masallının Təzəkənd kəndindəki məktəbin açılış mərasiminə mən də dəvət olunmuşdum. "H.Əliyev Fondu"nun prezidenti Mehriban Əliyeva açılışda iştirak edirdi, kompleks onun da çox xoşuna gəldi. Bakının Şüvəlan qəsəbəsindəki hər cür avadanlıqla təchiz edilmiş üçmərtəbəli məktəb kompleksin – pansionatın, Şamaxı şəhərindəki məktəb binasının tikilib uşaqların ixtiyarına verilməsi, yetişən gənc nəslə onun göstərdiyi böyük və təmənnasız xidmətinin nəticəsidir. Gülağa müəllim qocalar evini də təmir etdirb, oraya su çəkdirib, 3 saylı uşaq evini himayəyə götürüb. Təzəkənddə olarkən, 46 şagirdin orta məktəbi qurtaranadək tələb olunan bütün xərclərini öz öhdəsinə götürdü, bu barədə onlara "Gülağa Qənbərov Fondu"-nun vəsiqəsini payladı.

Bu ilin may ayının 30-da Şamaxıda keçirilən ənənəvi "Sabir poeziya günləri"ndə Gülağa Qənbərov da iştirak edirdi. Mərasim zamanı xeyriyyəçinin şəxsi proyektinə əsasən, Böyük Azərbaycan şairi M.Ə.Sabirin məqbərəsinin təməli qoyuldu. 2006-cı il mayın 30-da məqbərənin açılışı olacaq.

- Bu cür gözəl təşəbbüsləri biz də hər zaman alqışlayırıq. Elə qəzetimizin yaradıcıları da hər zaman respublikamızda xeyriyyəçilik işləri görür, imkansız ailələrə, ata-ana himayəsindən məhrum uşaqlara, müharibədə şəhid olmuş oğullarımızın ailə üzvlərinə daim yardım göstərirlər...

- Əlbəttə, bu yolda atılan hər bir addım təqdir olunmalıdır. Yeri gəlmişkən, qeyd edim ki, qəzetinizin adı da, məramı da çox xoşuma gəlir. Çünki bu adın özündə böyük bir məna var. Hələ 2001-ci ildə mərhum prezidentimiz Heydər Əliyev xaricdə yaşayan azərbaycanlıları dəvət edəndə ki, gəlin vətənə xidmət edin, bu çağırışa qoşularaq gələnlərdən biri, bəlkə də birincisi elə Gülağa Qənbərov oldu. Vətən çağırdı, o da gəldi! Özü də kişi kimi gəldi! Onun bir şeri də var: "Kişi kimi gəl – Vətənə gələndə!" Çox qeyrətli oğuldur.

- Əlibala müəllim, maraqlısı budur ki, sizin də həyatınızın bir neçə ili Əfqanıstanla bağlıdır, Gülağa Qənbərovun da. Demək, sizi bu tellər də bağlayır bir-birinizə...

- Yerində verilmiş sualdır. Bizi həqiqətən, Əfqanıstan həyatı da yaxınlaşdırır bir-birimizə. Amma fərq bircə bundadır ki, mən sakit, sülh dövründə olmuşam bu ölkədə, o isə qanlı-qadalı müharibə dövründə. Mən 1966-70-ci illərdə, Zahir şahın dövründə tərcüməçiliklə məşğul olmuşam, o isə Sovet Ordusunun tərkibində döyüşlərdə iştirak edib, əsir düşüb, kontuziya alıb. Hətta top səsindən bir qulağı-

nın pərdəsi partlayıb, yaxşı eşitmir. Demək, Əfqanıstan təkcə onun ürəyində yox, həm də ki, bədənindəki ağrılarda yaşayır. Bizim çox cavanlarımız bu ədalətsiz müharibənin günahsız qurbanları olublar. Ağsudan Elsevər adlı cavan, istedadlı bir şairimiz bu döyüşlərdə həlak oldu, mən onun yadigar qalmış şerlərinə müqəddimə yazıb kitab halında çap etdirdim. Akademiyada çalışan Cavanşir adlı olduqca qabiliyyətli, nişanlı oğlan da əfqan müharibəsinin qurbanı oldu. Belə itkilərimiz çox olub, şükürlər olsun ki, Gülağa Qənbərov bu döyüşlərdən salamat qayıtdı vətənə. Bəlkə də onu Allah-təala Azərbaycana məhz bu xeyriyyəçilik işlərini həyata keçirsin deyə yenidən bağışladı.

MƏN “İTKİN GƏLİN”İ BELƏ YAZDIM...

- Ədəbi yaradıcılığınızın Əfqanıstan mərhələsi də bizim üçün çox maraqlıdır. Xahiş edirəm, bir qədər də bu barədə oxucularımıza məlumat verəsiniz.

- Mən Əfqanıstana gedəndə artıq SSRİ Yazıçılar İttifaqının üzvü idim. Üç kitabımla oxucular tanış idilər: “Heykəl gülür”, “Unutmaq olmur”, “İnam”. Əfqanıstan həyatı isə mənim üçün yeni idi. Orada bir neçə hekayə yazdım, lakin sonradan gördüm ki, təəssüratlarım hekayəyə sığışmır. Böyük əsərlər yazmaq lazım idi. Daxilimdəki duyğular aşıb-daşsa da, onları qələmə almaq üçün mənə bir stimul, içimi yerindən oynadan sehrli bir qüvvə lazım idi. Hələliksə, bu qüvvə gəlib çıxmaq bilmirdi.

...1967-ci ildə Kabulun küçələrindən birində maşınla gedirdik, bir də gördük bütün hərəkət dayandı; atların, dəvələrin üstündə gedənlər də, maşında olanlar da. Sürücüdən soruşdum ki, nə olub? O mənə hamının baxdığı tərəfi göstərdi. Baxdım ki, ilahi, ağappaq geyinmiş, su sonasına bənzəyən qənirsiz bir gözəl gəlir! O qədər gözəldir ki, baxanın ağlını əlindən alır. Həddən artıq bahalı geyimdə, başdan-başa qiymətli zinət əşyaları ilə bəzənmiş bu gözəl şahanə addımlarla yeridikcə, elə bil üstümə nur seli axırdı. Lap yaxınlığımızdan keçəndə özüm də bilmədən qeyri-ixtiyari qışqırdım: “Tapdım!” Axı Əfsanənin adını çoxdan tapmışdım, ancaq özünü axtarırdım ki, əsəri başlaya bilim. Nəhayət, özünü də tapdım və o andaca düşündüm ki, bu cür gözəl qadınlar həyatda heç vaxt xoşbəxt ola bilməzlər. Qoymazlar onu xoşbəxt olmağa, taleyi gözəlliyinin qurbanı olar. Əri varsa, onun başını kəsib alarlar əlindən, oğurlayarlar, götürüb

qaçarlar, qoymazlar rahat yaşasın. Mən həmişə Azərbaycanı qənirsiz gözəllərlə müqayisə etmişəm, çünki onun başına nə bəlalar gəlibsə, elə gözəlliyindən gəlib; yeraltı, yerüstü sərvətlərinin zənginliyi, təbiətinin bənzərsizliyi yadelliləri daim özünə çəkib. Hamı istəyib ki, bu torpaqlara sahib olsun. Necə ki, hər kəs istəyirdi ki, Əfsanə onun olsun.

- Nədənsə məndə belə bir fikir yarandı ki, həmin sahiblik istəyini elə ədəbi yaradıcılığa da aid etmək olar. Məsələn, çoxları istərdi ki, Əlibala Hacızadəyə sonsuz şöhrət gətirən “İtkin gəlin”, “Əfsanəsiz illər”, “Ayrılığın sonu yoxmuş” və s. kimi gözəl əsərlər məhz onlara məxsus olaydı. Siz özünüz necə, bu cür qibtə, paxıllıq hissləri ilə qarşılaşmısınızmı?

- O qədər! Çünki Azərbaycanda o cür yüksək tirajla nəşr olunaraq “göydə qapılan” kitab heç vaxt olmayıb. “İtkin gəlin” 300 min tirajla işıq üzü görmüş ərəfələr idi. Saatlıda zona müşavirəsi keçirilirmiş. Heydər Əliyev müşavirədən sonra tarlalara gedib pambıqçılarla görüşür. Bu zaman o, kimin nəyə ehtiyacı olduğunu soruşur, bunu da qeyd edir ki, ürəklərindən nə keçsə, onu yerinə yetirəcəkdir. Pambıqçı qızlardan biri irəli çıxaraq, heç nədən korluq çəkmədiklərini, yalnız bircə istəklərinin olduğunu bildirir: Sən demə, yenicə çapdan çıxmış və əldən-ələ gəzən “İtkin gəlin”dən bu kəndin payına yalnız bircəciyi düşübmüş və kitaba növbəyə duranlar arasında 23-cü adam olan qız arzu edir ki, əsər yenidən böyük tirajla nəşr olunub satışa buraxılsın ki, bütün oxucular ala bilsinlər. Heydər müəllim qayıdır ki, “elə bu?!” Yanındakılara tapşırıq verir ki, əsər yenidən böyük tirajla çap edilsin. Beləliklə, kitab hər dəfəyə 100 min olmaqla, üç dəfəyə nəşr olunub respublikanın hər yerinə göndərilir. “Əfsanəsiz illər” də, “Ayrılığın sonu yoxmuş” da eləcə. Hər dəfə də mağazalara çatan kimi oxucular göydə götürürdülər. Hətta sonradan başlandı oğurluq nəşrlər! Eşitdim ki, gizli surətdə çap edilmiş həmin kitablardan “Kommunist” küçəsindəki “Akademkitab”da da satılır. Getdim. Satıcıya o vaxtın 5 manatını uzadıb “Əfsanəsiz illər”i istəyəndə, o məni tanımadı. Puldan 2 manat qaytarıb, mənə kitabı xeyli bahasına verdi. Baxdım ki, həqiqətən də oğurluq nəşrdir. Nəşriyyatda mənə dedilər ki, kitabı gizli çap edənləri məhkəməyə verək, razı olmadım.

- Nəyə görə?

- Düşündüm ki, kimsə mənim əsərlərim hesabına beş manat çörəkpulu qazanmaq istəyirsə, qoy qazansın...

- Əlibala müəllim, əsərləriniz vaxtilə bu qədər böyük tirajla işıq üzü görüb, ancaq bayaq söhbət zamanı yeni nəşr olunan kitablarınızın sayını da "böyük tiraj" adlandırdınız. Bunu necə başa düşək?

- İndiki dövr üçün bu, böyük rəqəmdir. Nazim müəllimin və Gülhüseyn müəllimin vəsaiti ilə çap olunan kitablarım 500 tirajla, Gülağa Tənhanın nəşr etdirdiyi oncildlik isə 1500 tirajla işıq üzü görüb. Nəzərə alsaq ki, əksər hallarda kitablar ən çoxu 500 tirajla çıxır, mənim kitablarımın sayı, hazırki iqtisadi vəziyyət üçün heç də kiçik rəqəm sayılmamalıdır. Onu da qeyd etməyi özümə borc bilirəm ki, Gülağa müəllimin şəxsi vəsaiti hesabına çap olunan kitablar hədiyyə edilir. Onları satmağa nə mənim, nə də başqa birisinin ixtiyarı yoxdur. Çünki həmin kitabların əsl sahibi o kişidir və onun istəyi belədir.

- "İtkin gəlin"dən sonra Azərbaycanda saysız-hesabsız Əfsanələr dünyaya gəldi. Bu Əfsanələr sizin Əfsanənizə bənzəyirmi?

- Səxavət adlı çox yaxın bir dostum var. O mənə deyir ki, elan verib Azərbaycandakı bütün Əfsanələri, Elməddinləri, Nəcməddinləri bir yerə yığsaq, görəsən, Respublika Sarayı onları tutarmı? Və onları bir yerə yığı bilsən, öz talelərindən o qədər maraqlı şeylər danışarlar ki, neçə-neçə qalın kitab alınar. Bu, həqiqətən də, belədir. Respublikanın hansı rayonuna, hansı kəndinə getsəm, əsərlərimin qəhrəmanlarının adını daşıyan o qədər müxtəlif insanlarla qarşılaşıram ki!

Keçən il bir zəng oldu mənə, gördüm, çox zəhmli səsə malik bir kişidir. Nə istədiyini soruşduqda, yazıçı Əlibala Hacızadəni axtardığını və onunla hökmən görüşmək istədiyini bildirdi. İş ünvanımı desəm də, düzü, bərk təlaşlandım, çünki səsindən bu insanın mənimlə dava etmək istədiyi hiss olunurdu. Bu cür düşünməyə haqqım vardı. Axı "Vəfalım mənim" çıxanda kitabın içindəki qəhrəmanlar sanki canlandılar, dirildilər. Çoxları onları real, konkret şəxslərə çevirib mənim üstümə qaldırdılar. Söyüşlər, təhdidlər, evimə telefon zəngləri ara vermirdi. Hətta bir dəfə dəstəyi qızım Asya götürür. Telefondakı deyəndə ki, "Atanın ürəyi ağrımır ki?!"- qızım olduqca hazırcavab olduğu üçün ona belə bir cavab verir: "Qoy elə mənim atamı istəməyənlərin ürəyi ağrısın!" Bir dəfə də oğluma deyirlər ki, gəlib evdə hamınızın başını kəsəcəyik. Daha sonra elə oldu ki, telefonu özüm götürdüm. Ancaq deyim ki, belə alçaq hərəkətlərdən sonra, həqiqətən də ürəyim ağrıyırdı. Telefondakı adam elə bildi ki, bu dəfə də dəstəyi götürən oğlumdur, qayıtdı ki: "Anana, bacılarına da de,

Əlibalanı "Nərimanov" prospektini keçərkən maşın vurub öldürüb, gəlin meyidini götürün". Dedim, kimdi danışan, cavab verdi ki, tanışlardandı. Hirsimdən əsə-əsə: "Səninlə danışan Əlibalanın özüdür, ay..." – deyə söymək istəyirdim ki, dəstəyi asdı. Tüklərim biz-biz olmuşdu, xeyli vaxt özümə gələ bilmədim ki, gör nadürüstlər nə cür alçaq yollara əl atırlar...

- Bəs bildinizmi o şəxslərin kim olduğunu?

- Yox, bilmədim, ancaq anladım ki, öyrədilmiş adamlardır, məni mənən məhv etmək üçün bu çirkinliklərə əl atırlar. Axı mən ömrüm boyu heç kəsə pislik etməmişəm, bir kimsənin toyuğuna "kiş" deməmişəm...

- Sizcə, bu təhdidlər sizin özünüzə qarşı idi, yoxsa əsərlərinizin təsirindən xoflanan bəziləri belə çirkin yol tutmuşdular?

- Əlbəttə, əsərlərimin təsiri idi onları özündən çıxaran. Məsələn, vəzifəli şəxslərə deyirdilər ki, Əlibala burada sənin obrazını yaradıb. Qadınlara yalandan: "burada səni göstərmək istəyib", - deyərək ərlərini üstümə qaldırırdılar. Akademiyanın prezidentinəcən gedib çatdırmışdılar ki, bu adam yazıb səni rüsvayi-cahan eləyib. Həsən Bağıroviç də demişdi ki, qoy sentyabr gəlsin, mən o Əlibala Hacızadəni partiya sıralarından iti qovan kimi qovacağam. Mənə bu xəbəri çatdırana dedim ki, kişidirsə, qovsun. Sentyabr ötdü, oktyabrın əvvəlləri idi. Partkom yaxınlaşdı ki, yuxarıdan tapşırıq veriblər sənin məsələni partiya iclasında qaldırım. Dedim, qoyun məsələmi, nə olar. Dedi: "Axı sən partiya üzvü deyilsən!" Mən də cavabında: "Əlbəttə, mən sizin partiyanın üzvü deyiləm. Necə çıxara bilərsiniz məni üzvü olmadığım partiyadan?!"

Sizin verdiyiniz sualın üstünə qayıtmaq istəyirəm. Demək, bu hadisədən az vaxt keçib, heç özümdə deyiləm, dedim, görəsən, bu kim idi, haradan çıxdı? Ehtiyatlandım, yoldaşlara da dedim ki, buralarda olun, görək gələn kimdir. Oturub çay içirdik, bir də gördüm, budu ha, pəzəvəng bir kişi gəlir. Kim olduğunu soruşduq. Dedi, heç, adi bir adamam. Dedim, allah saxlamış, elə danışdın telefonda, ürək-göbək qalmadı ki məndə! De görüm sənə nə lazımdır? Demə, bunun 22 il qabaq bir qızı olub, adını da qoyub Əfsanə! Həmin gün də onun nişanıymış. Atası da ona söz veribmiş ki, Əlibala Hacızadə harada olsa, tapıb gətirəcəyəm nişana! Dedim, elə bu? Sən məni öldürdün ki?! Bundan asan nə ola bilər ki?! Kişi saat 6-da dalımca maşın göndərəcəyini bildirib getdi. Mən də bir kitab götürüb getdim məc-

lisə. Gördüm Əfsanə budu ha, oturub nişanlısıyla, özü də ki gözəllər gözəli!

Mənə söz verəndə: "Sənin əsl atan bu kişi, mənəvi atansa mənəm!" – deyib kitabı Əfsanəyə hədiyyə etdim, cavanlara xoşbəxtlik arzuladım.

- Əlibala müəllim, ömrünüz boyu maraqlı hadisələrlə qarşılaşmısınız. Ən yaddaqalanlarından bəzilərini danışmağınızı xahiş edirəm...

- Çox olub belə hadisələr. Bir dəfə Nizami adına muzeydə görüş keçirilrdi. Tədbir başa çatandan sonra vestibüldə dayanıb siqaret çəkirdim. Bir qadın yaxınlaşdı mənə: "Əlibala müəllim, görüşdə bir söz demək istəyirdim sizə, ancaq utandım, demədim. Siz mənə iki qazan borclusunuz". Gördüm sözlü adama oxşayır, dedim nəyə görə? Başladı danışmağa: "Bazardan ət almışdım, gələndə gördüm "İtkin gəlin" satılır, onu da aldım, gəldim evə. Ətin bir hissəsini asıb başladım kitabı oxumağa, bir də onda ayıldım ki, aləm tüstüyə bürünüb, ət də yanıb, qazan da. Sonra qalan əti də başqa qazana töküb qoydum bişməyə, özümə də söz verdim ki, qoymaram bu dəfə əti yanmağa. Marağımı saxlaya bilməyib yenə başladım kitabın ardını oxumağa. Qazandakı ət yadıma düşəndə artıq gec idi, əti yenə yandırmışdım. Hirslənib kitabı atdım kənara ki, səni bir də yemək bişirən zaman oxumayacağam". Güldüm, dedim: "Xanım, təəssüf ki, ünvanınızı bilmirəm, yoxsa sizə 2 nədir, 3-4 qazan alıb verərdim".

Kəlbəcərdə iki dost var, evlənəndən sonra birinin qızı, o birinin oğlu olur: adlarını da Əfsanə, Elməddin qoyurlar. Uşaqlar böyüyür, yetkinlik yaşlarına çatanda bir-birilərini sevirlər. Oğlanın atası nəyə görəsə qızın atasından inciyibmiş, odur ki, daş atıb başını tutur, deyir, öldür oğluma həmin qızı almaram. Sevənlər də qalıblar belə ki, neyləsinlər. Bakıya gəliblər ki, bir ağsaqqal tapıb minnətçi göndərsinlər, kişini razı salsın. Çayxanada təsadüfən mənimlə dost olan Çingizlə oturub çay içirmişlər. Dostum arada mənimlə zəngləşir, adımı çəkəndə kəlbəcərlilər soruşurlar ki, hansı Əlibala? Deyir, necə hansı, əlbəttə ki, yazıçı Əlibala Hacızadə! İnanmırlar. Dostum onları götürüb gəlir mənim yanıma, hadisəni danışırlar. Deyirəm ki, bundan asan nə var?! Qız da, oğlan da əslində elə mənim mənəvi övladlarımdır, verdim, getdi! Allah xoşbəxt eləsin. Elməddini də göndərdim Bərdəyə – qızgilə, xəbər verib muştuluqlasın ki, atamı razı saldım. Qaçqın düşdükləri üçün, qızgil Bərdədə, oğlangil Mərdəkanda yaşayırlar. Beləcə bu müşkülü də həll edə bildik...

Bir dəfə də doğma rayonuma – Biləsuvara, kənd təsərrüfatı nailiyyətləri sərgisinə getmişik. Açılışdan sonra icra başçısı Ramiz Zeynalov bizi təşkil olunmuş sərgiyə baxmağa dəvət etdi. Sərgiyə baxırıq, görürəm, bir inək bağlanıb ağaca, yanında da lövhə asılıb. Lövhədə yazılıb: Adı – Əfsanə; yaşı bir belə, bu qədər süd verir, bir belə də bala verib...

Görürsünüzmü, belə hallarla mən demək olar, hər gün qarşılaşıram. Dostum Səxavətin sözü olmasın, bütün Əfsanələri, Elməddinləri yığsan, nə qədər elər, bir Allah bilir!

- Mənə belə gəlir ki, əsl sənətkarların başı həmişə qalmaqallarda olur. Demək istəyirəm ki, yaradıcılıqları onlara bir yandan şöhrət gətirsə də, digər tərəfdən başağrısı gətirir. Necə ki, bayaq söylədik; sənətinə qısqanclıqla yanaşanlar, paxıllığını çəkənlər çoxalır, düşmənləri artır. Əlibala müəllim, bəs ailədə necə, sizi başa düşürlərmi, həyat yoldaşınız sizi qəhrəmanlarınızın prototiplərinə qısqanmır ki?

- Çox olur. Siz də yaxşı bilirsiniz; yazı-pozu elə işdir ki, adamı büsbütün işğal edir. Sən əslində öz ixtiyarında olmursan, sənət adamı kimi adi adamlardan fərqlənirsən. Axı sən onlar kimi yaşaya, düşünə bilmirsən, həmişə onlardan hardasa bir baş yuxarı olmalıdı sənin mövqeyin. Səni, məni, bütün xalqı, torpağı, hər kəsi düşünməlisən – əlbəttə ki, söhbət əsl sənətkardan gedirsə! Həmişə deyirəm ki, şair, alim, yazıçı arvadı olmaq çox çətin, məsuliyyətli işdir. Hər qadın bunu bacarmır. Ona görə də, şairlərin, yazıçıların çoxu bədbəxtdir. Barmaqla sayıla biləcək sənət adamı ola bilər ki, qadını onu bir sənətkar kimi düzgün başa düşə bilsin. Axı sənət adamları yerlə-göylə əlləşən, dəli kimi öz-özünə danışan, gecə səhərə kimi qəhrəmanları ilə dərdləşən, söhbətləşən adamlardır. Onları gərək başa düşən adam ola yanlarında. Başa düşənin varsa, demək sən xoşbəxtsən?

- Əlibala müəllim, siz özünüz necə, xoşbəxtsinizmi?

- Mən haradasa xoşbəxtəm, amma tamamilə yox! Ümumiyyətlə, həyatda tam xoşbəxtlik mümkün deyil. Bəzi məqamlarda, evdə mənimlə adi fəhlə, yaxud traktorçu arasında fərq görülməyəndə, düzü, xətrimə dəyir. Bəzən fəhlələrə həsəd aparmışam; o, 8 saat çəkicini vurur, sonra alətini qoyur orda, çıxıb gedir evinə, ailəsinin üstünə. Onları da götürüb gedir gəzməyə, kinoya, nə bilim, ürəyi hara istəyir – ora. Ancaq biz sənətkarlar bunu edə bilmirik, axı beyin çəkic deyil ki, qoyub gedəsən. Ürək elə şey deyil ki, çıxarıb qoyasan, yerinə başqasını taxıb, ailənlə, uşaqlarınla məşğul olasan. Yazı-pozu

adamı üçün başqa cür mümkün deyil. Odur ki, gərək səni başa düşən, qiymətləndirən həyat yoldaşın olsun, əks halda, sən bədbəxtlərin bədbəxtisən...

- Ancaq mənə elə gəlir ki, onlar məhz bizim həyat yoldaşımız olduqları üçün bizdən daha artıq bədbəxtdirlər. Siz necə düşünürsünüz?

- Çox doğru söylədiniz. Əlbəttə, mənim həyat yoldaşım mənimlə, sizin həyat yoldaşınız sizinlə birlikdə olduqları üçün bəlkə də bədbəxtdirlər. Çünki bunun hamısı yaşam tərzidir, məişət məsələsidir. Axı onların da başqaları kimi xoşbəxt olmağa haqları var. Belə bir hadisə olmuşdu: "İtkin gəlin"i yazan vaxtlarımdı. Mətbəxdə oturub o səhnəni yazıram ki, şah məmləkətin birinci şairini hüzuruna çağırır. Şair də sevinir ki, yaxşı oldu, heç olmasa, məmləkətin dərdini şaha çatdıraram. Deyərəm ki, xalq əldən gedir, hamı ehtiyac, səfalət içərisindədir, niyə buna bir əncam çəkmirsən? Bunları görmürsənmi? Görmürsənsə, niyə görmürsən? Və sair... belə bir gərginlik içərisində çabaladığım vaxt hiss etdim ki, çiynimə bir əl qondu. Çevrilib baxanda, gördüm uşaqların anasıdır. Dedim, nə lazımdır? Qayıtdı ki: "Əlibala, evdə ət-yağ, soğan-kartof qurtarıb". Qələmi hirslə qoydum yerə ki: "Nə ət, nə yağ, nə soğan-kartof?! Görmürsən mən burda, sarayda oturmuşam, şahlarla söhbətləşirəm?!" Gördüm arvad qorxusundan dalı-dalı çəkildi ki, yəqin kişinin başına hava gəlib. Şahzad nə gəzir burda? Söz yox, həmin gün mən gedib bazarlıq elədim, arvad nə sifariş etmişdi, aldım, ancaq o yazı öldü. Sonradan düz on variantda işlədim həmin yazını, ürəyimcə alınmadı, cırıb atdım. On birincidə gördüm daha dözə bilmirəm, o cür saxladım, amma oxucunun heç vaxt ağlına belə gəlməz ki, mən nə əzablar çəkdim o yazının üstündə. Nə deyəcəkdim, necə deyəcəkdim, onu bozbaş yedi, bazarlıq uddu. Bəli, Qiymət xanım, siz də yaxşı bilirsiniz ki, belə halları var sənət aləminin!

Mən düz 16 il yaşadım "Əfsanə"ylə! Hansı qadına müraciət edirdimsə, qeyri-ixtiyari olaraq dilimdən "Əfsanə" kəlməsi, kişilərə xitab edəndə isə "Elməddin", "Nəcməddin" adları çıxırdı. Onda mən həqiqətən, ikili həyat yaşayırdım; biri ailəmlə, uşaqlarımla, cəmiyyətlə ünsiyyətdə olduğum, yaşadığım həyat, o biri isə mənim öz içimdəki, yalnız mənə məxsus, mənə məlum olan həyat! Mən bu ikinci həyatımda mövcud olan insanlarla sevinir, onlarla gülür, onlarla ağlayır, ac qalanlarla ac, susuz qalanlarla susuz qalır, ölənlərlə ölürdüm – bu mənim gözə görünməyən həyatım idi. Fəqət, çoxları

elə bilirdi ki, bütün bu yaşantılar məhz onlar üçündür. Bax, qadın istəyərəm ki, bu gözəgörünməz həyatı görsün, duysun. Başa düşülməyəndə insan özünə də nifrət edir, yaşadığı həyata da, hər şeyə də!..

- Bəlkə ikili həyat yaşamağa məhkum olması sənətkarın şərqli təfəkkürünə malik olmasından irəli gəlir? Sizə elə gəlmirmi ki, şair, yazıçı ailə qurmasaydı, bütün məişət qayğılarından, ev-eşik problemindən azad olsaydı, daha böyük əsərlər yaradardı...

- Sözünüzə haqq qazandırıram. Sənətkarsansa, sənət sənin sevgilindir. Demək, sən onsuz yaşaya bilməzsən, yaşayırsansa, deməli, əslində yaşamırsan. Bu sevgini sənin əlindən alsalar, bağrın çatlayar. Biz başqa cür yaşaya bilmərik. Məsələn, mən xanımımsız bəlkə də hardasa yaşaya bilərəm, birtəhər öyrəşərəm onun yoxluğuna, ancaq yazmadan yaşaya bilmərəm. Çünki sənət sevgisini mənə Allah verib, yalnız O özü ala bilər bu sevgini əlimdən! Sənətkarlıq Allah-təalanın sənə verdiyi ən böyük mükafat və ən böyük cəzadır. Oxucular sənətin ancaq zahiri tərəfini görürlər, daxilindəkiləri isə yalnız biz görə bilirik. Sənin, mənim çəkdiklərimi oxucu görə bilməz!

- Sənətin Allah vergisi olduğuna inanırsınızmı?

- Əlbəttə! İndi ədəbiyyata güclü axın var, çoxları bilmir bu, necə əzablı bir sənət yoludur. Axı Qiymət xanımın əlimdəki kitabının bu səviyyədə meydana çıxması üçün onun nə qədər problem yaşadığını, nə qədər əzab-əziyyət çəkdiyini oxucular təfərrüatı ilə anlaya bilməz. Onlara yalnız sonrakı şan-şöhrət maraqlıdır. Əsl yaradıcılıq nədir, onun mahiyyətini, fəlsəfəsini, nə qədər şərəfli, eyni zamanda son dərəcə məsuliyyətli bir sahə olduğunu isə yalnız əsl sənətkarın özü bilir. Axı hər adam yazıçı, şair, bəstəkar, rəssam və s. ola bilməz. Bunların hamısı Allah vergisidir. Tanrı ən çox bəyəndiyi bəndələrinə bu istedadı bəxş edir. Təsadüfi deyildir ki, Qurani-Kərimdə peyğəmbərlərdən sonra şairlərdən danışılır. Onlar da Allahın elçiləridir. Sənə şairlik ona görə verilib ki, ürək çırpıntılarını şerə çevirib milyonlara çatdırasan. Ürəyindəkiləri Allah sənin qəlbinə salır, onlar elə-belə göydən düşmür. Şer yazırsan, elə bilirsən bu elə-belə yazılır? Yox, bu, bir vəhy kimi, səda kimi asimandan, səmadan gəlir, sənin qəlbini danışdırır, ürəyini dilləndirir. Sən ki bu dərdləri görürsən, heç kəs həmin dərdləri sənin kimi görə bilməz. Dərd səni danışdırır, işğal olunmuş torpaqlar səni ağladır. O qədər sizin, mənim kimi içdən yananlar var ki, yaza bilmirlər. Allah bu qələmi bizə ona

görə verib ki, yaza bilməyənlərin də dərdini deyək, onların özünə çatdıraq.

Çox görmüşük hər birimiz: sevən oğlanlar, qızlar bir-birinə sevgi məktubları yazanda, ürək sözlərini çatdırmaq üçün hansısa şairin çox sevdiyi şerindən bir parçanı ora əlavə edib göndərir sevdiyinə ki, bunu mənim sənə olan sözlərim kimi qəbul et! Baxmayaraq ki, həmin şer özgəsinə yazılıb, ancaq o aşiq bu şerdə öz duyğularını, öz yaşantılarını görə bilib. Bu, artıq sənətin bəşəriliyi deməkdir. Xoşbəxt o sənətkardır ki, ötəri proseslərdən, gəldi-gedər hisslərdən deyil, ümumbəşəri şeylərdən yazır. Məsələn, məhəbbət ölməzdir, əbədidir. Mərdlik, vəfasızlıq, sədaqət, nifrət, xəyanət və s. də onun kimi. Nə qədər bacarırsan, yaz!

"İtkin gəlin"də Dünyanı mən öldürdüm, Nəcməddin yox. Onun əliylə ona görə öldürdüm ki, bu cür böyük məhəbbətlə sevən kişiyə sən niyə xəyanət elədin?! Nəcməddinin öz əliyəl özünü ona görə öldürdüm ki, sən niyə bunu sevdin, çirkabın içindən özün çıxarıb gətirdin və özün də bəlaya saldın. Əbdülü öz oğlunun – balaca Nəcməddinin əliylə məhz ona görə öldürdüm ki, o öz ağasına xəyanət etdi – ona çörək verən bir insanın xanımı ilə əlaqədə oldu, uşaq dünyaya gəldi. Bu xəyanətlərin heç birini bağışlamaq olmazdı! Bunları hər adam duya, görə, yaza bilməz axı! Allah-təalaya hədsiz dərəcədə minnətdaram ki, bunları yazmaq üçün mənə qələm verib.

- Allah-təalanın verdiyi müqəddəs qələmə heç xəyanət etmisinizmi?

- Yox. Ona heç vaxt xəyanət etməmişəm. Qələmimi bircə dəfə də olsun, zorlamamışam. Bir də görürsən ki, aylarla papağımı yan qoymuşam, gəzirəm, heç nə yazmıram. O zaman oturub yazıram ki, oxucuya deyiləsi sözüm var. Deyiləsi sözüm olmasa, nəyə görə vaxtımı itirim, niyə kağızı korlayım?! Bir çoxları, təəssüf ki, konveyer kimi, sanki planla işləyir, ilin əvvəlində özünə söz verir ki, hər gün beş səhifə yazacaq. Bu isə ildə edir min neçə yüz səhifə! Yazarsan ey, ancaq səni oxuyan olmaz, bu özünü aldatmaqdı. Allahın verdiyi bərəkətə xor baxmaq olmaz. Nə vaxt qulağıma deyərlər, mən qələmə pıçıldaram, o da köçürər kağıza. Deməzlər, oturub baxaram, gözləyərəm. Məncə, sənətin bütövlüyü bundadır.

- Əlibala müəllim, gəlin boynumuza alaq ki, görkəmli sənətkar olmağınıza baxmayaraq, çox sadəsiniz. Küçədə görən insanların əksəriyyəti bəlkə də sizi tanımır, bundan darılmırsınız ki?

- Tanınmamaq mənim üçün dərd deyil. Əksinə, xoşlamıram tanısınlar. O vaxt satıcı öz kitabımı özümə baha qiymətə satanda mənə ləzzət eləyib. Bilirsinizmi, mənə kimlərsə Əlibala Hacızadə olduğuma görə hörmət edəndə çox sıxılıram. Adi insan, adi Əlibala kimi hörmət etsələr, bax, bu mənə ləzzət eləyər. Məşhur olmağın yaxşı tərəfləri olduğu kimi, çox fəna tərəfləri də var. Bir də görürsən ki, tanınmış adam hansısa bir yaramaz hərəkət edir, hamının gözü çıxır kəlləsinə ki, aman allah, həmin əsərləri yazan bu adam imiş?! İnsan elə yaşamalıdır ki, nə öz ailəsinə, övladlarına, nə də xalqına başaşağılıq gətirməsin. Heç kəs onun varlığından xəcalət çəkməmə-lidir.

- Siz öz övladlarınız üçün belə nümunəvi ata ola bilmisinizmi?

- Olmuşam. Cəsarətlə deyə bilərəm ki, mən o cür atayam. Bir ləyaqətli ata kimi öz ailəmin, övladlarımın, qohum-əqrəbamın, ümumilikdə isə, xalqımın üzünə şax baxa bilən bir insanam. Heç bir pis əməlin sahibi deyiləm ki, kiminsə yanında xəcalətli olum. Axı, insan ömrü qum saatı deyil ki, bir saat belə yaşayasan, sonra çevirəsən ki, yox, düz yaşamamışam, səhv etmişəm, indi də belə yaşamaq istəyirəm. Elə yaşamalısan ki, hamı sənin əməllərinlə fəxr etsin, pis əməl ucbatından gizlənməyə yer axtaranların son aqibəti hamıya məlumdur.

- Mənən zəngin insanları həyat həmişə öz məngənəsində sıxır, maddi çətinlik yaxalarından əl çəkmir. Bu mənada övladlarınızın yanında "üzüqara" deyilsiniz ki?

- Deməliyəm ki, övladlarıma yaxşı tərbiyə vermişəm, oxutmuşam, əlbəttə ki, anaları ilə birlikdə! Ancaq etiraf edim ki, ürəyim istəyən kimi onları təmin etməyi bacarmamışam...

- Niyə bacarmamısınız? Bəlkə daim dəyişən həyata uyğunlaşa, dəyişə bilməmisiniz?

- Elədir, dəyişə bilməmişəm. Təsəvvür edin ki, beş nəfərlik ailənin çörəkverəni olmuşam. Qazandığımı böləndə, cüzi pay düşüb hərəsinə. İnsan arzuları isə bitib-tükənməzdir; bir şeyi əldə edəndə, çalışırsan indi də başqasına nail olasan. Əla səviyyədə demərəm, hər halda orta səviyyədə yaşada bilmişəm övladlarımı. Balalarımdan çox razıyam: məni divara qısnamayıblar ki, əyri yolla haram tikə qazanıb yedirəm onlara. Onsuz da belə şeyləri bacaran deyildim, gücüm həmişə bir özümə çatıb, bir də qələmimə!..

- Qısa da olsa, övladlarınız haqqında məlumat verməyinizi xahiş edirəm.

- Üç övladım var: böyük qızım Təranə BDU-nun filologiya fakültəsini bitirib. Müəllim işləyirdi, indi uşaqlarla bağlı işləmir. Oğlum Qüdrət – ona atamın adını qoymuşam – Universitetin şərqşünaslıq fakültəsinin fars dili şöbəsini qurtarıb. Kiçik qızım Asya isə Universitetin jurnalistikasını bitirib. AzərTAC-ın müxbiridir, fəxr edirəm ki, qələmli jurnalist kimi öz sahəsində tanınıb, hörmət qazanıb. Üç nəvənin babasıyam. Nərgiz, Lalə Təranənin qızları, Əli isə Qüdrətin oğludur.

- Əlibala müəllim, qiymətli vaxtınızı ayırıb qəzetimizə müsahibə verdiyinizə, yaradıcılığınızla bağlı məqamlara aydınlıq gətirdiyinizə görə, sizə oxucularımız adından dərin minnətdarlığımızı bildiririk. Qarşıdan gələn 70 illik yubileyinizi indidən təbrik edir, sizə uzun ömür, cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

*Qiymət Məhərrəmli*
*"Vətən çağırır" qəzeti*

## KÖVRƏK DUYĞULAR ŞAİRİ

Qoynunda yer verdin Dədəm Qorquda,
Cavanşir, Babəkin…məzarı burda.
Məndən nə qalacaq bu doğma yurda-
Mən sənə borcluyam, borcluyam vətən!

Bu poetik misralar şair Azad Əliyevin "Sənə borcluyam, Vətən" şerindən götürülmüşdür. Şeir bütövlükdə yurdunu, millətini hədsiz məhəbbətlə sevən və onun gələcəyi üçün narahatlıq hissi keçirən bir vətəndaş şairin ürək döyüntüsüdür. Təsadüfi deyil ki, müəllif öz kitabının adını da məhz bu şeirdən götürmüşdür.

Azad Əliyevin poetik dili axıcı, aydın olduğundan mənə təqdim edilən bu şeir toplusunu bir nəfəsə oxudum. Belə qənaətə gəldim ki, kitabdakı şeirlərin əsas leytmotivi müqəddəs vətən məhəbbəti və sevgisidir. Elə sevgi ki, onun qüdrəti ilə şəhidlərimiz ölümün gözünə dik baxdılar. Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçdilər. Şairin özü də vətən sevgisi, yurd təəssübkeşliyi ilə könüllü olaraq səngərdən-səngərə atılıb, Qarabağ döyüşlərinin ən qaynar nöqtələrində olub. Təbiidir ki, döyüş təəssüratını ürək yanğısı ilə qələmə alıb.

Bəs şair öz oxucusuna konkret nə demək istəyir? Zənnimcə, hər şeydən əvvəl, onu demək istəyir ki, biz Vətənə həmişə borcluyuq. Çünki suyunu içir, çörəyini yeyir, təmiz havasını ciyərlərimizə çəkir, ana kimi ondan hər cür nəvaziş duyuruq. Yeri gəlmişkən, onu özümüzçün qorumağa qeyrətimiz çatmırsa, deməli nankor övladıq. Əlbəttə, bu nəcib hissi oxucuyla bölüşən şair nə qədər haqlıdır.

Azad, poeziyanın çətin və şərəfli yolunda sənə uğurlar arzulayıram.

*Əlibala Hacızadə*

# DOST SÖZÜ

## CAVAN YAZIÇININ İLK KİTABI

*(İxtisarla)*

"Heykəl gülür" Əlibala Hacızadənin birinci kitabı, ilk qələm təcrübəsidir. Buraya doqquz hekayə daxil edilmişdir. Hekayələrdə sovet gənclərinin qaynar və saf məhəbbətindən ("Heykəl gülür", "Bir dəstə nərgiz", "Ömrüm təzələndi"), Sovet hakimiyyətindən qabaq Bakı fəhlələrinin məşəqqətli yaşayışından ("Soyuq"), müharibənin ürəklərə vurduğu sağalmaz yaralardan ("Ağ saçlı qızın hekayəsi"), sosialist cəmiyyətinə yad olan zərərli ünsürlərdən ("Sadıq əl çalır") və bir sıra başqa məsələlərdən bəhs edilir.

Hekayələri oxuyub qurtarırsan, ancaq kitabı örtmürsən. Fikrə gedirsən. Yazıçının təsvir etdiyi sadə insanların taleyi barəsində düşünürsən. "Gənclik" heykəli üzərində məhəbbətlə çalışan Zərifə, Bənövşə ilə söhbət edən Solmaz, "böyük adam" olmaq ümidi ilə yaşayan Qeybalı, xoşbəxt Nərgiz, ilk eşqin ilk nəğməsini oxuyan Süsən elə bil kitabçadan baş qaldırıb səninlə kəlmə kəsmək istəyir. Hekayələr maraqla oxunur, oxucunu yormur. Bu, fərəhli cəhətdir.

Əsasən səlis, rəvan, axıcı dil ilə deyilən sözlər, təsvir olunan lövhə, rəsm olunan surət dərhal yadda qalır, ürəklərə yol tapır. Aydın yazmaq, sözü sərrast demək, fikri oxucuya yığcam şəkildə çatdırmaq, az sözlə çox mə'na ifadə etmək yazıçının həm xoşbəxtliyinə, həm də iste'dadının gücünə dəlalət edir.

Cavan yazıçılar arasında iri həcmli əsərlər - povest və roman yazmaq meyli get-gedə güclənir. Çox yaxşı ki, bu "xəstəlik" hələlik Əlibalaya sirayət etməmişdir. O, hekayə, həm də qısa novella yazmaqdan xoşlanır. Mə'lumdur ki, Anton Pavloviç Çexov böyük həcmli nəsr əsərləri yazmayıb. Bununla belə, qısa hekayələrin klassik nümunələrini yaratmışdır. Bədii əsərin əsas me'yarı həcmi deyil, bədii dəyəridir.

Əlibala Hacızadənin hekayələrində xoşagələn cəhətlərdən birisi təzəlik, təravət, yapışıqlıdır. İnsanların danışıq tərzindən başlamış təbiət təsvirlərinə qədəor hər yerdə yeni əhval-ruhiyyə, rayihəli təravət duyursan. Hekayələrdəki adamlar çox yapışıqlı və ünsiyyətlidir.

Əlibalanın hekayələrindəki müsbət cəhətlərdən birisi orijinallıqdır. Bu cavan yazıçının öz dəst-xətti, öz üslubu, yazı manerası, təhkiyə üsulu vardır. Həm də Əlibala Hacızadə axtarışlarını davam etdi-

rir. Onun yazıları heç kəsin əsərinə oxşamır. Mə'lumdur ki, salınmış və tapdanmış yolla getmək, hazırına nazir olmaq sənət dilində təqlidçilik və yamsılamaq adlanır. Hünər odur ki, yeni cığır salasan, təzə söz deyəsən, öz səsin ola, elə yazasan ki, heç kəsə oxşamayasan, heç bir əsəri xatırlatmayasan. Əlibala Hacızadə öz əsərlərindəki orijinallığı saxlamalıdır.

Cavan yazıçının təsvir etdiyi adamların çoxusu zəhmətkeşlərdir. Bunların məqsədi aydın, məhəbbətləri saf, münasibətləri səmimidir. Yazıçı bu kiçik vəzifəli qəhrəmanları sevə-sevə oxucuya təqdim edir. Sevilə-sevilə yaranmış bu surətləri biz də sevirik, çünki onlar hərarətli qəlbin istiliyini duymuşlar. Bunun üçün də bizə yaxındırlar. Bu insanlar həyatın bəzəyi, cəmiyyətin fəal üzvləridir. Yazıçı surətlər haqqında az danışır, onları xəsis boyalarla elə rəsm edir ki, oxucu uzun müddət bunları yaddan çıxarmır...

***Əli Vəliyev,***
*xalq yazıçısı*
*"Bakı" qəzeti, 1963-cü il*

## «İNAM» POVESTİ MÜƏLLİFİNƏ AÇIQ MƏKTUB

*(İxtisarla)*

Əziz Əlibala Hacızadə!

«Azərbaycan» jurnalında (1964-cü il № 11) dərc olunmuş «İnam» povestiniz yaxşı bir məsələyə həsr edilmişdir. İnsana inam, etibar bizim cəmiyyətimizdə xüsusilə əhəmiyyətli məsələdir. Məncə, siz bu məsələni bədii cəhətdən də müvəffəqiyyətlə həll etmisiniz. Povestiniz elə ilk sətirlərdən oxucunu maraqlandırır və qəhrəmanın mənəvi aləmi ilə tanış etməyə başlayır.

Sizin şofer Bəhruz özündən qabaqkı maşının bir fəhləni basıb keçdiyini görür və yaralını öz maşınında tə'cili xəstəxanaya aparır. Əgər bir az geciksəydi, yaralı ölə bilərdi; Bəhruz onu ölümdən xilas edir. Lakin Bəhruza şübhə ilə baxanlar, "yəqin fəhləni basan bu özüdür" - deyə ona inanmayanlar da olur. Bəhruz yaralını götürüb xəstəxanaya gətirəndə qarşıya çıxacaq çətinlikləri, baş ağrılarını gözü altına almışdı. O, bilirdi ki, belə hallarda çox çək-çevir olur. Lakin o, öz insanlıq borcunu yerinə yetirməyi vacib bilir, yaralını xəstəxanaya qoyduqdan sonra da onu yaddan çıxarmır, tez-tez yoluxmağa gəlir, taleyi ilə yaxından məşğul olur. Bəhruz öz insaniyyəti, səmimiyyəti ilə oxucunun ürəyinə yatır, onu razı salır. "Kaş ki, deyir, şoferlərin hamısı, yalnız onlar deyil, bütün insanlar belə qayğıkeş olaydı, öz vicdanlarının hökmü ilə hərəkət edəydi.

Povestə epiqraf seçdiyiniz parçada siz "inam öldürmək insan öldürməyə bərabərdir" fikrini irəli sürürsünüz. Bu sözləri Bəhruzun başına gələn hadisəyə tətbiq etdikdə belə bir nəticəyə gəlirik ki, insan təmiz ürəklə, səmimiyyətlə xeyirxahlıq edirsə, yaxşı məqsədlə iş görürsə, biz ona inanmalıyıq, yersiz şübhələrimizlə onu təhqir etməməliyik. Bu, tamamilə doğrudur. Təəssüf ki, dünyada pis adamlar hələ çoxdur. Belələrindən biri də sizin təsvir etdiyiniz İdrisdir. O, xırdaçı, kobud və rəsmiyyətçidir, insanların yaxşı hərəkətlərində də pislik görür, xəyanət axtarır. Belələrinin mərdiməzarlığından gözü qorxmuş şofer Qulam daha heç kəsə kömək etmək istəmir. "O vaxtdan, deyir, söz vermişəm, nəinki başqaları vuran, hətta özüm vurub xurd-xəşil elədiyimi belə götürməyəcəyəm".

İdris kimilərin barəsində Bəhruz doğru deyir: "O, insanlıq öldürüb, xeyirxahlıq öldürüb, inam öldürüb!" Povestiniz belə adamlara qarşı çevrildiyi üçün qiymətlidir...

***Məmməd Arif***
*akademik*
*"Ədəbiyyat və İncəsənət" qəz., 1965-ci il*

## ZİYALI ALƏMİNƏ SƏYAHƏT
*(İxtisarla)*

Əlibala Hacızadə bir sıra maraqlı, məzmunlu hekayə, povest və roman müəllifi kimi, oxucular arasında rəğbət qazanmış yazıçılarımızdandır. Tələbkarlıq, təvazökarlıq, sadəlik və səmimiyyət onu alim və yazıçı kimi xarakterzə edən mühüm keyfiyyətlərdir. Biz bu xüsusiyyətləri onun «Gənclik» nəşriyyatı tərəfindən çapdan buraxılmış «Təyparə kölgəsi» adlı romanında da görə bilərik.

Bu roman müasir həyatımızın mühüm sahələrindəən birinə, yaradıcı ziyalılarımızın, alimlərimizin fəaliyyətinə, mənəvi-əxlaqi keyfiyyətlərinə həsr edilmişdir. Müəllifin elmi fəaliyyəti həyat materialını dərindən öyrənməsinə yardım etmişdir. Görünur, Ə.Hacızadə bu romanı üçün uzun zaman güclü material toplamışdır.

Əsəri oxuduqca bir tərəfdən bütün hayatını elmə, arxivlərdə çalışmağa sərf edən Orxan Əlizadə, Nadirə Qurbanzadə, Cəfər kimi namuslu, ləyaqətli elmi işçilərlə, digər tərəfdən Salman Qurbanzadə kimi hiyləgər, fitnəkar professorlarla tanış oluruq.

Romanın əsas qayəsini başa düşmək üçün surətlərdən bir neçəsini müxtəsər təhlil edək.

Heç şübhəsiz, hadisələrin mərkəzində Salman Qurbanzadə dayanır. O, filoloqdur, anademiyanın elmi institutlarının birində şöbə müdiri vəzifəsində işləyir, az-çox istedadı da var, mövqeyi də. Elm aləmində, ədəbi mühitdə çəkisi və sanbalı da az deyildir. Lakin bu professorun ən rəzil sifəti bundan ibarətdir ki, özündən qabiliyyətliləri gorməyə gözü yoxdur. Paxıldır, dargözdür, ürəyi xırdadır, lovğa və eqoistdir. Öz qüsurlarını görməməsi, adamlara yuxarıdan aşağı baxması, vəzifəli və rütbəli şəxslərə yaltaqlanması onu bir professor kimi alçaldır. Salman Qurbanzadə istədiyi adamı saxta yollarla alim etməyə çalışır. O bacanağı Cahangirə deyir ki, «gəl təşkil eləyim, sən də müdafiə elə, hamı bu saat elmə can atır, böyük imkanlar var. Yollar açıqdır, tələbat çoxdur». Cahangir isə ciddi bir adam kimi alimliyə böyük məsuliyyətlə yanaşır: alim gərək sözün həqidi mənasında alim olsun. Yarımçıq alimlikdənsə bu adı üstünə götürməmək daha yaxşıdır. Salman bir tərəfdən Orxan və Cəfər kimi istedadlı alimləri kozümçıxdıya salır, digər tərəfdən dostunun qızı Gülmirəni zorla da olsa alim eləmayə çalışır. O, bir tərəfdan humanizmdən, sadəlikdən, vətənpərvərlikdən danışır, digər tərəfdən qaynatası Müseyibin yükçü işləməsindən xəcalət çəkir. Salman oğlu Ceyhunun

qabiliyyətsizliyini hiss edə-edə deyir ki, mənim oğlum şofer olsa bağrım çatlayar. Onu «dırnaqlarına döyə-döyə alim edəcəyəm!». Salman üçün, əsas ölçü istedad, elmə həvəs deyil, qohumluqdur, dostbazlıqdır, vəzifəli adamlara xidmət etməkdir. Salmanın Orxan kimi gecəsini gündüzünə qatıb çalışanlardan, Cəfər kimi həddən artıq tələbkar olanlardan xoşu gəlmir, Çünki bu adamlar salmanlardan çox-çox zəhmətkeş və təmizdirlər, ağıllıdırlar, saxtakarlıq, riyakarlıq, yaltaqlıq, ikiüzlülük bilmirlər. O, Orxan kimi isqedadlıların yetişməsində ozünun «xidmətlərini» həddən artıq böyüdür, qaxınc edib onların başına vurur, hər yerdə «mən yetişdirmişəm, mənim tələbəm olub» deyə lovğalanır. Ancaq nə edəsən ki, salmanlar hiyləgərliyi ilə vəzifə tuturlar, doktor, profeosor olurlar. Elmə çox ucuz və yüngül yol ilə gəlib vəzifə tutan profesoor Salman, Cəfəri həqiqəti dediyinə görə közümçıxdıya salır, onu «köhnə qurd», «pusquda dayanan yırtıcı» adlandırır. Əslində isə bu ifadələr Salmanın özünə daha çox yaraşır. Salman yaxşı bilir ki, Cəfər və orxanlar Gülmirə kimilərdən «min dəfə savadlıdır», ancaq onun üçün elmi qabiliyyəti olmayanlar daha sərfəlidir. Çünki Cəfər və orxanlar baş aparır, Gülmirə və gülalılar isə həmişə dili gödək və mütidirlər.

Orxan «Obyektivlik — sənətin canıdır» məqaləsində şöbə müdiri professor Salmanın ünvanına çox yungül, lakin ədalətli bir tənqidi qeyd deyir. Özünü elmin fövqündə hss edən professor bundan bərk əsəbiləşir, dəvə kimn kin saxlayır və bütün fəaliyyəqini bu istedadlı gəncdən intiqam almağa doğru yönəldir, onu «çörəyi dizinin üstündə, yumurtadan çıxan cücə, ədəbaz» kimi ifadələrlə təhqir edir, «gözündən gəlsin ona çəkdiyim zəhmətlər» — deyir. Tələbəsi tərəfindən tənqid ednlən Salman o qədər əsəbiləşir ki, ürəkkeçmə dərəcəsinə gəlir. Alimliyi kimi onun opponentliyi, elmi rəpbərliyi, şöbəyə başçılıq etməsi də saxtakarlıqla doludur. Salman rəğbət bəslədiyi hər hansı bir adama rəy verəndə onu müəllifin özunə yazdırır, «mənim heç vaxtım yoxdur, özün otur, yaz, gətir, ver, qol çəkim» — deyir,

Orxanı professor salmanlardan fərqləndirən ən mühüm cəhətlərdən biri onun ayıq, ləyaqətli vətəndaş kimi qüsurlar barədə ciddi narahat olmasıdır, bu nöqsanlara qarşı dözümsüzlüyüdür, obyektiv düşünmək qabiliyyətidir. Orxan profeesor Salman kimi hər şeyə münasibətlər gözü ilə baxmır, onun vicdanı təmizdir, hər cür riyadan, hiylədən uzaqdır. O, xalqın, partiya və dövlətin sənət və elm üçün yaratdığı böyük insani qayğını yuksək qiymətləndnrir, alimliyin də, tənqidçiliyin də, yazıçılığın da çəmmyyət və xalq qarşısında necə

şərəfli və məsuliyyətli bir iş olduğunu yaxşı dərk edir. O, dərin hörmət bəslədiyi və hətta sevdiyi Gülmirənin məqaləsini oxuyanda onun qüsurlarını deməkdan çəkinmir. Orxanın bu düşüncələri necə də müasir səslənir:

«Elmi işçi olmaq, alim adı daşımaq çoxlarının gözünu qamaşdırsa da az-çox elmin nə demək olduğunu bilən adamlar gərək bu yükün altına zorla girməsin; səbrin, savadın, enerjin varsa, gəl, yoxsa, nahaq əziyyət çəkib ömrünu-gününü havayı yelə vermə. Elm sənin gözünün işığını istəyir, verəcəksənsə, gəl! Elm sənin düz qamətini stol arxasında oturmaqdan əyəcək, razısansa, gəl! Ürəyin ağrıyacaq, dözəcəksənsə, gəl! Elm bəlkə səni əlində qələm, elə lap stol başında öldürəcək, qorxmursansa, gəl!..».

Orxan həqiqətən bütün gənc həyatını qızırqalanmadan elmə, sənətə həsr edən, «lap elə əlində qələm, stol başında ölən» alimlərdəndir. Elmin, sənətin hörmətini, nüfuzunu da məhz belələri ölməz edirlər. «Pis əsər pis evlad kimi adamın başını aşaqı edərmiş!» Bu sözlər Orxanın tənqidindən sonra Gülmirənin dodaqlarından qopur.

Orxan nəinki Salman kimi riyakar professorların haqsızlığına dözmür, həmçinin Gülalı kimi liberal və simasızların da mövqeyinə heyrət edir.

Gülalı kimiləri məsləkini, əqidəsini satdığına, hər mühitə, şəraitə uyğunlaşdığına görə salmanların yanında «əziz-xələfə» dönürlər. Gülalı kimiləri həm elm üçün, həm sənət üçün, ümumiyyətlə həyatımızın bütün sahələri üçün çox təhlükəli həşəratlardır, çünki prinsipsizdirlər, belələri qayəsiz, əqidəsizdirlər, şirindillidirlər, yaltaqdırlar, ikiüzlüdürlər, məsuliyyətsizdirlər, qeyrətdən məhrumdurlar. O, hətta Orxan vaxtsız öləndən sonra namuslu adamların ona göstərdiyi qayğıya qısqanıb özünü saxlaya bilmir, deyir: «Ölmək zalıma yaman düşdü».

Gülalılar «mülayim» xarakterə malik olduqları üçün istədiklərinə nail olurlar, lakin insanlıq simasını itirmək həmişə şərəfsiz yol sayılmışdır... Salmana xoş gələn gülalıların simasızlığı və «mülayim»liyidir,

Yazıçı maraqlı bir forma seçərək professorun dili ilə ürəyi arasındakı təzadı təbii açır, Salman dildə «Mən xırda şeylərə fikir vermərəm. Mən həqiqəti əsas götürürəm» deyir, ürəyində isə Orxana «sənin anadan əmdiyini burnundan tökmək mənə borc olsun! Ölüncən bağışlamaram səni» — deyir. Gözəgörünməz Salman dəhşətlidir, qorxuludur. Çünki ətrafdakılar, şöbədəki adamlar ona inanır, etibar

edirlər. O isə bu inamı riyakarlıq silahına çevirir. O, dildə «elmdə böyük-kiçik yoxdur, həqiqət var» deyir, ürəyində isə Cəfər nimi həyatını elmə fəda etmiş adamların axtarıb tapdığı kəşfləri puç etməyi qarşısına məqsəd qoyur. Salman məhz «bu yağlı tikələri» — elmi kəşfləri cəfərlərin əlindən çıxara-çıxara yağlanmış, harınlaşmış, professor adını almışdır. O bərkə düşən kimi Cəfərə lağ eləynr: «Nə elmi adı var, nə xidməti. Belələri elmə nə verəcək?». Buna görə də Salman necə olur-olsun Cəfəri «quru yurdda qoymaq» üçün əlindən gələni edir, onun elmi kəşfini aylarla stolun siyirtməsində saxlayır, nəticədə dostunun qızı Gülmirənin adına yazdırıb çap elətdirir. O belə bir fikri əsas kötürur ki, ot olub yeyilincə, at olub ot olanları yemək lazımdır. Beləliklə Cəfər və orxanlar illərlə arxivlərin tozunu uda-uda zəhmət çəkib əsər yazırlar, Salman isə bu zəhməti gözdən və nüfuzdan salır. O, Gülmirə kimi günahsızları da təhdid və hədə ilə əyri yola düşməyə vadar edir.

Rütbəsindən və professor adından sui-istifadə edib mətbuatı dayaz, qeyri-obyektiv yazıları ilə dolduran, öz dostlarına və vəzifəli adamlara saxta yollarla iş görən, alimlik kimi təmiz adı ləkələyən Salman məşhur bir akademikin oğlunun orta səviyyəli şer kitabı barədə başdan-başa təriflə dolu bir məqalə yazır. Çünki bu gənc şairin atası «bütün məmləkətdə» tanınır və bir yay o, Salmanı ailəlikcə Buzovnadakı bağına qonaq çağırmış, ona «yaxşı bir quzu kababı vermişdnr».

Sən demə, həmin gənc şairin obyektiv qiymətə-məsləhətə daha çox ehtiyacı var imiş. Nadirə ərinin məqaləsindəki yaltaqlığı görüb sarsılır, onun ziddinə olaraq gənc şair barədə obyektiv bir məqalə yazır. Hiyləgər Salman istə-diyi adamın əsərini tərifləyib göylərə qaldırmağı xeyirxahlıq, xoşuna gəlməyən adamların qiymətli elmi əsərlər çap etdirməsini isə tələbkarlığın azlığı kimi səçiyyələndirnr. Nadirə hər iki cəhəti vicdansızlıq sayır. Ərlə arvadın xarakteri arasındakı bu ciddi fərq ailə münasibətlərinə də təsirsiz qalmır. Ailədə tədricən soyuqluq, deyingənlik, giley-güzar, aldatmaq, yalan və s. özünə yer tapır. Sal-mana təsir eləyən də budur ki, həm ailədə, həm də işdə onun sözünün qabağına söz çıxardırlar, onun əməllərinə dözmürlər. Nadirənnn gənc şair barədə məqaləsini mətbuatda görəndən sonra Salman «iki gün üzüqoylu yatdı, nə çörək yedi, nə bir kəlmə danışdı».

Nadirə surətilə əlaqədar bir çəhəti yazıçının nəzərinə çatdırmaq istərdik. O, nədənsə yeganə övladı Ceyhunun tərbiyəsini yaliız

Salmanla bağlayır. Bəs belə bir mühüm işdə ailənin ağırlığını çiynində daşıyan elmlər namizədi ana kənarda qala bilərmi?! Əgər Nadirə «bütün həyatını, gücünü, bacarığını elmi işə sərf etməyi qarşısına məqsəd qoymuşdursa» bu, o deməkdirmi ki, ana ev işlərilə məşğul olmamalıdır, övladın tərbiyəsi qayğısına qalmamalıdır?! Ananın elmi işlə həddən artıq məşğul olması və uşaq-ailə tərbiyəsi məsələlərindən kənarda qalması nə dərəcədə təbiidir? Bu baxımdan Ceyhunun müəlliməsinin dediklərində nə qədər böyük həqiqət var:

«...Nadirə xanım, sizin başınız əsər yazmağa qarışır. Siz istəyirsiniz ki, əseriniz çox olsun, yaxşı olsun, noqsansız olsun. Axı, mənim əzizim, bu Ceyhun da əsərdir, hər cür qayğıya, diqqətə daha çox möhtacdır.

Kitabınızin üstündə adınız var, onun məsuliyyətindən qorxursunuz. Bəs Ceyhun? Məgər o sizin deyil, Nadirə xanım? Siz heç bu barədə duşünürsunüzmu? Bağışlayın, mən bir qədər kəskin danışıram».

Nadirə vicdanlı bir ana kimi bu həqiqətlərlə razılaşır: «Uşağı Salman korlayıb, oz atası... O, ərköyün boyüyür». Bəs onda ananın rolu ailədə nədən ibarətdir? Elmlər namizədi ananın övladının əyri yola düşməsindən yaxasını kənara çəkməyə mənəvi hüququ varmı? Doğrudur, Salman kimi qərəzli, kinli-küdurətli, subyektiv hisslərlə yaşayan professorun ailəsində Nadirə kimi ağıllı qadının arabir etiraz səsini eşitmək çox xoşdur, lakin biz onu daha prinsnpial, qətiyyətli görmək istərdik. Bizə elə gəlir ki, Salmanın xarakternndəki naqisliyin çoxunu bilən Nadirənin bir qədər qətiyyətsizliyi ərinin ədalətsizliklərinin getdikcə dərinləşməsinə, şaxələimәsinə müəyyən şərait yaradır. Nadirə başı qapazlı, hüququnu dərk etməyən savadsız qadın deyildir. O, sağlam və böyük bir kollektivdə yaşayır, yaradır. Burada Nadirənin həm bir məslək yoldaşı, həm də ailənin əsas ağırlığını çiynində daşıyan bir qadın — elmi işçi kimi bir qədər passivliyi, ərinin qüsurlarını dərhal açıb deməməsi ona heç də hər yerdə bəraət qazandırmır. Doğrudur, o, əri ilə arasındakı narazılıqların açıq-saçıq şəkil almasını istəmir, ailənin dağılmasından ehtiyat edir, buna görə də müəyyən güzəştlərə yol verir. Nadirə yaxşı bilir ki, namuslu va istedadlı gənc alim Orxanın məqaləsindən sonra onun ədalətli tənqidə dözməyən əri necə fısqırıq qopardıb bu gəncin ünvanına təhqiramiz sözlər deyir. Nadirə yaxşı görür ki, onun professor əri «quzu kababını» yeyəndən sonra məşhur akademikin oğlunun orta səviyyəli şerləri barədə necə mədhnamələr yazır. Nadirə yaxşı görür ki, onun

professor əri başçılıq elədiyi şöbədə istedadlı cəfərlərə cöz açmağa imkan vermir, orxanların ürəyini partladır, Gülalı knmi yaltaqları, Gülmirə kimi elmi qabiliyyəti olmayanları qanadı altına alır.

Deməli, Nadirə həm bir qadın kimi, həm də kollektivdə yazıb-yaradan elmi işçi kimi üzərinə düşən böyük və çətin vəzifəni heç də hər yerdə axıra qədər yerinə yetirmir. Bu iradlarımıza baxmayarlq, Nadirə olduqça dərin rəğbət doğurur: səmnmiyyəti və düzlüyü ilə, təmizliyi və əsasən obyektivliyi ilə haqsızlıqlara qarşı dözümsuzluyü ilə... Nadirənin qəlbində işıq, güclüdür. Biz inanırıq ki, bu işığın güclu «şəlaləsi» altında gec-tez salmanların gözləri qamaşacaq, yedikləri çörəyin qədrini bilmədikləri üçun miskin vəziyyətə düşəcəklər. Bizdə bu inamı yaradan Nadirənin xarakterindəki dərin səmnmiyyətdir:

«Qələm əhli gərək heç vaxt məsuliyyət hissini itirməsin, vicdanının, qəlbinin əksinə getməsin, yalan yazmasın. İnsan özü qalmır, amma yaratdığı qalır. Yaxşısı da, pisi də... Gərək elə əməl sahibi olasan, elə əsər qoyub gedəsən ki, sağlığında ozün, qohum-ətrəban, dostun-tanışın, öləndən sonra isə nəslin xəcalət çəkməsin!..».

Romanın sonlarına doğru Salmanın ənənəvi ifşası da bizə bir qədər şablon göründü. Atasız Rəhim orta məktəbi qızıl medalla qurtarıb ali məktəbə daxil olur, professor Salmanın yeganə oğlu Ceyhun yox. Salmanı şöbə müdirliyi vəzifəsindən azad edib arvadı Nadirəni onun yerinə qoyurlar. Bu nəticə oxucunun və müəllifin arzusundan doğur. Lakin həyatda heç də həmişə belə olmur və bu çür sonluq bizə bir qədər köhnəlmiş köründu. Nə üçün? Əvvəla, Salman hər daşla sınan «kənək qoz» deyildir. O, təçrübəlidir, hiyləgərdir, vəzifəlidir və bu vəzifə onun əlaqələrini kenişləndirmiş, tanış və dostlarını çoxaltmışdır. Üstəlik yaltaqdır, hər tərəfə meyllndir, prinsipsizdir, bərkdən-boşdan çıxmış, təçrubələnmiş «qoca qurddur». Buna görə də zahirən həddən artıq qayğıkeş, elmdə tələbkar olan, əslində isə hər yerə öz şəxsi zəhərini tökən bu adamın şöbə müdirliyindən götürülməsi də bizə nədənsə qeyri-real göründü. Məgər belə adamların ifşası asandırmı? Belə olduqda onu axıra qəd ifşa etmək elə muəllifin ciddi bədii qələbəsi olmazdımı?!

Bu baxımdan yanaşanda müəllifin müsbət planda təsvir etdiyi Aslanzadə surəti də istənilən səviyyədə deyildir. Yaşı əllini adlamış bu adam bütün şüurlu həyatını elmə həsr edib, adı doğma respublikasından çox-çox uzaqlarda məşhurdur: «Mənim övladım bu kitablardır. Bunlar mənim ciyərparələrimdir. Mənə heç kəs «sonsuz» deməsin. Mənim övladlarım var. Onlar mənim adımı, səsimi, sözümü gələcək

nəsillərə çatdıraçaq». Hiss olunur ki, Aslanzadə təmkini, səbri, təmizliyi, vicdanlılı1ğı ilə seçilir, yaltaqlığı, ikiuzlülüyü sevmir. Lakin bunların çoxu müəllif xarakteristikasından irəli getmir və Aslanzadənin bədii surəti yadda ümumi və solğun şəkildə qalır. Hətta bir akademik kimi o, bir qədər liberal və qətiyyətsiz görunür. Çünki Salmanzadə kimi riyakar professorların təmiz və namuslu elmi işçiləri topsuz-tüfənksiz, zahiri təmtəraqlı qayğı altında necə məhv etməsini Aslanzadə kimi ağıllı bir adam görmür va ya görə bilmir. Salmanların at oynatmasına, meydan sulamasına, rəzalət törətməsinə dolayı yol ilə olsa da, şərait yaradan elə bizim Aslanzadə kimi nüfuzlu, dərin xalq məhəbbəti qazanmış alimlərimizin, akademiklərimizin bir qədər qətiyyətsizliyi, öz aləmlarinə qapanması, başqalarının dərdinə laqeyd yanaşmaları deyildirmi?!

Bəs onda roman nə üçün «Təyyarə kölgəsi» adlanır? Bu romantik və poetik ad, birinçi növbədə Gülmirə və onun əri Əqdəmlə bağlıdır. Əqdəm təyyarəçidir, Gülmirə elmi işçi. Təmiz, səmimi ailə qurublar. Lakin Əqdəmin gününün çoxu təyyarə surməkdə keçir, çünki ictimai vəzifəsi onu bu işə məcbur edir. Gülmirə narahat olanda Əqdəm ona təskinlik verib deyir:

«Qorxma, Gülü, məni göylərin yeddi qatına qaldıran təyyarə dunyanın ən möhkəm, ən gözəl təyyarəsidir. Qolum-qanadım da sənin məhəbbətindir, Gülü. Onsuz mən uça bilmərəm!..»

*Qulu Xəlilov*
*professor*

## «ÖZ XALQININ MƏCNUNU»

...Ə.Hacızadə ədəbiyyatımıza nə gətirmişdir?

- Mən onun romanlarını oxuyanda bu qənaətə gəlirəm ki, o, bizim ədəbiyyatımıza - nəsrimizə bir məişət psixologizmi gətirmişdir. Bədii əsərdə obrazlar gərək o qədər təbii olsun ki, onların hərəkətlərinə oxucu təəccüb etməsin, hər şey ona inandırıcı görünsün. Mən Əlibalanın romanlarında  bu təbiiliyi görürəm...

Yalnız öz millətini dərindən tanıyan, xalqın məişətinə, psixologiyasına, adət və ən'ənələrinə mükəmməl bələd olan yazıçı bu təbiiliyi qoruyub saxlaya bilər. Yazıçının birinci xüsusiyyəti odur ki, o, gərək öz xalqının Məcnunu olsun, dəlisi olsun, onu plotonik məhəbbətlə sevsin, nöqsanlarını görsün, ancaq onları dilinə gətirmək istəməsin. Bu mə'nada Əlibala Hacızadə öz xalqının əsl Məcnunudur...

*Bəxtiyar Vahabzadə*
*xalq şairi*

## TƏBRİK

Əlibala Hacızadə bir yazıçı və insan kimi mənim çox hörmət etdiyim şəxsdir. Çox təvazökar insandır. Özünü həmişə sakit, təmkinli, ləyaqətli aparır. Xalq arasında da çox populyar bir yazıçıdır. Onun əsərlərini sevə-sevə oxuyurlar. Bizim nəslin - 60-cı illərin ən istedadlı yazıçılarından biridir.

65 yaşı münasibətilə onu ürəkdən təbrik edirik. Arzu eləyirik ki, yeni-yeni əsərləri ilə bizi və geniş oxucu kütləsini sevindirsin.

*Anar, xalq yazıçısı,*
*Azərbaycan Yazıçılar Birliyinin sədri*

Əlibala Hacızadə ilə uzun illərin dostuyam, həssas və dostluqda sədaqətli insandır. Yazıçı kimi isə onun qiymətini xalq verib.

***Qabil,***
*xalq şairi*

## FƏXR ETDİYİM YAZIÇI

Nəşriyyatda işləməyə təzə başlamışdım. Bir gün direktorumuz, yazıçı Seyfulla Şamilov məni yanına çağırıb dedi:

- Ədəbiyyatımıza iste'dadlı gənclər gəlib, onların yaxşı şe'r və hekayələri qəzet, jurnal səhifələrində tez-tez çap olunur. O yazıları topla, bir almanax hazırla.

Seyfulla müəllimin təklifi ürəyimdən oldu. Əlimin altında xeyli şe'r vardı. Məmməd İbrahimovun (Araz) «Araz axır» şe'rilə başlanan almanax az qala hazır idi. Gənc şairlər də nəşriyyata tez-tez gəlirdilər. Eyvaz Borçalı (Eyvazov), Fikrət Qocayev (Qoca), Fikrət Sadıqov (Sadıq) və başqaları. Ancaq gənc nasirlər nəşriyyata çox az gəlirdi. Birinci əlimə gələn hekayə Əkrəm Əylislinin «Qəşəm və onun kürəkəni» hekayəsi oldu. Əhməd Mirzəcəfərlinin «General qızı» və s. hekayəsi də onun üstünə gəldi.

Bir neçə gündən sonra M.Ə.Sabirin heykəlinin yanında Əlibala Hacızadə və Əmir Mustafayevlə rastlaşdım. Onlardan Uşaqgəncnəşrdə 1959-cu il planına daxil edilmiş «Tər çiçəklər» almanaxına hekayə vermələrini xahiş etdim.

Əlibalanın «Mənim ilk məhəbbətim» hekayəsini 1956-cı ildə yazıçı Mir Cəlal gənclərin yaradıcılığına həsr olunmuş müşavirədə tə'rifləmişdi. Məmnuniyyətlə onun «Yoxa çıxmış adam» hekayəsini kiçik redaktə ilə kitaba daxil etdim. O zaman Əlibala öz tay-tuşlarından o qədər də fərqlənmirdi.

Lakin onun 1969-cu ildə çıxmış «Təyyarə kölgəsi» əsəri Əlibalanı bir yazıçı kimi tay-tuşlarından xeyli irəli çıxartdı. Oxucularda Əlibala Hacızadənin yaradıcılığına dərin bir maraq oyandı. Mən də onun yaradıcılığını izləyənlərdən biri oldum. Bu əsərin ardınca «İtkin gəlin», «Əfsanəsiz illər», «Ayrılığın sonu yoxmuş», «Dünyanı tanı» romanları çap olundu. Bu əsərlər yüz min nüsxəylə çap edilsə də, yenə oxucular onu axtarırdılar.

Bir gün hörmətli Mir Cəlal müəllimlə söhbət edəndə onun M.S.Ordubadidən sonra ən çox oxunan yazıçımız olduğunu söylədim. Mir Cəlal müəllim səmimi gülüşüylə bunu təsdiq edib dedi: «Mən ona Yazıçılar Birliyinə keçməyinə zəmanət vermişəm. Əlibala həqiqətən gözəl nasirimizdir».

Əlibala Hacızadənin sadə və şairanə təhkiyyəsi, hadisələrin məntiqli süjeti əsasında cərəyanı oxucunu özünə elə cəlb edir ki, ən

az kitab oxuyanlar da, işi çox olub kitab oxumağa macalı olmayanlar da, onun kitablarını məmnuniyyətlə oxuyur, rahat nəfəs alır, yorulmurlar.

Əlibala fəxr etdiyim, xalqımın sevimli yazıçısıdır. Onun 65 yaşı hamımımızın bayramıdır.

*İlyas Tapdıq*

## XALQ ŞAİRİ FİKRƏT QOCA İLƏ MÜSAHİBƏDƏN

- Əlibala Hacızadənin Azərbaycan ədəbiyyatında yerini necə dəyərləndirirsiniz?

- Əgər bunu mən müəyyən etsəydim, çox yüksək.., lakin bunu oxucular müəyyən edir. Onlar da Ə.Hacızadəni lazımınca dəyərləndiriblər. Əlibala ən çox oxunan yazıçılarımızdandır.

- Onunla bağlı maraqlı bir epizod xatırlaya bilərsinizmi?

- Ümumiyyətlə, Əlibala haqqında danışası olsam, gərək bir roman yazasanız.

- Bəs bir insan kimi ona münasibətiniz.

- Əlibala ilə 40 ildir dostam. Özü də indiki dövrdə dostluğu bu qədər qoruyub saxlamaq çox çətindir. Əlibala Hacızadə yaxşı insandır. İnsanın yaşı artdıqca dostu azalır. Mənim də dostlarımın sıraları seyrəlir. Həmin azsaylı, etibarlı dostlarımdan biri də Əlibaladır. ƏLİBALA HACIZADƏ.

## MUĞAN KİMİ...

Mən Əlibalanın özünü tanıyıb bilməmiş, - təqribən 50-51-ci illərdə, beşinci, yaxud altıncı sinif şagirdiykən - onun anadan olub boya-başa çatdığı kəndi, - Biləsuvarın Ağalıkəndini və adamlarını görüb, tanıyıb və sevmişəm.

Bizim kəndin - Cəlilabadın Sabirabad kəndinin yazıb-oxuyan məktəbliləri Ağalıkənd camaatı qarşısında çıxış edəcəkdilər. Yadımdadır, tədbir başlanana qədərki vaxtda kəndin içərisindən axıb gedən bir arxın kənarına - tənhalığa çəkilib elə orada bir şe'r yazdım. Qəribədir ki, şe'rin son iki misrası indi də yadımda qalıb: "O vaxt ilham alıb azad əməkdən, -Sizinçin min dastan yaradaram mən!..."

Məktəbli uşağın belə bir iddiası da qəribədir. Bilmirəm necə olub o cür böyük və'd vermişəm. İddianın böyüklüyü də göstərir ki, o cətirləri elə uşaq yaza bilər. Ancaq mənim üçün çox xoşdur ki, o saf, sadə, hələ o vaxt körpə ürəyimi fəth etmiş camaatın Əlibala Hacızadə kimi görkəmli bir yazıçı oğlu yetişdi və o mənim dostum oldu. Sənətkarları yaxşı tanımaq üçün onların doğulduğu yerləri görməyə duyulan ehtiyac səbəbsiz deyil. O yeri, o adamları görəndə onların övladı olan sənətkarı daha tez və əminliklə başa düşmək olur.

Əlibalanın xarakterində və yaradıcılığında "Muğan Muğan olsa biri üç eylər, - Muğan tufan olsa üçü heç eylər" demiş və böyük Səməd Vurğunun da xəyalını coşdurmuş el ağsaqqalının müdrikliyindən irs qalan çox keyfiyyətlər vardır.

Əlibalanın ürəyi Muğan kimi geniş, hərarətli və dosta sədaqətlidir. Bu sözləri əmin-arxayın yazıram. Onun bir yazıçı kimi böyüklüyü, alim kimi təfəkkürü, insan kimi sadəliyi o ürəkdə yuva salan fitri iste'dad, əmdiyi pak ana südü və çiçək-çiçək gəzib şirə çəkən arı zəhmətkeşliyi hesabınadır.

Mənə elə gəlir ki, bə'zi yaradıcılar günəş xislətlidir. Onların böyüklüyü səsinin-küyünün gücündə yox, səssiz-səmirsiz hərarətinin qüdrətindədir. Əlibala Hacızadə belə xislətə malikdir.

Əlibalanı geniş oxucu kütləsi, elə bilirəm, bir vaxt "Gənclik" nəşriyyatı böyük xeyirxahlıq göstərib "İtkin gəlin"i çox yüksək tirajla çap etdiyi günlərdə tapdı, - tapdı, daha yaxından tanıdı və sevdi. Neçə-neçə əsərini, - "Təyyarə kölgəsi", "Əfsanəsiz illər", "Vəfalım mənim", "Ayrılığın sonu yoxmuş"..., - eyni dərin maraqla alıb oxudu, yenilərini gözlədi və gözləyir.

Əlibalanın epik təsvirlərində eyni zamanda bir lirizm və dramatizm aşkar hiss olunmaqdadır. Onun nəsrində obraz bir növ əyanilәşir və yaddaşa həkk olur. Ədibin əsərlərini ekranlaşdırmağa, səhnələşdirməyə göstərilən maraq da bu məziyyətləri ilə bağlıdır. "İtkin gəlin" əsasında yazdığı ssenarisinə çəkilmiş on iki seriyalı bədii televiziya filmi Əlibala Hacızadənin necə geniş yaradıcılıq imkanına malik olduğunu bir daha təsdiqləyir.

Zahirən sakit, səssiz-səmirsiz Əlibala daxilən təlatümlü bir həyat yaşayıb və yaşayır. O, övladı olduğu xalqın söz sərvətini ana süduylə mənimsədiyi kimi, böyük ədəbiyyatı - eləcə də Şərqin zəngin ədəbi sərvətini öyrənib araşdırıb, dissertasiya müdafiə edib, elmi dərəcə alıb. Mən fəxrlə demək istəyirəm ki, onun öz yaradıcılığı da belə elmi dərəcə tədqiqatlarına tamamilə layiqdir.

Əlibala səssiz-səmirsiz gəlib altmış beşə çatıb, mən onun elə bu təmkinli gümrahlıqla yetmişə yetməyini və ömrün daha yüksək pillələrinə belə şərəflə, könlü dolu-əli dolu, dostları-əzizləri ilə birgə gəlib yetişməsini səmimi-qəlbdən arzulayıram.

*Ayaz Vəfalı,*
*şair*

"Oxucularının ürəyində bir Əlibala Hacızadə var. Mənim yadımdadır, onun kitabları əl-əl gəzirdi, tapılmırdı və bəzən də əl altdan satırdılar. Əlibala Hacızadə hadisələri təkcə macəralar üzərində qurmur, eyni zamanda həmin macəraların yaranma təhlilini də verir. O, çox gözəl, həssas, həyat materialları ilə işləyən yazıçıdır. Əlibala çox yaxşı insandır və eyni zamanda mənim dostumdur".

*Davud Nəsib*
*şair*

"Əlibala Hacızadə müasir roman janrının inkişafında xüsusi rolu olan yazıçıdır. O, möhtəşəm səhnələr, bitkin obrazlar ustasıdır. Oxucular çox vaxt onun əsərlərində öz talelərini gördüklərindən onu birnəfəsə oxuyurlar. Ən çox oxunan yazıçı olmaq böyük xoşbəxtlikdir. Bu da Ə.Hacızadəyə nəsib olub".

*Fikrət Sadıq*
*şair*

## HƏQİQƏTƏ ÇEVRİLƏN ƏFSANƏ

Əlibala Hacızadənin müxtəlif illərdə çap olunmuş "Heykəl gülür" /1961/, "Unutmaq olmur" /1963/, "Məhəbbət olmayan evdə" /1966/, "Cehiz" /1969/, "Təyyarə kölgəsi" /1974/, "İtkin gəlin" /1979/, "Əfsanəsiz illər" /1981/, "Ayrılığın sonu yoxmuş" /1983/, "Vəfalım mənim" /1985/, "Dünyanı tanı" /1990/ kitablarında toplanmış hekayə, povest və romanları onu ədəbiyyatımızda özünəməxsus yaradıcılıq yolu olan istedadlı bir yazıçı kimi tanıtmış və geniş oxucu kütləsinin sevimli sənətkarına çevirmişdir.

Ədibin əsərləri barədə akademik Məmməd Arif, B.Nəbiyev, xalq yazıçımız Əli Vəliyev, Xeyrulla Əliyev və başqaları dəyərli mülahizələr söyləmiş və onun yaradıcılığını yüksək qiymətləndirmişlər.

Əlibala Hacızadə ömrünün bir neçə ilini /1966-1970/ Əfqanıstanda yaşamış, əfqan xalqının keçmişini, bu gününü, adət və ənənələrini dərindən öyrənmiş, sərrast yazıçı gözü ilə gələcəyin ümumi konturlarını müəyyənləşdirmiş və bədii təfəkkür süzgəcindən keçirmişdir. Bu mənada onun oxucular tərəfindən rəğbətlə qarşılanmış "İtkin gəlin" roman-trilogiyası barədə yığcam fikir söyləməyə ehtiyac duyulur.

"-Əlvida, əzizim, dünyaya bədbəxt gəlmiş bir qızı, sən xoşbəxt edə bilməzdin. Məni axtarma, həmişə səninlə olan, ancaq heç vaxt sənin olmayan Əfsanə..."

Bu sətirlər mənliyini patriarxal mühitin şikəst etdiyi, baxışlarındakı odlu məhəbbəti gözlərində dondurduğu, ürəklərinin nəcib hisslərini susdurduğu milyonlarla əfqan qızının ümumiləşdirilmiş bədii surəti olan Əfsanənin qəlbinin qanı ilə yazılmışdır. Kitabın /"İtkin gəlin"/ bütün süjet xətti məhz bu bədbəxt qızın taleyi üzərində qurulmuşdur.

"İtkin gəlin" romanındakı hadisələrin əsasında məhəbbət macərası dayanır. Tacir Həzrətgülün bacısı qızı Əfsanə bədbəxt bir hadisə nəticəsində ata-anasını itirmiş, dayısının himayəsində yaşamağa məcbur olmuşdur. Lakin bədbəxt insanların tale ulduzunun sonradan parlayacağına ümid həmişə az olub.

Həzrətgül bacısı qızını həm dükanda, həm də evdə bir qulluqçu kimi işlədir, onun arvadı isə qıza qarşı son dərəcə amansızdır. Evin kiçik gəlini Nazənin isə Əfsanəyə bir bacı kimi yanaşır, sevir, onun həmsöhbətinə və sirdaşına çevrilir. Əfsanə gözəldir, nəcibdir,

qəlbi kövrəkdir, güclü hafizəsi var. Şeri, sənəti başa düşür. Bütün Əfqanıstanda olduğu kimi, Ədnan qəryəsində də savadsızlıq, hüquqsuzluq və məhrumiyyət hökm sürməkdədir. İnsanlar bir qarın çörək üçün ya şəhərə gedib nökərçilik edir, ya da əkib-becərdiyi neməti satmaqla dolanırlar. Kəndin ağbirçək qadınlarından biri də Səbihə arvaddır. O, gənc yaşlarından dul qalmış, min bir müsibətlə iki oğul böyütmüşdür. Yusif və Elməddin. Yusif - böyük qardaş şəhərə gəlib çətinliklə açdığı kiçik dükanda odun və kömür satır, Elməddin isə oxumaq arzusunu yoxsulluq üzündən qəlbinin dərinliklərində dəfn edib kənddə qalaraq qəryədər Qulamın yanında katib işləyir. Yazıçı özünəməxsus ustalıqla feodal-potriarxal mühitin, əzən və əzilənlər cəmiyyətinin zidiyyətlərini ailə çərçivəsindən çıxarmış, bu haqsızlığın ictimai köklərini araşdırmağa çalışmışdır.

Yazıçı hadisələrin təbiiliyinə, obrazların rəngarəngliyinə, düşüncə dairələrinin, həyata baxışının müxtəlifliyinə də böyük diqqət yetirmişdir. Bədii obrazların heç biri - istər mənfi, istər də müsbət olsun - digərinə oxşamır. Bu surətlərin hər birinin öz məqsədi, öz təfəkkürü var. Bunların mübarizə yolu, vuruşları, məqsəd və qayəsi də eyni deyil.

Trilogiyada təsvir olunan əsas sürətlərdən biri Məhəmməd Şəfi Rəhgüzərdır: o, demokratik təmayüllü qəzetin baş redaktorudur, yazıçı və şair, əfqan xalqının sevimlisidir. Mübarizə aparan milyonlarla yoxsul kütlə onun arxasınca gedir. Məhəmməd Şəfi Elməddini öz oğlu kimi qəbul edir, onu milyonçu Nəcməddinin yanında işə düzəldir. Tezliklə Elməddin "Pərçəm" qəzeti ilə əməkdaşlığa başlayır. Xalqı mübarizəyə səsləyən, cəmiyyətdəki haqsızlığı, qeyri-bərabərliyi ustalıqla təsvir edən mübarizə ruhlu şerlər, hekayələr, karikaturalar dərc etdirir.

Nəcməddin milyonçu və əyyaş olsa da, şeri, sənəti xoşlayır. Xüsusilə Elməddinin şerləri onun ürəyinə çox yatır. Nəcməddinin qızı Zərrintac xanım kübar ailəsində böyümüşdür. Tüfeyli həyatı, qərb modasını xoşlayır. Elməddin zahirən gözəl oğlandır. O, şəhərə tez uyğunlaşmış və milyonçunun qızı Zərrintacın diqqətini cəlb etmişdir. Bu hisslərini Zərrintac daha çox büruzə verir. Elməddin də bu duyğulardan yaxa qurtara bilmir. Bunu qızın atası Nəcməddin, Məhəmməd Şəfi və onun namuslu həyat yoldaşı Məleykə də hiss edir. Lakin atalar yaxşı deyib: "Neynirəm o qızıl teşti ki, içində qan qusum".

Özgələrinin səadəti üzərində qurulan həyat heç kəsi xoşbəxt edə bilmir. Çünki bu sərvət milyonlarla yoxsulun qanı bahasına top-

lanmışdır. Belə sərvət sahiblərindən biri Nəcməddindir. Müəllif onu bir insan kimi hərtərəfli verməyə çalışmışdır: o, bir yandan sərvət sahibidir, zalımdır, qadın düşgünüdür, o biri yandan isə şerpərəstdir, ağıllı və bacarıqlı adamlara əl tutur, dostluqda möhkəmdir, yaşının keçməsinə baxmayaraq dərin və atəşin bir məhəbbətlə sevməyi bacarır. Hətta candan, ürəkdən sevdiyi Dünya xanımın ona xəyanət eləmək istədiyini biləndə /Bədbəxt milyonçunun Dünyanın əsl xəyanətindən xəbəri yoxdur, başa düşmür ki, öz adını verdiyi balaca Nəcməddin onun yox, Əbdülün balasıdır/ mərdlik göstərərək onu məhv edir. Qadın dəllalı Siracəddinin əlinə düşmüş Dünya hər gün əldən-ələ keçməkdənsə, yaşca atasından da böyük olan Nəcməddinlə yaşamağı üstün tutur. Nəcməddin ona çox möhkəm bağlanır. Bəlkə də bu, onun kimsəsizliyindəndir. Oğlanlar ondan üz döndərmişlər, qızı da əhli-kefin biridir. Dünyanın hər şeyi var: Nəcməddini, təmtəraqlı ev-eşiyi, Əbdül kimi nökəri. Lakin Siracəddin kimi bir canavarın əlindən qurtaran Dünya bu cah-cəlal içində yaşasa da, yenə özünü tənha hiss edir, zəruri bir ehtiyac onu karıxdırır. Nəcməddinin var-dövlətinə sahib olmaq üçün o, ana olmalıdır. Bu məkrli məqsədini yerinə yetirmək üçün Dünya Əbdülü seçir. Dünya ana olur. Bəs kürən Vəlixan niyə Dünyanın qəlbinə girir? Məsələ də bax bundadır. Dünya öz məqsədinə çatandan sonra Əbdülə marağı azalır. Dünyada bircə gün də xoşbəxtlik nə olduğunu bilməyən Əbdül isə qısqanclıq və şübhə alovları içində qovrula-qovrula müəyyən edir ki, onun çox sevdiyi Dünya qonşu Vəlixana meyl salıb. Əbdül sərxoş olanda əhvalatı Nəcməddinə danışır və bununla da Dünyanı da, bir az sonra Nəcməddinin özünü də məhv edir. Vəlixanı Nəcməddin aradan götürür. Dünyanı Nəcməddin öldürür. Nəcməddinin özünü isə qüruru, yaralanmış heysiyyati. Əbdül isə balaca Nəcməddinin - öz oğlunun əlilə qətlə yetirilir.

Bir-biri ilə zəncir kimi bağlı olan bu ölüm hadisələrindən çıxan nəticə ibrətamizdir: Nəcməddin ayağını yorğanına görə uzatmayaraq özündən çox cavan bir qızı aldığına görə, Dünya onu dəlicəsinə sevən Nəcməddinə xəyanət elədiyinə görə, Əbdül isə ağasının duz-çörəyinə xəyanəti üstündə öz layiqli cəzalarına çatırlar.

Əlibala Hacızadə feodal-patriarxal mühitdə hökm sürən kapital hökmranlığını, onun əxlaq kodeksinin puçluğunu ustalıqla açıb göstərə bilmişdir. Bu saray, bu cah-cəlal gec-tez uçulub dağılmalı idi, çünki o, zülm və zor üzərində qurulmuşdu. Ancaq bu qorxulu və qaranlıq cəmiyyətin dərinliklərində Məhəmməd Şəfi, Elməddin, Bəbir, Ziya-

ülhəqq kimi mübarizlər və cəfakeşlər var. Şəfi gözünün birini itirmişdir, lakin onun qəlbi, bəsirət gözü işıqlıdır, hərarətlidir, nurludur. Elməddinin qolunun birini şikəst etmişlər, ancaq onun əqidəsini, gələcəyə inamını qıra bilməmişlər. Miyonçu Mümtazın pulu ilə əqidəsi və məqsədi sönük, oyuncaq qəzet nəşr edən, savadsız və kütbeyin, paxıl Əli Tüğyanın əksinə olaraq, "Pərçəm" qəzeti cəmiyyəti lərzəyə salır, zəhmət adamlarını öz ardınca aparır. Meşşan Zərrintac Elməddini, onun ömür və məslək yoldaşı Siminbəri cismən məhv etmişdir. Əslində isə Elməddin ölməzliyə qovuşmuşdur.

Yazıçının əfsanəsi sonda həqiqətə çevrilir.

*Şahin SƏFƏROV,*
*professor*
*1982-ci il*

## TƏMƏNNASIZ XİDMƏT NÜMUNƏSİ

Deyirlər ki, yazıçı bədii əsərlərində görüb-eşitdikləri, təxəyyülündə yaşatdıqları ilə yanaşı ömrü boyu öz bioqrafiyasını yazır. Keçib gəlmiş olduğu həyat yolunun müxtəlif mərhələlərini ayrı-ayrı qələm məhsullarında zaman-zaman əks etdirən istedadlı yazıçımız Əlibala Hacızadənin fəaliyyəti bu hökmün doğruluğuna bizi bir daha inandırır. Onun kiçik yaşlılar üçün nəzərdə tutulmuş "Pəhləvan", ilk gənclik illərinin təkrarolunmaz təsvirini verən "Unutmaq olmur" adlı kitabları mütaliəsevərlərin yaxşı yadındadır. Həmçinin oxucular onu da gözəl bilirlər ki, Ə.Hacızadə daha çox yetkinlik yaşına çatmış müxtəlif sənət, peşə adamlarının həyatını, istək və arzusunu, duyğu və düşüncələrini qələmə alır. Və əvvəlcədən deyək ki, həmin əsərlər işıq üzü gördüyü gündən ümumxalq məhəbbəti qazanıb, oxucular və ədəbi tənqid tərəfindən rəğbətlə qarşılanıb.

Özünüz təsəvvür edin: yazıçının roman trilogiyası - "İtkin gəlin", "Əfsanəsiz illər", "Ayrılığın sonu yoxmuş" kimi əsərlərinin hər biri üst-üstə 200, 250 min tirajla nəşr olunub və tezliklə satılıb qurtarıb. Həmçinin tamaşaçılar həmin əsərin müəllifin ssenarisi əsasında hazırlanmış çoxseriyalı televiziya tamaşasını da maraqla qarşılamışlar.

Yeri gəlmişkən, bir çoxu məhz "İtkin gəlin" roman-trilogiyasnı Ə.Hacızadənin şah əsəri hesab edirlər. Salyan rayon təhsil şöbəsinin müdiri Qulam Sadıqovun söhbəti bu cəhətdən çox maraqlıdır. O, deyir ki, rayonumuzda yazıçı ilə görüş keçirilirdi. Qonağı əvvəlcə ümumi şəkildə təqdim elədim. Ancaq bu təqdimat istənilən nəticəni vermədi. Səbəbini özlüyümdə çox tez aydınlaşdırıb dedim:

- Dostlar, heç bilirsiniz görüşünüzə gələn kimdir? "İtkini gəlin"in müəllifi!

O zaman hələ televiziya tamaşası yox idi. Ancaq çox böyük tirajla çap olunan kitab əldən ələ gəzirdi. Buna görə də sözlərim elə bir canlanma yaratdı ki, sanki burada əyləşənlər heç bayaqkı adamlar deyildilər. Ön sırada oturanlar bir az da irəli boylandı, arxa cərgədə əyləşənlər yazıçını yaxşı görmək üçün vasitə aradılar. Sorğu-sualların da əksəriyyəti həmin əsər barədə, həyat həqiqəti ilə bədii həqiqət arasındakı yaxınlıq və s. haqqında oldu.

Halbuki bizcə Ə.Hacızadənin süjet xəttinə müəyyən qədər macəraçılıq ruhu hopdurulmuş "İtkin gəlin"dən sənətkarlıq səviyyəsinə görə yüksəkdə dayanan "Təyyarə kölgəsi" (onun davamı kimi "Vəfa-

lım mənim"), "Dünyanı tanı" kimi məşhur romanları var. Sonuncu roman barədə əsaslı bir şey, demək olar ki, yazılmayıb. "Təyyarə kölgəsi" isə az-çox təhlil olunub. Məsələn, tənqitçi-ədəbiyyatşünas "Ulduz" jurnalında çap etdirdiyi "Zyalı aləminə səyahət" adlı məqaləsində göstərirdi ki, yazıçı bu əsərində çox zaman diqqətdən kənarda qalan alimlərin həyatına dərindən nüfuz etmiş, onların qəlb aləmini, yaradıcılıq dünyasını realist bir qələm və təsirli dillə oxuculara çatdırmağa müvəffəq olmuşdur.

Mövzusu Əfqanıstan həyatından alınmış romanında da, bizə tanış olan adamlardan, hadisələrdən yazanda da müəllif insanın özünü, onun keşməkeşli həyatını, taleyini ön plana çəkib, hər birinin xarakterik xüsusiyyətlərini, mənəvi aləmini psixoloji dərinliklə əks etdirə bilib. Bu cəhətdən "Təyyarə kögəsi" xüsusilə səciyyəvidir və onu səhv etmədən xarakterlər qalereyası adlandırmaq olar. Əgər "Unutmaq olmur" povestində hisslərin təbiiliyi, təravəti, bakirəliyi, sübh şəfəqi kimi duruluğu, "Dünyanı tanı"da sərt həyat həqiqətinin cəsarətli, barışmaz mövqedən təsviri ön plandadırsa, "Təyyarə kölgəsi"ndə mükəmməl bədii obrazların şəxsi və ictimai ideallar uğrunda çarpışması, mübarizə əzmi oxucunu valeh edir, bir-birinə daban-dabana zidd olan qəhrəmanlar ona gecəylə gündüzün, xeyirlə şərin savaşını xatırladır.

Mövzu baxımından da yzıçının maraq dairəsi olduqca genişdir. Onu bütün ictimai təbəqələrin taleyi düşündürür. Ancaq özünün də bilavasitə nümayəndəsi olduğu elm, maarif və mədəniyyət işçilərinin həyatı, mübarizəsi, qayğı və problemləri ilə, təbii ki, daha çox məşğuldur. Təsadüfü deyil ki, mədəniyyət məsələlərinə dair "Mənim ilk müəllimim", "Qiyamət", "Məhəbbət olmayan evdə" adlı hekayə və povestlərlə yanaşı "Təyyarə kölgəsi", "Dünyanı tanı" kimi romanlarını da yazıb. Elə "Şəhriyar" qəzetində hissə-hissə çap olunan "Möcüzə" romanı da bu mövzudan xali deyil.

Əlibala haqqında yalnız yazıçı kimi danışmaq işinin ancaq bir qismini yada salmaq deməkdir. O, görkəmli fars şairi "Fərruxi Yəzdinin poeziyası" mövzusunda dissertasiya müdafiə edib, həmin dildən bir sıra gözəl nümunələri yüksək sənətkarlıqla tərcümə edib azərbaycanlı oxuculara çatdırır, M.Ə.Rəsulzadə adına BDU-nun şərqşünaslıq fakültəsində pedaqoji fəaliyyətini davam etdirir.

Yazıçı var ki, qəhrəmanın əhval-ruhiyyəsinə, psixologiyasına uyğun bir bənd şer yazmasından ötrü şairə təmənnaçı düşür. İstedadı Əlibala Hacızadəni bu qayğıdan da azad edib. Onun şairlik həvəsi və

bu sahədəki yaradıcılıq axtarışlarının uğurlu bəhrələri oxuculara çoxdan məlumdur. Mətninə musiqi bəstələnmiş mahnıları geniş yayılıb. Həmçinin dramaturgiya sahəsindəki nailiyyətləri də göz qabağındadır. Təsadüfi deyil ki, "İtkin gəlin" və "Yandırılmış adam" adlı pyesləri uzun illərdir C.Cabbarlı adına Gəncə Dövlət Dram Teatrının repertuarında özünə möhkəm yer eləyib.

Bütün bunlar sənət, elm fədaisinin, naşirin zəhmətə sevgisindən, fədakarlığından xəbər verir.

Bəli, yazıçı taleyi, iki kəlmədə öz klassik ifadəsini tapmış olan bu "dəhşətli əmək" onun gəncliyini hiss olunmadan arxada qoyub, şəvə kimi qara saçlarını "darayıb", ona qar ələyib. Həm də uşaqlı, böyüklü, hamının, demək olar ki, bütün mütaliə həvəskarlarının sevimlisinə çevirib. Onun cəfakeşliyi, fədakarlığı yüksək, çox yüksək qiymətə layiqdir. Halbuki fəxri adların, orden və medalların səxavətlə paylanıldığı vaxtlarda da bir kimsənin yadına düşməyib.

Yeri gəlmişkən, onu da xatırladaq ki, müxtəlif əsərlərində, o cümlədən "İtkin gəlin" trilogiyasında, "Dünyanı tanı" romanında firavanlıq içərisində yaşayan adamların həyatının geniş təsvirinə rast gələn oxucular yaşayış səviyyəsi baxımından bəlkə müəllifin özünü də həmin zümrəyə aid ediblər. Halbuki sıxıntı, maddi ehtiyac Əlibala Hacızadəni daim kölgə kimi izləyib, indi də onun daimi yol yoldaşıdır. Ürəyimizi riqqətə gətirib, bizə güclü ideya, estetik təsir göstərən kitablarının əksəriyyətini iki otaqlı dar mənzilinin mətbəxində qələmə alıb. Qarşısında sabahkı günün məişəti ehtiyaclarını ödəmək tələbi, xəyalında şahanə sarayların, dəbdəbəli həyatın təsvirinin ehtiyacı onun qəlbində, bax bu sayaq qoşa yaranıb, yaşayıb. Paradoksdur, deyilmi?

Lakin Əlibala Hacızadə belə şeyləri eyninə almayıb. Çünki yaxşı bilir ki, yazıçının əsl mükafatı oxucu marağı, xalq məhəbbətidir. Belə bir hüsni-rəğbət olmayanda yüksək adlar sənətkarın mövqeyinə zərrə qədər təsir göstərə bilmir.

*Zamin Mahmudov*
*şair*

## YAZIÇININ ÖMÜR YOLU

Əlibala Qüdrət oğlu Hacızadə 1935-ci il avqustun 28-də Puşkin (indiki Biləsuvar) rayonunun Ağalıkənd kəndində, müəllim ailəsində anadan olub. 1940-cı ildə ailəsi ilə birlikdə Əskərabad kəndinə köçüb. Atası Qüdrət kişi Böyük Vətən Müharibəsi başlanan gün - 1941-ci il iyunun 22-də cəbhəyə yola düşüb. 1944-cü ildə anası, 1949-cu ildə isə atası vəfat etmişdir. 1953-cü ildə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinə daxil olmuş və 1958-ci ildə oranı bitirmişdir. Elə həmin ildən də Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda işləyir.

İlk dəfə əsərləri "Gəncliyin səsi" adlı almanaxda çap olunmuşdur. "Heykəl gülür" adlı ilk kitabı isə 1961-ci ildə çapdan çıxmışdır. 1962-ci ildə SSRİ Yazıçılar İttifaqının üzvü olmuşdur. 1964-cü ildə Fərrux Yəzdinin həyat və yaradıcılığı haqqında dissertasiya müdafiə edərək, filologiya elmləri namizədi adını almışdır. Daha sonra onun "Məhəbbət olmayan evdə" (1963) və "Unutmaq olmur" (1964) adlı romanları çap edilmişdir. 1962-ci ildə ailə həyatı qurduqdan sonra iki qız və bir oğlu dünyaya gəlmişdir. 1966-1970-ci illərdə Əfqanıstanda yaşayaraq, tərcüməçi işləyib. Əfqanıstanda olduğu illərdə "İtkin gəlin" romanını yazmış və əsər 1979-cu ildə çap edilmişdir. 1980-cı ildə "Əfsanəsiz illər", 1981-ci ildə isə "Ayrılığın sonu yoxmuş" adlı romanları çapdan çıxmış və ona böyük şöhrət gətirmişdir. "Təyyarə kölgəsi" adlı romanı 1969-cu ildən "Azərbaycan jurnalında", 1974-cü ildə isə kitab şəklində çıxmışdır. Həmin romanın davamı kimi çapdan çıxan "Vəfalım mənim" romanı isə böyük qalmaqala səbəb olmuşdur. Bu kitaba görə ona böyük mənəvi və fiziki təzyiqlər etmişlər. İki dəfə işdən çıxarılıb, lakin hər dəfə də bərpa olunub. Üçüncü dəfə isə onun baş elmi-işçi vəzifəsini kiçik elmi-işçi vəzifəsi ilə əvəz etmiş, əsərlərinin çapına qadağa qoyulmuşdur. Beş il qadağadan sonra yazıçı "Dünyanı tanı" romanını çap etdirmişdir. Maliyyə problemləri ilə əlaqədar "Dünyanı tanı" romanının ikinci hissəsi, "Təyyarə kölgəsi" və "Vəfalım mənim" romanlarının davamı kimi yazdığı üçüncü roman, "Yandırılmış adam" adlı əsərinin birinci hissəsi çap olunmamış qalıb.

"Unutmaq olmur", "Əgər sevirsənsə" adlı televiziya tamaşalarının müəllifidir. Onun yazdığı "İtkin gəlin" və "Yandırılmış adam" adlı dram əsərləri Gəncə Dövlət Teatrında uzun müddət oynanılmışdır. "İtkin gəlin" trilogiyası əsasında xalq artisti Lütfi Məmmədbəyovun

rejissorluğu ilə "İtkin gəlin" adlı 12 seriyalı teleserial çəkilmiş və televiziya vasitəsilə 5 dəfə nümayiş etdirilmişdir.

Bütün bunlarla yanaşı Ə.Hacızadə "Şəhriyar" qəzetində işləmiş və bir sıra tərcümələr etmişdir. İranın keçmiş xarici işlər naziri Əli-Əkbər Vilayətinin "Səfəvilər dövründə İranın xarici siyasəti tarixindən", Əbdülrəhman Yusupurun "Qurani-Kərimin 30-cu cüzbünün təfsiri", Rəcəb Nejadın "Zamanın aynası" adlı kitablarını fars dilindən azərbaycan dilinə tərcümə etmişdir. Dünyanı bizə sevdirən

Vaxtilə tənqidçi-ədəbiyyatşünas Kedrina həyatın, obrazların mükəmməl, dolğun, hərtərəfli, təhlili, qəhrəmanların hərəkətlərinin bədii, məntiqi cəhətdən əsəaslandırılması, ümumiləşdirmənin böyüklüyü mənasında Süleyman Rəhimovun yaradıcılığını yerin altını üstünə çevirən altılaylı kotana bənzətmişdi. Bu xüsusiyyəti biz Əlibala Hacızadənin yaradıcılığında da görürük.

*Mahmud Mahmudov,*
*dosent*

# BİR TALEYİN İŞIĞI

Əlibala Hacızadə bütün yaradıcılığı boyu həmişə müqəddəs ideallarn təbliği və tərənnümünə sadiq olduğundan oxucuların qəlbinə yol tapmış, onları özünün yaxın dostu və qəlb sirdaşına çevirmişdir. İlk kitabı "Heykəl gülür" dən (1961) 11-ci kitabı "Dünyanı tanı"yana ("Yazıçı" 1990) qədər keçirdiyi hisslər, onların ifadəsi bizə daha doğma, inandırıcı görünür. Çünki o, ötəri parıltılara aldanmır, zahiri dəbdəbə və təmtərağın işığına uyub, kiməsə yarınmağa, kiməsə boğazdan yuxarı tərif etməyə can atmır. Buna görə də həssas oxucu onu duyur və əsərlərini sonsuz bir maraqla oxuyur.

"Dünyanı tanı" romanının adı, düzü, məndə ilk andan anlaşılmaz bir hiss oyatdı. Məgər insan da yaşadığı dünyanı tanımadan yaşaya bilərmi?! Yox, sən demə, dünya hamının gördüyü dünya deyilmiş, onun nə qədər qatları varmış. O qatlarda Nəzər varmış, Bikə varmış, Süleyman, Şakir, Murad... varmış. Hərəsinin də öz aləmi, öz dünyası.

Romanda bütün hadisələr Nəzərin ətrafında cərəyan edir. Nəzər saflıq, təmizlik, əzəmət, paklıq mücəssəməsidir. O, ömrünü xalqının xoşbəxtliyi, səadəti yolunda şam kimi əritmiş maarif fədaisidir. Budur, Nəzər min həvəslə, min arzuyla sabah başlayası dərs gününə hazırlaşır.

Nəzərin yerinə - məktəb direktorluğuna keçmiş şagirdi Şakir Şakirzadəsə bu anlarda onun taleyinin yeni, əzablı hökmünü oxuyurdu. Nəzərin avqust müşavirəsində çıxışı Şakirə yaman yer eləmişdi. Nazirlikdən gələnin sifətini turşutması onu lap qorxutmuşdu. Bir də, Nəzər elə nüfuza malik idi ki, Şakir onun nüfuzu önündə əriyirdi. Nəyin bahasına olursa-olsun Nəzəri məktəbdən uzaqlaşdırmaq istəyirdi. "Nəzər qocalıb, daha. Bəzən nə danışdığını da bilmir. Onun təqaüdə çıxmaq, dincəlmək vaxtıdı".

Şakirin dediyi "xəstəlik" Nəzərin təbiətindən irəli gəlirdi. Bu "xəstəliyin"mayası düzlükdən, təmizlikdən, mərdanəlikdən yoğrulmuşdu. Nəzər həqiqət aşiqi idi. Onun dilində pisliyə qarşı bir söz vardı: "Faşist oğlu, faşist!" Nəzər bu sözü hər adama demirdi. Müharibədən gətirdiyi bu sözü o, elə adamlara deyirdi ki, əməlində pislikdən savayı bir şey yoxdu. Şakir də belələrindən idi. Nəzər Şakirin əsl insan olacağına hələ şagirdi olarkən şübhə ilə baxırdı. Çünki ondakı naqislik bütün yaxşı cəhətlərini də üstələyirdi. Bir qədər sonra Nəzər

ləyaqətini alçaltmamaq üçün heç kəsin gözləmədiyi bir vəziyyətdə işdən çıxır.

Lakin Nəzər gedəndə də özünün və müəllim yoldaşlarının nöqsanlarını səmimi etiraf edir. Onları əsl müəllim, vətəndaş olmağa çağırır.

Şakir Şakirzadə ləyaqətsiz, kinli və xofludursa, Nəzər də bir o qədər təmiz, yüksək və ucadır. Şakir əmisinə, rayon maarif şöbəsinin müdiri Murad Muradzadəyə arxalanıb Nəzəri maarif sistemindən uzaqlaşdırır. Çünki Şakir Nəzərin nüfuzu önündə əridiyi kimi, Murad da şöhrəti respublika səviyyəsində olan Nəzərdən çəkinərək, vəzifəsini itirmək qorxusu keçirirdi. Nəzərin belə tezliklə, sakitcə təqaüdə getməsi hər ikisini sevindirir. Lakin bu sevincləri uzun sürmür. Rayona yeni katib gəlmiş Süleyman müəllim Nəzəri daha məsul, rayon xalq nəzarəti komitəsinin sədri vəzifəsini etibar edir. Nəzər burada daha mürəkkəb vəziyyətlərlə qarşılaşır. İndiyə kimi bilmədiyi, görmədiyi məsələlər onda hətta çaşqınlıq doğuracaq dərəcədə heyrət yaradır.

Xeyir şərə qarşı mübarizə apardığı kimi, şər də qara-qorxusuz xeyirin qaşısında təslim olmaq bilmir. Natəmizlər şər atıb Nəzəri ləkələyirlər. Nəzərin yaxşı tanıdığı benzindoldurma stansiyasında işləyən Yunis tanışına "Yaxşı yol" restoranında qonaqlıq vermək üçün Nəzərdən yüz əlli manat pul borc alır. Səhərisi qaytararkən Nəzər yaxalanır. Yunisin xəyanətindən istifadə edən qüvvələr rüşvət adıyla Nəzəri aradan götürürlər. Ürəklərinə kin yığmış natəmizlər ağsaqqala əl qaldırır, onu döyüb təhqir edirlər. Rayonun sahibi Süleymansa etinasızlıq edir.

Roman iki kitabdan ibarətdir. Birinci kitab hadisələrin ən ziddiyyətli düyün nöqtəsində bitir. Hadisələr çox gərgin, dinamik inkişaf edir. Burada obrazların xarakterik xüsusiyyətləri çox ustalıqla açılır. Müəllif hər bir obrazı öz təbiətinə, həyatda tutduğu mövqeyə uyğun bir şəkildə danışdırır. Əsərin dili olduqca sadə, anlaşıqlı bir dildir. Bu da müəllifin, bəlkə də, təbiətindəki sadəlik və səmimiyyətdən irəli gəlir.

*Əzizağa Elsevər*
*yazıçı*

## YAZIÇILIQ TALEDİR

... İlk dəfə əzici bir payız gününün günorta çağı pəncərədən düşən ılıq günəş işığının altında yarıyuxulu oturub mavi cildli kitabın səhifələrini bir-birinin ardınca çevirdiyim dəqiqələrdə həmin uğultu səsini eşitdim. Bir elə uzaqdan gəlməsə də, fərqinə varmadım. Sadəcə kirpiklərimi tənbəl-tənbəl qaldırıb qıyqacı nəzərlərlə səs gələn tərəfə ötəri baxdım və elə baxa-baxa da təzədən gözlərimi qapadım. Az keçmiş həmin uğultunu yenidən eşitdim. Bu dəfə mürgülü şüuruma hələ azca da olsa işıq sızdıran və yarıqaranlıq otağa açılan bağlı qapıdakı nazik yarığı xatırladan yarıqapalı gözlərimi bir nöqtəyə zilləyib nə baş verdiyini anlamağa çalışdım. Əsl möcüzə də elə bu an baş verdi. Uğultu qəfildən güclənib mənə doğru gəldi və o, başımın üstündən keçəndə stolumun üstünə düşən kölgəni apaydın gördüm. Bu, təyyarə kölgəsi idi.

Beləliklə, "Təyyarə kölgəsi" ilə tanışlığım yuxuyabənzər bir günün günorta çağı başladı. Mən hadisələrin içində idim. Yarıqaranlıq otağımda vurnuxan qəhrəmanların boyunu, sifətini, sifətlərindəki cizgiləri, alınlarındakı qırışları görür, səslərini, hətta pıçıltılarını eşidirdim. Onların çoxunu tanıyırdım, hər gün rastlaşdığım adamlar idi. Sevdiyim və sevmədiyim adamlar. Ancaq bir şey vardı ki, o adamların hamısı zülmət kimi dərin bir uçurumun başında fırlanır, çox halda səs-səmirsiz o uçuruma yuvarlanaraq onun dərinliklərində məhv olub gedirdilər. Əslində bununla Ə.Hacızadə hələ hamının susmağa vadar olduğu bir dövrdə o cəmiyyətin, o ictimai-siyasi strukturun, öz erasını yaşamış ideologiyanın iflasından xəbər verirdi. Romanın süjet xətti üçün elmi-tədqiqat institutunda baş verən hadisələr təsadüfən seçilməmişdi. Əslində yazıçı demək istəyirdi ki, əgər cəmiyyətin elmi əsaslarında mənəvi aşınma başlayıbsa, demək onun süqutu labüddür. Və təsadüfi deyildi ki, Azərbaycan Xalq Hərəkatının üsyan dalğaları məhz akademiyanın divarları arxasında təzahür etdi. "Təyyarə kölgəsi"ndəki Orxanlar, Sakitlər, Gülmirələr sonra elmi tədqiqat institutlarından çıxıb "Azadlıq" meydanına yürüyən Elçibəylərə, İsa Qəmbərlərə çevrildilər.

Sonrakı illərdə yazıçı bu qlobal mövzunu dərininə inkişaf etdirərək təkcə o cəmiyyətin iflasının təsvirini yox, həm də köklərini araşdırmağa başladı. Və tapdı. Tarixi öz məhvərindən çıxarmaq arzusu ilə feodal-patriarxal münasibətlərin hökm sürdüyü Əfqanıstanı nəhəng hərb maşınının tırtılları altında əzmək istəyən imperiya tarixi cəzasını almalı idi. Və aldı. F.Engelsin təbirincə desək "öz müstəqqiliyi naminə, hətta öz dövlətini belə tam sevməyən" xalqla imperiya

ambisiyaları üz-üzə dayanmışdı. Nəhayətdə xalq öz iradəsini göstərdi... və o xalqı Azərbaycan oxucusuna Ə.Hacızadə tanıtdı.

Əfqanıstan trilogiyasının ideya xətti xalqın öz taleyini özünün müəyyənləşdirməsi, onun azadlıq idealına hörmət prinsipləri idi. Çünki hər bir xalq onun ölkəsinin daşı və torpağı azad olduğu məqamlarda qürurlu olur.

... Kabul yaxınlığındakı Poli-çərxi qəsəbəsinə məni aparan (yeri gəlmişkən, bu cümlələrin müəllifi də bir müddət Əfqanıstanda yaşayıb) əfqan sürücüm Hadi savadsız olsa da dünyanın gərdişindən baş çıxardırdı və ölkəsi kimi qürurlu idi.

- Niyə yaxşı yaşamaq istəmirsiniz, Hadi? - deyə uzun yolun bekarçılığından bezib çoxdan davam eləyən müharibəyə işarə vurdum.

Həmişə lal Hadi bu dəfə cavabı yubatmadı:

- Nə yaxşı yaşamaq? - dedi. - O, yaxşını gedin öz ölkənizdə qurun. Sonra bir qədər fasilə verib qəddini düzəldərək Kabulu dörd tərəfdən əhatəliyən boz dağları göstərərək, - Əfqanıstan o dağlar kimidir, qanı tökülər, ancaq əyilməz.

... Və əyilmədi. Əfqanıstan əslində bütün Şərq üçün ləyaqət, şərəf simvolu oldu. Və Həcızadə də bu mövzunu Azərbaycan ədəbiyyatına təsadüfən gətirməmişdi. O, azad və hürr yaşayan bir xalqı bizim yaddaşlarımız üçün bayraq timsalı qaldırırdı.

Trilogiyanı macərə hesab edənlər yanılırlar. Yazıçı müdhiş həyatı, feodal-patriarxal münasibətlərin doğurduğu iztirablı və acınacaqlı məhəbbəti, hətta ən ədalətsiz qanunları təsvir etməklə belə azadlığın, müstəqilliyin əvəzolunmazlığını milli qürur üçün əsas şərt olduğunu nəzərə çarpdırırdı.

... Və beləcə tanıdığım Əlibala Hacızadə ilə günlərin birində EA-nın 7-ci mərtəbəsində üz-üzə gələndə, boğazı ağrıdığı üçün boynuna bərk-bərk doladığı şarfın düyününə baxıb özüm üçün aydınlaşdırmağa çalışdığım ilk fikir "yazıçılıq nədir?" sualının mahiyyətinə varmaq oldu. Əvvəl öz-özümdə heç cür qətiləşdirə bilmədim ki, yazmaq peşədir, sənətdir, yoxsa adi iş. Bir xeyli eləcə dayanıb baxdım. Birdən gördüm ki, o, öz yaratdığı dünyanın içərisindədir. Və ağlıma gələn ilk fikir də bu oldu: Yazıçılıq taledir. Mənə elə gəlir ki, Ə.Hacızadə heç cür başqa ömür yaşaya bilməzdi. O, məhz şərqşünas olmalı idi, Əfqanıstanda yaşamalı idi, akademiyada işləməli idi. Və sözün həqiqi mənasında yazıçı olmalı idi. Çünki, bunu tale yazmışdı ona.

*İbrahim Quliyev*
*şair*

## «YAZIÇI ÖVLADI OLMAQ BÖYÜK MƏSULİYYƏTDİR»

*Asya xanım özü jurnalistdir. 1997-ci ildən "Nezavisimaya qazeta"nın Azərbaycan üzrə təmsilçisidir. Etiraf etdiyinə görə, ailədə yazıçı atasına ruhən hamıdan yaxın, onu daha tez duyan, başa düşən Asya Hacızadədir*

- Hiss edirəm ki, jurnalist olmağımda onun genetik kodlarının xüsusi rolu olub, deyə söhbətimizin əvvəlində Asya xanım bildirdi. Mən də yazıram, ancaq bədii əsərlər yox, reportajlar yazıram. Məgər bu da yazmaq deyil? (gülür)

- Ümumiyyətlə, tanınmış yazıçının övladı olmaq nə deməkdir?

- İlk növbədə məs'uliyyət. Doğrudur, bunun müsbət tərəfləri də var. Sənə daha çox hörmətlə yanaşırlar, hər hansı problemini həll etməyə çalışırlar. Bununla bərabər bu işin məs'uliyyəti daha çoxdur. Sən başqaları kimi özünü apara bilməzsən. Səni daha tez tanıyırlar, səni daha çox qınayırlar.

- Siz Əlibala Hacızadəni daha çox ata, yoxsa yazıçı kimi qəbul edirsiniz?

- Əlbəttə, ata kimi... Düzünü deyim, yazıçı kimi əvvəllər o, mənə çatmırdı...

- Dediniz, onun genetik kodları daha çox sizdədir. Eləysə yəqin ki, ilk əlyazmalarını da siz oxuyursunuz...

- Yox, xətti çox pisdir, oxumaq olmur.

- Bəs necə yazır?

- İkiotaqlı mənzilimizin mətbəxində. Onun ayrıca yaradıcılıq otağı yoxdur.

- Yazıçılar öz bioqrafiyalarını yazırlar. Bu mənada onu daha çox hansı əsərində görürsünüz?

- "Vəfalım mənim" romanını demək olar ki, özü haqqında yazıb. Orada Sakit Aranlı surəti var, elə o, atamın özüdür.

- Bəs övladları içərisində o kimi daha çox sevir...

- Desəm məni, bacı-qardaşım inciyər (gülür). Düzünü deyim, elə məni...

- Evdə heç mübahisə olur, yə'ni ata-ananız arasında?

- Əlbəttə, olur. Özü də sosial problemlərlə bağlı.

- Onda siz kimin tərəfini saxlayırsınız?

- Atamın. Necə deyərlər, qruplara bölünürük: mən atamla, o biri bacı-qardaşım anamla.

- Yəqin ki, yaradıcılıqda da elə.

- Yaradıcı əgər oxucuların qəlbinin incə tellərinə toxunursa, o, sevimli olur. Bu cəhətdən atama yazıçılar arasında birinci yeri verərdim.

- Asya xanım, atanız öz qiymətini alıbmı?

- Həm hə, həm yox. "Hə" o mə'nada deyirəm ki, minlərlə oxucunun qəlbində yazıçı atamın yeri var, o biri tərəfdən isə o indiyədək layiq olduğu adı almayıb. O, xalq yazıçısı deyil, xalqın yazıçısıdır.

*Asya Hacızadə*
*jurnalist*

# MƏNALI VƏ DƏYƏRLİ 65 İL

Mübaliğəsiz demək olar ki, Azərbaykanda Əlibala Hacızadə kimi populyar olan, sevilən, xüsusilə gənclər arasında kitabları əldən-ələ gəzən yazıçılarımız bəlkə də barmaqla sayılacaq qədərdir. Oxucu məhəbbəti isə boş yerdən yaranmır - sənətkarın öz qələmini ürəyinin qanına batıraraq yazdığı, qəlblərə nəqş etdiyi bədii lövhələr, canlı obrazlar və ehtiraslı düşüncələrlə qazanılır. Bu mə'nada Əlibala müəllim xalqımıza məhrəm rolan yazıçıdır. Onun əsərlərinin əsas ideya-estetik keyfiyyəti də məhz məhrəmlikdədir. Həyatı, insanları, xüsusilə, qadın qəlbini dərindən öyrənib bilməklə təsvir obyektinin bədii təhlilini vermək, obrazın daxili aləmini, onun ən incə guşələrini açıb göstərmək - Ə.Hacızadə yaradıcılığının başlıca prinsipidir. Elə ona görə də oxucu üçün sevimli və doğma olan bu obrazlar bir həmdərd və sirdaş kimi onun şəxsi həyatına daxil ola bilirlər. Mürəkkəb insan taleləri, keşməkeşli ömür yolları, odlu-alovlu məhəbbət səhnələri, dramatik və tragik hadisələr... bax, Ə.Hacızadənin romanlarını - "Təyyarə kölgəsi", "İtkin gəlin", "Əfsanəsiz illər", "Ayrılığın sonu yoxmuş.." "Dünyanı tanı" və həmçinin başqa əsərlərini oxunaqlı edən əsas xüsusiyyətlərdir.

Ə.Hacızadənin əsərlərində mənim diqqətimi cəlb edən əsas leytmotivlərdən biri - ölümün təsviri və ölüm haqqında yazıçının bədii-fəlsəfi düşüncələridir. O, həyat həqiqətindən çıxış edərək, ölüm səhnəsini bütün çılpaqlığı ilə bərbəzəksiz, olduğu kimi, yüksək sənətkarlıqla verməyi üstün tutur. Yazıçının qələmində ölüm - yoxluq, heçlik kimi deyil, varlığın başqa bir formada davamı kimi anlayış məzmunu kəsb edir. Oxucuya da ölüm yaşanan ömür üçün məs'uliyyət təlqin edən labüd bir sonluq kimi təqdim olunur: "Ölüm insanı soyundururmuş, ölüm hər şeyin üstündən pərdəni götürürmüş: sən daha vücudunun heç bir ə'zasını - gözəlliklərini də, əgər varsa, eyiblərini də mürdəşirdən gizləməyə qadir olmadığın kimi, ömrün boyu tutduğun yaxşı-pis əməllərin də kimsədən pünhan saxlamağa qadir olmursan... Sənin yoxluq dünyan başlayan andan həyatda necə olmusansa, eləcə də qiymətini alırsan: yaxşı olubsansa, yaxşı, pis olubsansa, pis... Daha o anlarda, günlərdə deyilənlərdə yalan olmaz, riya olmaz, ikiüzlülük olmaz, haqq olar, həqiqət olar. Bəli, əsl haqq "söz məhz o anlarda, o günlərdə söylənər sənin barəndə"...

Bəli, yazıçının ölümlə bağlı bədii-psixoloji müşahidə və qənaətləri təkcə ayrı-ayrı obrazların konkret xarakterini müəyyənləşdir-

mək baxımından deyil, ümumiyyətlə, həyatı və insanı idrak nöqteyi-nəzərindən də çox əhəmiyyətlidir.

Əlibala müəllim sadə, təvazökar və şərəfli bir sənətkar ömrü yaşayır. Çox böyük fəxri ad və təltif, mükafat və titulları olmasa da (hərçənd ki, madam ölkəmizdə belə bir şey qəbul edilib, onda Ə.Hacızadəyə bütün ad və mükafatlar layiqdir) və 1992-ci ildən bəri bu bazar iqtisadiyyatı şəraitində heç bir kitabını da çap etdirə bilmirsə də, yenə yazı masasının arxasındadır, çünki oxucular ondan yeni-yeni əsərlər gözləyirlər.

Mən Əlibala müəllimlə "Şəhriyar" qəzetinin redaksiyasında bir yerdə işləyəndə onun bir çox gözəl insani keyfiyyətlərini görmüşəm. İran İslam Respublikasına birgə səfərimizdə Əlibala müəllimin yol yoldaşlığını, böyüklə böyük, kiçiklə kiçik olmasını görmüşəm. Uzun müddət Əfqanıstanda tərcüməçi işləmiş Əlibala Hacızadə həm də elmi-pedaqoji fəaliyyəti ilə şərqşünas həmkarları və tələbələri arasında böyük hörmət və məhəbbət qazanmışdır. Mən onun həmişə gənclərə qayğı və diqqətlə yanaşdığını, yeri gələndə hətta balaca bir uşaqdan sanki böyük bir insandan olduğu kimi ührr istədiyini (Tehranda pilləkənləri düşərkən 9-10 yaşlı bir oğlana təsadüfən qolu ilə toxunmuşdu) görmüşəm.

Əlibala Hacızadənin - görkəmli yazıçı, şərqşünas, publisist, tərcüməçi olan yüksək mədəniyyətli bir ziyalının 65 yaşı tamam olur. 65 il - nə çoxdur, nə azdır, ancaq ən əsası odur ki, mə'nalı və dəyərlidir.

*Rasim Nəbioğlu*
*filologiya elmləri namizədi*

## USTAD HAQQINDA BİR NEÇƏ SÖZ

Sevimli yazıçımız Əlibala Hacızadə mənə nə orta məktəbdə, nə də ali məktəbdə dərs deyib. Buna baxmayaraq, mən onu ən əziz müəllimim, daha geniş mə'nada desəm, ustadım hesab edirəm. Çünki o, taleyimə köçkünlük möhürü vurulandan, doğma Şuşadan ayrılıb Bakıya sığınandan sonra, "Şəhriyar" qəzeti redaksiyasında birlikdə işlədiyimiz uzun illər ərzində mənə əsl müəllim - ustad kimi həyat və sənət dərsi deyib. Və bu dərslər mənim dünyaya baxışımı da, sənət və sənətkar anlayışımı da kökündən dəyişib.

Mən əvvəllər elə bilirdim ki, Əlibala müəllim mənə bir qaçqın kimi, bir həmkar və qələm sahibi kimi hörmət eləyir, yazılarıma xüsusi diqqət və qayğı ilə yanaşır. Ancaq sonra gördüm ki, yox, mən səhv eləyirəm. O, tək mənə yox, hamıya - həmkar yoldaşlarıma da, kənar müəlliflərə də eyni məhəbbət və canıyananlıq göstərir. Və bu onu bir insan, bir yazıçı kimi mənim gözümdə əlçatmaz ucalıqlara qaldırdı.

O, çox sadə, çox mehriban bir insandır; mən hələ indiyə qədər onun kiminsə qəlbinə dəydiyini, incitdiyini görməmişəm. Hərdən özüm özümə sual verirdim; görəsən niyə hamı - özündən böyük də, kiçik də Əlibala müəllimi belə dərin məhəbbətlə sevir? Yaxşı yazıçı olduğuna görəmi? Sadəliyinə görəmi? Xeyirxahlığı üçünmü?

Uzun müddət bu suallara cavab tapa bilmirdim.

Ancaq oxucularla növbəti görüşlərinin birində, görünür, həmin suallar əlində mənim kimi çırpınan bir tələbə qız bu sirri açmağını ondan xahiş eləyəndə, mən bütün varlığımla diqqət kəsildim; görüm mənim əziz ustadım bu suala necə cavab verəcək?

O, özünəməxsus bir təbəssümlə həmin tələbəyə baxıb dedi:

- Çünki mən sizin hamınızı sevirəm. Ona görə də siz məni sevməyə bilməzsiniz.

Bəli, o, bütün insanları - məni, səni, onu, kimliyindən asılı olmayaraq, hamını, hamımızı böyük bir məhəbbətlə sevdiyi üçün böyükdür.

Əlibala müəllimin mənim kimi onlarla tələbəsi var. Şe'r-sənət aləminə çəkinə-çəkinə gələn, ilk kövrək addımlarını atan tələbələri var. Əlibala müəllim onların hamısına ürəkdən, candan qayğı göstərir, əsərlərini oxuyur, rə'y yazır, redaktə edir, kitablarının çap olunmasına köməklik göstərir.

Şəxsən mənim sənət aləminə gəlməyimdə onun çox zəhməti olub. "Mən səninəm" hekayələr kitabımın, "Təmiz ad" romanımın işıq üzü görüb, oxucularımıza çatmasında ustadım böyük qayğı göstərib. Mən sənətin çətin, sirli-sehrli yollarına çıxmağımda qayğıkeş bir insan kimi əlimdən tutan ustadımı anadan olmasının 65 illiyi münasibətilə yerə-göyə sığmayan bir sevinc hissilə təbrik edirəm, ona uzun ömür, cansağlığı, səadət arzulayıram.

*Fazilə Qafarqızı,*
*yazıçı*

## MƏNİM İLK MÜƏLLİMİM

Mənim Əlibala Hacızadə ilə tanışlığım lap uşaq vaxtlarıma təsadüf edir. Bizim mə'nəvi tanışlığımızın bünövrəsi şe'rlə qoyulub. Atamla mən onlara tez-tez qonaq gedərdik. Bizim evdə olan məclislərin ilk qonağı həmişə Əlibala müəllim olur.

İndi də demək olar ki, yazdığım şe'rləri ilk dəfə Əlibala müəlliməyə oxuyuram. Bir neçə il mən yaradıcılığıma fasilə verdim. Bu da ailə həyatımla bağlı idi.

Bir gün Novruz bayramı günü idi. Telefon zəng çaldı. Mən dəstəyi qaldırdım. Əlibala müəllimin səsini yüzlərlə səsin arasında tanıyıram. Çox sevindim. Bayramımızı təbrik eləyib, şe'r oxumağımı istədi.

Dedim ki, artıq bir neçə il olar ki, heç nə yazmıram. Ürəkdən gələn şe'rlərim bir müddət yadımda qalır, sonra da tədricən yaddan çıxır. Demək olar ki, Əlibala müəlliim məni əməllicə danladı. Dedi: "Sənin damarında ustadımız Ələkbər Şahidin qanı axır. Zaman ötsə də, bu özünü göstərəcək. Fərz elə ki, bir qiymətli daş torpağın altında qalıb. Nə vaxtsa o, öz şəffaflığını göstərəcək".

Bir az da danlayıb dedi ki, indiyə sənin yazdıqların qəzetlərdə çap olunmalı idi. Hətta kitabın nəşr üzü görməliydi. Mən də dedim ki, "İnamsız dünyada inamla yaşa". Mənim bu sözümü tez tutub dedi ki, bu misraya mütləq şe'r yazmalısan. O, mənə bir həftə vaxt verdi. Mən isə onu bir neçə saat içində yazdım...

Ondan sonra yazdığım bütün şe'rləri öz müəllimimə oxuyurdum. Atama şe'r oxumağa ehtiyat edirdim. Müəllimimin razılığı ilə mən ona da şe'r oxumağa başladım. Əlibala Hacızadə telefonda şe'rlərimin ilk oxucusu və mənim müəllimim olub. Mən indi həyatda nələrə nail olmuşam ona görə Əlibala müəllimə minnətdaram.

Qanımda qəzəlxan ustad Ələkbər Şahidin qanı axır. Müəllimim isə öz yazıları ilə ürəkləri fəth edən Əlibala Hacızadə olub.

*Dilarə Şahid*
*şairə*

## XALQIN YAZIÇISI

Əsrimizin 50-ci illərindən Azərbaycanda yazıçılara dövlət tərəfindən rəsmi olaraq "xalq yazıçısı", "xalq şairi" adları verilməyə başladı. Öz yazılarında dövlətin ideologiyasını bədii vasitələrlə ifadə edən bu şair və yazıçıların xalq tərəfindən sevilən əsərləri də var, sevilməyən əsərləri də. Amma bu sənətkarlarla eyni dövrdə yaşamış elə sənətkarlar var ki, onların nə fəxri adları, nə də titulları olub. Xalq isə onları sevib, yazılarını oxuyub. Məclislərdə yuxarı başda oturdub. Bu sənətkarlar adətən maddi sıxıntı içərisində yaşasalar da, öz "arpa çörək"lərini ziyafətlərə dəyişməyiblər.

Əlağa Vahid, Məhəmmədhüseyn Şəhriyar, Qılman İlkin... kimi. Onlar xalq sənətkarı yox, xalqın sənətkarlarıdır. Bax, Əlibala Hacızadə də bizim belə yazıçılarımızdandır.

Xalq tərəfindən yüksək qiymətləndirilən "İtkin gəlin", "Təyyarə kölgəsi" kimi əsərləri sevilə-sevilə oxunur.

Mənim də on ildən artıq ünsiyyətdə olduğum Əlibala müəllimin öz dünyası, öz aləmi var. Onun "zahid"liyində bir azadlıq yaşayır. Təəssüf ki, belə sənətkar bu dünyadan haqlarını çox gec alırlar. Bu yol elə xalqın yazıçısı olmaq şərəfidir.

*Atababa İsmayıloğlu,*
*yazıçı*

## QƏHRƏMANLARININ FÖVQÜNDƏ DAYANAN SƏNƏTKAR

Sənətin səviyyəsi həmişə sənətkar şəxsiyyətinin formalaşması prosesi ilə sıx əlaqədə olub. Yazıçı şəxsiyyəti üçün zəruri olan şərtlər - haqqa, ədalətə, xeyrə sadiq qalmaq kimi keyfiyyətlər hətta onun təsvir etdiyi, ideallaşdırdığı surətlərin fövqündə durmağı bacaran qəhrəmanlıq tələb edir. Həqiqət, o cümlədən bədii həqiqət yalnız sözü ilə işi düz olan qəhrəmanlara açılır. Həqiqi sənət əsərlərinin meydana çıxması üçün prototiplərin düzgün seçilməsi olduqca vacibdir. Qəhrəmanlıq isə müxtəlif şəkillərdə özünəməxsus çalarlarla üzə çıxır. Ə.Hacızadə "Vəfalım mənim" romanında başlıca olaraq qəhrəmanlıq və sənətkar mövqeyi probleminin bədii həllinə çalışmışdır. Əsər müəyyən mənada Yusif Səmədoğlunun "Qətl günü" romanı ilə səsləşir. Hər iki romanda ikinci dünya müharibəsindən qabaq günahsız cəzalandırılmış ziyalıların ədəbi və elmi irsinin taleyi məsələsi qoyulur. "Vəfalım mənim" romanında hadisələr elmi tədqiqat institutlarının birində cərəyan edir. Əslində əsərdə elmi irsin taleyi və yazıçının həll etməyə çalışdığı qəhrəmanlıqla sənətkar mövqeyinin əlaqəsi məsələsi əsl insan-xeyirxah qəhrəmanla sənətkar surətinin zəruri vəhdətinin nəticəsi kimi təzahür edir. Yazıçı Sakitin dilindən müəllif öz münasibətini, bəzən də qətl hökmünü verir: insanların həyatını, əhvalını zəhərləyən tipləri ifşa etməklə kifayətlənməyib onları ittiham edir. "Vəfalım mənim" romanı ilə "Qətl günü" romanını birləşdirən və ayıran cəhətlər də bu nöqtədir. "Vəfalım mənim" romanında təsvir olunan "qətl" tamamilə gözlənilməz və yeni şəkildə təzahür edir. Burada "qətl" ilə yanaşı həyat davam edir. Deməli, "qətl" həmişə ola bilər, insanlığa zidd olsa da mümkündür, şər qüvvələr həmişə var, lakin onlara qarşı əzmlə dayanıb vətəndaş sözünü demək həyatın, yaşamağın mahiyyətidir. Əsər Mirzə Yanarın elmi irsini mənimsəyən Salman Qurbanzadəni ifşa etmək istəyən zəif qüvvələrin müvəffəqiyyətsiz mübarizəsilə başlanır. Bu işin təşəbbüsçüsü Orxanın qəfil ölümündən sonra məsələni yenidən qaldırıb, lakin həqiqəti sübut etməyi bacarmayan gənc alim Gülmirə hətta keçmiş şöbə müdiri Salman Qurbanzadədən üzr istəməli olur. Əslində yaranmış vəziyyətdə qalib gəlmək - həqiqəti üzə çıxarmaq nəinki mükün deyil, hətta mənasızdır. Çoxları kimi Gülmirə də hiss edir ki, Mirzə Yanarın elmi irsi barədə həqiqəti üzə çıxarmaq üçün şərait yoxdur. İndi bütün kollektivin üstünü alan təhlükəni aradan qaldırmaq ön plana keçmişdir.

Bu gün problemi həll etmədən keçmiş irs barədə həqiqəti ortaya çıxarmaq mümkün deyil. Əslində plagiat Salman Qurbanzadə ilə təzə direktor Nurəddin Osmanzadə arasında da fərq böyük deyil: bu gün Mirzə Yanarların irsinə yiyələnmiş Qurbanzadə kimilər sabah Osmanzadə rolunda çıxış edə bilər. (Yada salaq ki, şöbə müdiri işləyərkən Salman da fironluq edirdi və gənc alim Orxanı gülə-gülə, sözlə, süründürməçiliklə öldürmüşdü) Bu, əslində bir prosesin davamı, məntiqi nəticəsidir. İlk növbədə müstəbidlə mübarizə üsulunu aramaq zəruridir. Müstəbidlik, hakim-mütləq idarəçilik (diktatorluq) hər cür oğurluğa, qanunsuzluğa şərait yaradır. Əslində qəddarlığı ilə seçilən təzə direktor Nurəddin Osmanzadə ilə insanpərvər, sadə, qayğıkeş insan və alim keçmiş direktor akademik Aslanzadə surətləri qarşı-qarşıya qoyulur. Keçmiş direktor Aslanzadə uzun müddət rəhbərlik etdiyi bu müəssisənin kollektivini əməyinin bəhrəsi hesab edir. Nurəddin Osmanzadə isə tam başqa bir tipdir. O, bir vaxt üzvü olduğu bu kollektivin əməyinin üstündən qələm çəkir, heçə döndərmək üçün bütün imkanlarını işə salır. Əsərdə Osmanzadənin bir alim kimi bu rütbəyə çatması mexanizmi və ayrı-ayrı işçilərə münasibətinin psixoloji motivi tam açılmadığından alim və insan anlayışları arasında əlaqə problemi də nisbətən açıq qalır. Çünki həqiqi mənada əxlaq və mənəvi bütövləşmə yolunu keçmədən alim olmaq mümkün deyildir. N.Tusi göstərirdi ki, "elmdə naqislik ehtiyacdan deyil, adamın zatından doğar". Osmanzadə kimi.

Yazıçını dəhşətləndirən bir cəhət də budur ki, Osmanzadə belə "rəhbərlik üsulunu" işləmək və tələbkarlıq adlandırır. Müstəbid və hakim olan yerdə mədhiyyəçilər də yaranır. Məddah rolunda çıxış edən şair İlham Abışov da əsərdə Nurəddin Osmanzadə ilə yanaşı ifşa və ittiham olunur. Hərtərəfli işlənmiş şair İlham obrazı ilə yazıçı sənətin və sənətkarlığın ictimai həyatda mövqeyini açmağa çalışır. Şair İlhamın direktora şer həsr edib çap etdirməsi iki cəhətdən- sənətə münasibət və sənətkar mövqeyi baxımından qəzəb və ikrah doğurur. Sənətkarlıq baxımından İlhamın şerləri möcüzə olmasa da, şer adlana bilər. Ancaq sənət etikası baxımından onlar şer adını daşımağa yaramır. Şer direktora və həm də öz hərəkətləri və rəftarı ilə "duzlu bir qələmlə yazılmış felyetona layiq olan direktora" yazıldığından, sənət etikasına uyğun olmadığından poeziya nümunəsi sayıla bilməz. Bütün kollekitivi cana doyurub əzab verməkdən ləzzət alan bir adamı humanist adlandırmaq sənətə, sənətkara da hörmətsizlikdir. Şerə belə yüngül münasibət bəsləyənləri ittiham etmək təkcə ictimai mənada

deyil, sənət baxımından da zəruridir. Çünki şeri, sənəti mədhiyyəyə çevirən sənətkar öz tənəzzülü ilə birlikdə sənətini də iflas qarşısında qoyur.

Nəsimi kimi mübarizlər yetirən Azərbaycan poeziyasının sənət və sənətkar qarşısında qoyduğu yüksək məsuliyyəti yada salan yazıçının ürək ağrısı ilə yazdığı bu sözlər nə qədər yerindədir: "Vallah, şer heyfdir, siz allah şerə yazığınız gəlsin, onu namərd adamların adı ilə ləkələyib öldürməyin, şer müqəddəsdir" (səh.325).

Sənətkara və sənətə münasibət məsələsində şair İlhama qarşı yazıçı Sakit Aranlı surətini qoyur. Sakit hamının dərdinə yanır, həyatını yaşayır, bu isə onun "yazıçılıq sənətinin məsuliyyətindən irəli gəlirdi". Sadəliyi, təvəzökarlığı və sakitliyi ilə seçilən əməkdaşlardan biri olan Sakit hamının susmağa məcbur olduğu bir şəraitdə qəhrəmanlaşır, həqiqəti yazmağı, günahkarları isə qələmilə ittiham etməyi özünə borc bilir. Burada sənətkarın mənəvi keyfiyyətləri "əsl insan" - qəhrəman idealına uyğun təzahür edir. Yazıçıya görə hər yerə bədbəxtlik gətirən Nurəddin kimi müstəbidlər özləri bədbəxtdirlər. Müəllif bədbəxtlikdən zalımlaşan adamlara qarşı həqiqi insanları - əsl qəhrəmanları qoyur. Bu mənada yazıçının anlamında sənətkar özü də əsl insan və qəhrəman olmalıdır, sənətinə məsuliyyətlə yanaşmalıdır.

Əsərdə Osmanzadələr, Qurbanzadələr kimi tiplər qarşısında zəif olan Nadirə, Gülmirə kimi sadə qəlbli, həqiqəti üstün tutan insanların barışmaz mövqeyi qoyulur. Mübarizənin qurbanları da var. Bu mübarizə akademik Aslanzadənin, Orxan kimi gənc alimin ölümü ilə nəticələnir. Orxanı Qurbanzadə, Aslanzadəni Osmanzadə sözlə öldürür. Biri gülə-gülə, süründürməçiliklə, o biri təhqirlə. Onların iş üsulunda qəddarlıq, zalımlıq müxtəlif şəkildə təzahür edir: birincidə fironluq, ikincidə müstəbidlik. Bu vəziyyət Gülmirə kimi gənc qüvvələr qarşısında yeni mübarizə üsulunu aramaq tələblərini qoyur. Deməli, mübarizə - qələbə irəlidədir. Müvəqqəti çaşqınlıq hələ məğlubiyyət deyildir. Yazıçı qoca yaşlarında vəzifəsindən istifadə edib cavan, gözəl gəlin Şərifə ilə əylənən Nurəddinlərin eşq macərasına, cavan ərinə sevgisini çox asanlıqla qurban edən Şərifə kimi tezuyan qadınların qeyri-əxlaqi hərəkətlərinə qarşı Gülmirənin Orxana ölümündən sonra da davam edən qeyri-adi məhəbbətini, kənd müəllimi Əsədin illər boyu sadiq qaldığı Xəzangülə təmiz sevgisinin şəfaverici gücünü qoyur. Əsərin təsviri xüsusiyyətləri göstərir ki, müəllif yaxşı bildiyi, öyrəndiyi mihiti, şahidi olduğu, bəlkə də qəhrəmanları ilə

birgə yaşadığı hadisələri qələmə almış, bədiiləşdirmişdir. Bizcə, əsərin uğuru da elə bundadır.

*Beytulla Şahsoylu,*
*fəlsəfə elmləri doktoru*

## ƏLİBALA HACIZADƏ – 70

Hörmətli Əlibala müəllim!

Sizi — tanınmış yazıçımızı 70 yaşınızın tamam olması münasibətilə təbrik edirik.

Siz yarım əsrə yaxındır ki, bədii yaradıcılıqla məşğulsunuz. Oxucularla ilk görüşə 1956-cı ildə Uşaqgəncnəşrin buraxdığı "Gəncliyin səsi" almanaxında dərc edilmiş "Mənim müəlliməm" hekayəsi ilə gəlmisiniz. Bu görüş uğurlu olmuş, ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır. 1961-ci ildə hekayələrdən ibarət ilk kitabınız — "Heykəl gülür" işıq üzü görmüşdür. Sonra irihəcmli nəsr əsərləriniz çıxmış, böyük oxucu auditoriyası qazanmış povest və romanlar yaratmısınız. "Unutmaq olmur", "Məhəbbət olmayan yerdə", "Təyyarə kölgəsi", "İtkin gəlin", "Əfsanəsiz illər", "Ayrılığın sonu yoxmuş" və s. kitablarınız böyük tirajlarla nəşr olunmuşdur. Bu yaxınlarda seçilmiş əsərlərinizin on cildliyi oxuculara təqdim edilmişdir. Həyat hadisələrini çox təbii əks etdirən, bitkin obrazlarla zəngin, bədii cəhətdən mükəmməl əsərləriniz nəsrinizin uğuru kimi qiymətləndirilir. Romanınıza olan böyük marağı nəzərə alaraq Azərbaycan televiziyası sizin ssenarinizə "İtkin gəlin" adlı 12 seriyalı bədii televiziya filmi çəkmişdir. Poeziya janrında da qələminizi sınamısınız və yaradıcılığınızın bu sahəsini də uğurlu hesab etmək olar.

Siz ixtisasca şərqşünassınız, bədii yaradıcılıqla yanaşı, elmi fəaliyyətlə də məşğulsunuz. Milli Elmlər Akademiyası Yaxın və Orta Şərq xalqları İnstitutunun baş elmi işçisisiniz. Filologiya elmləri namizədisiniz.

Hörmətli qələm dostumuz!

Sizi bir daha 70 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edir, sizə uzun ömür, cansağlığı, yaradıcılıq uğurları arzulayırıq.

*Azərbaycan Yazıçılar Birliyi*

## ƏLİBALA HACIZADƏYƏ

Əziz Əlibala!

Səni — tanınmış yazıçımızı, geniş oxucu kütləsinin maraqla qarşıladığı neçə-neçə əsər müəllifini 70 yaşın münasibətilə ürəkdən təbrik edirəm. Nəsrimizin zəhmətkeş fədaisi, son dərəcə təvazökar və ləyaqətli ziyalı kimi səni yüksək qiymətləndirirəm.

Kim nə deyir-desin, 60-cılar nəsli bu gün də ədəbiyyatımızın ağır yükünü daşımaqdadır. Sən bu nəslin görkəmli nümayəndəsisən. Bu gün də eyni gənclik həvəsiylə yazıb- yaradırsan.

Bu yubiley günündə sənə uzun ömür, cansağlığı, bol-bol uğurlar diləyirəm.

*ANAR*

## XOŞBƏXT SƏNƏTKAR

"Ədəbiyyat aləmi müqəddəs bir aləmdi və əbədiyyət adlı bir dünyaya uzanan bir çox yolların ən gözəli, şirini və əzablısıdı. Mən ömrümün böyük bir hissəsini burada — müqəddəs saydığım bu dünyanın içində yaşamışam".

Bu sözlərin müəllifi Əlibala Hacızadədir və həmin sözlərin doğruluğuna bəlkə də mən onun özündən daha çox inanıram. Əlli ildən artıq həmin o Ədəbiyyat adlı müqəddəs aləmin ən dinc, səsdən-küydən, münaqişədən, çəkişmə-didişmələrdən uzaq olan bu sakini indi yaşının müdriklik zirvəsinə gəlib çatıb. Əlibala Hacızadə o yazıçılardandır ki, ancaq irəliyə —sabaha, gələcəyə baxır, keçmişə boylanmağı sevmirlər. Çünki onların buna vaxtı olmur, ikincisi də yazıb-yaratmaq eşqi bu adamlarda o qədər güclüdür ki, keçmiş heç yada düşmür. Ancaq təsəvvür edək ki, günlərin birində, lap elə yaşının bu yetmişində Əlibala Hacızadə dönüb arxaya — ötən illərə boylanır. Baxıb görür ki, qətiyyən təəssüflənməyə dəyməz — nə yaşın ötüb keçməsinə, nə də yaradıcılığa görə.

Əlibala Hacızadə xoşbəxt yazıçıdır. Mən bu xoşbəxtliyi ilk növbədə onun vaxtilə populyar yazıçı kimi sevilməsində görürəm. Keçən əsrin 70-80-ci illərində doğrudanda da, Ə.Hacızadənin çox geniş oxucu auditoriyası vardı, onun "Təyyarə kölgəsi", "Vəfalım mənim", "İtkin gəlin", "Əfsanəsiz illər", "Ayrılığın sonu yoxmuş" romanları ən yüksək tirajla çap olunduğu, bu əsərlərin hər biri oxucu dünyasına yol tapırdı. Təsəvvür edin ki, adını çəkdiyim bu romanlar haqqında ədəbi tənqid susurdu, amma Ə.Hacızadə milyonların sevimlisinə çevrilmişdi. Yazıçı "Mən sözlərimin içində yaşayıram" xatirə-məqaləsində bu haqda yazır: "Yaxşı yadımdadır ki, Heydər Əliyev cənabları o zaman pambıq yığımı mövsümlərində hər il — bu, az qala bir ənənəyə çevrilmişdi — böyük bir dəstə ilə — şairlər, yazıçılar, bəstəkarlar, müğənnilər və aktyorlardan ibarət böyük bir qrupla pambıq rayonlarına gedir və zona müşavirələri keçirirdi. Məni də iki dəfə o dəstəyə salmışdılar. Lakin xəstə olduğum üçün gedə bilməmişdim. 1980-ci ildə yayın qızmar günlərinin birində Saatlı rayonunda hansısa kolxozun qabaqcıl pambıqçı qızlar işləyən bir briqadasına gedir, qızları başına yığır, onlara bu ağır zəhmətləri üçün təşəkkür edir və sonra soruşur:

— Bəlkə sizin də bir şeyə ehtiyacınız var. Maşına, mebelə... utanmayın, deyin, mən canla-başla yerinə yetirərəm.

Pambıqçı qızlardan biri utana-utana qabağa çıxıb:

— Heydər müəllim, çox sağ olun. Bizim heç nəyə ehtiyacımız yoxdur, hər şeyimiz var, — deyir. Ancaq bir xahiş eləmək istəyirik.

— Buyur, qızım.

— Bu yaxınlarda bir "İtkin gəlin" kitabı çap olunub. Ondan bizim kəndə bircə nüsxə gəlib çıxıb. Qızlarımız onu oxumaq üçün növbəyə durublar. Mən 23-cü adamam. Əgər mümkünsə, deyin, o kitabdan bir az çox buraxsınlar, biz də oxuya bilək.

...Deyirlər, padşahların sözü sözlərin padşahıdır. O söhbətdən sonra "İtkin gəlin" iki dəfə də — hərəsi yüz min tirajla çap olundu və satıldı".

Tanınmış yazıçıların hər biri yaradıcılığın ilk illərində sınaq dövrünü keçirirlər — bu sınaq dövrü təcrübəsizliklə, səriştəsizliklə, kimi isə yamsılamaqla müşayiət edilir. Heç şübhəsiz, Əlibala Hacızadə üçün də belə bir dövr olumuşdur. Onun 50-ci illərdə yazdığı bir çox hekayələri də məhz bu mənada "məşq" xarakteri daşıyırdı. Ancaq inkar eləmək olmaz ki, Ə.Hacızadənin həmin hekayələrində onun sonrakı yaradıcılığı üçün səciyyəvi olan keyfiyyətlər üzə çıxırdı. Bunlar ilk növbədə, yazıçının həyata və təsvir etdiyi insanlara yaxınlığı idi, o, gördüyü, müşahidə etdiyi hadisələri qələmə alırdı, insanları təsvir edirdi, özündən süjet uydurmurdu, süjeti həyatdan götürürdü. Elə ilk hekayələrindən Ə.Hacızadənin dili də öz təbiiliyi və təmizliyi ilə diqqəti cəlb edirdi. Yazıçının özünəməxsusluğunu təyin edən ümdə əlamətlərdən biri — üslubu da müəyyənləşirdi. Ə.Hacızadə lirik nəsr nümunələri yaradırdı. "Bir dəstə nərgiz", "Heykəl gülür", "İntihar", "Qara yun" və s. Hekayələrində təcrübəsizlik də nəzərə çarpırdı, səriştəsizlik də, amma gələcəyin professional yazıçısı Əlibala Hacızadəyə xas olan məziyyətlərin ilk nişanalərini də bu yazılarda görə bilərik.

Sınaq dövrü çox uzun çəkmədi, formalaşma dövrü — axtarışlar başlandı. Bu axtarışların uğurlu bəhrəsi özünü 60-cı illərdə qələmə alınan hekayə və povestlərdə büruzə verdi. Və istər 50-ci illərdə, istərsə də 60-cı illərdə yazdığı povest və hekayələrində Əlibala Hacızadənin əsas qəhrəmanları sadə insanlar idi, daha doğrusu, özü yaşda gənclər idi. Əgər belə demək mümkünsə, Əlibala Hacızadə öz duyğu və düşüncələrini, hiss və həyəcanlarını, həyat və gözəllik haqqında fikirlərini bu və ya digər şəkildə obrazlarına paylayırdı. Yazıçının yaradıcılığında sıçrayış isə "İnam" povestindən başlandı. Povestin

qəhrəmanı Bəhruz bütün parametrləri ilə o dövrün müasir qəhrəman tipini ifadə edirdi. Başqa bir sürücünün ehtiyatsızlığı, ya nadanlığı ucundan qəzaya uğramış bir insanı xəstəxanaya çatdıran Bəhruz bir müddət şübhə və qınaqların hədəfinə çevrilir, ancaq günahsız olduğu üçün get-gedə hamı ona inanır. Bu, adi həyat əhvalatını Ə.Hacızadə mənəvi-əxlaqi problem səviyyəsinə qaldıra bilmişdi. Povest çap olunduqdan sonra akademik, görkəmli tənqidçi Məmməd Arif Dadaşzadə əsər haqqında maraqlı bir məqalə ilə çıxış etmiş, povestin bədii dəyərini və məziyyətlərini qeyd etməklə yanaşı, bəzi qüsurlarını da nəzərə çarpdırmışdı.

Əlibala Hacızadə romançıdır və Azərbaycan romanının XX əsrdə keçdiyi yolu izləsək, hər bir yazıçının bu sahədə müəyyən uğurlarını qeyd etməli olsaq, heç şübhəsiz, onun da xidmətlərini dana bilmərik. Belə ki, o, altı romanın müəllifidir. Bu romanlardan ikisi ("Təyyarə kölgəsi", "Vəfalım mənim") dilogiya, Əfqanıstan həyatından bəhs edən üç roman ("İtkin gəlin", "Əfsanəsiz illər", "Ayrılığın sonu yoxmuş") trilogiyadır, "Dünyanı tanı" romanının isə birinci hissəsi çap olunmuşdur. Öncə qeyd etdik ki, əvvəlki beş romanla Ə.Hacızadə 70-80-ci illərdə populyarlaşdı.

Tanınmış yazıçıların hər biri yaradıcılığının müəyyən çağlarında populyar olurlar. Bu populyarlığı ilk növbədə həmin yazıçıların əsərlərinə kütləvi marağın artması ilə izah etmək olar. Ancaq bu da əsas deyil. Yazıçının böyük oxucu auditoriyasına dərindən bələdliyi də burada mühüm rol oynayır. Oxucu nə istəyir, hansı mövzulara meyl edir, onu düşündürən nədir? — Ə.Hacızadə sanki fəhmlə bunu duyduğu üçün "Təyyarə kölgəsi"ni yazdı, sonra həmin romanın davamı olan "Vəfalım mənim"i qələmə aldı. Bu arada isə dörd il yaşadığı Əfqanıstanda gördüklərini, müşahidə etdiklərini trilogiyaya çevirdi. Əlbəttə, populyarlığı yazıçı üçün uğur saysaq da, biz heç də o fikirdə deyilik ki, bu amil həmin yazıçının yaradıcılığı üçün əsas məziyyət olmuşdur. Heç bir yazıçı (o cümlədən, Əlibala Hacızadə) bu populyarlığı axıra qədər qoruyub saxlaya bilmir. Əgər yazıçı, populyarlığın özü ilə gətirdiyi şöhrət haləsinə uyursa, özünə vurulursa, o, təbii ki, sönməyə başlayır, yaradıcılığında böhranla üzləşir. Yaxşı ki, populyarlıq dövrü ötüb keçəndən sonra Ə.Hacızadə nostaljiyə qapılmadı və səksəninci illərin sonlarında "Dünyanı tanı" adlı çox maraqlı bir roman da qələmə aldı.

Əlibala Hacızadə, doğrudur, ilk hekayələrini əllinci illərin ortalarında qələmə almışdı, lakin o, bir ədəbi nəsil kimi "altmışıncılar"a

aiddir. Yəni öz yaradıcılıq siması, həyata, gerçəkliyə bədii-estetik baxışı, təsvir etdiyi obrazların səciyyəsi etibarilə həmin ədəbi nəslin (Anar, Ə.Əylisli, Elçin, S.Azəri, F.Kərimzadə, İ.Məlikzadə və b.) cərgəsindədir. Hətta təsvir etdiyi obrazlarla "altmışıncılar"ın yaratdığı obrazlar arasında da yaxınlıq, doğmalıq müşahidə olunur.

"Təyyarə kölgəsi" mənəvi-əxlaqi axtarışlar mövzusunda qələmə alınmışdı. Müəllif konkret olaraq filologiya sahəsində çalışan alimlərin həyatını təsvir edirdi, romanda ziyalı mənəviyyatı problemi qoyulurdu. Lakin əsərdə hadisələr təkcə Ədəbiyyat institutu çərçivəsi ilə məhdudlaşmırdı. Elmi mübahisələr, qızğın diskussiyalar deyildi konfliktin mayası. Əsas konflikt, çarpışma həm də daxili aləmdə baş verirdi. Romanda sevgi xətti ilə ictimai motivlər bir-birindən təcrid olunmurdu. Yeri gəlmişkən, qeyd edim ki, Əlibala Hacızadə Azərbaycan nəsrində sevgi səhnələrinin ən yaxşı təsvirçilərindən biridir. Nakam sevgilər, yarımçıq məhəbbətlər, zərif, kövrək, incə hisslər onun təsvir etdiyi məhəbbət aləminin əsas "atributlarıdır". Ə.Hacızadə "Təyyarə kölgəsi"ndə nakam bir məhəbbət tarixçəsini vərəqləyir. Bu məhəbbət (Gülmirə-Orxan xətti) ilk baxışda çox sentimental görünür, hisslərin draması kimi həyəcan doğurur. Ə.Hacızadənin bu səhnələri təsvir etməkdə məharəti şəksizdir. Ümumiyyətlə, onun məhəbbətə baxışı, sevgi haqqında düşüncələri məhəbbət dastanlarından qaynaqlanır. Fərq yalnız sonluqdadır — dastanların əksəriyyətində nakamlıq yoxdur, Ə.Hacızadədə isə sevgilərin sonu ayrılıq və ölümlə bitir.

"Təyyarə kölgəsi" romanı öncə dediyim kimi, ziyalı mənəviyyatı problemini də işıqlandırır. İndiki çağ üçün bəlkə də çox adi və tanış olan elmdə ehtikarçılıq, pulla və himayədarlıqla yer tutmaq, dissertasiya yazdırmaq, karyera əldə etmək o dövrdən baş alıb gəlir, ancaq 70-ci illərdə bu mənfilikləri qələmə almaq bir az cəsarət tələb edirdi.

Romanda ən dolğun obraz professor Salman Qurbanzadədir. Bu obrazı o, mükəmməl rəsm etmişdir. Maraqlı bir priyom seçib onun dili ilə ürəyi arasında kəskin təzadı necə də ustalıqla təcəssüm etdirib.

Ə.Hacızadənin "Əfqanıstan" trilogiyası da (üç romanı şərti olaraq belə adlandırırıq) onun roman yaradıcılığında mühüm yer tutur. Yazıçı bu əsərdə də sevgi xəttini bütün digər xətlərdən daha qabarıq vermiş, insan talelərini də məhz sevgi, məhəbbət işığında canlandırmışdır. Trilogiya intizar doğuran hadisələr üzərində qurulub, bu da Əlibala Hacızadənin üslubuna xas olan bir cəhətdir — "Təyyarə kölgəsi" romanında da, "İnam" povestində də, hekayələrində də qəfil,

gözlənilməz situasiyalar çoxdur. Ancaq bütün bu intizar doğuran hadisələr həm də psixoloji yükə malikdir. Hadisələrin məkanı təkcə konkret bir coğrafi ərazi, yaxud otaq, mənzil deyil, həm də obrazların daxili aləmidir.

Bu yaxınlarda Əlibala Hacızadənin yaradıcılığına həsr olunmuş bir məqalədə oxudum ki, sən demə o, Azərbaycan nəsrində lirik təmayülün yaradıcısı imiş. Əlbəttə, bu, yanlış fikirdir, elə yazıçının özü də həmin fikrin yanlışlığını təsdiq edər. XX əsrdə Azərbaycan nəsrində lirik üslubun İlyas Əfəndiyev, Ənvər Məmmədxanlı yaradıcılığı ilə nəşv-nüma tapdığı məlum həqiqətdir, sonralar bu üslub Ə.Hacızadə, Ə.Əylisli və digər yazıçıların əsərlərində yeni çalarlarla zənginləşdi.

Ə.Hacızadənin "Əfqanıstan" trilogiyasından sonra yenidən müasir həyat hadisələrinə müraciəti də maraqlı bir romanla müşayiət olundu. O, sovet dönəmi hadisələrindən söz açan "Dünyanı tanı" romanını qələmə aldı (roman ilk dəfə "Azərbaycan" jurnalında işıq üzü gördü — 1989). Romandakı Nəzər müəllim obrazı sovet ədəbiyyatının "müsbət qəhrəman" ölçülərinə tam uyğun gəlsə də, çox canlı və koloritli təsvir olunmuşdu.

2004-cü ildə xeyriyyəçi Gülağa Qənbərovun maddi yardımı ilə Ə.Hacızadənin əsərlərinin on cildliyinin nəşrinə başlandı, beş cild hazırdır. I cilddə Ə.Hacızadənin müxtəlif illərdə yazdığı şeirləri də təqdim olunur. Doğrusu, onu bir nasir kimi tanıdığımdan, bu şeirlərin təqdimi mənə qəribə gəldi. Elə güman elədim ki, o da bir çox həmkarları kimi belə bir imic də əldə etməyə çalışır: "O, həm də şairdir". Amma bu şeirləri oxuduqdan sonra (həmin şeirlərin bir çoxu yazıçının ayrı-ayrı romanlarına da səpələnmişdir) istər-istəməz "o, şairdir" fikri ilə razılaşdım. Nəsrində lirik olan bir yazarın ömrünün müxtəlif çağlarında kövrək, həzin duyğular üstə köklənən şeirlər yazması mənə heç də qəribə görünmədi.

...Əlibala Hacızadənin 70 yaşı ilə bağlı bu yazıya onun öz sözləriylə başlamışdım. Elə yazını da onun öz sözləriylə bitirmək istəyirəm:

"Dünya malı, sərvəti, fəxri adlar, mükafatlar həsrəti ilə yaşamamışam. Mənim üçün ən böyük fəxri ad — Yazıçı, ən böyük mükafat — oxucularımın mənə bəslədiyi məhəbbətdi və bununla həmişə fəxr etmişəm. ...Bu, məhəbbət deyil, mükafat deyil, bəs nədi?"

*Vaqif Yusifli*

**ƏZİZ DOSTUM, QARDAŞIM,**
**SEVİMLİ TƏLƏBƏM ƏLİBALAYA**

Əlli mənzil ötüb keçən illərin,
Yolu ağır olmuş, mənası dərin.
Sən xalqın dərdini duyan oğlusan,
Loğman məlhəmidir hər bir əsərin.
Səni hər oxuyan deyir: var olsun
Döyünən ürəyin, yazan əllərin!
Daha bir əlli il yaşa, qələm çal,
Ədibi, təbibi ol bu ellərin!
Yayılsın şöhrətin uzaq ellərə,
Yağsın ünvanına əhsən, afərin!

*Mübariz Əlizadə*
*1985*

**HAQQIN ÇIRPINAN QƏLBİ**

*Yazıçı dostum Əlibala Hacızadəyə*

Haqq, ədalət axtarır,
Nahaqq öz işindədir.
Haqqın çırpınan qəlbi
Nahaqqın dişindədir.

*Cəfər Rəmzi*
*1985*

## TANRI OVSUNUDU QƏLƏMİN...

*Çox sevdiyim yazıçı dostum*
*Əlibala Hacızadəyə*

Tanrı ovsunudu qələmin sənin,
Bir dünya gizlənib sinəndə, ustad.
Aləmi tutsa da kədərin, qəmin,
Sevgi bəxş edirsən dinəndə, ustad.

Özün öz əlinlə neçə Əbdülün,
Ata qürurunu məzara gömdün.
Talelər üyüdən Nəcməddinləri,
Tale görkü kimi öldürməliydin.

Gözünün yağını əritdin, ustad,
Sözünə inandı söz möhtacları.
Qəlbin gizildədi… Allah yoluna
Qaytara bilmədin Zərrintacları.

Çoxunun dünyada qalmayır izi,
Hər sözün müqəddəs oddu, atəşdi.
Sənin qələmindən ruh alıb deyə,
"Əfsanəsiz illər" əfsanələşdi.

Əzəldən zülmətə qənimsən, gərək
Hər kəs ümid olsun öz çırağına.
Yazırdın… Pozurdun… Necə dözürdün,
Dünyanın dünyaca şıltaqlığına?!

Əqidən yaşadır səni həmişə,
Sən öz əqidənin peyğəmbərisən.
"İtkin gəlin"ləri axtaranların
Nəsihət yerisən, inam yerisən.

Haqqın ətəyindən əl üzənləri
Gətirə bilmədin insafa, dinə.

Sözünü rənglərlə söyləmək üçün,
Bir fırça vermişdin sən Elməddinə.

Sən harda varsansa, ora dünyanın
İstəyi, sevgisi, aman yeridi.
Sonu olmasa da ayrılıqların,
Qələmin son ümid, güman yeridi.

Vətənə, torpağa, millətə sevgin
Sözdən köz götürən oddur, ocaqdır.
Həsəd aparıram, ustadım, sənə,
Səni əsərlərin yaşadacaqdır.

*Gülağa Tənha*
*03.01.2005.*
*Moskva, Domadedovo*
*təyyarə limanı.*

## ƏLİBALA HACIZADƏYƏ

Hər il yaşı dəyişsə də,
Duyğuları yaşıl qalan
Əlibala Hacızadə!

Təbiətdən tükənməz güc,
Məhbbətədən ilahm alan
Əlibala Hacızadə!

Kaş həmişə görək səni
Üzügülər, alnıaçıq:
Altmışı salamladın,
Məramımız, istəyimiz –
Yetmişin də əlini sıx!
Kaş həmişə görək səni
Daim müdrik, cəsur, sadə;
Əlibala Hacazadə!

Bir şərqşünas alim kimi
Qərbdə də duz-çörəyin var;
Bəstəboysan; amma qardaş,
Yerdən böyük ürəyin var.
Qürbətlərdə buz əridən
Təmiz arzu-diləyin var.
Bir vaxt öpüb qədəmindən
Qanı axan Əfqanıstan:
Qələmindən süzülübdür
Qürbət eldə neçə dastan.
Əqidəni sarsıdammaz
Fitnə-fəsad, qorxu, hədə!
Sağ ol, gözəl yazıçımız
Əlibala Hacızadə!

Qüdrətindir, şöhrətindir
Doğulduğun ulu diyar:
Torpağını, millətini
Oğul belə sevər, duyar!
Kimliyində ilk ünvanın –
Ağalı kənd, Biləsuvar.
Ömər Xəyyam sağ olaydı,
Qaldırararaq qədəh, badə,
Söyləyərdi: - Sağ ol, mənim
Əziz balam Hacızadə!

Xoşdur min-min oxucuya
«Dünyanı tanı» deməyin,
Haqq, ədalət soraqlayıb,
«Əfsanə hanı» deməyin,
Astaraçay körpüsünə
«Həsrətin sonu» deməyin.
Təzə nəğmə, əsər yarat,
Ötən günü, ayı yaşat
Sabaha yol gedə-gedə:
Sağ ol,gözəl yazıçımız
Əlibala Hacızadə!

*Oqtay Rza*

**GƏLMƏDİN**

Qumrular bəzədi səhni-gülşəni,
Xəyal uzaqlara apardı məni.
Seyr edirik guya çölü-çəməni,
Mehrlə, ülfətlə qoşa, gəlmədin.

Həsrət baxışlarım getdi hədərə,
Baxdıqca cığırda yad ləpirlərə.
And olsun bir zaman sənli günlərə,
Əqlim az qaldı ki, çaşa, gəlmədin.

Qələm şərik oldu dərdimə inan,
Mərhəmət naminə keçdi varından.
Sətrlər yaratdı göz yaşlarından.
Nəqş etdi divara, daşa, gəlmədin.

Vədələşdiyimiz o dəmlər hanı,
İnsafsız, unutdun əhdi, peymanı.
Dözmədi bu dərdə bağrımın qanı,
Döndü gözlərimdə yaşa, gəlmədin.

Yollara gələydi yazığın barı,
Yormuşam baxmaqdan yazıq yolları.
Yaralı buraxdın əldən şikarı,
Döndümü ürəyim daşa, gəlmədin.

Xatirə gəldikcə o dəmlər dəmi,
Calanır qəlbimə dünyanın qəmi.
Hansı bəxtəvərin oldun həmdəmi,
Rəhm etmədin mən çaşbaşa, gəlmədin.

Bənövşə intizar, boynu bükülü,
Lalənin sinədə qaldı nisgili.
Xiffətdən tutuldu qumrunun dili,
Yetişdi gül dövrü başa, gəlmədin.

Duyuldu çəməndə xəzan nəfəsi,
Nağıl bulaqların susdu nəğməsi.

Titrədi dünyanı sükutun səsi,
Döndərdi baharı qışa, gəlmədin.

Bir zaman bu xəzəl gülmüş, çiçəkmiş,
Pozulurmuş demə hər düzülən iş.
Nə çarə, gərdişin hökmü beləymiş,
Çıxırmış arzular boşa, gəlmədin.

Mən çəkə bilmədim bu dərdi-səri,
Olsa da canımda Babək təpəri.
Möhnət dənizində qəm ləpələri,
Az qaldı başımdan aşa, gəlmədin.

Ayrılıq zəhrini içdi Saraylı,
Bu yetim sevdadan keçdi Saraylı.
Dünyasından nakam köçdü Saraylı,
Sən kam al dünyada, yaşa, gəlmədin.

*Hacıbala Saraylı*
*1984*

## MƏNİ

*Yazıçı dostum Əlibala Hacızadəyə*

Məngənəyə salıb sıxır
Rəhmsiz zəmanə məni.
Ürəyimin düz başından
Alıbdı nişanə məni.

Biganələr içindəyəm,
Divanələr içindəyəm,
Viranələr içindəyəm,
Bir kimsə yox qana məni!

Tale belimi əyibdi,
İllərimi ələyibdi,
Yol yoldaşı eləyibdi
İblisə, şeytana məni.

İstəsəniz, haqsız sayın,
Döyün, lap xətrimə dəyin,
Fəqət heç vaxt bənzətməyin
Yolundan azana məni.

Aman Allah, bu adsızlar,
Bu başsızlar, qanadsızlar,
İlhamsızlar, savadsızlar
Gətirib cəzanə məni.

*Əhəd Muxtar*
*Yanvar, 1998*

## UNUTMAQ OLMUR

*Qələm dostum Əlibalaya*

Sən a doğma yurdum, a doğma diyar,
Kim səni öz oğlun, qızın tək duyar.
Gəzsəm də dünyanı mən diyar-diyar,
Vətən torpağını unutmaq olmur.

Yer ki, insanındır, insan yerindir,
Bəs niyə hər yerdən vətən şirindir.
Min bulaq görsəm də burda mən indi,
İsa bulağını unutmaq olmur.

Ürək, bu həsrətlə gəl elə yan ki,
Vətən, ayrılığın deyil asan ki,
Sən elə mehriban bir anasan ki,
İsti qucağını unutmaq olmur.

*Zamin Ağəlioğlu*

## ƏLİBALA HACIZADƏYƏ

Qəlbimə qüssə axıb birlikdə damla-damla
«Təyyarə kölgəsi»ndə «Yandırılan adam»la.

Həyat hərəkətdədir, insan qalxır, alçalır,
«Yoxa çıxmış adam»la gördüm «Sadıq əl çalır».

Saxta deyilmiş sözlər ağızlardan tökülür,
«Pəhləvan»lar ağlayır biləndə «Heykəl gülür».

«Unutmaq olmur» deyə bada verməyib anı
Dərdlərindən danışıb, dedim «Dünyanı tanı».

Yaza-yaza içməyi, ürək daş deyil, ətdi,
«Əfsanəsiz illər»də «İtkin gəlin» öyrətdi.

*Mahmud Ağəlioğlu*

## ƏLİBALA HACIZADƏNİN «QÜRBƏTİN»ŞERİNƏ TƏZMİN

Yazmıram dərdimin yüzdə onunu,
Açıram ellərə ürək qoynunu.
Ağlayır bülbülüm, andırır bunu:
«Ömrümün gülləri bükdü boynunu,
Əsdi, yaman əsdi yeli qürbətin».

Görüncə saralıb yaşıl budaqlar,
Bükübdür belini vüqarlı dağlar.
Mənim də qürbətdə günüm oldu dar,
«Başıma dağlar tək qar ələndi, qar,
Gəzdi saçlarımda əli qürbətin».

Ucaboy dağları tutsa da külək,
Qoç-ərən igidə təhəmmül gərək,
Səni görmək üçün vətənim, demək –
«Həsərtdən quzu tək mələyir ürək,
Çarə yox, hər dərdə dözəsən gərək!»

Deyirlər kefi var qürbətdə gəzmək,
Ancaq səadətdir vətəndə ölmək.
Şənindən uzaqdır elindən dönmək –
«Yağ-bal yedirtsə də ögey ana tək –
Zəhər tuluğudur dili qürbətin».

Qəfəsdən uçsaydım, gəlib görərdim,
Qızılbaş elimlə deyib gülərdim.
Ürək döyüntüsün sizə bölərdim:
«Vətənsiz dünyada, Allah, neylərdim?
Vətənə çatsaydım, olmazdı dərdim».

Ellərin dərdini yaxşı bilərdim,
Azadlıq yolunda başdan keçərdim,
Qıfıllı dilimi açıb söylərdim,
«İsti qucağında rahat ölərdim,
Axmazdı gözümdən seli qürbətin».

Sam yellər uğrunda qalıbdır şəmim,
Bitməyib əkdiyim, həm solub dənim,
Dərin dəryalarda qərq olub gəmim,
«Elin öz qəmidir mənim öz qəmim,
Eldən ayrı düşsəm, el olar qənim».

Azərbaycanımdan mən necə dönüm,
Odlar diyarıdır gülüm-gülşənim.
Səttarxan yurdudur şanlı vətənim,
«Qəbrimi qürbətdə qazmayın mənim,
Bitməsin üstümdə gülü qürbətin».

*Bəxtiyar Nüsrət*
*(İran şairi)*

## ƏLİBALA HACIZADƏYƏ

Köhnə ünvanlardan varmı bir soraq,
Çəkirmi könlünü dərə-dağ, meşə?
Nə fikrə gedibsən əlində varaq,
Yaş gəlib dirənib altmış beşə.

Yapışma tələsik dərdin atından,
Hələ çox gərəksən həyatda bizə.
Yoxdu bir inciyən zarafatından,
Sözlərin həmişə duzlu, baməzə.

Gözləyir yolunu qarşıda səksən,
Görərik «yüz»ündə payız barını.
Bilmirəm sən haçan xərcləyəcəksən,
Təzə «sevgi»lərin qanorarını.

Şirin təbəssümlü mehriban ustad,
Duyğunu tərpədir xırdaca meh də.
Dönüb şərbət olar bir an içində
Ruhuna çilənsə bir ovuc şeh də.

Taleyin heç zaman düşməsin dara,
Bir də tükənməsin təpərin, heyin.
Üstünə qol açıb gələn bahara,
Uğurlar diləyim, mübarək deyim.

*Ayaz Arabaçı*

## HACIZADƏSƏN

*Dostum Əlibalanın adı çəkiləndə nədənsə mən Əlibabanı xatırlayıram – qırx quldurdan qorxmayan Əlibabanı. Bizim Əlibala da ərəb rəvayətinin qəhrəmanı Əlibaba kimi daim haqqın, ədalətin, sədaqətin tərəfdarıdır, hətta qabağına qırx deyil, min quldur çıxsa belə*

Önünə qəzəlin Şahini gələ,
Qəzəl vurğunusan, qışın olar yaz.
Qırx quldur yerinə lap mini gələ,
Yenə ey Əlibala, sənlə bacarmaz.

Əli qeyrətlisən... Əli - şanımız,
Ey şirin nəsrimin tacı, sadəsən.
Qoca olmasan da, qocamanımız,
Hacı olmasan da, Hacızadəsən.

*Şahin Fazil*

**QƏZƏL**

*Yazıçı «əfqan» dostum Əlibala Hacızadənin*
*60 baharı münasibətilə*

Bəllidir, xeyli görübdür qoca dövran - dostu,
Dost hər ləhzə gərək eyləyə heyran - dostu.

Bu gözəl gündə qəzəl şövqü ilən vəcdə gəlib
Məşədi Əlbalanın adi qəzəlxan dostu.

Dostlarım var idi meyxanədə bir vaxt çoxlu,
Məni cəlb eyləmədə indisə meydan dostu.

Sənlə qürbətdə keçən günləri hey yad edirəm,
Olmuşuq gör neçə müddətdi ki, hicran dostu.

Qoca İran eli, əfqan eli də dostundur,
Kim görüb dost eləyə dostuna qurban - dostu.

İranın Azəribaycanda olan dostu nə çox!
İrana verdi əlin Azəribaycan dostu.

Dostların gör nə qədər, amma ki, cananın bir!
Aşiqin olmalı bir sevgili canan dostu!

Şahina, mən sıxıram Əlbalanın əllərini,
Mən kiməm? Əlbalanın köhnə bir «əfqan» dostu.

*Şahin Fazil*
*25.XII.1995*

**AY USTAD!**

*Ə.Hacızadəyə*

Atan, anan tərk edəndə dünyanı,
Səni qoydu yana-yana, ay ustad!
Tellərini qəm yelləri daradı,
Kədər doldu şirin cana, ay ustad!

Keçdi günlər, aylar ötdü dalbadal,
Qismətinə hər an düşdü qalmaqal,
Zaman səni çox eylədi halbahal,
Çəkdi çətin imtahana, ay ustad!

Sən bilmədin paxıllığın rəngi nə,
Təkəbbürü buraxmadın qəlbinə,
Sadəlikdən bəzək vurdun hüsnünə,
Bunu nadan çətin qana, ay ustad!

Yaddaşından silib atdın çox şeyi,
Dərdlərinə pərdə tutdun gülməyi,
Sən öyrətdin insanlığı sevməyi
Kitabını oxuyana, ay ustad!

Sətirlərin, misraların qatar hey…
Sözlərində dürlü mə'na yatar hey…
Oxuyanın dili bala batar hey…
Söykənibdir şanlar şana, ay ustad!

"İtkin gəlin" Əfsanətək əsirdi,
"Ayrılığın sonu yoxmuş…", nə sirdi?
Elməddinin iradəsi dəmirdi,
Gətirmisən bu cahana, ay ustad!

Calaq edib gecələri gündüzə,
Qələminlə yaratmısan "Möcüzə",
Bir "Təyyarə kölgəsi"ndə hər sözə
Bəzək vurdun xana-xana, ay ustad!

Vəfalıya mənim dedin hər zaman,
Bu "Dünyanı tanı"- dedin, ey insan!
Yaratdığın əsərlərdə qəhrəman
Örnək oldu qəhrəmana, ay ustad!

Gəl özünə "yetim" demə, amandı,
"Yurdu sevmək bir ayrıca imandı",
Hər addımda hökm eləyən zamandı,
"Var ehtiyac tək zamana", ay ustad!

*Hafiz Qaralar*

**SƏNİN**

*Yazıçı Əlibala Hacızadəyə*

Ürəkdən qələmə süzülür sözün,
İncitək rişəyə düzülür sözün.
Gülüstan içində gül üzür sözün,
Görüm titrəməsin qələmin sənin!

Sehrli ilhamın gözəl bir sənəm,
Başından aşsa da qüssə, kədər, qəm.
Qəm, kədər özü də böyük bir aləm,
Qoy sevincə dönsün ələmin sənin!

Tanrı yaratmışdır bəxtiyar səni,
Gövhər alıcısı xridar səni.
Çətin ki, el-oba unudar səni,
Ölməz sənətkarsan, nə qəmin sənin?!

*Ramiz Şıxlı*

**USTAD**

*Böyük sənətkarımız Əlibala Hacızadənin*
*70 illik yubileyi münasibətilə*

Sənəti göylərə qaldırmaq üçün
Səni Allah bizə yetirib, ustad.
Coşqun ilhamını, sonsuz sevgini
Mələklər dərgahdan gətirib, ustad.

Zəhmətin almadı öz qiymətini,
Tarix verəcəkdir düz qiymətini.
Hər adam bilməyib söz qiymətini,
Aqil gördüyünü götürüb, ustad.

İllər ovutmadı sınan qəlbini,
Eşqin atəşilə donan qəlbini.
Laləyə açmışdın yanan qəlbini,
Dərdin də lalələr bitirib, ustad.

Füzuli nə desin? – Belədir zaman,
Yaxşılar yamana verir imtahan.
Sən öz işində ol, küsmə dünyadan,
Bu dünya başını itirib, ustad.

*Füzuli Qobustanlı*
*Bakı, 01.08.2005*

**HƏMYERLİM Ə.HACIZADƏYƏ**

Hər dəfə efirdə görəndə səni,
Əfsanən od olub yandırır məni.
Hər an vəsf edirsən ana Vətəni.
Əlibala yaşayır bu saf diyarda,
Ürəkdən sevdiyi Biləsuvarda.

Sorağın səslənir əfqan elinnən,
Əfsanə ağlayır sənin dilinnən,
O boynu bükülmüş qərənfilinnən,
Büstün qoyulacaq doğma diyarda,
Suyunu içdiyin Biləsuvarda.

Tənha olmayacaq Gülağa sənsiz,
Şəhriyarı kimlər qoydu Vətənsiz?
Kəndər qalıb Ağalısız, Əmənsiz,
Qoyma saçlarını ömür ağarda,
Səninlə dağ olur Biləsuvar da.

*Əhməd Qala*

*Biləsuvar, 6 sentyabr 2005*

## KİTABIN İÇİNDƏKİLƏR

Əlibala Hacızadə və mətbuat ........ 9

Dost sözü ........ 411

ƏLİBALA QÜDRƏT OĞLU HACIZADƏ

# Ə S Ə R L Ə R İ

## X CİLDDƏ

## IX CİLD

Bakı – 2005

*Nəşriyyatın direktoru:* **Hafiz Abıyev**
*Nəşriyyat redaktoru:* **Qabil Xeyrullaoğlu**
*Korrektor:* **Sevil Varangi**
*Operator:* **İradə Həsənli**
*Çapçı:* **Mircəlal Kazımov**
*Cildçi:* **İlyas Cəlilov**

Çapa imzalanmışdır: 28.11.2005. Sifariş № 46. Formatı $84x108^{1/32}$.
Həcmi 30,25 ç.v. Tirajı 1500 nüsxə.

*Azərbaycan MEA Geologiya İnstitutu «Nafta-Press» nəşriyyatının mətbəəsi,*
*Bakı şəh. H.Cavid pr. 29 A. Tel.: 4393972*